İki Şah, İki Sultan

TRİLOGİYA

# SÜQUT

1

Hüseynbala Mirələmov

BAKI 2020



**HÜSEYNBALA MİRƏLƏMOV**

# İKİ ŞAH, İKİ SULTAN
**(trilogiya)**

# S Ü Q U T

***Birinci kitab***

Redaktorlar:
İSLAM QƏRİBLİ
SEVİNC MÜRVƏTQIZI

Bakı, «NURLAR» Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2020, 464 s.

«İki Şah, İki Sultan» trilogiyasının «Süqut» adlı birinci kitabı Azərbaycan orta əsrlər tarixinin ən keşməkeşli, ziddiyyətli dövründən – Ağqoyunlular xanədanının təşəkkülündən, dövlət quruculuğunun formalaşmasından bəhs edir. Müəllif, şair-hökmdar Qazi Bürhanəddinin, eləcə də Bayandurlar nəslinin görkəmli nümayəndələrinin – Qara Yuluq Osmanın, oğlu Cəlaləddin Əli bəyin, onun həyat yoldaşı Sara Xatunun, oğlu Uzun Həsənin timsalında real tarixi qəhrəmanların obrazlarını maraqlı bədii boyalarla ümumiləşdirmişdir. Əsər qədirbilən oxucularımız üçün layiqli bədii töhfədir.

ISBN: 978-9952-528-55-8

© H.Mirələmov, 2020

*«Ər oldur haqq yolunda baş oynaya,*
*Döşəkdə ölən yigit murdar olur...»*

**Qazi Bürhanəddin**

# Proloq

Gecə yarıdan keçib. Çöldə at oynadan dəli külək arabir adamı qorxuya salan əcaib səslər çıxarır. Fikrim orta əsrlərdə, türk tarixinin qanlı-qadalı, ata qatilli, oğul qatilli, qardaş qatilli olaylarında bu dəli küləklər kimi fəryad qoparır, ürəyim parçalanır…

Təkcə türk tarixi deyil ki… Orta əsrlərdə dünya tarixi müharibələrlə, qətllərlə, qanla müşayiət olunub. Təkcə Osmanlı və Səfəvinin deyil, Avropanın, Asiyanın ruhundan qan qoxusu gəlib: Təbriz yaxınlığında olmasa da, Parisdə Varfolomey gecəsi baş verib. Sünni-şiə qırğınları Anadolunu qan girdabında boğanda, Bəktaşi ocaqları söndürüləndə protestant-katolik ixtilafları Fransaya otuz min məzar qazdırıb. Krım xanı Dövlət Girey Moskvanı atəşə verib. Fərqli düşündüklərinə görə Avropanın inkvizisiya tonqallarında on iki milyon insan külə çevrilib. Orta əsrlər bütün dünyada həm Antixrist dövrü, həm də dünya mədəniyyətinin intibah dövrüdür. Orta əsrlər Çaldıranla yanaşı Sultan Məhəmməd, Ağa Mirək, Behzad, Memar Sinan, Varfolomeylə yanaşı Leonardo da Vinçi, Rafael, Mikelancelo, Bottiçelli və Andrey Rublyov dönəmidir.

Amma bu romanın süjeti öz dərdlərimizin çevrəsində cərəyan edəcək.

Əmir Teymur və İldırım Bəyazid… İki türk, iki hökmdar, iki sərkərdə…

1402-ci ildə Əmir Teymur İldırım Bəyazidə dörd məktub göndərərək, qayalar üzərində yerləşən əlçatmaz Kemah qalasının təslim olunmasını tələb etmişdi. İldırım Bəyazid isə Əmir Teymurun bu təklifini təhqiramiz bir şəkildə rədd etmiş, «Ey qoca köpək, məktubunda bizi qorxutmaq və hiylə ilə aldatmaq istəmisən. Osmanlı sultanlarını Əcəm padşahlarına bənzətmə!» – deyə xitab etdiyi naməni böyük fatehlə döyüşməkdən qorxmadığını göstərmək üçün «…Bu məktub əlinə keçdikdən sonra hər kim ki savaş meydanına gəlməyib qaçarsa, onun arvadı üç talaqla ondan boşansın…» şəklində yekunlaşdırmışdı.

Olan oldu…

1402-ci ilin iyulun 20-də gün qalxar-qalxmaz Dünya Fatehi ilə İldırım Bəyazid Ankara yaxınlığındakı Çubuq düzənliyində üz-üzə gəldilər. Asiya tarixinə ən möhtəşəm döyüşlərdən biri kimi həkk olunan həmin Ankara savaşında İldırım Bəyazid məğlub oldu.

Əmir Teymurun ən inanılmış ordu başçılarından Mahmud Xan İldırım Bəyazidi iki oğlu ilə birlikdə əsir götürdü. Paltarı cırılmış və palçığa bulaşmış yaralı, bədbəxt sultanı Əmir Teymurun hüzuruna gətirdilər. Bu zaman Teymurun şahmat oyununa başı qarışmışdı. O, oyunu yarımçıq saxlayıb əsirinə baxıb ucadan güldü. İldırım Bəyazid Əmir Teymurun gülməsinə kəskin reaksiya verəndə Böyük Fateh cavab vermişdi:

– Bilirsənmi, nəyə gülürəm? Allahın işinə bax! Bu böyüklükdə dünya sənin kimi bir korla mənim kimi bir topalın ümidinə qalıb!

Deyilənlərə görə, Əmir Teymur əmr etmişdi ki, əsiri dəmir qəfəsin içinə salsınlar və həmin qəfəsi dəvənin üstünə qoysunlar. Çox keçmədi qəfəsin bu cür daşınması barədə, dəmir qəfəs haqqında yeni bir əfsanə dildə-ağızda dolaşmağa başladı.

Əmir Teymurun tapşırığı ilə əsiri İldırım Bəyazidi hər gün onun yanına gətirirdilər . Əvvəl onu xoş sözlərlə və təəssüflə qarşılayardı. Daha sonra gülüb təhqir edərdi.

Anadoluda türk birliyini quran, elə atası Sultan Muradın son zəfərinə – Kosovo zəfərinə imza atan, birləşmiş xaçlı ordularını Niğboluda darmadağın edib türk tarixinin qızıl səhifələrindən birini yazan İldırım Bəyazid öz əsir taleyi ilə barışmadı və tarixi mənbələrdə yazıldığına görə, düşdüyü durumu qüruruna sığışdıra bilmədiyi üçün sultan üzüyündəki zəhəri içərək intihar etdi. Bu, tarixin qəmli gülüşü idi.

Bəyazidin əsirlikdə öldüyünü eşidəndə, Teymur ona hörmətini bildirib və ağlayıb. Bəli, böyük kişilərin və böyük müharibələrin öz qanunları var…

Əlbəttə, «indi xristianlar bayram edir, kilsələrdə zəng səslərini ucaldırlar»… Axı xaçlı ordularının Kosovadakı məğlubiyyəti Avropanın yadından çıxmamışdı. O savaşın əsas qəhrəmanı Osmanlı ordusunun sağ cinahına komandanlıq edən indiki məğlub İldırım Bəyazid deyildimi? Birləşmiş xaçlı ordularının müsəlman qüvvələri qarşısında ilk tarixi süqutu İldırımın adı ilə bağlı olmamışdımı? İndi də Ankara savaşında İldırımın məğlubiyyəti Avropanı sevindirir və Avropa Bəyazidin məğlubiyyətində öz xilasını görür, kilsələrdə gizlicə şadyanalıq keçirirdilər.

Sonralar Konstantinopol İstanbula çevrilən zamanlarda Vatikandakı Roma Papası II Pius İldırım Bəyazidin nəticəsi Fatehə məktub göndərəcəkdi. «Şərqi Roma imperatorusunuz. Lakin bu, sizin qabiliyyət və dühanıza uyğun gəlməz. Qərbin və Şərqin – bütün dünyanın sahibi ola bilməniz üçün bir damla xaç suyu bəs edəcəkdir».

Hakimiyyət üstündə qardaş qanı tökməkdən çəkinməyən türk hökmdarlarından birinin – Bəyazidin nəticəsi Fateh Sultan Mehmed xan isə bir damla xaç suyunun hesabına baş verə biləcək cahan hakimiyyəti məqamına göz yumub süvarilərini İtaliya civarına sürdürəcəkdi. Çünki o, cihad şövqünü xaç suyu-

na dəyişmirdi. Onun aləmində bir damla şəhadət qanı bir dərya xaç suyundan müqəddəsdi. Hadisələrə bir də bu aspektdən baxmaq gərəkməzmi?

Amma biz yenə də Bəyazidlə Teymura qayıdaq. Artıq Bəyazid yox idi. Amma Avropa üçün başqa bir təhlükə yaranmışdı. Xristianlıq dünya fatehinin qarşısında müdafiəsiz qalmışdı. Əgər imperatorun məşhur qaralı-qırmızılı bayrağı Avropa dünyasında görünərsə, xristian dövlətləri son günlərini saymalı olacaqdı. Xristian krallıqlarının heç nəfəs almağa cürətləri çatmırdı. Teymur təkbaşına müsəlman dünyasına hökmranlıq edirdi…

Sultan II Bəyazid, Sultan Səlim Yavuz, Uzun Həsən, Şah İsmayıl Xətai, Sultan Mehmed yalnız sülalə baxımından fərqli idilər. Amma soykökü etibarilə hamısı Oğuz xanın nəslindəndi. Əslində, türk tarixindəki böyük savaşlar – Ankara savaşı, Çaldıran döyüşü sonunda türk birliyinə doğru gedən yolların açılmasına vəsilə olurdu. Axı xanədanlar millət deyil. Bir millətin ayrı-ayrı sülalərinin qurduğu sistemləri ayrı-ayrı dövlətlər halına gətirmək yanlışlığına uymamalıyıq. Bəlkə də yanılıram… Amma… Teymurdan sonra tarixin ibrət səhnəsinə Şah İsmayıl çıxmadımı? Türk kimliklərinin fərqində olmayan Osmanlı vaqiənəvisləri ona zəmanə Əfrasiyabı demirdilərmi? Zəmanənin Alp Ər Tonqası yəni… Teymur da Alp Ər Tonqanın nəslindəndi. Çaldıran savaşı Ankara meydan savaşının, Şah İsmayılla Sultan Səlimin arasındakı qanlı ixtilaf da Əmir Teymurla İldırım Bəyazid arasındakı qanlı qırğının davamı idi. Qardaş qırğını… Teymurilərlə Osmanlılar, Osmanlılarla Səfəvi şəcərəsi arasında mübhəm bağlar var idi. Hətta tarixin uzaqlarında qalmış kaspilərlə Qayı boyu arasında qohumluq tellərinin olması da sirr deyil… Həm də sirrdir. Amma müharibə, hər halda, müharibədir. Hələ üstəlik o savaşlarda qardaş qanı axırsa, axıdılırsa…

Çaldıran döyüşü… Ərazisi üç milyon kvadrat kilometrdən artıq bir dövlətin süqutu!

Böyük tarixin qarşısında yenə də eyni səhvlər…

Sultan Səlim taxta çıxdıqdan sonra Şah İsmayıl ona etinasız yanaşdı. Axı, böyük bir zaviyənişinin, kəramət sahibinin nəvəsiydi. Səfəvilərin Anadoluda öz məzhəbi inanclarını yayması, Anadoluda Səfəvilər ilə Osmanlılar arasında baş verən döyüşlər Sultan Səlimi bərk qəzəbləndirdi. Bəlkə elə buna görə, Sultan Səlim Şah İsmayıl ilə döyüşmək üçün Şeyxülislamdan fətva istədi. Şeyxülislam da Səfəvi şiələrinin qanı, malı, arvad və uşaqlarının halal olması haqqında fətva verdi.

Oğlu Süleymanı yerinə təyin edən Səlim, Ədirnədən şərqə doğru hərəkət etdi. Yolboyu Şah İsmayıla aşağılayıcı məktublar göndərir, onu təhdid edir, itaət etməsini istəyirdi.

Bütün bu təhqiramiz məktublar qarşısında isə Şah İsmayıl insanlıq qayda-qanunlarından kənara çıxmır və Sultan Səlimə tərki-ədəbin sultanlara yaraşmadığını bildirir. Daxilən nə qədər sıxıntı keçirsə, qeyzlənsə də özünü toparlayırdı.

«Uşaq şah» sözləriylə başlayırdı elçilərin gətirdiyi məktublar. Əvvəllər Şərqdən Şeybani xan hədələdiyi kimi, indi də Qərbdən Osmanlı sultanı hədələyir, təhqirə əl atır, ona dərviş əcdadlarını xatırladır, ələ salırdı. Sultan Səlim ona dərviş paltarı, dərviş kəşkülü, dərviş əşyaları göndərirdi.

Yəni ki, «sən hara, şahlıq hara, sən get dədə-babaların kimi dərvişliyini elə…» Necə ki, Şah İsmayıl Şeybaninin təhdidlərini cavabsız buraxmadı, göndərdiyi dərviş kəşkülünü əvəzsiz qoymamış «Sən sədəqə toplayan dərvişlərin övladısan» eyhamının qarşılığında dörd il əvvəl Amudəryanın sahillərinə qədər qoşun çəkib Şeybaninin başını bədənindən üzmüşdü. Azərbaycanın sərhədlərini Bağdaddan Orta Asiyaya qədər genişləndirmişdi. Şeybaninin içinə saman təpilmiş baş dərisini Səlimin atası İkinci Bəyazidə göndərmişdi. Mərv sultanının kəllə sümüyündən özü üçün qədəh hazırlatdırmışdı. Kəllədən hazırlanmış qədəhdən Muğan meyi içmişdi.

*Xətai hal çağında,*
*Haqq könül alçağında,*
*Kəbə qurmaqdan yeydir,*
*Bir könül al, çağında…*

Canını aldığı insanın kəllə sümüyündən yonulmuş piyalə ilə könül almaqdan söhbət açırdı. İbadət edirdi, səmaha daxil olurdu…

Bunu Şah İsmayılın qəddarlığı kimi yozan və yazanların əfsus ki, qədim türk savaş gələnəklərindən xəbərləri yoxdur. Olsa da bu məqamları etinaya almırlar. Guya hər şeyi bütün qaynaqları, tarixin hər cizgisini oxuyublar, amma nədənsə, məsələn, Herodotun tarixindən bixəbərdirlər… İskit savaş ənənəsinin əlamətlərindən olan kəllədən düzəldilmiş piyalə yalnız Şah İsmayılın əlində görünür. Amma tarix də şahiddir, önəmli tarix kitablarında da yazılır axı. Orta Asiya türk dövlətlərində, düşmənlərin qafatasından yapılan qədəhlərlə içki içmə adətinin nə qədər yayğın olduğu bilinməkdədir. Bu əski türk ənənəsinin bulqarlarda da davam etməsi görünür. Kurumuş Xan, imperator Nikeforun başını kəsdirib, qafatasından bir içki qədəhi yapdırıb və slav rəislərini bu qafataslarından içki içməyə zorlayıb. Kuşanlarda da eyni adət görülməkdəydi. Kuşanların əcdadları olan Yüeçiləri məğlub edəndən sonra Metenin Yüeçi yabqusunun kəlləsindən qədəh yapdırdığı da tarixdə bilinən hadisələrdəndir. Şah İsmayıl Xətai də həmin ənənənin davamçısı kimi gəlməkdəydi. «Qəbləl tarix» – türk tarixinin qədim dövrü hələ ki, tam mənası ilə sona çatmamışdı… Qardaş qardaşın başını kəsir, sonra da kəsdiyi kəllədən qədəh düzəldirdi. Çünki qalib idi…

Buna görə, yəni fərqli bir sivilizasiyada baş verənləri indiki anlamlarla dəyərləndirmək elə bizəmi qalıb? Yəni azərbaycanlı, türkiyəli yazıçılaramı qalıb? Avropanın hansısa yazıçısının tarixdən bəhs edən romanında üç yeniyetmə gəncin qanını məlhəm ola-

raq içmiş Roma Papası VIII İnnokentinin obrazına rast gəlinirmi? Gəlinməz! Amma İnnokentinin müasiri olmuş İsmayılın zalımlığı barədə söhbətlər bitib-tükənmir.

* * *

«Uşaq şah», «dərviş şah», «qaniçən şah…» Belə yazırdılar və heç fərqində də olmurdular ki, bu hədyanları ilə Şah İsmayıla onu min illərin əbədiyyətinə götürəcək ölməz beytlərini yazdırmağa vəsilə olurlar:

*Gör mənə nifrin edər düşmən, mən ondan ğəm yeməm,*
*Kim münafiqdən gələn qarğış dua nisbətlidir.*

Ta körpəlikdən onu həyat qovğalarından qalib, bəxtli hazırlayan mürşidləri belə anlatmışdılar, belə dərs vermişdilər ona. Bilirdi və yazırdı ki:

*Hər qəmişdən şəkkər olmaz, hər tikəndən tazə gül,*
*Hər keyikin göbəyindən nafəyi-tatar məst.*

Ancaq bu söz döyüşünün, bu hərbə-zorba savaşının da bir qaçılmaz sonluğu da olur axı… bu dəfə də belə oldu. Nəhayət, Çaldıran düzündə döyüş baş verdi… Şəxsi qəhrəmanlıq və şücaətinə baxmayaraq, Şah İsmayıl daha yaxşı silahlanmış və sayca üstün olan Osmanlı qoşununa məğlub olaraq geri çəkildi. Növbəti gün Sultan Səlim Təbriz şəhərinə daxil olsa da, səkkiz gün sonra şəhəri tərk etmək məcburiyyətində qaldı. Gedərkən isə bir çox mahir sənətkarları da özü ilə apardı. Sultan Səlim Qarabağda qışlamaq və növbəti yaz fəslində Şah İsmayılın işini bitirmək istəyirdi. Lakin yeniçərilərin üsyanı buna mane oldu. O, İstanbula qayıtmaq məcburiyyətində qaldı.

Çaldıran döyüşündən sonra Şah İsmayıl Xətai Sultan Səlimə iki məktub ünvanlanmışdı. Birinci məktubu aparan Əmir Siracətdin Əbdülvəhhab Sultan Səlim tərəfindən zindana atılır. Təəssüf ki,

birinci məktubun mətni tarıxçilərə hələ də məlum deyil… Osmanlı tarixçilərin iddiasına görə guya Səfəvi hökmdarı torpaqların bir qismini vermək şərtilə Taclı xanımın azad olunmasını istəyirmiş.

Şah İsmayılın zövcəsi, şahbanu Şahbigə xanımın, başqa adla Taclı bəyimin əsir düşməsi olayı qızılbaşlara nifrət edən tərəfgir tarixçilərinin əsərlərində məkrlə təqdim edilib, bunların da əsas məqsədi Şah İsmayılı aşağılamaq idi.

Hətta Çaldıran savaşından sonra döyüş meydanında xeyli qızılbaş qadınının meyitlərinin tapıldığını da yazıblar. Bunu yazanlar guya «Baciyani-Rumlar» adlandırılan qadınlardan xəbərsiz imişlər, yəsəvilikdən bəktaşiliyə qədər təriqətə mənsub qadınlar zümrəsi olmayıbmı? Bunlara qadın dərvişlər deməyiblərmi? Yəsəvilikdən üzü bəri təriqət mənsubları təkkələrdəki qadınlara bacı gözüylə baxıb. Ona görə də bunlara «Baciyani-Rumlar», yəni «Anadolu bacıları» deyiblər. Bu qadınlar da zikrə dalmış, lazım gələndə cihad meydanında savaşmışlar… İtalyan tarixçilərinin Çaldıran döyüşündən sonra meydanda «gördükləri» qadın meyitləri həmin dərviş qadınların meyitləri ola bilməzdimi?

Nə isə… Biz yenə məktublara qayıdaq…

İkinci məktubdan görünür ki, Şah İsmayıl məğlub olsa da, qürurunu sındırmır. Hətta Sultan Səlimə onunla döyüşmək fikrində olmadığını, ona görə də qoşun tədarükü görmədən məhdud sayda döyüşçü ilə onun görüşünə gəlmək məcburiyyətində qaldığını bildirir. Bu məktubda Osmanlı Sultanını qədim dostluq münasibətlərini pozduğuna görə məzəmmət edir və insanların mənafeyini qorumaq üçün ona sülh təklif edir.

Hörmətli oxucum! …Kitabı oxuduqca orta əsrlərin qan daman qırmızı rəngli səmasından başıbəlalı yer kürəsini süzəcək, bəzən ürəyin ağrıyacaq, bəzən ağlayacaq, bəzən də gülümsəyəcəksən…

Nə etmək olar? Həyat həqiqətləri budur! Sən onunla üzbəüz gələndə hər şeyi olduğu kimi dərk edəcəksən…

*Məğlubların umacağı olmur…*
*Müəllif*

Tarixdə Uzun Həsən adı ilə məşhur olan gənc döyüşçünün babası Qara Yuluq Osman pərakəndə Ağqoyunlu tayfalarının ağzını bir yerə yığsa da, ayrı-ayrı tayfa başçılarının iradəsini tam qıra bilməmişdi. Bir çox tayfa başçıları Bayandur nəslinin ağalığına dözmək istəmir, bu birliyi dağıtmaq üçün fürsət gözləyirdilər. Ömrü savaş, münaqişə, çək-çevir içərisində keçən Qara Yuluq Osman sanki hiss edirdi ki, çox yaşamayacaq. Təbiət etibarilə cəsarətli və mərdanə bir döyüşçü kimi tanınan başçı Bayandur nəslinin şanını əbədi hifz etmək üçün yollar axtarır, eyni zamanda qılıncını da qınına qoymurdu. Hədsiz qəzəblənmələr, savaşlar istər-istəməz onun səhhətində izlər buraxırdı. Elə ona görə də bir gün ya bir düşmən oxuna tuş gələcəyini, ya da Ağqoyunlu birliyini dağıtmaq cəhdində olanların hiylə torunda boğulacağını da istisna etmirdi.

Qara Yuluq Osmanın bir uzaqgörənliyi də onda idi ki, dünyaya müvəqqəti gəlmiş insanın əbədi olmadığını da yaxşı anlayırdı. Bəlkə, heç üzbəüz savaşda yox, sirkəsi tünd olan şüşə qab kimi özü-özündən çat verib öləcəkdi. Bütün bunları düşünürdü.

Düşündüyü üçün də oğlu Cəlaləddin Əlini yanına çağırıb, ona məsləhətlərini verdi. Və tapşırdı ki, bacardıqca oğlanlarını fərasətlərinə, bacarıqlarına uyğun böyütsün. Bu vaxt nəvəsi Həsənin hələ on iki yaşı var idi. Buna baxmayaraq, qaçaraqda atın belinə sıçramağı, yaşına uyğun düzəldilmiş nizəni sərrast atmağı, qılıncı şimşək kimi oynatmağı onun nəzərini cəlb etmişdi. Və elə bu uzunboylu – tay-tuşlarından xeyli fərqlənən Həsənin qəddi-qamətinə baxıb, oğlu Cəlaləddinə işarə edib: – Bunu da ki, görürsən, – dedi.

Atasının işarəsindən sonra Cəlaləddin də oğluna qürurla baxdı. Daha dili ilə bir söz deməyib, başı ilə razılığını bildirdi. Yəni «bilirəm».

Oğlunun onu başa düşdüyünü, nə demək istədiyini anladığı üçün o da razılıqla başını tərpətdi. Qara Yuluq Osman xeyli fikrə getdi. Əlbəttə, oğlunun bacarığını, kifayət qədər tədbirli olduğunu da bilirdi. Həsənin anası Sara Xatunu ev, ailə məclislərində çox diqqətlə müşahidə eləmişdi. Mübahisələr, kimin kim olduğunu təyinləşdirmək zamanında onun cəsarətli müdaxilələri, ağılagəlməyən təklifləri Bayandur nəslinin başbilənini əvvəllər təəccübləndirmişdi. Sonralar isə gəlininin belə cəsarətli, açıqfikirli olması da qəlbində qürur hissi doğurmuşdu.

«Bir erkək aslanın arxasında bir dişi aslanın dayanması çox yaxşıdır. Erkək aslan daha cəsarətli olar» – fikrini gəlininə də bildirmək istəyirdi. Ona görə də:

– Saranı bura çağırın – deyə buyurdu.

Cəlaləddin Əli yerindən qalxıb arvadını atasının hüzuruna çağırmaq üçün getmək istəyəndə babasının yanında şax durmuş Həsən cəld qapıya tərəf getdi. Elə gedə-gedə də atasına dedi: – Sən niyə gedirsən? Anamı mən çağıraram. – Bu da Qara Yuluq Osmanın nəzərindən yayınmadı: «Hər halda uşaq olsa da, çox çevik düşünür. Başçı üçün çevik düşüncə əsas şərtdir» – deyə xəyalından keçirtdi. Hələ gənc olmasına baxmayaraq, sarayda ha-

mının hörmət-izzət göstərdiyi və Sara Xatun çağırdığı qadın az keçməmiş içəri daxil oldu:

– Salam olsun Bayandur elinin ağsaqqalına!

– Salam olsun sənə və övladlarına.

Qara Yuluq Osman elə əvvəldən gəlininin ədəb-ərkanından razı idi. İndi də məmnunluqla başını tərpətdi. Daha Sara da artıq söz deməyib müntəzir dayandı. Amma sükutun uzandığını görüb dilləndi.

– İstəkli nəvəniz Həsən dedi ki, məni hüzurunuza çağırmısınız… – Saranın abır-ismətlə verdiyi sualına cavab əvəzi Qara Yuluq Osman bir də oğlunu və gəlinini diqqətlə süzüb, gözü ilə nəvəsini axtardı:

– Bəs, Həsən harada qaldı?

– Mən dedim gözləsin. Düşündüm ki, bəlkə, vacib sözünüz var.

Onsuz da Qara Yuluq Osman oğlu və gəlini ilə təklikdə danışmaq istəyirdi. Birdən Həsənin içəri girəcəyini düşündüyü üçün soruşmuşdu. Gəlsə də, onu bayıra çıxaracaqdı. İndi də gəlininin fəhminə, duyumuna sevindiyi üçün çöhrəsinə bir ılıq təbəssüm qondu.

– Bilirsiniz, övladlarım, dünya çox qarışıqdı. Oğluma sözlərimi demişəm. Səni də ona görə çağırmışam ki, hər vaxt onun dayağı olasan. Yersiz çəkinmə, ya utancaqlıq göstərib dəyərli məsləhətini əsirgəməyəsən. Hərb kişi meydanıdır. Amma o meydanda əvvəlcə ağıl döyüşür. Səni gəlin gətirəndə təkcə oğluma arvad yox, həm də bir məsləhətçi kimi, ağıl, təmkin dayağı kimi gətirmişəm.

Gənc Saranın yanaqları allandı. Sonra da ərinə tərəf baxıb: – Mənim başım onun ayağı olan yerdədi, – dedi.

– Sağ ol, qızım, bax, bunu gözləyirdim.

Bu dəfə də Sara razılıq və bəlkə də, daha çox minnətdarlıq əlaməti olaraq başını aşağı əydi.

Həmin gün bu üçlüyün arasında çox söhbət oldu. Qara Yuluq Osman kimin sədaqətli, kimin xəyanətkar ola biləcəyini, kimin

hansı gücdə olduğunu, kimin isə boş-boş gəvəzələdiyini… bir sözlə, gələcək dövlətin sərhədlərinəcən hər şeyi müzakirə etdi.

* * *

Qara Yuluq Osman yaratdığı bəyliyi və həyata keçməmiş istək və arzularını bu dünyada qoyub getdikdən sonra Sara Xatunun ağıllı məsləhətləri çox kara gəldi. Cəlaləddin Əli sərhədləri genişləndirə bilməsə də, qoruyub saxladı. Sara Xatun görürdü ki, hələlik tayfa birliyinin gücü hərbi yürüşlər üçün kifayət qədər deyil. Ancaq bu gücü sarsılmağa qoymamaq, kiçik bəyliyin nüfuzunu daha da gücləndirmək və doğru zamanı gözləmək lazım idi.

Əri – Cəlaləddin Əli dünyadan köçəndə artıq Uzun Həsən adı ilə tanınan, demək olar ki, bəyliyin hərbi işlərinə rəhbərlikdə ad çıxartmış oğlu iyirmi yaşın içindəydi. O, görürdü ki, Həsən hansı sərhəddə nə qədər güc saxlayır. Və bu gücün nədən ibarət olduğunu, təhlükənin hansı səviyyədə olduğunu o, çox yaxşı bilir.

Ətrafdakı təhlükə mənbələrini Həsən özü müşahidə edirdi. Onların gücünü də öyrənirdi. Amma Sara Xatun buna qane olmurdu. Özü də gizli casuslar saxlayır, onları ətraf əyalətlərə göndərir və elə onların vasitəsilə də ayrı-ayrı iddia sahiblərinin niyyətlərini, mövqelərini aldığı məlumatlar əsasında dəqiqləşdirirdi. Hər dəfə də oğlu ilə məşvərət zamanı onun verdiyi məlumatlar daha dərin və mükəmməl olurdu. Faktiki olaraq bir neçə ay bəyliyin həm daxili siyasəti, həm də bütövlükdə, idarə olunması Sara Xatunun ixtiyarında olmuşdu. Amma o, yaxşı bilirdi ki, belə davam edə bilməz. Çünki ayrı-ayrı tayfa əmirləri, lap elə Bayandur nəslinin Həsəndən böyük güc sahibləri müxtəlif yollarla hakimiyyəti öz əllərinə keçirmək istəyirlər. Bunun üçün onlar gələcəkdə nələrin olacağını düşünmədən niyyətlərini gerçəkləşdirmək üçün fürsət gözləyən qonşu hakimlərlə də əlaqə saxlamaqdan çəkinmirdilər. Bütün bunları da Sara Xatun daxili kəşfiyyatı ilə öyrənir və nəzarətdə saxlayırdı. Hər halda Sara Xatun hərbçi deyildi. Düşmən

qüvvələr onu bir qadın kimi görürdülər və bu da onlara müdaxilə üçün şirnikləndirici bir istək bəxş edirdi. Bir qadının başçılığı ilə yaşayan və güclənməkdə olan bəyliyi tanımaq belə istəmirdilər. İndi Sara Xatun gördü ki, onun gözlədiyi zaman gəlib çatıb.

* * *

Amid bəyliyinin sarayı o qədər də təmtəraqlı deyildi. Amma nə qədər olmasa da, bütün bəylik bu təmtəraqlı olmayan saraydan idarə olunurdu. Ayrı-ayrı tayfa birliklərinin başçıları, əmirləri də Saranın oğlanları ilə danışıqlara üstünlük verirdilər. Kimə kim sərfəli idi? Və demək olar ki, təhlükə artıq qapının ağzınacan gəlib çıxmışdı. Çünki məşvərət üçün bir yerə yığışanda oğlanlarının da mübahisələri və barışmazlığı açıq-aşkar duyulurdu. Sara Xatun oğlanlarının məşvərətinə həmişə axırda gələrdi. Buna da özü imkan yaradırdı. Onların bir-birinə münasibətini daha aydın duymaq və görmək üçün.

Sara Xatun çox fəhmli qadın idi. Özü qəsdən gözləyir, hər kəsin öz iddiasının açılacağı bir məqamı hiss edir və həmin anda qapını açıb içəri girirdi. Beləcə, əllər qılıncın qəbzəsində donurdu. Onu da yaxşı bilirdi ki, elə sarayın içindəcə bu üçlüyün arasındakı savaşda Həsən iki qardaşının qabağında sözünü yeməz və əl tərpədənin də əlini qılıncı ilə bir anda üzərdi. Ancaq buna yol vermək olmazdı. Sara Xatun da bu məqamı heç vaxt ötürmürdü.

…Tərəfdarlarına güvənib bir-birinə qarşı gedən qardaşlar hələ ki, öz aralarında razılığa gəlməmişdilər. Necə ki, sarayda üçtirəlik vardı, bu üçtirəlik qoşunun da içində hiss edilməkdəydi.

Bir ana kimi Sara Xatun hər üç oğlunu sevirdi. Onun qəlbində hər oğlunun öz yeri vardı. Ancaq burada təkcə analıq hissi kara gəlmirdi. İndi müxtəlif tərəflərə çəkən oğlanlarını bir yerə yığıb, onların güclərini bir məcraya yönəltmək vacib idi.

– Hə, oğlanlarım, sizin hər biriniz eyni dağın köksündən qaynayıb çıxan bulaqsınız. Hərəniz də bir tərəfə axmaq, qabağınıza

çıxan selabla irəliləmək istəyirsiniz. Amma üçünüz bir vadiyə yönəlsəniz, gurhagurla axan dağ çayına dönərsiniz. Onda sizin qabağınızı heç nə, heç kim saxlaya bilməz. – Bu sözlər bir ananın yox, uzun illər ərzində idarəetmə işlərindən baş çıxaran bir siyasətçinin, yetkin bir diplomatın sözləri idi. O, sözünə ara verib oğlanlarına nəzər saldı. Onların hər üçü başını aşağı dikmişdi. Sara Xatun sözlərinin təsirini artıq öz gözləri ilə görürdü.

– Hə, niyə dayanmısınız? Çıxarın qılınclarınızı, mənim gözlərimin qabağında vuruşun, göstərin hünərinizi ananıza.

Deyəsən, oğlanları ananın bu kinayəli sözlərindən lap xəcalət çəkdilər. Heç biri başını yuxarı qaldırmağa cəsarət eləmirdi. Bu sükut savaşının sirli örtüyünü ananın amiranə səsi kəsib-doğradı:

– Oturun, – bu qəzəbli, amiranə görkəm almış dişi aslanın rəngi avazımışdı. Birinci Həsən əlini qəbzəsindən tutduğu qılıncdan çəkdi. Sonra da o biri qardaşları. Əyləşdilər. Sara Xatun hələ də onun gözlərinin içinə baxa bilməyən oğlanlarını ayrı-ayrılıqda bir-bir süzdü. Heç kim danışmırdı. Arada bir daş sükutu vardı. Və yenə Sara Xatun divardakı Amid bəyliyinin xəritəsi əks olunmuş dana dərisini göstərdi:

– Budur sizin bəyliyiniz. Bircə dana dərisinə güclə sığışır. – Yenə heç kim dinmədi. Oğlanları bir-birinin üzünə baxırdı. Sara Xatun sözünə davam elədi:

– Şirvan şahlığı, ya da ki, Qaraqoyunlu tayfa ittifaqı boyda… Elədirmi?

– Hə, elədir… – deyə oğlanları təsdiq elədilər.

– Necə məsləhət bilirsiniz? Deyirəm, bəlkə, bu dana dərisini üç yerə bölək, hərənizə bir pay. Özü də nigaran qalmayın, bərabər bölərik, – dedi və yenə gözü ilə sanki oğlanlarını sınayırmış kimi diqqət verdi. Həsənin dodaqları səyridi. Alt dodağını dişlərinin arasına alıb sıxdı, ancaq heç nə demədi. Amma o biri qardaşlar heç nə deməsələr də, deyəsən bölgüdən razı qalmışdılar. Yerlərində qurcalandılar. Amma analarının əsl niyyətini bilmədiklərindən

susdular. İşin axırını gözlədilər. Beyinlərində ağ ilə qaranın, yaxşı ilə yamanın qarışdığı oğullarının nə düşündüyünü bilən Sara daha kinayə ilə yox, açıq-aşkar qəzəblə nitqinə davam etdirdi:

– Buyurun, qucaqladığınız bir parça dana dərisini Qaraqoyunlulardan hifz eləyin. Davam gətirə biləcəksiniz? Dörd tərəfimiz düşməndir. Düzdür, hələlik Osmanlıların başı məğribə qarışıb, amma gör, necə asanlıqla tora düşərsiniz. Bir balaca qoşun göndərib birinizi öz tərəfinə çəkər, o birilərinizi məhv edərlər. Sonra da qalanınızın aşını bişirmək üçün onlara heç qüvvə lazım deyil. İndi gördünüz ki, bu yol bizi hara aparır? Tarixdən silinməyə. Bunumu istəyirsiniz? Bu kəskin, cana qara-qorxu salan sualların qabağında bəlkə daş dillənərdi, amma oğlanlarından səs çıxmırdı.

Gəncliyini çoxdan ötürmüş, cavanlığı da yerini müdrikliyə, kamillyə vermiş, yaşının əlli beşini geridə qoymuş Sara Xatun oğlanlarının gözünü açmaq, onlara əsl həqiqəti anlatmaq üçün bundan o yana nə eləməli idi? Birdən ona elə gəldi ki, deyəsən, kövrəlir. Oğlanlarının yanında gözlərindən bircə damla yaş çıxsaydı, özünü sınmış bilərdi. Və oğlanları – hələ dünyanın işlərindən baş çıxara bilməyən övladları da onu gücsüz sanardılar. Ona görə də iradəsinə güvənib, gözlərinə dolmuş yaşı elə gözlərindəcə qurutdu. Ancaq analıq hissinin təsirilə bir qədər mülayimləşdi:

– Hə, mənim balalarım, bu bədbəxtlik yolunu seçəkmi?

– Yox, yox, ana, nə danışırsan, – yer-yerdən səslər gəldi. Kimin hansı sözü dediyinə varmayan ananın gözlərində sevinc işığı oynadı. Amma övladlarını axıracan anlatmaq, pərakəndəlik olacağı halda nələrin baş verəcəyini bir az da açıqlamaq üçün elə həmin mülayimliklə sözünə davam elədi:

– Hər biriniz mənim canımın özü, nəfəsim, qəlbimin bir parasısınız. Gərək başa düşəsiniz ki, mən sizi qorumaq, nəslimizi daha uca görmək üçün bunları deyirəm. Mən necə razı ola bilərəm ki, sabah siz, arvad-uşaqlarınız əsir edilib zindanlara atılsın. Mən də bu yaşımda yabançıların qapısında qulluqçu olum?

– Yox! – Həsənin amiranə səsi eşidildi. Əli yenə qılıncının qəbzəsində idi. Və özündən asılı olmayaraq ayağa qalxdı. O biri qardaşları qalxmasalar da, Həsənin fikrinə şərik olduqlarını bildirmək üçün qətiyyətlə – yox, yox – dedilər.

Sara Xatuna da elə bu lazım idi. Hiss elədi ki, o biri qardaşları da Həsənin gücünə güvənmək meylindədirlər.

– Elə isə gərək mənə diqqətlə qulaq asasınız. Sizdən birinci tələbim budur. Bundan sonra bir-birinizlə hörmətlə danışın. Mübahisə edəndə fikrinizi açıq-aydın deyin. Çalışın, həqiqəti anlada biləsiniz. Bir daha sizə tapşırıram, hər hansı bir mübahisədə qılınca əl atmayın.

Sara Xatun əlini uzadıb Həsənin qolundan çəkdi. Lap yaxınında əyləşdirdi. O biri oğlanlarına da baxışları ilə nəvaziş göstərdi.

– Zənnim məni aldatmırsa, qəlbinizdən qəzəbi, düşüncənizdən kini-küdurəti silib atdınız.

– Hə, elədir, ana.

– Çox doğrudur, ana.

– Əgər hər hansı ana üç övladının arasında birlik görürsə, demək o ana xoşbəxtdir. Mən də özümü beləcə xoşbəxt sanıram. Hamınız ailəlisiniz, amma mənim üçün dünyaya gətirdiyim, Tanrının köməyi ilə boya-başa yetirdiyim sevgili balalarımsınız. Dayələrin köməyi ilə böyüsəniz də, gününüz yanımda keçib, hər birinizin xasiyyətinə, bacarığına, təbiətinə bələdəm. Bax, Üveys necə bacarıqlı ticarət adamıdır. Ölkəyə bahalı malların daşınıb gətirilməsi, sonra başqa əyalətlərə daha baha qiymətlə satışının təşkili və bunun da sayəsində çoxlu gəlir götürdüyünü bilirəm. Bunsuz qoşunu necə saxlamaq olar? Elə Cahangirin özü, saray ərkanını, qayda-qanun məsələlərini çox yaxşı bilir. Divan-dərə məsələlərində də səriştəlidir. Suçlunu günahsızdan ayıra bilir.

Sakitliyi, ümumi birlik əhvalını hiss edən Sara Xatun əsl mətləbə gəldi:

– Sirr deyil ki, qoşunun içində Həsənin böyük nüfuzu var. Həsən olmasa, ağzıqanlı sərkərdələr bir anda aləmi bir-birinə qatarlar.

Sara Xatun aramla asta-asta danışırdı. Danışdıqlarının hamısı da doğru, düzgün idi. O, sanki bu sözləri dedikcə artıq neçə illərin keçmişində qalmış Qara Yuluq Osmanın gözlərinə baxırdı. Baxırdı ki, görsün bir vaxt məmləkətin taleyini ona tapşırmış qayınatası – Bayandur elinin başçısı onun tədbirindən narazı qalmır ki?

Sara Xatun möhkəm adam idi. Ciddi məsələlərdə yalandan yumşalmağı da özünə yaxın qoymurdu. Elə indi də oğlanları bu gün bəyliyin taxtında əyləşmiş ananı yox, qətiyyətli bir hakimi gördüklərindən bir məmnunluq, bir güvənc də duyurdular. Sara da bilirdi ki, bu dəliqanlı gənclərlə, özü də müxtəlif niyyətlərlə vəd verən adamların əhatəsində olan oğlanları ilə yumşaq danışmaq olmaz. Daha onların analıq nəvazişi ilə xoşallanmaq dövrü keçib.

Bir məsələ də var idi ki, anası Həsənlə təklikdə danışmış, amma qərarını ona bildirməmişdi. Həsən isə anlamışdı ki, qardaşlarına hüsn-rəğbətlə yanaşsa, anası onu bəyliyin taxtına oturdacaq. Onsuz Sara Xatun da bilirdi ki, bəyliyi sel kimi onların üstünə gələn qara-qorxudan ancaq Həsən hifz edə bilər.

– İndi hər üçünüz də ayağa qalxın, mən istəyirəm ki, özünüz deyəsiniz. Bayandur nəslinin şanını-şöhrətini qılıncı ilə qorumağı kimə tapşıraq? Kim ölkənin ticarətini idarə eləsin? Qanun-qayda işlərinə, vergi-məmur məsələlərinə kim baxsın?

Əvvəlcə Üveys:

– Ticarət elə əvvəldən mənim boyuma biçilib… – deyib gülümsündü.

Ana oğlunun bu gülüşündə uşaqlıq vaxtının məsumluğunu duydu.

Sonra da Cahangir başını qaldırdı:

– Mənim işim ağır olsa da, zənn edirəm ki, anam mənə həmişə kömək edərsə, öhdəsindən gələrəm. Əlbəttə, əgər qardaşım Həsən mənə inansa.

Həsən irəli gəlib, qardaşlarının hər ikisinin boynunu qucaqlayıb, üzlərindən öpdü. Sonra da qılıncı çıxarıb, hər iki əlinin üstündə anasının önünə tutdu:

– Şükür Allaha, mən Bayandur nəslinin gələcək şan-şöhrətini indidən görürəm. Son nəfəsimə qədər bu birliyə xəyanət etməyəcəyəm…

Bax, bu məqamda ananın gözləri doldu və o yanaqlarından üzüaşağı mirvari damlaları kimi süzülən göz yaşlarını saxlamağa heç cəhd də eləmədi…

* * *

Qara Yuluq Osman çox bacarıqlı, qoçaq adam olduğu qədər, həm də istiqanlıydı. Bayandur nəslinin baştərpədənlərinə güvənci də yetərincə idi. Amma onun bir xasiyyəti də vardı ki, çox tikanlı adam idi. Hiss edəndə ki, kimsə arxadan ona quyu qazır, düşəndə yolunun üstünə şər tikanı əkir, beləsi ilə açıq və sərt danışırdı. Ürəyindən keçənləri dilinə gətirirdi. Bu da istər-istəməz ona çoxlu bədxahlar qazandırmışdı. Hələ bəyliyin başçısı olmazdan əvvəl axar çayın sahilində, üç tərəfi sıldırım qayalarla əhatələnmiş və vadinin yuxarı hissəsində üzüaşağı baxdıqca düzəngahları nəzərdə saxlayan bir yerdə binələnmişdi. Sonralar – bəyliyin başçısı olanda elə əsas iqamətgahını da burada tikmişdi; axar çayın yuxarı başlanğıclarında. Gur bulaqların zümzüməsi gecənin sakitliyində onun iqamətgahından da eşidilirdi. Ətraf da ki, dağlarla təbii qala kimi əhatələnmişdi. Zaman keçdikcə Qara Yuluq Osmanın razılığı ilə axar çayın o tay-bu tayında adamlar gəlib ev-eşik qurmuş, çox da böyük olmayan yaşayış məskəni salmışdılar.

Daha Qara Yuluq Osman buradan məkanını dəyişmək istəməmiş, bəyliyin mərkəzi iqamətgahını da elə burada tikmişdi.

Onun ölümündən sonra da xələfləri buranı əsas qərargahları kimi istifadə edirdilər…

* * *

…Amid bəyliyinin həmin mərkəzi iqamətgahında böyük təntənə vardı. Bu gün Uzun Həsənin bəxt çırağını Tanrı özü yandıracaqdı.

Qonşu bəyliklərdən də dəstə-dəstə qonaqlar gəlməkdəydi. Hər kəs öz adına uyğun xələt-barat göndərir və göndərdiklərini də hörmətli adamlar vasitəsilə çatdırır, hər vəchlə bu təntənədə Sara Xatunun nəzər-diqqətini cəlb etmək, ona hörmət və izzətlərini bildirmək istəyirdilər.

Mahalın hörmətli din xadimləri, ayrı-ayrı tayfaların nüfuzlu simaları bu məclisə cəmləşmişdi. Hətta iqamətgahdan kənarda – böyük bir düzənlikdə də el şənliyi qurulmuşdu. Aşıqlar oxuyur, müğənnilər bülbül kimi cəh-cəh vururdular. Qara zurnanın sədaları atlında cavanlar rəqs edirdilər.

Məclisə hədiyyə, ya qurbanlıq adı ilə göndərilən erkəklər, iribuynuzlu heyvanlar sayılıb təhvil alınır, cöngələr, buğalar nişanlanıb ətraf çəmənliyə ötürülürdü. Tarixin bu dönəmində at və dəvə də çox qiymətli töhfə hesab olunurdu. Ona görə də, hansı ürgənin kimdən gəldiyi, hansı dəvənin, daylağın kimin adını ucaltdığını bilmək də nəzarətçilərin diqqətindən kənarda qalmırdı.

Sara Xatun məxsusi olaraq tapşırmışdı ki, kimin adından nə gəlirsə, hamısı haqqında ona dəqiq məlumatlar verilsin. Çox diqqətli, sərraf nəzərli qadın göndərilən hədiyyələrlə kimin kim olduğunu və əslində, bununla, oğlunun yeni bəyliyin başçısı olmağına kimin nə dərəcədə münasibətini, rəğbətini ayırd eləyirdi.

Gün günorta yerinə qalxanda Sara Xatun oğlanlarını yanına çağırıb hələ üç gün əvvələ qədər gizli saxladığı və nəhayət, mahala elan elədiyi əsas mərasimin başlanmasına rəvac verdi:

– Hə, vaxtdır, oğlanlarım, tarix sizə qucaq açır. Babanızın ruhu başınızın üstündədir, atanızın ruhu sevinir. Sizin birliyinizlə başladığımız böyük işin və elə sizin birliyinizlə yazılacaq tarixin ilk səhifələrini artıq saray mirzəsi dəftərinə köçürməkdədir. Gəlin, qabaqca camaatla ünsiyyət quraq. Onlara mehr-məhəbbətlərinə görə təşəkkür edək. Qoy Həsənin ilk xeyir-duasını hədiyyə üçün öz sevinclərini gətirmiş insanlar versinlər.

Saray mirzəsi Sara Xatunun bu sözlərini tələm-tələsik dəftərinə köçürüb ayağa durdu. Qabaqda Sara Xatun, arxasınca da oğlanları yeriyirdi. Qapının ağzında onları gözləyən uzun, ağ saqqalı sinəsinəcən uzanmış, mahalda Əbdüləli kişi adı ilə tanınan və saray mirzəsinin dəftərində ismi Əbdülsəid kimi qeyd olunan din xadimi «Quran»ı başının üstünə qaldırdı. Əbdüləli o qədər hündür olmasa da, hər halda, öz yerini elə seçmişdi ki, «Quran» keçənlərin hamısından yuxarıda idi. Əvvəlcə Sara Xatun keçdi. Əbdüləli kişi başını iki dəfə tərpətməklə «Allah xeyir versin» – dedi. Arxasınca da Sara Xatunun oğlanları gəldikcə dediklərini və razılıq əlaməti olaraq hərəkətlərini təkrar elədi. Amma Uzun Həsən keçəndə başı «Quran»dan xeyli yuxarıda idi. Uzun Həsən əyilmədi. Əbdüləli kişi də «Quran»ı onun çiyinlərinə toxundurub «Tanrı bütün işlərinə rəvac versin, canını qorusun, ay oğul», – söylədi.

Uzun Həsən Əbdüləli kişinin «ay oğul» sözünü eşidəndə dönüb onun üzünə baxdı. Bu, həmin Əbdüləli idi ki, həm də Uzun Həsənin yazı-pozu müəllimi olmuşdu. Əbdüləli kişi ona hər vaxt rəhmli olmağı, haqsız bir əmələ yol verməməyi tövsiyə etmişdi. İndi də Uzun Həsən Əbdüləli kişiyə baxanda onun doluxmuş və mənalı gözlərindən böyük mehribanlıq oxudu. Güclə titrəyən dodaqlarının arasından çıxan sözləri də aydınca eşitdi: «Səni Allaha tapşırıram».

Bu zaman Əbdüləli kişinin xəyalından nələr keçirdi?.. Uzun illər Bayandur nəslinin cəngavəri Qara Yuluq Osmanın yanında, sonra da onun oğlu Cəlaləddin Əlinin, yəni Uzun Həsənin atası-

nın yanında din və şəriət məsələləri ilə bağlı tapşırıqları yerinə yetirsə də, həm də bu nəslin övladlarının müəllimi kimi tanınırdı.

Demək olar ki, Uzun Həsən onun gözlərinin qabağında böyümüşdü. Əvvəlcə Uzun Həsəni dərs təlimləri üçün yanına gətirəndə yaşına uyğun olmayan uzun boyuna baxıb: «Bundan nə çıxacaq? Uzunun ağlı topuğunda olar» – düşünmüşdü. Amma elə ilk söhbətdəncə onun necə dərrakəli, qəlbli bir uşaq olduğunu da duymuşdu.

– A bala, boyu Allah verir, fəhm və fərasət də Allahdandır. Ancaq gərək fəhm və fərasəti də ağılla, biliklə cilalayasan.

– Onu da sizdən öyrənərik. – Həsənin bu cavabı kişini tutmuş, dodaqlarını qapayıb – «hmm», eləmişdi. Yəni ki, ədası boyuna uyğun olsa da, danışığı yaşı ilə uyuşmurdu.

– Çox yaxşı, çox yaxşı – əlini bu uzun – caydaq oğlanın kürəyinə vurmuş, təlimə başlamaq üçün əyləşməyə yer göstərmişdi. Amma ağlına nə gəlmişdisə, bir xoş zarafat da etmək istəmişdi:

– Zaval ucaları gəzir, gərək həmişə ehtiyatlı olasan – demişdi.

– Tanrı boyu mənə ona görə verib ki, zavalı uzaqdan görəm.

– Çox gözəl, çox pakizə, ağlına bərəkallah. Hə, indi bildim ki, Qara Yuluq Osmanın çırağı sönməyəcək – öz-özünə pıçıldamışdı.

İndi Əbdüləli kişini kövrəldən yaddaşında oyanmış elə həmin xatirə idi.

…Dəstə qapıdan çıxmaqda ikən Həsən əli ilə Əbdüləli kişinin də onlarla gəlməyinə işarə elədi.

Böyük meydanın ətrafında cəmlənmiş camaat Sara Xatunu və oğlanlarını görən kimi, elə bil ki, bir himə bənd imiş:

– Başı daha uca olsun!

– Uğuruna xeyir gəlsin!

– Ayağı ruzulu, bərəkətli!..

– Qılıncı kəsərdən düşməsin!..

Yer-yerdən gələn bu səslər təkcə Bayandur tayfasının ağzından çıxmırdı. Canlarını, əhli-əyallarını, bir parça torpaqlarını,

bir sözlə, mal-mülklərini etibar elədikləri Həsənin qoruyacağına ümidli olduqları üçün hər kəs ürəkdən səslənirdi.

Sara Xatun əlini qaldırdı. Hamı bir anlığa sakitləşdi.

– Elimiz, obamız var olsun! Sizin könül xoşluğu ilə bu meydana yığışmağınız bizim də qəlbimizi şad elədi. Qəlbiniz həmişə şad olsun! Elə bu şənliyiniz, bu xeyir-dualarınız bizim üçün bəs olacaq qədər qiymətli hədiyyədir.

Camaatın içindən iri cüssəli, yaşının orta çağlarını keçməkdə olan, Bayandur nəslinə də uzaq qohumluğu çatan Uğur kişi qabağa yeridi. Qarayanız sifəti, geniş alnı, ayıq və diri gözləri, şax addımları, bir sözlə, qürurlu görkəmi cəsarətli bir şəxs olduğunu elə aralıdan təsdiq edirdi.

Uğur kişi camaatın arasından xeyli qabağa çıxdı.

– Əziz və möhtərəm Sara Xatun, insanı başı idarə edir. Dili hökm verməyə vadar edən başdır. Ayaqlar başın hökmü ilə yeriyir, əllər başın verdiyi hökmü icra edir. Biz sənin aslan xislətli, cəsarətli bir xatun olmağını yaxşı bilirik. Bu günəcən də təkcə Bayandur nəslinin yox, Qara Yuluq Osman xanədanını yox, bütün bəyliyin hörmət və nüfuzunu öz ağlınla, düşüncənlə qoruyub saxlamısan. Oğlanlarının da hər birinin xətri hamımız üçün əzizdir. Elə bilirəm ki, nəsillərinin adını uca tutduqları kimi, bəyliyin də şərəfini axıracan, mərdanəliklə qoruyacaqlar. Mən sənin oğlanlarına birlik arzulayıram. Həsəni də ki, yaxşı tanıyırıq. Ağıllı cavandır. El-obanı havayı yerə qırğına verməz. İnsanı tamaha qurban verməyin günahı Tanrı yanında heç nə ilə bağışlanmaz. Amma tamah naminə üstümüzə yeriyənlərin qabağından da geri durmaq olmaz. Nə qədər ki, Həsən bu məmləkəti hifz edəcək, bizim camaat da onu qoruyacaq.

Uğur kişinin «qoruyacaq» kəlməsindən sonra yer-yerdən səslər gəldi:

– Doğrudur, doğrudur…

– Ağamız Həsən var olsun!

– Bizi ondan, onu bizdən Tanrı ayırmasın!

Camaatın böyük şuxluqla, şadlıqla Uğur kişinin səsinə hay verməsi Sara Xatunu sevindirdiyi qədər elə Uğur kişini də fərəhləndirdi. Bu zaman anasının işarəsi ilə Həsən bir neçə addım qabağa yeridi. Uğur kişi də qollarını açıb ona doğru gəldi. Həsəni qucaqladı:

– Ay oğul, mənim bu qollarım hamının əvəzindən səni qucaqlayır. Sən bizim qəlbimizin bir parçası, canımızsan. Bu torpaqda böyümüsən, bu yerin, bu yurdun oğlusan – dedi və dönüb iki əli ilə Sara Xatuna müraciət elədi:

– Möhtərəm Sara Xatun, mənim deyəcəklərim bu idi. Ulu Yaradandan Həsənin görəcəyi işlərə rəvac diləyirəm.

Sonra da Həsənin müəllimi Əbdüləli kişi Sara Xatundan izn istədi. Xatunun razılıq bildirən təbəssümü ona düşündüklərini dilə gətirməyə güc verdi:

– Uğur kişi bəyliyin başıpapaqlılarının adından danışdı. Özüm də fikir verib gördüm ki, hamı onun dediklərinə, sevincinə şərikdir. Ancaq mən də bir-iki kəlmə deməyi özümə borc bildim. Mən bu bəyliyin sarayında uzun illərdir ki, qulluqdayam. Bu nəslin bütün övladlarına ilk yazı-pozunu da mən öyrətmişəm. Əbdüləli kişi sükutla onu dinləyən insan dalğasına baxdı, sonra da Sara Xatuna, onun yanında dayanan oğlanlarına – Üveys Mirzəyə, Cahangir Mirzəyə bir-bir nəzər yetirdi. Üveys Mirzə gözlərindən gülürdü. Bu, onun sevincinin əlaməti idi. Cahangir Mirzənin də üzündə təbəssüm vardı.

Ancaq bircə Əbdüləli kişi hiss edirdi ki, bu təbəssümün arxasında nəsə sirli bir hissiyyat gizlənib onu axıracan fərəhlənməyə qoymur. Axı Əbdüləli kişi bu cavanların hər birini yaxşı tanıyırdı. Doğrudur, Cahangir Mirzə bəyliyin daxili işlərinin sahmanda olmağı üçün heç vaxt bacarığını əsirgəməmişdi. Onun əlinin altında elə adamlar var idi ki, onların sayəsində hansı tərəfdə kim yuxusunda nə görür, – onu da öyrənə bilirdi. Beləlırindən biri də

Sələbiyyə xan idi. Əslində, onun adı Səlib bəy idi. Hiyləgərlikdə, şər toxumu əkib-becərməkdə, sonra da kefi istəyəndə şərin kökünü kəsməkdə mahir idi. Elə ona hiyləgərliyinə görə Sələbiyyə xan deyirdilər, – yəni tülkülərin xanı.

Əbdüləli kişi zəkalı adam idi. Bilirdi ki, Cahangir Mirzənin qəlbindən şübhə toxumunu silmək olsa, onun varlığını çulğalamış qəzəbi yarıda dayandırmaq, kinə-küdurətə çevrilməsinə imkan verməmək mümkün olsaydı, mahal üçün çox böyük işlər görərdi. Bəyliyi içəridən onun qədər qoruya bilən ikinci bir şəxs, demək olar ki, yox idi. Bir anlığa nəzərini Cahangir Mirzənin üzərində saxlayan Əbdüləli kişinin varlığı titrədi. Elə bil, fəhmi ona deyirdi ki, tələsmə, Əbdüləli kişi, bu dünyanın işlərini hələ bilmək olmaz. Bəli, Əbdüləli kişinin fəhmi Cahangir Mirzənin gözlərindən bunları oxudu. Amma Əbdüləli kişi də dünyanın çox gəldi-gedərini görmüşdü. Hərdən Sara Xatun onu yanına çağırıb, bəyliyin işlərindən danışıb, nəyisə müzakirə edəndə hər vaxt bu hörmətəlayiq xanıma düz söz demişdi, özü də qorxmadan, çəkinmədən. Yeri gələndə oğlanlarının kəm-kəsiri haqqında da doğru danışmaqdan vaz keçməmişdi.

– Belədir, Sara Xatun, mənim bir canım var, daha canımın qorxusundan ləyaqətimi itirib yalan danışa bilmərəm. Olanı olduğu kimi demək mənim borcumdur.

– Sağ ol, Əbdüləli kişi, mən də elə buna görə səninlə məsləhətləşirəm. Bilirəm ki, tamah dişini çoxdan çəkib atmısan. Bu dünyanın şər-xisləti də sənin varlığına yol tapa bilməyib. Sən bütün ömrünü namusla Qara Yuluq Osmana, sonra da bizə xidmətdə keçirmisən. Hələ sənin məsləhətindən ziyan görənimiz olmayıb.

Sara Xatunun həmin sözlərini elə bu andaca yaddaşında canlandıran Əbdüləli kişi Cahangirin gözlərindən gizli oxuduğu qəzəbin fərqinə varmadı, sözünü axıracan deməyi özünə borc bildi:

– Mən inanıram ki, Həsənin bir başçı kimi verəcəyi hökm şərin qabağını kəsəcək, xeyirə yol açacaq. Bir sözlə, onun qılıncı haqqa xidmət edəcək. Haqqı isə Allah insanların qəlbinə işıq salmaqla, onları düz yola, həqiqətə yönəltməklə qoruyur. Kimin qəlbində şübhə toxumu varsa, elə bu andan, bu gündən onu qəlbindən çıxarsın. Qəzəblilər qəzəbinin qabağını kəsib, kinə-küdurətə çevirməsin – Əbdüləli kişi əlində tutduğu «Quran»ı bir də başının üstünə qaldırdı, Sara Xatuna, bir də oğlanlarına baxdı. Bu dəfə də Cahangir Mirzənin canından gizilti keçdi: «Sən bu qoca kaftara bax, elə bil ki, mənim ürəyimi oxuyur».

Bir qədər onlardan aralıda, Amid bəyliyinin sarayında xidmət edən məmurlar arasında dayanmış Sələbiyyə xan əlini uzun bığlarına çəkib yana burdu. Sonra da nə düşündüsə, tez başını adamların arasında gizləyib bığlarının uclarını aşağı salladı. Cahangir Mirzə diqqətlə baxsa da onu adamların arasında görmədi. Amma bu məqam da Əbdüləli kişinin nəzərlərindən yayınmadı. Bəlkə də, sözünü başqa cür qurtaracaqdı:

– Yaşımın və başımın verdiyi imkandan istifadə edib bir də Sara Xatuna, onun oğlanlarına olan ərkimə güvənib deyirəm – Kimdə xainlik niyyəti varsa, o, tez-gec özünü göstərəcək. Amma sədaqət, hörmət-izzət, doğru yol insanın qəlbinə işıq kimi dolar, onun üzünü nurlandırar. Hamınızı gələcək xanədanımızın ucalığı naminə sədaqətlə qulluğa dəvət edirəm. Allah xeyir versin!

Sara Xatunun işarəsilə növbə Həsənə çatdı.

– Mən babam Qara Yuluq Osmanın yolunu axıracan gedəcəm. Bu yolda mənimlə birgə olanlara şan-şöhrət, əmin-amanlıq, var-dövlət çatacaq. Mənimlə birgə olmayanların çırağını isə haradan əsdiyi bilinməyən küləklər söndürəcək. Məni kimsə sizdən ayıra bilməz. Qoy sizi də məndən kimsə ayıra bilməsin.

Həsənin qısaca nitqindən sonra adamlar yer-yerdən yenə səsləndilər:

– Biz hər vaxt səninlə olacağıq.

– Canımızın, malımızın ixtiyarı səndədir.

– Onu bizimlə birgə qorumağı sənə tapşırırıq.

Sonra da «Sağ olsun», «Var olsun» səsləri yenə göylərə ucaldı. Və elə bu zaman qara zurnanın, cəngin, udun, bərbətin, neyin, sincin vadi boyu yayılan ürəkaçan sədaları altında şənlik təzədən başlandı.

Saray əyanları yenidən iqamətgahın içərisinə qayıtdı. Hər kəs öz mənsəbinə uyğun yerini tutdu. Yenə də Sara Xatunun işarəsilə Qara Yuluq Osmanın kəmərini, qurşağını Üveys Mirzə, qılıncını, qalxanını Cahangir Mirzə gətirdi.

Həsən hamının gözləri qarşısında kəməri belinə qurşadı. İndi növbə Cahangir Mirzənin idi. O, əvvəlcə qılıncı götürüb Həsənə uzatdı. Dodaqları səyriyirdi, nəsə demək istəyirdi, ancaq deyə bilmirdi. Bunu görən Sara Xatun: – Burada çoxlarınıza məlumdur, ancaq Əbdüləli kişi daha yaxşısını bilir ki, bir kimsənin zərbəsi Qara Yuluq Osmanın əlindən bu qılıncı sala bilməyib – dedi. Həsənin atası da bu qılıncı zamanınacan ləyaqətlə qorudu.

Həsən qılıncı aldı. Artıq o, bu qılıncı ikinci dəfə idi ki, öpürdü. Birinci dəfə üç ay bundan əvvəl anası ilə ilk gizli məşvərət zamanı, bir də indi. Sonra da Cahangir qalxanı götürüb Həsənə təqdim elədi.

Sara Xatun yenə sözünə davam elədi: «Bu qalxan da bu bəyliyə xəyanətlə qılınc çəkənin qabağını kəsib, xətəri sovuşdurub».

Cahangir Mirzə yerinə çəkilmişdi. Sələbiyyə xanla üzbəüz durmuşdu. Bütün məclis və məşvərət boyu Sələbiyyə xan Cahangirin arxasında gizlənməyə çalışırdı. İstəyirdi ki, heç kim onun üzünü görməsin. Yəqin qorxurdu ki, içində gizlətdiklərini gözündən oxuya bilərlər…

* * *

Möhtəşəm dövrü yetişmişdi… Zaman o zaman idi ki, Uzun Həsənin Ağqoyunluların başçısı seçildiyi elə həmin dönəmlərdə

Bizans imperatorluğu kimi nəhəng bir xanədan Osmanlılar tərəfindən çökdürülmüş, II Sultan Mehmed İstanbulu fəth edib tarixin axarını dəyişdirməyi bacarmışdı…

Və tarixin əbədiliyi fonunda aradan qısa müddət keçəcəkdi, hamının ehtiramla Həsən padşah adlandırdığı Uzun Həsən Azərbaycanın əsasında Qərbi İranın, İraqın, Kürdüstanın, Diyarbəkirin, Şərqi Gürcüstanın və digər kiçik dövlətlərin də daxil olduğu, paytaxtı Təbriz olan möhtəşəm Ağqoyunlu xanədanını quracaqdı… Bu, hələ sonralar olacaqdı… İndilikdə isə….

…Bəyliyin ticarət işlərini və eləcə də digər xarici iqtisadi əlaqələrini elə anası Sara Xatunun məsləhətilə Uzun Həsən qardaşı Üveys Mirzəyə tapşırmışdı. Az vaxt ərzində Sara Xatun Qara Yuluq Osmandan qalan qızılları dövriyyəyə buraxmış və bunun da sayəsində Üveys Mirzənin ticarət imkanları bir az da artmışdı. Sara Xatun təkcə saray maliyyəçilərinin hesablamalarına arxayın olmur, özü də gəlir-çıxarı daim nəzarətdə saxlayırdı. Artıq bəyliyin xəzinəsi kifayət qədər gəlirlə təmin edilirdi. Xəzinədə toplanılan vəsait ciddi nəzarətlə qorunurdu, yalnız zəruri hallarda əlavə xərc tələb olunanda Sara Xatunun icazəsi olmalı idi.

…Bir ilə qədər vaxt keçmişdi. Bu vaxt ərzində bəyliyin sərhədlərini qoruyan qüvvələr möhkəmləndirilmiş, məhdud sayda olsa da süvari və atlı qoşun dəstələri yaradılmışdı. Əlbəttə, bütün bunlar hələ kifayət qədər deyildi.

…Sara Xatun oğlunu gözləyirdi. Öz otağında əyləşmiş və kimsəni də yanına buraxmamağı tapşırmışdı. Adətən, bəyliyin işlərilə bağlı məsələləri müzakirəsi üçün o, özü oğlunun – Uzun Həsənin yanına gedərdi. Və bu da iqamətgahda hamıya bəlli olardı ki, mühüm dövlət məsələlərinin müzakirəsidir. Bu zaman Uzun Həsənlə anası arasındakı kiçik məşvərətdən sonra bəyliyin mühüm adamları da dəvət olunardı. Məsələnin açıqlanmalı tərəfləri haqqında onlara da məlumat verilər və müəyyən tədbirlər planı hazırlanardı.

Bəyliyin yerlərdəki nümayəndələrinə və iqamətgahın divan işlərinə Cahangir Mirzə rəhbərlik etdiyindən bütün bu kimi mühüm məsələlərin müzakirəsindən o da kənarda qalmırdı. Tədbirlər üçün ayrılan maliyyə vəsaitləri aidiyyəti adamların ixtiyarına verilirdi. Şübhəsiz, Cahangir Mirzə daha çox pay götürürdü. Və hər kəs də vəsaitin haraya, necə xərclənməsi haqqında dəqiq hesabatla Sara Xatunu inandırmalı idi.

Artıq bir neçə dəfə Sara Xatun başa düşmüşdü ki, Cahangir qədərindən artıq vəsait tələb edir. Nə qədər əsaslandırsa da hər halda Sara Xatunda bir narahatlıq qalmaqda idi. Amma məsələni açıb-ağartmırdı. Bunu oğlunun tamahı ilə əlaqələndirir və qayda-qanunlar möhkəmləndikcə Cahangir Mirzənin bu «şıltaqlıqlarının» aradan qalxacağını düşünürdü. Hər halda, hələlik Sara Xatun şübhələrini boğur, məsələnin daha qəliz olacağını özünə yaxın buraxmırdı. Bu, bəlkə də, onun analıq hissindən irəli gəlirdi. Cahangir Mirzənin də bəyliyə başçılıq iddiasında olduğunu unutmağa çalışırdı. Ancaq unuda bilirdimi?

Bu vaxt – Sara Xatun bu düşüncələrin arasından hələ qədərincə çıxmadığı bir vaxtda qulluqçu içəri girib. «Bəyliyin başçısı – oğlunuz Uzun Həsən gəlib» – dedi.

Sara Xatun taxtda yerini bir az da rahatladı: – Gəlsin.

Az keçmiş Uzun Həsən içəri girib iri addımlarla anasının hüzuruna doğru yeridi.

– Salam olsun bəyliyin şərəfinə – analar anasına!

Anasının ona doğru uzanan əlini öpüb gözünün üstünə qoydu. Sara Xatun oğluna yer göstərdi, əyləşməyi təklif elədi.

Uzun Həsən bir qədər aralıda oturmaq istəsə də, anası onu yaxına çağırdı:

– Gəl, burada, yanımda otur – dedi.

Uzun Həsən söhbətə birinci başlamadı. Çünki anası onu çağırmışdı. Əgər onun özü anasının yanına gəlmiş olsaydı, mütləq anasının səhhətini soruşar, əhvalanı bilmək istəyərdi. Axı, anası

da çox nadir hallarda onu yanına dəvət edərdi. Yaxud da elə digər oğlanlarını. Oğlanları da ananı tez-tez narahat etməzdilər. Bayramlarda, anaları haqqında bir nigarançılıq olanda onun qapısını açardılar. İndi isə…

– Hə, oğlum, vaxt yaxınlaşır. Sara Xatun bu sözləri dedi və yenə araya sükut çökdü.

Uzun Həsən arif adam idi. Onsuz anası ilə əvvəllər də – bəyliyin gələcəkdə sərhədlərini genişləndirmək haqqında söhbətləri olmuşdu. İndi onun nəyi nəzərdə tutduğunu göydə aldı.

– Ana, bilirəm, nəyi nəzərdə tutursan. Amma bu işdə tələsmək olmaz.

– Gecikmək vaxt itkisidir.

– Bizə uzaq mənzili vaxtında qət etmək üçün çoxlu at lazımdır. Öz ilxılarımızın sayını artırmaq üçün zamana ehtiyac var. Qonşu ölkələrdən hələlik at almaq imkanımız məhduddur. Həm də biz həddindən çox cins, dözümlü atları alıb gətirməli olsaq, bədxah qonşularımız bunu tezliklə hiss edəcək, hazırlıq işləri aparıldığını düşünəcəklər.

– Düz deyirsən, oğlum. – Ana daha bayaqkı kimi quru və rəsmi danışmadı. – Amma əlimizi əlimizin üstünə qoyub otura da bilmərik. İndiki vəziyyətdə bəyliyin ətrafı elədir ki, çevik süvari dəstələri bu yerlərdə bir iş görə bilər. Piyadaların ləng hərəkəti elə bəri başdan məğlubiyyətdir.

– Bəs onda nə tədbir tökürsən? – Uzun Həsən özünün düşündüklərini bir tərəfə qoyub anasının fikrini bilmək istədi.

– Mənim məsləhətim budur ki, bəylikdə bacarıqlı adamlar çoxdur. İnandığın tayfa başçılarını çağır. İmkanları birlikdə götür-qoy edin. Tapşır ki, yolunu tapıb, haya-küyə salmadan müxtəlif yerlərdən süvarilər üçün atlar alıb gətirsinlər. Sən indidən təlimlərə başla.

Onsuz da Uzun Həsən təlimlərə başlamışdı. Doğrudur, işlərin o qədər də yaxşı getdiyini demək olmazdı. Çünki orduya cəlb

eləmək istədiyi qüvvələrin bir çoxu müxtəlif bəhanələrlə çağırışdan yayınırdı. Və əlaltıdan özü öyrənmişdi ki, bəylikdəki nüfuz sahiblərinin bir çoxuna yaxın olanlar, adətən özlərini şübhəli aparanlar Sələbiyyə xanın yaxın adamlarıdır, qohumlarıdır. Orası da yaxşı məlum idi ki, sözünün qabağına söz deyilməyən Sələbiyyə xan Cahangir Mirzənin tabeliyində idi. Cahangir Mirzə bəyliyin daxili əmin-amanlığını qorumaq adı ilə ona çevik bir dəstə hazırlamağı tapşırmışdı. Və demək olar ki, Uzun Həsənin çağırışından yayınanların hamısı Sələbiyyə xanın ətrafında cəmləşmişdi. İndi bu barədə nə Uzun Həsən anasına bir söz deyə bilirdi, nə də Sara Xatun oğluna şübhələrini açırdı. Hər halda məsələnin qəliz tərəflərini ana da bilirdi, oğlu da. Sadəcə, hələ əldə tutarlı dəlillər olmadığından məsələnin üstündən sükutla keçirdilər.

…Bu vaxt Cahangir Mirzə ilə Sələbiyyə xan da üz-üzə əyləşmişdi. Elə iqamətgahın başqa bir guşəsində – Sələbiyyə xanın ixtiyarına verilmiş sakit otaqda.

– Hə, bəyliyin daxili əmin-amanlığı nə vəziyyətdədir? – Cahangir Mirzə Sələbiyyə xandan soruşdu.

– Adamlar Cahangir Mirzənin adını eşidən kimi onun cansağlığı üçün dualar eləyir, deyirlər ki, nə qədər Cahangir Mirzə var, bizim canımız və malımız əmin-amanlıqda olacaq. – Sələbiyyə xan özünəxas riyakarlıqla və həm də ustalıqla Cahangir Mirzənin könlünü xoş eləmək istədi.

Sələbiyyə xanın tülkü gözləri qıyıldı. Üzündə hiyləgər bir təbəssüm oynadı. Ancaq gözlərini Cahangir Mirzənin gözlərindən çəkmədi. İki nüfuzedici baxış bir-birinə dikilib qalmışdı. Hər ikisi bir-birinin qəlbindən keçəni gözlərindən oxumaq istəyirdi. Lap son kəlməsinə kimi. Hiss olunurdu ki, onlar bir-birindən inanılmaz dərəcədə ehtiyatlanırlar. «Kim bilir, bəlkə, elə iş çətinə düşəndə kürəyimin arasına bir nizə saplayar. Heç imkan da verməz ki, son anda mənim dilimdən çıxacaq bir həqiqəti kimsə eşitsin?» – Sələbiyyə xan düşünürdü. Amma onu da yaxşı bilirdi

ki, onun böyük ordu başçısı olmaq, qüvvələri əlində cəmləmək, nəticədə bəyliyin hakimiyyətini ələ keçirmək niyyətləri çətin ki, Cahangir Mirzəsiz baş tuta bilsin. Çünki onu da yaxşı görürdü ki, Cahangir Mirzənin anasına qarşı ikrahı, Uzun Həsənə olan nifrəti hədsizdir. Qətiyyən barışa bilmirdi ki, bu uzundraz qardaşı anasının köməkliyilə bütün hakimiyyətə yiyələnsin. Hələ Qara Yuluq Osmanın zamanında Cahangir Mirzəni Həsən Mirzə ilə birlikdə ağıllı müəllimlər yanında, ustadlar yanında elə tərbiyə eləməyə çalışırdılar ki, Cahangir Mirzə bəyliyin gələcəkdə xarici əyalətlərlə problemlərini danışıqlar yolu ilə həll edə bilsin. Bir sözlə, onu siyasətçi, diplomat kimi görmək istəyən babası da, atası da, anası da belə zənn edirdilər ki, yanılmırlar. Həqiqətən də Cahangir Mirzənin çevik düşüncəsi vardı. Fikrini çox ustalıqla gizləyə bilir, hələm-hələm onun hansı niyyətlə sözə başladığını, sonda hansı qərarı verəcəyini kimsə əvvəlcədən deyə bilməzdi. O, başdan-ayağa müəmma idi. Bunu da istər-istəməz Cahangir Mirzəni müşahidə edənlərin hər biri görürdü, duyurdu. İndi iki hiyləgər, iki tamahkar, iki gələcək hakimiyyət hərisi qarşı-qarşıya dayanmışdı. Sələbiyyə xan da az-çox ağıl, idrak sahiblərinin yanında elə Cahangir Mirzəylə, Uzun Həsənlə birgə təhsil almış, elm öyrənmişdi. Ancaq sonralar onu atası daha çox döyüşçü kimi görmək istəmişdi. Ona görə də yeniyetməlik çağlarından başlayaraq hərbi təlimlərdə iştirak edir, döyüşün sirlərini öyrənirdi. Rəqibinin gözlərinə dik baxmaq və bunun da nəticəsində gücünü diktə eləmək xislətini də atasından mənimsəmişdi.

Sələbiyyə xanın atası Yalavuz xan da Cəlaləddin Əlinin yanında qulluqda olmuş və bir müddət Amid bəyliyinin əmin-amanlığına nəzarət etmişdi. O, çox ustalıqla öz işinin öhdəsindən gəlirdi. Arabir istər qohumluq, istər dostluq münasibətilə birləşmək istəyən tayfa başçılarını asanlıqla bir-birinə qarşı qoya bilir, arasında intriqa, münaqişə yaradır, nəticədə onların birləşməyinə imkan vermir və bununla da bəyliyin daxili əmin-amanlığını qorumaqda

olduğunu Cəlaləddin Əliyə bildirməklə lovğalanırdı. Onun bu əməllərinin sonu çox pis qurtardı.

Bir dəfə tayfa başçılarının birinin yanından qayıdarkən yolda uçquna düşdü. Doğrudur, bunu təbii fəlakət kimi qələmə verdilər. Yəni ki, qar uçqunu olmuş, atlar da yarğana düşüb adamlarla birgə tələf olmuşdular. Amma çox sonralar belə bir şayiə yayıldı ki, gözdən salmaq, aravurma əməllərinə görə, başqa bir tayfanın adamları onu güdmüş, məhz həmin təhlükəli yerdən keçərkən dağdan daşları üstlərinə üzüaşağı diyirlənməklə onları tələf etmişdilər. Hər halda, bu sirrin üstü tam açılmadı.

Cəlaləddin Əli oğlu ilə dostluq edən Sələbiyyə xana toxunmadı. Və məlum olduğu kimi, Sələbiyyə xan da bəylikdə elə Cahangir Mirzənin sayəsində mühüm vəzifələrdən birini tutdu; əvvəl daxili əmin-amanlıq bölüklərinin birinə başçılıq etsə də, get-gedə qoçaqlığı, fəhmi ilə Cahangir Mirzənin sağ əlinə çevrildi.

İndi qarşı-qarşıya dayanmış bu adamların daxili aləmindən keçənləri gizləyən gözləri lap azacıq da olsa bir-birinə bu gizli mətləblərdən nə qədər hali olduqlarını çatdırırdılar. Həm də əslində: «bax ha, mən sənə axıracan inanmıram» – qənaəti də istər-istəməz üçüncü bir şəxsə yox, yalnız özlərinə aid idi. Axır ki, Sələbiyyə xan birinci dilləndi:

– Ümidin günəşi sənin üzündən doğur, igidlər igidi Cahangir Mirzə. Bu, təkcə mənimlə bərabər sənə qulluq edənlərin ümidi deyil. Bizim arvadlarımızın, gəlinlərimizin bətnlərindəki övladların da ümididir. Gələcəyimiz bircə sənə bağlıdır. İstək səndən, buyruq Allahdan, əməl bizdən – Sələbiyyə xan hiylə niqabını bir az da tündləşdirdi. Həm də o, təkcə könül xoşluğu üçün danışmırdı, bir şirnikdirici məqsəd güdülürdü bu ikibaşlı sözlərdən.

– Deyirsən, yəni adamlar ümidini bizə bağlayıb?

– Bəli, bəli, canımız-gözümüz Cahangir Mirzə. Hamı sənin qoçaqlığından danışır. Bəyliyin sənin sayəndə çiçəkləndiyini deyirlər.

– Adamlar bir tərəfə, sən özün nə iş görmüsən? – Cahangir Mirzə bu dəfə qətiyyətlə soruşdu.

– Cahanın sərkərdəsi olacaq bəyimə bildirim ki, özün tapşırdığın kimi bəyliyin iç əmin-amanlığını qorumaq adı ilə kifayət qədər güclü dəstə yaratmışıq. Doğrudur, hamısını burada saxlamaq olmur. Ayrı-ayrı yerlərdə də qüvvələrimiz var. Lazım gələn anda biz onları içəriyə çağıra biləcəyik.

– Başçılar kimdir? İnandığın adamlardımı? – Cahangir Mirzə, deyəsən, narahat olmuşdu.

Doğrudan da onun ağlına gəlirdi ki, əgər Sələbiyyə xanın ağzından bircə kəlmə sızmış olsaydı, anası Sara Xatunun hər yerdə qulaqlarını şəkləmiş adamları xəbəri göydə alar və elə həmin andaca ona çatdırardılar. Və hər şey alt-üst olardı. Buna görə də Sələbiyyə xana bir daha ehtiyatlı olmağı tapşırdı:

– Özün yaxşı bilirsən, əgər bircə kəlmə xəbər sızsa, birinci sən başını itirəcəksən. Sonra da bütün nəslin yer üzündən silinəcək.

– Necə bilmirəm, başımızın ağası? Bilməyə bilərəmmi?!. Ancaq sən də bir qədər tələs. Çünki bizim topladığımız qüvvələr tez-gec Sara Xatunun diqqətini cəlb edəcək. Onsuz da bir neçə dəstənin başçısını Uzun Həsənin tələbi ilə dəyişmişik. Bu da o deməkdir ki, biz xeyli qüvvə itirmişik.

Cahangir Mirzə fikrə getdi. Həqiqətən o, hiss edirdi ki, deyəsən, vaxt ötür. Başçıları bir-bir dəyişməklə onun ümid etdiyi qüvvələri Uzun Həsən parçalaya-parçalaya öz nəzarəti altına keçirəcək. Bütün qoşun bölmələri bir əldə cəmlənəndən sonra o, heç bir iş görə bilməyəcək.

Cahangir Mirzə dodaqlarını bir-birinə sıxıb, köhnə xasiyyətinə uyğun olaraq «hmm» elədi.

Bu xasiyyəti uşaqlıqdan qalmışdı. Hətta Uzun Həsənlə aralarında olan məşq cəngi zamanı könlündən keçmişdi ki, onun sağ qolunu vurub atsın. Amma Həsən vaxtında cəld tərpənib zərbənin qabağını almışdı. Bəlkə də Həsən o vaxt hiss etmişdi ki, bu zərbə

məşq üçün deyildi. İlk dəfə Cahangir Mirzə onda məğlub olmuş, dodaqlarını da dodaqlarına sıxıb «hmm» eləmiş və bunu da Uzun Həsən görmüşdü. Amma tez Cahangir silahı aşağı salıb qardaşını qucaqlamış «bir xətər toxunmadı ki?» – deyə soruşmuşdu.

– Yəqin hələ Allah istəmirmiş – Həsən də belə cavab vermişdi.

İndi bu sözləri yadına salan Cahangir Mirzə qətiyyətini toplamağın zamanı gəldiyini anladı. Daha dodaqlarını bir-birinə sıxıb «hmm» eləmək vaxtı keçmişdi. Artıq o, göstərişini verməli idi.

– Hə, Sələbiyyə xan, daha Allahın istədiyi vaxt gəlib çatıb.

Cahangir Mirzənin bu sözlərini eşidən Sələbiyyə xanın çiçəyi çırtladı:

– Düz bir həftədən sonra bəyliyin bütün var-yoxu sənin ixtiyarında olacaq. Buyruq Allahdan, göstəriş səndən, yerinə yetirmək bizdən – dedi.

Onlar birlikdə razılığa gəldilər. Mərkəzdən kənar yerlərdə saxlanılan qüvvələri Sələbiyyə xan ehtiyatla iqamətgahın ətrafına gətirəcək, Cahangir Mirzənin göstərişiylə qəflətən iqamətgaha hücum edəcək, iqamətgahı qoruyan qüvvələri sonuncu nəfərinədək qıracaq və iqamətgahı Cahangir Mirzəyə təslim edəcəkdi.

…Üzüntülü üç gün sakitliklə keçdi. Cahangir Mirzə ilə Sələbiyyə xanın sövdələşməsindən kimsənin xəbəri olmasa da, Sara Xatunun xəfiyyələri şübhəli bir məlumat verməsələr də, o, çox narahat idi. Artıq dördüncü gecəni, demək olar ki, o, yuxulaya bilmədi. Sələbiyyə xanın ixtiyarında olan atlı dəstələrinin yerdəyişmələri, dəstə başçılarının tez-tez müşavirəyə toplanmaları artıq onu yerindən eləmişdi. Təcili Uzun Həsənə bir də xəbər göndərdi. Yubanmadan Əbdül kişini də yanına çağırdı.

…Sıx, qatı duman vadini elə bürümüşdü ki, heç iqamətgahdan beş-on addım o tərəf də görünmürdü. Hələ üstəlik qatı dumanın şehi rütubəti xeyli artırdığından adama elə gəlirdi ki, narın yağış yağır. Belə havalarda Sara Xatunun sümükləri sızıldayırdı. Saray təbibləri məsləhət görürdülər ki, rütubətli günlərdə havaya

çıxmasın, özünü qorusun. Bir yandan da narahatçılığı, siyasi ab-havanın qarışmaq təhlükəsi Sara Xatunu sakitləşməyə qoymurdu. Adətən o, darıxanda, əlbəttə, günəşli günlərdə, sakit havalarda iqamətgahın ətrafındakı bağçaya çıxır, burada bir qədər gəzişir, eyni açılır, əhvalı düzəlirdi. İndi daha belə gəzintinin də yeri yox idi. Kənardan baxan olsaydı, təmkinli və həmişə sakit görünən Sara Xatunun otaqda necə var-gəl etdiyini, necə bir əsəbi hal yaşadığını da görərdi. Əlbəttə, heç Sara Xatun da kimsənin görə biləcəyi təqdirdə narahatlığını belə büruzə verə bilməzdi.

Saray mirzəsinin hansı səbəbdənsə adını «Əbdülsəid» kimi yazdığı Əbdül kişi ailəyə sədaqətli adam idi. Özü də Qara Yuluq Osmanın ən mahir, bacarıqlı şəxsi mühafizəçilərindən birinin oğlu idi. Anası uşaq üstə tələf olmuşdu – elə Əbdülsəid dünyaya gələndə. Uşağı da Qara Yuluq Osman onunla eyni vaxtda dünyaya gələn oğlu Cəlaləddin Əlinin anasına tapşırmışdı. Beləliklə, Əbdülsəid Cəlaləddin Əli ilə süd qardaşı olmuşdu. Qara Yuluq Osman Cəlaləddin Əlini bir süvari-döyüşçü kimi tərbiyə eləsə də, Əbdülsəidi aqil, ağıllı mirzələrin ixtiyarına vermiş, onu yaxşıca oxutmuşdu. Və zaman gəlib çatmışdı ki, Əbdülsəid də Cəlaləddin Əlinin övladlarına dərs deməli olmuşdu. Elə bu səbəbdən Uzun Həsən həmişə ona «əmi» deyə müraciət edirdi: Əbdül əmi.

Çox gözüaçıq adam idi. Onun haqqında deyirdilər ki, Əbdülsəid quru daşın üzündən də yazı oxuyur.

Belə bir məqamda Sara Xatunun onu yanına çağırması təsadüfi deyildi. Mahaldakı ab-havanı Əbdül kişi bilməmiş olmazdı.

Uzun Həsən gələnəcən Sara Xatun Əbdül kişi ilə məsləhətləşmək, onun fikrini bilmək istəyirdi.

– Salam olsun analar anası, xanımlar xanımına.

– Xoş gəlmisən, Əbdül kişi. Gözlərində işıq görürəm, işığın əskilməsin.

– Sağ olun, Sara xanım. Bəs nigarançılıq necə? Gözlərimdən bu da görünürmü?

– Deyəsən, o da var Əbdül kişi.

– Bəlkə, açıq danışaq?

– Bəs mən də səni elə buna görə çağırmışam. Sara Xatun Əbdül kişiyə üzbəüz əyləşməyi təklif elədi. – Bilirdi ki, Əbdül kişi kimi adamlar bəzən ağır məsələni təkcə söz ilə yox, gözləri ilə də anlada bilir. Ona görə də onun gözlərinə diqqət elədi.

– Sara Xatun, mən bu bəyliyin təkcə çörəyi, suyu, havası ilə böyüməmişəm. Həm də bu iqamətgahın anasının südü ilə böyümüşəm. Ərənlər ərəni igid Qara Yuluq Osmanın arvadının südü gözümdən gələr, əgər bu bəyliyə bir xətər toxunmağını istəsəm.

– Bilirəm, bilirəm – Sara Xatun təkrar elədi.

Onsuz da Əbdül uzun-uzadı danışan deyildi. Ona görə Sara Xatunun iki dəfə «bilirəm» deməyindən anladı ki, o da çox narahatdır və Əbdül kişinin qısaca danışmağını istəyir.

Bəlkə də, Əbdül kişi beynindəki bütün düşüncələrinin hamısını bir tərəfə atdı. Sara Xatunu inandırmaq üçün gördüyü, anladığı ab-havanı təfərrüatlarına qədər təsvir eləməyin əhəmiyyətsiz olduğunu qərarlaşdırıb birbaşa mətləbə keçdi:

– Sara Xatun, mən biləni bəyliyin daxili əmin-amanlığını qoruyan qüvvələrin hansısa gizli niyyəti var.

Xatun gördü ki, Əbdül kişi düz hədəfə vurur. Və onun özünün şübhələri də bu səmtdən idi… Eşitdiyi ilə düşündüyü üst-üstə düşürdü.

– Bəs, nə tədbir görməyi məsləhət bilirsən? – Əbdül kişidən soruşdu.

– Analar anası, nigarançılığınız mənə öz müşahidələrimdə yanılmadığımı deyir. Nigaranlığınızla mənə cəsarət verdiniz deyəm ki, təcili Uzun Həsən qüvvələrini iqamətgahın ətrafına toplasın. Bəlkə də bir az gecikib. İtirilən hər an böyük səhv deməkdir. Və bəzən belə səhvləri heç düzəltmək də olmur, yaxud da Allahın yardımı olsa, çox çətinliklə düzələr.

Artıq danışmağa lüzum yox idi. Birdən Sara Xatun içindən gələn güclü bir narahatlıqla yerindən dik qalxdı. Sanki ona əyan oldu ki, iqamətgahın ətrafında pis niyyətli yad qüvvələr dolanır. Təhlükə lap qapının ağzındadır. Elə dillənib «Həsən harada qaldı?» – deyə soruşmaq istəyirdi ki, içəri girən qulluqçu onun vadinin aşağı tərəfindəki düzənlikdə təlim keçən suvarilərin yanında olduğunu dedi.

– Hə, Əbdül kişi, daha sən get, özün də bir qədər ehtiyatlı ol. Yaxşı olar ki, iqamətgahdan kənara çıxmayasan.

Heç bir az keçməmiş iqamətgahın müxtəlif tərəflərindən – ayrı-ayrı yollarda dörd çapar Uzun Həsənin yanına tələsdi. Əlbəttə, mühüm xəbərlə.

Sələbiyyə xan bəyliyin mərkəzi iqamətgahından çıxan yolların hamısına gözətçi qoymuşdu. Eyni zamanda bu gözətçilər bəyliyə gələn adamların da kimliyi ilə maraqlanır, şübhəli bildiklərini Sələbiyyə xanın yanına gətirir, o da gətiriləni dindirir, danışdırır və lazım bilsə, Cahangir Mirzənin hüzuruna aparırdı. Əlbəttə, bəyliyin mərkəzi iqamətgahının gediş-gəliş yollarına gözətçi qoyulması sirr deyildi. Və bu barədə Sara Xatunun da, Uzun Həsənin də kifayət qədər məlumatları vardı. Dumanlı havada gözətçilərin gözündən yayınıb məlumatı Uzun Həsənə çatdırmaq üçün çaparlara hər cür təlimat verilmişdi. Hətta tutulacaqları təqdirdə onların nə deyəcəkləri də məlum idi.

Sara Xatun oğlanlarını evləndirmək üçün elçilər göndərmək niyyətində olduğunu Uzun Həsənə çatdırmağı və bunun üçün Uzun Həsənin təcili onun yanına gəlməli olduğunu tapşırmışdı çaparlara. Çaparlardan hər hansı birinin özünü Uzun Həsənə çatdırmağı bəs eləyirdi ki, vəziyyətin nə qədər ciddi olduğunu o, başa düşsün. Əslində, bu, bir gizli parol idi və ana ilə oğul arasında. Uzun Həsənin iqamətgahda olmayacağı halda istifadə olunması üçün düşünülmüşdü. Onsuz da hadisələrin gedişatı bəyliyin siyasi havasının qarışıq olduğundan xəbər verirdi.

Sələbiyyə xanla Cahangir Mirzənin arasındakı danışığa əsasən bəyliyin mərkəzi iqamətgahının daxili əmin-amanlıq qüvvələri tərəfindən mühasirəyə alınmasına iki gün qalırdı. Bu iki gün ərzində Sələbiyyə xan özlərinə sadiq olan qüvvələrlə həm bəyliyin mərkəzi iqamətgahının yerləşdiyi bütün vadinin mühasirəsini təmin etməli, həm də elə sarayın özünü mühasirəyə almalı idi.

Çaparlardan birini Sələbiyyə xanın adamları saxlamışdı. Çaparı Sələbiyyə xanın tələbinə əsasən onun yanına gətirdilər. Bu, Güləli adlı, ortayaşlı bir kişi idi. Əvvəllər – gəncliyində Qara Yuluq Osmana, sonra oğlu Cəlaləddinə qulluq göstərmişdi. İndi də Uzun Həsənin iqamətgahında Sara Xatunun tapşırıqlarını yerinə yetirirdi. O, heç vaxt özü ilə namə aparmazdı. Ancaq şifahi şəkildə deyilənləri dinləyər, yaddaşına yazardı. Güləli kişinin arxalığının iç üzünə bir sancaq da taxılmışdı. Bu da tapşırığın Sara Xatun tərəfindən verildiyini bildirən əlamət idi. Əlbəttə, bu məsələdən Uzun Həsənin xəbəri vardı. Yəni belə demək mümkünsə, xəbərin mötəbərliyi üçün sancaq əlavə sübut idi.

Sələbiyyə xan Güləli kişinin qıs-qıvraq görkəminə diqqətlə baxdı. Üzdən tanış gəlirdi. Lap elə tanıyırdı. Hərbi məsələlərə dəxli olmayan xəbərləri həmişə onunla ismarıclayardılar. Bu, bir qədər Sələbiyyə xanı sakitləşdirdi. Yəni vacib bir xəbər olsaydı, onu Güləlidən yox, bir qeyrisindən göndərərdilər. Amma Sara Xatunun da necə fəndgir, dərin düşüncəli və ehtiyatlı xanım olduğunu yaxşı bildiyindən çaparın görkəmindən gözünü ayıran Sələbiyyə xan soruşdu:

– A kişi, haradan gəlib, hara gedirsən?

– Ağrın alım, xan, mən tapşırıq dalınca gedirəm. İxtiyarım yoxdu deyilən sözü hər yoldan ötənə açıqlayım.

Söz Sələbiyyə xana qamçı kimi dəydi. Əvvəl-əvvəl onun mötəbər xəbər aparmadığını qənaətləyib buraxmağı, sonra da adamlarına onun arxasınca gedib uçurumun birindən dərəyə yuvarlat-

mağı tapşırmaq istədi. Ancaq yox, onu bir qədər də danışdırmaq lazım idi. Bəlkə, nəsə faydalı bir sözü oldu?.. Sonra da:

– Sən neçə ildir ki, bu bəylikdə çaparlıq xidmətindəsən. Onu da yaxşı bilirsən ki, bu bəyliyin daxili əmin-amanlığı mənim boynumadır – dedi.

– Bilirəm, xan, bilirəm.

– Bəs belə olan halda məni nə üçün yoldan ötənin biri hesab edirsən?

Güləli də çoxdanın Güləlisi idi. Belə şeyləri də çox görmüşdü. Heç, əslində, onun bir can qorxusu da yox idi. Amma havayı ölümü kim qəbul eləyər? Ona görə də xanın ağzını bir balaca boza vermək istədi.

– Yox, xan, deyəsən məni yaxşı başa düşmədin…

– Necə yəni yaxşı başa düşmədin?

– Mən gözətçiləri nəzərdə tuturdum. Yəni onlar çox istədilər ki, mən kimin tapşırığı ilə getdiyimi deyim. Mən də demədim, dedim bəlkə, elə xanı bu qəzəbləndirib. Güləli bu sözləri o qədər əmin-arxayın və inamlı dedi ki, bu əmin-arxayınlıq və inam Sələbiyyə xana da sirayət elədi.

Xan deyəsən, daha onun vacib olmayan, yəni xanın planlarına təhlükə törədəcək bir məsələ üçün yox, adi bir tapşırıq üçün getdiyinə inanmışdı. Buna baxmayraq, yenə onun üst-başının axtarılmasına göstəriş verdi.

Paltarlarının astarı, kəmərinin altı, çarıqlarının içi… diqqətəşayan nəsə bir şey tapılmadı. Arxalığı Güləliyə qaytaran qulluqçulardan biri astarınküncündə bir sancaq olduğunu gördü. Və elə arxalığın küncünücə çevirib Sələbiyyə xana göstərdi:

– Xan, arxalığın iç üzündə sancaq var.

Sələbiyyə xan yaxşı bilirdi ki, dillə deyiləsi olmayan məsələni tapşırıq alana – xəbər yiyəsinə çatdırmaq üçün əşyalardan da istifadə olunur. İndi bu sancaq məsələsi onun şübhəsini təzədən qaytarmışdı.

– A kişi, bu, nə sancaqdır?

– Ay oğul, bilirsən ki, mən daha yaşlanmışam. Birbaşa uzaq yol gedə bilmirəm, ara-bərədə dayanıb dincəlirəm.

Güləli kişi deyəsən, izahatı bir qədər aralıdan başlamışdı. Bu da Sələbiyyə xanın hövsələsini tükətdi:

– Hə, nə olsun ki?.. – sualı ilə onun mətləbə gəlişini tələsdirdi.

– O olsun ki, ay oğul – Güləli kişi Sələbiyyə xanın cavanlığını, yaşca özünün böyüklüyünü diqqətə çatdırmaq üçün «oğul» sözündən istifadə eləyirdi. Bununla da xanla arasında bir məhrəmlik hissi yaratmaq istəyirdi. Ona görə də elə həminki astagəlliklə davam elədi:

– Qabağı qaranlığa gedir. Bir ağaca daldalanıb yatıb-dincəlirəm. Bu yollarda başım o qədər çəkib ki, birdən məni qara basır. Bu sancağı da yaxama ona görə taxmışam. Bəs bilmirsən, cin-şeytan sancaqdan, iynədən Allahın adından qorxan kimi qorxur?..

Güləlinin bu qəribə məntiqi iynənin-sancağın Allahla sadəlöhv müqayisəsi Sələbiyyə xanı nəinki inandırdı, həm də ürəkdən güldürdü. Bircə dəfə əlinin arxasıyla yolu göstərdi. Yəni buraxın getsin.

Güləli kişi «Ya Allah» deyib ayağını üzəngiyə atdı və bir anda vadinin qaşında bənd tutmuş Sələbiyyə xanın quldurlarının gözündən uzaqlaşıb dumanda itdi.

…Ayrı-ayrı çaparların gətirdiyi xəbərlərin məzmununda fərqlər vardı. Əlamətlər, işarələr də başqa-başqa idi. Amma hamısının mahiyyəti eyni idi və Uzun Həsən anasının nə demək istədiyini çaparların gətirdiyi ismarıcdan və əlamət əşyalarından yaxşıca başa düşmüşdü. Hətta onu da başa düşmüşdü ki, xəbəri alandan sonra Uzun Həsənin iqamətgahı xilas etmək və nəticədə bəyliyi, son nəticədə onun özünün sərdarlığını qoruyub saxlamaq üçün çox az vaxtı qalır – bir gün, günyarım, bəlkə də, uzağı iki gün… Çünki çaparlar da xeyli yol gəlmişdilər. Və həmin yolu Uzun Həsən özü getməli idi. Bütün bunların hamısı onu qovan vaxtın

özündən gedirdi. Nə qədər çox vaxt gedirdisə, bəylik də təhlükəyə bir o qədər, bəlkə daha çox ürcah olacaqdı.

Bir-birinin arxasınca özünü çatdıran çaparların sonuncusu Güləli oldu. Və o, bir qədər gecikməsinin səbəbini – yolda saxlandığını danışdı. O biri çaparlar gözətçilərin diqqətini cəlb etməmişdi, ustalıqla keçmişdilər. Güləlinin danışdığı əhvalat isə Uzun Həsəni bir qədər artıq narahat elədi. Yəni Sələbiyyə xan nədənsə şübhələnə bilər, əlavə tədbirlər görərdi. İndi Uzun Həsənin əsas işi Sələbiyyə xanın özünü qabaqlamaq, qoşunu iqamətgahın ətrafına çəkmək idi. Bir anda dəstələrə hay verdi. Onsuz da təlimdə olan hərbi dəstələr demək olar ki, döyüşə hazır vəziyyətdə idi. Və əsasən də süvarilərdən ibarət olduğu üçün çox sürətlə hərəkətə başladı.

Bir günə Uzun Həsən özünü bəyliyin iqamətgahına çatdıra bilmişdi. Bəyliyin mərkəzinə doğru yeriyən hərbi qüvvələri görən Sələbiyyə xan onunla qarşılaşmağa cəsarət eləmədi. Doğrudur, o da qüvvələrinin xeyli hissəsini iqamətgahın ətrafında yerləşdirmiş, hətta müvafiq tapşırıqlar da vermişdi. İndi vəziyyətin belə kəskin dəyişməsi onun özünü də çaş-baş qoymuş, bir növ əl-qolunu bağlamışdı. İqamətgaha doğru hərəkət edən qüvvələrin başçılarından nisbətən az məsul olanları Sara Xatunun hüzuruna çağrılmışdılar. Əlbəttə, daha məsul olanlardan da dəvət olanlar vardı. Amma onlar gəlməmişdilər. Həmin gün bəyliyin mərkəzi iqamətgahında Sara Xatunun və Uzun Həsənin iştirakı ilə bəyliyin mühüm adamlarının müşavirəsi keçirilirdi. Hərbi dəstələr və daxili əmin-amanlıq üçün toplanmış qüvvələrdən Sara Xatuna və Uzun Həsənə sədaqətli olanların gücü ilə iqamətgahın mühafizəsi – tam təhlükəsizliyi təmin olunduqdan sonra… başqa bir müşavirə də keçirilirdi. Bu da artıq Sələbiyyə xanın özünə və Cahangir Mirzəyə sadiq olan dəstələrin cəmləşdiyi yerdə – vadidən əsas çıxışın yuxarısında. Cahangir Mirzə Sələbiyyə xana baxır, sağ əlilə tutduğu qılıncının qəbzəsini sıxır, dişləri ilə bığlarının ucunu gəmirirdi.

Heç Sələbiyyə xan özü də yaxşı görkəmdə deyildi. Onun həmişə üzü yuxarı burulmuş öküz buynuzuna bənzər bığlarının ucu sallanmışdı. Danışmağa sözü yox idi. Elə bil, nitqi tutulmuşdu. Digər ikinci dərəcəli hərbi başçılar da dinib-danışmırdılar. Birinci Cahangir Mirzə özü dilləndi:

– Hə, indi nə məsləhət görürsünüz?

Yenə daşdan-torpaqdan səs çıxmadığı kimi, müşavirədə olanlardan bir səs çıxmadı. Axır ki, Sələbiyyə xan özündə cəsarət tapıb dilləndi:

– Sərdar, sənə qurban, biz başımızı sənin yolunda qoymuşuq. İstəyirsən indi vur, istəyirsən necə ki, əlimiz tutur, sənin uğrunda vuruşaq, o vuruşda başımızı verək. – Sələbiyyə xan bu sözlərilə həm Cahangir Mirzəyə sədaqətini, buraya toplaşanların etibarını bildirmək istəyirdi, həm də Cahangir Mirzəyə tam etibar etmədiyindən bu sözlərilə canlarını qurtarmaq fikrindəydi. Düşünürdü ki, nə bilmək olar, birdən qəzəbi cuşa gəldi. Bir də gördün, anasının və qardaşının yanında özünü təmizə çıxarmaq üçün bizim hamımızı bir-bir aradan götürdü. Bir sözlə, xəyanət yükünü bizim boynumuza qoyub öz canını xilas elədi.

Cahangir Mirzə yanındakıların hamısını – sonra da Sələbiyyə xanı təzədən diqqətlə süzdü. O, bu adamların gözlərinin içinə baxıb ona axıracan sədaqətli olub-olmayacaqlarını dəqiqləşdirmək istəyirdi. Əslində, bu adamların hamısı ona inam və ümid yeri kimi baxırdı. Çünki onların geriyə qayıdası yolları yox idi. Və bunu da istər-istəməz imdad diləyən baxışlarıyla göstərirdilər.

Cahangir Mirzə fikir içində başını yerə dikib oturduğu yerdəcə torpaqda əlində tutduğu çubuqla xəritəyə bənzər cızıqlar çəkirdi. Bəlkə də çəkdiyi bu torpaq xəritənin üstündə Amid bəyliyini görürdü. Ərazini müxtəlif parçalara ayırıb, sonra ayırdığı parçaları yenə mənası özünə bəlli cızıqlarla pozurdu. Şübhəsiz, o, dərin fikirlər içərisində çabalayırdı. Bu qarmaqarışıq xətlər arasından elə bil ki, yollar arayır, bundan sonrakı taleyi üçün çarə düşünür-

dü. Onun fikir dumanlıqları arasında vurnuxduğu məqamlarda Sara Xatun öz iqamətgahında tək-tənha əyləşmişdi. Birazdan oğlu Həsənin də iştirak edəcəyi hərbi müşavirə olacaqdı. Əslində, Sara Xatuna hər şey məlum idi. Daha onun üçün örtülü heç nə qalmamışdı. O, özünü tək-tənha hiss eləyirdi. Artıq oğlanları arasında çox dərin mənəvi uçurum yaranmışdı. Bu uçurumun aradan götürülməsi, bəlkə bu uçurumun üstündən bir körpü salınması da artıq mümkün deyildi. O, için-için ağlayırdı. Və artıq bu ağlayışları gizlətmək mümkün deyildi, hüznü baxışlarından sezilirdi. Dolmuş gözlərindən üzüaşağı axan yaş yanaqlarından cığır salmış və süzülüb ətəklərinə tökülməkdə idi. Heç baş örtüyünün ucu ilə də gözlərinin yaşını qurulamırdı. Sanki özünü unutmuşdu. Oğlanlarının birliyinə olan ümidinin boşa çıxmasına, gələcəkdə bir ana kimi yaşayacağı ağrılara indidən yas tuturdu: «Axı mən sizi buna görə böyütməmişdim. Axı mən istəyirdim ki, gücünüzü, ağlınızı bir yerə cəmləyib, babanız Qara Yuluq Osmanın arzularını, istəklərini həyata keçirəsiniz. Bəs nə oldu? Niyə belə elədiniz?» Yox, Sara Xatun günahları Uzun Həsəndə görmürdü. Bütün bunlar Cahangirin hakimiyyət ehtirasından, arzuladığı hakimiyyəti qardaşına güzəştə gedə bilməməsindən törənmişdi. Sara Xatun ayağa qalxdı. Yaxındakı güzgüdə özünə baxdı. Göz yaşlarını quruladı. Özünü tox tutmağa çalışdı. Əlbəttə, o, Uzun Həsənin tərəfində deyildi, o, Bayandurlar nəslinin, Uzun Həsən timsalında quracağı dövlətin tərəfində idi. Ona görə də onun bir ana, bir qadın zəifliyini kimsə bilməməliydi. Bu düşüncələrlə Sara Xatunu gözləyən hərbi müşavirlərin otağına getdi.

…Cahangir Mirzənin heç ağlına da gəlmirdi ki, anası hansı iztirabları çəkir. Və əlbəttə, hakimiyyət ehtirası gözünü elə bürümüşdü ki, seçdiyi yoldan da peşman deyildi. O, əlindəki çubuğu torpaq üzərində cızdığı, mənası ancaq özünə məlum dolaşıq labirintlərə bənzər «xəritə»nin üstünə atdı. Başını qaldırıb bir qədər aralıda mərəkəyə toplanmış adamlara baxdı.

Sonra gəlib iri bir daşın üstündə oturdu. Ətrafındakıların da əyləşmələrinə işarə elədi. Açıq havada dairəvi bir mərəkə toplandı. Söz-söhbət çox getdi, az getdi, bunu demək olmazdı. Əsas o idi ki, «Ya Allah» deyib yerindən qalxan Cahangir Mirzə atını yaxına çəkməyi böyründə hazır duran qulluqçusuna əmr elədi. Heç az keçməmiş at onun hüzurunda idi. Yüyəni atın başından yəhərin qaşına çevirən Cahangir Mirzə ayağını üzəngiyə qoyub köhlənin belinə sıçradı – üzü Diyarbəkirə tərəf yol başlayan Cahangir Mirzənin arxasınca yaraqlı-yasaqlı xeyli qüvvə gedirdi: Sələbiyyə xanın təlim görmüş döyüşə hazır qüvvələri.

Bu vaxt Sara Xatun iqamətgahın qarşısında dayanıb elə indicə müşavirədən çıxan adamlarla birgə vadidən çəkilməkdə olan dumana – açılan göy üzünə baxırdı. Əlini də qaşlarının üstünə qoymuşdu. Günəş boyaboy qalxmış, ətrafı tamam nura qərq eləmişdi. Uzun Həsən də anasının yanında idi. Sara Xatun əlini qaşlarının üstündən götürüb günəşə tərəf uzatdı:

– Bir bax, gör necə parıldayır, üzündə bir ləkə də yoxdu. Bu, sənin sərdarlığının bəxt güzgüsüdür, üzünə gülür. Yaxşı əlamətdir, oğul, işin avand olsun.

Hər kəs öz işinin arxasınca getdi.

Sələbiyyə xan bir neçə gün, bəlkə daha çox götür-qoy etmiş, bu işin nə ilə nəticələnəcəyini düşünmüşdü. Necə deyərlər, həm xeyirə, həm şərə. Əgər Cahangir Mirzə mübarizələrində israrlı olacaqdısa, hakimiyyət uğrunda davasını axıracan çəkmək qəsdindən dönməyəcəkdisə, onda elə onun Cahangir Mirzənin yanında olmağı daha əfzəldi. Çünki Sələbiyyə xan yaxşı bilirdi ki, artıq Sara Xatun da, Uzun Həsən də onun kimliyini kifayət qədər aydın görürlər. Artıq Sələbiyyə xanın Amid bəyliyində nəinki bir mənsəb tutması, qulluq sahibi olması, heç sakit, səssiz bir kəndin bucağında binələnməsi də mümkün deyil. Onsuz da Cahangir Mirzənin də ixtilafının səbəbkarı kimi ancaq onu görəcəkdilər. Demək, düz eləyib. Bu xaraba dünyada hakimiyyət uğrunda qan-

ların sel kimi axdığı bir zamanda Sələbiyyə xan da başını birtəhər qoruyub saxlamalı idi.

Cahangir Mirzə qabaqda gedirdi – atın belində. O, demək olar ki, atını dəhmərləmir, sürətini artırmırdı. Cahangir Mirzənin atı səllimi getdiyi üçün digərlərinin də atları başına buraxılmışdı. Kimsə cürət edib, Cahangir Mirzənin atını keçmək fikrində deyildi. Eləcə də Sələbiyyə xanın özü və atı sanki bu dünyanın işlərinə müdaxilə etdiklərindən peşman kimi bir-birinə sığınmışdılar; at Sələbiyyə xana, Sələbiyyə xan da ata. Başqa vaxt olsaydı, Sələbiyyə xan atın cilovunu çəkər, ona bir qamçı vurar, yolboyu irəliyə-geriyə səyridib dəstənin nizamına düzəliş verərdi. Amma indi döyüşə girmədən məğlubiyyəti görüb və bu məğlubiyyətin az qala ölümlə nəfəs-nəfəsə gəldiyini hiss edəndən sonra dəstənin naməlum istiqamətə hərəkəti ümidlərinin bəri başdan puçluğundan xəbər verirdi.

Hakimiyyət ehtirası ümidsizlik girdabında boğulduqca, bu ehtirasın Cahangir Mirzənin varlığını səfərbər eləmiş gücü də öləziməkdə idi. O, qardaşına arxa çevirmişdi. Ən başlıcası, onu böyüdüb, araya-ərsəyə gətirmiş anasına xəyanət eləmişdi. Və Cahangir Mirzənin anasına arxa çevirməsi eyni zamanda bütün Amid bəyliyinə, babası Qara Yuluq Osmanın vəsiyyətlərinə, Bayandur nəslinin kişilik qanunlarına arxa çevirməsi idi. Nə qədər hakimiyyət ehtirası onu şirnikdirsə də, daxilən bir əzab da çəkirdi, lakin nə qədər əzab çəksə də, son nəticədə özünün hakimiyyətə daha çox haqqı çatdığını düşünürdü. Bu da onun bəsirət gözlərini bağlayır, düzgün nəticə çıxartmağa, soyuqqanlı qərar qəbul etməyə imkan vermirdi. Əlbəttə, Sələbiyyə xan və ayrı-ayrı mənsəb tutmaq, var-dövlət yığmaq, torpaq sahələri ələ keçirmək istəyində olan tamahkar adamların onun qılığına girməsi də az rol oynamırdı. Cahangir Mirzə hələ dəqiq bilmirdi ki, bu yol onu haralaracan aparacaq, ömrün hansı vaxtlarınacan qoruyub-saxlayacaqdı… Yalnız onu bilirdi ki, tez-gec bu hərəkətlərinin müqabilində üzbəüz döyüş

meydanında cavab tələb olunacaq. Bax, o cavabı Cahangir Mirzə layiqincə vermək üçün onun daxilindən baş qaldıran peşmançılıq və ümidsizlik kimi kor ilanları özü boğa bilməli idi. Amma hiss eləyirdi ki, ümidsizlik get-gedə onun varlığına hakim kəsilir. Birdən Cahanşah onun köməyinə bel bağlamağa rəvac verməsə, necə olacaq? Neçə vaxtdan bəri Amid bəyliyinin xəzinəsinə gələn pullardan Sələbiyyə xanın köməyi ilə mənimsəyib, topladığı gizli xəzinənin yarısını Cahanşaha təklif eləsə, o, bununla razılaşacaqmı? Onsuz da Sələbiyyə xanla söhbətində Cahanşaha verəcəyi məbləği müəyyənləşdirmişdilər və Cahanşah da bunun müqabilində onlara canlı qüvvə ayırmalı idi. Pis orası idi ki, onlar hələ Cahanşahla razılaşmamış bu qənaətləri, gələcəkdə olacaqları bugünün həqiqətləri kimi qəbul etmişlər. Hər halda, Sələbiyyə xan inandırmışdı ki, onsuz da Cahanşahın başqa yolu yoxdur. Uzun Həsənlə qarşılaşmaq üçün biz onun əlinə göydəndüşməyik. Yalnız bizim vasitəmizlə o, Uzun Həsənə dov gələ bilər, çünki qonşu dövlətlərlə burun-buruna münaqişədə yaşayan Cahanşah onsuz da Uzun Həsənlə döyüş üçün ayrıca qüvvə verə bilməz. Kömək isə başqa məsələ. Bəd ayaqda Cahanşah Cahangir Mirzənin özündən də keçməyə hazır olacaqdı. Bütün bunlar Cahangir Mirzənin xəyalından keçən məsələlər idi. Bir vaxt müəlliminin Sədidən öyrətdiyi hikməti yadına saldı: «Dünyanın işləri zənci saçı kimi bir-birinə qarışıb». Amma bu qarışıq hiylə, kələk meşəsinin arasından da keçmək üçün bir cığır olmamış deyildi. Birdən nəsə Cahangir Mirzənin qəlbində hansısa bir ümidin işığı yandı. Bəd ayaqda anası Cahangir Mirzəni edam etməyə imkan verməz. Və Uzun Həsən yəqin ki, anasının sözündən çıxmaz. Bunları düşündükcə Cahangir Mirzənin o da ağlına gəlirdi ki, atı döndərib Uzun Həsənin yanına sürsün. Anasının qabağına dizi üstə sürünə-sürənə getsin. Bağışlanmağını diləsin. Özünə və hamıya əmniyyət alsın. Ancaq yadına düşəndə ki, heç vaxt o, sərdar olmayacaq, ömrünü xəcil bir əhvalla yaşayacaq, həmişə diligödək

olacaq, bax, bunu özünə sığışdıra bilmirdi. Elə ona görə də varlığından gələn daxili bir qəzəb onun bütün ruhunu səfərbər elədi. Dabanları ilə atın böyürlərini mahmızladı, cilovu da üzülməkdə olan ümidlərinin ipi kimi ovcuna yığdı. Yox, daha bundan o yanası yoxdur. Qaradan artıq nə rəng? Bayandur nəslindən ona da inananlar çoxdur. Bu vaxt Sələbiyyə xanın bir planı da onun yadına düşmüşdü: «Uzun Həsənin qoşununun içərisinə adamlar göndərmək, inandırıb, öz tərəfinə çəkmək, hətta qarşılaşma olarsa, bütöv bölüklərin silahlarını Uzun Həsənə qarşı çevirməyə hazırlamaq». Bu da bir tədbir idi. Hər şeydən olmasa da, Sələbiyyə xanın belə məsələlərdən yaxşı başı çıxırdı. Bircə Diyarbəkirə tez çatsaydılar. Cilovu çəkilmiş at fınxırdı, dal ayaqları üstə şahə qalxdı və hündürdən kişnədi. Bu kişnərti səsi bütün dəstənin içərisinə səfərbəredici bir ruh gətirdi. Diyarbəkirə az qalırdı…

Sələbiyyə xan tədbirli adam idi. Baxmayaraq ki, onun tədbirli olmağı Amid bəyliyini boğmağa yönəlmişdi və bu da mümkün olmamışdı. Amma hər halda Cahangir Mirzəylə təkbətək söhbətində hansı tərəfə yön tutmağın da təhərini göstərmiş, son anda Cahanşaha sığınmağın mümkünlüyünü də işarələmişdi.

Arxada da keşikçi qüvvələr qoymuşdu. Əgər onları təqib edən atlı dəstələri olsaydı, növbə ilə xəbərlər çaparlardan bir-birinə ötürülməklə Sələbiyyə xana, nəticədə Cahangir xana çatacaqdı.

…Geridə, Ağqoyunlu bəyliyinin mərkəzi iqamətgahında mühafizənin kifayət qədər güclü olduğuna əminlikdən sonra Uzun Həsən anası ilə eyvanın bir tərəfində xalı-xalça üstündə qoyulmuş döşəkçəyə dirsəklənib söhbətləşirdi. Əslində, buna söhbətləşmək də demək olmazdı. Bəyliyə xəyanət eləyib, qüvvələrin xeyli dəstəsini də cəmləyib aradan çıxmış Sələbiyyə xanı və onun fitvasına uymuş Cahangir Mirzəni yaxalamaq və cəzalandırmaq üçün yollar axtarırdılar. Uzun Həsən xüsusilə fikir verirdi ki, anası ciddi-cəhdlə Cahangir Mirzəni təqib etməyin tərəfdarı deyil.

– Oğlum, o, sənin qardaşındır – Sara Xatunu yenə analıq duyğuları dilə gətirdi. Sonra da Uzun Həsənə diqqət elədi, onu dinləyib-dinləmədiyinə diqqət yetirdi. Uzun Həsən təəssüflə anasını dinləməkdə idi. Ona görə də Sara Xatun sözünə davam elədi: – Baxma ki, düşmənin fitvasına uyub, bəlkə elə düşmənin torundan özü çıxacaq. Sən onu yaxşı bil ki, Cahangir Mirzəni yolundan çıxaran adamlar tez-gec onun özünə də xəyanət edəcəklər. Ancaq mən çox istərdim ki, bu xəyanət onun başında çatlamamış özü bunu görsün, duysun, anlasın.

– Ana, – Uzun Həsən anasını diqqətlə dinlədikdən sonra öz qənaətlərini açıqladı: – Mən yaxşı bilirəm ki, babamız Qara Yuluq Osmandan sonra bu tayfa birliklərini qoruyub saxlamaq sənsiz mümkün olmazdı. İndi bizim qarşımızda çox böyük imkanlar açılmaqdadır. Bəyliyin sərhədləri genişlənməkdə, gücü də artmaqdadır. Ayrı-ayrı tayfalar bizə daha çox etibar edir. Özün yaxşı bilirsən ki, Cahangirin arxasınca gedən, o qədər də çox olmayan qüvvəni darmadağın etmək mənim əlimdə su içmək kimi asan idi.

– Bilirəm, oğul, sən getmədin. Sonra da sual elədi: – bilirsən nə üçün getmədin? – Uzun Həsən anasının sualına cavab verməsə də onun qənaətini çox maraqla bilmək istədi. Anası da oğlunun diqqət kəsildiyini görüb izahata keçdi:

– Cahangirin arxasınca xeyli adam gedib. Söhbət xəyanətkarlardan, düşməndən getmir. Yüzlərlə döyüşçü aldanıb, Sələbiyyə xanın fitnəsinə uyub. O, döyüşçüləri inandırıb ki, əgər dəstədə qalıb sədaqətlə xidmət eləsələr, onlara mal-mülk ayıracaqlar, torpaq sahələri verəcəklər. Həmin adamlar hələ təzə-təzə ayaq tutan Amid bəyliyinin ayrı-ayrı tayfalarındandır. Sən Sələbiyyə xanı, Cahangiri təqib edəcəkdin, haqlayıb döyüşə çəkəcəkdin. Şübhəsiz, sənin qüvvən çoxdur, daha üstünsən. Yəqin ki, qalib də gələcəkdin. Ancaq bu qələbə nəyin bahasına başa gələcəkdi? – Sara Xatun yenə söhbətini sualla bitirdi.

Uzun Həsən artıq yarı yaşını keçirmiş, alnında, üzündə qırışlar dağdöşü cığırları kimi əyri-üyrü xətt salan, amma yaşlaşdıqca sanki sir-sifəti gündən-günə daha çox işıq saçan, nur yayan bu qadının – bir vaxt onu qucağında əzizləyib saxlayan anasının ağlına, düşüncəsinə heyran qalmışdı. Onsuz da hələ anası sözünün hamısını deməmiş, izahatını sona çatdırmamışdı. Ancaq elə indidən görünürdü ki, anası Uzun Həsənin Cahangir Mirzəni təqib etməmək üçün əsas tutduğu səbəbi, bəlkə, onun özündən də əvvəl bilirmiş. Buna görə anasının düşüncəsinə heyranlıqla, özü mətləbi açıqladı:

– Bilirəm, doğru buyurursan, mənim məqsədim elə sənin düşündüyün kimi olub. Bunu da bilməyin təsadüfi deyil. Axı sən təkcə mənim qardaşlarımın anası deyilsən, bütövlükdə Amid bəyliyinin anasısan. Hər cür hakimiyyətə haqqı çatan Ağqoyunlu tayfa birliyinin hamısına analıq etmək haqqın var. Sən olduqca adil müşfiq və işini bilən bir hakimsən. Bu qardaş qırğınından təzə-təzə bir-birinə isinişib birləşən Ağqoyunlu tayfaları, şübhəsiz, böyük yara alacaqdı. Bu qanlı savaş qardaş qırğınına çevriləcəkdi. Kimlərsə məndən, kimlərsə də Cahangirdən narazı qalacaqdı.

Sara Xatun Uzun Həsəni fəhmli bir sərkərdə, qorxmaz döyüşçü kimi görürdü. Onun belə yetkin ağıla sahib olmasını görmək anasına böyük fərəh bəxş edirdi. Hər halda, hadisələri qabaqlamaq üçün Uzun Həsəndə səbirsizliyi də hiss edirdi. Cahangir Mirzənin arxasınca getməsə də, onu qılıqlayıb yoldan çıxaran qaynaqlarla üz-üzə danışmaq istəyi onda çox güclü idi. Və bunu da söhbətində Uzun Həsən gizlətmirdi.

– Mən tezliklə Cahanşahla qarşılaşacağam. İstəsəm də, istəməsəm də bu qarşılaşma mütləq olacaq. Allah da şahiddir ki, bu qarşılaşma mənim günahımdan baş vermir…

Sara Xatun düz oğlunun gözlərinin içinə baxıb sərt bir görkəm aldı:

– Elə ilk döyüşdəcə məğlub olacaqsan – qətiyyətlə dedi.

– Necə yəni məğlub olacağam? – Uzun Həsən geri çəkilmək istəmədi.

– Bilirsən, oğul, o, on illər boyu döyüş meydanlarında sınaqdan çıxmış bir hökmdardır. Kifayət qədər də güclü dövlət qurub. Rəqiblərinə qarşı həmişə ayıq-sayıq münasibət göstərib. İndiyə qədər də Amid bəyliyini məhv etməyib. Bunun səbəbi var. Hələ ki, Ağqoyunlular onlara düşmən münasibət bəsləmirlər. Əlaqələr də kifayət qədər normaldır. Ağqoyunlulardan onun ordusunda xidmət edənlər də az deyil. Amma indi vəziyyət dəyişir. Şübhəsiz, Cahangir Mirzəyə də o, kömək ayıracaq və səni Cahangir Mirzənin əli ilə aradan götürmək istəyəcək. Bunun üçün biz Cahangir Mirzəylə Cahanşahın birgə hərəkətinin qarşısını almalıyıq. Əgər sən Cahangiri məğlub edib az itki ilə ona qalib gəlsən, Cahangir Mirzənin qüvvələrini təşkil edən adamlara da əmniyyət verib öz tərəfinə çəksən, qüvvən ikiqat artmış olar, zəifləməzsən, daha da güclənərsən. Sələbiyyə xan da cəzasına çatar. Bunun üçün Diyarbəkirə səyahət etmək lazımdır. Hə, vaxt gəlib çatıb. Bəyliyin mərkəzi Diyarbəkir olmalıdır.

Bu vaxt Diyarbəkir şəhəri kifayət qədər inkişaf etmişdi. Şərqdən gələn ticarət karvanları burada əylənir, şəhərin iqtisadi həyatında sürətli dəyişiklər baş verməkdəydi. Ən başlıcası, Ağqoyunlu tayfalarının nüfuzlu nümayəndələrinin bir çoxu Diyarbəkirdə və onun ətrafında sakin olmuşdular.

* * *

Cahangir Mirzə Diyarbəkirə daxil olub yerləşdi. Qabaqcadan razılaşdığı adamları görüşünə çağırdı. Özü ilə gətirdiyi qüvvələrin ərzaq, silah təminatı məsələləri haqqında müzakirələr apardı. Diyarbəkiri özü üçün qala-şəhər kimi təsəvvür edirdi. O, burada möhkəmlənməli idi. Əlbəttə, söhbət sadəcə, möhkəmlənib, qərar tutub, burada yaşamaqdan getmirdi. Siyasi mərkəz kimi Diyarbəkri tanıtmaq, qüvvələrini cəmləmək, həqiqətən Uzun

Həsənin qabağında dayanacaq nizami bir ordu yaratmaq planlarını o, burada həyata keçirməliydi.

Sələbiyyə xanın özünü yanına çağırıb Cahanşahın hüzuruna göndərmək qərarına gəldi.

– Bəli, zamanın Cahangiri, mən hər vaxt sənin qulluğunda hazıram.

– Sələbiyyə xan, Cahanşahın hüzuruna gedərsən. Nəyi necə demək, o, sənin öz işindir. Ancaq o, bilməlidir ki, Uzun Həsənin nüfuzu sürətlə artmaqdadır, qüvvələri də şişməkdə. Bilsin ki, tezliklə bu qüvvələrlə Uzun Həsən onun üstünə yeriyəcək. Həm Ağqoyunlu, həm də Qaraqoyunlu tayfaları onsuz da bir-birinə düşmən münasibət bəsləmir. Hakimiyyətdə kimin olmağının bu tayfalar üçün o qədər də fərqi yoxdur.

– Hər şey aydındır. Əgər mənim sərdarım icazə versə, yola çıxaram.

– Sən bir an da vaxtı fövtə vermə. Özünü yetir Cahanşahın yanına. Bəlkə sən qayıdana qədər Uzun Həsən də Diyarbəkir hüdudlarına çatar.

Sələbiyyə xan əlini gözlərinin üstünə qoyub Cahangir Mirzənin yanından çıxdı. Əslində, Sələbiyyə xan özü Cahangir Mirzəylə söhbətin çox uzanmağını istəmirdi. Cahanşahla da nə danışacağını, hansı məsələni həll edəcəyini özü bilirdi.

* * *

Cahangir Mirzə süvariləri ilə birbaşa Diyarbəkirə istiqamət götürmüşdü. Demək olar ki, yolboyu az fasilələrlə istirahəti nəzərə alınmasa, heç yerdə vaxt itirməmiş, Diyarbəkir şəhərinə tez çatmaq üçün ciddi-cəhd göstərmişdi. Qardaşı Uzun Həsənin xasiyyətini yaxşı bilirdi. O, çalışacaqdı ki, Bayandurlar nəslinə müxalif olan Sələbiyyə xanın planları baş tutmasın. Başqa sözlə, Cahangir Mirzə Diyarbəkirdə möhkəmlənə bilməsin. Bunu, əlbəttə, Sələbiyyə xan da bilirdi. Yolboyu əlavə keşikçi dəs-

tələri qoymuş, arxadan onu haqlayacaq qüvvələrin gəlib-gəlmədiyini nəzarətdə saxlamağı onlara tapşırmışdı. Demək olar, Diyarbəkirdən başqa Cahangir Mirzənin ümidi yox idi. Doğrudur, Cahanşahla da gizli danışıqlar aparılmışdı. Amma hələ ki, tərəflərin məqsəd və məramları bir-birinə tam aydın deyildi. Yəni bu tezlikdə Cahangir Mirzə Cahanşahdan da kömək ala bilməzdi. Diyarbəkir həm Osmanlıların, həm də Qaraqoyunluların diqqət mərkəzində olan əyalət idi. Cahanşah Diyarbəkirə Osmanlılarla özü arasında xüsusi maneə xətti kimi baxırdı. Elə Uzun Həsən də hələ ki, Diyarbəkir əyalətini sülh və danışıqlar yolu ilə özünə tabe edə bilməmişdi. Ancaq burada bir məsələ də vardı ki, Diyarbəkirin əhalisi əsasən, Ağqoyunlulardan ibarət idi. Şəhər və əyalət Artukoğlu Ağur xana baxırdı. O isə nə qədər Ağqoyunlulara güvənsə də, hələ ki, özünə kifayət qədər nəinki hücum qüvvələri, heç müdafiə qüvvələri də təyin edə bilməmişdi. Yaşı min illərlə ölçülən Diyarbəkir tarix boyu müxtəlif etnosların əlinə keçmiş, ayrı-ayrı zamanlarda Hithitlər, Hurritlər, Assurlar və digər böyük xanədanlar bu ərazilərə sahiblik etməyə çalışmışlar. Ancaq romalılardan şəhəri Oğuz türkləri xilas etmiş və o zamandan başlayaraq əyalət türk məskəni olaraq tanınmağa başlamışdı. Cahangir Mirzənin Diyarbəkirdə möhkəmlənmək istəyi və cəhdi, əsasən, Bayandurlar nəsli ilə qaynayıb-qarışmış Artukoğulların babası Qara Yuluq Osmana rəğbətilə bağlı idi. İndi tale onun üzünə hansı qapını açacaqdı? Bu, hələ sabahın, yaxud sonrakı sabahların işi idi. Hələ o da məlum idi ki, Artukoğlu Ağur xan onun süvariləri ilə birgə şəhərə daxil olmasına razılıq vermişdi. Burada Artukoğlunun da məqsədi vardı. O, Cahangir Mirzənin, ümumiyyətlə, nüfuzu güclənməkdə olan Bayandurlar nəslinin qüvvəsindən istifadə ilə həm Osmanlılardan, həm də onu daim hədələyən Qaraqoyunlulardan canını qurtarmaq istəyirdi. Əslində, Artukoğlu Ağur xan da bu qənaətə asanlıqla gəlməmişdi. Ancaq başqa çıxış yolu da yox idi. Ca-

hangir Mirzənin qüvvələrinin Diyarbəkirə yaxınlaşması onun da gözündən yuxunu qovmuş, rahatlığını əlindən almışdı. O, istəsə də, istəməsə də artıq Cahangir Mirzə Diyarbəkirin darvazaları qarşısında idi. Ya onu böyük hörmət-izzətlə qarşılayıb əyalətdə nüfuzunu qoruyub-saxlamaq üçün əminlik almaqla bu yerlərin ixtiyarını ona verməliydi, ya da onsuz da mövcud olmayan, az-çox nəyə gümanı gəlirdisə, olar-olmaz qüvvələrini toplayıb, məğlubiyyəti bəri başdan görünən vuruşa girməli idi. Eyni hissləri Cahangir Mirzə də keçirirdi. O, Artukoğlu ilə əlaqələrini necə quracaqdı ki, nəticədə tərəflər arasında xəyanət olmasın? Axı onun gətirdiyi qoşun əsasən Bayandurlar nəslindən toplanmış qüvvələrdən ibarətdi. Burada da – yəni Diyarbəkirin özündə də əsas nüfuz sahibi elə Bayandurlar idi. Bu qüvvələri qarşı-qarşıya qoymaq Cahangir Mirzəni çox zəiflədər, onsuz da artıq özünü Uzun Həsənin təqibində bilən azsaylı qüvvələrin məhvi demək olardı. Bir sözlə, nə qədər bir-birini arzulasa da, eləcə də bir-birindən ehtiyat edən qüvvələr Diyarbəkirin civarları yanında qarşı-qarşıya gəldi. Artukoğlu Ağur xanın tapşırığı ilə təntənə hazırlıqları artıq dünəndən başa çatmışdı. Ağur xan özü də at üstündə kiçik bir dəstə ilə tam hərbi nizamda Cahangir Mirzənin qarşısında idi. Əvvəlcə Ağur xan atını qabağa sürdü, dəstədən xeyli aralandı. Cahangir Mirzə də qabağa çıxdı. Atlar burun-buruna dayandılar, fınxırdılar. Sonra hər iki at sahiblərinin cilov çəkməsi ilə şahə qalxdı. Əvvəlcə Cahangir Mirzənin atı ucadan kişnədi. Bu kişnərtiyə Ağur xanın atı zəhmli səsi ilə cavab verdi. Hər iki atlı öz dəstəsinə tərəf çevrilib təzədən üzbəüz gəldi. Birinci Ağur xan atdan endi. Bunun arxasınca da Cahangir Mirzə. Həmən nökər-naib atların yüyənindən yapışdılar. Hər iki tərəf bir-birinin əlini tutub sinələrini bir-birinə toxundurdular.

– Aləmin Cahangiri bizim torpaqlara xoş gəlib, qədəmi uğurlu olsun!

– Ağırlığı, təmkini bir elə şöhrət olan Ağur xana salam olsun!

Sonra ehtiramla çevrilib şəhərin darvazalarına tərəf irəlilədilər. Ağur xanın adamları hündürdən qışqırdılar:

– Cahangir Mirzəyə eşq olsun!

Cahangir Mirzənin adamları da Ağur xanı salamladılar.

Şəhərdə böyük şənlik başladı. Ağur xanın tapşırığına əsasən Cahangir Mirzənin dəstəsi üçün xüsusi şərait yaradılmışdı. Döyüşçülərin şəraiti, atların yemlənməsi – bütün bunların hamısı Ağur xanın tapşırığına əsasən Cahangir Mirzəyə hörmət və ehtiram əlaməti kimi yerli-yerində idi.

Cahangir Mirzə Ağur xanın münasibətindən çox məmnun idi. Onlar arzuladıqlarına uyğun görüşdən razılıq və daha çox məmnunluqla sarayda təşkil olunmuş böyük ziyafət süfrəsinə qədəm basdılar. Cahangir Mirzə gözaltı müşahidə edirdi. Adamların dolanışığı, onların Ağur xandan nə dərəcədə razı olub-olmadıqları, Ağur xanın hərbi gücü – bütün bunlar onun diqqətində idi. Hiss edirdi ki, Ağur xanın elə də artıq qüvvəsi yoxdur. Əyalətin ayrı-ayrı əraziləri tez-tez Osmanlıların nəzarətinə keçir, camaatın əlindən, təsərrüfatdan gələn gəlir demək olar ki, məcbur alınırdı. Bir tərəfdən də Cahanşah. O da Diyarbəkirin güclənməsini istəmədiyindən özünə tərəf əraziləri əlində saxlayırdı. Bir sözlə, Diyarbəkir əyaləti sadəcə görüntü olaraq müstəqil siyasət yeridirdi. Osmanlılar Cahanşahdan, Cahanşah da Osmanlılardan ehtiyat etdiyindən hələ ki, kənardan baxırdılar.

Cahangir Mirzə fikrə getmişdi. O, burada qalıb möhkəmlənməyi düşünsə də, bunu necə edəcəyinin fikrini çəkir, götür-qoy edirdi. Bacaracaqdımı? Son anda Ağur xan fikrindən dönməyəcəkdi ki?!

Süfrədə hər cür naz-nemət vardı. Təndirdə qızardılmış bütöv quzular süfrəyə gətirilirdi. Bunun arxasınca da qara üzümdən çəkilmiş al-qırmızı şərab… Sələbiyyə xan Cahangir Mirzənin lap yaxınında əyləşmişdi. Nüfuzlu dəstəbaşılardan da vardı. Onlarla üzbəüz əyləşən Ağur xan və şəhərin nüfuzlu adamları

hər cür qonaqpərvərlik göstərir, könüllərinin açılması üçün xoş sözlər deyirdilər. Zərli tüllərə bürünmüş yarıçılpaq rəqqasələr öz incə rəqsləri ilə ziyafət iştirakçılarının gözünü-könlünü oxşayırdılar.

Şərabın təsirilə əhvallar dəyişir, könüllər açılırdı. Sanki hələ bir az bundan əvvələ qədər bir-birinə şübhə ilə baxan tərəflər arasındakı soyuqluq divarları tamam aradan götürülmüşdü.

– Aləmin Cahangiri nə yaman fikrə qərq olub? – bunu Ağur xan dedi. – Aləmin təmkin və ağırlığını çiynində daşıyan Ağur xanın hüzurunda fikrə qərq olmağın heç yeri deyil. Taleyin gərdişi aləmin Cahangirindən üz çevirməz.

– Xan, mən Diyarbəkirə çatanda günəş təzəcə doğurdu. Şəhərin üstündə qırmızıya çalan bir işıq görürdüm.

– O işıq aləmin Cahangirinə nə dedi?

– O işıq mənə dedi ki, bu şəhər sənə doğmadır. Ən əsası ona görə ki, burada dünyanın gəldi-gedərindən baş çıxaran böyük təmkin sahibi həmişə haqqın tərəfindədir.

– İşığın dediyini düz oxumusan, aləmin Cahangiri. Mən də elə o fikirdəyəm. Baban Qara Yuluq Osmanın Diyarbəkirin boynunda böyük haqqı var. Bu şəhər, bu əyalət Qara Yuluq Osmanın sayəsində dirçəlib. Ondan sonra bu yerlər demək olar ki, başsız qaldı. Əgər biz qılıncımızla onun sərhədlərini qorumasaydıq, indi çoxdan burada Osmanlılar hakim idi. Yaxud bu yerlər Qaraqoyunluların ixtiyarına keçəcəkdi.

– Doğrudur, aləmin təmkin ağası. Ancaq bir əlavəm də var. Təkcə sizin qılıncınız – Diyarbəkir igidlərinin qoçaqlığı sayəsində bu yerlər salamat qalmayıb.

Ağur xan Cahangir Mirzənin bu sözlərindən bir qədər səksənən kimi oldu. Ancaq xasiyyətinə uyğun təmkin və ağırlıq göstərdi. İçəridən keçirdiyi təlaş hissini Cahangir Mirzəyə hiss etdirmədi. Ancaq başını qaldırıb gözlərini Cahangir Mirzənin ağzına dikdi. Boğduğu təlaş hissinin əvəzində üzünə xoş görkəm verdi. Bu, Ca-

hangir Mirzəyə də xoş gəldi. Ona görə sözünün davamını qısmadan asanlıqla gətirdi: – Aləmin təmkin ağasının ağlı, düşüncəsi bu işdə az əhəmiyyət kəsb etməyib. Əgər aləmin təmkin ağası bu yerlərə diş qıcayan qonşularla düzgün münasibət qurmasaydı, onda çox asanlıqla indi üzü Qərbə tərəf meydan oxuyan Osmanlılar, bu tərəfdən də özünə – qınına sığışmayan Qaraqoyunlular Diyarbəkiri parça-parça etmişdilər.

Söz Ağur xanı qanadlandırdı. Düşündü ki, necə yaxşı olardı ki, Cahangir Mirzə qoşun başçısı olaydı. Hərbi qüvvələri səfərbər edəydi. Ancaq onun sayəsində Diyarbəkirin nəzarətdən çıxmış ərazilərini qaytarmaq olardı.

Bütün bu söhbət əsnasında Sələbiyyə xan bir kəlmə də danışmırdı. Şübhələr onu da içəridən didib-dağıdırdı. İndi bu iki nəhəng – biri ağlına, təmkininə, yer-yurduna güvənən Ağur xan, digəri də əslinə, soyuna hələ də güvənməkdə olan, hərbi işdən yaxşı baş çıxaran, sərkərdəlik məharətinə istinad edən Cahangir Mirzə… Bunların arasındakı münasibət onu sıxıb əzməyəcəkdi ki?! O, öz başını bu nəhənglər arasında necə qoruyub saxlayacaqdı? Onsuz da ailə üzvlərini qabaqcadan Diyarbəkirin uzaq kəndlərindən birinə köçürən Sələbiyyə xan bu yerlərdə özünü saxlaya biləcəkdimi?

Bu düşüncələr daxilən Sələbiyyə xanı əzib-parçalayır, onun az qala zahiri təmkinini də əlindən alırdı. Amma onun hələ ki, müdaxilə etmək, hadisələrin axarını dəyişmək imkanı yox dərəcəsindəydi. Ondan olsaydı, onsuz da təsiri altında olan Cahangir Mirzəyə hələ toxunmaz, ancaq qılıncını sıyırıb artıq yarı yaşını çoxdan keçirmiş, ahıllığa qədəm qoymaqda olan Artukoğlunun ağarmış başını bədənindən bir anda ayırardı. Bax, bunu edə bilmirdi. Çünki Cahangir Mirzənin danışığından hiss etmişdi ki, Ağur xanın şəhər əyanları arasında çox böyük hörmət və nüfuzu var. İnsafən, Ağur xan bu hörmət və nüfuzu öz ədaləti və təmkini ilə qazanmışdı. Əyanlarla da hörmət və izzətlə rəftar edirdi. Gü-

nahkarı elə mühakimə edirdi ki, verilən hökmdən heç kim narazı qalmırdı.

İndi bircə yol qalırdı – hadisələrin axarını izləmək. İşlər hansı istiqamətdə cərəyan edəcək: – bunu aydınlaşdırmaq. Cahangir Mirzənin Diyarbəkirə gəlməsini Cahanşah necə qarşılayacaqdı? Osmanlılar bu məsələyə öz münasibətlərini hansı şəkildə bildirəcəkdilər?

Əslində, Sələbiyyə xanın da kifayət qədər gücü vardı. Cahangir Mirzənin tabeliyində olan qüvvələrin dəstəbaşıları, əsasən, onun adamları idi. Ancaq ehtiyatsız bir hərəkət onun həm özünü, həm də tərəfdarlarını güdaza verərdi. Onsuz da ailə üzvlərinin də hansı məkanda yerləşdiyi tezliklə məlum olacaqdı. Ona görə ailəni də təhlükə qarşısında qoymamaq üçün bütün varlığı ilə Cahangir Mirzəyə sədaqətlə qulluq etməyi qərara alsa da, əlverişli bir vaxtın da gəlişini gözləməyi unutmurdu.

Cahangir Mirzə bir həftəlik yol yorğunluğunu çıxaran istirahətdən sonra Ağur xanla təzədən məşvərət keçirdi.

– Necə bilir, aləmin təmkin ağası, biz nədən, haradan başlayaq?

İlk baxışdan aydın olmayan bu sualın mənası Artukoğluna tam aydın idi. Cahangir Mirzənin nə dediyini o, yaxşı başa düşürdü. Artukoğlu bilirdi ki, Diyarbəkirin sakit günləri arxada qalıb. Tezliklə Uzun Həsən mükəmməl hərbi qüvvə ilə buraya yetişəcəkdi. Cahangir Mirzənin gətirdiyi hərbi dəstələr onun ordusunun – özü də kifayət qədər hazırlıq keçmiş ordusunun qarşısında duruş gətirə bilməzdi. Demək, təcili tədbirlər görülməliydi.

Ağur xan kifayət qədər ağıllı adam idi. O, Cahangir Mirzənin dəstələrini şəhərə buraxmaya bilməzdi. Onsuz da onun şəhəri ağıl və təmkinlə qorumaq imkanları tükənmişdi. Belə vəziyyətdə Cahangir Mirzəylə birləşmək ən düzgün yol idi.

– Aləmin Cahangiri, babanız Qara Yuluq Osmanın sayəsində canını, malını, diriliyini qorumuş bu əyalətin əsl sahibi Bayandur-

lar nəslidir. Yaxşı olardı ki, qardaşın Uzun Həsənlə sənin arada ixtilaf olmayaydı. İndi ki, iş gəlib bu yerə çatıb, Ağqoyunluları birləşdirmək, güclü hakimiyyət yaratmaq və bu hakimiyyət sayəsində Osmanlıların və Qaraqoyunluların qabağında duruş gətirmək… bütün bunlar sizin işinizdir. Artıq mənim yaşım keçməkdədir. Döyüş, vuruş mənlik deyil. Tanrı haqlı olanın tərəfindədir. Haqlı olmaq ədalətdən keçir. Çalış ədalətli ol. Onda uca Tanrı səni qoruyar.

Cahangir Mirzə Artukoğlunun yaşına yaraşan sözlərində qınaq üçün əsas görmədi. Əslində, Artukoğlu nə deyirdi ki?.. Bu sözləri ilə bütün hakimiyyəti onun ixtiyarına verdiyini bildirirdi. Ancaq gələcək hadisələr qarşısındakı məsuliyyəti onun boynuna qoyurdu.

Artukoğlu da bu sözləri demək üçün kifayət qədər düşünübdaşınmışdı. O, bilirdi ki, Ağqoyunluların bəxtinin çiçəklənən vaxtıdır. Çox böyük ərazilərin tayfa başçıları Ağqoyunlulara meyillənir. Hətta Qaraqoyunlulardan narazı olanlar əhli-əyalı, tərəfitanqahı ilə Ağqoyunlular tərəfə keçənlər az deyildi.

Artukoğlu mərd adam idi. Onun bu cür açıq danışmağı da mərdliyindən, açıqürəkliliyindən xəbər verirdi. Amma ürəyinin dərinliklərində bir məsələ də, əslində, gələcəyi aydın göstərən bir həqiqət də baş qaldırırdı. Bu da ondan ibarət idi ki, Ağqoyunluların əsas güc mərkəzini əlində cəmləyən Uzun Həsənin get-gedə artan nüfuz və hörmətinin, şübhəsiz, bunun arxasınca da böyük gücünün qarşısında Cahangir Mirzə duruş gətirə bilməyəcəkdi. Bunu indiki halında Cahangir Mirzəyə deməyin lüzumu yox idi. Cahangir Mirzə onu xəyanətkar hesab edər, Uzun Həsənin tərəfdarı bilərdi.

Cahangir Mirzə Artukoğlunu diqqətlə dinləyir, onun gözlərinin içinə baxır, daha dərinlərdə nə düşündüyünü bilmək istəyirdi. Artukoğlunun bu səmimi etirafları, əslində, onda heç bir şübhə doğurmamalı idi. Ancaq son bir ili o, həmişə Sələbiyyə xanın təsiri

altında olmuşdu. Sələbiyyə xan həmişə ona təlqin etmişdi ki, heç kimə bəri başdan inanmaq olmaz. Hər kəsi inamının bir həddində saxlamaq lazımdır. Bu da onun ağlına batmışdı.

İndiki halda vəziyyət Cahangir Mirzənin xeyrinə sürətlə dəyişirdi. Doğrudur, hələ ki, Diyarbəkirin müxtəlif tərəflərinə öz naiblərini göndərməmişdi. Ancaq bunun üçün artıq yol açılmışdı. Artukoğlu hakimiyyət qapılarının açarını hörmət-izzətlə ona verməkdə idi.

– Yox, Artukoğlu, sən yenə bu əyalətin ağası olaraq qalacaqsan. Bizim məsləhət yerimiz, heç vaxt əriməyən, çökməyən təmkin dağımız olacaqsan. Günəş işığının düşə bilmədiyi, qaranlığın hakim kəsildiyi yerlərdən gərək öz ağıl işığını əsirgəməyəsən…

* * *

Sara Xatun onsuz da son vaxtlar yaxşı yata bilmirdi. Bu gecənin də səhərini dirigözlü açmışdı: «Elə bil ki, yerimə qor dolub. Kürəyimin arası qovuşur». Nigarançılıq onu dara çəkirdi. Hər tərəfdən üstünə hücum çəkən düşüncələr varlığını didib əldən salırdı. Düzdür, bilirdi ki, Uzun Həsən sonuncu qətiyyətli addım üçün mütləq onunla məsləhətləşəcək. Ancaq bu məsləhətin sonu necə qurtaracaq? Görürdü ki, artıq Uzun Həsən qəzəb qılıncını sıyırıb, Cahangir Mirzənin hərəkəti onu bərk qəzəbləndirib. Belə vəziyyətdə onu yola gətirmək də çətin məsələdi. Həm də bu yola gətirmək məsələsi necə olacaqdı? Bu da Sara Xatuna qaranlıq idi. O, necə, hansı tədbiri tökməli idi ki, Uzun Həsən onun tədbirilə razılaşsın. Digər tərəfdən, əgər məsələ qətiyyətlə həll olunmasaydı, nələrin baş verəcəyini Sara Xatun heç də Uzun Həsəndən az bilmirdi. Bəlkə hələ Uzun Həsənin bildiklərindən daha artığını elə Sara Xatun bilirdi. Çünki oğlu Cahangirin təbiətində çox güclü tamahkarlıq var idi. Xəzinə toplamaq, qızıl hərisliyi, iqtidara yiyələnmək ehtirası gözünü tutmuşdu. Hətta onun tamahkarlığı o həddə çatmışdı ki, azyaşlı uşaqlarını və ailəsini burada – Sara

Xatunun yanında, iqamətgahda qoyub özünə sadiq qüvvələrlə çəkilib getmişdi. Heç kimə sirr deyildi ki, Cahangir Mirzə belə səssiz-sovsuz çəkilib getməklə kifayətlənməyəcək. Şübhəsiz, o, Amid bəyliyinin güclənməsini istəməyən qüvvələrlə birləşməyə çalışacaqdı.

Sara Xatun yaşının mahiyyətinə varacaq müdrik çağında idi, keçmişini unutmamışdı. Qara Yuluq Osmanla Diyarbəkiri idarə edən Ağur xanın arasında dostluq münasibətlərinin olduğunu da bilirdi. Bəd ayaqda Ağur xanın keçmiş dostluğu unutmadığını da yada salır, düşünürdü ki, Cahangir Mirzənin Həsənin üzərinə çevriləcək qılıncının qabağına təmkin sipəri qoyar. Ağur xan istəməz ki, iki qardaş bir-birilə qanlı qırğına çıxsın və bu qırğına da Diyarbəkirin civarları şahidlik eləsin. Onsuz da qonşu hakimlərlə – monqol nəslindən olan Əbu Səidlə, Qaraqoyunlu Cahanşahla Ağur xanın arasındakı keçmiş ədavət onları Diyarbəkiri ələ keçirmək niyyətləri unudulmamışdı və bu məsələləri Ağur xan da bilməmiş deyildi. Nə qədər ki, Qara Yuluq Osman sağ idi, Ağur xan da hələ gənc idi, bütün Diyarbəkir demək olar ki, Qara Yuluq Osmanın təsir dairəsindəydi. Elə Ağur xanın özü də ona diş qıcayan adamlara qarşı Qara Yuluq Osmana güvənib dururdu. Bütün bunların hamısı keçmişdə qalmışdı. Çoxdan idi ki, Sara Xatun Ağur xanı görmürdü. İndi onun təbiətində nə kimi dəyişikliklər olub, hansı niyyətlərə qulluq edir? Lap elə Cahangir Mirzə onunla görüşəndən sonra fikrində, məramında nə kimi dəyişikliklər baş verib – bütün bunlardan xəbərsiz idi. Bir tərəfdən də Sələbiyyə xan – bu hiyləgər tülkü xislətli insanın Cahangir Mirzəni başdan etdiyini də yaxşı bilirdi.

Vaxtilə o, Sələbiyyə xanı əmniyyət işlərindən ayırmaq, onun əlində toplanmış qüvvələri təcrid etmək istəmişdi. Ancaq bir tərəfdən Cahangir Mirzənin onu inamla müdafiə etməsi, bir tərəfdən də elə Sələbiyyə xanın özünün əyalətin əmin-amanlıq işləri üçün doğrudan-doğruya əvəzsiz xidmətləri qabağını kəsmişdi.

Həqiqətən Sələbiyyə xanda hadisələri qabaqlayıb, baş verəcək olayları vaxtından əvvəl xəbər vermək bacarığı vardı. Elə Uzun Həsənin əyalətə sərdarlıq elədiyi dövrdə ayrı-ayrı narazı tayfa başçılarını sülhə gətirməkdə xidməti böyük idi, onlara Həsənə tabe olmaqdan başqa bir yolları qalmadığını da Sələbiyyə xan anlatmışdı. Sara Xatun düşünürdü. O, bu düşüncələrilə çıxış yolları axtarırdı. Necə etsin ki, iki oğlu üz-üzə gəlib biri digərinin başını kəsməsin. Doğrudur, Sara Xatun ürəyində keçirdiyi narahatlıqların mahiyyətini təkcə bu döyüşlə bağlamırdı. Onun ana qəlbi tamam başqa hisslərlə döyünürdü. Necə ola bilər ki, bir ananın bətnindən gələn iki oğul hakimiyyət iddiası ilə üz-üzə gəlsin. Və birinin qılıncı o birinin ürəyini paralasın. Bəlkə də, ola bilər ki, qarşı-qarşıya gələn qılıncların hər biri kəsərli olar və qılınc sahiblərinin ikisi də elə bir meydanda dünyalarını dəyişsinlər.

Sara Xatun bir ana kimi oğullarının heç birisindən keçmək istəmirdi. Onun ana qəlbi nə Uzun Həsənin, nə də Cahangirin ölümünə razı olmazdı. Səbəb nə olursa olsun, o, hər şeydən əvvəl bir ana idi. O, övladlarını dünyaya gətirəndə eyni sancıları, eyni əzabları yaşamışdı, onların hamısını eyni qayğı və nəvazişlə böyüdüb boya-başa çatdırmışdı. İndi onların birini digərindən üstün tutmağı onun ana ürəyi qəbul edə bilərdimi?

Sara Xatun indiki anlarda yalnız ana idi. O, nə Amid bəyliyinin, nə hakimiyyət iddialı insanların taleyini düşünmürdü. İndiki anlarda o, yalnız siyasət meydanında, hərb aləmində qarşı-qarşıya gələcək və bəlkə də bir-birinə qılınc sıyıra biləcək iki oğlunun taleyini götür-qoy edirdi.

...Doğumun ağrı-acılarından azad olan kimi, mamaçanın fərəhlə onun qabağına tutduğu uşağı gözünün önünə gətirdi. Hələ körpənin adı yox idi. Amma cocuq ananın varlığını didərək, onu min cür əzab-əziyyətə düçar edərək dünyaya gəlmişdi. Təcrübəli, uşaq doğuşunda ad çıxarmış qadınların gözlərinin qabağında ağlı, idrakı, qəhrəmanlığı (axı Sara Xatunun əri ilə birgə yeri gələndə

at minməyi də vardı, qılınc çalmağı da. Hətta həmyaşıdı olan qızlarla at üstündə cəng oyunları da keçirirdi. Çövkan oynatmağına isə söz ola bilməzdi) ilə ad çıxarmış Sara Xatunun yaddaşı dilə gəlmişdi, onunla üzbəüz danışırdı.

– Bay, mənim balam, sənsən?

– Mənəm, ana, məni bətnində saxlayıb böyütmüsən.

– Təkcə bətnimdə səni saxlayıb böyütməmişəm. Mən səninlə birgə arzularımı, istəklərimi də saxlayıb böyütmüşəm.

– Hansı arzuları, istəkləri, ana?

– O arzuları, istəkləri ki, sən böyüyəcək, güc, qüdrət sahibi olacaqsan. Səndən əvvəl dünyaya gələn Həsənin, səndən sonra, əgər Tanrı verəcəksə, qardaş-bacılarının qayğılarını çəkəcək, onları sevəcək balam olmalısan, balam olacaqsan…

– Ana, mən atamın, babamın gücünü, qüdrətini qolumda daşıyacam. Mən onların ruhunu yaşadacam. Təki sən məni qoru, saxla.

– Tanrı sənə güc versin, oğul, təki sən nəslimizin adını batırma. Baban Qara Yuluq Osmanın adını-sanını qoruya bil. Yalnız bu zaman sən, səndən böyük qardaşın Həsənin, eləcə də mənim fəxrim ola bilərsən. Anan sənin gücünə, qüdrətinə baxıb o zaman fəxr edər ki, sən Qara Yuluq Osmandan qalan nə varsa, ünvanına şöhrət gətirəsən – yerə, yurda, insanlara, bizim nəslimizə hörmət bəsləyənlərin hamısına.

Sara Xatunun gözlərinin qabağında mamaçanın iki əllə önünə tutduğu iri, ana bətnində normal böyümüş, kifayət qədər diribaş uşaq canlanırdı. Bu, Cahangir idi.

İndi Cahangir Mirzə birdən-birə o körpə uşaq olmaqdan çıxmışdı. At belində, zirehli paltarda, sol qolunda qalxan, sağ əlində qılınc tutan bir cəngavər idi. Və üstəlik də bu cəngavər boy atıb böyüdüyü mühitdə hörmət-izzət sahibiydi. Onu tanıyanlar, görənlər az qala ilk baxışdan ona vurğun olurdular. Ağıllı, ləyaqətli danışığı, mərifətli hərəkəti, ayrı-ayrı adamlara qarşı ədalətli davra-

nışları onu insanlara sevdirirdi. Cahangir Mirzə istər döyüşçülər, istərsə də sadə kənd adamları arasında çıxış edəndə, danışanda adamlar ağızlarını açıb, az qala gözlərini yumurdular. Sanki onun sözlərini yemək kimi, içmək kimi, hava kimi ağızları ilə udmağa hazır idilər. Çünki Cahangir Mirzə əyalətin adamlarına doğmalıqla, yanımcıl yanaşırdı. O, deyirdi ki, əgər kiminsə evində çırağı yanmır, demək, günahkar mənəm, bizik – əyaləti idarə edən adamlardır. Elə bu səbəbdən məmləkətin kasıb-kusubları xətrini əziz tutur, ona böyük hörmət və ehtiram bəsləyirdilər.

Bütün bunların hamısını Sara Xatun bilirdi. Eyni zamanda bütün bunlara rəğmən, Cahangir Mirzənin pula, dünya malına, hakimiyyətə hərisliyini, düşkünlüyünü də!.. Onu da yaxşı bilirdi ki, Cahangir Mirzəylə savaş asan olmayacaq. Əslində, o, heç bu savaşın tərəfdarı deyildi. O, yollar axtarırdı. Düşüncələr içində idi ki, necə etsin ki, Cahangir Mirzə Uzun Həsən qarşılaşmasını qırğınsız həll etsin – ölümsuz, itimsiz, qadasız başa çatdırsın.

Sara Xatun özünə xas olmayan bir əsəbiliklə yorğanı üstündən atdı. İpək örtük çəkilmiş döşəkdə bayaqdan bəri yata bilməməyinin səbəbini hədsiz yumşaqlıq və rahatlıqda gördü. Yerə gözoxşayan Təbriz xalıları döşənmişdi. İri, geniş otağın döşəməsini örtmək üçün buraya neçə xalça sərilmişdi. Əl atıb yastığı taxtın üstündən götürdü. Bir az da hirslə xalçanın üstünə atdı. Qapı-pəncərələr bağlı olsa da, haradansa iqamətgahın divarlarının arasından keçən soyuq dalğası Sara Xatunun otağına da girirdi. Hiss edirdi ki, üşüyür. Qalxıb əyninə bir canlıq geyindi. Yenə gördü ki, havanın kəsərinin qabağını ala bilmir. Çəpkəni də üstündən əyninə taxdı. Yerə atdığı yastığın üstünə başını qoydu. Yastıq daş kimi idi. Qoyun yunu yığılmışdı yastığın içinə. Yenə rahat ola bilmədi. Qu tükündən balışı çəkib yastığın üstünə atdı. Başını da balışın üstünə qoyub ipək üzlü yorğanı üstünə çəkdi. Gördü ki, yox, yenə canından üşütmə ötüb keçmir. Bir balaca gözlərinin qabağına yuxu dumanı gələndə gördü ki, Həsənlə Cahangir Mirzə

yenə qabaq-qənşər dayanıb. «Allah, kim kimi öldürəcək, kim kimə qalib gələcək?» Dünya Sara Xatunun gözlərində qaranlığa büründü. Fələklər cəngə çıxmışdı. Ulduzlar bir-birinin üstünə şığıyır, bir-birilə toqquşur, sonra da şüşə kimi göydən yerə düşüb, çilik-çilik olurdu. Aman Allah, bu cəng-cidala ara ver, dayandır bu savaşı, dayandır bu qorxu-qadanı, dayandır bu ölümü. Sara Xatunun qorxusundan bədəni lərzəyə gəlir, tir-tir əsirdi. Yorğanı yenə üstündən atıb özündən asılı olmayaraq hövlnak – «dayanın!« – deyə qışqırdı.

Öz qışqırığına yuxudan oyanan Sara Xatun hələ nəyin baş verib, nəyin baş vermədiyini o qədər də dəqiq anlamırdı. Nə olmuşdu? Yer göyə qalxmışdı, yoxsa, göy yerə enmişdi? – hələ bilmirdi. Amma onu bilirdi ki, deyəsən, onun dünyası baş-ayaq olub.

Nə olmuşdu, nə itmişdi, nəyi qaytarıb yerinə qoymaq mümkün deyildi? Bax hələ ki, bunları Sara Xatun aydın edə bilmirdi. Amma o da gözlərinin qabağına gəlirdi ki, qayınatası Qara Yuluq Osman son nəfəsində onu yanına çağırmış, oğlunun yanında, yəni Sara Xatunun əri Cəlaləddin Əlinin yanında ona demişdi ki, bu yerin-yurdun taleyini sənə tapşırıram. Ancaq Qara Yuluq Osman övladlarının taleyini sənə tapşırıram deməmişdi. Yerin-yurdun taleyini tapşırmışdı.

Və bu sözləri deyəndə Sara Xatun düşünmüşdü; Nə üçün Qara Yuluq Osman Həsən bəyin, Cahangirin və elə o biri oğlunun adlarını çəkib ona tapşırmır?

Sara Xatun həddindən ziyadə ağıllı və düşüncəli qadın idi. Bu tapşırığın nə demək olduğunu da o, kifayət qədər aydın dərk edirdi. Burada söhbət Bayandur nəslinin sahib olduğu mülkün qorunmasından gedirdi. Lap bir az da dərinə gedəndə, Sara Xatun anlayırdı ki, söhbət heç Bayandur nəslindən də getmir. Qara Yuluq Osmanın özünün başa varmayan arzularından söhbət gedir. Qara Yuluq Osman hələ sağlığında dəfələrlə demişdi ki, bu böyük Azərbaycan adlanan məmləkətin sahibi biz olmalıyıq.

Dədə-baba nəslimiz, kökümüz Dədə Qorquddan üzü bəri bu yurdu bizə əmanət edib. Amma bu namərd zəmanədə qoluzorluların qoşunu, cəbbəxanası güclü olanların sayəsində bizə mənsub məmləkət yadellilərin əlində tarac olub. Sara Xatun Qara Yuluq Osmanın son günlərində dediklərini qulağına sırğa eləmişdi…

Qara Yuluq Osmanın kişiliyi, mərdliyi ellərə bəlliydi. Hətta Qazi Bürhanəddinlə üzbəüz savaşının mahiyyətində də onun kişiliyi, mərdliyi dayanırdı. Qara Yuluq Osmanın oğlunun yanında Sara Xatuna elədiyi vəsiyyətlərin mahiyyəti, mənası indi üzə çıxırdı. Və Sara Xatun da bunu yaxşı başa düşürdü. Bilirdi ki, onun hər addımına, hər hökmünə Qara Yuluq Osmanın ruhu nəzarət eləyir.

Gözlərini yumub içini didib-dağıdan iztirabların ağırlığı altında dünyanın gəldi-gedərini düşünən Sara Xatunun xəyalı Cahangir Mirzənin – bağrının parası olan oğlunun arxasınca yeriyirdi. Ha illah edirdi ki, xəyalı onun sürətini qabaqlasın, Cahangirin önünə keçsin, onun hara getdiyini, nə üçün getdiyini soruşsun, amma qabaqlaya bilmirdi. Elə ki, ona yaxınlaşırdı, onda oğlunun səsini eşidirdi: «Hərbdə də, cəsarətdə də, fəhmdə də, fərasətdə də mən heç də Uzun Həsəndən geri qalmırdım. Bəs onda nə üçün sən bütün hakimiyyəti dəstələyib bu uzundraz oğluna verdin? Əgər sənin dəstəyin olmasaydı, o, heç hakimiyyət iddiasına düşə bilməzdi. Qılıncı əlindən ayağının altına düşsə, əyilib götürənəcən düşmən onu on yerə paralayardı».

Sara Xatun oğlunun incikliyinin, narazılığının belə kin-küdurətə çevriləcəyini, onun bu qədər qəddarlıqla təkcə Uzun Həsənə yox, elə onun özünə, analıq haqqına qarşı duracağını ağlına gətirmirdi. Amma Sara Xatunu narahat edən, Cahangir Mirzəylə qarşılaşıb, onun yaxasından tutub «Sən nə eləmisən, bilirsənmi?» – demək istəyi təkcə bundan ibarət deyildi. O, bütün bunların hamısını qardaşın qardaşa qarşı, oğulun anaya qarşı bir ərköyünlük şıltaqlığı kimi qəbul edərdi. Amma yox, Cahangir Mirzə bu əməli ilə Bayandurlar nəslinin gələcək böyük şöhrətinə, əzəmətli bir

xanədanın qurulacağına kölgə salmışdı. Bəli, Sara Xatun indi hiss edirdi ki, Cahangir Mirzə əgər Ağur xanı yolundan döndərib Cahanşahla onu barışdırsa və Cahanşahın da qüvvələrini öz tərəfinə çəksə, onda Bayandurlar nəslinin axırı çatmış olacaqdı. Dünyanın gəldi-gedərindən yaxşı baş çıxaran Sara Xatun bilirdi ki, Cahanşah və oğlanları Uzun Həsəni aradan götürəndən sonra Cahangir Mirzənin özünü də asanlıqla məhv edəcəkdilər.

Sara Xatun düşünürdü. Amma nə illah edirdi, Cahangir Mirzəni yola gətirmək təhərini tapa bilmirdi. Onun uşaqlıqdan necə tərs olduğunu, inadkarlığını yaxşı bilirdi. Əvvəlcə istədi ki, Əbdülsəidi – Əbdül kişini, müdrikliyi, ağılı, düşüncəsilə elat arasında böyük hörmət sahibi olan Uğur kişini – Cahangir Mirzənin atasının Uğur kişi ilə dostluğunu yəqin ki, unutmazdı – çağırıb onlarla məsləhətləşsin, onları Cahangir Mirzənin arxasınca göndərsin. Doğrudur, buna da ümidi az idi ki, Cahangir Mirzə bu müdrik insanları qəbul edib onların dediklərilə razılaşa. Bu, yəqin ki, mümkün olmazdı. Amma yenə də Uğur kişini və Əbdülsəidi yanına çağırdı.

Birinci Əbdülsəid gəldi. Salamdan, hörmət-izzətli görüşdən sonra Sara Xatun Əbdülsəidə əyləşmək üçün yer göstərdi. Hələlik Cahangir Mirzə haqqında yox, bəylikdə adamların əhvalı haqqında soruşdu. Əbdülsəid kişi də yaxşı bilirdi ki, Sara Xatun onu buraya hal-əhval sorğu-sualına çağırmayıb. Bəs onda görəsən, bu çağırış nə üçündür? Əbdülsəid kişi xəyalında vərəvurd, götür-qoy elədiyi bir vaxtda Uğur kişi də gəlib çıxdı.

Sara Xatun Uğur kişi ilə də onun öz ad-sanına, ağsaqqallığına hörmət-izzət göstərərək ləyaqətlə görüşdü. Onu da yaxına dəvət elədi.

– Siz özünüz də yaxşı bilirdiniz ki, hadisələrin bu axarını heç birimiz istəməzdik. Amma gedişat artıq bizim istəyimizlə bağlı deyil. Cahangir Mirzəlikdən aralanıb, Bayandurlar nəslinin üstünə diş qıcayan Qaraqoyunlulular tərəfə üz tutub. Yəqin tezliklə Cahanşaha pənah aparacaq – Sara Xatun sözünü deyib sual dolu

baxışlarını bu müdrik insanların üzünə zillədi. Araya çökən qısa sükutu Əbdülsəid kişi pozdu.

– Cahanın anası, dünya-aləmin mübarək siması Sara Xatun bilməmiş deyil ki, Cahangir Mirzə hələlik Cahanşahla yox, Ağur xanla birləşib. Bu birliyin əsasında isə hələlik Cahangir Mirzənin daldalanmaq, özünə tərəfdar tapmaq istəyi dayanır. O, bu tezlikdə bizə tərəf yürüşə başlamaq imkanında deyil. Əbdülsəid kişi «Həsən Mirzəyə tərəf yox», «bizə tərəf» dedi. Bu da onu göstərirdi ki, əslində, Əbdülsəid kişi də Cahangir Mirzəni o qədər haqlı hesab eləmir. Amma istəmir ki, ana-oğul arasında kin-küdurət yaradacaq, qəzəbi alovlandıracaq nəsə desin.

– Hə, doğrudur, – bunu da Uğur kişi dedi. – Hörmətli Sara Xatun, biz bu dünyadan artıq heç nə istəmirik, – dedi, dayandı. Sara Xatun onun nə demək istədiyini axıracan bilmək üçün soruşdu:

– Bəs, sən bilən, bizim istəyimiz nədir, Uğur kişi?

– Bizim istəyimiz bu dünyadan haqqımıza düşən hörmət-izzəti almaqdır. Sayılmağı istəməkdir. Qara Yuluq Osman monqol əsillilərdən üzü bu yana nə Cahanşah nəslindən, nə də Qazi Bürhanəddindən o yana güc-qüvvə sahiblərindən – heç birindən əskik kişi deyildi. Amma hələ ki, zamanı gəlib çatmadığına görə qılıncını axıracan sıyırmadı. Vaxtı, zamanı gözlədi. Vaxt və zaman isə insanların istəyi ilə tələsmir.

– Bəlkə hələ yenə vaxtı, zamanı gəlib çatmayıb, Uğur kişi?.. – Sara Xatun Uğur kişinin sözünün canını istədi.

– Yox, yox, mən elə demək istəmirdim.

– Bəs nə demək istəyirdin, Uğur kişi?

– Mən demək istəyirdim vaxtı, zamanı indi gəlib çatıb. Qara Yuluq Osmanın Həsənə çatan qılıncı axıracan sıyrılmalıdır. Amma…

Burada Uğur kişi sözünü kəsib bir qədər müəmmalı-müəmmalı başını yellədi. Əslində, Sara Xatun Uğur kişinin nə demək istədiyini, onun hansı fikirdə olduğunu yaxşı bilirdi. Bu hörmət-izzət sahibi olan kişilər isə deyə bilmirdilər ki, ya Cahangir Mirzədən, ya

da bəyliyin taleyindən əl çəkməlisən. Bax, bunu deyə bilmirdilər. Ananın oğlunun başından keçməsi asan məsələ deyildi. Əslində, bu istəyin özü də təhlukəli idi. Sara Xatun onu da yaxşı bilirdi ki, bu kişilər can qorxusundan susub nəyisə gizləyə bilməzlər.

Əbdülsəid kişi başını ağır-ağır qaldırdı:

– Sara Xatun, yaşımızın o çağıdır ki, bir qaşıq qanımızdan qorxub həqiqəti gizlətmək bizə haramdır. Həqiqət qanımızdan da, canımızdan da daha üstündür. Həqiqəti danmaq Allahı danmaq deməkdir. Bizim qalan ömrümüz Allahın yoluna sidq və xidmətdir. Bu xidmət isə Allahın rizası ilə yalnız sizə yönəlikdir. Bir ləyaqətli bəndəyə – əgər Allahın yolunda düzdürsə – xidmət elə Allahın özünə xidmətdir.

Əbdülsəid kişi bu sözləri dedikcə Sara Xatunu da nəzərindən qaçırmır, hərdən onun üz-gözündəki dəyişmələrə nəzər yetirirdi. Sara Xatunun bəlkə heç özünün də xəbəri olmurdu ki, qəzəb meydanında qarşılaşan oğullarının bir-birini necə al qana qərq etmələrini gözlərinin qabağına gətirir və bu da onun üz-gözündə açıq-aşkar görünür. Özü də heyrət, dəhşət şəklində.

– Yox, yox, biz buna yol verə bilmərik.

Uğur kişi əllərini göyə qaldırıb: – Allaha şükür, – dedi.

Əbdülsəid kişi də salavat çevirib: – Allah özü xeyirə yönəldər, – dedi.

Sara Xatun bildi ki, bu dünyagörmüş insanlar söhbətlərində, məsləhətlərində ehtiyatlıdırlar. Hər nə deyirlər desinlər, fitvadan çəkinirlər. İstəmirlər ki, gələcək qan-qadalar üçün Sara Xatunun yadında fitva sahibləri kimi qalsınlar. Bəlkə də, təkcə Sara Xatunun yox, elə Allahın da yanında fitvanın nə qədər böyük günah olduğunu bildiklərindən məsləhətlərini ehtiyatla verirdilər. Uğur kişi Sara Xatunun həyəcanlarının səngiməsini gözlədi.

Ana iztirablar içərisində çırpındığından sanki inlədi. Onun «ah» səsi divarlara dəyib, geniş otağın tavanından dolanıb nəfəslikdən üzü göylərə tərəf sovruldu.

– Hörmətli Sara Xatun, qılınc güc deməkdir, qüdrət deməkdir. Qılıncı haqqın yolunda sıyırmaq günah deyil. Sənin ağlın, düşüncən bütün mahala bəs edəcək qədərdir. Bizim sənə məsləhət verməyimizin də bir təhəri var, həddi var. Uzun Həsən sənin oğlundur. Qoy o, qılıncının gücünü göstərsin, amma qəddarlıqla yox. Qardaşın qardaşı öldürməyi Tanrı yanında heç vəchlə bağışlanan deyil. Üstəlik, qardaş qardaşa qarşı qəddar olsa, Cahangir Mirzənin tabeliyində olan qüvvələrlə Həsənin tabeliyində olan ordu bir-birinə qarşı rəhm etməyəcək. Bu da son nəticədə bizim gücdən düşməyimiz olacaq. Bayandurlar nəslinin zəbun olacağı şəksizdir. Ona görə qoy Həsən Mirzə qılıncının gücünü göstərsin. Amma bu güc elə olmalıdır ki, nahaq qan, havayı qan axmasın.

Nə Uğur kişiyə, nə də Əbdülsəid kişiyə sirr deyildi ki, onların dediklərini Sara Xatun daha yaxşı bilir, özü də onların düşündüklərindən də artıq. Amma bir qərara gəlməsi üçün özünə simsar bildiyi bu adamların da fikrini öyrənmək istəyir. Həqiqətən belə idi. Sara Xatunu başqa bir məsələ də düşündürürdü. Əbdülsəid kişinin, Uğur kişinin, elə bu kimi adamların fikir və qənaətləri, məsləhətləri bəyliyin bütün camaatının düşüncəsi idi, qənaəti idi. Sara Xatun bu kişiləri danışdırmaqla, əslində, əyalətin adamlarının hamısının fikrini öyrənirdi. Onlar sağlam, ləyaqətli məsləhətləri ilə, əslində, Sara Xatunu inandırırdılar ki, bəyliyin əhalisi Uzun Həsənin tərəfində olacaq. Yəni Uzun Həsən yürüşə başlamaq istəsə, daha burada elə bir kimsə olmayacaq ki, başına əlavə qüvvə toplasın, Qara Yuluq Osman xanədanına qarşı – baxmayaraq ki, bu xanədan hələ bundan sonra çiçəklənəcəkdi – üsyan eləsin.

Sara Xatun onu bilirdi ki, əgər əyalətdə belə bir qüvvənin işartıları olsaydı, Uğur kişinin də, Əbdülsəid kişinin də az-çox xəbəri olardı. Demək, əslində, belə bir təhlükə gözlənilmirdi. Ancaq Sara Xatunu düşündürən başqa bir məsələdə vardı – Cahangir Mirzənin yanına elçilər göndərmək məsələsi. Bayaq söhbətlərinin əvvəlindəcə bunu onlara demək istəmişdi. Yalnız söhbətin uzan-

mağı qənaətini bir qədər ləngitmişdi. Analıq hissi yenidən ona güc gəlmişdi. Bəlkə, Cahangir Mirzəni yola gətirmək mümkün oldu. Elə hər şey beləcə asan başa gəlsəydi, ananın qəlbini didən qorxu hissi də sevinclə, fərəhlə əvəz olunardı. Axır ki, Sara Xatun özünü toplayıb üzünü Uğur kişiyə tutdu.

– Uğur kişi, bilirəm, sən də, Əbdülsəid kişi də bu bəyliyə sidq-sədaqətlə bağlısınız. Sizi heç nə bizdən ayıra bilməz. Dünyanın malına da göz dikən deyilsiniz. Cahangiri də uşaqlıqdan, körpəlikdən tanıyırsınız. Mən demirəm ki, elə sizin bir sözünüzlə Cahangir yola gələcək, haqqa qayıdacaq.

– İnanmıram – Uğur kişi qətiyyətlə bildirdi.

– Buna heç mən də inanmıram – Əbdülsəid kişi təsdiqlədi.

– Düz edirsiniz, amma mən başqa bir təhlükənin qabağını almaq istəyirəm.

– Aşkar olan məsələlərdən başqa daha hansı məsələlərdən söhbət gedir, Sara Xatun? – Əbdülsəid kişi dilləndi.

– Bilirsiniz, əslində, indi daha çox təhlükədə olan Cahangir Mirzənin özüdür.

Dünyagörmüş kişilərin hər ikisi Sara Xatunun nə deyəcəyini intizarla gözlədilər. Sara Xatun onları çox gözlətmədi: – Bilirsiniz ki, Sələbiyyə xan çox təhlükəli adamdır. Qüvvələr nisbətini o tülkü yaxşı bilir. Mən öyrənmişəm ki, hadisələrdən çox-çox qabaq o, ailəsini, qohum-əqrəbasını buradan köçürüb, uzaqlara aparıb. Bilmək olmaz, Osmanlılar tərəfə, yoxsa, Cahanşah tərəfə – hansı tərəfə aparıb, bunu biz bilmirik. Qarşılaşma məqamında da onun əmniyyət alacağına ümidi olmayacaq. O, yaxşı bilir ki, vəziyyət Cahangirin xeyrinə dəyişməsə, cəzasına çatacaq. Mənim qorxum ondandır ki, o, çıxış yolu görməyəndə, Cahangir Mirzəni ələ keçirib ya girov aparar, ya da öldürər. Onsuz da o, böyük xəyanətkardır. Onun üçün bu əlavə xəyanətlərin nə qorxusu ola bilər ki?..

Uğur kişi də, Əbdülsəid kişi də bir daha bu qadının nə qədər uzaqgörən, nə qədər dərin düşüncəli, böyük zəka sahibi olduğu-

na heyrətləndilər. Bu, heç onların ağıllarına da gəlməzdi. Sara Xatun hiss elədi ki, bu dünyagörmüş adamlar onun bu qənaətindən heyrətə gəliblər. Ancaq yenə onların müdrikliyi üzərinə kölgə salmaq istəmədi.

– Əzizlərim, siz unutmayın ki, mən anayam. Analıq hissi məni qabaqcadan xəbərdar eləyir. Daha dərin təhlükələrin olduğunu bilməyim bundan irəli gəlir.

Qocalar özlərində yaşlarına xas olmayan bir qıvraqlıq hiss elədilər. Hər ikisi doğrudan da Cahangir Mirzəni yola gətirmək üçün ümid işığının yandığını gördülər.

– Hə, indi məsələ sizə tam aydındır?

– Bəli, bəli, Sara Xatun – Əbdülsəid kişi ikisinin də əvəzindən cavab verdi, – aydındır.

– İndi bizim işimiz Cahangir Mirzəni yola gətirmək yox… – onu gözlənilən təhlükədən xəbərdar etməkdir. Uğur kişi onsuz da bilirdi ki, Cahangir Mirzəni yola gətirmək məsələsi havayıdır. Ancaq bunu təkrar olaraq Sara Xatuna demədi.

– Onun öz canını qoruması üçün. Yenə Əbdülsəid kişinin əlavəsi yerinə düşdü.

Vəziyyət tam aydın idi.

– İndi siz yola hazırlaşın – bunu Sara Xatun dedi.

– Doğrudur, daha vaxtı itirmək olmaz, Uğur kişi qətiyyətlə dilləndi və ayağa qalxdı.

Əbdülsəid kişi də bir qədər ağır-ağır «Ya Allah» deyib tərpəndi. Onlar qapıdan çıxanda Sara Xatun onların arxalarınca baxırdı. Haradasa ürəyinin dərinliklərində bir inam da var idi ki, bu ağıllı kişilər onlara tapşırılmayan işi də – Cahangir Mirzəni yola gətirmək işini də bacaracaqlar.

Bu, Sara Xatunun sonuncu ümidi idi.

Səhər açılırdı. Kimin yatıb-yatmadığının, kimin qara-qorxuda olduğunun fərqinə varmadan gecənin qaranlığı çəkilir, dan üzü sökülürdü. Bəlkə də əyalətdə – Amid bəyliyində bir kimsənin

oyaq olmağı başqa bir kimsənin ağlına da gəlməzdi. Bu adam nə bəylikdə, nə də bəyliyin tanıdığı adamlar sırasında görünən bir kimsə deyildi.

Adına Künəgü deyirdilər. İqamətgahdan bir qədər aralıda, Kəndivan deyilən yerdə yaşayırdı. Özü də Sələbiyyə xanla qohum idi. Künəgünün nə qədər ki, Sələbiyyə xanın Cahangir Mirzəylə əzizliyi vardı, kefi kök idi. Belə ki, ətraf kəndləri gəzər, adamlar, kənd-kəsək arasında Sələbiyyə xan haqqında kimin nə dediyini dinləyib sonra da eşidib bildiyini gəlib Sələbiyyə xanın ovcuna qoyardı. Künəgünün əsas işi həftədə iki dəfə Sələbiyyə xanın yanına gəlib haqqında adamların nə düşündüyünü sahibinə çatdırmaq idi.

Künəgü bu gün yenə vaxtında yuxudan oyandı. Yerindən qalxdı, gərnəşdi, səhər-səhər arvadının gətirdiyi şor-çörəyi yedi. Hələ bir arvadına qəzəbləndi də:

– Tez elə, boğazımda qaldı.

– Nə olub, bir az yavaş yesənə…

Xırıldaya-xırıldaya arvadına az qala yalvarışla:

– Su gətir, öldüm axı, – dedi.

Arvadı su gətirdi. Künəgü sudan bir-iki qurtum içib nəfəs aldı.

– Zalım qızı, bir az tez gətirə bilməzdin? Az qalmışdı boğulum.

– Boğulsaydın, nə olacaqdı? – Arvadı deyəsən, kinayə və nifrət qarışıq bir nəzərlə ərinə baxdı. Yaxşı ki, boğulmamısan. Sənin kimi bir adamı bir də haradan tapmaq olardı?

– Ay sağ ol, arvad, – deyəsən, Künəgü arvadının kinayəsini başa düşməmişdi. Hətta elə bilmişdi ki, heç onun əvəzi yoxdu. Ona görə də elə bil ki, bir ilhama gəldi, könlü doldu:

– Bəs necə bilirsən? Mən olmasam Sələbiyyə xan Cahangir Mirzə kimi bir adamın hüzurunda duruş gətirə bilər? Hansı gün, hansı sözü mən Sələbiyyə xana çatdırmasam, o da həmin sözü təhəriylə, qədəriylə Cahangir Mirzəyə çatdırmasa, onda bu məmləkət necə olar? – Künəgü sözləri üdüləyüb tökürdü. Fərqinə

də varmırdı ki, bu sözlərin nə qədərini arvadı yığışdırır, ya yığışdırmır. Amma görürdü ki, arvadı deyəsən, onu bu üdülədiyi sözlərə diqqətlə fikir verir və az qala qızıl yumurta kimi dediyi sözlərin hamısını yaddaş boğçasına yığır. Bir anlığa Künəgü arvadının gözünə baxdı. Özünü o gözlərdə çox kiçik gördü. Amma arvadı əlləri ilə onun çiyinlərindən tutub silkələyirdi. Elə bil demək istəyirdi ki, daha çox danış, daha çox de. Sənin danışdığın özündən daha qiymətlidir.

Künəgü danışırdı, ancaq onu bilmirdi ki, arvadı onun nə dediyinin fərqində deyil. O, nə danışır-danışsın, təki evinin dolanışığı olsun. İndi də vəziyyət qarışmışdı. Künəgü elə səhər yuxudan oyananda qapını açıb üzünü günəşə tutub dua etmək istəyirdi ki, qəfil bir bulud günəşin qabağını tutdu. Künəgü «Ay Allah, mən səndən bircə onu diləyirəm ki, mənə imkan ver Sələbiyyə xana qədərincə qulluq edə bilim» – bu sözləri hündürdən deyirdi. Bu zaman arvadı arxasında dayanmışdı. Ərinin bu qeyri-adi, imana-kitaba sığmayan duasını eşitdiyindən yaxına gəlib onun çiyni bərabərində dayandı.

– Ay kişi, o nə duadır edirsən? – soruşdu.

– Mənim Ağagülüm, sən nə düşünürsən? Biz dolanışığımızı, pulumuzu Sələbiyyə xandan alırıq. Əgər Sələbiyyə xan olmasa, onda biz nə edərik?

Arvadı Künəgünün bu sözlərinə istehza ilə başını yellətdi.

– Ay kişi, sən niyə elə düşünürsən? Ruzini verən Tanrıdır. Sən elə haqqa qulluq et, həqiqətə qulluq et. Bəlkə, onda elə bizim də dolanışığımız, işimiz düz gələr?!

Künəgü bir az düşündü. Bəlkə də, içindən nələr keçdi, onu dilinə gətirmədi. Amma arvadına nə isə deməli idi. Ona görə də başını yuxarı qaldırıb Ağagülümün düz gözlərinin içinə baxdı:

– Arvad, hərənin dolanışığı bir yerdən çıxır. Bizim də dolanışığımız Sələbiyyə xana xidmətlə bağlıdır. Allah onun ömrünü uzun eləsin…

– Ay kişi, mən bir söz demirəm, sən özün düşün, Sələbiyyə xan bu gün var, sabah yoxdur. Bəs onda sənin, mənim – evimizin güzəranı necə olacaq? Bəlkə bunu da gözündən keçirəsən?

Künəgü arvadının məsləhətqarışıq aydın yol göstərməyindən xeyli mütəəssir oldu. İki əli ilə başını tutdu. Axı, o bilirdi ki, iki gün əvvəl Cahangir Mirzə öz adamları ilə Amid bəyliyinin sərhədlərini tərk edib. Ona görə də Künəgü çox narahat idi. Birdən Sara Xatunun adamları onu çəkib bəyliyin iqamətgahına aparar, orada özü Sara Xatunla üzbəüz olardı. Əslində, indiki məqamda Künəgünü narahat edən, onu içindən silkələyən elə Sara Xatun kimi arif, dünyagörmüş bir xanımla üz-üzə gələcəyi qorxusu idi. Künəgü bu düşüncələrin içində səhərin açılmağını gözləmişdi. Özü də narahatlıqla gözləmişdi. Axır ki, bu səhər açılmışdı və bu səhərin açılmağı ilə onun üzünə, bəlkə də taleyinə yazılmış olan qara-qorxu da gəlmişdi. Çünki onun arvadı da elə bu səhərin özündə ona xatırlatmışdı ki, «Sələbiyyə xanın gəldi-gedərliyi var». Və elə bu düşüncələrin hakim olduğu həmin anda Künəgü yeri göyə, göyü yerə aparan düşüncələr arasında özünün haqqını tapmağa çalışdı. Və elə bu anda ağlına gəldi ki, «Ey dadi-bidad, Cahangir Mirzə getdi, Sələbiyyə xanı da özü ilə apardı. İndi mən kimin kimsənəsiyəm. Gərəkdir ki, öz yerimi, öz gücümü göstərəm». Künəgü bu düşüncələr içərisində çırpındığı anlarda gözlərinin qabağına arvadı, hələ boy-buxuna çatmamış uşaqları gəldi: «Bəs özü olmayacaq gündə onun halına kim yanacaqdı». Əslində, Künəgü həmin anlarda özünün taleyinə hökmü-fərman olurdu. Və öz-özünə düşünürdü ki, «Sələbiyyə xan ona xəbərdarlıq etmədən qaçıb gedibsə, özü də Künəgünün bildiyi kimi, ailəsini, qohum-əqrəbasını da yığıb aparıbsa, bəs onda Künəgü kimə pənah aparmalıdır?»

Künəgü bu məqamda dünyanın namərdliyini, alçaqlığını sanki bir insan timsalında – Sələbiyyə xanın özünün timsalında gözünün qabağına gətirirdi. Yaxşı günlərin sahibi ol. Nə varsa, hamısını – yaxşıdırsa, gör, götür. Elə ki, zaman bəd gəldi, qaç, canını qur-

tar. Bəs sənin üçün çalışanlar, bəs səni təhlükələrdən qoruyanlar niyə yaddan çıxsın? Künəgü bütün bunları düşünməklə, əslində, çıxış yolu axtarırdı. Yaxşı bilirdi ki, Sara Xatunun hər künc-bucağı iyləyən adamları onu tapacaq. Ona axır ki, bir sual verən olacaq: «Səni Sələbiyyə xana bağlayan nə idi? Sən hansı səbəblərə görə Sələbiyyə xanla belə yaxınlıq edirdin?». Axı Künəgü özü də yaxşı bilirdi ki, əkinlə-biçinlə məşğul olmur, payına düşən torpağı da ayrı-ayrı kəndlilərə vermişdi. O kəndlilərə ki, onlar həmin torpağı əkib-becərib ondan gəlirin müəyyən hissəsini ona verirdilər. Bir sözlə, Künəgü torpaqdan, mülkdən də bir az uzaq düşmüşdü. Əslində, bu, bir az deyildi. Neçə il idi ki, Künəgü öz gəlirini torpaqdan yox, əslində, Sələbiyyə xanla münasibətlərindən götürürdü. Bir sözlə, Sələbiyyə xan ona demişdi ki, bu bəyliyin gələcəyi böyük məmləkət olacaq. Və o məmləkətin sahibi də elə biz özümüz olacağıq. Düzdür, Sələbiyyə xan demişdi ki, tez-gec məmləkət Cahangir Mirzənin əlinə keçəcək. Və özü də indiki bəylik yox, qonşu ərazilər də – hamısı Cahangir Mirzəyə tabe olacaq. Ona görə də Sələbiyyə xanın bu izahları, bu inandırmaları Künəgünü yerindən eləmişdi. Nə edəsən? Qayıdıb öz kasıbçılığınla məşğul olasan, yoxsa, Cahangir Mirzənin sahib olacağı məmləkətdə Sələbiyyə xanın güc sahibi olacağını gözləyəsən? – Bütün bunlar hələ ki, söz-sov idi… Özü də elə bir söz-sov idi ki, nə ucu görünürdü, nə də bucağı…

Yaxşını yamandan ayırmağın bircə təhəri vardı: Sənə kim yaxşıdır, sənə kim pisdir? İndi Künəgü iki tərəfin arasında qalmışdı. Kim ona yaxşılıq edib, kim ona pislik edib? Nə qədər olmasa da, bugünə qədər Sələbiyyə xanın sayəsində ona hörmət göstərir, salam verirdilər. Bilirdilər ki, Sələbiyyə xanın adamıdır. İndi daha o da yoxdur. Sələbiyyə xan qaçıb gedib. Bəs indi neyləsin?..

…Ağagülüm ərinin dumanlı baxışlarından heç nə başa düşmədi. Nə illah etdi ki, əri ona nəyin pis, nəyin yaxşı olduğunu desin, gördü ki, heç nə demir. Ona görə özü də heç təkid etmədi. Lap ərinin qarşısına gəlib, düz gözlərinin içinə baxdı. Heç nə de-

mədi. Bu anlarda Künəgü bütün həyatını gözünün qabağına gətirdi: «Ya Rəbb, bu, necə hal idi? Bu, nə idi?» – Künəgünü fikir götürmüşdü. İndiyə qədər Künəgü elə bilirdi ki, arvadı dünyanın gəldi-gedərindən xəbərsizdi. Amma indi anlayırdı ki, arvadı dilsiz baxışları ilə onun necə çətin vəziyyətə düşdüyünü anlayır. Demək, Künəgü öz arvadından da gizlətdiyi indiki sirlərinə qədər olanlarını bir tərəfə qoyub çıxış yolu, bir sözlə, kömək uma bilər. Bəlkə də, bu, qeyrilərinə qəribə gələ bilərdi. Elə Bayandur nəslindən olanların çoxuna elə gələrdi – əlbəttə, Künəgünün keçirtdiyi hisslərdən xəbərdar olsaydılar.

Künəgünün evində olduğu kimi, digər evlərdə, ailələrdə də həqiqətən bir gərginlik yaşanırdı. Cahangir Mirzə nə edib, onun yolu hara aparacaq, yaxud Həsənin yolu nədən ibarətdir? Görəsən, Cahangir tərəfdə olmaq məsləhətdimi? Bu yaxşıdırmı və bu yaxşılığın tərəfində durmaq, onlara hansı xeyri gətirəcək və bundan qədərincə, axıracan barına biləcəklərmi? Bəlkə, heç belə olmayacaq? Bəlkə, Həsənin gücü-qüdrəti qədərincə oldu? O, bütün Bayandur nəslinin yiyəsi kimi özünü göstərə bildi. Bəs, onda necə olacaq? Ona görə də ayrı-ayrı adamlar çaş-baş qalmışdılar. Elə iqamətgahın divarları qabağında iki adamın üz-üzə gəldiyini də, onların qabaq-qənşər danışdıqlarını da Künəgü dinləyə bilsəydi, heç bəlkə də, qorxu-hürkü keçirməzdi. Künəgü evdən çıxıb iqamətgahın əsas sarayına tərəf gəlirdi. Və elə sarayın qabağındaca köhnədən tanıdığı adamlardan – biri Bayandur nəslinin bu tayından, biri də o biri tayından olan iki keçəpapağın qarşı-qarşıya üzbəüz danışığına qulaq kəsməli oldu:

– Ayə, xəbərin var? – Birinci keçəpapaq sual elədi.

– Nəyi deyirsən, ayə? – İkinci keçəpapaq suala sualla cavab verdi.

– A zalım balası, Cahangir Mirzə Qara Yuluq Osmandan qalan sərvəti özü ilə aparıb. Özü də deyib ki, kim ardımca gəlsə, bu sərvətdən ona da pay düşəcək.

Künəgü diqqət elədi. Evindən iqamətgaha qədərki məsafə o qədər də çox deyildi. Özü də çox sürətlə gəlmişdi. Hələ bir arvadının müəmmalı baxışları da yadından çıxmamışdı. Arvadı o baxışları ilə ona nə demişdi? Ondan nə istəyirdi? Əslinə qalsa, Künəgü üçün bütün bunların hamısı bir müəmma idi. Amma o, özünü Amid bəyliyinin iqamətgahına – Sara Xatunun hüzuruna çatdırıb nə deyəcəyini də dəqiq bilmirdi. İndi bu məqamda iqamətgahın divarlarının dibində bir-birilə qarşılaşan iki adamın sual-cavabı onun üçün oxuya bilmədiyi sehirli kitabın açarına dönmüşdü:

– A kişi, xəbərin var ki, Cahangir Mirzə bütün sərvəti özü ilə aparıb. – Bunu birinci kişi dedi.

– Allah səni salamat eləsin, sərvət deyəndə sən nəyi düşünürsən?

– Qardaş, mən Qara Yuluq Osmandan qalan qızılı, cəvahiratı düşünürəm.

– Ay Allah səni saxlasın. Ən böyük qızıl-cəvahirat elə Sara Xatunun özüdür. Sən əgər bir az başını işlətsən, görərsən ki, insan övladı son nəticədə gözü qamaşdıran qızıllardan çox insanın ağlını qamaşdıran sərvətə meyillidir.

– Ay kişi, Allah mənim bəsirət gözümü kor edib. Sən nəyi nəzərdə tutursan?

– Mən Sara Xatunun özünü nəzərdə tuturam. Bu, Amid bəyliyinin ən qiymətli cəvahiratı elə Sara Xatunun özüdür. Sara Xatun haradadırsa, böyüklük yeri də, səcdə yeri də oradır.

Künəgü böyründə dayanmış bu adamların danışıqlarını eşidəndə elə bil ki, yuxudan ayıldı. Hiss elədi ki, bu dünyanın işləri heç də Sələbiyyə xanın ona dediyi şəkildə dövr eləmir. Künəgü anladı ki, onun kimi adamların həyatı, taleyi düz olan nə varsa, onunla bağlıdır.

Künəgü ayaqlarının tərpənmədiyini, yerə mismarlandığını hiss elədi. Ha illah etdi ki, ayaqlarını qaldırıb bu adamların yanından yeriyib uzaqlaşsın, amma gördü, yeriyə bilmir. Düşündü ki,

bəlkə, bu da Allahın bir qismətidir. O, elə bu məqamda Tanrının ən düzgün yolunu seçməlidir, tapmalıdır. Bayaqdan bəri o, Sələbiyyə xanın kim olmağını Allahın dərəcəsində bilirdi. Amma işlərin gedişatı elə Amid bəyliyinin divarları dibindəki o iki keçəpapağın danışığındakı hikmət onu göstərirdi, bu məmləkətin üstündə bircə işıq var; o da Sara Xatundur. Künəgü özünün daxili aləmindəki bütün qaranlıqları qovmaq üçün Allahdan güc istədi: «Ya Allah, sən mənə elə bir güc ver ki, mən həqiqət hansı tərəfdədirsə, ona sarı gedim. Hansı tərəf doğrudur, mən onu doğru bilim». Künəgü bu məqamlarda doğrudan-doğruya tərəddüdlər içində boğulurdu. Axı indiyə qədər Sələbiyyə xanın ona görüm-baxımı sayəsində dolanışıq tapmışdı. Özünü də Sələbiyyə xana borclu hesab eləyirdi. Deyəsən, həqiqət Sələbiyyə xana borclu olmaqda deyildi. Künəgü beləcə də qərar qəbul elədi: – Yox, deyəsən, bu dünya Sələbiyyə xanın gücü ilə idarə olunmur. Bu, artıq Künəgünün qətiyyəti idi.

* * *

Diyarbəkirə çatandan sonra Ağur xanın Cahangir Mirzəni hörmət-izzətlə qarşılaması, ona hörmət göstərməsi Sələbiyyə xanı bir qədər arxayın salmışdı. Əlbəttə, bir qədər. Çünki yarı yaşını keçirmiş və Sələbiyyə xanın nəzərində hakimiyyət üçün qocalmış Ağur xan ciddi müdafiə tədbirləri görmür, gələcəkdə – özü də yaxın gələcəkdə – Uzun Həsənin güclü qüvvə ilə buraya hücum edəcəyini sanki ağlına da gətirmirdi. Amma Sələbiyyə xan bilirdi ki, Sara Xatun vaxtın uzanmağına yol verməyəcək. Ona görə ki, əgər vaxt uzanacaqdısa, demək, Cahangir Mirzə ordunu qüvvələrini daha da artıracaq, bəlkə, Bayandurlar nəslinin qədim düşməni, hələ Qara Yuluq Osmandan bəri onlarla ədavət aparan Cahanşah məmləkəti ilə də Uzun Həsənin əleyhinə razılaşmalar əldə edəcəkdi. İndiki halda Sələbiyyə xan öz canının hayına qalmışdı. Bilirdi ki, Sara Xatun elə bir tədbir sahibi qadındır ki, onun

dili ilanı da yuvasından çıxarar. Qarşısına gəlmiş, yaxud özünün yanına getdiyi hər hansı bir kişi ilə üzbəüz danışanda onu elə ovsunlayır ki, hətta ilan ovsunçusu qorxulu bir ilanı bu cür ovsunlamaqdan məhrumdur. Ən qətiyyətli kişi də Sara Xatunun dəmir məntiqi qabağında inad göstərə bilmir. Son nəticədə onunla həmrəy olur. Bunları Sələbiyyə xan anlayırdı. Anladığı üçün də canına qorxu düşmüşdü. Birdən Sara Xatun Cahanşahın hüzuruna adam göndərər, onunla görüş məqamı istəyər. O, elə bir güc sahibidir ki, düşməni də çevirib dost edər. Yəni Cahanşahı yolundan çıxarar, ədavəti də döndərər Cahangir Mirzənin arxalandığı qüvvələrə tərəf.

Sələbiyyə xan düşünürdü ki, əgər bu fikir onun ağlına gəlibsə, demək, Sara Xatunun da ağlına gələ bilər. Elə asanlıqla Diyarbəkir ərazilərinin bir hissəsini də Cahanşaha güzəştə getməklə, Cahangir Mirzənin qüvvələrini darmadağın edər. Onda Sələbiyyə xanın taleyi də həll olunmuş olar. Sələbiyyə xan vurnuxur, çıxış yolu axtarır, nə etmək lazım olduğunu düşünür, bir fikrin üzərində dayana bilmirdi. Bu, o demək deyildi ki, Sələbiyyə xan qətiyyətsiz adam idi. Yox, onun kifayət qədər özünə inamı, inadı var idi. Yaxşı bilirdi ki, o, öz taleyini yalnız özü qoruya bilər. Sadəcə, əl-ayaq etmək, hadisələrin gedişatını istiqamətləndirmək və bu Ağur xanın da daş təmkinini sındırmaq lazım idi. Hələlik Ağur xan Sələbiyyə xana o qədər də inam göstərmir, onunla hər hansı məsələnin müzakirəsindən çəkinir, daha vacib məsələləri də Cahangir Mirzəylə öz arasında – ikilikdə müzakirə etməyə çalışırdı. Bunu da Sələbiyyə xan hiss edirdi. Ona görə də ayrılıqda Ağur xanla nəyisə danışmağın, onu Cahangir Mirzənin üzərinə qaldırmağın, yaxud inam tərəzisinin daha ağır gözünü özünə tərəf çəkməyin də mənasız olduğunu başa düşürdü. O, əvvəlcə istədi ki, Cahangirsiz Cahanşahla əlaqələr qurmağa çalışsın. Tam məxfi, ancaq özünə aid sirr kimi. Bunu həyata keçirmək, bu məqsədini yerinə yetirmək ona təhlükəli gəldi. Çünki çox tezliklə Cahanşah-

la gizlincə əlaqə qurmaq istəyi məlum olar və bu zaman elə başlanğıcdaca Cahangir Mirzənin qəzəbinə tuş gələr. Nəticədə başını itirər.

Hələ arada ayrı məsələlər də var idi. Sələbiyyə xan Cahangir Mirzənin gətirdiyi sərvətə – yatıra da sahib olmaq, lap çətin olan bir məqamda o, bu sərvəti əlinə keçirib Cahanşahın, yaxud da Osmanlıların hüzuruna pənah aparmağı da düşünürdü. Demək, bu işdə tələsmək də ziyan gətirər – axır ki, bir qərara gəldi.

Bu gün Cahangir Mirzəylə hərbi dəstəni yoxlayacaq, birgə məşqlərə baxacaqdılar. Orada düşüncələrində aydın olmuş qərarlarını Cahangir Mirzəyə bildirərdi.

Çoxdan idi ki, Cahanşahın qohumlarından biri olan Qara Qıyı ilə yaxınlıq edirdi. Əslində, Qara Qıyı Cahanşahın oğlanlarından biri ilə münasibətləri korlamış, aralarında ciddi narazılıq olmuşdu. Eyni nəsildən olsalar da Cahanşahın oğlu Qara Qıyının nişanlısını ov zamanı Təbriz yaxınlığındakı kənddən keçərkən görmüş və onu bəyənmiş, demək olar, zorla alıb saraya aparmışdı. Qara Qıyı bunu özünə sığışdırmamış, növbəti ov səfərlərindən birində Cahanşahın oğlunu təkləyib üzbəüz gəlmişdi. Hətta qılıncı ilə onu yaralamışdı da. Doğrudur, yara xətərsiz olmuşdu, ancaq daha Qara Qıyı bu ətraflarda qala bilməzdi. Ona görə də başını götürüb Amid bəyliyinə qaçmış, bəylikdə ayrıca nüfuza malik olan Sələbiyyə xanın yanına gəlmişdi. Sələbiyyə xan onu yaxşıca dinlədikdən sonra nə vaxtsa kara gələcəyini düşünüb elə həndəvərində saxlamışdı. Sonralar bacısını ona verib qohum olmuşdu. Cahangir Mirzəyə məxsus olan tərəfdarlar dəstəsində də bir atlı bölüyünün başçısı eləmişdi. Əlbəttə, onun bacarığını, döyüşçü şücaətini gördüyü üçün. İndi Qara Qıyını yanına çağırıb onunla yaxşı tanıdığı Cahanşahın hüzuruna getmək yollarını məsləhətləşməli oldu. Söz yox, bunu Cahangir Mirzəylə bir yerdə edəcəkdi. Özü üçün ayrılmış və ordugaha yaxın olan yerdən çıxıb meydana tərəf getdi. Bu vaxt iki şəxsin də meydan ətrafında oldu-

ğunu görüb diqqət elədi: Bu adamlar kimi idi? Ona tanış gəlirdi. Qırımından, suyundan bu yerlərin adamlarına oxşamırdılar. Yaşlı adamlar idi. Hələ Sələbiyyə xana elə gəldi ki, çox qocalıblar.

Bu vaxt saraydan iki silahlı adam gəlib qocaları içəri apardı. Aralıdan gördüyü adamların kimliyini beynində vərəvurd edirdi. Bunlar kim ola bilərdi? Axı ona çox tanış gəlirdilər. Üz-gözlərini saç-saqqal basdığından ilk baxışdan tanıya bilməmişdi. Əlbəttə, arada məsafə də var idi. Əgər yaxına gəlmiş olsaydı, bəlkə, onların kimliyini anlayardı. Elə bu düşüncələrlə ordugahın təlim yerinə çatdı. Gərək Cahangir Mirzə çoxdan burada olmuş olaydı. O da hələ gəlməmişdi. Birdən Sələbiyyə xan nəsə anlayıbmış kimi, sağ əli ilə sağ dizinin üstünə vurub:

– Vay, mən necə tanımadım bu əbləh qocaları?! – dedi.

Amid bəyliyinin künc-bucağında gün-güzəranını keçirən Əbdülsəidlə Uğur kişi, şübhəsiz ki, buraya uğur gətirmək niyyətiylə təşrif buyurmamışdılar. Günün Əbdülsəid və Uğur kişi ilə başlaması, heç də yaxşı əlamət deyildi. İlanı yuvasından çıxaran Uğur kişinin dili Cahangir Mirzəni yerindən oynada bilərdi. Hələ üstəlik, Cahangir Mirzəyə uşaq vaxtlarında müəllimlik etmiş Əbdülsəidin də burada olması lap pis idi. İndi hər şeyə son qoya biləcək bir günün başlaması sanki Sələbiyyə xanı varından yox etmişdi. Elə bil ki, qarşı dağlar uçub üstünə tökülmüşdü. Necə olub ki, onun ağlına gəlməyib Sara Xatunun buraya elçilər göndərəcəyi fikri. Yoxsa, elə qocaları yoldaca qarşılayıb gəbərdər, cəsədlərini qurda-quşa yem edərdi. Sara Xatunla Uzun Həsən elə gözləyə-gözləyə qalardılar. Hər halda, o, bəxt quşunu uçurmuşdu. Elə bil ki, Sələbiyyə xanın içindən nəsə qırılıb düşdü. Daxili aləmində bir boşluq hiss elədi. Bir anlığa düşündü ki, Qara Qıyını da çağırıb yaxın adamlarını səfərbər eləməyi tapşırsın. Lap elə Cahangir Mirzə ordugaha yaxınlaşanda girəvəyə salıb onu girov götürsün. Özü ilə uzaqlara aparsın. Əlbəttə, ailə-uşaqlarını yerləşdirdiyi kəndə gedə bilməzdi. Çünki hadisələrin gedişatını dəqiq bilməyəcəkdi.

Girovluqda saxlayacağı Cahangir Mirzənin cəvahiratı harada saxladığını da öyrənə bilər. Elə onun əli ilə olan-olmazı da gətirdərdi.

Sələbiyyə xan bu əməlin son nəticədə faydasız olduğunu düşündü. Çünki Ağur xan Cahangir Mirzəyə sadiq qüvvələri tez səfərbər edər və onu təqiblə yaxalayardı. Şübhəsiz, həm Cahangir Mirzəyə sadiq qüvvələr, həm də Ağur xanın qüvvələri onu yaxalamaqla az qüvvəsini də bir göz qırpımında, bir su içimində darmadağın edər, özünü də əsir götürərdilər. Sələbiyyə xan – «təvəkkül Allaha», deyib işin sonrasını gözləməyə başladı.

İçəridə isə Cahangir Mirzəylə qabaq-qənşər iki qoca əyləşmişdi. Əbdülsəid sözə birinci başladı.

– Cahanın sərkərdəsi Vətəndən uzaqda özünü necə hiss edir? – Əbdülsəid kişi bu sözü təsadüfi demədi. Çünki hələ uşaq olanda, Cahangir Mirzəyə dərs deyib, elm öyrədəndə adətinə uyğun olaraq elə onun adından başlamışdı. Adının mənasını ona ilk başlanğıc kimi, elmlərin əsası kimi təlqin eləmişdi. Amma onu da öyrətmişdi ki, cahangirlik təkcə qılınc vurmaqla, döyüşməklə deyil, elə elm, savad almaqla da, hikmət öyrənməklə də dünyanın sahibi olmaq mümkündür.

– Cahanın sərkərdəsi deyirsən mənə, Əbdülsəid kişi?

– Niyə də deməyim, ay oğul?.. Sən ağlınla, fərasətinlə nəslinə başucalığı gətirməyə layiqsən.

– Bəlkə də elədir…

– Daha niyə bəlkə də?.. Buna sən nə üçün şübhə etməlisən? – Bunu da Uğur kişi dedi.

Cahangir Mirzə bir az təəssüf, bir az da istehzaqarışıq bir ovqatla gülümsündü. Araya çökmüş sükutu da özü pozdu:

– Bəs elə isə, onda niyə mənə öz haqqımı vermədilər?

– Ay oğul, Haqq Allahın adıdır. Haqqı verən də, alan da Odur. Gərək Haqqın bəndələri paylarına düşənlə qane olsunlar.

– Onda nə olacaqdı? – Cahangir Mirzə demək olar ki, Əbdülsəid kişinin sözünü kəsdi.

– O olacaqdı ki, siz qardaşlar bir yerdə daha yenilməz olacaqdınız. Ananla, qardaşlarınla aranıza nifaq düşməyəcəkdi. Sən də yerindən-yurdundan dərbədər olmayacaqdın.

– Əbdül əmi, – Cahangir Mirzə müəlliminə Amid bəyliyinin iqamətgahında, onun hücrəsində ustadından dərs aldığı günləri yadına salıb elə o günlərin əhvalı ilə müraciət elədi: – olan-olub, keçən-keçib, indi nəyi qaytarmaq olar?

– Çox şeyi, oğul. – Cahangir Mirzə Əbdül kişiyə müraciət eləsə də, çox şeyi qaytarmağın mümkünlüyünü Uğur kişi dedi. Sonra sözünə davam elədi. – Ən başlıcası, sən həyatını təhlükədən qurtaracaqsan.

– Mənim həyatım elə də ucuz deyil ki, Amid bəyliyindən buraya Uzun Həsən nizəsini uzadıb sinəmi deşik-deşik eləsin.

Bax, bu yerdə həm Uğur kişi, həm də ustad Əbdülsəid Cahangir Mirzənin sadəlöhvlüyünə çox təəssüf elədilər. Hər ikisi eyni vaxtda dərin peşmançılıqla başlarını silkələdilər.

– Təhlükə Uzun Həsənin nizəsində deyil. Xəbis adamların xəyanətindədir.

Cahangir Mirzə də elə-belə adam deyildi. Dalağı sancdı. Deyəsən, kişilərin minnətə gəlmədiyini, onun yanına nəsə vacib bir məsələnin xəbərdarlığı üçün gəldiklərini anladı.

– Deyəsən, siz ayrı məqsəd üçün gəlmisiniz, Əbdülsəid əmi. Sözlü adama oxşayırsınız…

Uğur kişi razılıqla başını tərpətdi. Əbdülsəid də əlini uzadıb Cahangir Mirzənin çiyninə çəkdi:

– Ay oğul, gərək sən biləsən ki, bu dünya nə ziyan çəkirsə, xəyanətkar adamların sayəsində ziyan çəkir. Bu dünyanı qarışdıranlar da elə beləlәridir.

– Sən kimi nəzərdə tutursan, Əbdül əmi?

Cahangir Mirzə hələ Əbdül kişinin nə deyəcəyinin fərqinə varmadan özü xəyanətkarın kim olduğu, bu kişilərin nəyi və kimi nəzərdə tutduqlarını xəyalında aydınlaşdırmağa cəhd elədi:

«Ağur xanı deyirlər? Axı, Ağur xanın Sara Xatuna, Uzun Həsənə böyük rəğbəti var. Heç Cahangir Mirzənin yanında da öz rəğbətini gizlətmir, hələ imkan düşəndə ona da təlqin edirdi ki, bəlkə, hələ körpülər axıracan yanmayıb. Sara Xatunla, Uzun Həsənlə əlaqələri yenə bərpa etmək olar?» Ağur xan Cahangir Mirzənin qətiyyətini gördüyündən dərinə getməmiş, bir qədər də vaxtın keçməsini gözləmişdi. Axı bəzən ən çətin məsələləri vaxt özü həll eləyir. Və bunu Cahangir Mirzəyə deməkdən də çəkinməmişdi. Cahangir Mirzə də Ağur xanın səmimiyyətini qəbul etdiyindən özü də vaxtın aliliyi ilə razılaşmış, Ağur xanın da bir qərara gələcəyini gözləmişdi. Bəlkə indi o vaxt bitmişdi? Görək, bu kişilər daha nə deyir? – Cahangir Mirzə düşüncələrini yekunlaşdırdı.

– Bəlkə bir qədər açıq danışasınız, Əbdül əmi?

Əbdülsəid keçmiş şagirdinin – yetirməsinin necə inadlı və həm də qızğın bir cavan olduğunu unutmadığından sözünü haradan başlayacağını düşündü. Bayaqdan bəri söhbətə az qoşulan Uğur kişi yenə birinci dillənməli oldu:

– Açığı, ay oğul, biz buraya Sara Xatunun özünün tapşırığı ilə gəlmişik. Gərək sən biləsən ki, heç bir ana övladının zəbun olmağını istəməz. Onu da yaxşı bilirsən ki, Sara Xatun ağıllı adamdır. Dağın bu üzündən baxanda, o biri üzünü də görür. Ona haradansa xəbər çatdırıblar ki, Sələbiyyə xanın başqa qəsdi var.

Bir anlığa Cahangir Mirzənin rəngi ağardı. Çünki Sara Xatunun gizli əlaqələrinin olduğunu yaxşı anlayırdı. Sələbiyyə xandan da şübhələnməyə həqiqi əsası ola bilərdi. Demək, həqiqətən onun canı təhlükə ilə üzbəüzdür.

Amma Cahangir Mirzə də Sələbiyyə xansız bir iş görə bilməzdi, bunu da yaxşı bilirdi.

Təzədən ziddiyyətli düşüncələrin arasına düşdü: «Görünür, bu dünyanın sirləri indi onunla üzbəüz əyləşmiş müəlliminin – bəyliyin hörmət sahibi olan ağıllı, müdrik Əbdülsəid kişinin öyrətdikləri qədər deyil, daha çoxdur. İndi bu həyat onu elə bir çı-

xılmazlıq qarşısında qoymuşdu ki, hansı tərəfə baxsa, bir cığır, iz də görünmürdü. Başını qaldırıb göyə baxdı. Elə bil ki, o, quyunun dibində idi. Üzü yuxarı – göyə tərəf gözünü zilləyib oradan kimin bir kəndir sallayacağını və o kəndirdən yapışıb bu quyunun dibindən çıxacağın təhərini fikirləşirdi.

Yox, yuxarıda bir kimsə, onun salladığı kəndir-filan görünmürdü.

* * *

Sara Xatun Cahangir Mirzənin yanına göndərdiyi adamların qayıdıb gəlməyini gözləmədən Uzun Həsənlə vəziyyəti ətraflı müzakirə üçün görüşü elə bu günə təyin etmişdi. Oğlunun xasiyyətini yaxşı bilirdi. İnadkarlığını, hakimiyyət istəyini, qardaşına güzəştə getməyəcəyini Uzun Həsənə danışmağa, deməyə lüzum yox idi. Onsuz da bundan kifayət qədər oğlu hali idi. Bir əsas məsələ var idi ki, tərəflərdən birinin güzəştə getməyəcəyi təqdirdə qanlı bir savaş, güzəştsiz bir qarşılaşma labüd idi. Əlbəttə, Sara Xatun çox istəyərdi ki, Cahangir Mirzə geriyə çəkilsin, qardaşı ilə barışıq təklifində olsun. Yalnız bu yolla onlardan ən azı birinin itkisi ilə Sara Xatunun sinəsi dağlanmaz, ürəyi yara almazdı. Əslində, ana qəlbi elə bu nigarançılığın iztirabını çəkirdi. Hərçənd ki, Sara Xatunun özü də Amid bəyliyinin süqutuna razı deyildi və o, bəsirət gözü ilə yaxşı görürdü ki, bu bəyliyi yalnız Uzun Həsən ucalda bilər.

Ətraf onsuz da qardaşların hər ikisinə qarşı diş qıcamışdı. Və belə şəraitdə Qaraqoyunlu araqarışdıranları, Əbu Səidin fitvaçıları sakit durmur, eyni vaxtda həm Uzun Həsənin, həm də Cahangir Mirzənin yanına elçilər göndərir, guya qarşıda olacaq savaşın mütləqliyini çatdırır və bu savaşda onun tərəfində olacaqlarını bəyan edirdilər. Sara Xatun yaxşı bilirdi ki, Uzun Həsənlə görüşə can atan, əlbəttə, elə Sara Xatunun özü ilə də görüşən adamların dediyi sözləri Cahangir Mirzənin yanına gedənlər də deyir. Onu aldatmaq asan məsələ deyildi. Ancaq bir məqam Sara

Xatunu ciddi narahat edirdi. Bu araqarışdıranlar qardaşları bir-birinin üstünə qaldırıb sonra onların necə gücdən düşməklərini gözləyirlər. Özü Uzun Həsənin yanında olduğu üçün oğlunu bu kələk torundan qoruya biləcəkdi. Şübhəsiz ki, Cahangir gələn təkliflərdən şirniklənərdi. Həm qüvvəsinin Uzun Həsənlə bərabər olmadığına görə onlardan kömək umardı və elə bu kömək istəyi də onu çıxılmazlıq toruna salar, axırına cıxardı.

Uzun illərdən bəri Sara Xatun görmüşdü ki, hakimiyyət ehtirası insanları necə ikiüzlü və yalançı eləyir. Tərəflər məqsədlərinə yetmək üçün hər cür dona girə bilirlər. Bir vaxtlar qayınatası Qara Yuluq Osmanın öz dayısı Qazi Bürhanəddinə qarşı qalxmasının və onu öldürməsinin də əsasında belə araqarışdıranların əməlləri durmuşdu.

Bu gün Sara Xatun özü Uzun Həsənin yanına gəldi. Hər bir əməlinin, hər bir sözünün arxasında nəyin dayandığını yaxşı bilən Sara Xatun Uzun Həsənin hüzuruna getməklə ona təlqin edirdi ki, o, böyük məqsədin – yaxın gələcəkdə gerçək olacaq böyük dövlətin başçısıdır. Nə qədər anasına hörmət və ehtiram göstərsə də, qoy Uzun Həsən özü dövləti müstəqil idarə etmək, qətiyyətli qərarlar qəbul etmək səlahiyyətinə malik olduğunu hiss etsin. Yoxsa, həmişəki kimi onu öz yanına çağırardı. Bir ana-bala söhbəti edərdilər. Və bu zaman hələ hakimiyyət taxtında qədərincə bişməmiş Uzun Həsən də indi artıq bütün bəyliyin anası kimi çağırılan Sara Xatunun təsiri altında olardı. Lazım gələn anda anasının xəbəri olmadan qətiyyətli qərar qəbul edə bilməzdi. Əlbəttə, bu da çox ciddi fəsadlar yaradardı. Bəzən məqamına görə, vaxtında qəbul olunan qərar, verilən hökm bir qoşunun görə biləcəyindən artıq gücdə olur. Bunları yaxşı bildiyi üçün oğlunun yanına özü getdi.

Uzun Həsən anasının içəri girdiyini görəndə taxtından ayağa qalxdı. O, kifayət qədər daşıdığı ləqəbə uyğun adam idi. Uzun boy, dolu bədən, açıq alın onu dayandığı taxtın qabağında daha əzəmətli göstərirdi.

– Bəyliyin anası xoş gəlib – Uzun Həsən birinci dilləndi.

– Bəyliyin hökmdarının hüzuruna gəlməkdə niyyətim budur ki, onun öz taxtında əhvalını soruşum.

Həqiqətən Uzun Həsən anasının gözündə indi daha yenilməz, daha qüdrətli idi. Ancaq bu yenilməz və qüdrətli görünən sima da anasını görəndə yanına qaçmaq istəyən körpə bir uşağa bənzəyirdi. Anasının üzündə gördüyü təbəssüm, onun gülümsər çöhrəsi bir anda Uzun Həsəni ovsunladı. O, bir-iki addım qabağa yeridi. Ana-bala qucaqlaşdılar. Sara Xatun da boyca hündür, əzəmətli bir xanım idi. Ancaq əlbəttə, Uzun Həsənə boyca çatmaq çətin məsələydi. Oğlu başını aşağı əyib anası ilə qucaqlaşdı. Bir anlığa Uzun Həsənə elə gəldi ki, bihuşdarı ətri duyur. Bu qoxunu o, uşaqlığından yadında saxlamışdı. Qardaşlar hələ körpə ikən qollarını açıb onları qucmağa hazır olan analarının hüzuruna necə yüyürürdülər.

Və hər dəfə Uzun Həsən elə uzun ayaqları ilə atdığı iri addımların sayəsində anasının qucağına birinci çatardı. Anasının mehriban nəfəsini, gül qoxusunu birinci alardı. Əlbəttə, o biri qardaşları da qucaqlayar, üç oğlunun şaqraq gülüşləri, səs-küyü anaya sanki qanad verər, göylərə uçardı. İndi bunlar keçmişdə qalmış, qardaşlar bir-birinə düşmən kəsilmiş və bir-birinin qanını da içməyə hazır idi. Və bir anlığa oğlanlarını üz-üzə qoyan hakimiyyət istəyini nifrətlə xəyalından keçirtdi. Bu istək onun gözündə yırtıcıya çevrilmişdi. Bu uzun caynaqlı yırtıcı pəncəsini atıb ananın varlığını parçalamaq istəyirdi. Ana isə varlığını övladlarında gördüyü üçün onları qucmaq, bu vəhşi ehtirasın əlindən qurtarmaq istəyir. Onları çəkindirmək üçün də öz canını məmnuniyyətlə bada verərdi. Fəqət, bu, mümkünsüz idi.

Sara Xatun oğluna taxtını göstərdi. Yəni yerində əyləş. Uzun Həsən öz yerinə keçdi, Sara Xatun da onun yanında özünə yer eləyib oturdu.

– İnanıram ki, bəyliyin anası yaxşı məsləhətlər üçün gəlib.

– Əlbəttə, ay oğul, mən bəyliyin anası olmaqdan əvvəl sənin ananam. Ancaq bu, o demək deyil ki, mən o biri qardaşlarının anası deyiləm. Sizin hər birinizin canı mənim canımdır.

Uzun Həsən bığlarının ucunu əli ilə çəkişdirməkdə idi. Anasının nə deyəcəyini, ona hansı təklifi edəcəyini qabaqcadan duymaq istəyirdi. İnanmırdı ki, anası ona qardaşının can qorxusu əvəzinə bəylik taxtından əl çəkməyi təklif eləsin. Yox, bunu Sara Xatun rəva bilməzdi. Çünki Uzun Həsən yaxşı bilirdi, Cahangir gələcək hakimiyyət sahibi kimi özünü doğrultmayacaqdı. Onun emosional təbiəti, deyilən hər sözə tez inanması, bu gün bir qərar qəbul edib, sabah onu dəyişməsi, sabitqədəm olmaması Sara Xatuna da məlum idi. Hər halda, onun qəlbində bir narahatlıq vardı. Axır ki, Sara Xatun da onu intizarda çox qoymadı.

– Ay oğul, Qara Yuluq Osman böyük cəsarət sahibi idi. Və elə o cəsarətin sayəsində Ağqoyunlu sülaləsinin sakin olduğu əraziləri qoruyub-saxlaya bilmişdi. Elə güman edirəm ki, sən Qazi Bürhanəddinin sonunu yaxşı bilirsən.

Yarım əsr əvvəlin hadisələri o vaxt hələ çox gənc olan Sara Xatunun xəyalından birər-birər gəlib keçdi… Qazi Bürhanəddin qəddar adam deyildi. Qurduğu dövləti də çox ədalətlə idarə etməyə çalışırdı. Həm də elə idarə etməyə çalışırdı ki, insanlar ondan narazı qalmasınlar. Rəhmdil və ədalətli olmağı onu insanlara sevdirmişdi. Amma bacısı oğlu düşmənlərin fitnəsinə uydu, ona qarşı qiyam qaldırdı. Qazi yanına ağıllı adamları elçi göndərdi. Ancaq bacısı oğlunu yola gətirmək mümkün olmadı. Onda o biri bacısının oğluna – yəni sənin baban Qara Yuluq Osmana üz tutdu.

– Hökmdar məni çağırıb?

– Bəli, Osman bəy, yaxına gəl. Sən bizim bəylikdə böyük hörmət sahibisən. Qoçaqlığın, cəsarətin də hamıya məlumdur. Mən sənin igidliyin sayəsində bir çox döyüşlərin qalibi olmuşam. On yeddi ildir ki, qurduğumuz dövlət Əmir Teymur, Toxtamış, Bəyazid və qeyriləri tərəfindən hədələnir. İnanmışıq ki:

*Əzəldə həq nə yapmış isə bolur,*
*Göz nəni ki, görəcək isə görür.*
*İki aləmdə həqqə sığınmışuz,*
*Toxtamış nə ola, ya axsax Teymur.*

Bu müddət ərzində biz ağılla döyüşüb onların cənginə keçməmişik.

– Təkcə ağıllamı, hökmdar? – Qara Yuluq Osman sual verdi.

Qazi başını qaldırıb bacısı oğlunun təkəbbürlü görkəminə nəzər yetirdi. Onun tüksüz sifəti, darağa gəlməyən seyrək, qısa saqqalı, ən başlıcası, gözləri sanki donmuşdu. Üz-gözündə heç bir titrəyiş hiss olunmurdu. Bəli, qazinin hüzurunda həmişəki kimi Qara Yuluq Osman cəsarətlə dayanmışdı. Bu, elə indicə yazıb bitirdiyi qəzəlini – qələm-dəvatını bir kənara qoyub əlini dizinə söykəyən şair hökmdarın çox xoşuna gəldi. Bacısı oğlunun cəsarəti onu sevindirirdi. Ən təhlükəli döyüşlər üçün Qara Yuluq Osman bir dəfə də olsun tərəddüd etməmişdi. İndi onu o biri bacısı oğlunun üzərinə göndərmək yəqin ki, asan olmayacaqdı. Qazi Bürhanəddin düşüncələrdən ayrıldı.

– Əlbəttə, təkcə ağılla yox, Osman bəy, özün yaxşı bilirsən ki, güc olmayan yerdə ağıl da karsız olur. İndi neyləyək? Qurduğumuz dövləti düşmənlərin felinə uymuş xalan oğlunun ayağına verək? – Qazi Bürhanəddinin bu sözlərində artıq onun şairliyi yox idi. Siyasət adamı, hərb başçısı kimi danışırdı. Və qiyam qaldırmış bacısı oğlu Əhməd bəyin ünvanını Qara Yuluq Osman bəyə çevirmiş – «xalan oğlu» demişdi. Bu da Qara Yuluq Osmanın nəzərindən qaçmamışdı. Və o dəqiqə anlamışdı ki, hökmdar qiyam qaldırmış bacısı oğlu ilə doğmalıq hisslərini düşüncəsindən çıxarıb. Artıq qiyam qaldırmış Əhməd bəyi düşmən kimi görürdü. Pis də orası idi ki, bu düşməni Qara Yuluq Osmanın qohumu kimi təqdim edirdi. Daha özünün bacısı oğlu kimi yox.

– Qiyamı yatırmağı sənə tapşırıram, – hökmdar sözlərini əmrlə, hökmlə, müzakirəyə yer qoymayacaq bir tərzdə dedi.

– Hökmdar, bəlkə, döyüşsüz qiyamı yatırmaq mümkün olar? Qüvvələrimizi də qoruyarıq.

Əlbəttə, Qazi Bürhanəddin ağıllı adam idi. Həm bacısı oğlunun ağıllı cavabı onu razı saldı, həm də bu cavabda ifadə olunan, duyulan inamı da nəzərindən qaçırmadı.

– Belə olsa, çox yaxşı!

– Ancaq bir şərtim var, hökmdar. – Qara Yuluq Osmanın ağzından çıxan «şərt» sözü deyəsən, Qazi Bürhanəddinin şəstinə toxundu, hökmdarlıq qüruruna dəydi. Lakin qəzəbini büruzə vermədi. Alt çənəsini qabağa verib üst dodağını dişlərilə didişdirdi. Bu da Qara Yuluq Osmanın nəzərindən qaçmadı və bildi ki, hökmdar daxilən qəzəblənib.

Qara Yuluq Osman yaxşı bilirdi ki, dayısı ilə hər hansı məsləhətləşmələrdə həmişə açıq danışıb və dayısı da bundan xoşlanıb. Amma indi duyurdu ki, bu həna, deyəsən, əvvəlkindən deyil.

Axır ki, Qazi Burhanəddin bacısı oğlunu axıracan dinləmək, səbrini basıb onun nə deyəcəyini, nə düşündüyünü bilmək istədi:
– Yaxşı, o nə şərtdir elə, qoçaq Qara Yuluq Osman bəy bizim qarşımıza qoyur?

Daha geri çəkilməyə yer yox idi.

– Hökmdar, mən Əhməd bəyin üstünə gedərəm. Qüvvəmlə onu qədərincə əzərəm. Ancaq itirilən qüvvə bəyliyin də sütunlarını sarsıdar. Çünki Əhməd bəy də asan həzm olunan yem deyil. Asanlıqla da sinəsini ox qabağına verməz. Yəqin ki, hökmdara da məlumdur, o, bizim bəyliyə düşmən olan qüvvələrdən də yararlanmaq qəsdindədir.

– Bəs onda təklifin nədir?

– Mən Əhmədbəyi hökmdarın hüzuruna gətirərəm. Döyüşsüz, vuruşsuz…

– Aha…

Deyəsən, hökmdar bir qədər təəccübləndi. Bəlkə də həmin anlarda qazinin varlığına bir şübhə toxumu da səpilmişdi. Bəlkə elə

düşünmüşdü ki, Əhmədin qiyamında Qara Yuluq Osmanın əli var. Amma hər halda Qara Yuluq Osman Əhmədi onun hüzuruna gətirməyə də vəd verir. Bu, yaxşı idi. Bəs onda, Qara Yuluq Osmanı tərəddüdə salan nədir?

– Əhməd bəyi gətirirsən hüzurumuza və bununla da münaqişə sona çatır.

– Doğrudur, hökmdar, münaqişə sona çatır. Amma onun ağır cəzaya məruz qalacağı məni nigaran edir.

– Bəs onda necə olsun, Əhməd bəy qiyam qaldırsın, düşmənlərlə birləşsin, biz də onu bağışlayaq?

– Başqa yolu yoxdur, hökmdar. Gərək Əhməd bəyi bağışlamağı da bacaraq. Bununla da hakimiyyətin əsası olan nəslimizin də arasında narazılıq düşməz. Hər kəs öz yerini bilər. Hökmdarın da ədaləti, rəhmi bir daha aləmə car olar, hər kəs hökmdarın ömrünə dualar edər.

Qazi Bürhanəddin xeyli fikrə getdi, susdu. Əhmədi bağışlamayacağını desə, Qara Yuluq Osmanı da özündən narazı salar. Gözaltı bacısı oğlunu bir də süzdü. Elə indicə qapının ağzında keşik çəkən cəngavərləri çağırıb Qara Yuluq Osmanın əl-qolunu bağlayıb zindana da atdıra bilərdi. Bilirdi ki, orduda onun yaxşı nüfuzu-hörməti var. Onu da yaxşı bilirdi ki, o, bu bəyliyi Qara Yuluq Osmanın sayəsində qoruyur. Yox, bu qoçaq sərkərdəni asanlıqla zindana salmaq olmazdı. Qoy gedib Əhmədi gətirsin. Əhmədlə haqq-hesabı kəsər, Qara Yuluq Osmanın da könlünü alar. Bununla da söz-söhbət qurtarar. Qazi Bürhanəddin fikirli-fikirli pıçıldadı:

*Neçə ki, gögdə günəş seyranıdur,*
*Bu cəhan ərənlərün meydanıdur.*
*Yevü yedürgil, alü bağışlağil,*
*Hər zaman bir yigidün dövranıdur…*

Qazi Bürhanəddin azacıq sükutdan sonra bayaqdan ondan cavab gözləyən Qara Yuluq Osmana tərəf döndü:

– Yaxşı, sən istəyirsən ki, Əhmədi bağışlayaq. Mən istəməsəm də, təklifin ağıllı olduğu üçün qəbul edirəm.

– Hökmdarın başı uca, taxtı əbədi olsun. Mən inanmaq istəyirəm. Çünki Əhmədi də inandırıb hüzurunuza gətirərəm. Gərək, onun can qorxusu olmasın.

Hökmdarın xəyalı yenə dolandı. Onun daxilində baş qaldıran qəzəb tufanları gözlərində oynayan odlu şimşəklərdən görünürdü. Ancaq başqa yolu yox idi.

– Yaxşı, mən söz verirəm, Əhmədin heç bir can qorxusu olmayacaq. Buyurub gedə bilərsən.

– Var olun, hökmdar, mən öz işimi bilirəm, – Qara Yuluq Osman Qazi Bürhanəddinin hüzurundan mürəxxəs oldu…

* * *

Sara Xatun söhbətini burada saxladı. Xeyli dinmədi. Başını qaldırıb oğluna baxdı. Həsənin də gözləri harasa, naməlum bir nöqtəyə tərəf yönəlmişdi. Elə bil ki, oğlu donmuşdu. Hərəkətə gəlmir, dinməz-söyləməz baxırdı. Bəlkə də dinib anasının canlanmış xəyallarını qarışdırmaq istəmirdi. Ona elə gəlirdi ki, həmin anlarda babası Qara Yuluq Osmanın gözlərinin içindən bütün ciddicəhdlə hakimiyyətinə xəyanət eləmiş bacısı oğlunu şaqqalamağa hazır Qazi Bürhanəddinə baxır. Onun içinin əsəbini, alovlanmış kinini görür. Həmin anlarda Qara Yuluq Osmanın gözlərindən baxan Uzun Həsən bir anlığa özünü Qazi Bürnahəddinin yerində hiss elədi. Və elə bu zaman anladı ki, anası bu əhvalatı ona nə üçün danışır. Bəlkə də, bu, bir tarixi hadisə kimi ayrı-ayrı vaxtlarda da xatırlanır, təfərrüatları ilə olmasa da, hər halda hadisənin mahiyyətini – Qara Yuluq Osmanın Qazi Bürhanəddinlə münasibətlərinin son anı haqqında, əlli il əvvəl baş vermiş və indi artıq əfsanəyə çevrilmiş bu əhvalatı bilirdi, eşitmişdi – atasından eşitmişdi. Keçmişi tez-tez yada salmayan, uzun ömür yaşasa da, demək olar ki, qocalığı hiss olunmayan Qara Yuluq Osman bir

çox hadisələri, ancaq özünə məlum olan olayları danışmağı xoşlamazdı. O vaxt həmin əhvalatdan sonra olanları müxtəlif adamlar söz-söhbətə çevirmiş, məclislərdə danışmışdılar. Şubhəsiz, bu barədə Uzun Həsənə Amid bəyliyinin divarları arasında elmdən, kitabdan dərs alan, adamlar arasında davranış qaydaları öyrədən, Şərq hökmdarlarının tarixini yaxşı bilən və bunu Cəlaləddin Əlinin övladlarına da başa salan Əbdülsəid də yeri gəldikcə danışmışdı. Şübhəsiz, Əbdülsəid kişi Uzun Həsənin babası ilə bağlı hekayəti bir mərdlik, düzlük əhvalatı kimi yozurdu. Bununla Uzun Həsənə öyrətməyə çalışırdı ki, həyatda da və demək, elə hərbdə də, idarəetmə işlərində də insan öz təbiətinə gərək zidd getməsin. Bəli, Əbdülsəid kişi bir düzün bütün əyriləri kəsdiyini Uzun Həsənə bu yolla öyrədirdi. Amma indi anasını dinlədikcə sanki ilk dəfə idi ki, bu əhvalat haqqında eşidirmiş kimi diqqət kəsilmişdi.

Hələ anasının söhbətinin gerisini dinləməmiş ona aydın olan bu idi ki, hökmdar gərək özündən kiçik də olsa, məsləhət verənin kimliyini unutmasın. Çünki hər bir məsləhətin daxilində günəşin belə dağıtmağa qadir olmadığı qaranlığı yarıb keçən bir həqiqət var. Bu yerdə Uzun Həsənin xəyalından keçdi ki, olub-keçmişləri danışan anasının iztirablarına son qoymaq naminə nə üçün danışdığını başa düşdüyünü, anladığını desin. Sara Xatun isə elə danışırdı ki, əgər Uzun Həsən bu əhvalatın gerisini dinləməsəydi, anasının heysiyyətinə toxunmuş olardı, ana qəlbi inciyərdi. Sara Xatun danışdıqca gah xəyallanır, olub-keçmişləri xatırladıqca bəzən kövrəlir, bəzən də Qara Yuluq Osmanın cəsarətli, mərdimərdanə üzə dediyi sözləri çözdükcə qürurlanırdı.

Uzun Həsən açıq-aşkar hiss edirdi ki, Sara Xatun qayınatasının qəhrəmanlığı, kişiliyi ilə fəxr edir, qürurlanır. Hərdənbir də həyalanıb baş yaylığını qabağa çəkir, üzünü örtürdü. Bunu da Uzun Həsən başa düşmək istəyirdi. Zabitəli, zəhmli, bircə baxışından yeri-göyü nizama salan qayınatasını gözlərinin qabağında hiss edirdi. Elə bil Sara Xatun – gənc bir gəlin təkcə evin, ailənin

yox, bütün bəyliyin başbiləni, yiyəsi olan kişi ilə – Qara Yuluq Osmanla üz-üzə dayanırdı. Və Qara Yuluq Osman ona təlqin edirdi ki, mən ölməmişəm, sağam və sənin gözlərinin qabağındayam. Gərək olan-olmazı necə varsa, elə – bütün təfərrüatlarınacan nəvəmə çatdırasan. Qoy o, hansı məkanda, hansı məqamda qaranlığa düşsə, mənim ömür yolum ona örnək olsun, yoluna işıq salsın. Ona qaranlıqdan çıxmağın yolunu, təhərini göstərsin.

Sara Xatun oğlunun da haldan-hala düşdüyünü hiss edirdi. Və onu da başa düşürdü ki, oğlu bu əhvalatı axıracan dinləmək istəyir. Çünki Amid bəyliyinin və artıq əsasını qoyduqları Bayandurlar sülaləsinin hakim olduğu Ağqoyunlular dövlətinin bünövrəsi, əsası həmin hadisə ilə qoyulub. Yəni nə qədər qəddarlıq və qəzəb qılınc oynatmış olsa da, nəticədə hadisələr daha ədalətli axara düşmüş, Qara Yuluq Osmanın qətiyyəti onu öz halal haqqına yönəltmişdir…

Doğrudur, əgər Qara Yuluq Osman və Qazi Bürhanəddin qarşılaşması olmasaydı, ola bilsin ki, bu gün Uzun Həsən və Cahangir Mirzə arasındakı ixtilaf da olmazdı. Çünki ixtilafların əsas mənbəyi hakimiyyət idi. Bu hakimiyyət isə Qazi Bürhanəddin nəsli ilə davam edəcəkdi. Amma indi Qara Yuluq Osmanın qətiyyəti sayəsində Qazi Bürhanəddin hakimiyyətinin sona çatması ilə Bayandurlar nəslinin hakimiyyətinə gün doğmuşdu. Əlbəttə, Uzun Həsən öz düşüncələrində bir qədər qabağa gedirdi. Anasının hələ danışmadığı əhvalatın sonluğundan nəticə çıxarırdı. Və birdən Uzun Həsən ayılmış kimi oldu. Onu hər tərəfdən qapsamış xəyallarını qovdu. Özünü fikirdən ayırdı. Və diqqətini anasına tərəf yönəltdi. İndi onun gözlərində bir yalvarış da vardı. Bir gənc, bir yeniyetmə istəyi ilə anasının söhbətini davam etdirməsini arzulayırdı.

Sara Xatunun üzünə nurlu bir təbəssüm qondu. Gülümsədi, tarixi həqiqətləri acgözlüklə dinləmək istəyən oğlunun diləyi onun da könlünü ilhama gətirmişdi. Və indi elə söhbətini davam

etdirmək, tarixi həqiqəti bir dərs kitabı kimi oğluna öyrətmək istəyirdi.

…Qara Yuluq Osman Qazi Bürhanəddinin hüzurundan çıxdı. Qazinin gözləri hələ də Qara Yuluq Osmanın getdiyi tərəfə dikilib qalmışdı. Hirs-hikkə onun içini yeyib-dağıdırdı. Qara Yuluq Osmandan əvvəl qabağına çəkdiyi qələm-dəvatı bir qədər də kənara itələdi. Taxtının böyrünə söykədiyi iti qılıncına nəzər yetirdi. Əl atıb qılıncın qəbzəsindən yapışdı. Qılıncın ucunu yerə dirəyib özünə dayaq elədi, ayağa durdu. Sürətlə Qara Yuluq Osman gedən tərəfə yeridi; siyirməqılınc… Elə bil ki, elə həmin andaca Qara Yuluq Osmanın arxasından çatıb heç xəbərdarlıq eləmədən iti qılıncını onun boynuna çəkəcək, başını siyirib yerə salacaqdı.

Bir anlığa Qazi Bürhanəddinin gözünün qabağında Qara Yuluq Osmanın təəccüblə ona baxan bərəlmiş gözləri göründü. Baş tappıltı ilə yerə düşmüşdü. Əlləri-qolları titrəyir, ayaqları yığılıb-açılırdı. Ancaq gözlər təəccüblə baxırdı. Sanki Qazidən, öz dayısından soruşurdu ki, axı nə üçün? Sən məni niyə öldürdün? Mən ki, sənin taxt-tacını qoruyurdum…

Qara Yuluq Osmanın qapıdan çıxdığı yerdəcə Qazi Bürhanəddin dayandı. Yenə qılıncının ucunu yerə dirədi, dayanıb ətrafına göz gəzdirdi və birdən… qəhqəhəylə gülməyə başladı.

– Ha.. ha.. ha… Sənmi güc göstərirdin mənim qabağımda?

– Mən sənin qabağında güc göstərmirdim.

– Bəs niyə belə odlu-odlu danışırdın?

– Mən həqiqəti deyirdim. Həqiqət isə həmişə oda bükülmüş olur.

– Axı sənin danışığında bir iddia görürdüm

– Yox, mənim danışığımda iddia yox idi. Mən ona təəccüblənirdim ki, sən bacın oğlu Əhmədə qarşı bu qədər qəddar olmamalı idin. Çünki sənin qəddarlığın hakimiyyətin sonluğunu yaxınlaşdırırdı.

– Mən qəddar olmamışam, ədalətli olmuşam.

– Bəli, iş də elə budur. Xalq səni öz ədalətli hakimi kimi tanıyırdı. Ancaq bircə qəddarlığın bəs edəcək ki, bu xalqın da, saray əyanlarının da gözündən düşəsən.

– Yox, mən səninlə razı deyiləm.

– Niyə, hökmdar? – Sanki Qara Yuluq Osman sonuncu dəfə Qazi Bürhanəddinin şübhələrini dağıdıb, ona həqiqəti dili ilə dedirdəcək qəti bir sual verdi.

– Çünki mən hiss edirdim ki, sən Əhməddən daha təhlükəlisən. Əhmədin əlində qılınc, ixtiyarında qüvvə var. Onun qılıncını da əlindən almaq, ixtiyarındakı qüvvəni də bir şəbxunla məhv eləmək olar. Ancaq sənin qoşun içərisində nüfuz və hörmətin var, ən başlıcası, sənin qüvvəni əlindən almaq olmazdı.

Qara Yuluq Osmanın bərəlmiş gözləri, açıq ağzından ağaran dişləri Qazi Bürhanəddinə istehza elədi. Sanki Qara Yuluq Osman soruşurdu: – O nə qüvvə idi ki, onu mənim əlimdən almağa sənin gücün çatmazdı?

– O sənin ağlın idi, düşüncən idi. Mən səni məmləkətdə hamıdan ağıllı və cəsarətli görürdüm.

– Səni qorxudan da elə bu idi?

– Bu, azdımı?

Haradansa qəfil meh əsdi. Qazi Bürhanəddinin üzünə sərinlik dəydi, havalanmış başı sakitləşdi, ətrafına baxdı. Dərindən nəfəs aldı, xəyallar yox oldu… Nə Qara Yuluq Osman vardı, nə də onun üzüb atdığı baş.

Qazi sınmış, əyilmiş, öz-özündən utanırmış kimi xəcalət görkəmində təzədən söykəndiyi qılınca, bir də elə indicə aralandığı taxtına baxdı. Zərblə qılıncı bir küncə tulladı, taxtına tərəf yeridi. Bayaq kənara itələdiyi qələm-dəvatının yanına gəldi. Axırıncı yazdığı qəzəli mətləsindən başlayıb məqtəsinəcən oxudu. Qəzəldə hökmdarın yox, bir aşiqin iztirablarından bəhs olunurdu. Sevgi bu aşiqi əridib muma döndərir, yanan şamın sozalmaqda olan işığı kimi o, can çəkirdi…

*Şəha, hicrün ilə zaram, irax səndən, irax səndən,*
*Firaqun ilə yanaram, irax səndən, irax səndən.*

*Nigara, xüftə gözündən ki, məstəm, olmuşam məxmur,*
*Anınçün gecə bidaram, irax səndən, irax səndən.*

*Gözündən qanıdur yaram, buyurmaz isən ey yar, əm,*
*Gərək ki, yürəgüm yaram, irax səndən, irax səndən.*

*Mənə əm desə ləblərün, nola, çünki təbibümdür,*
*Çü hicranunla bimaram, irax səndən, irax səndən.*

*Tapundan ayru bazaram, özümdən dəxi bizaram,*
*Firaq oduyla yanaram, irax səndən, irax səndən…*

Şeirlərini yazdığı nazik kağızları əli ilə tərpətdi. Vərəqlər bir-bir onun barmağının arasından keçdikcə yeni misralar xəyalında canlanmağa başladı. Yenə onun könlü eşq ilə havalanmış, lirik duyğularla köklənmişdi. Birdən ona elə gəldi, dünyanın hər yeri qaranlıqdı, işıq yalnız bu kağızların, vərəqlərin üzərinə düşür. Hər şeyi mənasız, gözündən düşmüş kimi gördü. Bir anlığa onun gözündə hakim olduğu sarayın, xəzinəsindəki qızılların, cəvahiratın heç bir dəyəri olmadı. Bütün bunların hamısından əl çəkib bir sakit guşədə, bir kasıb daxmada şeirlərini yazmaqla ömrünü başa vurmaq istəyi bütün varlığını çulğamışdı. Bəli, indi o, hiss edirdi ki, hakimiyyət də, güc də, sahib olduğu qızıl da – hamısı ötəridir. Qalsa-qalsa, ondan yalnız bitirməkdə olduğu «Divan»ı qalacaqdı.

İndi o, iki divanın arasında idi. Biri yazdığı, yaratdığı incə ruhlu qəzəllərinin toplandığı «Divan», o biri onun hakim olduğu divan. Sözlə süslənmiş «Divan» onu yaşamağa çağırır, həyata səsləyirdi. İnsanlar arasında olmaq, bir bulaq başına yığılmış gözəllərin çiyinlərində cürdəklə sıralanması onun üçün dünyanın bütün nemətlərindən üstün idi. Neçə il əvvəl uzaq dağlardan bulaq suyu çəkdirib gətirmişdi. Sarayın qabağındakı gözəl bağ-bağçaya axan suyun duruluğu, şəffaflığı, şırıltısı, rübab simlərindən qalxan sə-

da kimi onu səsləyirdi. Şövqlə arxın kənarında əyləşib güllərə, ağaclara can verən suya baxardı, şair könlü havalanardı…

*Nələr edərsin bizə, hay sən nigar olmamış,*
*Kimdür sənün yoluna zarü nizar olmamış.*

*Ləlü ləbün eşqinə çoxlar içərlər süci,*
*Bəndən özgə kişi yox, anda xumar olmamış…*

*Ləblərini görübən qurumayınca qanlar,*
*Keyiklər göbəyində müşki-tatar olmamış.*

*Dəgməyincə yürəgi kirpigün oxlarına,*
*Hərgiz güli-suridə suzəni-xar olmamış.*

*Həm sayədürür canum hicrün qəminə çoxdur,*
*Ləblərün arası tək hüsnü-civar olmamış…*

İkinci divanın da Qazini çəkən tərəfləri vardı. O, rəqibləri ilə döyüşmüş, vuruşmuş, Anadolu bəyliyini yaratmışdı. Elə indinin özündə də çoxları bu bəyliyi dağıtmağa canavar kimi diş qıcayırdı. Çoxlarının da iradəsini Qara Yuluq Osmanın sayəsində dəf eləmişdi. İradəcə zəif, hakimiyyətə marağı olmayan oğlunun köməyinə bel bağlamaq olmazdı. Ona yağı kəsilən bacısı oğlu Əhmədin, bayaq qəzəblənib, xəyalən başını üzmək istədiyini Qara Yuluq Osmanın gücü, ağlı olmasaydı, qurduğu dövləti heç idarə də edə bilməzdi.

– Yox, deyəsən, bu divan daha güclü oldu. – Qazi asta-asta yeriyib bayaq kənara atdığı qılıncını götürdü və yenidən taxtına qayıtdı. Əyləşdi, indi bütün məmləkət gözünün qabağında idi. «Yox, Qara Yuluq Osmanı öldürmək olmaz», – düşündü. O, hələ yaşamalıdır, bəlkə, oğlumun hakimiyyətinə də dayaq olacaq. Bu hakimiyyətin uzun yaşaması Qara Yuluq Osmanın sədaqətindən asılıdır – bütün bunları düşündükcə bayaq Qara Yuluq Osmanın başını xəyalən üzdüyünə indi xəcalət çəkirdi. – Yox, mən gərək qəzəbimi qədərincə boğa biləm. Ancaq Əhməd gərək cəzasına çatsın. Çünki

xainləri bağışlayanda bədxahlar xainə çevrilir. İmkan düşən kimi güclərini göstərmək istəyirlər. Hələ ki, olanı-olmazı buradaca saxlamaq lazımdır. Qoy Qara Yuluq Osman Əhmədi gətirsin, sonrasına baxarıq. Hələ bayaq Qara Yuluq Osmanın gözlərinin içinə baxıb elə bu cür düşünmüşdü. Və o da bir şübhə kimi qəlbinə dolmuşdu ki, Qara Yuluq Osman onun niyyətindən şübhələnə bilər. Yox, Qazi hakimiyyətin sirrini qabaqcadan heç kimə verməzdi.

…Anadolunun yuxarılarında duman dolanırdı. Yazın ılıq nəfəsi aşağıların qarını çoxdan əritmişdi. Bulaqların suyu gurlaşmış, çöl-çəmən cana gəlmişdi. Sarayın pəncərəsindən bağçaya baxan Qazi al-əlvan güllərin açıldığını gördü. Onun taxtı elə qoyulmuşdu ki, o, pəncərədən bayır tərəfi yaxşı görə bilirdi. Pərdələr də kənara çəkildiyindən indi güllərə sonsuz zövqlə baxırdı. Yerindən qalxıb heç nəyə əhəmiyyət vermədən bağçaya endi.

Koldan-kola daraşan qaratoyuqlar, qızılgüllərə sarmaşan bülbüllər şaqraq nəğmələr oxuyurdular. Yenə Qazinin şair könlü dilə gəlmişdi. Eşq iztirabları yaşayan aşiq misra-misra nəğmələrini ifa edirdi:

*Bahar oldı gülə başladı lalə,*
*Qılur gülşəndə bülbül yüz əlalə.*

*Dilü canü könül mənimlə durmaz*
*Bizi səhraya qılurlar həvalə.*

*Rəbi oldı mühərrəmdür təğafül,*
*Susamış neçə səbir edə zülalə.*

*Bu bir canumı canana verürəm,*
*Deynüz qaziyə ki, yazsun qəbalə.*

*Könül hərçənd ki, eşqi ilə gəldi*
*Sənün ilə gərək irə kəmalə.*

*Günəşdən ayrılıcax ay olur bədr,*
*Mən ayrılalı bənzədüm hilalə.*

* * *

…Sələbiyyə xanın canına-qanına qorxu işləmişdi. Elə bil kürkünə birə dolmuş və bu acgöz birələr canına elə daraşmışdı, sakitlik tapmır, bir yerdə qərar tuta bilmirdi. Düşünürdü ki, hadisələrin gedişatı nəzarətindən çıxa bilər. Şübhəsiz, Əbdülsəid və Uğur kişinin onların arxasınca buraya gəlib çıxmaları xeyirə heç nə vəd eləmir. Onlar az vaxt içərisində belə sürətlə – dabanbasma Diyarbəkirə gəlib çıxıblarsa, demək, Sara Xatun nə isə ciddi bir tədbir görmək niyyətindədir. Onsuz da Sələbiyyə xana da, Cahangir Mirzəyə də məlum idi ki, Uzun Həsən onların ayrılıq əməli ilə asanlıqla barışmayacaq. Sirr ondaydı, onların arxasınca nə özləri gəlib, nə də ayrıca hərbi dəstə göndəriblər. Bəlkə Uzun Həsən qüvvələri səfərbər edə bilməyib? Ola bilər ki, Amid bəyliyinin əsas qüvvələri Cahangir Mirzənin hakimiyyətini istəyir. Ya, bəlkə bu, bir tələdir?

Yoxsa Cahangir Mirzəni inandırıb, geriyə çağırmaq, sonra da onları hərbi qüvvədən təcrid etməklə asanlıqla öldürmək, aradan götürmək istəkləri var?

Sələbiyyə xan belə düşünsə də, o da ağlına gəlirdi ki, Sara Xatun nə qədər dövləti, mənafeyi, başqa sözlə, Uzun Həsənin hakimiyyətini qorumaq istəyindədirsə, bir o qədər də Cahangir Mirzənin ölümünü istəməz, çünki Sara Xatunun oğlanlarına məhəbbəti böyük idi. O, bütün gücü ilə çalışar ki, oğlanlarını barışdırsın və bununla yenə onları birləşdirsin.

Ömrü boyu duru suları bulandırmaqla, özünü hifz edib qoruyan və elə bu yollarda hərbi işlərdə təkcə bacarığı ilə yox, fəndgirliyi ilə seçilən Sələbiyyə xan kifayət qədər nüfuz qazanmış, orduda bacarıqlı dəstəbaşılar arasında nüfuza sahib olmuşdu, mənsəb tutmuşdu. İndi hadisələr onun istədiyi kimi cərəyan eləmirdi. O, istəsə də, istəməsə də baş verənlərə müdaxilə etmək imkanlarından məhrum olmuşdu. Belə vəziyyətdə hadisələrin

sürətini ləngitmək, Cahangir bəyi bir qədər də qızışdırmaq, ən başlıcası, Ağur xanın özünü Cahangir Mirzədən təcrid etmək üçün vaxt qazanmalı idi. O, Cahangir Mirzəni yenidən çənəsinin altına almalı, baş verən hadisələri çək-çevir etməli, inandırmalı, əgər ağasının tərəddüdləri varsa, onu bu tərəddüdlərdən çıxartmalı idi. Sələbiyyə xan hiss eləyirdi ki, hadisələr elə qarışıb, heç onun özü qəti bir qərara gələ bilmir. Səbəbi də bu idi ki, Sara Xatundan gələn elçilərin Cahangir Mirzəylə Ağur xanla danışıqlarından xəbərsiz idi.

– Yox, mən bu işləri belə qoya bilmərəm – Sələbiyyə xanın dediyi bu sözlər qeyri-ixtiyari olaraq hündürdən səsləndi. Elə bil ki, kiməsə deyirdi. Və elə o kimsə də deyəsən, ona cavab verdi.

– Hə, nə olub, Sələbiyyə xan, sən çox belə haqq-hesablardan keçmisən. Sən o qədər dolaşıq düyünləri açıb, o qədər açıq kələfləri dolaşdırmısan ki, indi baş verənlər onların yanında heç nədir.

– Yox, bu da heç nə deyil. Bu da ağır məsələdir. Burada canın tələf olmaq, başın ərməğan getmək qorxusu var. – Qarşısında dayanan ikinci Sələbiyyə xana ömründə heç vaxt olmayan bir səmimiyyətlə cavab verdi. Elə onun özü ilə üzbəüz dayanan Sələbiyyə xan da ona pis demədi:

– Bəlkə, elə can qorxusundan yana çaşıb qalmısan?

– Yox, mən çaşıb qalmamışam. Yollar axtarıram. Onu da bilirəm ki, axtardığım yol uzaqda deyil, elə Ağur xanın bu hasarının içərisindədir.

– Onda bəs nəyə görə dirənib durmusan? – Qarşısındakı xəyalının bu tələb qarışıq sualı Sələbiyyə xanı tərəddüdlərdən qurtardı, ayağa durdu. Uzun çuxasını silkələdi, sanki öz yaxasından tutub nəyisə tələb eləyirdi. Ya bəlkə də onun özünü sarmış qarışıq düşüncələrdən çırpınırdı. Bütün ikili fikirləri özündən kənara qovurdu.

– Mən indi gedərəm Cahangir Mirzənin yanına. Əgər hələlik onu inandıra bilməsəm, gərək saqqalları sinələrinəcən enmiş qo-

caların başlarını bədənlərindən ayıram, elə saqqallarındanca tutub bir kolluğa fırladam. O başlar daha Sara Xatunun hüzurunda saqqallarını yelləyə-yelləyə heç nə danışmasınlar. Əgər xəbər Sara Xatuna gec çatarsa, o da ləngiyər. Bir tədbir görə bilməz və biz də o vaxta qədər Qaraqoyunlu Cahanşahdan kömək alarıq. Yox, əgər Cahanşah hərbi kömək vermək istəməsə, elə onun yanında daldalanarıq. Hadisələr də səngiyər, Cahangir Mirzənin hansı qərar qəbul edəcəyindən asılı olmayaraq, onda olan sərvətdən payımı götürüb, dağlara – ailəmin yerləşdiyi uzaq yerlərə varar, oradan Osmanlı tərəflərə üz tutaram.

– Əşi, lənət olsun zəmanəyə, indi elə qarışıb ki, heç baş açmaq olmur. Bilmirsən, kim kiminlə dostdur, kim kiminlə düşməndir. Sələbiyyə xan qoşuna baş çəkmək üçün getməli idi. Orduda təlimlərin necə keçdiyini yoxlamalı, Cahangir Mirzənin xəzinədarı ilə göndərdiyi pul-paranı əsgərlərə paylamalıydı. O, bu vəsaitdən də özü üçün ayrılmış olandan artıq götürəcəkdi. Vaxtilə Əbdülsəid üləmanın hüzurunda Cahangir Mirzə və qardaşları ilə birgə dərs alarkən onun dediyi sözləri yadına saldı: «Bax, bütün ömrünüz boyu tamahdan uzaq olun. Tamah sizi hörmətdən salar. Hələ bir az da artıq olsa, vaxt gələr divan qabağına çəkər, zindanlara atar, ölümə məhkum olarsınız». Bu sözləri Əbdülsəid kişidən əmanət kimi alıb yadında saxlasa da, ömrü boyu onu tərsinə çevirib, özünə düstur eləmişdi. Əməl düsturu, həyat düsturu. Yəqin ki, indi ona görə də həmin sözləri istehza ilə xatırladı. Və xəyalından keçən «yaxşı ki, bu əbləh qocanın sözlərinə aldanmadım, özümə qaragünlük topladım, yoxsa indi dilənçi kökündə olardım. Uşaqlarım da ac-yalavac olardı. Ailəmin yanında xəcilliklə ömrümü başa vurardım». Sələbiyyə xan indi bu düşüncələrini tərsinə çevirib, ağlına gətirmədi ki, tamahın qulu olmasaydı, heç indi çöllərə də düşməzdi. Ailəsi, uşaqları Vətəndən dərbədər olmazdı. Divan-dərə yanında da hörmətini, nüfuzunu qoruyub saxlayardı.

– Əşi, cəhənnəm olsun hər şey. Qoy xəzinədar pulu özü paylasın. Elə bilərəm ki, günüm ziyana işləyib, xeyrim olmayıb. Əvəzində daha vacib məsələlər var, onun arxasınca getməliyəm. – Sələbiyyə xan Cahangir Mirzənin harada olduğunu düşünüb yerini yəqinləşdirdi və sürətlə həmin yerə tərəf addımladı.

Birazdan o Cahangir Mirzənin yanında idi. Qəflətən gözlərinin qabağında peyda olmuş Sələbiyyə xanı görəndə, Cahangir Mirzə təəccübləndi. Axı Sələbiyyə xan həmişə deyirdi ki, əsgərlərə pul-paranı öz nəzarətimlə paylayıram ki, heç bir əsgər narazı qalmasın. Bəs indi görəsən nə vacib iş idi, Sələbiyyə xan, özünün dediyi kimi, məsul işi bir tərəfə qoyub, buraya gəlib. Ola bilər, xəzinədar əsgərlərə çatası vəsaiti verməz, ləngidər, bu da başıpozuqluq yaradar. Cahangir yaxşı bilirdi ki, bir əsgərin cüzi vəsaitə görə narazılığı bir döyüşçünü itirmək deməkdir. Əgər döyüşçü rəhbərinə inamı itirirsə, o, ürəklə döyüşməyəcək. Başını girləyəcək, bəlkə də könüllü əsir düşəcək. Həm də bu elə bir haldır ki, yoluxucu xəstəliyə bənzəyir. Vəba kimi orduda sürətlə yayılar. İndi Cahangir Mirzə bu səbəbdən dilxor olub, üz-gözünü turşutmuşdu. Heç Sələbiyyə xanın salamını gözləmədən soruşdu:

– Nə olub, belə başılovlu gəlmisən?

– Əvvəla, cahanın sərkərdəsinə salam olsun.

– Olsun. – Cahangir Mirzə dodaqucu dilləndi. Bu, o demək idi ki, sualıma cavab ver.

– Cahanın sərkərdəsi, mən yanına məsləhətə gəlmişəm. Bəlkə elə Əbdülsəid üləma və Uğur kişinin burada olmasından istifadə edib, hələ vaxtı keçməmiş bəzi tədbirləri tökək?..

Cahangir Mirzə tədbir tökmək məsələsinə maraq göstərdi. İndiki halda onun ciddi məsləhətlərə ehtiyacı vardı. Bir də onsuz da Uğur kişi ilə ustad Əbdülsəid onun başına şübhə toxumu əkmiş, düşüncələrini qarışdırmışlar. Cahangir Mirzə odla su arasında qalmışdı. Bir tərəfdən hakimiyyət hərisliyi, qardaşı Uzun Həsənə qarşı düşmənçilik, o biri tərəfdən məğlubiyyət və bundan sonra

taleyinin necə olacağı… Daxilən çırpınırdı. Hansı yola üz tutmaq, bəlkə hər şeydən əl çəkib, anasına – elə onun göndərdiyi elçilərdən üzrxahlıq sifarişi göndərmək, səhvini boynuna almaq, bəlkə elə ən düzgün yol bu idi. Bir tərəfdən də anasının xəbərdarlığı… söhbət o xəbərdarlıqdan gedir ki, Cahangir Mirzənin həyatı əsasdır. Əbdülsəid kişi ona demişdi, «ay oğul, sən bizim dediklərimizə inanmaya bilərsən, amma ana ürəyi daha həssasdır. Onun duyduğunun qarşısını heç nə ala bilməz. Əgər Sara Xatun sənin canın sarıdan ciddi narahatlıq keçirməsəydi, heç bizi sənin yanına da göndərməzdi».

Cahangir Mirzə artıq Sələbiyyə xanı təkcə qoşun başçısı, özünün yeganə dayağı kimi yox, həm də bir xəyanətkar kimi görürdü. O, indi Sələbiyyə xandan hər an ehtiyatlanmalı idi. Və Cahangir Mirzənin özünə də qəribə gələn burası idi ki, artıq Sələbiyyə xan onun gözünə başqa cür görünürdü. Onun hər hərəkətində bir hiylə sezirdi. Və ona təəccüblənirdi ki, necə olub bu tülküsifət insanın bu qədər hiyləgər, fəndgir olmağından xəbər tutmayıb. Doğrudur, Cahangir Mirzə artıq bunları başa düşsə də, geriyə çəkilmək, səhvlərini etiraf eləmək istəmirdi. Nədənsə, bunu zəiflik, qorxaqlıq hesab edir, bütün Bayandurlar nəsli arasında biabır olub, hörmətdən düşəcəyi kimi başa düşürdü. Həm də Uzun Həsəndən ayrılıb onunla gələn qüvvələrin arasında Bayandurlar nəslinin güclü simaları vardı; bölük başçıları qoçaq, igid kişilər. Doğrudan-doğruya təkcə var-dövlət üçün yox, gələcəkdə hakimiyyət zamanı bir mənsəb tutmaq yox, Cahangir Mirzəyə inamdan ona qoşulmuşdular. Bəs indi onlara nə cavab verəcəkdi? Hər halda, özünün sonu bilinməyən bu əməli ilə onları da odun ağzına atmışdı: «Yox, axırı nə olur-olsun, o, geriyə çəkilməyəcəkdi. Bu Diyarbəkir qalasının arasında ölüb qalsa da döyüşçü şərəfini uca tutacaqdır». İndi Sələbiyyə xanın gəlişi həm də yerinə düşmüşdü. Onlar birlikdə qərara gəlib, Sara Xatunun elçilərini geriyə yola salmalı idilər.

– Yaxşı, gəl yaxına. Nə tədbirin var? – Cahangir Mirzə Sələbiyyə xandan soruşdu.

Sələbiyyə xan çənəsini güclə örtən saqqalını sığalladı. Artıq saqqalına dən düşmüşdü. Hələ bəzi yerlərində topa ağ tüklər də vardı. Sələbiyyə xan əlini saqqalına çəkməklə keçmişini yada salır, qazandığı təcrübədən necə faydalanmağı düşünürdü. Hiss edir ki, ustad Əbdülsəid ilə Uğur kişinin buraya gəlib çıxmaları Cahangir Mirzənin əhvalını xeyli dəyişib, qarşısındakı artıq indiyə qədərki tanıdığı Cahangir deyil. Və asanlıqla onu inandıra bilməyəcək. İnam isə elə təhlükəli bir sipərdir ki, harayacan desən, səni qoruyar, ancaq ona çat düşdüsə, bərpa eləmək, həminki vəziyyətinə qaytarmaq da çətindir. Get-gedə bu çat dərinləşəcək və nəhayət, ovulub-töküləcək. İnsan müdafiəsiz qalacaq. Bəli, Sələbiyyə xana olan inama indi çat düşmüşdü. Sələbiyyə xan bütün hissiyyatını səfərbər elədi. Heç bir səhvə yol vermədən bacardığı qədər səmimi olmağa çalışdı. Əlbəttə, həqiqi səmimiyyətdən söhbət gedə bilməzdi. Sələbiyyə xan səmimi görünmək üçün bütün çarələrə əl atmalı idi.

– Hə, cahanın sərkərdəsi, doğrudur, bizim qüvvəmiz azdır. İmkanlarımız məhduddur, düşündüyümüz kimi, Ağur xanın da elə bir qüvvəsi yox imiş. O, qalanı bizə təslim elədi. Əslində, hakimiyyəti də sənə verdi, ancaq bununla iş bitmir.

– Bəs neyləməli? – Cahangir Mirzə səbirsizliklə Sələbiyyə xanı cavaba çəkdi.

– Deyirəm bəlkə… – Sələbiyyə xan sözün davamını ləngitdi.

– Nə bəlkə? Nə deyirsən? – Bəlkə onu deyirsən ki, hər şeydən əl çəkib qayıdaq Uzun Həsənin hüzuruna. Başımızı aparıb onun qılıncının altına qoyaq. O da bizi təhqir eləsin. Gözlərimizi çıxartsın, boynumuzu vursun. Ən yaxşı halda bütün olan-qalanımızı alsın. Müddəti bilinməyən vaxtacan zindana atdırsın.

Sələbiyyə xan Cahangir Mirzənin bu hökmlü, düşüncələrinə belə bələdliklə dediyi sözlərin qabağında çaşdı: «Bu nə məsələ

idi? Az qala bütün düşündükləri Cahangir Mirzəyə əyan idi». Və hiss elədi ki, Cahangir barışıq məsələsinə razı deyil. Ona görə də fikrini dəyişdi:

– Deyirəm, bəlkə, hələ Sara Xatunun elçilərini bir qədər ləngidək. İnanıram ki, Uzun Həsən elçilərin cavabını gözləmək üçün təmkin göstərəcək.

– Sələbiyyə xan, mənası yoxdu, bu məsələnin axırı görünmür.

– Cahanın sərkərdəsi, biz o vaxtacan Cahanşahdan cavab alarıq. Üstəlik, başqa bir yol da tapmaq olar. – Sələbiyyə xanın buraya qədər dediklərini onsuz da Cahangir Mirzə də düşünmüşdü, onun «başqa da yol tapaq» deməsi, nədənsə, Cahangir Mirzəyə bir ümid işığı kimi göründü. Bir qədər mərhəmliklə Sələbiyyə xana baxdı. Onun dillənmədiyini görüb handan-hana özü dedi:

– Sələbi, – Sələbiyyə xana bu adla müraciət elədi və xeyli dinmədi. – O, gənclikdə həmyaşıdı olan Sələbiyyə xana həmişə belə müraciət edərdi. Və həmin o keçmişdə qalan həmyaşıdlıq günlərində Sələbiyyə də ona «Cahani» deyərdi. Lap hərdənbir «Cahi» də deyərdi. Bir-birinə sataşardılar: – Sən deyəsən Cahi yox, Cahil dedin ha. Sələbiyyə də and-aman eləyərdi ki, yox, sənə cahil deməmişəm, sən mənə tülkü dedin.

– Mən sənin öz adını deyirəm də.

– Bu adı elə mənə sən qoymusan. – Bu gənclik, yeniyetməlik zarafatları onların dostluğuna mane olmazdı. Sələbiyyə də həmişə Cahangir Mirzəyə sədaqətlə qulluq göstərərdi. Bu da Cahangirə çox xoş görünərdi. İndi bir anlığa Cahangir Mirzə xəyalən gənclik dostunun sədaqətli günlərini yada saldı. Ona həmin səmimiyyətlə ürək qızdırdığını göstərdi. Doğrudur, Cahangir Mirzə indiki anlarında əlacsız və köməksiz idi. Və Sələbiyyə xanın da ona xəyanət edəcəyi təqdirdə tək-tənha qalacaqdı. İndi ona gənclik dostluğunu yada salmaqla, sanki demək istəyirdi ki, sən mənə xəyanət eləmə, sən məni tək qoyma. Sələbiyyə xan Cahangir Mirzənin gəncliyindəki adı ilə ona müraciət etməsindən təsirləndi. Ayağa

qalxıb Cahangirin boynunu qucaqlayıb, o üzündən – bu üzündən öpdü:

– Mənim əzizim, sənsiz mən kimə lazımam? Mənim bütün həyatımın mənası sənsən.

Sələbiyyə xan bu sözləri deyib Cahangir Mirzədən ayrılanda onun gözlərinin yaşardığını da dostu gördü. Təzədən onlar diz-dizə əyləşdilər.

– Mənim ürəyimin parası. Xilas olmağın bir yolu da var. Əlbəttə, əgər Sara Xatun və Uzun Həsən bizə inansa – Sələbiyyə xan sözünü bitirdi. Amma yenə nə deyəcəyini aydınlaşdırmadı.

– Sələbi, sən açıq danış.

– Başımın tacı, biz kişiləri inandırıb Sara Xatunun yanına göndərək. Onlar da Sara Xatunu əmin etsinlər ki, bizdən Amid bəyliyinə heç bir xətər toxunmayacaq. Onların da hakimiyyətini qəbul edirik. Gələcəkdə Amid bəyliyinə kim hücum edərsə, biz bəyliyin tərəfindən döyüşə atılarıq. Ancaq qoy bizim yarımmüstəqilliyimizi də onlar qəbul etsinlər.

Cahangir Mirzənin gözlərində işıq yandı. Həqiqətən, Sələbiyyə xanın bu məsləhətində ümidli məqamlar az deyildi. Əlbəttə, Sara Xatunu və Uzun Həsəni inandırmaq mümkün olsaydı.

Cahangir Mirzənin eyni açıldı, gözləri güldü, üzünə xoş təbəssüm işıq saldı. Ağur xanın Cahangir Mirzəyə ayırdığı iqamətgahın bir tərəfində yaraşıqlı, yanlarına ipək çəkilmiş taxt yuxarı başda idi. Bayaqdan bəri heç taxt ağlına da gəlmirdi ki, gedib əyləşsin. İndi onun arzularına baxanda kiçik görünən Diyarbəkir ağalığının hakimiyyət qoxusu bütün ətrafa yayılmışdı. Özünü xəyalında yaratdığı dövlətin taxtında hesab elədi. Uzun Həsən qorxusu da yavaş-yavaş canından çıxmaqda idi. Taxtda yerini rahatladı.

– Bəlkə, qocaları yanımıza çağıraq?

Sələbiyyə xan Cahangir Mirzənin qocaları çağırmaq təklifinə etiraz etməsə də, əlinin işarəsilə «hələlik dayan» dedi.

– Bəs niyə, nə üçün dayanaq? – Cahangir Mirzə yenə teztovluq elədi.

– Mənim ürəyimin parası, onlar Ağur xanın hüzurundadı. Biz əgər onları ayrılıqda dəvət edib Ağur xanın yanından çıxarsaq xanın xətrinə dəyə bilər. Axı indiki vəziyyətdə xanın özü də bizə gərəkdir.

Cahangir Mirzə Sələbiyyə xanın bu sözlərindən sonra həqiqətən yersiz tələsdiyini hiss etdi. Sağ əli ilə alnını ovuşdurdu. Nəsə bir qərara gələ bilmirdi. Yenə Sələbiyyə xana üz tutmalı oldu.

– Bəs indi nə məsləhət bilirsən, neyləyək?

– Mənə qalsaydı, biz əvvəlcə ayrılıqda Ağur xanla danışar, sonra qocaları söhbətə çəkərdik.

– Onda sən elə indidən get Ağur xanın yanına, məsələnin vacibliyini də de, biz birlikdə məsləhətləşək.

– Düşünürəm ki, vaxt itirməyə dəyməz, biz elə indi Ağur xanla görüşməliyik.

...Ağur xan onları mehribanlıqla qarşıladı. Ayağa durub Cahangir Mirzəylə, sonra isə Sələbiyyə xanla görüşüb əvvəlcə Cahangir Mirzəyə, sonra da Sələbiyyə xana yer göstərdi.

– Qara Yuluq Osmanın nəvəsi Cahangir Mirzənin əhvalı yaxşıdırmı? Özünü qəriblikdə bilmir ki?..

– Xeyr, xan sağ olsun! Bizə çox böyük hörmət-izzət göstərilir. Əhvalımız da gördüyün kimi yaxşıdır.

– Amma deyəsən, Qara Yuluq Osmanın nəvəsi sözlü adama oxşayır...

– Elədir, xan. Sənə məlum olduğu kimi, qardaşım Uzun Həsənlə mənim aramda inciklik düşüb. Açığı, mən özüm bu incikliyə tərəfdar olmasam da, bu, artıq baş verib. Məlumun olar ki, Uzun Həsən, yəni mənim qardaşım qədərincə kinli adamdır. Özü də bu hadisələrdən bərk qəzəblidir. Bəllidir ki, qocaları da buraya təsadüfi göndərməyib.

Cahangir Mirzə bu sözləri Ağur xana deyəndə daha ona qocaların gətirdiyi əsas əhval korlayan xəbər haqqında heç nə demədi.

Yəni Sara Xatunun Sələbiyyə xanın xəyanətkarlığı ilə bağlı xəbərdarlığı haqqında susmağı üstün tutdu. Eləcə də, həmin anlarda Ağur xan da, elə məhz Sələbiyyə xanla bağlı Sara Xatunun Ağur xana olan sifarişi də xanın düşüncəsindən keçmişdi. Və xan da daha Cahangir Mirzəyə bildirmədi ki, Sələbiyyə xan Sara Xatunun sifarişinə əsasən necə təqdim olunub. Yəni əslində, Sara Xatun Ağur xana xəbərdarlıq edib ki, Sələbiyyə deyilən kəs Vətənə xəyanət edib, ölkənin varidatının xeyli hissəsini çalıb-çapıb, oğurlayıb, talayıb, mənimsəyib, bəyliyə məxsus xeyli qızıl-cəvahiratı ailəsilə birlikdə uzaq dağlara göndərib, izini itirməyə çalışıb. Və o, bir girəvə düşən kimi elə Ağur xanın özünə də qəsd qura bilər. Elə hiylə toru hörər ki, heç Ağur xan o tordan xilas ola bilməz, çabalaya-çabalaya qalar. Torun ilgələri boğazına dolaşar və bu hiylə torundaca boğulub ölər.

Beləcə, tərəflərin heç birisi Sələbiyyə xanın kimlik məsələsini açıb-ağartmırdı. Əslində, Ağur xan düşünürdü ki, əgər Sələbiyyə xanın kimlik məsələsini açıb-ağartsa, buna Cahangir Mirzəni inandıra bilməz. Onsuz da artıq Diyarbəkirin bütün əhatəsi Sələbiyyə xanın nəzarətində idi. Hərbi qüvvələrə o komandanlıq edirdi. Güc-qüvvə Sələbiyyə xanın əlində cəmləşmişdi. Cahangir Mirzə də Ağur xanı başa düşdüyünə görə, elə bu səbəbdən Sələbiyyə xana toxunmurdu. Çünki gələcək planlarını yalnız onun sayəsində həyata keçirə bilərdi.

Belə olan təqdirdə bu namərd fürsət düşən kimi Ağur xanın bütün əhli-əyalını, övladlarını qılıncdan keçirərdi. Onsuz da Diyarbəkirin elə də güclü qüvvəsi yox idi. Amma ərazinin toxunulmazlığını Ağur xan öz ağsaqqallığı, ağlı və düşüncəsi ilə qoruyub-saxlamışdı. Həm Qaraqoyunlularla, həm də Osmanlılarla elə münasibət saxlayırdı ki, onlar Diyarbəkir ərazilərinə toxunmur, hələ ki, zərurət olmadığına görə bu əraziləri öz sərhədləri daxilinə qatmırdılar. Osmanlılar uzun müddət idi ki, Qara Yuluq Osmandan qalan pay kimi Diyarbəkirə toxunmur, əlverişli məqam

gözləyirdilər. Yaxşı bilirdilər ki, Amid bəyliyi dirçələn kimi Diyarbəkiri öz hakimiyyəti altına alacaq. Və sərhədlər Osmanlıların burunlarının uclarına qədər çəkiləcək. Bu zaman bircə ixtilaf bəs edəcək, tutarlı bəhanə olsun. Qara Yuluq Osmanın övladlarını döyüş meydanında qarşılamaq və onlara öz hədlərini göstərmək elə də çətin olmayacaq. Bunu Osmanlılar düşünürdülər. Amma Qara Yusifin kifayət qədər güclü olan dövlətinin varisi Cahanşah da öz xeyrinə Diyarbəkirə toxunmurdu. Sadəcə, Ağur xandan xərac almaqla kifayətlənir və ona elə öz tabeçiliyində olan bir ərazi kimi baxırdı. Bütün bu qarmaqarışıq, bir-birilə burun-buruna yatan qüvvələr arasında Diyarbəkiri qoruyub-saxlamaq asan olmamışdı. İndi bu əraziləri ixtilaf meydanına çevirməyə ancaq öz mənafeləri üçün Diyarbəkirdən istinad üçün istifadə etməyə yol da verə bilməzdi.

Ağur xan ağır-ağır nəfəs aldı. Sanki çiyinlərinin üstündən gücü çatmadığı iki əl onu yerə sıxırdı. Sinəsinin də üstünə elə bil ağır daş qoyulmuşdu. Nə illah edirdi, bu ağırlıqdan xilas ola bilmirdi. O, qocalarla da ayrılıqda söhbət etmişdi. Əslində elçilərə qocalara öz fikrini başa salmış, onlara izah etmişdi ki, Uzun Həsən nə qədər tez gəlsə, məsələnin həlli bir o qədər asanlaşar. Amma onu da demişdi ki, qardaşların qarşılaşmasında tərəflərdən birinin ölümü Sara Xatun üçün ağır dərd olacaq.

İndiki halda hakimiyyət Ağur xanın gözündə deyildi. Onu düşündürən illər boyu Qara Yuluq Osmanın vəsiyyəti kimi qoruduğu Diyarbəkiri ağıllı və güclü ələ, – özü də özgəsinə yox, elə Qara Yuluq Osmanın nəslinə təhvil vermək məsələsi idi. Əlbəttə, bu işi elə görmək istəyirdi ki, özünün əhli-əyalı, övladları, nəvələri əmin-amanlıqda olsun. Elə bu səbəbdən Uzun Həsənin yürüşü ilə Sara Xatunun özünün də gəlməyini arzulayırdı. Və bu arzusunu da qocalara bildirmişdi, məqsədi, məramı ilə birgə. Özü də yerli-yataqlı izah eləmişdi. Ağur xanı çətinə salan o idi ki, bu məsələlər haqqında açıq danışa bilmirdi. Bir ehtiyatsız hərəkət Diyarbəkirin

ixtiyarını verdiyi Cahangir Mirzənin də xoşuna gəlməz, indiyəcən salamat saxladığı başını da və bütün əhli-əyalını da onsuz da acgöz, tülkü kimi marıqda yatan Sələbiyyə xanın ixtiyarına vermiş olardı.

– Xan, bizim bir məsləhətimiz var, – Cahangir Mirzə dedi.

İlləri yola salmış, ağlının sayəsində cəngi-cidal meydanlarına girməmiş Ağur xan başını qaldırıb: – Buyur, – dedi.

– Xan, mən Sələbiyyə xanla belə bir məsləhətə gəldim, qoy, qocalar bizim adımızdan, eləcə də sənin tərəfindən Sara Xatuna və Uzun Həsənə xəbər aparsınlar ki, biz Diyarbəkirin sələmətliyini elə Amid bəyliyinin xeyrinə qoruyarıq. Bəyliyin də hər hansı bir yürüşü olarsa, biz can-başla o yürüşdə tərəfimizdən iştirak edərik. Bizim bəyliyin tərəfində hərbi yürüşlərdə iştirak eləməyimiz Qara Yuluq Osman nəslinin qılıncını daha kəsərli edər. Elə bilirəm ki, istər Qaraqoyunlular, istərsə də Osmanlılar üçün bizim birliyimiz kifayət qədər sipər olacaq. Biz təkcə Uzun Həsəni yox, bütövlükdə Ağqoyunlular sülaləsini yox, Bayandurlar nəslini birliyimizlə hifz edərik.

Bu yerdə Sələbiyyə xan yerində qurcalandı. Dinmək istədi, danışmaq üçün məqam axtardı. Amma ha illah etdi, səsi çıxmadı. Danışıb demək istəyirdi ki, «mən Qara Yuluq Osmanın iqamətgahında böyümüşəm, onun çörəyini yemişəm. Onun olmasa da, sonra gələnlərin çörəyini kəsməmişəm. Atam mənə deyərdi ki, ay oğul, biz Qara Yuluq Osmanın təbəəsiyik. Onun kölgəsində boy atmışıq. Sonra da iş elə gətirdi ki, atam məni bu ailənin himayəsinə verdi. Onlar məni əzizlədilər, qorudular, övladları ilə bir yerdə böyütdülər. Əbdülsəid üləma hər bir vaxt bizi sevərək, boyumuza tərif deyərək gələcəyimizə uğur diləyirdi. İnsana, insanın düşüncəsinə qadağa var? Biri deyir, danışır, o birisi düşünür. Gələcək necə olacaq, bunu Allah bilir».

Ağur xan diqqətlə dinləyirdi. Dinlədikcə Cahangir Mirzə daha çox açılışır, düşüncələrini dilə gətirir və bununla da Ağur xana

daha çox mətləblər aydın olurdu. Amma onun bir gözü Sələbiyyə xanda idi. O, bu fikirlərlə nə dərəcədə şərik idi, nə qədər Cahangir Mirzənin məqsəd və məram kimi açdığı mətləblərə tərəfdar olacaqdır – bunu bilmirdi. Amma illərin ona bəxş elədiyi fəhm başqa şey deyirdi. Hiss eləyirdi ki, bütün bunlar Cahangir Mirzənin yox, əslində, Sələbiyyə xanın fikirləşdikləri, düzüb-qoşduqlarıdır. Çünki Cahangir Mirzə danışdıqca o, rəng verib, rəng alırdı. Bəlkə də ehtiyatlanırdı ki, hansı məqamdasa Cahangir Mirzə ehtiyatsızlıq edər, bu təkliflərin ondan gəldiyini deyər. Bəlkə də Cahangir Mirzə özünün qəlbindən keçənləri demək istəyər. Bu dolaşıq tordan birdəfəlik xilas yolunu ağlı, düşüncəsi ilə düşmənləri ram eləyən Ağur xana açıq-aşkar bildirərdi. Ancaq hələ də gələcək hakimiyyət hərisliyi onun da içini yırtıcı qurd kimi gəmirirdi. Cahangir Mirzə istədi ki, Ağur xana həvalə eləsin qocaların yola salınmağını. Amma Sələbiyyə xana baxanda onun düşündüklərini sanki gözlərindən oxudu: «Yox, qocaları çağırsın, bizim yanımızda tapşırıq versin».

Cahangir Mirzə elə bil ki, ayıldı.

– Xan əgər iltifat göstərib, qocalara elə bizim yanımızdaca mətləbimizi əyan eləyib, Sara Xatunun hüzuruna göndərsə, biz də məmnun olarıq.

Ağur xan Cahangir Mirzənin nigarançılığının səbəbini anlasa da, bir söz demədi.

– Çox yaxşı. Biz istəyərik ki, Qara Yuluq Osmanın nəsli həmişə salamat olsun.

* * *

Məxfi elçilər səhər erkən Diyarbəkirdən çıxdılar. Daha Sələbiyyə xan qocaların təhlükəsizliyi üçün onları müşayiət edəcək üç atlıya əlavə tapşırıq vermədi. Halbuki onları müşayiət edəcək atlılar onları yarı yolda tələf edib, birdəfəlik sükut vadisinə göndərməli idilər. İndi vəziyyət dəyişmişdi. Sələbiyyə xan elə gələcəkdə özü-

nün də, əhli-əyalının da təhlükəsizliyi naminə qocaların Sara Xatunun hüzuruna sağ-salamat getmələrini istəyirdi. Ürəyində Allaha yalvarırdı ki, nə olaydı, Sara Xatunun könlünə işıq düşəydi. Elə öz oğlanlarının salamatlığı naminə bu məsləhətlə barışaydı. Onda Cahangir Mirzənin özü də ona gərək olardı. Cahangir Mirzəni üzünə tutub, başını salamat saxlayardı. Vaxtı-məqamı çatanda isə döyüşdən, vuruşdan başqa hər bir çıxılmazlıqdan yol bilən bu qocanı – Ağur xanı, eləcə də Cahangir Mirzəni aradan götürmək elə də çətin olmazdı.

Sələbiyyə xan hələ tərəddüd edirdi. Bilmirdi ki, Osmanlılara yavuqlaşsın, yoxsa Cahan şahın qanadının altına girsin. Onu da yaxşı bilirdi ki, Cahanşaha ordusunu qüvvətləndirmək üçün sərvət lazımdı. Əgər Cahangir Mirzəni vaxtında aradan götürə bilsə, sərvətinin bir hissəsini Cahanşaha ərməğan edər. Cahanşah da Cahangir Mirzənin başı ilə birgə aldığı paydan çox sevinər, Qara Yuluq Osmanın nəvəsinin ölümünü də neçə gün bayram edər. Ancaq Osmanlılarla münasibəti korlamaq istəmirdi. Onsuz da əlaltından Osmanlıların hüzuruna adamlar göndərir, onlarla danışıqlar aparırdı. Osmanlılar isə onu tələsdirirdilər. Tezliklə Cahangir Mirzəni öldürməyi, Ağur xanı aradan götürməyi, beləliklə, davasız-şavasız Diyarbəkiri Osmanlıların ixtiyarına verməyi tələb edirdilər. Bunu Sələbiyyə xanın sədaqəti üçün birinci şərt hesab edirdilər. Baxmayaraq ki, Osmanlılar Sələbiyyə xanı tələsdirir, qəti cavab tələb edir, sözdən əmələ keçməsini istəyirdilər, ancaq Sələbiyyə xan ləng davranırdı. Hələ hadisələrin necə inkişaf edəcəyini, hansı məcra ilə gedəcəyini gözləməyi üstün tuturdu.

* * *

Sələbiyyə xan qocalar gedəndən belə sakit olmamışdı. Diyarbəkirin Amid bəyliyi tərəfindəki sərhədlərinə dalbadal çaparlar göndərir, o tərəflərdə nələrin baş verib-vermədiyini öyrənməyə çalışırdı, amma hələ ki, bir mühüm xəbər yox idi. Xəlvətcə öz

hücrəsinə çəkildi. Qurşağının arasına düzüb, belinə bağladığı və öz yanında gəzdirdiyi sərvətinin az bir qisminə güvənib, dar gündə haraya üz tutacağını da yadından çıxarmırdı. Açdı qurşağını. Qızılları bir-bir üst-üstə yığdı. Sonra ovuclayıb, üstdən aşağı yenə qurşağının üstünə tökdü. Pəncərənin bir tərəfindən sızan günəş işığı qızılların parıltısını daha da artırdı. Hərdən bu parıltılar Sələbiyyə xanın gözünə düşürdü. Gözləri qamaşırdı. İndi bu qızıllar onun yeganə ümidi idi. O, nə istəyirdi?

Sözünü, könlündən keçənləri qızıllara deyirdi. Onların sirri heç kimə açmayacağına əmin idi. Zaman keçdikcə və Sələbiyyə xan var-dövlətini çoxaldıb, qızılların qədərini artırdıqca, belə bir qənaətə gəlmişdi. Bu cansız pullar hər kəsdən güclüdür – dostdan, qardaşdan da sədaqətlidir. Neçəsini istəyirsən, dara düşəndə ver, canını qurtar, səndən qətiyyən inciyən deyillər.

Qızılları səliqə ilə yenə qurşağın arasına düzdü. Bir-birinə toxunmamaq üçün qısaca məsafə də qoydu. Bir də parçanı kəmər kimi doladı. Səliqə-səhmanla belinə bağladı. Bayaq qurşağı açanda özünü xeyli gücsüz hesab eləmişdi, indi qızılları yerbəyer edən kimi yenə qüdrətli, hamıdan ağıllı, güclü Sələbiyyə xan oldu. Ayaq üstə qalxıb, şəstlə hücrəsində var-gəl elədi. İndiki məqamda Cahangir Mirzə də, Ağur xan da onun heç topuğundan da deyildilər. Onların hər ikisi Sələbiyyə xana vecsiz adamlar kimi göründü. Lap elə Uzun Həsənin uzun boyu da onun gözlərinin qabağında xeyli kiçilmişdi. Sara Xatun isə uzaqdan ona təsir eləmək imkanından məhrum adam kimi, məzlum-məzlum baxırdı. Sanki Sələbiyyə xana yalvarırdı: «Mənim xətrimə – oğlanlarıma toxunma. Mənim Vətənimə xəyanət eləmə. Götür qızıllarını da, hara istəyirsən çıx get, səninlə işimiz yoxdur».

Sələbiyyə xan isə heç ona əhəmiyyət vermirdi. Bayırda qəfləti at kişnərtisi Sələbiyyə xanı düşüncələrindən ayırdı.

* * *

Sara Xatun hələ də Qara Yuluq Osman və Qazi Bürhanəddin əhvalatını danışmaqdaydı. Əvvəlcə Uzun Həsən başa düşmüşdü ki, anası bu əhvalatı ona görə belə yerli-yataqlı danışır ki, oğlu ibrət götürsün. Bilsin, vaxtından əvvəl qəzəblənməyin, vaxtı çatmamış qılıncı çəkməyin xeyirindən çox ziyanı ola bilər. Bu vaxt qocalar Diyarbəkirdən Amid bəyliyinə – Sara Xatunun hüzuruna yol almışdılar. Qocaların yola salınması, onların Sara Xatunun hüzuruna yetişməsi, hər kəsin öz məqsədinə, məramına uyğun yolu təklif etməsi məsələnin düşünüldüyü qədər də asan olmadığından xəbər verirdi. Ancaq Amid bəyliyində ana ilə oğul arasındakı söhbətin cazibəsi o qədər təsirli olmuşdu ki, indi Uzun Həsənin yadından Cahangir Mirzə də, Sələbiyyə xan da çıxmışdı. Və bu anlarda o, sanki daha əlli, altmış il əvvəlki dövrə qayıtmış, həmin dövrün hadisələrinin axarına düşmüşdü. Və ən düzgün yolun hansı olduğunu başa düşmək, bilmək artıq onun öz ixtiyarında idi. Məsələn, o, yaxşı başa düşürdü ki, əgər Qara Yuluq Osmanın cəsarəti olmasaydı, indiki Bayandurlar nəslinin ixtiyarında olan Ağqoyunlular məkanına ya Osmanlılar nəzarət edirdi, ya da Qaraqoyunlularla Osmanlılar arasında bu torpaqlar çoxdan bölüşdürülmüşdü. Bəs əgər belədirsə, onda Qara Yuluq Osmandan əmanət alınmış ərazilərin birliyi, bütövlüyü naminə nə üçün ciddi hazırlıq görülmür?

Anasının daha əhvalatın davamını danışmağa həvəsinin qalmadığını düşünən Uzun Həsən düşüncələrdən ayrılıb üzünü yenidən ona tutdu:

– Mən başa düşürəm ki, doğmaların bir-birinin başını kəsməsi nəslin, tayfanın gözdən düşməsi, özü-özünü gücdən salması deməkdir. Demirəm ki, indiki halda qarşılaşan kimi ya mən Cahangir Mirzəni, ya da Cahangir məni həyatdan məhrum eləsin.

Anası Uzun Həsənin bu düşüncələrinin altında gizlənmiş niyyətini pis başa düşmədi. Bu, sadəcə, oğlunun darıxmağı, tələsməyi ilə bağlı ola bilərdi. Ancaq Sara Xatunu düşündürən başqa

məsələlər də vardı. O, Cahangir Mirzənin peşmançılığını da gözləyirdi. Bəli, ola bilərdi ki, Cahangir Mirzə anasının səmimi sifarişlərini düzgün başa düşər, Sələbiyyə xanla əlaqələrini kəsər və nəticədə əməlindən peşmanlıq bildirib qardaşının da sözündən çıxmayacağına inandığı Sara Xatuna – anasına pənah gətirər.

– Sən düz fikirləşirsən, oğlum, mən heç inanmıram siz bir-birinizin canına qəsd edəsiniz. Son nəticədə bir-birinizlə dil taparsınız. Amma biz qocaların da gəlişini gözləməliyik. Yaxşı bilirsən ki, Əbdülsəid üləma və Uğur kişi – hər ikisi ağıllı adamdır – əsl həqiqəti bizli-bizsiz qardaşına çatdırmış olarlar. Doğrusu, mənim ana qəlbimdə bir inam var.

Uzun Həsən oturduğu taxtda bir qədər geri çəkildi. İndi onun sifəti anasını dinləyən oğul səmimiyyəti yox, hakimiyyəti üçün narahatlıq ifadə edən və bu narahatlıq təhlükəni göstərirsə, həmin təhlükənin qarşısını qətiyyətlə almağa hazır olan döyüşçü-sərkərdə görkəmi aldı.

– Əzizim ana, sən elə düşünürsən ki, Cahangir Mirzə asanlıqla peşmanlıq çəkəcək? Və elə o peşmanlığını da bildirmək üçün bizim qocaların qabağına düşüb geriyə qayıdacaq? – Uzun Həsən anasına kinayə etmək istəməsə də, Sara Xatun hiss etdi ki, oğlu onu sadəlöhv hesab edir. Ancaq Uzun Həsənin anasının demədiyi sözü də göydə almağından xoşlandı. Hakimiyyət adamı üçün, rəhbər üçün bu, çox yaxşı keyfiyyət idi. Həqiqətən də Uzun Həsəndə çevik düşüncə vardı. Verilən suala əlbəəl cavab vermək bacarığı, cavabda lazım olan sözü dəqiqliklə tapıb yerinə qoymağı, vaxtilə babası Qara Yuluq Osmana da çox xoş gəlmişdi. Ömür sürmüş, yollar yormuş, döyüşlərdə qanlar axıtmış Qara Yuluq Osman yaxşı bilirdi ki, sərkərdə üçün, başçı üçün qılıncın itiliyi qədər sözün də itiliyi, düşüncənin də çevikliyi vacibdir. Elə Qara Yuluq Osman Uzun Həsənin bu keyfiyyətini yaxşı bildiyindən öz qılıncını da gəlini Sara Xatunun vasitəsilə nəvəsi Uzun Həsənə vəsiyyət eləmişdi. Onda hələ Uzun Həsən yeniyetməlik məşqləri

keçirdi, döyüş qaydalarını öyrənir, təlimlərdə bacarığını sınayırdı. Hündür bir yerdə dayanıb gənclərin, yeniyetmələrin qılınc oynatmalarına tamaşa edən, sərraf nəzərlərini onlardan çəkməyən Qara Yuluq Osman təkcə Uzun Həsənin sərrast qılınc oynatmağından inamlı, qətiyyətli hücumlarından qürurlanmırdı, həm də sözarası, döyüşlərarası rəqiblərinin hərbə-zorbalarına, sorğularına Uzun Həsənin verdiyi cavablar da onu öyündürürdü. O, öz qətiyyətini mənsəblər, hakimiyyətlər qabağında cəsarətli söz savaşını Uzun Həsənin timsalında görürdü. Və bu da, əlbəttə, qocaya ləzzət edirdi. Uzun Həsənin simasında Bayandurlar nəslinin və təkcə Bayandurlar nəslinin yox, bütöv Ağqoyunluların gələcək çırağını görürdü. Bu çırağın yanacağına, ətrafa gur işıq saçacağına və bəlkə əbədiyyən sönməyəcəyinə də inanırdı. Və yeri düşdükcə inamını ifadə edən düşüncələrini fəhmli, zəkalı hesab elədiyi gəlini Sara Xatundan gizlətmirdi. Hələ nə Uzun Həsənin, nə Cahangirin, nə də digər qardaşının beyinlərinə hökm, hakimiyyət toxumları səpilməmiş, onların daxili aləmlərində birinin digərinə başçılıq etmək iddiaları cücərməmiş, babanın və ananın onlara kənardan baxıb müşahidə etmələrinin nəticəsi idi bu qənaətlər.

Sara Xatun artıq keçmişdə qalan və həmin zaman uzaqlığındakı söz-söhbətin üstündən keçib daha əlli il əvvəlki hadisələri çözələməklə, nəslin tarixi həqiqətlərini Uzun Həsənin gözlərinin qabağına gətirirdi.

Uzun Həsən anasını sorğu-suala çəkmək istəmədi. Onsuz da başa düşürdü ki, anası səbirlə qocaların qayıtmağını gözləyəcək. Bu, Uzun Həsən üçün də, nə hərbi, nə də siyasi bir gərginlik yaratmırdı. Onsuz da bir neçə günə onlar qayıdıb gəlməli idilər. Bu müddət ərzində isə Cahangir Mirzə nə Osmanlılarla, nə də Qaraqoyunlularla ittifaq yarada bilməzdi. Amid bəyliyi ilə Diyarbəkir arasında məsafə onların əlaqələr quracağı ərazilərdən çox yaxın idi. Hələ üstəgəl, xəbərlər gəlirdi ki, Qaraqoyunlu Cahanşah Təbrizdə deyil, haradasa İranın cənubunda – uzaqlarda hərbi səfərdədir. An-

caq qocaların aradan götürülməsi, yaxud süni şəkildə yubadılması məsələsi anası ilə onun arasında bir gərginlik yarada bilərdi. O, çalışacaqdı ki, anasını narazı salmasın. Əgər anasını narazı salmalı olsa, özünün ən qüdrətli vəzirindən məhrum olardı. İndiki halda Sara Xatun bəyliyin düşüncəsi, ağlı idi. Hələ üstəlik, Sara Xatunun çox nəhəng, inanılmış xəbər şəbəkəsi vardı ki, məmləkətdə o, haradan, hansı küləyin əsdiyini, hansı yarpağın titrədiyini həmin andaca bilirdi. Demək, Sara Xatun həm də məmləkətin görən gözü idi. Dağların o üzünü də, yollarda baş verənləri də, hansı karvanın haradan, nə vaxt keçdiyini də, hələ üstəlik qonşu əyalətlərin hakimlərinin nələri məşvərət etdiyini, bəlkə yataq otaqlarında istəkli xanımlarına da nəyisə dediyini asanlıqla öyrənə bilən Sara Xatunun bəlkə də on minlik qoşun qədər gücü vardı. Bəli, Uzun Həsənə çoxdan məlum idi ki, Sara Xatun kimin tərəfində olsa, hakimiyyət də onun ətrafında bərqərardır. Və bu qeyri-adi qadının sayəsində qazanılan hakimiyyətin ömrü də uzun olacaqdı.

Elə bütün bunları yaxşı bilən Uzun Həsən nəticədə onun gücünün nəyə qadir olduğunu dərk eləyir və bu gücü – yəni Sara Xatunun özünü hər an göz bəbəyi kimi qorumağı da yaddan çıxarmırdı. Yoxsa, bir neçə yüz atlı ilə Sara Xatunun özünü Cahangir Mirzənin arxasınca getməyə təhrik edərdi. Bəlkə heç Sara Xatun özü də etiraz eləməz, oğlunun yanına özü getməyi üstün sayardı. Amma yollarda pusqu qoyub baş verənlərə nəzarət edən Sələbiyyə xanın nə əməllər törədə biləcəyini bir olan Allahdan başqa kimsə öyrənə bilməzdi. Əslində, Cahangir Mirzə Uzun Həsənin qənaətinə görə, nə qədər hakimiyyət iddialı, nə qədər mənsəb sevdalı olsa da onun təbiətinə daimi, birbaşa mənfi təsir edən Sələbiyyə xan kimi adamlardan təcrid etməklə onu, anasının dediyi kimi, haqq yoluna qaytarmaq olardı. Çünki Cahangir Mirzə özü görəcəkdi ki, ordu bütövlükdə Uzun Həsənin tərəfindədir. Ordunun köməyi olmadan nə hakimiyyətə gəlmək, nə də sahib olduğun hakimiyyəti qorumaq – heç biri mümkün deyil. Amma

Sələbiyyə xan ayrı-ayrı vaxtlarda Cahangir Mirzənin ona inamından istifadə etməklə ordu üçün ayrılan vəsaitin xeyli hissəsini mənimsəyib, tacirlərdən alınan vergilərin xeyli hissəsini oğurlamaq, ələ keçirmək yolu ilə əlində xeyli vəsait cəmləşdirmişdi. Bu vəsaitlə də özünə yaxın adamları şirnikdirmiş, orduda mühüm vəzifələrə təyin etmiş, özünə yaxın adamları onların bölüklərində yerləşdirmişdi. Sələbiyyə xan beləliklə, hərbi güc sahibi olmuş, özünün nəzarətində olan qüvvələrlə Cahangir Mirzəyə tabe olan qüvvələri də birləşdirmiş və Cahangiri inandırmışdı ki, bu qüvvələrlə onlar nəinki Uzun Həsəni hakimiyyətdən devirər, hətta qonşu əyalətlərə güclərini göstərə bilərlər.

Cahangir Mirzə isə kimsəyə demədiyi niyyətinə çatmağın yolunu elə Sələbiyyə xanın məsləhətlərində görürdü. Sanki onun gözləri tutulmuş, bəbəkləri nurunu itirmişdi. O, açıq-aşkar gözünün qabağında baş verən hadisələrdən demək olar ki, baş çıxara bilmirdi. Heç olmasa, özü vaxtında anlasaydı ki, hakimiyyətə gəlməyin yolu yalnız və yalnız Sara Xatunun razılığından keçir. Onun razılığı olmadan yüz Sələbiyyə xan da olsa Cahangir Mirzəni hakimiyyət sahibi etmək mümkün deyil. Bax, bunu Cahangir Mirzə dərk etmirdi. Ən azı o, başa düşməli idi ki, ağıl, idrak tərəzisinin bir gözündə Sara Xatun, o biri gözündə Sələbiyyə xandırsa, bunlar heç vaxt bərabər gələ bilməz. Ən yaxşısı bu olardı ki, Cahangir Mirzə hakimiyyətdə birinci olmaq iddiasından əl çəkib, onun nüfuz sahibi olan adamlarından biri kimi qardaşı Uzun Həsənin quracağı dövlətə dayaq olaydı. Yəni onun haqlı olduğunu, yeritdiyi siyasətin düzgünlüyünü, xalq arasında insan toplumları içində izah etmək, aydınlatmaq, adamlara yaxşını pisdən ayırmağa köməkçi olmaq missiyasını yerinə yetirərdi. İndi bütün bunlar keçmişdə qalmışdı. Sara Xatunun ümidi o idi ki, Cahangir Mirzə peşmançılıq yolu tutacaq. Cahangir isə ümid edirdi ki, Uzun Həsən anasının təsirilə Diyarbəkirin müstəqilliyini tanıyacaq, birgə ittifaqda sakit yaşam yolu tutacaqlar. Sələbiyyə xan

da o ümiddə idi ki, bütün bunların heç birisi olmasa, o, gələcəyi ya Osmanlılarla, ya da Qaraqoyunlularla ittifaqda görür. Bir növ, hərə bir cür ümidin ətəyindən yapışmışdı. Bu ümid, qəzavü-qədər kimi öz arxasınca sürükləyəcək, kimi ayaqlayıb keçəcək, kimin əlindən tutacaq, onu od-alovlardan qoruyacaq, sağ-salamat gələcəyə ötürəcək – bunu ancaq vahid Allah bilirdi.

– Can şirin şeydir – Uzun Həsən anasının daha nəsə danışmaq istəmədiyini görüb asta-asta özü dilləndi. – Hər halda Cahangir Mirzə də bilir ki, hakimiyyətlə oynamaq olmaz. Qardaşımız, əzizimiz olmağına baxmayaraq, bu yolda o da canını verə bilər, başını itirər. Şübhəsiz, bütün bunları bilməmiş deyil.

– Amma onun bilmədiyi də var, – oğluna tərəf diqqətlə nəzər yetirən Sara Xatun onu intizarda da qoymadı, – zamanın kimin xeyrinə işləməyini.

* * *

Uzun müddət gözləri uzaqlara dikilmiş, xəyalı keçmişlərə yol almış Sara Xatun dodaqaltı nəsə pıçıldamağındaydı. Deyəsən, dua eləyirdi. Uzun Həsən onun dodaqlarının tərpənişindən öz adının, qardaşlarının adlarının çəkildiyini duyur, hiss eləyirdi. Həqiqətən Sara Xatun dua eləyirdi. Tanrıya ünvanladığı bu dualarında Uzun Həsənin timsalında yaranacaq Ağqoyunlular dövlətinin gələcəkdə yenilməz olmasını, oğlunun hakimiyyətinin, yəni Uzun Həsənin artıq qurmaqda olduğu dövlətin bütün düşmənlərindən, rəqiblərindən güclü olmasını diləyirdi. Əlbəttə, heç şübhəsi yox idi ki, anası bu dualarında oğlanlarına salamatlıq arzulayır. Çox istəyirdi ki, dualar Tanrıya yetişsin. Tanrı özünün ucalığı xatirinə onun oğlanlarına yardımçı olsun. Onların bir araya gəlməsinə yol açsın. Hakimiyyət üstündə Qara Yuluq Osmanın nəvələri bir-birini qanına qəltan eləməsin. Ən əsası da o oldu ki, Sara Xatun heç özü də bilmədən «Ey Allahım, sən Cahangir Mirzənin bəsirət gözlərini aç, qoy haqq yoluna gəlsin. Ulu babalarından bəri kəsərli

olan türkün qılıncı qardaşlarının əlində doğmalarının qanlarının axıdılmasına sıyrılmasın», – sözlərini hündürdən dedi.

Onsuz da Sara Xatunun niyyəti Uzun Həsənə bəlliydi. Axı bu dövləti, əslində, elə Sara Xatun özü qururdu, özü bu dövlətin bel sütunu, dirəyi idi. Təəssüf ki, Cahangir Mirzə bunu dərk eləməmiş, ona görə də bu hakimiyyətə müxalif yolu tutmuşdu. Bu naxələfliyin arxasında şübhəsiz ki, havayı axıdılan qanlar dayanırdı. Həm də eyni zamanda bu qanlar qardaş qanı olacaqdı. Hər iki tərəfdə Bayandurlar nəslinin seçmə oğulları, döyüş meydanlarında bişmiş, bərkimiş başçılar, igidlər üz-üzə gələcəkdi. Bu da şübhəsiz, Bayandurlar sülaləsinin əsası olan Ağqoyunluların yaranmaqda olan hakimiyyətinin beşikdəcə boğulması demək idi. Hər halda, bütün bunları Sara Xatun ayrı-ayrı məqamlarda övladlarına yetərincə izah eləmişdi. Və o, hakimiyyəti Uzun Həsənə verəndə də, digər övladlarından beyəti də ona havayı yerə təlqin eləməmişdi. Budur, Ağqoyunlular sülaləsinin hakimiyyəti bərqərar olmaqda idi. Çox təəssüf ki, bu bərqərar olmaqda, ucalmaqda olan hakimiyyəti öz içindən yırtıcı qurd kimi dağıtmağa qadir olan qüvvələr meydana çıxmışdı. Və bu qüvvələrin də başında Qara Yuluq Osmanın qardaşına xəyanət edən nəvəsi Cahangir Mirzə dururdu. Artıq nəyin yaxşı, nəyin pis olduğunun fərqinə varmaq zamanı deyildi. Çünki Sara Xatunun xəbəri vardı ki, Qaraqoyunlular Cahanşahın çoxdankı niyyətinin başa varacağına inanmağa başlamışdılar. İndiyəcən Ağqoyunlular təşkilatlana bilmədiklərindən qüvvələrini bir yerə cəmləşdirmək iqtidarında deyildilər. Artıq onlar qüvvə kimi görünəcəkdilər. Bu vaxtın da uzanmağını Cahanşah istəmirdi. Ona görə də, istər Osmanlıların, istərsə də Cahanşahın sarayındakı məsləhət-məşvərətlərdən kifayət qədər xəbərdar olan Sara Xatun qüvvələrin dağıdılmasına yol verməmək, qardaş qılınclarının doğma başlara yönəlməsinin qarşısını almaq üçün bütün səyləri elə buradaca birləşdirməli, Cahangir Mirzənin bundan sonrakı addımlarının qarşısını almaq üçün tədbirlər görməli idi. Əlbəttə, la-

zım gələrsə o, bir-iki gün də dözməyi, gözləməyi üstün bilirdi. Ən azı Uğur kişinin, Əbdülsəid üləmanın nə xəbərlə gələcəyi vacib idi. Oğlunu yaxşı tanıdığından bilirdi ki, Cahangir Mirzə asanlıqla yola gələn deyil. Ancaq neyləmək olar, analıq hissi hökm edirdi ki, oğlunun salamatlığı naminə hər cür imkandan yararlansın. Axır ki, Sara Xatun dağılmış düşüncələrini cəmlədi. Və Uzun Həsənə danışdığı əhvalatın zamanın dumanlı çağlarında dolaşığa düşmüş kələfini yenidən çözməyə başladı.

…Qara Yuluq Osman Qazi Bürhanəddinin yanından çıxandan sonra öz atını seçmə mühafizə qüvvələrinin müşayiəti ilə Anadolu bəyliyinə xilaf çıxmış xalası oğlu Əhmədin yanına çapdı. Gün batmaqda idi. Demək olar ki, qaranlıq qovuşurdu. Qara Yuluq Osman elə bu axşam vaxtı altmış nəfərlik dəstə ilə Əhmədin ətrafında cəmlənmiş qüvvələrin toplandığı ordugaha girmək istəmədi. Təqribən bir ağaclıq məsafədə dayanmalı oldu. «Axşamın xeyrindən sabahın şəri yaxşıdı», – deyib atından endi. Hələ də atdan enməyən mühafizə qüvvələrinə əli ilə işarə elədi ki, onlar da düşsünlər. Bura ətrafı açıq bir təpə ətəyi idi. Yaxınlıqda bulaq da vardı. Qara Yuluq Osman düşərgə salacağı yerin, təpələrin üstündə gözətçilər qoyub, bulağın üstünə endi. Buralar bozqır kolluqlardan ibarət bir dağətəyi əraziydi. Doğrudur, bir tərəfi çox da hündür olmayan dağa söykənirdi. Bulaq da elə bu dağın dibindən qaynayırdı. Suyu elə də gur olmasa da, sakit axarı adama rahatlıq gətirir, gözünü oxşayırdı. Qara Yuluq Osman aşağı əyildi, suda əvvəlcə əl-üzünü yudu, sonra ovuclarını doldurub içdi. Su elə bil, ona can verdi. Doymadığı üçün bir də ovucunu doldurub təzədən içdi. Ayağa qalxdı. Yenə əllərini üzünə çəkdi. Üzüaşağı vadi boyu baxdı. Başının adamları da suya sarı axışdı.

Sabah nəyin olacağından, nə baş verəcəyindən xəbərsiz olan bu adamlar sanki heç vaxt bu dünyadan getməyəcəklərinə əminliklə deyib-gülür, şənlənirdilər. Zarafatla bir-birini sancırdılar. Qara Yuluq Osman bir qədər də yuxarı qalxdı – keşikçi qoyduğu tə-

pənin üstünə. Bir tərəfi Diyarbəkir, bir tərəfi də üzü Təbrizə tərəf, Amid bəyliyinin məskunlaşdığı çöllüklərə tərəf uzun-uzadı nəzər yetirdi…

Göz işlədikcə torpaqlar uzanıb gedirdi. Elə bil ki, bu yerlərin, yurdları bir sərhəddi, kənarı yox idi. Xəyal onu apardı. Canındakı qan, ruh hərəkətə gəlmişdi. Onu içəridən danışdırırdı: «Axı, niyə bu məmləkətin bir güclü sərkərdəsi, başbiləni olmasın? Bu yurdu bir araya gətirəcək elə bir qüvvə niyə yoxdur ki, az qala dünyanın o başınacan uzanıb gedən bu yerləri bir arada birləşdirsin?».

Qara Yuluq Osman yaxşı bilirdi ki, Qazi Bürhanəddinin camaat arasında hörməti var. Onu sevən, ona beyət edən nüfuzlu, ağıllı tayfa başçıları Qazi Bürhanəddinin ədalətindən də həmişə ağızdolusu danışırdılar. Qara Yuluq Osman cavan olsa da, dayısı Qazi Bürhanəddinin gözlərindəki kinin, qəzəbin gələcəyi haqqında yaxşı heç nə vəd eləmədiyini başa düşmüşdü. Bununla da anlamışdı ki, deyəsən, Qazinin müdriklik çağı ötüb. Hakimiyyətə hədsiz bağlılıq onun insanpərvərliyinin, şairliyinin üstünə kölgə salır. Qazinin yanından çıxanda da qəlbinə dolan şübhə toxumu təzədən cücərirdi. Bu gizli şübhə toxumları boy verdikcə, onun ruhunda dolaşdıqca anladırdı ki, Qazi nəinki Əhmədi bağışlamayacaq, lap elə Qara Yuluq Osmanın özünün də dikbaş danışmağının əvəzini çıxacaq. Ola bilər, Əhmədin başı getsin. Qara Yuluq Osman da zindana atılsın. Ancaq o da ola bilərdi ki, Qazi hakimiyyətinin möhkəmliyi üçün elə hər ikisinin başlarını bədənlərindən ayırsın. Çünki hər bir hakimiyyət sahibi yaxşı bilir ki, qoparılmış baş bədənin üstündəki başdan daha təhlükəsizdir. Ancaq başqa bir məsələ də vardı. Qara Yuluq Osman cavan olsa da, yaxşı bilirdi ki, indiki zamanda Qazi Bürhanəddini asanlıqla devirib, onun yerinə Əhmədi gətirmək, yaxud elə Qara Yuluq Osmanın özü bu taxta çıxması mümkünsüzdü. Birincisi, qonşu məmləkətlər hakimiyyət sahibi kimi Qazi ilə hesablaşır, ikincisi, Qazinin hələ kifayət qədər hörməti və nüfuzu olduğundan,

ona sadiq qüvvələr asanlıqla bu cavanların tərəfinə keçməzdilər. Bunun üçün hələ ki Əhmədi razı salıb Qazi Bürhanəddinin yanına aparmaq ən düzgün yol idi. Baxmayaraq ki, Qara Yuluq Osman Əhmədin cəzalanmasını qətiyyən istəmirdi. Hətta Əhmədə veriləcək cəzanı özü belə daşımağa hazır idi. Təki onun zamin durub geri qaytaracağı Əhməd bağışlansın.

Geriyə qayıtdı, adamlarının yanına. Təzə bulaq suyunu qablara doldurub böyürlərinə qoymuş adamlar dəstə-dəstə ayrılıb süfrə açmışdılar. Pendir-çörək, soyutma ət vardı ortada. Hətta bulaq aşağı dərələrdən su kənarında bitən pencərdən, tərxundan da yığmışdılar. Yovşan, qazayağı… Qara Yuluq Osman da süfrələrdən birinə yaxınlaşdı. Sac üstündə bişmiş nazik, enli yağlı yuxalardan birini götürdü. Təzə duzdan çıxmış pendiri də arasına qoydu. Üstündən də təzə-tər pencəri. Sonra da yuxanı dürməklədi. Böyrünü daşa verib iştahla yeməyə başladı.

Gözünün qabağına Əhməd gəldi. Nədənsə, xəyalən Əhmədlə danışa bilmədi. Birbaşa onların ikisi də Qazinin hüzurunda dayandılar. Qazinin kinli, qəzəbli baxışları altında nə qədər dayandığının fərqinə vara bilmədi. Bir də baxdı ki, əlindəki dürməyi yeyib qurtarıb. Üstündən də bir-iki qurtum bulaq suyu içdi. Elə söykəndiyi daşın dibindəcə yuxulamaq üçün yerini rahatladı.

…Sara Xatun yenə dayandı. Sanki danışdığı əhvalatı birdən-birə unutdu. Ancaq Uzun Həsən də dillənmirdi. Elə bil, anasının yarım əsrin o tayındakı aləmdə gəzişən xəyallarını perikdirməkdən ehtiyat edirdi. Sara Xatun danışdıqca Uzun Həsənin də əhvalı babası Qara Yuluq Osmanın həyəcanlarına uyğun dəyişir, elə Qara Yuluq Osman kimi iztirab çəkir, təlaş keçirir, zamanın üzünə hansı küləyi çırpacağını aydınlatmaq istəyirdi. Beləcə, qarışıq düşüncələr içərisində vurnuxur, yenə də özünü cəmləyirdi. Artıq bir hərəkəti ilə anasının danışdığı tarixin yaratdığı mənzərəni gözünün qabağından qovmaq istəmirdi. Əgər bu vaxt anası Uzun Həsənin nəbzini tutsaydı, damarlarından axan qanın necə coş-

duğunu da hiss edər, bununla da bilərdi ki, necə ki, Sara Xatunun özünün xəyalı Qara Yuluq Osmanın zamanında qanad çalır, eləcə də oğlu Uzun Həsənin də həmin zamanların qovğalarından baxdığını görərdi. Bəlkə daha çox Qara Yuluq Osman nəzərə çarpardı. Elə Uzun Həsənin damarlarında çağlayan qan Qara Yuluq Osmanın özü demək idi. Handan-hana Sara Xatunun dodaqları tərpənməyə başladı. Əvvəlcə asta-asta danışırdı. Heç onun dediyi çox sözü Uzun Həsən başa düşmürdü də. Ancaq sonra anasının təmiz danışığını, çağlar bulaq suyu kimi ahəngdar səsini dinləməyə başladı.

...Dəstənin bir ağaclıqda düşərgə salmasını Əhmədə xəbər vermişdilər. Onsuz da Əhməd bilirdi ki, dayısı Qazi Bürhanəddin tezliklə onun üstünə qüvvə göndərəcək. Bu vaxt ərzində Əhməd qalanı möhkəmlətmək, qüvvələri cəmləyib səfərbər etmək üçün xeyli iş görmüşdü, ancaq yaxşı bilirdi ki, Qazinin kifayət qədər döyüş təcrübəsi olan ordusunun qabağında özünün cüzi qüvvəsi dayana bilməz. Ətrafı daim nəzarətdə saxlayan kəşfiyyatçı gözətçilər altmış nəfərlik bir dəstənin gəlib bir ağaclıqda düşərgə salmasını ona xəbər verəndə xeyli fikrə daldı. Əgər Qazi onu məhv eləmək, birdəfəlik sıradan çıxarmaq istəyirdisə, onda nə üçün altmış nəfərlik kiçik bir dəstə göndərir? Axı o, yaxşı bilir ki, mənə tabe olan qüvvələrin bu dəstə ilə döyüşməyi elə də çətin olmaz. Əhməd gecəykən altmış nəfərlik dəstəni mühasirəyə ala bilərdi. Lakin havayı qan tökülməsini istəmədiyindən sabahı gözləməyi qərara aldı. Sabah gün-günorta yerinə qalxmamış qabaqda Qara Yuluq Osman, arxasınca altmış nəfərlik dəstə Əhmədin ordugahına yaxınlaşdı.

Dəstə səssiz-səmirsiz irəliləyirdi. Yalnız at ayaqlarının tappıltısı eşidilirdi. Birazdan təpəni dolanıb tamam qənşərliyə çıxacaqdılar. Qara Yuluq Osman birbaşa Əhmədin yanına at sürməyi düzgün hesab eləmədi. Hər halda Əhməd Qazi Bürhanəddinə müxalif olmuş ordudan da kifayət qədər gücü ətrafına toplayıb, elə kifayət

qədər də müdafiə qurmuşdu. Birdən-birə hüzuruna yerimək şəstinə toxuna bilərdi. Qalanın bürclərində mövqe tutmuş oxçulara bircə işarə bəs idi ki, lap yaxın məsafədən Qara Yuluq Osmanın bu balaca dəstəsini şimşək kimi şığıyan oxlarına hədəf eləsinlər. Qara Yuluq Osman isə Qazi Bürhanəddinin yanından çıxandan bəri düşünürdü ki, o, Əhmədlə elə bir görüş qurmalıdır ki, bir adamın burnu qanamasın, kimsəyə xətər toxunmasın. Qara Yuluq Osman yanındakı mühafizlərdən birinə işarə elədi. O da qoynundan bir ağ parça çıxarıb, qılıncının ucuna sancdı. Göyə qaldırdı. Az keçməmiş qala qapısından iki atlı çıxıb Qara Yuluq Osmanın hüzuruna çapdılar. Yaxınlaşanda Qara Yuluq Osman onları tanıdı. Bu atlı döyüşçülər də əslində elə Bayandurlar nəslindən idi. Amid bəyliyi tərəfindən gəlmişdilər. Qara Yuluq Osman yaxınlaşan cavanlara – «xoş gördük, Bayandur oğulları», – dedi. Onlar da Qara Yuluq Osmanı tanımışdılar.

– Biz də səni xoş gördük, Bayandurların baş igidi.

– Biz Əhmədə qonaq gəlmişik. Əlbəttə, qonaq eləsə.

– Niyə qonaq eləmir, Əhmədin sizdən əziz qonağı olmayacaq ki?

– Onda biz gözləyək, siz xəbər verin.

Atlılardan biri həmin andaca geri çapdı. Yenə o qədər vaxt keçmədi. Qala qapıları taybatay açıldı. Əhməd öz mühafizləri ilə qala qapısında göründü. Bayaq geriyə çapmış olan döyüşçü də Qara Yuluq Osmanın hüzuruna atını çapıb, Əhmədin xəbərini dedi:

– Qara Yuluq Osman beş nəfərlə birlikdə qalaya daxil ola bilər. Qalanları burada düşərgə salıb gözləsin.

Qara Yuluq Osman Əhmədin tədbirli, ehtiyatlı tərpənməyindən razı qaldı: «İgid oğul dayısına oxşayar», – düşündü.

…İki cavan xalaoğlu üz-üzə əyləşmişdi. Kimin birinci başlayacağı, nə deyəcəyi hələ məlum deyildi. Hər halda, Qara Yuluq Osman məqsədini açmalıydı. Amma Əhməd də ağır döyüşlərdə

yağılara qarşı kürək-kürəyə dayandığı, bir-birinə can etibar elədiyi xalası oğlunun hansı məqsədlə gəldiyini hələ tam aydınlaşdıra bilməmişdi. O, düşünürdü ki, Qara Yuluq Osman qabağından yeməyən igiddir, qoçaqdır. Və dayısı Qazi Bürhanəddin də öz hakimiyyətini elə Əhmədin, Qara Yuluq Osmanın – bacısı oğlanlarının sayəsində qurub – möhkəmlətmişdi. Qazinin bəyliyində kimsəyə gizlin deyildi ki, Əhmədin və Qara Yuluq Osmanın igidliyi sayəsində yağıların qarşısına inad sipəri çəkilmiş, bəylikdəki ayrı-ayrı münaqişə ocaqları söndürülmüşdü. Bəylik qədərincə möhkəmlənəndən, oturuşandan sonra o, altdan-altdan bəzi işləri görməyə başlamışdı. Yəni Əhmədin də Qara Yuluq Osmanın da əl-ayağını yığmağa, onların əllərindəki qüvvələri yeri gəldikcə dəyişməyə çalışır, bir sözlə, gələcəkdə hakimiyyətə onlar tərəfindən törədiləcək qorxunun, təhlükənin qarşısını indidən almaq qısqanclığı yaranırdı. Onu qəzəbləndirən elə bu olmuşdu. Əhmədi ölkənin bir tərəfindən götürüb digər tərəfinə başçı təyin etmək, əlindəki hərbi qüvvələri başqalarına həvalə etmək istəyi bu cavan sərkərdəni yerindən-yurdundan eləmişdi. Əhməd nə qədər izah etməyə çalışsa da ki, mən xüsusi təlimlə hazırladığım döyüşçülərlə istənilən yağıya qarşı dura bilərəm, onların da mənə inamı var, amma o, dayısını inandıra bilməmiş və aralarındakı narazılıq dərinləşmişdi. Sonralar Qazi dəfələrlə Əhmədi hüzuruna təklikdə çağırsa da, o, dayısının niyyətini bildiyindən onun yanına getməmişdi. Əhməd də yaxşı bilirdi ki, tez-gec onun başına gələnlər Qara Yuluq Osman üçün də olacaqdı. Qara Yuluq Osman da bəyliyin indiki mövqeyə qalxmasında nə işlər gördüyünü yaxşı bilən döyüşçü idi. Və kor-koranə də hər hansı bir əmri – mənasız, havayı itkilərə səbəb olacaq göstərişi yerinə yetirən deyildi. Qara Yuluq Osman hiss etmişdi ki, dayısı onu dəfələrlə odun ağzına atmaq istəyib. Böyük tələfatlar olacağı döyüşə vaxtsız, hazırlıqsız göndərilməyə çalışıb. Lakin Qara Yuluq Osman ağlı və məntiqi sayəsində Qazini inandırıb fikrindən döndərə bilmişdi. Bəlkə də,

Qazi heç inanmamışdı. Aradan pərdənin götürülməməsi naminə bacısı oğlunun sərt münasibətinin üstünü vurmamış, onunla razılaşmış, daha əlverişli fürsətlərin yetişəcəyi məqamı gözləmişdi.

Əhmədin ağlına gəldi ki, bəlkə, Qara Yuluq Osmanla dayısı arasında hansısa bir ixtilaf baş verdiyindən, o da özünün kiçik dəstəsi ilə boynunu kəndirdən qurtarmaq, ya başının qılıncla vurulmasından ehtiyatlanaraq canını götürüb qaçmış, Əhmədə pənah gətirmişdi? Əhmədə bəlliydi ki, Qara Yuluq Osmanın ona böyük sevgisi, hörməti var. Onların arasındakı münasibət yalnız qohumluğa söykənmirdi. Dayı-bacıoğlu ən ağır döyüşlərdə bərkimiş, sınanmış, dəfələrlə bir-birini ölümdən qurtarmışdılar. Əhməd ha fikirləşirdisə ki, bəlkə, Qara Yuluq Osman onu aldatmaq, tovlamaq niyyətilə gəlib, bəlkə o, Qazinin ətrafındakı fitvaçıların hiylə toruna düşərək onun yanına gəlib, onu bir yolla aradan götürmək, yaxud elə fürsət tapıb əl-qolunu bağlamaqla, aparıb Qazi Bürhanəddinə təhvil vermək niyyətindədir?.. Bunu ağlı kəsmirdi. Çünki Qara Yuluq Osmanın cəsarəti vardı, igidliyi buna yol verməzdi. Düşməni ilə açıq-saçıq danışmağı, üzbəüz döyüşməyi daha üstün tutan igid Qara Yuluq Osman qətiyyən ona xəyanət eləməzdi. Amma üçüncü bir fikir də Əhmədin ağlına gəlirdi. Nədənsə, o, bu üçüncü yolun mümkünlüyünü qəbul etmək istəmirdi. Bu da ondan ibarət idi ki, Qara Yuluq Osmanın barışıq üçün gəlmək ehtimalı…

Bu vaxt Qara Yuluq Osman başını qaldırdı. Xalası oğlunun üzünə baxdı. Bir zaman Osmanlılarla sərhəd çarpışmasında yağının onun sinəsinə tuşladığı nizənin qabağına özünü necə atdığını gözlərinin qabağına gətirdi. O zaman ara qızışmışdı. Qazi Bürhanəddinin Qara Yuluq Osmana tabe qüvvələri – Əhməd də daxil olmaqla sərhədi keçib içəriyə yeriyən düşmənlə üz-üzə gəlmişdi. Qara Yuluq Osman iki döyüşçünü düşmənin qabağına göndərdi. Əlində də döyüşçülərin birinin qılıncına keçirilmiş ağ parça. Əlbəttə, o vaxtın hərbi qaydalarına görə – elə indi də – ağ

parçanın sülh, barışıq mahiyyəti aydın idi. Amma döyüşçülər yağıların yaxınına çatan kimi ağ bayraq tutmuş döyüşçünün sağ əli qılınc-bayraq qarışıq vurulub salınmışdı. Həmin ağ bayrağı döyüşçü götürüb biləyindən süzülən qanın üstünə dolamış, parça bir anda qırmızıya boyanmışdı. Atlarını da alıb onları geri göndərmişdilər. Və Qara Yuluq Osman o zaman bilmişdi ki, daha burada qətiyyət lazımdır. Son damla qanına qədər ölümlə çarpışacaqdılar. O, xalası oğlu Əhmədin əlindən tutub özü ilə qabağa çəkdi. Döyüşçülərin önündə dayanıb ucadan dedi:

– Bizim qüvvələrimiz az olsa da, onlardan güclüyük. Bizim qorxacaq yerimiz yoxdur. Biz öz torpağımızın üstündəyik. Bütün cəsarətinizi, gücünüzü toplayın. Elə edin ki, sizin gücünüzdən, təpərinizdən yer silkələnsin. Dağ-daş lərzəyə gəlsin. Düşmən görsün ki, özgə torpağı onların ayaqlarının altında dayanmır. Torpaq onları götürmür, saxlamır, saxlamaq istəmir… yalnız bu yolla – bütün gücümüzü səfərbər etməklə yağıya dov göstərə bilərik. Biz Əhmədlə birgə – o, bunu deyib xalası oğlu Əhmədin sol qolunu yuxarı qaldırdı – sizdən öndə olacağıq. Yalnız bizdən keçən nizə sizə xətər yetirə bilər.

Döyüşçülər bir anda qılınc və qalxanlarını qaldırdılar. Qılıncın dəstəyi ilə qalxanın üstünə zərbələr vurub səsləndilər:

– Biz torpağımızdan keçə bilmərik. Canımızdan keçmək daha asandır.

Yenə də qılıncın dəstəyilə qalxana zərbələr dəydi. Elə bir dəhşətli gurultu qopdu ki, Qara Yuluq Osmanın ürəyi atlandı. Ona elə gəldi ki, dağlar da hərəkətə gəlib, hər qaya bir adama – döyüşçüyə çevrilib. Qara Yuluq Osman hündür qayanın üstündən döyüşçülərinə baxdı. Ona elə gəldi ki, tabeliyində olan qüvvələrin sayı-hesabı yoxdur. Və birdən Əhməd qışqırdı:

– Yağıya ölüm!

Söz olduğu kimi qoşunun hər bir üzvü tərəfindən təkrarlandı.

– Yağıya ölüm!.. Yağıya ölüm!.. Yağıya ölüm!..

Səs bitib-tükənmədi. İri, nəhəng qayalara dəyib əks-səda verdi. Elə o qayaların özü kimi, dağ-daş kimi yağının üstünə yönəldi. Yağıya tərəf qəzəbli yürüş başlandı.

Bir anda ətraf qızıl qana boyandı. İki piyada dəstə qarşı-qarşıya döyüşürdü. Demək olar ki, Qara Yuluq Osmanın hər döyüşçüsünün üstünə iki-üç nəfər düşmüşdü. Buna baxmayaraq, düşmən bir addım da olsun irəliləyə bilməmişdi. Gunortaya yaxın döyüş səngiməyə başlamış, demək olar ki, dayanmaq üzrə idi; əslində, adamların sayı azalmışdı. İndi qüvvələr demək olar ki, bərabər idi. Bir nəfər bir nəfərə qarşı vuruşurdu. Zərbələr kəsərli deyildi. Çünki tərəflər yorulmuş, əldən düşmüşdü. Qılınc vuran qollar kəsərini itirmişdi. Bir az da keçsə meydanda çox az adam qalacaqdı. Yağı tərəfdən başçı Qara Yuluq Osmanla üz-üzə gəlməyə çalışırdı. Qarşısındakı döyüşçünü vurub yıxdı. Yerə düşmüş nizəni götürüb Qara Yuluq Osmana tərəf tuşladı. Bu vaxt Osmanın da diqqəti onunla üzbəüz vuruşan döyüşçüdəydi. Rəqib döyüşçü yaralandı, yıxıldı. Osman hələ diqqətini toplamamışdı. Bir an da keçsə, nizə Osmanın sinəsindən girib, kürəyindən çıxacaqdı. Bunu görən Əhməd qışqırıb özünü yağı ilə Osmanın arasına atdı. Bu vaxt nizə Əhmədin özünə sipər tutduğu qalxanına dəydi. Nizənin ucluğu ilə toqquşan qalxandan qığılcımlar qopdu. Qara Yuluq Osman geriyə çönüb özü ilə yağının arasına yıxılmış Əhmədi gördu. Qəzəbdən gözlərinə qan gəldi. Ona elə gəldi ki, Əhməd canını tapşırıb. Bir anda diqqəti Əhmədin üstünə yönəlmiş yağının üstünə atıldı. Qılıncının enməyi ilə yağının boynu çiyni üstə düşdü, gözü bərələ qaldı. Sanki bütün döyüş meydanı elə buna bənd imiş. Yağı tərəfdən qalmış çox cüzi qüvvə sarsıldı. Hamı qılınc-qalxanını yerə töküb təslim oldu.

Qara Yuluq Osman geriyə dönüb xalası oğlunun üstünə əyildi. Əhməd zərbənin şiddətindən bayılmışdı. Ola bilərdi ki, nizə qalxana dəyəndə qalxan onu sıxmış, o da yerə çırpılmış, bəlkə də, başı yerdəki daşlardan birinə dəymişdi. Bunu hələ

Qara Yuluq Osman bilmirdi. Aşağı əyilib Əhmədin başını qolunun üstünə aldı. Onu dikəltdi. Doğrudan da Əhməd yıxılarkən dəbilqəsi başından düşmüşdü. Və görünür, başının bir tərəfi sal daşa dəymişdi. Bu da onun bayılmasına səbəb imiş. Tez Əhmədin bədənini yoxladı, başqa yara yeri yox idi. Bir az keçmiş, Əhməd gözünü açdı:

– Düşmən basıldımı?

Bu vaxt Əhmədə elə gəlmişdi ki, yağının nizəsinin onun qalxanına çırpıldığı vaxtdan üzü bəri neçə gün keçib. Və bəlkə heç indi döyüş meydanında olduğunu anlamırdı. O, yalnız Qara Yuluq Osmanı görürdü. Qara Yuluq Osmanın sağ olması isə onda belə bir fikir yaratmışdı ki, bəli, düşmən basılıb. Qara Yuluq Osman da sevincdənmi, ya bəlkə, ən etibarlı döyüş dostunun, doğmasının canını ona sipər etmiş Əhmədi həlak olmuş bildiyindən dolmuş gözlərini onun gözlərinə zilləyib, – bəli – dedi – düşmən basıldı, sənin igidliyin sayəsində.

O vaxt çox böyük itkilər hesabına Qazi Bürhanəddinin yaratdığı dövlətin sərhədləri qorundu. Düşmənə bir qarış da torpaq verilmədi. Sonra təəssüf ki, Qazi Əhmədin bu igidliyinin əvəzini ona soyuq, inamsız münasibətilə qaytardı. Kim bilir, bəlkə də, Qazi bu əhvalatı biləndə, Qara Yuluq Osmanın bu döyüşdə öldürülməməyinə təəssüf etmişdi. Ancaq onun niyyətini nə Qara Yuluq Osman, nə də Əhməd tam başa düşməmişdi. Beləcə, bu əhvalat demək olar ki, unudulmuş, əvəzində, xalq arasında Qara Yuluq Osmanın igidliyi, Əhmədin cəsarəti haqqında nəğmələr yaranmış, ozanlar bu əhvalatı dastan eləmiş və məclislərdə təkrar-təkrar söyləməkdən doymamışdılar.

…İndi bütün bunlar xalası oğlu Əhmədlə üz-üzə gələn Qara Yuluq Osmanın gözlərinin qabağından birər-birər keçirdi. O, sanki hər hadisəni, əhvalatı təkrar-təkrar göz önünə gətirir, yaddaşında bərpa edirdi. Gülümsər gözlərilə xalası oğlunun üzünə baxanda Əhməd aydın, cəsarətli baxışlarıyla ona cavab verdi. Qara

Yuluq Osmanın üzündəki təbəssüm sanki ətrafı bir az da artıq işıqlandırmışdı. Və bu işıqdan Əhmədin də üzünə yayılmışdı. İndi Əhməd – Yadındadır? – düz xalası oğlunun gözlərinin içinə baxıb soruşdu.

Əlbəttə, onların arasında çox hadisələr olmuşdu. Neçə-neçə ağır döyüşlərdə birgə çarpışmış, qalib çıxmışdılar. Ancaq Qara Yuluq Osmanın «yadındadır» sualı ilə nəyi nəzərdə tutduğunu deyəsən, o, elə ağzını açan kimi başa düşmüşdü. Ona görə heç nəyi izah etmədən cavab verdi:

– Bəli, yadımdadır.

– Əgər o vaxt sən olmasaydın, mən yəqin ki, indi səninlə üzbəz dayana bilməzdim.

– Buna sözüm yox, Qara, əgər sən də olmasaydın onda Qazi Bürhanəddinin hakimiyyəti olmazdı.

– Əhməd, bəlkə də, sən doğru deyirsən. Ancaq biz Qazi Bürhanəddin üçün yox, Vətənimiz üçün döyüşmüşük. Hakimiyyətdə isə bir ağıllı adamın olmağı Vətənin başucalığıdır. Qara Yuluq Osman söhbəti Vətənin üzərində saxlamağa çalışdı. O, bilirdi ki, Əhməd kimi adamları ancaq Vətən naminə barışığa gətirmək olar. Görünür, Qara Yuluq Osmanın sözləri Əhmədə təsir eləmişdi. O, fikrə getmişdi.

– Hə, nə deyirsən? – Qara Yuluq Osman bir də soruşdu. – Dönəkmi Vətəni qorumağa?

– Biz elə Vətən üçünük. Vətənin oğullarıyıq. Baxmayaraq ki, Qazi bizim dayımızdır.

– Doğrudur, Əhməd, Qazi Bürhanəddin bizim dayımızdır. Hakimiyyətdə kimsə olmalıdır. Biz döyüşçüyük, siyasət hakimiyyət sahiblərinin işidir. Özün bilirsən ki, Qazi məmləkətdə ədalətli adam kimi tanınır.

– Səninlə razıyam, Qara, ancaq mənə elə gəlir ki, son vaxtlar o, hakimiyyətin gələcək varisi – oğlu üçün nigarandır.

– Mən də bunu hiss edirəm.

– Bilirsən, nə üçün nigarandır, Qara, o, bizi gələcəkdə hakimiyyətə varis olacaq oğlu üçün qısqanır. Bizi oğluna dayaq kimi yox, rəqib kimi görür.

– Hər necə olsa da, biz canımızı Vətənə borcluyuq.

Qara Yuluq Osman ayağa qalxdı, Əhməd də onunla birgə.

Tale onları hansı yola çəkirdi? Onlar bunu bilmirdilər. Gələcəklərinə duman içində baxsalar da, gələcəklərini dumanlı görsələr də, Vətənlərini aydın görürdülər.

* * *

Qarşı dağın sinəsinə ağır çən yatmışdı. Günəş elə bil ki, bütün gücünü yığıb bu çəni dağıtmaq istəyirdi. Lakin dağın sinəsinə yatmış çən də asanlıqla ərimək, parçalanmaq, bir sözlə, tabe olmaq niyyətində deyildi. Aşağı tərəf – vadidən dağın sinəsi boyu sürünən duman da bu çənin üstünə yığılır, onu bir az da qalınlaşdırırdı. Gün qalxdıqca, hərarət ətrafa yayıldıqca vadi boyu yayılan çən tükəndi və dağın sinəsinə çökmüş qatı duman topası sozalmağa başladı. Gün günorta yerindəydi. Artıq gözlə görünən hər yerə günəşin özü hakim olmuşdu…

* * *

Sara Xatun düşünürdü ki, danışdığı əhvalatın oğluna düzgün yolu görmək üçün köməyi ola bilər. Ona görə oğlu Uzun Həsənə babası Qara Yuluq Osmanın taleyi ilə bağlı nəyi varsa, hamısını danışmalıdır. Çünki Uzun Həsənin hiss olunacaq dərəcədə özündən böyüyə ehtiram göstərmək, özündən ucada olan kimsənin yaxşı nə varsa, hamısını mənimsəmək istəyi vardı.

Ona görə də Sara Xatun ümid edirdi ki, yaddaşında nə varsa, hamısını Uzun Həsənə danışmaq işin xeyrinə olar. İş isə ondan ibarət idi ki, Uzun Həsən qardaşına qarşı kəmhövsələlik etməz, ən başlıcası, özünü təhlükəyə atmaz. Açığı, Sara Xatun hərdən öz düşüncələrində müəyyən qənaətə gələn anda sarsılırdı: o,

bu xatirələri danışmaqla oğluna nəyi təlqin edir? «Bəlkə oğlum elə düşünər ki, bu əhvalatı söyləməklə daha kəskin ol, qardaşının üzərinə yürüşdə daha qətiyyətli ol demək istəyirəm? Amma Sara Xatun özü ağıllı bir qadın olduğu üçün oğlu Uzun Həsəni də qədərincə ağıllı və kamallı təsəvvür edirdi. Bu əhvalatları danışmaqdan çəkinmirdi, usanmırdı. Hiss edirdi ki, oğlu bu söz-söhbəti necə maraq və istəklə dinləyir. Əsas o idi ki, Uzun Həsən Sara Xatunun söhbətlərini dinlədikcə onun daxili aləmində baş verən çırpıntıları, dəyişilmələri Sara Xatunun özü duyurdu. Bu da Sara Xatun üçün bir əminlik idi. Sara Xatun bilirdi ki, əgər Uzun Həsən yürüşə başlasa və Cahangir Mirzə hərbi inad göstərsə, bu qarşılaşmada, şübhəsiz, Uzun Həsən qalib gələcəkdi. Çünki Uzun Həsənin ordusu daha nizamlı idi, çünki Uzun Həsənin nəinki mənəvi-siyasi müşaviri, həm də hərbi müşaviri Sara Xatunun özü idi. Bu, Uzun Həsənin çox böyük üstünlüyündən xəbər verirdi. Üstünlüyün mahiyyəti isə ondan ibarət idi ki, Cahangir Mirzənin bütün mənəvi imkanları – gücü, qüdrəti, haradan alması Sara Xatuna güzgü kimi aydın idi. Sara Xatun düşüncələrinin, beyninin dərinliklərində bilirdi ki, Cahangir Mirzə onun özünə ümid eləyir. Heç şübhəsi yox idi ki, Cahangir Mirzə ağlına gətirirdi ki, son anda anası ondan imtina etməz. Döyüşün axırında – ölüm anında anası onun can qorxusunu təmin edər. Çünki heç bir ana istəməz ki, oğlu gözünün qabağında həlak olsun. Oğul da inanır ki, son anda ana onu ölümdən xilas edəcək. Və Sara Xatun bunu Uzun Həsənə heç vaxt deməzdi ki, «Cahangir Mirzənin heç bir gücü yoxdur. Cahangir Mirzənin hərbi gücü sənin böyük ordunun qabağında davam gətirə bilməz». Ancaq əsas odur ki, Sara Xatun danışdığı tarixi əhvalatla oğlu Həsənə başa salmaq istəyirdi ki, bütün fərmanların, göstərişlərin, əmrlərin, qəti sərəncamların dəyəri, qiyməti veriləndən bir az sonra daha aydın bilinir. Sara Xatun üçün çətin idi desin ki, «ay oğul, sən onu bil ki, Cahangir Mirzənin səninlə qarşılaşmaq gücü, qüvvəsi ancaq bir günlük za-

man ölçüsünə gələ bilər. Əsas odur ki, sən bu bir günlük zaman ölçüsündə nəyi itirib, nəyi qazandığını biləsən».

Sara Xatun görəndə ki, Uzun Həsən ona diqqətlə baxır, onu həvəslə dinləyir, hiss etdi ki, indi söhbətinin daha açıq məqamına gələ bilər. Oğlunu diqqətlə süzdü. Onun gözündə qəzəb və kin görmədi. Əvəzində bu gözlərdə bir nigarançılıq, bir ağrı və kədər hissləri yaşayan insanın baxışlarını gördü. Bu, Sara Xatunu sevindirdi. Başa düşdü ki, Uzun Həsən qardaşı Cahangir Mirzəyə qarşı o qədər də kinli və qəzəbli deyil. Əgər ağıllı yolu tapmaq mümkün olsaydı, əgər Cahangir Mirzənin özü razılığa gəlsəydi, yəqin ki, heç bir qan-qada olmazdı. Amma vaxt keçirdi və Cahangir Mirzədən heç bir barışıq təklifi gəlmirdi. Sara Xatun yaxşı bilirdi ki, Cahangir Mirzə nə qədər inadkar olsa da, o qədər ağılsız deyil ki, gücünü və qüvvəsini qədərincə dəyərləndirə bilməsin. Belə olan halda o, gərək çoxdan barışıq təklifi irəli sürəydi. Bəs necə olur ki, Cahangir Mirzədən hələ də bir xəbər gəlmir? Əslində elə, Sara Xatunun məqsədi də, vaxtı «yemək» üçün tarixə qayıdışda istəyi bu idi. Yəni Uzun Həsəni ovundursun, kiritsin. Ona təlqin etsin ki, hər bir səhvin bağışlanmaq tərəfi var. İndi iş gəlib o yerə çatmışdı, nə Cahangirdən bir xəbər gəlirdi, nə də Amid bəyliyinin indi Bayandurlar nəslinin böyük sərkərdəsi Uzun Həsənə tabeçilik haqqı, hüdudu qədərincə bilinirdi. Kimsəyə sirr deyildi, nə qədər Cahangir Mirzə öz dəstəsi – qoşunu ilə Uzun Həsənə beyət eləməyib, demək, Amid bəyliyinin və ən başlıcası, Ağqoyunlular adlanacaq böyük istinadgahın sözü kəsərli olmayacaq. Çünki bir tərəfdə Cahangir Mirzə, bir tərəfdə Uzun Həsən vardı.

Kəndlər, elatlar, ayrı-ayrı ərazilərin adamları heç cür barışa bilmirdi ki, bir məmləkətə, bir nəslə, bir tayfaya eyni atanın iki oğlu ayrı-ayrı tərəflərdə hakimlik etsin. Bu da istər-istəməz qüvvələri parçalayırdı. Sara Xatunun özünü narahat edən bu idi ki, məsələnin əsl mahiyyətindən xəbəri olmayan qara camaat bir tərəfdə inamla Cahangir Mirzəyə kömək edəcək, digər tərəfdə

Uzun Həsənə yardımçı olacaqdı. Bu da o demək idi ki, əslində, eyni qüvvə bir-birilə qarşı-qarşıya gələcək. Bax, Sara Xatun bunu istəmirdi. Elə bunun özü, onun gələcək arzularının qılıncdan keçirilməsi demək deyildimi?.. Pisi o idi ki, bu döyüşdə, bu vuruşda Bayandurlar nəsli zəifləyəcəkdi. Hara çevirsən, ağrı-acı Sara Xatunun öz içindən keçirdi. Ona görə Sara Xatun oğul-ana ünsiyyəti, münasibəti, doğmalığı baxımından Həsəni özünə tərəf çəkmək, ona qəlbindəki analıq hisslərinin nə dediyini aşılamaq yolu tuturdu. Bununla da Uzun Həsəni hazırlayırdı ki, sən lap axırıncı döyüşdə belə Cahangir Mirzəyə qalib gələndə doğmalıq hissini itirmə. Lap dərinliyinəcən düşünəndə Sara Xatun anlayırdı ki, Uzun Həsən elə ilk döyüşdəcə Cahangirə qalib gələcək, bəlkə onu əsir alacaq. Ancaq Sara Xatunun ağrı-acısı, analıq duyğuları dil açırdı. Ona deyirdi ki, ən qorxulu an qardaşların üz-üzə gəlməyidir. Bax, həmin anın taleyini həll etmək Sara Xatun, sənin əlindədir. Bu, Sara Xatunun düşüncələriydi. Qısası, ana və oğul ünsiyyətində əsas mahiyyət o idi ki, oğlunun heç biri həlak olmasın, bir sözlə, bihudə qurban getməsin. Oğlanlarının döyüşdə qarşılaşacaqlarına şübhə etməyən ana istəyirdi, son anda güc və qüvvə yox, ağıl və idrak, daha çox doğmalıq qalib gəlsin. Qorxu hissi onda idi, qalibiyyət Uzun Həsənin gözünü pərdələsin, onun bəsirət gözünü bağlasın, o da nəinki Cahangir Mirzəni, bütövlükdə Bayandur nəslindən olan igidlərin hamısını qılıncdan keçirsin. Bəlkə heç belə olmadı? Bəlkə, birdən – taleyin qəzavüqədərindən Cahangir Mirzə qalib gəldi? Onda necə olacaq? Əgər belə olarsa, Cahangir Mirzə Uzun Həsənə rəhm edərmi, onu bağışlayarmı? Onda Cahangirin iddiaları, istəyi nədən ibarət olacaq? Ən başlıcası, yəqin ki, Cahangir düşünəcək ki, Uzun Həsən olmasaydı, mən özüm hakimiyyət sahibi olardım. Və yəqin böyük nəsil mənim adımla, ünvanımla yaşayardı.

Sara Xatun oğlunun düşüncələrini götür-qoy edə-edə düşünürdü ki, Cahangir Mirzənin yolu düz deyil. Çünki Bayandur-

lar nəslinin ən qüdrətli adamları güc, qüvvə sahibləri Cahangir Mirzənin yox, Uzun Həsənin tərəfində olmağa meyillidirlər. Demək, Cahangir Mirzənin nə düşünüb-düşünmədiyinin fərqinə varmağa ehtiyac yoxdur – Sara Xatun düşüncələrinə yekun vurdu.

Bununla da sanki özünün qardaşların gələcək vuruşmalardakı yerini müəyyənləşdirdi. Ancaq öz qətiyyətinə acıdı. «Gərək belə olmayaydı», – deyə düşündü. Çünki ana üçün döyüşən oğulların məğlub tərəfi ananın ürəyində yara demək idi. Və bunu Sara Xatun yaxşı bilirdi. İndi onun gözünün qabağında iki qüvvə üz-üzə gəlməkdəydi. Bir tərəfdən Cahangir Mirzənin indiki Sara Xatunun tərəfində olan Amid bəyliyinə müxalif qüvvələr, digər tərəfdən elə Sara Xatunun özünün və Uzun Həsən tərəfində olan birləşmələr.

Güc, qüvvət hələ ağıl və idrak demək deyil – Sara Xatun düşündü. Bu, elə bir məsələdir ki, gərək hər kəs kimliyini dərk eləsin. Sara Xatunun ağlına elə gəlirdi ki, o, qardaşların üz-üzə dayanması məqamında haradasa, nədəsə günah sahibidir; axı indiyəcən Sara Xatun çoxdan izah etməli idi ki, kim hansı gücün sahibidir, kim nəyə qadirdi?

Sara Xatunun yadına gəlirdi, o, Həsəni də, Cahangiri də dizinin üstündə otuzdurub, onların hər ikisinin başlarını eyni vaxtda sığallayırdı. Onların hər ikisinə eyni cür nəvaziş göstərirdi. Və beləcə, Həsən də, Cahangir də dizinin üstündə xumarlana-xumarlana eyni gücdə, eyni qüdrətdə olduqlarını düşünürdülər. Beləliklə, onların hər biri ayrı-ayrılıqda kim olduqlarını, nəyə qadir olduqlarını elə analarının nəvazişlərindən yaddaşlarında bərpa edir və bu güzgüdən özlərinə baxırdılar.

Yaxşı da, pis də dünyanın sifətlərindəndir – Sara Xatun düşündü. Mənim oğlanlarım da kim olduqlarını, hansı məqsədə xidmət elədiklərini, bəlkə heç dərk eləmir, bilmirlər. Amma bu, o demək deyil ki, mənim oğlanlarım doğulduqları yurdu, böyüdükləri Vətəni asanlıqla yüngül istəklərə qurban versinlər.

Sara Xatun inanırdı ki, onun oğlanları heç vaxt bu yolu seçməzlər, bu yolla getməzlər. O yolla ki, ondan sonra Vətən qurtarır, yurd bitir. Sara Xatun yaxşı bilirdi ki, böyütdüyü övladları damarında, qanında babaları Qara Yuluq Osmanın mənəvi təbiətini qoruyub saxlayıblar. Və hər dəfə Uzun Həsənə baxanda Qara Yuluq Osmanın cəsarətini, döyüş gücünü görürdü. Ən başlıcası, ağlını, varis təmkinini… Cahangir Mirzənin timsalında görüb ki, Qara Yuluq Osman tərəddüd etmədən rəqibinin üzərinə hücum çəkir, barışmazdır, qüdrətlidir, asanlıqla yenilən deyil. Birdən Sara Xatun bu düşüncələrin arasında nə duydusa, vahimələndi. Kənardan seyr edən olsaydı, bu qadının öz-özünə belə hövllənməyinin səbəbini min yerə yozardı. Bilməzdi ki, bu qadın nəyə görə belə birdən-birə belə təşviş içindədi. Əslində, əsas o idi ki, Sara Xatun Cahangir Mirzənin, yəni böyütdüyü övladının gücünü, qüdrətini birdən-birə dərk etmişdi. Hiss etmişdi ki, Cahangir Mirzə asanlıqla barışığa, razılığa gələn oğul deyil. Halbuki o, Bayandurlar nəslindən olan iki böyük müdriki, ağsaqqalı seçib-sonalayıb, Cahangir onun hüzuruna göndərmişdi. Bu anlarda Sara Xatuna ağır gələn, çətin gələn o idi ki, sanki yanıldığını və harayacan yanıldığını elə indicə anlamışdı. Artıq hiss etmişdi ki, ünsiyyət, yaxınlıq, doğmalıq əlaqələri adı ilə diplomatik münasibətlər çətin ki, bir fayda versin. Pis oydu, bu müddət ərzində əsl həqiqəti də oğlundan – Uzun Həsəndən gizlətmişdi. İndi ana olsa da hakimiyyət sahibi olan Uzun Həsənə deməyə utanırdı ki: «Ay oğul, sən yaxşı bil, qardaşın Cahangirlə sənin arandakı ixtilafı heç bir ağsaqqal əlaqəsi, müdrik məsləhətilə həll etmək mümkün deyil. Əsas səbəb də odur ki, arada sənin və qardaşının istəyi durur». Sara Xatun hiss eləyəndə ki, hakimiyyət nə dərəcədə iti qılıncdır və bu qılıncın hakimiyyət istəyi boyunca çəkilməyi tamahdan, ehtirasdan asılıdır – onda oğlanlarının hansı kin və qəzəblə bir-birinə qarşı duracaqlarını gözlərinin önünə gətirdi. Bu, necə qəribə bir mənzərə idi! Ana dayanıb, oğullar qarşı-qarşıyadır. Və iki qar-

daş istəklərini bir-birinə ordularının, güclərinin sayəsində diktə etmək istəyir.

Əlbəttə, qardaşlardan biri, yəni Cahangir Mirzə istəyir ki, hakimiyyəti olsun, dövləti olsun, onun kimliyini qonşu əyalətlər bilsinlər, görsünlər, qəbul etsinlər. Cahangir Mirzəni maraqlandırmır ki, o, hansı dövləti qurur, hansı hakimiyyəti qurur… Sara Xatun yaxşı başa düşürdü ki, Cahangirin düşüncəsi bundan o tərəfə keçmir. Amma qardaşlardan ikincisi – Uzun Həsən hansı ruh üstə kökləndiyini – gücünün və qüdrətinin hansı mənəvi, nəsli köklərə bağlı olduğunu yaxşı anlayır. Əgər Sara Xatun hiss etsəydi, Uzun Həsən Bayandurlar nəsli üçün adi bir adamdır, yəni Ağqoyunlular üçün faydasız bir fiqurdur, onda əri ilə zaman-zaman bundan əvvəl oynadığı şahmatın taxtası üstündəki yararsız bir fiquru qurban verdiyi kimi, onu qurban verərdi. Ancaq bunu istəmirdi və ona görə istəmirdi ki, Uzun Həsənin timsalında Bayandurlar nəslinin quracağı dövlətin qüdrətini görürdü.

Sara Xatun ağılsız və dünyasız adamların pul-para gücünə nəyə qadir olduqlarını da yaxşı bilirdi. Və buna görə Cahangir Mirzənin həmin adamların toruna düşməməsi, bir sözlə, Sələbiyyə xanın hiyləsindən oğlunu qorumağın yolunu düşünürdü.

…Əhməd dərk edirdi ki, Qara Yuluq Osman onu dayısının yanına aparmaq istəyi, yaxud da qiyamı dayandırmaq tələbi ilə gəlib. Ancaq Əhməd yaxşı başa düşürdü ki, Qazi Bürhanəddin Əhmədə qarşı münasibətini asanlıqla dəyişə bilməz. Orası da var idi, həm Qara Yuluq Osman, həm Əhməd hakimiyyətin sarsılmaz sütunları idilər. Belə olan təqdirdə Qazi də asanlıqla bu sütunları itirmək istəməzdi. Əhmədlə Qara Yuluq Osman hücrədən çıxıb qalanın baş divarı üstündə qoşa addımlayırdılar. Qaladan kənarda – düzdə Qara Yuluq Osmanın özü ilə gətirdiyi dəstə ordugah qurmuş, atları yaxındakı çəmənə buraxmışdılar. Döyüşçülər hərəsi bir tərəfdə kiçik bölüklərlə dincəlməkdə idi. Qalanın içərisində Əhmədin adamları demək olar, döyüşə hazır vəziyyətdə dayan-

mışdılar. Oxçular öz yerində, qala qapılarının mühafizləri sərvaxt və silahlı olaraq hər an əmrə müntəzir idilər. Bu, əlbəttə, Qara Yuluq Osmanın nəzərindən yayınmır, o, mənzərəni görür, Əhmədin ehtiyat tədbirlərini də təqdir edirdi. Onu da başa düşürdü ki, Əhməd Qara Yuluq Osmana tam etibar eləmir. Onun hakimiyyət nümayəndəsi kimi gəldiyini də yaddan çıxarmırdı. Hələlik bir-birinə açıq deməsələr də, Qara Yuluq Osman hiss eləyirdi ki, Əhməd onun gəlişinə sevinib. Bu sevincin əsas səbəbi qismən də olsa, Qara Yuluq Osmana məlum idi. Osman bilirdi ki, Əhmədin Qazi Bürhanəddinin böyük qızına sevgisi var. Bu, sarayda sirr deyildi. Əslində, bu məsələdən Qazi Bürhanəddinin xəbəri vardı. Elə xəbəri olduğu üçün hər vəchlə bu sevginin qarşısını almaq, qızının Əhmədlə izdivacına mane olmaq istəyirdi.

Qazi Bürhanəddin dünyagörmüş adam idi. Necə deyərlər, dünyanın gəldi-gedərindən baş çıxara bilir, kimin kim oluğunu dərhal qırımından anlayırdı. Əhməd kimi qoçaq bir döyüşçünün, tabeçiliyində az qala ordunun yarısının olduğunu bilən Qazi Bürhanəddin onun qızı ilə nikahdan sonra necə güclənəcəyini, hansı iddialara düşə biləcəyini unutmurdu. Bu da taxt-tac üçün əsas varisə xüsusi bir təhlükə yaradırdı. Əgər Əhməd onun qızı ilə evlənərdisə, bu evlənmənin sarayda yaradacağı əhvalı təsəvvür eləmək heç də çətin deyildi. Onsuz da Əhmədin sarayda böyük hörməti vardı. Bunun qabağında oğlu Elməddin Əli Çələbinin necə duruş gətirəcəyi məlum deyildi, hətta siyasətlə dərindən məşğul olmayan Qazinin oğlu üçün hakimiyyət yolu birdəfəlik bağlanırdı. Elə bu səbəbdən Əhmədə tabe olan dəstələri onun tabeçiliyindən çıxarmaq, get-gedə onu qüvvədən məhrum etmək üçün Qazi bir çox tədbirlərə əl atmalı olmuşdu. Say-seçmə igidlərin, döyüş təcrübəsi olan dəstələrin tabeçiliyindən çıxarılma tələblərini eşidən Əhməd qəzəbini boğmamışdı.

…Qazinin qızı Gülçöhrənin özünün də dilindən eşitmişdi ki, dayısı bu izdivaca razılıq vermək fikrində deyil. Hətta axırıncı

dəfə Əhməd indi sakin olduğu qalaya gələrkən Gülçöhrə ilə vidalaşmaq imkanı da tapmışdı. Demək olar, biçarə qız onu ağlaya-ağlaya, göz yaşları ilə yola salmışdı.

– Bəlkə də bu, bizim axırıncı görüşümüzdü, – qız Əhmədin əllərindən tutub gözlərinə baxmış, sanki duman içində olan həyatına bir aydınlıq gətirmək istəmişdi. Əhməd hiss eləmişdi ki, Gülçöhrə özünü qaranlıq bir aləmdə olduğu kimi görür. Elə bil onun gözlərinə baxmaqla, ondan işıq istəyir, külli-kainatın işıq mənbəyi olan günəşi onun gözlərində axtarırdı.

– Mənim durnam, sən heç nigaran qalma. Bizi ancaq ölüm ayıra bilər. – Əhməd Gülçöhrəyə «durnam» dedi.

Çünki hələ uşaq yaşlarından atası ona «üçtelli durna» deyə müraciət edirdi. Gülçöhrənin Durna adı ilə tanınması elə uşaq yaşlarından başlanmışdı. Əhmədlə onun arasındakı sevgi şamları yanan gündən bəri o da Gülçöhrəyə «durnam» deyirdi.

– Mən elə bunu istəmirəm.

– Nəyi, mənim durnam?

– Bizi ölümün ayırmağını. Əgər sənin olmasam, bu mənim üçün ölümdən betərdi. Mən sənin ölümünü istəmirəm. Heç olmasa uzaqdan-uzağa sağ olmağını, yaşamağını bilmək də mənim üçün böyük səadətdir.

– Sən qəmlənmə, gülüm.

Bu dəfə Əhməd ona «gülüm» – dedi. Bağçadakı qızılgülün boyunu sevirmiş kimi, əlləri ilə onun çiyinlərini oxşadı, saçlarına sığal çəkdi. Sonra da:

– Bu gülə mənim əllərimdən qeyri bir kimsə toxuna bilməz, qaldı ki, mənim ölməyimə, heç ona tələsmirəm.

Gülçöhrə bir daha Əhmədi süzdü. Onun necə sarsılmaz bir inamla danışdığını görürdü. İndiki görkəmində Əhməd elə güclü, elə qüdrətli görünürdü ki, Gülçöhrə bir ordunun da ona dov gələ bilməyəcəyinə inandı. Ancaq onun ruhuna, varlığına hopmuş şübhələri bu inam dağıda bilmədi. Ona görə bir qədər tərəddüdlə yenə sonsuz nigarançılığını gizlətmədi:

– Əzizim, sən qəzavü-qədərə qarşı dura bilməzsən ki…

– Qəzavü-qədər Allah işidir – Əhməd qətiyyətlə cavab verdi, sonra əlavə elədi: Allahın da yanında bir günahımız yoxdur.

– Çoxları deyir ki, sevgi günahdır.

– Allah insanı sevgidən yaradıb. Əgər sevgi günah olsaydı, onda bu günahın birinci sahibi əstəğfürullah, Allahın özü olardı.

Əhməd bu sözləri ilə Gülçöhrəni şübhədən çıxartmaq istədi. Ancaq görünür, Gülçöhrə məsələnin Əhmədin bildiyindən daha ciddi olduğunu hiss etmişdi.

– Mənim igid Əhmədim. Allahsız adamlar üçün nə fərqi var?

Gülçöhrənin bu sözləri görünür, Əhmədə ciddi təsir elədi. Hətta onun gözlərində qəzəb qığılcımları da yandı. Əlini yanından asılmış qılıncının dəstəyinə apardı:

– Sinəmlə seli dayandıraram. Qılıncımla odu söndürərəm. Təki sən qəmlənməyəsən.

Əhməd sol əli ilə Gülçöhrənin çənəsindən qaldırdı. Onun gözlərinin içinə bir də nəzər saldı. Sanki təskin və iti nəzərlərilə onun gözlərindəki inamsızlığı qovub dağıtmaq, şübhələri ram eləmək istəyirdi. Qız onun iti baxışları qarşısında davam gətirmədi. Əhmədin boynunu qucaqladı. Sanki susuzluqdan çat vermiş dodaqlarını dodaqlarına yapışdırdı. İlahi bir güc, bir istəklə gənclərin ruhu bir-birini yandıran nəfəsləri ilə qovuşdu. Həmin anlarda bütöv bir ordu da tökülsəydi, bu gəncləri bir-birindən ayıra bilməyəcəkdi. Onların hər ikisinin ürəyi həyəcanla çırpınır, varlıqları damarlarında axan qanla cuşa gəlirdi. Və sanki həmin anlarda bir-biri üçün doğulduqlarını anlayırdılar.

Aradan nə qədər vaxt keçmişdi, onlar bu vaxtı hiss eləmirdilər. Qapının arxasında dayanmış dayənin yavaşca içəri girdiyini, hətta onlara yaxınlaşdığını duymamışdılar. Ancaq görünür, dayə çox nigaran idi. Bu anlarda Qazinin adamları gələ bilərdi. Ola bilsin ki, Əhmədin buralarda hərləndiyini görən olardı. Bu halda təkcə gənclərin həyatı yox, hətta dayənin özü də, şübhəsiz ki,

böyük təhlükədən qurtula bilməzdi. Bir anlığa mənzərəni görən dayənin özünün gəncliyi yadına düşdü. Elə bu sarayda sevib-seçdiyi əyanlardan biri ilə yaşadığı sevgi macəraları gözlərinin önünə gəldi. Amma o, bu sevgini ömürlük yaşaya bilməmişdi. Baxmayaraq ki, o odlu-alovlu sevgi hissləri hələ də canından getməmişdi.

Dayənin qəlbi titrədi, özünü sevgilisinin qolları arasında gördü. Təzədən həmin bəxtiyar günlərə qayıtdı. Acı xatirələr yaddaşında çözülməyə başladı. Sevgilisini böyük ədalətsizliklə ondan ayırmışdılar. Sarayın etibarlı əyanı olmasına baxmayaraq, qulambaşının da Gülçöhrəyə qulluqçuluq edən bu qıza gözü düşmüşdü. Elə bu səbəbdən çuğulluq edərək, onun sevgilisini növbəti hərbi səfərlərdən birinə yazdırmış, məcburən döyüşə qatmışdılar. O da döyüşdə ağır yaralanmış, ancaq canını tapşırmamışdı. Hamı deyirdi ki, bu yara kimdə olsaydı çoxdan canını tapşırardı, qulluqçu qızın sevgilisi sanki iradə gücünə canını qorumuş və saraya qədər sağ gəlib çıxmışdı. Qulluqçu qız da heç bir hədə-qorxuya baxmadan yaralı sevgilisinin yanına yüyürmüş, özünü üstünə atmış, boynunu qucaqlayıb, sinəsinə sığınmışdı. Sevgilisi də onun əlindən tutub gözlərinə baxmış, sanki bütün ömrü boyu ona deyəcəyi sözləri elə bu anlarda dilsiz baxışları ilə demişdi. Və beləcə sevgilisinin gözlərinə baxa-baxa, gözlərində sevgi işıqları yana-yana, bütün varlığı ilə məhəbbət bəslədiyi sevgilisinin qucağında namərd dünyadan köçüb getmişdi.

Dayənin gözləri ayaq üstə bir-birinə sığınmış iki gəncə baxsa da, özü, xəyalı həmin günlərdə idi. İndi bu anlarda dayə özünü dünyanın ən bəxtəvər adamı kimi görürdü. Demək, odlu sevgilərin işığı, istisi, hərarəti o qədər güclü olur ki, dünyanın soyuq küləkləri onların heç həndəvərindən ötə bilmir.

Handan-hana dayə özünə gəldi. «Külli-aləmin qorxu-qadası elə indinin özündə yağış kimi bura yağsaydı da, bu gəncləri bir-birindən ayırmaq Allahın yanında ən böyük günah sahibi olmaq-

dı», – deyə düşündü. «Mən onları bir-birindən ayıra bilmərəm. Kim bilir, bu işlərin axırı necə olacaq?».

Əslində, dayə də məsələnin kökündən xəbərdar idi. Bilirdi ki, Qazi qızını Əhməddən qoruyur. Onunla görüşməyə razı deyil. Bəlkə də dayə öz sevgilisinin taleyini Əhmədin də timsalında görürdü? Bəlkə elə buna görə Əhmədə toxunmaq, qızı ondan ayırmaq niyyətindən vaz keçmişdi? Bəlkə düşünürdü ki, bir vaxt Gülçöhrə də onun kimi ürəyinin başında yaraya çevriləcək nakam sevgisini elə bu hisslərlə xatırlamalı olacaq? Əgər belə olacaqsa, onda dayə Gülçöhrənin yanında ən böyük günah sahibi kimi necə yaşayacaqdı? «Of, qoy nə olur-olsun, mən Gülçöhrənin xoşbəxtliyini istəyirəm. Onsuz taleyimi onunla bağlamışam. O, nə vaxt özünü bədbəxt bilsə, mən ondan da betər günə qalacağam». Dayə ayaqlarının ucunda asta-asta geri çəkildi. Qapını aralayıb çıxmaq istədi. Bu vaxt gənclər bir-birindən ayrıldılar. Dayənin qapının ağzında olduğunu görüb, həyalandılar, özlərini yığışdırdılar.

– Sən bayaqdan burdaydın, Ülkərcan? – Gülçöhrə təlaşla soruşdu.

– Yox, yox, elə indicə gəldim.

Dayə qızın ona adı ilə müraciət etməsindən, hətta ona «can» deməsindən lap mütəəssir olmuşdu. Axı Gülçöhrənin bugünəcən böyüməsində, araya-ərsəyə gəlməsində onun xidməti az deyildi. Gülçöhrəni indiyəcən göz-bəbəyi kimi qorumuş, ayağına bir daşın da dəyməyinə razı olmamışdı. Ancaq indi gənclərin bir növ ayılmağı, bir-birindən ayrılmağı onu sevindirdi. Bu o demək idi ki, artıq gəncləri elə də ciddi təhlükə gözləmirdi.

– Sizə qurban olum, – dayə təzədən onlara yaxınlaşdı, – qulambaşının adamları hər an gələ bilər. Canım da sizə qurbandır, mənim can qorxum yoxdur. Mən sizdən ötrü nigaranam.

Əhməd bu dəfə də qızı qucağına çəkib onun gözlərindən öpdü. Sonra sürətlə ayrılıb dayəyə yaxınlaşdı. Onu da qucaqlayıb bağrına basdı, alnından öpdü.

– Bir-birinizi qoruyun. Mən tezliklə qayıdacağam, – dedi.

– Allahı zamin tuturam. Qayıdarsan, gülünə qovuşarsan, – dayə Tanrıya yalvarışlarla dua elədi.

Əhməd qapıdan çıxdı. Daha necə getdi, hara getdi – bunu nə Gülçöhrə bildi, nə də Ülkər. Onlar xeyli müddət Əhmədin dalınca boylandılar. Sarayın uzaq, dal hücrələrinin arxasında gözdən itənəcən nəzərlərindən buraxmadılar. Sanki birdən gələcəyin necə təhlükəli və məşum olduğunu hiss elədilər. Naçar bir-birinə baxdılar. Əhməd yox idi. Heç elə bil ki, burada olmamışdı, buraya gəlməmişdi, sanki onun xəyalı burada olmuşdu. Gülçöhrənin canına od vurmuş, varlığını yandırıb-yaxmışdı. İndi Gülçöhrə bu odun içində idi. Heç istəmirdi ki, bu oddan çıxsın. Bu od onu nə qədər yandırıb-yaxsa da, varlığını başdan-başa titrədən sevginin xoş duyğularını ona bəxş eləmişdi. Elə ona görə də yaşadığı xəyala bənzər şirin duyğuların onu tərk etməsini istəmirdi. Dönüb dayəsinə baxdı. Az qala Ülkərin kədərdən, daxili sarsıntılardan beli bükülmüş, dərddən qəddi əyilmişdi. Bu an Gülçöhrə hiss elədi ki, dayəsi onun bilmədiyi bir çox mətləblərdən xəbərdardır. Elə indicə dayənin gözlərindən oxuduğu qorxunc qəzavü-qədər onun bütün varlığına sirayət elədi. İndi varlığındakı şirin sevgi duyğuları öz yerini sevgilisinin can qorxusu ilə əvəz eləmişdi. Əgər bunu bayaqdan bu dərəcədə hiss etsəydi, bəlkə Əhmədi özündən kənara buraxmazdı. Onun əlindən tutub elə buradan birbaşa atasının yanına apardı. Atasına deyərdi ki, ya bizim hər ikimizi öldür, ya da Allah xatirinə məni ver Əhmədə. Yolumuzu da aç. Bu diyardan başımızı götürüb gedək. Hara mümkündür, ora gedərik. Ayağımızın altında torpağın titrəmədiyi bir yerdə, bəlkə uzaq dağlardakı bir kənddə yuva quraraq. Başımızı saxlamağa gücümüz çatar. Bir kimsə bizə toxunmaz. Çünki bir kimsə ilə bizim işimiz olmaz. Qoy bu xaniman da, bu saray da, bu təmtəraqlı yaşayış da, kim istəyir, ona qismət olsun. Mənim Əhməddən savayı heç bir dünya malında gözüm yoxdur…

Gülçöhrə bu düşüncələrin xəyalların arasında çırpınaraq atasının hüzurunda dayandığını düşünürdü. Necə ola bilərdi ki, atası ona həmişə «üçtelli durnam» deyə, onu öpüb-oxşaya, qızına gözünün işığı kimi baxa, amma bu xanimandan Əhmədə qıymaya?.. Axı, bu, necə ola bilərdi? Onsuz da külli-aləm yığılıb gəlsəydi, yenə Gülçöhrəni fikrindən döndərə bilməzdi.

Gülçöhrədə hələ də atasına inam vardı. Atası onun öz sevgisində necə inadlı, israrlı olduğunu görüb razılaşar, hətta bu sevgi günah olsa belə, onu bağışlayardı. İndi Əhməd getmiş, dayəsi ilə özü bu möhtəşəm sarayda köməksiz, arxasız, dayaqsız qalmışdı.

Gülçöhrə dayənin gözlərinin içinə baxdı. Onun mərhəmətli baxışlarında bir ümid işığı axtardı. Ancaq bu işığı görmədikdə bütün varlığı sarsıldı. Bütün dünya başına uçdu. Qollarını açıb dayəyə tərəf addımlamaq istədi, ayaqları sözünə baxmadı. Dizləri titrədi. Elə bu sarsıntı ilə də yerə yıxılacaqdı. Dayə cəld irəliləyib onu tutdu. Onlar sanki bu anda dərdlərini birləşdirirdilər qovuşdurdular, qucaqlaşdılar. Hər ikisinin hönkürtüsü bir-birinə qarışdı.

Əslində, Qara Yuluq Osman da tərəddüd eləyirdi. Çünki dayısı ilə axırıncı söhbətində onun gözlərindəki hiyləgərliyi sezmişdi. Nə qədər təkidlə Əhmədin can qorxusu üçün zaminlik almaq istəsə də, Qazi Bürhanəddin buna razılıq vermək istəməmişdi. Həmin mənzərəni təzədən gözlərinin qabağına gətirirdi. Və bu da onu istər-istəməz təşvişə salırdı. Yaxın qohumunu, üstəlik də güclü bir sərkərdəni, qüdrətli bir döyüşçünü öz əlilə aparıb Qazi Bürhanəddinə təhvil verəcək və sonra onun taleyi üçün məsuliyyət boynunda qalsa da, müdafiə etmək imkanı olmayacaqdı. Bəs onda neyləməli?

Bax, Qara Yuluq Osmanı narahat edən də bu idi. O, bu suala cavab tapa bilmirdi. Halbuki Qazi bu iki güclü döyüşçünün həyatını qoruyub saxlasa, oğlunun tax-tac sahibi olması naminə onlardan daha böyük kömək ala bilərdi.

...Qara Yuluq Osman Əhmədin gözlərinin içinə baxdı. Bu gözlərdə qətiyyət və cəsarət gördü. Demək olar, heç bir qorxu hissi onun baxışlarından oxunmurdu. Ancaq açıq-aşkar bir nigarançılıq duyurdu. Və elə bu an, həm də onu hiss etdi ki, Əhməd nələrisə ondan gizləyir. İllər ərzində onların arasında örtülü, sirli heç nə olmamışdı. Qazinin yanında döyüş planlarını da birgə hazırlamışdılar. Ən təhlükəli döyüşləri udmaq üçün son anda hər hansı planı necə dəyişmək, ordunun yerini necə dəyişdirmək məsələsini də öz aralarında həll etmişdilər. Bəzən belə hallar döyüşün əvvəlində Qazinin əsəbinə səbəb olmuş, onların hərəkətlərini hökmdarın əmrindən çıxma kimi qiymətləndirmiş, ancaq sonda döyüşün gedişatının xeyirə dəyişdiyini görüb sakitləşmiş, bacıoğullarının hər birinə ürəyində minnətdarlıq etmişdi. Belə anlarda yanında dayanmış oğluna baxıb təəssüf hissləri keçirmişdi.

Qazi çox istəyirdi ki, onun oğlu da Qara Yuluq Osman, yaxud Əhməd kimi cəsur olsun, döyüşə girməkdən çəkinməsin. Axı onsuz da ölüm qorxaqları daha tez tapır. Amma hər halda Qazinin də ürəyində bir valideyn təlaşı, ata həyəcanı həmişə qalırdı. O, oğlunu qoruyub-saxlamaq, özündən sonra varis kimi görmək istədiyindən onu asan bir ölümün ağzına vermək istəmirdi. Bu da istər-istəməz oğlunun təbiətində iz buraxır və çox vaxt onun özü üzbəüz döyüşlərə girməkdən yayınırdı. Bu da orduda və sarayda müxtəlif söz-söhbətlərə səbəb olurdu. Onun haqqında «qorxaq oğul» söz-söhbətinin yaranması məhz bu məsələlərlə bağlı idi.

Qazi çox məmnuniyyətlə oğlunu Qara Yuluq Osmanın tabeliyi altında döyüşlərə göndərərdi. Yaxud, elə Əhmədin özü ilə birgə onun döyüşdə iştirakına şərait yaradardı. Bunu edə bilərdi. Ən pisi də o idi ki, Qazi son vaxtlar qızının Əhmədə meyil etməsini, bu gənclərin arasında sevgi hisslərinin doğuluşunu duyurdu. Bütün bunlar Qaziyə məlum olsa da, Qazinin Əhmədi daha çox oğlunun varisliyinə qısqansa da, bu əhvalatlar hələ sarayda açıq-aşkar bilinmirdi. Və şübhəsiz, Qara Yuluq Osman da bun-

dan xəbərsiz idi. Elə Qara Yuluq Osman xəbərsiz olduğuna görə təkidlə Qazi Bürhanəddindən Əhmədin təhlükəsizliyinə zəmanət almaq istəmişdi. Qazi məsələni ona açmadan razılıq vermiş və düşünmüşdü ki, qoy Qara Yuluq Osman Əhmədi gətirsin. Sonra məsələnin gedişatına baxarıq.

Bu məsələnin mahiyyətini, əlbəttə, Əhməd özü daha yaxşı bilirdi. Elə ona görə də sədaqətinə, dostluğuna, mərdliyinə inandığı Qara Yuluq Osmana «yox» deyə bilməsə də, son anda Qazinin hansı tədbiri görəcəyi onun üçün müəmmalı idi. Və Qara Yuluq Osmanın da Əhmədin gözlərindən oxuduğu nigarançılıq elə bununla bağlıydı.

Əhməd fikir içində başını aşağı salmış, donuq nəzərlərini torpağın üstünə zilləmiş, gələcəkdə başına gələnləri, bəlkə də alın yazısını torpağın üzərində axtarmaqda idi. Sükutlu anlar keçirdi. Qara Yuluq Osman dinmirdi. Əhməd də heç nə demirdi…

Gənc olsalar da, ölümlərin, qanların içərisindən keçmiş bu iki cavanı aradan keçən vaxt bir-birilə səssizcəsinə danışdırırdı. Sanki Qara Yuluq Osman soruşurdu:

– Axı nədi səni boğan? Sənin gözlərindəki bu qədər dərin nigarançılıq haradandır?

– Sən bilmirsən, Qara, məni düşündürən başqa dərdlərim var.

– Gəl mənimlə açıq danış, bəlkə, köməyim dəyər.

– Yox, Qara, mənim könlümün istəyinə sənin gücün çatmaz.

– Axı niyə? Səninlə ən ağır döyüşlərin dəhşətlərindən keçmişik. Sən mənim canımı qorumusan. Mən də sənə inanmışam. Bəs indi nədir səni qoymayan ki, mənə axıracan inanasan?

– Mənim qabağımı kəsən təkcə öz taleyim deyil. Mən indi başqasının da taleyinə cavabdehəm.

– Bax, bunu mənə deməmisən.

– Deməmişəm, çünki bu elə yoldur ki, bunu ancaq özüm keçməliyəm.

– Mən sənin canını qoruyaram.

– Mənim canımı qoruyarsan. Bəs onun?

– O, kimdir?

– Bax bunu deyə bilmirəm.

Səssiz hisslərlə, duyğularla davam edən bu söz çarpışması sona yetdi. Və elə bu anda Qara Yuluq Osman hiss etdi ki, Əhməddən qəti və aydın cavab tələb etməlidir.

– Gəl, sən mənimlə açıq danış, Əhməd. Sən deyəsən, tamam başqa bir məsələnin nigarançılığını çəkirsən.

Əhməd başını qaldırdı. Xalası oğlunun gözlərinə baxdı. Bu baxışlarda mərdanəlikdən və saflıqdan başqa heç nə yox idi. Dumduru gözlərin içinə baxan Qara Yuluq Osman sanki ona deyirdi ki, mən canımı verərəm, ancaq sənin başından bir tükün də əskik olmağına yol verməərəm. Əhməd qəti qərara gəldi ki, olanları Qara Yuluq Osmana açıb danışsın.

– Məni indi Gülçöhrənin taleyi narahat edir.

– Bəs belə de… Deməkk, sən Qazinin qızına aşiq olmusan.

– Elədir, Qara, elədir. Əgər Gülçöhrənin taleyini tərsinə çevirsələr, onda mənim də gözümün işığını, ağlımın ziyasını, qolumun gücünü almış olarlar. Onda mənim düşmən qabağında qılınc çalmağa qolum qalxmaz.

– Sən düşünürsən ki, Qazi Gülçöhrəni sənə verməz? Sənin kimi igid bir döyüşçünü özünə kürəkən kimi, dayaq kimi görmək istəməz?

– Bəli, mən elə düşünürəm.

– Səbəbi?

– Səbəbi aydındır, Qara. Əhməd Qara Yuluq Osmanın gözlərinə nəzər saldı. İndi bu gözlərdən bir təşviş, həyəcan və səbirsizlik oxunurdu. Ona görə sözünə davam elədi: – Düşünürəm ki, əgər Qazi bizim sevgimizə mane olmaq istəməsəydi, məsələdən azçox hali olan kimi özünün istəyini büruzə verər, daha Gülçöhrə ilə aramızı kəsməzdi. Bizim sevgimizə mane olmaq ona nə üçün lazım idi? Demək, o, bu sevginin əleyhinə olub. Və sarayda bu

barədə söz-söhbət çıxan kimi, o, məni gözdən saldı. Doğrudur, həbs etmək, ittiham üçün onun heç bir əsası yox idi. Özün bilirsən ki, o, ədalətli adam kimi tanınır. Heç istəməz ki, xalq içində, el arasında ədalətinin üzərinə qara kölgə salsın. Özü yaxşı bilir ki, bircə səhv onun qəddarlığının və zalımlığının əsas göstəricisi olacaq. Adamlar daha onun ədalətinə güvənməyəcəklər.

– Bunu başa düşdüm, Əhməd. Amma sənin fikrincə, o, sizin izdivacınıza nə üçün mane olmalıdır?

– Artıq biz bu məsələni danışmışıq. Özün bilirsən ki, təkcə məni yox, hətta səni də gələcək varislik üçün qısqanır.

– Dayan, dayan, mən indi başa düşdüm. O, səni daha təhlükəli hesab edəcək.

Əhməd Qara Yuluq Osmanın bu sözlərindən sonra başını qaldırıb acı-acı güldü: – İndi görürsənmi, dostum, sənin gücün çatmayacaq məsələlər var. Bax mənim də əsas nigarançılığım budur. Qazi heç vaxt istəməz ki, onun qızı ilə evlənim, saray adamları da, elə ordu da məni Qazinin kürəkəni kimi görüb daha güclü bilsinlər.

– Doğru fikirdi… Onsuz da ordu daha güclü sərkərdəyə güvənməyi üstün sayır. O da ola Qazinin kürəkəni.

– Elə bilirəm ki, daha örtülü heç nə qalmayıb. Qazi mənim tabeliyimdəki ordunun ən təcrübəli dəstələrini sürətlə ayırdı. Başa düşürəm, əlimdə olan qüvvə ilə Qaziyə qarşı döyüşə bilmərəm. Bu cəsur döyüşçüləri, bu Vətən qoruyucuları olan əsgərləri də asanlıqla ölümün badına vermək namərdlik olardı.

– Mən inanıram, sən bunu etməzsən. Qara Yuluq Osman Əhmədin səmimiyyətini qiymətləndirərək, bu sözləri onun mənəvi saflığına qibtə ilə dedi.

– Belə vəziyyətdə Gülçöhrənin də taleyi sual altında qalır. Bilirəm ki, o da mənsiz yaşaya bilməyəcək.

Qara Yuluq Osman Əhmədin həyəcanlarını, sevgisinin faciəsini daha yaxından duymaqda idi. Artıq o, Əhmədi bir döyüşçü,

sərkərdə kimi yox, vəfalı bir aşiq kimi görürdü. Nə olur-olsun, bu qəlbi saf aşiqə sevgisinin yolunda ölümə hazır bu gəncə kömək eləmək, onun sevgisini qorumaq, vüsalına qovuşdurmaq üçün əlindən gələni edəcəyinə hazır idi. Təki onun taleyini qoruya bilsin.

– Əhməd, bəlkə birlikdə gedək Qazinin yanına? Hər halda, bizim dayımızdır. O da qızının bədbəxtliyini istəməz. Mənə sənin təhlükəsizliyin üçün söz verib. Hər şeyi ona açıq danışaram. İnan ki, o asanlıqla bizi itirmək istəməz. Oğlunun hakimiyyətini qorumaq üçün isə bizdən başqa kimsəyə ümidi yoxdur. Bütün bunları ona açıq-aşkar başa salar, hər şeyi olduğu kimi danışaram.

– Sən düşünürsən ki, Qazi sənin sözlərinə tam inanıb, qəbul edər?

– Bəli, mən bunu düşünürəm. Həm də təkcə düşünmürəm, buna inanıram. Lap bəd ayaqda mən ona deyərəm ki, Gülçöhrəni Əhmədə ver. Ona da uzaq kəndlərin birində yer-yurd elə, qoy gedib əyalətin bir tərəfində sevgilisi ilə baş-başa yaşasınlar. Doğrudur, Qazi buna asanlıqla razı olmayacaq. Ancaq mən onu inandırmağa çalışacağam ki, sən heç bir siyasətlə məşğul olmayacaq, döyüşçü libasından birdəfəlik əl çəkəcəksən. Ya da elə sarayın bir tərəfində dövlətin dəftərxana işlərilə məşğul olacaqsan. Sarayda sakit bir həyat tərzi keçirəcəksən.

– Ay Qazini buna inandırdın aaa… Sən bilirsən ki, Qazi nə qədər şair olsa da, özü də döyüşçüdür. O, yaxşı bilir ki, döyüşçü asanlıqla bir hücrəyə çəkilib sakit həyat yaşaya bilməz. Elə ona görə də hər vaxt bizdən şübhələnəcək, həyatımızı zəhərə döndərəcək. Dedi-qodular, şayiələr də bir tərəfdən. Nə qədər varam, məni oğlu üçün təhlükə hesab edəcək. Elə bu səbəbdən sarayda yaşamağa razı olmaz.

– Onda eybi yox, elə bayaq dediyim kimi, əyalətin bir tərəfində sakit bir həyat yaşayarsan.

Əhməd hiss etdi ki, başqa yolu yoxdur. Onun yeganə ümidi, həyatının işıq gələn tərəfi, deyəsən, Qara Yuluq Osmanın əlin-

də idi. Ayağa qalxdı. Sanki fikirlərində, düşüncələrində apardığı cəngdən yaxasını qurtarmaq üçün əlini alnına qoyub günəşə baxdı. Bununla o, sanki günəşdən diləyirdi ki, onun qəlbinə işıq salsın, qaranlıqları qovsun. Onsuz da Gülçöhrədən kənarda yaşamaq onun üçün ölümdən betərdi. Heç olmasa, yaxına gedər, dayısı onu əfv etməsə də zindana atdırar, o da bilər ki, sevgilisinin yaxınlığındadır. Zindanın daş divarları arasında sevgilisinin hənirini eşidər, onun nəfəsini duyar. Nə qədər ki, Gülçöhrə sağdır və öz sevgisində israrlıdır, onda heç ölümün də Əhmədə gücü çatmaz, həndəvərinə dolaşmaz…

Dönüb Qara Yuluq Osmanın sifətinə nəzər saldı. Birdən dolmuş gözləri ilə gedəcəyi yolları ölçüb-biçdi. O, artıq kövrəlmişdi. Bir an da keçsəydi, döyüşdə şir kimi çarpışan, yağının qızıl qanı qılıncının qəbzəsinəcən süzülən Əhmədin sevgi yaralarının göynəyi dilə gələcəkdi. O, ağlamaqdan, gözlərinin yaşını sel kimi axıtmaqdan özünü güclə saxladı. Qara Yuluq Osmanı qucaqladı. Gedək, – dedi, – mənim başqa yolum yoxdur.

* * *

Gülçöhrə səhərə qədərə yata bilmədi. Yerində, yatağında ilan kimi qıvrılıb-açıldı. Elə bil ki, başını iki daşın arasına qoymuşdular. Ağrı çəkirdi, ürəyi sıxılırdı. İki əli ilə başını yanlardan sıxır, bir anlığa da olsa aram olmaq, sakitləşmək üçün çalışıb-çabalayır, bir yol tapa bilmirdi. Qara-qorxulu fikirlər onun beyninə dolmuş sonsuz, axınlı düşüncələrini qabağına qatıb qovmaqda idi. Ha illah edirdi ki, düşüncələrinin içərisindən şirin xəyallarını tutub saxlasın, bu xəyallara qovuşsun və elə bu şirin xəyalların qucağından bir çimir yuxu tapsın. Amma mümkün olmurdu. Hərdən ona elə gəlirdi ki, uşaqlıq yaddaşındakı Əhməd onun gözlərinin qabağında peyda olur. Bağçadakı kəpənəklərin arxasınca düşüb qaçır. Gülçöhrə də onu qarabaqara izləyir. Bu xallı kəpənəklər də fürsəti qaçırmır, Əhməd yaxınlaşıb kolun üstündəki iri, xallı kəpənəyi iki

ovcunun arasına almaq istəyərkən onlar yenə uçub başqa bir kolun üstünə qonur. Gülçöhrə Əhmədin arxasınca qaçır.

Elə bil ki, Əhməd kəpənəyi necə tutmaq istəyir, o da eləcə Əhmədi tutmaq, onu bir uşaq şıltaqlığı ilə saxlamaq, bir sözlə, bununla nigaran könlünü ovutmaq istəyirdi.

İndiki halda Gülçöhrə heç bilmirdi gördüyü yuxudur, yoxsa xəyal? Hər nə olsa da, deyəsən, başının, beyninin ağrıları yoxa çıxmışdı. İndi bu Əhmədli günlərin xəyalları özünə çəkib onu ağrıacılardan xilas etmişdi. Və bu dumanlı düşüncələrin burulğanında içərisində yarıyuxulu vəziyyətdə Gülçöhrə Allaha yalvarırdı ki, xəyalları qaçıb-dağılmasın. Qoy Əhməd onunla birgə olsun.

…Birdən vəziyyət dəyişdi. Göyün üzünü bulud aldı, şimşək çaxdı, leysan yağmağa başladı. Bağçada güldən-gülə qonan kəpənəklər yoxa çıxdı. Hara uçub getdilər, necə oldular? Bunu daha nə Əhməd bildi, nə də Gülçöhrə. Onlar ikisi əl-ələ verib başlarını üzü göyə tutub yağışın altında dayanmışdılar. Leysan yağış onları islatmaqdaydı. Gülçöhrənin başından süzülən damlalar onun saçlarından üzüaşağı, lap bulaq şırıltısı kimi axıb gedirdi. Gülçöhrənin yaş paltarları bədəninə yapışmışdı. Birdən Əhməd Gülçöhrənin çiyinlərindən tutub xəfifcə silkələdi:

– Sən tamam islanmısan ki! Suyun içindəsən…

– Nə olsun ki, bu yağış səni də döyür, sən də islanmısan.

– Gülçöhrə, gəl evə qaçaq, sən xəstələnərsən.

– Bəs sən necə, xəstələnməzsən?

Deyəsən, Gülçöhrə bununla zəif olmadığını, özünün də Əhməd kimi güclü olduğunu və heç yağışdan qorxmadığını bildirmək istəyirdi.

– Yox, yox, Gülçöhrə, sən mənə baxma. Yadındadır, bir dəfə arxın üstündən tullananda suya düşmüşdün.

– Hə, yadımdadır. Onda məni sudan sən çıxartdın.

Həqiqətən belə bir hadisə olmuşdu. Gülçöhrə az qala boyu bərabəri arxa düşmüş, çabalasa da arxdan çıxa bilməmişdi. Əh-

məd əlindən yapışıb yuxarı çəkmiş, sonra da qucağına alıb kənara, çəmənliyin üstünə qoymuşdu. Əlbəttə, məlum hadisələrin baş verdiyi günlər arxada qalmış və çoxdan ötmüşdü.

İndi Gülçöhrə bu hadisələrdən hansının əvvəl, hansının sonra baş verdiyinin fərqində deyildi. Təki xəyalları Əhməddən ayrılmasın…

– Gəl, gəl, – Əhməd yenə onun qolundan çəkdi.

– Yox, Əhməd, qoy bir az da qalaq – Gülçöhrə təkid elədi.

– Gəl, tez buradan gedək. Yoxsa, sənin üçün lap betər olar.

Əhməd daha Gülçöhrənin nə demək istədiyini gözləmədi, onu arxasınca çəkib saraya apardı. Dayə Gülçöhrəni görən kimi iki əlilə dizinə vurdu: «Vay, vay, sən nə etmisən, lap suyun içindəsən. İndi atan səni də, Əhmədi də çağıracaq. Belə vəziyyətdə necə gedəcəksiniz?»

Dayə Əhmədi tez anasının yanına yola saldı.

– Qaç, anan sənin paltarını dəyişsin, yoxsa xəstələnərsən, bir də Gülçöhrə ilə bağçaya gedə bilməzsən.

Bəlkə də Əhməd anasının yanına getmək istəməyəcəkdi. Heç Gülçöhrədən ayrılmaq insafdan deyildi. Lakin dayənin «bir də Gülçöhrənin üzünü görə bilməzsən» sözləri, deyəsən, onu qorxutdu. Nə olur-olsun, təki o, həmişə Gülçöhrəni görsün. Gülçöhrəni görə bilmədiyi gün Əhmədin iştahı olmur, yemək yeyə bilmirdi. Əhmədin anasının şikayətlərini eşidən dayə də Gülçöhrə haqqında bildiklərini gizlətmirdi.

– Hə, doğrudur, lap elə Gülçöhrə də belədir. O da bir gün Əhmədi görməyəndə iştahası pozulur, yeməyə heç gözünün ucu ilə baxmaq istəmir.

Beləcə, şirin günlər bir-birinin arxasınca necə keçib getdi… Gülçöhrə bir gün hiss etdi ki, daha onu bağçaya, Əhmədlə görüşə buraxmırlar. Bu da sonralar olmuşdu. O zaman ki, artıq Qazinin gözaltı baxıb qızının Əhmədlə necə mehriban rəftarını sezəndən sonra olmuşdu. «Hə, Gülçöhrə artıq qızlar bulağından su içib».

Deyəsən, bu sözlərdən sonra onların sevgi kitabını bağlamaq qərarı verilmişdi…

Şamın zəif işığı otağı nurlandırmışdı. Şamın ətrafında isə pərvanələr dolaşırdı. Gülçöhrə də gözünü qırpmadan şamın əhatəsində çırpınan pərvanələrə baxırdı. Bəlkə də xeyli vaxt keçmişdi. Bu pərvanələr necə oldu? Nə vaxt özlərini oda vurdu? Yanıb şamın dibinə töküldü? Bunu heç o, hiss etmədi. Bircə görürdü ki, pərvanələrdən biri hələ də şamın haləsində dövrə vurur. Yorulmadan, dayanmadan, heç yerə qonmadan dolanan pərvanə get-gedə dairəni şama yaxınlaşdırırdı. Axır ki, onun qanadları şamın odunda ütüldü. Və… pərvanə, bayaqdan bəri işıqda yorulmadan dövrə vuran aşiq sevgilisinin odunda özünü yandırdı. Gülçöhrənin gözləri doldu. Səssiz axıtdığı göz yaşları ilə özünü ovundurmağa çalışdı, ovundura bilmədi. İki əli ilə yenə üzünü örtdü. Sanki qaranlığa düşdü. Bayaqdan şamın və pərvanənin, onun qəlbini yandıran hekayəti qaranlıqda yenə Gülçöhrəni izləməyə başladı.

…Gülçöhrə bağçaya çıxmışdı. Dayəsindən də icazə almışdı. Yazın nəfəsi qızılgüllərə çoxdan dəymişdi. Qönçələr pardaqlanıb açılmağa bənd idi. Bülbüllər sıx kolların arasında hərəsi bir tərəfdə, bir qönçənin üstündə nəğmə oxuyurdu. Elə bil ki, hər bülbül bir qönçəni öz ağuşuna almış, ona nəğməsini oxumaqla nəvaziş göstərdiyini bildirirdi. Amma Gülçöhrənin könlü açılmırdı. O, neçə gün idi ki, Əhmədi görmürdü. Və artıq hiss etmişdi ki, deyəsən, onların görüşləri arasındakı zaman get-gedə daha çox uzanır. Bu vaxt Əhməd bağçanın aşağı tərəfində – sıx kolluqların arasında göründü. Gülçöhrə qanadlanmış kimi oğlana tərəf yüyürdü. Elə bil uçurdu. Əhməd! Gülçöhrə! Hər ikisinin adları eyni vaxtda səsləndi. Heç indiyəcən belə olmamışdı. Bir-birinə çatan kimi qucaqlaşdılar. Əhmədin odlu nəfəsi artıq qızlar bulağından su içmiş Gülçöhrənin boyun-boğazına dəydikcə yanaqları allanmağa başladı. Əslində, Əhməd heç özündə deyildi. Həmin

anlarda o, özünü göyün yeddinci qatında, buludlar üstündə süzürmüş kimi təsəvvür edirdi. Beləcə, nə qədər vaxt keçdiyini özləri də bilmədilər. Bu vaxt eyvanda dayanıb hündürlükdən üzü bağçaya tərəf baxan Qazinin zəhmli səsi havanı ildırım kimi yararaq bu iki, bir-birinə qovuşmuş gəncin arasından soyuq külək kimi, vahiməli ruzgar kimi keçdi. Gənclərin arasından keçən soyuq külək qılınc bir bədəni bölən tək onları bir-birindən araladı. Nə baş verdiyini, nə üçün onların belə vahimə ilə ayrıldıqlarını heç özləri də hiss etmirdilər. Əhməd qızın gözlərinə baxdı. Gülçöhrənin bəbəklərinin içində Əhməddən başqa bir kimsə yox idi. Deyəsən, Gülçöhrənin özü işığa dönüb onun bəbəklərindən parıldayırdı. Gülçöhrə özündə deyildi. Əhməd də Gülçöhrənin üz-gözünə nəzər yetirdi. Qızın yanaqları od tutub yanırdı. Qıpqırmızı közərmiş dəmir kimi od saçırdı. Və bu anlarda Gülçöhrənin də gözlərindən yalnız sevgilisinə olan məhəbbət yağışları yağmaqda idi. Onun gözləri yaşarmışdı. Göz yaşları yanağından üzüaşağı süzülürdü. Və əlbəttə, bu, sevginin sonsuz həzzini yaşayan bir gəncin bəxtəvərlik yaşları idi. Elə bu anlarda lap başlarının üstünü ölüm də kəsdirsəydi, onlar üçün fərq etməzdi. Başqa vaxt olsaydı, atasının zəhmli səsindən Gülçöhrənin varlığı sarsılar, başını götürüb qaçardı. Neçə gün heç atasının da gözünə görünməz, bəlkə hansısa qaranlıq bir hücrədə gününü keçirərdi. Amma indi o, öz sevgilisindən ayrılıb getmək istəmirdi.

Gənclərin inadla dayandıqlarını, çəkilib bir tərəfə getmək istəmədiklərini görən Qazi eyvanda yenicə qabağına çəkdiyi qələm-dəvatı qoyulmuş kürsünü bir tərəfə itələdi. Bir topa çin kağızı da əlinin altında idi. Bəlkə də oraya hələ ilk misraları yazmışdı. Qazi hərdən bu eyvana çıxır, bülbüllərin güllər üstündə ecazkar nəğmələrini, koldan-kola uçmalarını, bir sözlə, sevgi dolu mahnılarını izləyir, sanki özü də bu zaman elə o bülbüllərə qoşulub nəğməsini oxuyardı. Bu gün də elə belə düşünmüşdü. Onun könlünə yeni yazacağı qəzəlin havası dolmuşdu. Ancaq bağçada

gözünün axtardığı bülbül və gül öpüşləri əvəzinə sevgililər peyda olmuşdu. Əhmədi və Gülçöhrəni görəndə halı pərişan olmuşdu. Onsuz da Qazi əvvəllər də bu barədə çox düşünmüşdü. Hələ uşaq ikən onların bir-birinə necə bağlanmalarından xəbərdar idi. Hərdən ağılına gəlirdi ki, bəlkə qızını elə bacısı oğlu Əhmədə versin. Əhmədin necə igid bir döyüşçü kimi yetişməkdə olduğunu görürdü. Lakin varlığına hakim olan bir hiss bu gənclərin sevgilərini qara-qorxuya çevirib canına doldurmuşdu. Hara gedirdi, harada əylənirdi, bu qara-qorxu hissi onu tərk etmirdi. Hərdən o qədər vahiməyə dönürdü ki, hətta Əhmədi əlində qanlı xəncər onu izləyən görürdü. Özü də qorxulu o idi ki, hələ bu xəncər kürəyinə saplanmamış onun necə qana batdığını Qazi gözlərinin qabağından silə bilmirdi.

Qazinin oğlu Elməddin Əli Çələbi bacısı oğlu ilə həmyaş idi, demək olar ki, elə eyni vaxtda dünyaya gəlmişdi. Rəmmal da rəml ataraq, dünyaya gələn uşaqların birinə Elməddin Əli Çələbi, digərinə Əhməd adını məsləhət bilmişdi. Sarayda neçə gün çal-çağır olmuş, adamlar sevinib şadlanmışdılar. Bəli, Qazinin oğlu Elməddin Əli Çələbi onun varisi olacaqdı. Hər halda, bacısı oğlu Əhməd də özgəsi deyildi. Və onun da dünyaya gəlişinə ayrıca muştuluq payı ayrılmışdı. Neçə-neçə dustaqlar zindandan buraxılmışdı. Neçə-neçə günahı yüngül olanların cəzası əfv olunmuşdu. Beləcə, məmləkət bu iki oğlan övladını Qazinin iki gözü kimi görmüşdü. Əvvəllər Qazi özü də belə düşünürdü. Bacısı oğlunu oğlundan ayırmır, ona da sevgi və nəvaziş göstərirdi. Ancaq müəyyən zaman keçdi, uşaqların ayağı yer tutdu, onlar ustadlardan dərs öyrənməyə başladılar, bir az da can-cəsəd götürəndən sonra hərbi təlimlər, məşqlər hər iki oğlanı sınağa çəkdi. Bax, elə buradaca yollar, deyəsən, ayrıldı. Qazinin oğlu Elməddin Əli Çələbi hərbi təlimlərə, məşqlərə meyil eləmədi. Az-çox elmlərlə maraqlanır, hərdən atasının yazı-pozu işlərilə baş qatır, xətti yaxşı olduğundan atasının qəzəllərinin üzünü köçürürdü. Bu da istər-

istəməz Elməddin Əli Çələbini daha çox guşənişinliyə çəkirdi. Əslində, Qazi oğlunun təkcə yazı-pozu ilə maraqlanmağından narazı idi. Çünki yaxşı bilirdi ki, özündən sonra dövləti idarə edən adam təkcə yazı-pozu ilə məşğul olsa, düşmənlər ölkənin üstünə ayaq alar, ordu diqqətdən kənarda qalar, ölkənin hərbi qüdrəti zəifləyər və tezliklə qurduğu dövlət dağılıb gedər. Bax, elə bu səbəbdən çox vaxt oğlunu məcburən hərbi təlimlərə aparır, onun bu hərbi vərdişlərə yiyələnməsi üçün ciddi-cəhdlə səylər göstərirdi. Və təəssüf ki, Elməddin Əli Çələbinin hərbi işdə zəifliyi tez üzə çıxır, məşqlərdə təlimçi döyüşçülər onun zəifliyini görüb güzəştə gedir, çox çətinliyə salmırdılar. Bax, o vaxtdan Qazidə bacısı oğlu Əhmədə qarşı içində gizli bir həsəd hissi baş qaldırmışdı. O, bütün gücü ilə bunu büruzə vermək istəməsə də, hadisələr məcbur olaraq gizlində qalanların üzə çıxmasına doğru aparırdı.

Gənclər ələ-ələ tutub heç nə olmayıbmış kimi Qazinin dayandığı eyvanın altına gəldilər. Qazi onları lap yaxından, aydın görürdü. Və bu zaman Qazi hiss etdi ki, Əhmədlə Gülçöhrənin arasındakı münasibət onun xeyir-duasının bircə addımlığındadır. Qazinin hirsindən dodaqları səyriyirdi. Nazik, uzun bığlarını dodaqları ilə çəkib dişinin arasına alır, dişləri ilə bığlarının uclarını gəmirirdi. Bir əli ilə saqqalından yapışmışdı. Az qalırdı ki, çənəsini hirsindən dartıb qoparsın. Axır ki, Qazi özünü ələ aldı, çox da şişirtməmək, məsələni ustalıqla həll etmək qərarına gəldi. Ancaq onun dodaqlarından çıxan bir neçə kəlməni, deyəsən, Əhməd və Gülçöhrə də eşitdi:

– Hə, nəhayət, axırı!

* * *

Söhbətin bu yerində xidmətçi içəri girib dayandı. Sara Xatun da söhbətini yarımçıq saxladı. Belə hallarda heç kim cəsarət edib Sara Xatunun yanına gələ bilməzdi. Hələ üstəlik o, oğlu ilə həmsöhbət idi. Yəni məmləkətin sahibi Uzun Həsənlə. Xidmətçinin qapının

ağzında duruxub dayanması Sara Xatunun diqqətindən yayınmadı:

– Xeyir ola? Bir sözünmü var? – dedi

– Məmləkətin böyük anasına salam olsun, – xidmətçi dilləndi.

– Salamın böyük savabı məmləkətimiz üçündür. Nə sözün var, yaxına gəl.

Xidmətçi hiss elədi ki, Sara Xatun onun nəsə vacib bir qulluq üçün gəldiyini başa düşüb, ona görə yaxına çağırır. Xidmətçi bir neçə addım yaxına gəldi, ikiqat əyilib iki dəfə təzim elədi; birinci dəfə Sara Xatunun hüzurunda baş əydi, ikinci dəfə Uzun Həsənin qənşərində.

– Künəgü adlı bir kişi gəlib sizə vacib sözü olduğunu deyir.

Sara Xatun əvvəl-əvvəl istədi desin ki, qoy hələlik gözləsin. Ancaq məsələnin nəsə ciddi bir kökü olduğunu da qeyri-ixtiyari düşündü: «Bəlkə heç gözləniləsi məsələ deyil».

Sara Xatunun analıq duyğusu ona diktə edirdi ki, bu, daha ciddi məsələ olar. Ona görə də əli ilə Həsənə işarə edib astaca «sən səbirli ol», – dedi. Sonra da üzünü xidmətçiyə tərəf çevirib: – Gəlsin, – deyə fikrini bildirdi.

Amma xidmətçi yerindən tərpənmədi. Sara Xatun hiss etdi ki, xidmətçi daha nəsə demək istəyir, dillənə bilmir.

– Hə, nə oldu, gözləyirəm, de ki, gəlsin. – Və bu təkiddən, sonra xidmətçinin tərpənmədiyini görüb daha ciddi görkəm aldı. – Başqa nə sözün var? – soruşdu.

– Bilirsiniz, o kişi sizinlə təklikdə danışmaq istəyir.

Sara Xatun dodaqlarını bir-birinə sıxdı. Hiss etdi ki, oğlu Həsən də qəzəb atını qılıncının yanına çəkir. Yenə əli ilə Həsənin dayanmasını işarələdi:

– Yox, oğlum, bu, ola bilsin ki, bizim düşündüyümüzdən də ciddi məsələdi. Sən keç pərdənin arxasına. Heç bir səs-səmir etmə. Qoy o, özünü rahat hiss eləsin və bildiyini danışsın. Səbrin, təmkinin indiki halda daha vacib olduğunu gərək unutmayaq.

Anasının bu sözlərindən sonra Uzun Həsən yerindən qalxdı, asta addımlarla pərdənin arxasına keçdi. Əvvəlcə bir istədi, arxa qapıdan həyətə çıxsın, bir az havasını dəyişsin. Ancaq maraq güc gəldiyindən qapını necə çəkib açmışdısa, eləcə də örtdü. Qalın pərdənin arxasında Sara Xatuna yaxın bir tərəfdə istirahət taxtında əyləşdi.

Görünür, Sara Xatun xidmətçini azad etmişdi. Az keçməmiş səs eşitdi.

– Mən çox xoşbəxtəm ki, məmləkətin anası məni huzuruna buraxıb, sözümü eşitmək istəyir, – bu, Künəgünün səsi idi.

– Hə, deyəsən, mən səni tanıyıram. Adın da…

– Adım Künəgüdür.

– Bu nə addır belə qoyublar sənə?

– Hə, elədir, qəribədir. Kim eşidir, təəccüblənir. Amma boyum balaca olduğuna görə adıma Künə deyiblər, sonra da olmuşam Künəgü.

– Hə, hə, yaxşı yadıma gəlir. Sən həmişə Sələbiyyə xanın yanında olardın. Oğlum Cahangirin də qulluğunda çox durmusan.

– Düzdür, Sara Xatun, siz hamımızın anasısınız. Balalarım da sizə qurbandır.

– Hə, Künəgü bəs sözün nədir?

– Doğrusu, əziz anamız, mən indiyə qədər düz yol axtarsam da, düz yolda olmamışam.

– Necə yəni düz yolda olmamısan?

– Hə də, düz yolda olmamışam. Sələbiyyə xan nə göstəriş verib onu yerinə yetirmişəm. İndi görürəm ki, onun göstərişlərinin çoxu ədalətli olmayıb.

– Hə, demək, Sələbiyyə xan gedib, səni də burada qoyub. Bəs indi nə etmək istəyirsən?

– Doğrusu, cəsarət edib hüzurunuzda həqiqəti danışmaq istəyirəm.

– Bəs o həqiqət nədən ibarətdir?

– Əvvəlcə onu deyim ki, danışacağım həqiqətlərə görə mənim boynumu vurdursanız, qanım sizə halaldır.

– Ya da səni bağışlayım, həə…

– Yox, əziz anamız. Mən bağışlanmaq xahişi üçün gəlməmişəm. Mən gəlmişəm ki, mənə vaxt verilsin, məmləkətə xidmət edim. Bu yolda ya ölüm, qanımla günahımı yuyum, ya da xidmətimdən ölkəmə xeyir gəlsin.

Sara Xatunun Künəgünün danışığından, sözünün mənasından, məntiqindən, görünür, razı qaldı. Ona görə qəti bir söz deməyib fikrə getdi. Düşünürdü ki, bu adam daha çoxlu sirlər bilməmiş deyil. Onun bildiklərinin hamısını öyrənmək və gələcək üçün daha düzgün qərar qəbul etmək onu öldürməkdən daha əfzəldir. Belə adamların fədakarlığına inanmaq olar. Çünki o, nə iş görsə də, həmişə düşünəcək ki, hələ də günahı var. Və o, günahının hamısını yuyub qurtarmayıb.

– Bəlkə bir qədər açıq danışasan. – Sara Xatun bir qədər səsinə mülayimlik verdi.

Mən gəlmişdim ki, bu qapının daş-divarını öpüm. Təki Sara Xatun mənə inansın. İndi görürəm ki, Sara Xatun məni dinləmək istəyir. Özünün iş-gücü nə qədər ağır və çox olsa da, mənə vaxt ayırıb dinləmək istəyir. Əlbəttə, bu, mənim üçün böyük şərəfdir.

– Yaxşı, yaxşı, mətləbə keç. – Sara Xatunun eyni bir az açıldı, üzünə təbəssüm qondu.

Bunu Künəgü də sezdi. Və əslində, Künəgü bununla başa düşdü ki, Sara Xatun onu tamam-kamal bağışladı, sevincindən gözləri güldü.

– Sara Xatun, mən bütün ömrümü Sələbiyyə xana qulluq elədim. O isə məni həmişə zillətdə saxlayıb, kasıbçılıqdan da canım qurtarmayıb.

– Bəs sənin əsas işinin adı nə idi? – Sara xatun bir az hövsələsizliklə soruşdu.

– Mənim işimin adı Uzun Həsənin planlarını öyrənmək və bu barədə Sələbiyyə xana məlumatlar çatdırmaq idi.

– Bunlar Sələbiyyə xanın nəyinə lazım idi?

– O, çalışırdı ki, bir yolla Uzun Həsəni xalqın gözündən salsın. Özü xalqı çapıb-talayırdı. Ancaq çalışırdı ki, bu əməllərini ört-basdır etsin. Çapqınçılığı isə Uzun Həsənin ayağına yazsın. Söz-sov yayırdı ki, xərac toplanması, vergilərin artırılması, ayrı-ayrı varlı adamların qoyun sürülərini, at ilxılarını ələ keçirməyi – hamısını guya Uzun Həsənin göstərişlərilə yerinə yetirir.

– Bəs bu əlavə xərclər hara gedirdi? – Sara Xatun bu dəfə qətiyyətlə və bir az da qəzəblə səsləndi.

– Hara gedəcək? Hamısı Sələbiyyə xanın özünə. Bir hissəsini də özlərinə sədaqətli adamlar topladığı üçün onlara xərcləyirdi.

– Bəs bunlardan Cahangir Mirzənin xəbəri vardı?

– Bəli, qismən xəbəri var idi. O, Cahangir Mirzəyə həmin xərclərin özlərinə tabe olan əlavə hərbi qüvvələrə sərf olunduğunu deyirdi.

– Bəs o, bu işlərin kökünə getmirdi?

– Yox, Cahangir Mirzə Sələbiyyə xana inanırdı.

– İndi həmin sərvəti Sələbiyyə xan nə edib?

– Həmin sərvəti Sələbiyyə xan öz əhli-əyalı ilə uzaq bir əyalətə köçürüb. İndi onun arvad-uşağının harada olduğunu bilən yoxdur.

– Bəs səni nə üçün özü ilə aparmayıb?

– Doğrusu, məni burada qoymuşdu ki, nə vaxt hərbi yürüş olacaq, hərbi yürüşdə məqsəd nədir, kimin haqqında hansı tədbirlər görülür, əsas da Sara Xatunun niyyəti nədir, öyrənib ona xəbər çatdırım.

– İndi sən də mənim niyyətimi öyrənib ona xəbər çatdırmaq istəyirsən?

– Yox, yox, Sara Xatun, – Künəgü sözünün gerisini deyə bilmədi. Çünki Sara Xatunun gözlərində yenə qəzəb qığılcımları oynadı. Və bir anda Künəgüyə elə gəldi ki, elə indicə Sara Xatun

fərraşları çağıracaq, birbaşa Künəgünün boğazını kəndirə keçirmək üçün aparacaqlar.

Künəgünün rəngi ağardı, qorxudan dizləri əsdi. İxtiyarsız olaraq yerə çökdü. Amma dili dolaşa-dolaşa olsa da bu sözləri deyə bildi: – Mən istəyirəm ki, məmləkət üçün xidmət edim. Sonra istədiyiniz fərmanı verə bilərsiniz.

– Daha bunun sənin üçün nə əhəmiyyəti var?

– Yox, Sara Xatun, mən bura gözubağlı gəlməmişəm. Hər şeyi düşünüb gəlmişəm. Mən istəyirəm ki, ölümümdən sonra uşaqlarım bu məmləkətdə alnıaçıq yaşasınlar. Mənim övladlarım olduqları üçün daha bir kimsə onlara nifrət etməsin. Axı dünya təkcə mənimlə qurtarmır. Bu dünyanın elə işləri var ki, gərək ondan vaxtında baş çıxarasan. Mən isə vaxtında baş çıxara bilməmişəm. Lakin gec də olsa, indiyə qədərki həyatımın şərəfsiz olduğunu anlamışam.

Sara Xatun əli ilə onun ayağa qalxmasına işarə etdi və:

– Hər şeyi başa düşdüm, Künəgü, – dedi. Sonra ara verib xeyli düşündü. Handan-hana asta-asta danışmağa başladı. – Sizin planınızda əvvəlcə Uzun Həsəni aradan götürmək…

– Bəli, bəli Sələbiyyə xanın planında bu vardı, – Künəgü tələskənliklə Sara Xatunun sözünü yarıda kəsdi: – Özü də təkcə bu yox, bundan başqa da planları vardı.

– Bəs onlar nə idi? Cahangir Mirzəni, eləmi?..

Künəgü xəcalətlə başını aşağı əydi və astaca «bəli», – dedi.

Araya sükut çökdü. Sonra Künəgü dilləndi:

– O istəyirdi ki, burada Qara Yuluq Osmanın xanəsini xaraba qoysun. Özü bütün hakimiyyəti ələ keçirsin. Və ondan sonra Allah bilir, nələr olacaqdı.

– Bəli, Allah bilir, – Sara Xatun daha Künəgü ilə danışmırdı, öz-özünə deyirdi:

Künəgü Sara Xatunun daha nəsə soruşmayacağına əmin olsa da, özü dilləndi: – Ancaq başqa bir məsələni sizin bilməyinizi daha vacib hesab edirəm.

Sara Xatun asta-asta üzünü Künəgüyə tərəf çevirdi. Bu balacaboy, qara rəngə bürünmüş Künəgünün içində daha nələr yatdığını düşünürdü. Onu başdan-ayağa bir də süzdü. Ancaq hiss etdi ki, o, qətiyyən hiyləgərlik etmir, nəyi bilirsə, onu deyir.

Daha Künəgünün qorxu hissi keçmişdi. Ona görə bir az da cəsarətləndi:

– Mən gəlmişəm onu deyəm ki, Cahangir Mirzə üçün təhlükə yenə qalır. Əgər o, uzaq məmləkətdə vəziyyət bir az da dəyişsə, Cahangir Mirzə Sələbiyyə xanın niyyətindən şübhələnsə, onda xan Cahangiri «uf» demədən qətlə yetirəcək. Onun heç bir insafı, mürvəti yoxdur. Heç nəzərə də almayacaq ki, Cahangir Mirzənin sayəsində doymayan gözünə, mədəsinə təpib məmləkətin var-yoxunu. Nə yığıbsa, onun hamısını Bayandurlar nəslinin sayəsində qazanıb. Bəlkə də o, qızışdırmasaydı, Cahangir Mirzə də qardaşı Uzun Həsənə xilaf çıxmazdı.

– İndi mən səni azad edirəm, Künəgü, gedə bilərsən… – Sara Xatun dedi.

Künəgü əvvəl-əvvəl qulaqlarına inanmadı. Dönüb qaçmaq, boğazını kəndirdən xilas etmək üçün sevinmək, ailəsinin, uşaqlarının yanına qayıtmaq istədi: «Yox, Künəgü, sevinmək hələ tezdir. Hara belə tez sevinirsən. Sən gərək əvvəlcə günahını yumaq haqqında düşünəsən. Axı buraya bunun üçün gəlmisən. Təkcə öz canını qurtarmaqla iş bitmir axı…» dönüb Sara Xatuna tərəf baxdı və boynunu bükdü.

– Hə, bəs niyə getmirsən? – Sara Xatun yenə gülümsündü.

Künəgü əvvəlcə özünə – ayağından tutmuş üzüyuxarı nəzər saldı. O, bu əzəmətli xanımın hüzurunda nə qədər cılız görünürdü.

– Yox, Sara Xatun, mən belə getmək istəmirəm. Mənə elə iş tapşırın ki, ya o işi yarıdım, ya da başımı qoyum bu yolda.

– Yaxşı, onda sən get Sələbiyyə xanın arxasınca onu tap, bütünlüklə ona sədaqətli olduğunu bəyan elə. Amma Cahangir Mir-

zənin başından bir tük əskik olsa, bunun əvəzini sənin ailən, övladların ödəyəcək.

– Çox yaxşı, Sara Xatun, mən elə bunu istəyirdim.

Sara Xatun taxtın yanından asılmış zınqrovu tərpətdi. Xidmətçi o saatca içəri girdi.

– Bu kişinin əhli-əyalını nəzarətdə saxlayın. Uşaqlarının dolanışığı üçün xərc verin. Özünə at və yolxərci ödəyin, mühüm səfərə gedəcək.

– Baş üstə, Sara Xatun, – xidmətçi dilləndi.

– Hə, indi yaxşı yol, gedə bilərsən, – Sara Xatun üzünü Künəgüyə tutdu.

Künəgü təzim edə-edə qapıdan çıxdı. Arxasınca da xidmətçi.

* * *

Qazi Bürhanəddin XIV əsrin 44-cü ilində Qeysəriyyə şəhərində dünyaya göz açmışdı. Salurlardan idi. Atası Şəmsəddin Məhəmməd də dini-islami qanun-qaydaları yaxşı mənimsəmiş, atası Siracəddin Süleymandan təkcə dini elmləri yox, həm də dünyəvi elmləri yaxşı öyrənmişdi. Siracəddin Süleyman siyasətçi idi. Ona görə də sarayın – Artan bəyliyinin hörmətli simalarından sayılırdı. Siyasət, elm, bir növ babadan oğula, oğuldan nəvəyə ötürülmüşdü. Qazi Bürhanəddinin bir adı da Əhməd idi. Əbül Abbas künyəsi ilə tanınırdı. Tale ona təhsil, elm dalınca getmək üçün kifayət qədər inad bəxş etmişdi. Şərqin Bağdad Qahirə, Bəlx, Hələb və digər elm mərkəzləri kimi tanınan şəhərlərinə gedir, məşhur alim Qütbəddin Razinin yanında təhsilini tamamlayır. Nəhayət, iyirmi bir yaşında yenidən doğma yerlərə qayıdır – Qeysəriyyəyə dönür. Artan hökmdarı Məhəmmədin qızı ilə evlənir. Saraya kürəkən olması onun əyan-əşrəf arasında görünməsinə şərait yaradır. Ancaq tezliklə elmli, bilikli bir gənc kimi şöhrətlənir, hörmət-izzət qazanır.

Artan bəyliyində belə hörmət-izzət sahibi olması qayınatasının – hökmdar Məhəmmədin də diqqətini cəlb edir. Şəriət işlərinə

rəhbərlik, qazilik ona tapşırılır. Dinin sağlamlığı keşiyində dayanması, həm də mənsəbi ilə bağlı olaraq Qazi Bürhanəddin təxəllüsünü qəbul edir və bu adla tanınmağa başlayır. Gənc olsa da, hökmdar Məhəmməd onu qonşu dövlətlərlə ticarət, siyasət əlaqələri qurmaq üçün göndərilən nümayəndə heyətlərinin tərkibinə daxil edir. Məqsəd və məramlar, siyasi diskussiyalar bitdikdən sonra belə xoşməramlı məclislərdə sözün və musiqinin də məqamı gələrdi. Bax, onda gənc Qazi Bürhanəddinin qəzəl deyən dili açılardı. Rübabın sədaları altında rəvan təblə deyilən qəzəllər dinləyənlərin ruhuna sirayət edər, yer-yerdən ona alqışlar qazandırardı. Beləliklə, Qazi Bürhanəddin hökmdardan sonra Artan bəyliyində ikinci böyük ad-san sahibi kimi şöhrətləndi.

Qayınatası Məhəmmədin ölümündən sonra taxta qayını Əli çıxır. Əlinin yaşı az idi. Dövlət işlərində təcrübəsizliyi vardı. Ona görə də Qazi onun vəziri olmaq təklifinə razılıq verir. İki il ərzində gənc hökmdarın əyalətin idarə olunmasında ən yaxın köməkçisi olur. Və iş elə gətirir ki, Əlinin hökmdarlıq dövrü cəmisi iki il çəkir.

…Bir gün sarayda xəbər yayılır ki, gənc hökmdar qəflətən vəfat edib. Hələ bələkdə olan körpə uşağın atabəyi Qazi Bürhanəddin hakimiyyəti idarə etməyə başlayır.

…Bu yerdə Qazi Bürhanəddin olub-keçənləri yaddaşından qovmağa çalışdı və daha heç nəyi xatırlamaq istəmədi. Nə Əlinin ölüm səbəbini, nə də körpə uşağın sonrakı taleyini. Əslində, indiki məqamda bunların hamısından çox onu düşündürən bacısı oğlu Əhmədin taleyi idi. Bir vaxt öz oğlunu Elməddin Əli Çələbi adlandıran, elə həmin vaxt dünyaya gələn bacısı oğluna Əhməd adını verən Qazidən bu uşaqların gələcəyi üçün xeyir-dua istəmişdilər. Körpə uşaqların ikisini də qucağına almış, birini sağ qolunun, digərini sol qolunun üstündə saxlamışdı. Sonra körpələri yaxşı-yaxşı süzmüş, onların gözlərinə baxmış, bir-birinə oxşarlıqlarında demək olar ki, fərq görməmişdi. Hətta uşaqla-

rı dayələrə qaytaranda zarafatla da olsa, belə bir söz də dilinə gəlmişdi: «Gözləyin, qarışdırmayın, yoxsa ayırmaq çətin olar». Ancaq bacısı oğlu Əhmədin yaxasından sancaqla yaşıl muncuq, oğlu Elməddin Əli Çələbinin yaxasından isə göy muncuq asılmışdı. Əslində, elə bu muncuqların rəngini və kimin yaxasına hansı rəngin rəmz olmasını da Qazi özü məsləhət görmüşdü. Bəli, Qazi hələ körpələr bələkdə ikən onların tale yolu haqqında hökmünü vermişdi. Oğlunu Salur boyunun türk cəngavəri kimi görmək, bacısı oğlu Əhmədi isə dinin, elmin hamisi kimi böyütmək məqsədini gizlətməmişdi. Tale elə gətirdi ki, sonralar oğlu elmə, dinə daha çox meyil elədi, Əhməd isə cəngavərliyə. Qazinin özü də döyüş ustasıydı. O, nə qədər ki, elm adamı idi, qələm əlindən düşmürdü, bir o qədər də döyüşlərə, şücaətə can atan igid və qəhrəman idi. Bir sözlə, bərabər böyüyən bu iki gəncin hər birinin uşaqlığı onun gözlərinin qabağında keçmişdi. Hərdən də yarımistehza ilə düşünürdü: Bəlkə, o vaxt muncuqları – tale rəmzlərini dəyişik taxıblar? Tez də bu fikri özündən kənara qovurdu.

Bəli, oğlu Elməddin Əli Çələbi – onun qələminin, elminin, biliyinin varisi kimi, bacısı oğlu Əhməd isə qılıncının varisi kimi böyümüş, camaat arasında hər biri öz təbiətinə görə tanınıb hörmət və nüfuz sahibi olmuşdu. Qazi Artan hökmdarı Məhəmmədin qızı ilə evləndi – bu zaman Qazi sanki başqa şey haqqında düşünürdü. O vaxt Qazi doğrudanmı Artan hökmdarı olmaq niyyətində idi?

– Yox, yox, mən o vaxt belə bir niyyətdə bulmamışam. – Qazi yenə onun varlığına doğru yeriyib, ruhunu əsir edən düşüncədən azad olmaq istədi.

– Bəs onda necə oldu ki, Əli belə tezliklə öldü?

– Bu, taleyin işi idi.

– Əgər bu taleyin işi idisə, onda bəs atabəyisi olduğu körpə uşağın taleyi necə oldu? Necə oldu ki, həmin uşaq izsiz-soraqsız yoxa çıxdı?

– Görünür, uca Allah belə istəyirmiş…

Qazi sanki onunla üzbəüz dayanan ikinci «mən»i ilə döyüşürdü. Hətta birdən özünü unudub həmişə belindən asılı olan yüngül qılıncın dəstəyinə əl atırdı. Deyərdin ki, bu saat qılıncı çəkib kiməsə hücum edəcək. Gözünü açıb qarşısına baxanda başqa bir kimsəni görmürdü. Və sakitləşirdi. Arabir ətrafına da göz yetirir, onu görüb-görməyənin olduğunu da gözaltı yoxlayırdı. Kimsənin olmadığından, onu görmədiyindən əmin olduqdan sonra lap sakitləşirdi. Çox istəyirdi ki, ikinci «mən»i onu sakit buraxsın, onunla işi olmasın. Yaxşı, ya pis, nə fərqi varmış, bütün bunların hamısı keçmişdə qalmışdı. Yenə Qazinin içindəki «mən»i ilan kimi başını qaldırdı:

– Əgər bütün bunlar keçmişdə qalmışdısa, onda səni qorxudan nədir?

– Məni qorxudan odur ki, öz əlimlə hakimiyyəti oğluma yox, qızıma sahib çıxan bacım oğluna verməli oluram. Qılıncı daha qüdrətli, sözü daha ötkəm, qoşunun içində nüfuz sahibi olan cəngavəri qoyub, kim bütün günü ömrünü kitablar arasında keçirən oğluma tabeçilik göstərər?!

– Nə olar, qoy bacın oğlu hakimiyyət sahibi olsun, həm də kürəkənin olacaq. Bu vaxt Qazinin beynində az qala zaman qarışmışdı. Ona elə gəlirdi, artıq bacısı oğlu qızına sahib çıxıb və onun hüzurunda aliməqam bir mərtəbədə əyləşib.

– Hələ, üstəlik, mən sağ ola-ola az qala hakimiyyətin işlərini idarə etməyə də burnunu soxur.

– Yox, Qazi, elə deyil, hakimiyyətə doğru yol açılanda bu yolu getməyə qadir olan müsafir özünü elə bu cür təqdim edir. Bəs sən özün belə etmədinmi?

Yenə Qazinin nitqi tutuldu. Yenə Qazi təkrar-təkrar udqundu, dili-ağzı bağlandı. Elə bil ki, onu oğurluq üstündə yaxaladılar. Qurcalandı ki, onu yaxalayan bu qara əllərdən canını qurtarsın, mümkün olmadı. Axır sustaldı, heydən düşdü, yerə çökdü. Qazi çox qocalmamışdı. Özü də qıvraq adam idi. Bu anlarda kimsə

gəlib onu görsəydi, deyərdi yəqin səksəni çoxdan keçmiş, dünyanın əzab-əziyyətlərindən beli bükülüb qartımış, yanaqlarının sümüyü çıxmış bir qoca büzüşüb küncə qısılıb. Özü də bu qocanın bir kimi – kimsənəsi yoxdur, gəlib qolundan tutub onu isti bir guşəyə aparsın, ona simsarlıq eləsin.

Qazi yazıq-yazıq inildədi. Belə vəziyyətdə nə qədər qaldı, heç özü də bilmədi. Yuxulamışdımı, huşunu itirmişdimi? – deyə bilməzdi. Gün günorta yerini keçməkdə idi. Hava kifayət qədər istilənmişdi. Bu il bu yerlərə bahar tez gəlmişdi. Yenə bülbüllər bağçada dil-dil ötürdü. Qızılgüllər güclə seziləcək mehin altında titrəşirdi. Elə bu vaxt göy üzündən bir ley şığıdı. Bağçadakı bülbüllər pərən-pərən düşdü. Hansı haraya uçdu, hara qısıldı, bəlkə heç ley də şığıyıb ovunu caynaqları ilə qapmaq istədiyi məqamda bunu görmədi. Yırtıcı hansısa bir gülün üstünə caynağını ilişdirdi. Qazi dörd gözlə onun caynağını ilişdirdiyi məqama nəzər yetirdi. Amma quşun caynağı boş qaldı. Bülbülü caynağına keçirə bilmədi. Təzədən üzü göylərə tərəf milləndi. Səmanın yuxarılarından üzüaşağı – gül kollarının üstündə baxışlarını gizlədə-gizlədə nəzərlənə-nəzərlənə havada süzməyə başladı. Qazi gözlərini leydən çəkdi. Və bağçadakı gülləri bir-bir nəzərdən keçirməyə başladı. Axır ki, bayaq yırtıcının üstünə cumduğu kolun üzərində nəzərini saxladı. Nəsə gözədəyər bir şey sezmədi, bir daha diqqətlə baxdı. Həqiqətən, bayaq leyin götürmək istədiyi bülbül gül kolunun üstündəcə tikanlara ilişib qalmışdı. Qazinin iti nəzərləri aydınca gördü ki, bülbülün canına-cəsədinə neçə yerdən tikan sancılmışdı. Tikan bülbülün boğazının altından sancıldığından asıla qalmışdı. Dünya-aləm Qazinin gözlərində qırmızıya büründü. Ona elə gəldi, bülbülün ağzından qan açılıb və bu qan get-gedə o qədər çoxaldı ki, bir selə döndü. Bağçanın qanovuyla axmağa başladı. Qan get-gedə hər yanı bürüyür, ilğıma çevrilir, dəniz kimi dalğalanırdı. O qədər çoxalmışdı, az qala bu dənizin dalğaları Qazinin ayaqlarını döyürdü. Birdən Qaziyə elə

gəldi, özü də ki, qan içində boğulur, əl-qolunu atmağa başladı. Çığırmaq, haray-həşir salmaq – kömək edin, boğuluram, – demək istədi. Deyəsən, səsi çıxmır, kimsə onu eşitmir, harayına yetmirdi. Bu zaman göydəki buludlar toqquşdu, ildırımlar, şimşəklər oynadı. Ağ bir yağış dağların sinəsini döyməyə başladı. Qazi gücü çatmadığı sağ əlini qaldırıb elə bil ki yağışı çağırırdı:

– Üzü bəri gəl. Gəl, bu qanı yu. Yoxsa, bu qan bütün Anadolu bəyliyinin hamısını özündə qərq edəcək.

…Bayaq Əhməd və Gülçöhrə Qazi Bürhanəddinin qəzəbli baxışları altında çaşqınlıq keçirib həyalanmaqla yanaşı, həm də bərk qorxmuşdular. Ona görə hərəsi sarayın bir küncünə qaçmışdı. Amma Qazi Bürhanəddinin nəsə səsi-sorağı gəlməmişdi. O tərəfdə Əhməd gözləyirdi ki, saray qulluqçuları – bəlkə də, lap fərraşların özləri, cəza kəsənlər bu dəqiqə onu axtarmaqdadır, elə indilərdə taparlar. Və onu divana Qazinin hüzuruna apararlar. Burada Qazi özü Əhmədi divana çəkər, sorğu-sual edər. Bəs, nə qərara gələr? Əhməd özü-özündən soruşdu. Axı o, dayısının bu izdivacdan xoşlanmadığını hiss eləmişdi. Duymuşdu ki, dayısı deyəsən, onun Gülçöhrə ilə evlənməyinin tərəfdarı deyil.

– Axı niyə tərəfdarı olmasın? Mən dayım üçün canımı verməyə hazıram. Hər an onun yanında olaram. Onun başından bir tük əskik olmasın deyə gözümü də qırpmaram. Dayım da mənim timsalımda özünə yaxşı bir can qoruyan görər. Əmin-arxayın olar.

Ancaq Əhməd bu zaman bilmirdi ki hakimiyyət hərisliyi elə bir bəladır ki, o, insanın gözlərini kor eləyir, yaxşını pisdən ayıra bilmir, doğrunu da yalandan.

Bu vaxt Əhmədə elə gəldi ki, dayısı onu dinləyir, gözünün qabağındadır. O da başını yerə dikib ayaqlarının ucuna baxır.

– Yoox, belə olmayacaq. – Bu zaman Əhməd daxili bir təpərin, gücün təsirilə başını yuxarı qaldırdı. – Mən istəyimi birbaşa dayımın özünə deyəcəyəm. Elə bilirəm ki, o, mənim məhəbbətimin saflığını sözlərimdən, lap elə diqqət eləsək, gözlərimdən oxuya

bilər. Mən nə üçün çəkinməliyəm? Nədən ehtiyatlanmalıyam? Mənim oğurluq etmək fikrim də yoxdur. Halallıqla dayımın qızı ilə evlənmək istəyirəm.

Hətta birdən onun ağlına gəldi ki, dayısı oğlu Elməddin Əli Çələbi də bu sevgidən xəbərdardır. Əgər indiyə qədər onun bir narazılığı olsaydı, yəqin ki, bunu mənə, ya da Gülçöhrənin özünə bildirərdi. Yox, sarayda dayımdan başqa bir kimsə bu sevginin əleyhinə deyil. Bəlkə Əhməd bu qara-qorxunun içərisində çox çırpınacaqdı. Amma deyəsən, Gülçöhrənin səsi gəldi və bu onu qara-qorxulu xəyallardan ayırdı, ətrafı dinşədi. Hə, bu, Gülçöhrənin səsi idi:

– Əhməd, Əhməd, sən haradasan?

Əlbəttə, Gülçöhrə də Əhmədin harada olacağını bildiyindən yaxına gəlmişdi. Əhməd tez bayıra yüyürdü. Gülçöhrənin rəngi qaçmış, avazımışdı. Dili güclə söz tuturdu:

– Gəl, tez gəl, atamın…

Əhməd özünü Gülçöhrənin üstünə atdı: – Sənə bir şey olmayıb ki?…

Əvvəlcə Əhmədə elə gəldi ki, Gülçöhrə cəzadan qaçıb onun yanına gəlib. Kimsə onu təqib eləyir.

– Axı səni kim qovub? Nə olub?…

– Heç kim. Gəl, atamın vəziyyəti pisdir.

Gülçöhrə onun qolundan çəkib bayaq atasını gördüyü yerə tərəf apardı. Onlar bir küncdə bayılıb qalmış Qazinin yanına özlərini yetirdilər. Hərəsi bir tərəfdən onun qolundan yapışıb yerdən qaldırdılar. Qazi gözlərini güclə açdı. Əvvəlcə qızına, sonra da Əhmədə baxdı.

– Gözləyin, qana batarsınız, – dedi.

Əhməd ilə Gülçöhrə təəccüblə bir-birinə baxdılar. Qazinin dodaqları deyəsən, yenə tərpənirdi:

– Mən qan görürəm.

* * *

Baş təbib Qazinin nəbzini tutdu, gözlərinə baxdı. Qulaqlarını söykəyib, ürək döyüntülərini dinlədilər. Sonra başqa həkimlər yaxınlaşdılar. Hər kəs özlüyündə nəyisə qət etməyə çalışdı. Bir-birinə baxıb, səssiz baxışlarla danışdılar. Əlbəttə, hələ ki, onların nə qənaətdə olduqlarını nə Qazinin oğlu Elməddin Əli Çələbi, nə qızı Gülçöhrə, nə də Qazinin yastığının baş tərəfində əyləşib, onun sağ əlini ovcunun içinə almış Səlma xatun bilmirdi. Qazinin bacısı oğlu Əhməd də yaxında – qapının ağzında dayanmışdı. Xüsusilə, Gülçöhrə və Əhməd həyəcanlı idilər. Onların rəngləri avazımışdı, həyəcandan, bəlkə də, daha qorxu hissindən təlaşda idilər. Təbiblər nə deyəcəkdi, Qazinin nə səbəbdən qəflətən xəstələnməsini necə izah edəcəkdilər? Hələ kimsəyə məlum deyildi. Təbiblər ona dağ otlarından dəmlənmiş şirə içirtdilər. Balla qarışdırılmış daha bir qaşıq məlhəm verdilər. Sonra təbibbaşı üzünü Səlma xatuna tutdu.

– Qorxmayın, elə ciddi bir şey yoxdu. Görünür, uzun illərin həyəcanları narahatlıqları, bəlkə də bir qədər də yazı-pozu işləri Qazini yorub. Təbibbaşı Məhyəddin bunu dedi. Amma hiss olundu ki, yenə nəsə deyə bilər. Araya qısa sükut çökdü. Sonra o, üzünü məmləkətdə yaxşı loğman kimi tanınan və özünün yetirməsi, nisbətən cavan Varisəddinə çevirdi:

– Sən necə bilirsən, Varis? – O, yetirməsinə bu adı özü vermişdi. Və həmişə ona deyərdi ki, sən çox istedadlı təbib kimi yetişəcəksən, yolumun davamını sənin timsalında görürəm. Mənim varisim olarsan.

Bu da təsadüfi deyildi. Əvvəla, Varisin böyük istedadı vardı. Həkimlik sənətinin cikini-bikini ustadından qədərincə mənimsəyə bilmişdi. Hətta hansı dərmanın hansı otdan, hansı qayda və üsulla hazırlandığını yazıb «Təbabət qaydaları» adlı bir kitab da hazırlamışdı. Hələ üstəlik, onu ustadına sevdirən bir cəhəti də parlamaqda idi. O, bu qaydaları həm nəzmlə, gözəl şeir parçaları ilə qələmə alır, hər şeir parçasından sonra ustadın qızı Dürdanəyə

həsr elədiyi bir rübai və ya qəzəllə tamamlayırdı. Hər həftənin sonunda ustadın yanına gəlir, ona ötən günlər ərzində gördüyü işlər haqqında hesabat verir, nəzmlə yazdığı qaydaları aramla oxuyurdu. Ustad da arada yetirməsinin gözəl ifadə tərzinə heyranlığını bildirmək üçün «Ay maşallah, ay bərəkallah, təbin daha gur olsun, oğul» – deyə xoş sözlərlə mükafatlandırırdı. Ustadın hər rəğbəti, hər xoş sözü elə bil Varis üçün göydən qoparılıb, ona bəxş edilən ulduz idi. Bu ulduzlar Varisin gözlərində bərq vururdu. Onun könlü daha da şövqə gəlirdi. Və belə günlərin birində Varis elə şövqə gəldi ki, qaydaların sonuna yazdığı rübai və qəzəl parçalarını da əzbərdən və rəvan təblə söyləməyə başladı. Qəzəlin rədifi Dürdanə ilə qurtarırdı. Hər misranın sonunda Varis Dürdanə sözünü həm sevgilisinin adı, həm də başqa bir mənada ikimənalı, bəlkə də, çoxmənalı işlədirdi. Ustadın bu misraları dinlədikcə könlü qubarla atlanır, ürəyi həyəcandan az qalırdı ki, köksündən qopub, havaya uçsun. O, həyatın çox yollarını keçmiş, zamanın çox gərdişinə sinə gərmişdi. Gəncliyində sevdiyi qıza qovuşa bilməmiş, ömrü boyu sinəsində bir həsrət və hicran ocağı daşımışdı. Hərdən bu ocaq səngiyir, həyatda gördüyü xoş günlərin təsiri ilə yaddaşın arxa tərəfindəki qaranlıqlara doğru çəkilir. Bəzən də görürdü ki, tənhalıq bu hicran ocağının odunu, alovunu yelpikləyir. Məhyəddinin sinəsində yanan ocağın tüstüsü onun başından çıxır, odu, alovu dilini-ağzını qarsalayır. Ancaq bu barədə kimsəyə deməz, öz dərdini özü çəkərdi. O, təbiblik elminin sirlərini öyrənmək üçün sevgilisi Dürdanə ilə əhdi-peyman bağlayıb, uzaq səfərə çıxır. İş də elə gətirir ki, bir müddət Nizamülmülkün Nizamiyyə mədrəsəsində təhsil alır. Oradan da Şərqin digər ölkələrinə səfər edir. Hər dəfə bir ustadın yanında xeyli müddət oxuduqdan sonra müəllimi bu gəncin necə fəhmli – bir zəka sahibi olduğunu görür, onun elmlərin dərinliklərinə doğru necə can atdığını müşahidə edir, dərin sualları qarşısında cavabsız olduqlarını söyləyirdilər. Və beləliklə, elə müəllimlərinin məsləhəti

ilə başqa bir şəhərə daha adlı-sanlı bir həkimin – ustadın yanına getməli olurdu. Ustadların öyrətdiklərini mənimsədikcə, onun sualları nəinki elmin, eləcə də insan qəlbinin dərinliklərində yatıb qalmış həqiqətləri çözələyirdi. Bir tərəfdən vətəndə qoyub gəldiyi Dürdanəsi gözlərinin qabağına gəlir, məzəmmətli baxışlarını görən Məhyəddin hər şeyi elə buradaca yarımçıq qoyub geriyə – Vətənə dönmək, Dürdanəsinə qovuşmaq istəyi ilə odlanırdı. Amma sabah açılır, ustad qarşısında əyləşən kimi elmin sevgili cazibəsi onu özünə çəkirdi. O da heç xəbəri olmadan beynində yatıb qalmış cavabsız suallarının gizli hikmətlərinin izi ilə zamanın təsbeh dənələritək sıralanan günlərini hikmətlərinin ötürməli olurdu. Beləcə, on il gəlib keçmiş, indi daha Vətənə müdrikləşmiş, gəncliyini çoxdan ötürmüş kamil bir təbib kimi qayıtmışdı.

…Və qayıdıb nə görmüşdü? Lələ köçüb, yurdu qalıb. Dürdanənin heç rəyini soruşmadan adlı-sanlı əyanların birinə veriblər. Sonralar Dürdanənin anasından eşitdiyi tarixçə onun qəlbini cızdağa döndərmiş, sinəsini yandırıb-yaxmışdı. Dürdanə hamıya yalvarmış, doğmalarından imdad istəmiş, özünün kimsəyə getmək fikri olmadığını nə qədər desə də, onu eşitməmişdilər. Beləcə, onu məcburən ər evinə köçürmüş, günü eyş-işrətdə keçən bir əyan oğluna arvad eləmişdilər. O, həmin əyan oğluna özünün gücü çatdığını verməmişdi. Yəni könlünü, könül evini, canının bahasına qorumağa çalışmışdı. Dürdanə onun üçün hədiyyə olunan bilərzikləri qoluna taxmamış, qızıl boyunbağılarına əl vurmamış boğazında, sinəsində bəzək kimi görmək istəməmişdi. Bütün bunlar onun üçün könlünün ucalığında saxladığı sevgisindən çox ucuz və aşağı idi.

Əyan oğlu Dürdanənin sevgisini qazana bilmədi, hələ üstəlik, onun mənəvi əzablarını artıran daha betər çirkinliklərə əl atdı. Başqa birisi ilə evləndi. Və Dürdanəyə yeni evləndiyi xanıma qulluq göstərməyi əmr elədi. Bütün bunlar ağır iztirablar kimi Dürdanənin qəlbini oda tutur, gilə-gilə əridirdi. Yanaqları dağ laləsi

kimi olan Dürdanə heç üç ay keçmədi ki, xiffətdən arıqlamağa, saralıb-solmağa başladı. Daha onun hərəkət üçün taqəti qalmamışdı. Uzun yalvar-yaxardan, xahiş – minnətdən sonra Dürdanənin anası qızını evinə aparmaq üçün icazə aldı. Özü də müvəqqəti sağalıb yataqdan qalxan kimi geriyə qayıtmalı, əyan oğlunun xanımına qulluq göstərməkdə davam etməli idi. Həqiqətən sarayın təbibləri əyan oğlunun sifarişi ilə Dürdanənin sağalması üçün ciddi-cəhd ilə çalışırdılar. Az vaxtda dərmanlar öz təsirini göstərdi. Və bir gün əyan oğlunun bacısı onu yoxlamağa gəldi.

– Hə, bizim Dürdanənin əhvalı necədir? – Dürdanə başını qaldırıb yanında dayanmış baldızı Zərrin xanımı gördü. Elə bil ki, ürəyinə bir qara-qorxu neştəri sancıldı. Yatağında qıvrılıb, açıldı. Hiss elədi ki, bu gəliş ona yaxşı heç nə vəd eləmir, özünü o yerə qoymadı: – Pis deyiləm, Zərrin.

– Hə, lap yaxşı. Demək əhvalın düzəlir. Maşallah, görürəm gözlərin də par-par yanır. Ay qız, gözüm dəyməsin, elə bil ki, gözəlliyin haradasa qaçıb gizlənibmiş, indi qayıdır. Bəxtəvərsən, ey bəxtəvər. – Zərrin dil boğaza qoymur. Sözü sözə, kəlməni kəlməyə calayırdı.

– Yox, Zərrin. Mənim «bəxtəvərliyimi» Tanrı bir kimsəyə qismət eləməsin.

– Niyə, ay qız. Qadın ki, itirdiyi gözəlliyi təzədən qaytardı, daha ondan xoşbəxt kim ola bilər dünyada? – Zərrin yenə dilini işə saldı.

– Gözəlliyi nədə görürsən, ay Zərrin?

– Belə gözəlliyi kişilərin ürəyinə od salan ay parıldayan üzdə, köz kimi yanan gözdə görürəm. Daha necə olmalıdır? Gərək gözəl yeriyəndə daşın da, ağacın da tamahı düşə, dönüb arxasınca baxa.

– Bəs gözəlin qəlbindəki yaranı, sinəsindən axan qara qanı kim görsün?

– Ey, ay qız, sən nə qoyub, nə axtarırsan? Bilmirsən, bu dünya beşgünlükdür. Nəfəsimiz ağzımızdan çıxanda bizi aparıb beş

arşınlıq quyunun dibinə atacaqlar. Canımıza yerin altında gəzən həşərat-məşərat daraşacaq.

– Can bizim bədənimiz deyil, Zərrin. Can bizim ruhumuzdur. Canımız bədənimizdən çıxanda ruhumuzu kiməsə əmanət eləyirik. Sözünün sonunu asta-asta dedi. Elə bil ki, Dürdanənin sözləri kuzədən süzülən bulaq suyu idi. Axırıncı qətrə də süzüldü, səs kəsildi.

– Dayan, dayan. – Zərrin daha görmürdü ki, Dürdanə onu eşitmir. – Elə bil ki, sən o dağda-daşda ot, əncər axtaran Məhinin sözlərini deyirsən. Mənim yaxşı yadımdadır, o, belə sözlər danışardı. Yadındadır? Hər dəfə biz bulağa gedəndə bizə qoşulub bulaq başındakı otları bir-bir arıyar, hansısa birinin çiçəyini, birinin yarpağını yığardı.

Deyəsən, Dürdanənin bayğınlığı keçmişdi. Zərrinin uşaqlıq xatirələrini danışdığını eşidirdi. Bu unudulmaz xatirələrdən könlünə işıq düşdü. Dodaqlarında bir təbəssüm göründü. Bu təbəssüm get-gedə üzünə, gözünə yayıldı. Dürdanənin baxışlarında uzaq günlərin yaddaşında qalmış ən işıqlı anlar sayrışmağa başladı.

– Hə, o da yadımdadır ki, sən bir otu köklü-köməcli qoparıb Məhiyə verdin ki, al, Məhi, daha ucundan, yarpağından, çiçəyindən niyə qırpırsan?

– Hə, hə, düzdü. – Zərrinin əhvalatı xatırlamağından sevindi. – Hə, düzdü, elə köklü-köməcli qoparmışdım. Tozlu-torpaqlı aparıb Məhinin qucağına atdım.

– Yadındadır, Məhi sənə nə dedi?

– Yox, o yadımda deyil, o yadımdadır ki, qızların hamısı gülüşdü. Məhi pərt oldu.

– Ancaq mənim yadımdadır, Zərrin.

– Nə dedi?

– Dedi ki, hər ot, hər çiçək bir gözəl qız kimidir. Onu kökündən qoparmaq olmaz. Gərək usta-usta, asta-asta çiçəyini, yarpağını

qədərincə, ehtiyatla dərəsən. Yoxsa, dünyanın gözəlliyi bizdən küsər. Gözəllik də ki küsüb getdi, bir də çətin qayıdar.

– Bay, necə olduğu kimi yadında saxlamısan. O elə bir söz dedi. Elə mənim özüm. Bax, məni görürsən? – Zərrin suallı nəzərlərilə Dürdanənin gözlərinə baxdı. İndi bu gözlərdə bayaqkı işıqlı xatirələrlə yanan şövqdən əsər-əlamət qalmamışdı. Yenə Dürdanənin baxışlarına kədər hakim idi. Gözləri dolmuşdu. Elə himə bənd idi ki, bulağın gözü açılsın. Onun yanaqları boyu göz yaşları sellənsin.

Lakin Dürdanə dözürdü. Bütün gücünü toplayıb, Zərrinin gözləri qabağında ağlamaq istəmirdi. Heç daha Zərrinin ondan nə soruşduğunun mahiyyətinə də vara bilmədi.

– Hə, nə olub ki, sənə? – Elə-belə, söz gəlişi, bəlkə də Zərrinin sualını cavabsız qoymamaq üçün dilləndi.

– Çox deyirdilər ki, insanın gərək könlünə toxunmayasan. Onun istəyinin sirrinə vaqif olasan.

– Bax, bunu düz deyiblər, amma deyilənə kim əməl eləyir?

– Yaxşı görək, ay qız, sən hər şeyin ucundan tutub ucuzluğa gedirsən. Yadındadır, Oxçu oğlu mənim dərdimdən necə dəli-divanə idi?

– Hə, sən deyəsən, onu az istəmirdin.

– Əlbəttə, az istəmirdim. Vallahı elə gecələr olub ki, Oxçu oğlu ilə səhəri dirigözlü açmışam. Allah, necə dil-dil ötürdü. Adımı elə deyirdi, elə bil dilindən bal tökülür. Dodağımı dodağına toxunduranda canım od tutub yanırdı.

– Bəs sonra nə oldu?

– Nə olacaq? Teymurilərlə savaşa getdi. Ha dedim ki, atam səni saxlayar. Gözümün qabağından heç yerə getmə. O da axı bilirdi məni bəy oğluna nişanlamaq istəyirlər. Mənə dedi ki, sən niyə etiraz eləmirsən? Mən də dedim, sənin nəyinə lazımdı? Mən həmişə sənin olacağam. Daha neynirik, sizin quru divarlara gəlib ikimiz birlikdə keşik çəkək? İncidi, savaşa qoşuldu, oradan hara getdi,

xəbərim olmadı. Bir də geri qayıtmadı. Doğrusu, Oxçu oğlu heç yadımdan çıxmır. Amma kasıbın biri idi. Elə o vaxt dediyim kimi, gedib quru divarlarına keşik çəkəcəkdim? Daha bilmirəm, sonralar bəlkə elə onun ahı tutdu. Üzüm-gözüm xallandı, ziyil basdı. Deyirlər ki, bunun ilacını o ot-əncər dərmanları düzəldən Məhi bilirmiş. O da mənim Oxçu oğlum kimi baş götürüb yoxa çıxdı. Kimin başına nə gəlir, bunu bilmək olmaz. Sən də gərək qəzanın qismətindən qaçmayasan.

– Necə qaçım, hara qaçıram ki? Onsuz da qəza məni ürəyimdən, qəlbimdən didir. Bir yırtıcı pəncəsi var, sinəmdə. Cırmaq-cırmaq eləyir ürəyimin başını. Ayrılığın, həsrətin odu-ocağı yanır içimdə. Məni dirigözlü pörşələyir.

– Yaxşı, yaxşı, ay qız, indi yenə keçmişin qara-qura fikirlərini başına yığacaqsan. Mən gəldim, sənin əhvalını bilim. Tezliklə də sağalıb, qalxarsan. Qayıdarsan ərinin evinə.

– Necə? – elə bu sözü dedi. Daha nələr oldu, nə baş verdi, Dürdanənin xəbəri olmadı. Və elə həmin gündən Dürdanənin çərxi çöndü.

İndi kimsə bilmirdi ki, Məhyəddinin qızı eşqin odunda yanmış Dürdanəsinin adını daşıyır.

* * *

Zərrin getdi. Dürdanə ayaqları əsə-əsə yerindən qalxıb, pəncərənin qabağına gəldi. Dürdanənin əhvalında olan dəyişikliyi, sınıqlığı anası tez hiss elədi. Çünki Zərrinin gəlişi və gedişi ilə qızın üstünə bir qaranlıq çökmüşdü. Bayaqkı bayılmadan sonra güc-bəla ilə özünə gəlmiş Dürdanə divardan tuta-tuta gəlmişdi pəncərənin qabağına. Üfüqdə saralmaqda olan günəşin qızılı, zərrin şüalarının əvəzinə buludların arasından bir sarı işıq seli axırdı. Və sarımtıl işıq seli pəncərədən Dürdanənin üzünə-gözünə düşürdü. Anası yaxına gəldi. Əlini uzadıb qızının saçlarını sığalladı. Arvad birdən ilan çalmış kimi geri çəkildi.

Qızın bir neçə saatın içərisində rəngi dəyişmişdi. Elə bil, anası onun üz-gözünü qorxu gətirən bir rəngdə gördü. Bu vaxt Dürdanə elə pəncərənin yanında qoyulmuş aynaya tərəf baxdı. Yerindən tərpənməmişdi. Hələ də günəşin sarımtıl işıqları üzündə, gözündə səyriyirdi.

– Nə olub, ay qızım, indi ki, əhvalın yaxşıdır?

– Yox, ana, əhvalımın yaxşı və ya pis olmağı daha gözümdə deyil.

– Boy, qadan mənə, axı niyə?

– Bax, o günəşi görürsən, necə saralıb? Çünki birazdan qaranlığa qərq olacaq. Elə bil ki, mənə bənzəyir…

– Yox, yox, qızım, elə demə, günəş birdəfəlik batmır ki? Səhər açılacaq, yenə dünyanı işığa qərq eləyəcək.

– Hə, günəşi gözləyənlərin üzü güləcək, eləmi?

– Doğrudur, qızım, doğrudur. – Anası hiss eləyirdi ki, qızının Zərrin xanımın söhbətindən sonra inamı qırılıb. Gələcəyə olan ümidləri puça çıxıb. Ona görə də qızının inamını qaytarmaq istəyirdi. – Hə, sənin də üzün güləcək, könlün açılacaq. Hələ sənin nə yaşın var ki? Görməli günlərin qabaqdadır.

– Yox, daha mənim görməli günlərim qurtardı.

– Axı niyə?

– Sən eşitdinmi?

– Zərrinin danışdıqlarını deyirsən? – Anası Dürdanənin nə dediyini yaxşı bilirdi. Amma istəyirdi ki, qızını bu təlaşdan, çırpıntılardan xilas eləsin. İndi ona nə desin? Hansı sözü tapıb ovundursun, qızı ona inansın? Bax, bunu bilmirdi. Ona görə, bəlkə də özünə də mənasız görünən mətləblərlə qızının diqqətini yayındırmaq, fikrini dağıtmaq üçün cəhd edirdi.

– Hə, Zərrinin danışdıqlarını deyirəm. – Dürdanə daha anasının nə deyəcəyinin fərqinə varmadı: – Görürsənmi, mənim də üzümdə, gözümdə batan günəşin rənginə oxşarlıq var. Mənim də qürubumdur.

– Yox, yox, qəti elə deyil. Sən səhv düşünürsən, qızım. Bu bir təlaşdır, indi keçib gedər.

Anası Dürdanənin cavabını gözləmədən onu özünə tərəf çəkdi. Bağrına basdı. Bu neçə ayda Dürdanə arıqlayıb, çöpə dönmüşdü. Ayaqları bir-birinə dolaşırdı. Anası qızını lap körpə uşaq kimi qucağına götürdü. Gətirib yatağına uzatdı. Tez geri qayıdıb ona bal şərbəti hazırladı. Dürdanə şərbətdən bir qurtum içib, toxtadı. Amma söhbətə heç meyil göstərmədi. Heç anası tərəfə də baxmadı. Üzünü divara çöndərib sükut içində fikirlərə qərq oldu.

Ata evinə qayıdandan bəri Dürdanə ağır xəstəliklə gəncliyinin gücünə mübarizə aparırdı. Bütün gücü ilə çalışırdı ki, olub-keçənləri unutsun, az xatırlasın. Yenidən sevgilisinin qayıdacağına inam ona kömək eləyirdi. Ancaq o, Məhinin üzünə necə çıxacaqdı? Olub-keçənləri ona necə başa salacaqdı? Əyan oğlunun qəddarlığı haqqında nə deyəcəkdi? Birdən bu qudurğan əyan oğlu Məhi ilə qan davasına çıxar, onun Məhini aradan götürməsi nə çətin şeydir ki? Əgər Məhi yenə dağdan-daşdan ot-əncər yığacaqdısa, qəflətən bir uçurumun başından onu itələyib, dərəyə yumalamaq əyan oğlu üçün çətin idimi? O indiyəcən neçələrinin nahaq qanına bais olmuşdu. Bir kimsə ondan sorğu-sual eləməmişdi. Bir də ki, Zərrinin gətirdiyi təzə xəbər – onun şəri kaş, gərək o Zərrinin başında çatlaya. Necə ki, Tanrı qəzəbinə gəlib. Hələ də bilmir ki, onu ulu Tanrı cəzalandırıb? Oxçu oğlunun taleyi ilə oynamağı, onu gedər-gəlməzə göndərməyi bəs deyil, indi mənə xəbər aparır-gətirir.

«Elə bilir ki, onun xəbərindən sevinəcəyəm. Təzədən sağalıb qalxacağam, yanağım dağ laləsi kimi közərəcək. Və qardaşı da gəlib məni təzədən öz sarayına aparacaq. Onun və xanımının qulluğunda duracağam. Hərdənbir də könlünə düşəndə üstümə yeriyəcək. Ayı kimi kobud caynaqlarının arasına alacaq. Mən də ona ərim deyə nəvaziş göstərəcəyəm… Keçmiş olsun… Birdən Məhi qayıdıb məni təzədən əyan oğlunun caynağında görsə,

sinəsinə dağ çəkilmiş olar. Yox, o bu dərdə dözməz. Bundansa, gəlib mənim ölümümü eşitsə, yaxşıdır.

Dürdanə üzü divara, gözləri yumulu uzanmışdı. Anası elə bilirdi ki, o, yatır. Amma Dürdanə yatmamışdı. Beləcə, xəyalında Məhi ilə üzbəüz dayanmışdı. Deyəsən, Məhi ona qınayıcı nəzərlərlə baxırdı. Yox, yox, bu qınaq deyildi. Məhi heç də onda günah görmürdü ki, niyə əyan oğluna ərə gedib, axı bu qədər uzun illərin ayrılığından sonra kim inanardı, Məhi qayıdıb gələr? Bəlkə Dürdanənin onun gəlməyinə ümidi üzülüb. Və əyan oğluna ərə getməyə razılıq verib.

– Yox, yox, mən razılıq verməmişəm.

– Bəs necə oldu ki, səni Əyan oğlunun evinə apardılar?

– Atamı hər tərəfdən sıxışdırdılar. Onu gözümçıxdıya saldılar. Torpaqlarımızı əlimizdən alacaqları ilə hədələdilər.

– Sən də buna görə razılıq verdin.

– Yox, mən yenə razılıq vermədim. Məni ər evinə demək olar, məcbur apardılar. Bir kimsə də olmadı qaçıb pənahına, kölgəsinə sığınım. Amma sən də ki, mənə inanmırsan, mənim onda bu dünyada yaşamağa haqqım yoxdur.

– Yox, yox mən elə demədim. Sən yaşamalısan.

– Necə yaşamalıyam? Əyan oğlunun evində, gəlib məni onun ayı pəncəsi kimi kobud caynaqlarında görəsən? Bəs onda buna sən necə dözərsən?

– Yox, dözmərəm. Mən səni onun caynağından qoparаram.

– Bax, məni də qorxudan elə budur. Çünki sənin əyan oğlu ilə qarşılaşmağını istəmirəm.

– Axı niyə?

– Ona görə ki, sən cəng adamı deyilsən. Sən vuruş üçün doğulmamısan. Onlar Allahın yaratdığı insanın canını almağa, insanlara zədə yetirməyə çalışır. Bəlkə elə bunun üçün doğulublar. Əllərinin üstündə bir əl yoxdur. Kimsənin cəza verəcəyindən də qorxmurlar.

– Bəs Allahın cəzası?

– Eh, onun səbri böyükdür. Əyan oğluna Allahın verəcəyi cəzanı gözləmək bizim ömrümüzün sonu deməkdir. Bir də onu deyirəm ki, Tanrı sənə qıymasa da, onlar çox asanlıqla sənə qıyarlar. Əyan oğlu üçün səni öldürüb aradan götürmək, dağ-daşda bir keyik vurmaq kimi işdir.

Dürdanənin yaddaşında ən müxtəlif vaxtların hadisələri canlanır. Əyan oğlunun qəddarlığını göstərən əhvalatlar gəlib gözünün qabağından keçirdi.

Onu əyan oğlunun evinə təzəcə köçürmüşdülər. Adəti üzrə əyan oğlu ova çıxmışdı. Qayıdanda bir keyik balasını ovlayıb lovğa görkəmdə evə gətirmiş, keyikin qabaq ayaqlarından tutub yuxarı qaldırmış – hə, Dürdanə, gör sənin üçün nə gətirmişəm – demişdi.

– Bıy, buna necə qıymısan, bu ki, hələ körpədi? Heç dünyanın gözəlliyini qədərincə də görməyib.

– Yox bir. Sən elə danışırsan, lap elə bil bir cavan qızı oxlamışam.

– Canlı canlıdır. Nə fərqi varmış? – Dürdanə yaxına gəldi. Dişi keyik gözəllik donunu bəlkə də elə bu yaz geyibmiş. Dürdanə diqqətlə keyikin donmuş gözlərinə baxdı. Ona elə gəldi ki, keyik oxlandıqdan sonra ağrıdanmı, ya ölümün başının üstünü aldığını hiss etdiyindənmi, gözlərindən yaş axıdıb. Çünki keyikin donmuş gözlərinin bulağından üzüaşağı hər iki tərəfdən tüklər islanmışdı. Bəlkə keyikin həmin anlarda yanıqlı bir mələrtisi olmuşdu? Son anda görən kimi çağırıbmış? Anasınımı? Bəlkə elə sürüdə bir sevgilisi də varmış? Bəlkə Allahı çağırıb? Çağırıb ki, Allah onu oxlayan bu əyan oğlunu cəzalandırsın, onun bəlasını versin, amma keyikin səsi-ünü bir tərəfə çatmayıb. Yəqin ki, əyan oğlu da oxunun dəydiyindən sevinə-sevinə yaralı keyikin üstünə cumub, onu qamarlayıb, tutub. Həmişə yanından asılı olan əyri xəncərini qınından çəkib, boğazlayıb keyiki. Xəncərin parıltılı ağzı keyikin

boğazını qana bələyib. Çırpınıb keyik, ayaqlarını atıb. Onsuz da ox onu yarımcan eləmişdi. Beləcə, nəfəsi xırıltı ilə sona çatıb, keyikin qanı axıb, ürəyi döyüntüdən qalıb.

Acınacaqlı o idi ki, Dürdanə göz yaşları içində boğazı kəsilmiş keyikə baxsa da, bu ov əhvalatını Dürdanənin dinləyib-dinləmədiyinin fərqinə varmadan lovğa-lovğa basıb-bağlayardı. Hələ bir ətrafdakılara oxu hansı məsafədən atdığını, qaçaraq təpədən aşmaqda olan keyiki necə nişan almağını, ox dəyəndən sonra keyikin necə başı üstə yıxılıb, təpədən üzüaşağı yumalandığını, çırpındığını, hələ yaralı halda yenə də onun əlindən çıxıb qaçmaq istədiyini hərzə-hərzə danışırdı. Əyan oğlu yalan-palan üyüdükcə Dürdanənin canından gizilti keçirdi. Ona elə gəlirdi, keyikin kürəyinin arasından dəymiş ox elə onun öz canındadır. Onu yandırıb-yaxır. Bu zaman Dürdanəyə elə gəldi, kürəklərinin arası qovuşur. Başını qaldırıb, kürəyinin arasından göynəyən yerin ağrısını səngitmək üçün geri çəkildi. Eyvanın qıraq tərəfindəki sütuna söykəndi. İndi ox yarası elə həqiqətən onun kürəyindəymiş kimi canını göynədirdi. Dürdanə həmin anlarda əyan oğlunun gözlərinə baxırdı. Onun gözlərində mərhəmət əvəzinə, qəddarlıq var idi. O, keyiki öldürməyindən elə danışırdı ki, elə bil döyüşdə qəvi düşmənini yaxalamışdı. Düşməni də özünə bab, özünə uyğun bir döyüşçüdü. Belə bir döyüşçüyə qalib gəlmək hünər deyil, bəs nədir? Bəli, əyan oğlu ovdan qəhrəman kimi qayıtmışdı. Elə bilirdi, bu qəhrəmanlığı Dürdanə də görüb sevinəcək. Qürurlanacaq ki, onun əri necə qoçaq, necə igiddir. Ancaq bu ana uşağının ağlına gəlmirdi ki, bu anlarda Dürdanə ona qəlbinin bütün nifrəti ilə baxır. Orduya cavanları yığanda əyan oğlunu da səfərbər eləmək istəmişdilər. Amma o, qorxusundan evin küncünə qısılıb, qapıya hər gəlib-gedənə necə vahimə ilə nəzər yetirdiyini unutmuşdu. Bunları Dürdanə görmüşdü. Kəndin cavanları Teymurilərə qarşı səfərbər olunanda necə də Vətən eşqilə atlarına suvar olmuşdular. Kəndin qızları yol üstə çıxıb, bu döyüşə gedən ca-

vanları böyük sevgilə yola salırdılar. Hərə öz gözaltısına qürurla baxırdı, Oxçu oğlu da onların arasında idi. Zərrin də yol üstə çıxmış, qızların yanında dayanmışdı. O da gözləri ilə həyəcan və təlaşla Oxçu oğlunu yola salanlar arasındaydı. Baxmayaraq ki, çoxdan ər evində idi. Əslində heç Oxçu oğlu Zərrinə baxmırdı da. Çünki Zərrin onun sevgisinə xəyanət eləmişdi. Həmin günlərdə əyan oğlu adamların arasına neçə gün çıxa bilmədi. Vaxt ötüb ara səngiyəndən sonra yenə at üstündə kəndin arası ilə lovğa-lovğa görünür, kişnərtisindən qürurlanırdı. Hərçənd ki, bu qürurlanmaq deyildi. O günlərdə oğullarını döyüşə yola salmış anaların hamısı əyan oğluna nifrətlə baxırdı. Onu görəndə yollarını dəyişir, onunla qarşılaşmaq, onu görmək istəmirdilər. Bütün bunlar təzədən Dürdanənin xəyalında canlanır, əyan oğlunun necə bir insan olduğunu daha aydın təsəvvür eləyirdi.

Bəlkə də yaralı keyik əhvalatı olmasaydı, heç bu məsələ də onun yaddaşında belə qabarıqlığı ilə oyanmazdı. Onun qəlbini didib-dağıdan o idi ki, belə bir qəddarın əlində özü əsir-yesir olmaqdan başqa, gələcəkdə əgər Məhi qayıdıb gələrdisə, o da bu qəddarlığın qurbanı olardı.

Məhi ilə xəyalən danışanda, bu keyik əhvalatı ona görə təzədən gözlərinin qabağında canlandı. Ona elə gəldi, Məhi dərman otlarını toplayır. Bir təpənin başında dayanıb, günəşin çıxmasını gözləyir. Axı günəş doğub, öz şüalarını otların üstünə yayanda, hansı otun, hansı xəstəlik üçün necə dərman olacağını Məhi dərhal görürdü.

Bu vaxt Dürdanə sevgilisi Məhiyyəddinlə – ərini qabaq-qənşər gördü. Biri təbiətin verdiyi nemətlərlə insanı dərddən-bəladan xilas eləməyə çalışır, digəri isə günahsız insanları öldürməkdən, məhv etməkdən həzz alır. İki ayrı-ayrı təbiətli adam üz-üzə idi. Birinin gözlərindən insanlara sevgi yağır, o birisinin bəbəklərindən insan oğluna nifrət. Əyan oğlunun Məhinin aydın baxışları qarşısında davam gətirməyib, gözlərini nifrətlə yana döndərməsi, əlini

qeyri-ixtiyari sadağındakı oxu atması Dürdanənin gözlərindən yayınmadı.

Dürdanəyə elə gəldi, indicə əyan oğlu oxunu kamana qoyacaq, kamanı çəkəcək. Və bir an da keçsə, ox yaydan çıxacaq. Və elə bu an Məhinin sinəsi al-qana bələnəcək.

– Yox, yox! – Dürdanə qiyyə çəkdi, qışqırdı. Və vahimə ilə yerindən sıçrayıb qalxdı. Anası bu qışqırığı eşitdi, amma nə baş verdiyini yanına yüyürüb gəlsə də, anlamadı, vahimə və təlaşla qızının qorxunc görkəminə baxa-baxa qaldı.

* * *

…Sara Xatun əhvalatı əhvalatın ardınca düzüb-qoşur, bitib-tükənməyən nağılları ilə oğlu Uzun Həsəni gözləyən taleyin acı ya şirin olaylarına hazırlamaq istəyirdi. Hərdən Həsənin sanki hövsələsi daralır, olub-keçən əhvalatların nəylə qurtardığını bilmək istəyir, baxışları ilə onu tələsdirirdi. Bəlkə də Həsənə elə gəlirdi ki, bu əhvalatlar tez-tələsik qurtarsa, o da öz işini bilər, qəti qərarını verər. Və işi bilməyi də bundan ibarət olar ki, tezliklə hərbi qüvvələri cəmləşdirib Diyarbəkirə üz tutar. Cahangir Mirzənin və Sələbiyyə xanın birləşmələrilə üz-üzə gələr. Əlbəttə, Uzun Həsən düşünürdü ki, nə qədər vaxt uzanırsa, bir o qədər də Cahangir Mirzənin və Sələbiyyə xanın özünü toparlamaq imkanı artır.

Sara Xatun Uzun Həsənin gözlərinin içinə baxanda, onun hansı səbirsizlik məqamına çatdığını yaxşı görürdü. Analıq duyğusu ilə gördü ki, Həsən onun söhbətləri ilə keçən bu qısa anları belə ötən vaxtdan hesab eləyir. Əslinə qalsa, Sara Xatuna o da aydın idi, Uzun Həsən elə bir dərəcədə özünü dolmuş hesab edir ki, əgər bu anlarında guruldamasa, yağmasa, özünü çatladacaq. Əsas məsələ də elə buydu. Sara Xatun buna görə əhvalatları birini digəriylə əvəzləyə-əvəzləyə, oğlunun dədə-baba dili ilə desək, köpünü almaq, onu sakitləşdirmək, bir növ atdığı addımlara təmkin mahiyyəti vermək məqsədi güdürdü. Sara Xatun yaxşı bilirdi,

əgər hazırkı qəzəblə Həsən qardaşı Cahangir Mirzənin üstünə qoşun çəkməli olsa, heç şübhəsiz, ona güzəştə getməyəcək. Onun başını bədənindən ayırmaq üçün bütün imkanlarından istifadə edəcək. Təki bu dünyada hakimiyyətinə müxalif çıxmış Cahangir Mirzənin başının üstündəki bərəlmiş gözlərini ayaqlarının altında görsün. Və elə Sara Xatun bunun üçün oğlunun qəzəb qılıncını korşaltmaq məqsədilə söhbəti uzadırdı. Bir sözlə, fitva vermək istəmirdi. Həsən də anasının söhbətini qısaldıb, işi o yerə gətirib çıxartmaq istəyi hakim idi, təki anası desin: «Sən hakimiyyəti qorumaq qəsdi ilə neyləsən, yenə halaldır». Həsəni yandıran, onu içəridən qovuran, canına od qoyan bu idi ki, anası dəqiq və aydın şəkildə demirdi: «Sən nə iş görsən, nəslimizin, tayfamızın, bir sözlə, Bayandurlar soyunun naminə eləyirsən. Kimsəni öldürmək, daha doğrusu, ölkəyə, xalqa, millətə xəyanət üçün bircə addım atmış xaini öldürmək üçün sənin haqq-ədalət qılıncın öz hökmünü göstərərsə, bu, böyük həqiqətin təsdiqi olacaq. Tökülən qan halaldır». Ancaq Sara Xatun yayınır, bunu demirdi. Və Həsən də hiss eləyirdi ki, anası məhz nəyi demir, demək istəmir. Amma bütün bunlara baxmayaraq, Həsənin ruhunda, varlığında oynayan bir duyğu «qan-qan» deyirdi. Bu elə bir duyğu idi, hər bir anda onun əlini qılıncının qəbzəsinə doğru çəkərdi. Əgər bu qılıncın qəbzəsi onun əlində olacaqdısa və o əl o qılıncı qəbzəsindən tutub, qınından sıyıracaqdısa, demək, baş kəsməli idi. Bax, elə Sara Xatun bunu istəmirdi, Həsən ürəyindəki həyəcanları, sinəsindəki qabarmaları, başının içindəki düşüncələri bir axara yığıb, bircə mənsəbə yönəltmək üçün anasından icazə yox, imdad diləyirdi. Və Həsən yaxşıca hiss eləyirdi, əgər anası mövcud vəziyyətdə ona razılıq verməsə ki, qılıncını qınından çək, onun üçün çətin olacaqdı. Ona görə, o, elə ən azı indiyə qədərki hakimiyyətini elə Sara Xatunun sayəsində, onun məsləhətlərilə qurmuşdu. Onun gücü, qüdrəti ilə, əlbəttə, ağlının, düşüncəsinin sayəsində indiki vəziyyətə gətirmişdi. Kimsəyə sirr deyildi ki, Sara Xatun əgər

Cahangir Mirzənin tərəfində olsaydı, onda hakimiyyət davası da indiki ağır qarşıdurmayacan gəlməzdi. Və bəlkə Uzun Həsən də ordu başçısı olardı. Qoşunu mühafizə eləyər, nizam-intizam yaradar, hər kiçik münaqişəyə çəkməzdi. Bir sözlə, yenə də Cahangir Mirzə ona etibar edərdisə, kifayət qədər nüfuzlu bir dövlət qurardılar. Ancaq Həsən bu anlarda, onu da düşünürdü ki, o güc-qüdrət axıracan öz səmərəsini verməzdi. Bu da gətirib o yerə çıxarardı, Cahangir Mirzə iflasa uğrayar, səbəbi də o olardı, Cahangir təkəbbürlü adam idi. Kimsənin sözünü eşitmək, özündən daha ağıllı adamın məsləhətinə qulaq asmaq, lap elə anası olsun, – Sara Xatunun göstərdiyi yolla getmək onun heç ağlına da gəlməzdi. Həsənin isə yaxşı yadına gəlirdi. Cahangirlə yeniyetməlik zamanındakı qarşıdurmaları, söz güləşdirmələri.

Babaları Qara Yuluq Osmanın zamanında olan bir əhvalatla bağlı aralarında mübahisə olmuşdu. Qara Yuluq Osman tayfanın hörmətli bir ağsaqqalının sözü ilə Qazi Bürhanəddinlə qarşı-qarşıya gəlmiş, dostluğun, yaxınlığın, insanlığın naminə dayısının üzünə durmuşdu. Bu da zaman-zaman yaddaşlardan-yaddaşlara keçərək gəlib iki qardaşın arasında müzakirəyə çıxmış, müşkül bir məsələyə dönmüşdü.

– Düz eləməyib, babam, Qara Yuluq Osman – Cahangir ötkəmliklə dillənmişdi.

– Əgər babamız Qara Yuluq Osman düz eləməsəydi, əməlində doğruluq olmasaydı, onda bu gün onun adını bu qədər hörmətlə, izzətlə Bayandur nəsli yaddaşında saxlamazdı. Sən hiss eləyirsən ki, bütün Bayandurlar nəsli babamız Qara Yuluq Osmanın adı gələndə az qala salavat çevirir. Onun ruhuna necə böyük şövqlə dualar oxuyurlar. Həsənə elə gəldi ki, bu cavabdan sonra Cahangir deyəcək , «Bağışla, qardaş, mən səhv eləmişəm. Babamız Qara Yuluq Osmanın ruhunu incitdim. Onun da ruhu məni bağışlasın». Xudbin, özündənrazı Cahangir bunu deməmişdi, əvəzində bir az da hökmlü dillənmişdi:

– Yox, Həsən, mən səninlə razı deyiləm. Çünki Qara Yuluq Osman qəbul elədiyi qərarı özünün istəyi ilə, özünün ruhundan gələn bir çağırışla eləməyib, kiminsə məsləhətilə bu qərarı qəbul edib.

– Bəs sən necə düşünürsən, necə olmalı idi?

– Ən qəti qərarı qılınc sahibi özü verməlidir. – Cahangir demişdi.

– Yox, Cahangir Mirzə. Sən də Qara Yuluq Osmanın nəvəsisən, mən də… – Həsən hər dəfə də təkrar edəndə ki, «Sən də Qara Yuluq Osmanın nəvəsisən, mən də» sözlərindən sonra Cahangirin gözlərindən od çıxırdı. Elə bil ildırım çaxırdı. Və Uzun Həsən çox yaxşı görürdü ki, Cahangir gəncliyinə, cavanlığına baxmayaraq, az qalır açıq-aşkar desin: «Lənət olsun o günə ki, mən də Qara Yuluq Osmanın nəvəsiyəm, sən də!» Cahangir öz qınında boğulan, qılınc kimi səssiz və müəmmalıydı. Hər dəfə hər hansı bir münaqişə, çək-çevir zamanında müstəqil qərar qəbul edir, hökm edirdi, nə Həsənə gənəşirdi, nə də anası Sara Xatuna. Və bu da Sələbiyyə xan kimi adamların əlində dəstəvuz olurdu. Öz fitnəkar məqsədlərini, məramlarını yeritmək üçün Cahangir Mirzədən asanlıqla istifadə edirdilər. Xüsusilə də Sələbiyyə xan onun xasiyyətini bildiyindən həmişə müraciətində «Ey cahanın böyük tale yazanı» – deyib Cahangirə yaltaqlanırdı. – Bu da Cahangir üçün çox böyük, xoş bir əhval yaradardı, çünki yaxşı bilirdi ki, adının mənası dünyayla, cahanla bağlıdır. Bu da onun ruhuna bir qanad verirdi, onu daha da şirnikləndirirdi. – «Ay Cahangir Mirzə, sənin bir böyük keyfiyyətin zaman-zaman insanların yaddaşlarında yaşayacaq. Sən öz ağlınla işləyirsən. Kimsənin məsləhəti sənin üçün gərəksizdir». Sələbiyyə xan bunları söyləyirdi, ancaq sonra ustalıqla öz məsləhətlərini yeridirdi. Və əlbəttə, bütün bunlar da Cahangir Mirzənin yaddaşına hopurdu.

İndi Uzun Həsənin yaddaşında qardaşı ilə o üzləşmələri gəlib gözünün qabağında dururdu:

– Qardaşım, Cahangir, sən onu bil ki, nə qədər ağıllı olsan da, özündən ağıllı bir adamla məsləhət yeri saxlasan, onda başın daha çox salamat olar.

– Mən istəmirəm ki, başım kimsənin sayəsində salamat qalsın, mən istəyirəm ki, mən başımı öz gücüm, öz ağlımla qoruyum. – Cahangir Mirzə ötkəmliklə danışırdı. Bununla sanki sübut eləməyə çalışırdı ki, mənim ağlım sənin ağlından qədərincə üstündür. Uzun Həsən böyük qardaş təmkiniylə nə qədər qəzəblənsə də, qardaşının bu danışığının içindəki qərəzini onun üzünə vurmurdu. Ona bildirmək istəmirdi ki, bu danışıqları ilə Cahangir Həsənə toxunur, məxsusi dediklərini qardaşının ünvanına toxuyur.

İndi o günlərdən çox keçmişdi. Neçə il sonra Cahangir Mirzə Sələbiyyə xanın fitvası ilə qızışdırmaları, şirnikləndirmələri ilə yerindən oynamış və əslində, bütün nəslinə, tayfasına əks çıxmışdı. O da Uzun Həsənin yadında qalmışdı.

– Qardaş, unutma ki, kişi gərək hakimiyyəti özü qazansın. – Cahangir Mirzə ötkəmliklə anasının – Sara Xatunun xeyir-duası ilə hakimiyyət qılıncına sahib olmuş Həsənə elə beləcə də kinayəli-kinayəli demişdi. Doğrudur, o, bu sözləri söyləyəndə aradan xeyli vaxt keçmişdi. Qardaşlar arasında hakimiyyət ehtiraslarının, mübahisələrinin arası səngimişdi. Görünür, Cahangir Mirzə bütün olub-keçənləri unutmamışdı. Və Həsənin «ağıllı adamın sözlərinə qulaq asmağın, məsləhətlərini eşitməyin dəyəri» haqqındakı moizələrinə cavab üçün demişdi. Və bununla Həsənə aydın olmuşdu ki, Cahangir onun hakimiyyətini heç vaxt qəbul etməyəcək. Çünki Cahangirin qənaətinə görə o, yəni Həsən bu hakimiyyəti ancaq anasının sayəsində qazanıb. Yəni özünün heç bir rolu, qüdrəti, gücü olmayıb. Və bu da Uzun Həsəni Cahangir Mirzənin gözündən salırdı, onu kiçildirdi. Hələ üstəlik, böyük qardaş ayrı-ayrı vaxtlarda əmr və göstərişlər şəklində ona göndərdiyi sifarişin yerinə yetirilmədiyi, qulaqardına vurulduğunu hiss edir-

di. Bu da Həsəni təbii ki, qədərincə qıcıqlandırır, özündən çıxarırdı. Hələ Cahangir Mirzə qiyam edib, əyalətdən hərbi qüvvə ilə çıxmasından əvvəl Uzun Həsən anası ilə məsləhətləşib, onun orduyla əlaqələrini kəsmək, Sələbiyyə xanı isə indiyə qədərki yaramaz əməllərinə görə cəzalandırmaq istəyirdi. O, cavan olsa da, ağlı, düşüncəsi ilə hiss edirdi ki, bu işlərdə ona ən yaxın köməkçi anası Sara Xatun ola bilər. Yalnız Sara Xatunun sayəsində ağıllı, düşüncəli qərar qəbul edə bilər. Başqa bir yol görünmür. Bu da Həsəni tərəddüdlər içində saxlayan bir amil idi. O, qardaşını mühafizəçilərin arasında anasının hüzuruna gətirməyin təhər-töhrünü təsəvvür eləmirdi. Ancaq yaxşı bilirdi ki, vəziyyət get-gedə necə gərginləşir. Üstəlik, Sələbiyyə xan yalnız Cahangir Mirzəyə tabe olduğunu bildirir və orduda, müəyyən dairədə olsa da, kifayət qədər nüfuzlu və güclü olduğu üçün öz istəyini yerinə yetirirdi. Əlbəttə, bütün bunların hamısı vaxt aparırdı.

İndi bütün bunların hamısı Uzun Həsənin gözünün qabağından gəlib keçirdi. Və o, çox qətiyyətlə, özünə inamla daxilindən gələn bir hissin altında qərar qəbul eləyirdi ki, qardaşı Cahangir Mirzəylə yalnız qılıncın gücü ilə danışacaq. Onun hörməti və ehtiramı yalnız bundan ibarət ola bilər ki, qardaşının boynunu bircə qılıncla vursun, bircə dəfəyə. Ancaq Uzun Həsən o yerə düşmüş başın bərəlmiş gözlərinə son dəfə diqqətlə baxmaq istəyirdi; görsün o bərəlmiş gözlər nə deyir? Özünü heç olmasa, bir az təmizə çıxarmaq üçün nə isə demək imkanı varmı? Heç şübhəsiz, bədəndən ayrılmış baş daha heç qımıldanmayacaqdı.

Uzun Həsən bunu yaxşı bilirdi. Və ən əsası da bu idi ki, anasının söhbətlərindən hiss eləyirdi, deyəsən, savaş onun bildiyi kimi getməyəcək. Bəs onda nə cür gedəcək? Necə olacaq? İki qardaş arasında baş verəcək bu qarşıdurmanın qalibi son nəticədə kim olacaq? Bütün bunlar anasının söhbətlərini dinləyə-dinləyə Uzun Həsənin xəyalından sürətlə keçirdi. O, düşünürdü ki, nə desin, hansı yolla təsir eləsin, sürətlə anası birbaşa mətləb üstə gəlsin.

Anası isə lap qədim «Min bir gecə» nağılları kimi, söhbəti uzadırdı. Həsənin qəzəbi yatan kimi, əhvalı sakitləşən kimi, o, təzədən babası Qara Yuluq Osmanla başlayan əhvalatın nə ilə qurtardığını anasının dilindən eşitmək istəyirdi. Di gəl, anası onun özünün hiss elədiyi, duyduğu kimi bu əhvalatı çözüb qurtarmağa tələsmirdi. İndi bir maraq da Həsənin ruhuna hakim kəsilmişdi; Babası Qara Yuluq Osman ölüm yatağına düşüb. Bəs onda bu ölüm yatağından o, necə xilas olub? Babası Qara Yuluq Osman həmin ölüm yatağından xilas olub-olmayıb, bu, bir tərəfə, hələ üstəlik Şeyx Məhyəddin və Dürdanə əhvalatı ortaya çıxıb. İndi Həsənin ürəyi əsirdi. Görəsən, bu bədbəxt Dürdanənin həyatı necə oldu, şahın, sultanın həyatı, hökmdarın taleyi, insanların əməlləri onların başına nə müsibətlər gətirdi? Axı, bu gənc qızın nə günahı vardı ki, onu zorla əyan oğluna verirlər. Bu qız da bütün taleyini, həyatını sevgisinə qurban eləyir. Bax, bu cür başgicəlləndirən əhvalatların arasında Həsən hakimiyyəti də, ona qarşı çıxmış qardaşını da, bütün Bayandurlar nəslinə xəyanət eləmiş Sələbiyyə xanı da – hamısını səmimi şəkildə unudurdu. Qardaşına olan kin-küdurəti də yaddan çıxarırdı. İstəmirdi ki, nəyisə, yalnız hakimiyyət, mənsəb üçün gərəkli olan bir nəsnəni yada salsın.

Bu anlarda Həsənin əlini hərbdən, könlünü qəzəbdən soyudan bircə duyğu vardı. Bu da ondan ibarət idi ki, kaş bu dünyada sevənlər bütün məhrumiyyətlərdən sonra öz sevgilərini tapa biləydilər. Və Uzun Həsən könlündə Allaha yalvarırdı: Şeyx Məhyəddin gərək Dürdanəsinə qovuşaydı.

* * *

Əgər oğlu təkid eləsəydi ki, bu söhbətlər mənim başımı qatır, məni əsas məqsədimdən yayındırmaq niyyəti güdür, onda Sara Xatunun onda halı çox pis olardı. Və Uzun Həsən kimi bir oğul böyütdüyünə də təəssüf eləyərdi. Çünki o biri övladı Cahangir Mirzə artıq Sara Xatunun əhatə dairəsindən çıxmışdı. Buna bax-

mayaraq, Cahangirin hakimiyyət ehtirası heç də Sara Xatunu narazı salmırdı. Çünki Sara Xatun oğullarında dövranla, zamanla döyüşmək gücü görmək istəyirdi. O, istəmirdi ki, oğlanları dünya malına qul olsunlar. Dünya malının əsiri olaraq nəslin, tayfanın bütün bir əyalətə hakimlik edə biləcək gücündən imtina edə bilsin. Axı, o, yaxşı görürdü ki, Cahangir Mirzə də bəd ayaqda bu məmləkətin sahibi ola bilər. Eyni zamanda onu da yaxşı görürdü ki, Uzun Həsən bəlkə də Cahangir Mirzədən şücaətinə, igidliyinə görə geri qalar. Onun qədər əlbəyaxa döyüşdə duruş gətirə bilməz. Ancaq onu da bilirdi ki, Həsən Cahangir qədər döyüşkən, meydangir olmasa belə daha ağıllı, daha görüb-götürmüş döyüşçüdür. Çünki ayrı-ayrı vaxtlarda Həsənin döyüşdən qabaq qüvvələri toplamaq, adamları yığmaq, məsləhət, məşvərət keçirmək təşkilatçılığı Sara Xatunu çox razı salmışdı. O, hiss eləmişdi ki, əgər Bayandurlar nəslinin bir yol açan oğlu hakimiyyət təbili çalıb, zaman üçün salnamə yazacaq bir əri, igidi gərəkdirsə, o da ancaq Uzun Həsən ola bilərdi.

Uzun Həsən anasının yanında əsir olmuşdu. Hərdən içindən bir vulkan, bir alov püskürürdü. Hər şeyə «yox!» deyib, ayağa qalxmaq, qılıncını sıyırmaq istəsə də, anasının danışdığı sevgi əhvalatı onun köksündə başqa od-ocaq qalamışdı. O, kimsənin görmədiyi bir odun içində yanırdı. Özü də elə yanırdı ki, tüstüsü təpəsindən çıxsa da, bu odu-alovu nəinki qeyrisi, heç anası da görmürdü. Və özünün yaddaşında gənclik hissi ilə alovlanan bir duyğu təzədən baş qaldırmışdı. Öz sevgilisi, yeniyetməlik çağlarında könül verib – könül aldığı Narıngül gəlib gözlərinin qabağında bitmişdi. Bağçada gördüyü bir gülü üzmək istəyən bir gül sevdalısı nə qədər o gülə əl uzatmaq istəyirsə, o qədər də Həsənin könlündən həmin istək keçirdi. İndi artıq ən azı on il bundan əvvəldən qalmış həmin gülü gözünün qabağında görsə də, əlini uzadıb onu üzə bilmirdi.

Bəlkə elə bu səbəbdən o istəyirdi ki, anasının başladığı əhvalatı axıra qədər dinləsin. Və ən qəribəsi də orasında idi ki, Həsən ana-

sının danışdığı sevgi əhvalatını dinlədikcə, özü də daxilində baş qaldıran o yırtıcıdan imtina eləyirdi. Özü də dönüb insan olurdu. Və hətta bu məqamlarda belində qılıncının olduğunu, özünün döyüşçü görkəmində olduğunu unudurdu. Birdən əynindəki zirehli paltara, dəmir geyimə gözü sataşanda, belindəki qılıncına əli toxunanda nəinki qürurlanırdı, bəlkə lap utanırdı, xəcalət çəkirdi. Öz-özünə düşünürdü ki, axı necə sevən bir könül əlində qılınc tutar, insanlığın qəsdinə durar. Özünə düşmən hesab elədiyi bir kimsəni öldürmək qəsdində bulunar, hələ üstəlik o da qardaşı ola.

Həsən qəflətən anasının gözünə baxdı. O gözlərindəki dərin mənanın nələr dediyini anlamağa çalışdı. Və hiss etdi ki, anası bu əhvalatları danışmaqla, onu sadəcə, adamlığa, insanlığa dəvət edir. Demək, anası yaxşı bilirdi ki, hökm və qılınc sahibi olan kimsə gərək insanlığını, Adəm övladı olduğunu yaddan çıxarmasın. Əgər insanlığı, adamlığı qorumalı olsan, əgər bir aşiq timsallı hökmdar olsan, onda bəs kim sənin qılıncının qabağında baş əyəcək, kim səni adam yerinə qoyacaq, keçmişdən gələn o əfsanədəki Məcnun əhvalatı – hamının bildiyi o dastan həmin andaca göz önünə gəlməyəcəkmi? Hamı əlindəki qılınca, əynindəki zireh görkəmə başındakı dəbilqəsinə baxıb tənə etməyəcəkmi? Hamı deməyəcəkmi, bu hakim deyil, hökmdar deyil? Bu bir aşiqdir, sərsəridir, divanədir.

Divanənin, aşiqin, sərsərinin hansı sözünü bir kimsə söz yerinə qoyub, bir kimsə bir aşiqi adam yerinə qoyub, onu dinləyib? Bəlkə də Həsən bu düşüncələr aləmində çox qovrulacaqdı, çox yanacaqdı. Lakin o, nə qədər ki, bir aşiq olaraq indiyə qədər görünməmişdi, elə indinin özündə də anasından bu hissləri gizlətmək qərarına gəldi. Halbuki, az qala dilinin ucundaydı ki, anasına desin özünün başına gələnləri, yəni anasından soruşsun ki, Şeyx Məhyəddin Dürdanə əhvalatını özündən uydurmur ki? Bu əhvalat elə özünün başına gələndi. Bəlkə elə bu səbəbdən də Həsən Mirzə varlığına hökm eləmiş hakimiyyət ehtirasını boğub boş buraxmışdı. Heç

ona gözünün ucu ilə də baxmaq istəmirdi. Bu hakimiyyət də, bu dünya malı da, bütün Bayandurlar nəsli də hamısı cəhənnəm olsun. Təki Şeyx Məhyəddin və Dürdanənin başına gələn əhvalatın sonunu bilsin. Bu sonluq onun özünün indiki yaşadığı ömrünün axarına bənzəməsin. Çünki özü üçün ürəyində daşıdığı sevginin əzablarından artıq hiss-duyğu təsəvvür eləmirdi. O, dəfələrlə Narıngülü yadına salanda, həmişə adlı-sanlı bir nəsildən olmağına, heyifsilənir böyük mülkə, şan-şöhrətə sahibi olmağına, Bayandurlar nəslinin başçılığına… təəssüf edirdi. Hələ bəlkə lap nifrət edirdi. Qısası, əgər o kəndli qızı Narıngülü bu gün ona qaytaran olsaydı və bəlkə özü bu tale oyununu təzədən yaşamalı olsaydı, o heç anası Sara Xatunun hüzurunda diz çöküb, gələcək həyat yollarına dərs olacaq bu nağılları da dinləmək istəməzdi. O, çox istəyərdi ki, heç qardaşı ilə hakimiyyət davasına çıxmasın. Bütün hakimiyyəti elə anası – dünyanın ən ədalətli, ən doğruçul, insanpərvər məxluqu kimi tanıdığı Sara Xatuna məmnuniyyətlə bağışlasın. Ürəkdən bu işə razı olardı ki, o, başını götürüb, elə bir diyara, elə bir məmləkətə getsin ki, orada kimsə onun nəçiliyini soruşmasın. O, sevgilisi Narıngül ilə – o kəndli qızı ilə, kasıblıq ocağından çıxmış o qızla bir balaca komanın içində baş-başa qalsın. Bir kimsə ondan soruşmasın ki, sən haradan gəlmisən, hara gedirsən, əslin kimdir, soyun kimdir? Lap elə yeri gəlsə, öz sevgilisinin adı ilə, onun tayfasının adı ilə də yaşamağa razı olardı. Bütün bunların hamısı artıq keçmişdə qalmışdı. Artıq bir kimsə yox idi, onun bu bəlalı sevgisinin, nakam məhəbbət dünyasının vaxt axarını dəyişsin, Həsəni yenidən həmin günlərə qaytarsın. Ancaq belə bir güc və qüdrət sahibi anası görünürdü. Sara Xatun kifayət qədər təmkin və astagəlliklə onun əynindəki qorxu libasını yırtmaqda idi. Bu libası o, öz ağlı, düşüncəsi keçmiş xatirələri yerli-yataqlı danışması ilə yerlə yeksan etməkdəydi. Və Sara Xatun hiss edirdi ki, Həsən Mirzə onun söhbətə başladığı məqamdakı oğlu deyil. O, həlim, insanpərvər, yumşaq, insanlığının nə demək

olduğunu anlayan bir adam görkəmi alıb. Və belə adamla artıq gələcəyi qurmaq mümkün idi.

Və Sara Xatun istəyirdi ki, uzun söhbəti ən nəhayət, yekunlaşdırsın, bundan o yana oğluna heç nə danışmasın, ancaq o, gözlərilə hansı intizarda olduğunu anasına artıq çatdırmışdı. Dilsiz danışırdı, sözsüz danışırdı, baxışları ilə anasına yalvarırdı, sən davam elə. Şeyx Məhyəddinin başına gələn əhvalatın sonunu de. Qısası, Həsən bilmək istəyirdi ki, Şeyx Məhyəddin və Dürdanə əhvalatı necə qurtarır.

Bir tərəfdən baxanda Sara Xatuna da elə bu lazım idi. O, istəyirdi ki, zamanı ötürməklə, vaxtı udmaqla oğlunu sakitləşdirsin, qardaş savaşına girişməsin. Artıq bu barədə neçənci kərə idi, Sara Xatun fikrində bu şeyləri dolandırırdı. Əlbəttə, bu hisslər zaman-zaman insanın düşüncəsində doğulur, bir uşağın böyüməsinə lazım olan qədər səbir, təmkin tələb eləyir. Və insan özü axır ki, bir qənaətə gəlir. İndi Sara Xatun özü qabağa düşdü.

– Hə, oğlum, indi qalx, indi sənin zamanındı. Bilmək olmaz, Əbdülsəid Əfəndinin, Uğurlu kişinin başına nə gəlib?

– İndi deyirsən, biz onların cavabını gözləməyək?

– Gözləməli olsaq, vaxtı itirərik. Anası Sara Xatun qətiyyətlə sanki son sözünü dedi. Amma Sara Xatun unutmuşdu ki, artıq onun qarşısında dayanan, hakimiyyət əzmini içində yaşadan Həsən deyil. O, artıq bir insanlıq yükünü bütün ağırlığı ilə içinə çəkmiş, varlığında hiss etməkdə olan bir aşiq divanədir. Bu Həsən üçün artıq dünya hakimiyyəti sevdasında olmaq bəlkə də neçənci dərəcəli iş idi. Bu məqamda Sara Xatun oğlunun gözlərinə baxanda, bu bəbəklərin içindəki dəniz dərinliyini, sevda aləminin kədər yükünü gördü. Bəlkə də bu anlarda çox təəssüf elədi. Axı nə üçün ona Şeyx Məhyəddin və Dürdanə əhvalatını danışıb. Əgər o, bu əhvalatı danışmasaydı, Sara Xatunun özünün də xəbərdar olduğu o Narıngül əhvalatı bəlkə Həsənin heç yadına düşməzdi. Bu əhvalatın da üstündən beləcə keçilərdi və Həsən hakimiyyət eh-

tirasını içində yaşadan meydangirliyində qalardı. Bədbəxtlik də elə bunda idi. Əgər Həsən öz meydangirliyində qalsaydı, qardaşı Cahangir Mirzə ilə qarşılaşan kimi onun başını bədənindən ayıracaqdı. Vücudunu doğrayıb hər parçasını məmləkətin hər tərəfinə göndərəcəkdi. Və deyəcəkdi ki, görün məmləkətə xain olmaq, xain çıxmaq insanın başına nə gətirir? İndi Sara Xatun görürdü ki, oğlu o qisasın libasından çıxıb, çünki sevginin, həyatın nə demək olduğunu başa düşüb. Yəni ki, bu dünya insanlara yaşamaq üçün verilib, insan öz ömründə dünyanı elə öz dünyasının içində yaşamalıdır. Sakit, səssiz. Sara Xatunu vahimə bürümüşdü. Gözünün önündə böyütdüyü övladının birdən-birə belə müti olmağı ona qəribə gəlirdi, az qala o, Həsənin çiynindən itələyib, geri dur, sən mənim oğlum deyilsən, sən artıq Bayandur nəslinin kimliyini qorumaq iqtidarında deyilsən, demək istəyirdi.

Ancaq Uzun Həsən də hiss eləyirdi ki, anası qəti cavab tələb edir.

İndiki məqamda Həsən qarşısıalınmaz bir istəklə anasının diqqətini dağıtmaq, anasının hökmünün qarşısını almaq istəyirdi. Bir sözlə, ana ilə balanın rolları dəyişmişdi. İndi hakim, döyüşçü Uzun Həsən yox, anası Sara Xatun idi. Həsən bütün varlığı ilə zamanı, vaxtı dəyişmək istəyindəydi. Lap bunun əvəzində ölkəni, taxtı-tacı – hamısını mənimsəsinlər. Amma Sara Xatun da əlinə yığdığı cilovu asanlıqla əlindən verən süvari deyildi. O, bütün iradəsilə gələcək məmləkətin şahı kimi görmək istədiyi Həsəni – Uzun Həsəni Osmanlı sultanlarının qabağında dayanacaq, güc göstərəcək bir hökmdar kimi təsəvvür edirdi. Heç də zaman və vaxt bu iki məmləkətin arasındakı məsafəni kəsib götürə bilməzdi. Çünki Osmanlılar istəyirdilər ki, bu yerlərin hakimi olsunlar. Sara Xatun da Qara Yuluq Osmandan qalmış məmləkəti asanlıqla əlindən vermək istəmirdi. Sara Xatun üçün əslində, Uzun Həsənin hökmranlığı əsas idi. O, yaşının ötmüş, saçının ağarmış çağında gəlib ömrünün elə zamanına

çatmışdı ki, çox aydın şəkildə görürdü; bu məmləkətin sahibi bu yerin öz oğulları olmalıdı. Asanlıqla bu yeri, bu məmləkəti dili, dini bir olsa da, başqa məmləkətin yetirmələrinə vermək, ötüb-keçənlərin ruhuna xəyanət olardı. İndiki məqamda Qara Yuluq Osmanın əzəmətli görkəmi – geniş alnı, çiynindəki kürkü, başındakı dəbilqəsi, əlindəki əyriağız qılıncı… Bəli, bütün görkəmilə zəfərlə döyüşdən qayıdan Qara Yuluq Osman indi onun gözünün qabağında durmuşdu.

Qazi Bürhanəddin əhvalatı da, Qazi Bürhanəddinin necə hakimiyyət sahibi olması da, onun nəsli də, tayfası da – hamısı şərti idi. Baxmayaraq ki Sara Xatun yaxşı bilirdi; Qara Yuluq Osmanın damarlarında elə Qazi Bürhanəddinin qanı axırdı. Onu da yaxşı bilirdi ki, həmin o Qazi Bürhanəddinin hakimiyyət ehtiraslı qanı bir vaxt onun iki oğlunu üzbəüz gətirə bilər və ona görə də əslində, bu qədər geniş şəkildə bu əhvalatları çözürdü, danışırdı, özü də geniş şəkildə danışırdı. Sara Xatun bu əhvalatların heç birisini özündən düzüb-qoşmurdu. Ömrünün gənclik çağlarında bəlkə də, bu əhvalatların bir çoxunun zamandaşı – müasiri olmuşdu. Bəlkə də bir çoxunu kiminsə dilindən eşitmişdi. Dərk edirdi ki, bu əhvalatların heç biri yalan deyil. İnsanlıq adına yazılan hadisənin nəyi yalan olasıdı? Buradaca söhbət qurtarırdı.

Əslində, söhbət qurtarmırdı, əslində, Sara Xatun özü söhbəti qurtarmaq istəyirdi. Və əlbəttə ki, Uzun Həsən də hiss edirdi ki, Sara Xatun söhbəti bitirən kimi ona əmr edəcək: buyur, düşmən üstünə yeri. Məmləkətə Bayandurlar nəslinə qarşı kim çıxacaqsa, onun üstünə siyirməqılınc get! Lakin Uzun Həsən bunu hələ ki, istəmirdi. O, istəyirdi ki, vaxt acı bağırsaq kimi uzansın, zaman bitməsin. Bəlkə də, bu aşiqanə duyğuların təsiri altında Uzun Həsən anasının oğulluğundan da çıxıb, özünün o keçmişdə qalmış sevdasının arxasınca düşüb pay-piyada gedib. Anası kəskin və ədalı bir nəzərlə Uzun Həsənin gözlərinin içinə baxdı.

– O Künəgü var idi ha?

Uzun Həsən bəlkə də, anasının Künəgünü soruşmağından bir qədər sevinən kimi oldu. Yəqin ki, anası elə bu andaca «qoşunu yığ, hücuma keç» deməyəcəkdi.

İndiki halda Uzun Həsən Allaha yalvarırdı; təki anası belə bir göstəriş verməsin. Əvəzində, o Şeyx Məhyəddinlə Dürdanənin əhvalatını nağıl eləsin.

* * *

Qazi Bürhanəddin onun yatağının ətrafına toplanmış adamların nə dediyini, kimin hansı suala hansı cavabı verdiyinin fərqində deyildi. Çünki cavab verəcək halı yox idi. Əlini belə tərpətmək, göz qapaqlarını açmaq, qəlbindən keçənləri dilinə gətirmək indi onun üçün dünyanın ən böyük müşkülü idi. Qazi nə qədər iradəli, nikbin adam olsa da, ona elə gəlirdi, ölüm mələyi başının üstünü kəsdirib. Elə indi canını alar, ya bəlkə bir az sonra. Düşüncəsi aydın idi. Çünki olub-keçənləri xəyalında asanlıqla canlandırır, dünyadan nə aldığını, dünyaya nə verdiyini götür-qoy edə bilirdi. Ən pisi o idi, elə ətrafındakıların yanındaca oğlunu özündən sonra hakimiyyətin sahibi elan etmək istəyir. Baxmayaraq ki, oğlu hələ çox gənc idi. Divan işlərində qədərincə bişməmiş, təcrübə toplamamışdı.

Əgər gözünü açıb bir kəlmə söz deyə bilsəydi, elə arvadının və Şeyx Məhyəddinin yanındaca onu hüzuruna çağırar, gələcək dövlət işlərinin idarəsi üçün halallıq verər, kifayət qədər müdrikliyinə və ağlına inandığı Şeyx Məhyəddini ona atabəy təyin edərdi.

Birinci, ona görə ki, Şeyx Məhyəddin siyasət işlərinə qarışmamış və onun hakimiyyət iddiasının olduğunu hiss etməmişdi. Sarayın həkimbaşılıq mənsəbinə özü çatmışdı, biliyi, hörmət-izzət sahibi olması sayəsində. İkincisi də, Şeyx Məhyəddinin hakimiyyət iddialı olacaq oğlu yox idi. Demək, Qazidən sonra oğlu Elməddinə atalıq haqqı elə onun boyuna biçilmişdi. Üçüncüsü, bir əsas amil də var idi. Şeyx Məhyəddin ətraf ölkələrin hamısını

gəzmiş, bu ölkələrdəki hörmət və nüfuz sahibi olan mənsəblilərin müalicəsi üçün əlindən gələni əsirgəməmişdi. Onların hamısı həkimbaşını tanıyır, ona hörmət göstərir, ayrı-ayrı vaxtlarda, bayram günlərində Şeyx Məhyəddinin ünvanına sovqatlar, ənamlar göndərirdilər. Demək, Şeyx öz hörmətindən istifadə ilə Əhmədin əli qılınc tutacaq, ağlı söz kəsəcək zamana qədər ona hamilik edə biləcəkdi. Belə halda Qazi də bu dünyadan arın-arxayın köçəcəkdi.

Amma Qazini əsas narahat edən tamam başqa bir məsələ də vardı. Bu da bacısı oğlu Əhmədlə Gülçöhrənin arasındakı sevgi macərasının yaşaması, bağlarını qıra bilməməsi idi. Elə, əslində, Qazini sarsıdıb bu ölüm yatağına salan bu həll olunmamış, gələcəyi müəmmalı eşq oyunuydu. Bir tərəfdən Qazi yaxşı başa düşürdü ki, qızının sevgisinin qarşısına sədd çəkməklə, onu necə bədbəxt eləyir. Heç şübhəsiz, qızın könül quşu çoxdan uçub Əhmədin varlığına qonmuş, onun bütün iradəsinə hakim kəsilmişdi. Qazi yaxşı dərk eləyirdi ki, qəzəllərində vəsf elədiyi aşiq və məşuq obrazları onun gəncliyindəki sevgisinin xəyala dönüb, başının üstündə dolanmasıdır – yaddaşında yaşatdıqlarıdır. Əsl gördüyü isə iki ayrı-ayrı canda bir ruh kimi gözünün qabağında olan Gülçöhrənin və Əhmədin sevgisi idi. Əgər Allahın dərgahında bir sorğu qurulacaqdısa və Qazi də həmin dərgaha iki bir-birinə vurğun olanı ayırıb hərəsini bir tərəfdə qanadları qırılmış quş kimi şikəst edib, bu günahla o dərgahda dayanacaqdısa, onda o sorğu-suallara necə cavab verəcəkdi? İndi başı yastıqda, əlləri yanında, göz qapaqlarını açmağa gücü çatmayan bir məqamda kimə nə moizə oxusun? Əslinə qalsa, hərdən Qazinin ağlına gəlirdi ki, bəlkə heç Əhmədin və Gülçöhrənin sevgilərinə toxunmasın. Onların bir canda yuva bağlamış ruhlarının sarayına heç əl uzatmasın. Bəlkə imkan versin ki, bu gənclər dünyanın azad quşları kimi ruhları ilə pərvazlanıb, göylərdə süzsünlər. O qədərənginliklərdən bu yer üzünə istəklərincə baxa bilsinlər. Bax, Qazi Allahın yanına bu istək, bu saflıq, bu günahsızlıq ilə getmək

istəyirdi. Lakin yadına düşəndə ki, özü Atabəy olsa da, qayınının hakimiyyətə gələn yolunu necə kəsmişdi? Hakimiyyətə necə sahib olmuşdu? Bax, onda dünyanın kələfi dolaşırdı. Ha istəyirdi, gözünü açıb dünyaya baxsın, günəşli gündüzü görsün. Amma gözünü aça bilmirdi. Ona elə gəlirdi ki, yer üzünü sis-duman bürüyüb: duman, çən içindədir. Və məmləkətin üstünə qara buludlardan elə bir sıx pərdə çəkilib ki, günəş də göylərin üzündən öz işığını bu yerlərə göndərə bilmir.

Qazinin nəzərində göz qapaqlarını sıxan, onu qaranlıqlara qərq edən elə bu qara buludlar idi. Bəs o, bu qara buludları necə dağıtsın, necə eləsin ki, göy üzü yenə aydın olsun? Bu vaxt ona elə gəldi, qızı Gülçöhrənin yanaqlarından qanlı göz yaşı süzülür. Dünyanı selə-suya qərq edən də elə bu qanlı yaşlardır. Göy üzündəki günəşin qabağını kəsən də onun qızının dolmuş gözlərindəki qara buludun yağışlarıdır. Bəlkə də Qazi hələ çox çırpınacaq, bu qaranlıqlar içində daha çox boğulacaqdı. Ancaq Şeyx Məhyəddinin asta-asta dediyi sözlər güclə də olsa, onun şüuruna çatdı:

– Uzun illərin ağır siyasət olayları, qovğaları Qazini çox yorub.

Varis Qazinin ağarmış bənizinə baxdı, hələ də biləyindən tutub saymaqda davam elədiyi nəbzinin ahənginə diqqət kəsildi. Sonra üzünü ustadına tutdu:

– Doğrudur, ustad, siz düz deyirsiniz. Hökmdar çox zəifləyib. Ancaq o, bəlkə də bu zəifliyə tab gətirərdi…

– Deyirsən, başqa səbəb də var?

– Mən başqa mühüm səbəblər görürəm.

– Bəs təklifin nədir?

– Onu indiki halda tərpətmək lazım deyil. Bir az özünə gəlsin. Qüvvətverici otların şirəsi ilə qarışdırılmış bal şərbəti içirdərik. Elə bilirəm, bunun köməyi dəyər.

– Bəs səbəb? – Şeyx Məhyəddin yetirməsi və gələcəyinə çox inandığı Varisin təklifindən razı qalsa da, hadisəni törədən səbəbi

və bu səbəb üçün Varisin nə demək istədiyini öyrənmək naminə təkrarən soruşdu.

– Onu qəfil sarsıntı yaxalayıb. Əsas odur ki, o hansısa məsələni yetərincə qavraya, həzm edə bilmir. Daha doğrusu, çətinlik qarşısındadır. Bu çətinlikdən çıxış yolunu tapa bilmir.

– Hə, demək bəlanın kökü dərindədir. Biz gərək tamam ayılandan sonra ona bütün müşküllərin həllinin mümkün olduğunu anladaq. Axı, vaxtilə bir tərəfdən Teymurilər, digər tərəfdən Toxtamış Qazinin xanədanını hədələyib onu ikitərəfli sıxıntı qabağında qoyanda asanca təhlükəni sovuşdurmuş, müşkülləri yoluna qoymuşdu. Bütün bunları yadına salsaq, onda Qazi öz gücünə inanar.

Varis asta-asta başını silkələdi, heç nə demədi. Əlbəttə, onun başını silkələməyi Şeyx Məhyəddinin təsdiqiydi. Qazi yumulmuş gözlərinin altından baxıb Varisin nə qənaətə gəldiyini öyrənmək istəsə də, mümkün olmadı.

Varis özü də cəsarətini toplayıb, elə bu gün bağçada baş verənləri buradaca Şeyxin özünə deməklə, eşitdirmək istəsə də, yenə heç nə deyə bilmədi. Yoxsa, Varis qorxurdu? Bəlkə onun deyəcəkləri Qazinin heç xoşuna gəlməyəcəkdi? Bəlkə Qazi heç istəməzdi ki, bacısı oğlu Əhmədlə qızı Gülçöhrənin arasındakı bu sevgi macərasından saray adamları xəbər tutsun? Hərə bir tərəfdə pıçhapıçla bu hadisəni bir-birinə nağıl kimi danışsınlar. Belə saray nağıllarının sonu nəticədə qüvvələrin parçalanmasına aparır. Elə bəri başdan hər kəs öz niyyəti üçün bu məsələdən yararlanmağa çalışacaqdı. Bir dəstə onun oğlu Elməddin Əli Çələbinin, o biri dəstə isə qızının sevgilisi Əhmədin – bacısı oğlunun tərəfində olacaqdı. Və hər kəs istəyəcəkdi ki, özünə yaxın olanı hakimiyyətə gətirsin. Kimin tərəfdarı qalib gəlib hakimiyyətin şirinlik şərbətini içəcəkdi? Bəs məğlub tərəf neyləyəcəkdi?

Qazi unutmurdu ki, hakimiyyət elə bir arı pətəyidir, içərisində şirin bal olsa da, onun çoxlu sayda dəlmə-deşikləri var. O şirinliyi,

şərbəti hər kəs dadmağa çalışır. Hər kəs bu pətəyin açıq ağzından içəri girmək, oradakı məhsulun dadını bilmək istəyəcək. Və əsas da o idi ki, əgər Qazi bu ölüm yatağından qalxa bilməsə, başının üstündəki ölüm mələyi onun ruhunu canından çıxarıb aparsa, bu sahibsiz qalan vilayətdə yolunu davam etdirəcək bir sahibi də olmayacaqdı. Çünki o, kimsəyə bu günə qədər başına bir iş gələcəyi təqdirdə nə iş görmək lazım olacağını tapşırmamışdı. Birdən Qaziyə elə gəldi, o indiyə qədərki həyatını mənasız yaşayıb. O, həmişə düşünürdü ki, yaratdığı «Divan» özündən sonra dillər əzbəri olacaq. Qurduğu möhtəşəm dövlətin saray divarları arasında ziyafət məclislərində xanəndələr onun qəzəllərini oxuyacaq – ruhuna rəhmət diləyəcəklər….

*Noldı sana gər yol ola divanə könüldən,*
*Yol olmış ola dünyada bir cana könüldən.*

*Bin qanmış ola yürəgümün qanına ləlün,*
*Bir dəm nola gər can ləbünə qana könüldən.*

*Təşbih qaçan qıla bilə məşaləyi çərx*
*Bu şəmə ki, şol günəş içün yana könüldən.*

*Gözüm ki, dökər ləli-ləbünçün nə əcəbdür,*
*Gör nə dökilür dişünə dürdanə könüldən.*

*Adəm gözi mərdanə baxar dilbərə, zira*
*Yol var ki, xəbər irişə insana könüldən.*

*Mən can ilə əqlü dilü tən oynayum ana,*
*Ki yar mən idügümə inana könüldən.*

*Kəndüni fəna dənizinə qərq edü qurtıl,*
*Meylün var isə, şərbəti-heyvana könüldən.*

*Gər dilər isən, Misrə əziz olasın, ey yar,*
*Gəl ki, salalum Yusifi zindana könüldən.*

*Gər əbri-bihari gibi giryan olur isən,*
*İrməgə yararsın güli-xəndana könüldən.*

*Kəbə sana qarşu gətüri verə səfayı*
*Sımarlar isən özüni qurbana könüldən.*

*Gözdə yeri var kim ki, gözi qanını yığmaz,*
*Mərdümlik edüp axıda mərdanə könüldən…*

…Ozanlar dilləndirdikləri qopuzun sədaları altında onun duyğularının tərcümanı olan tuyuğlarını zümzümə etməkdən həzz alacaqlar.

*Keçdi keçən var isə, dövran budur,*
*Şimdi qopan canlara cəvlan budur.*
*Kimdə ki, var isə gəlsün ortaya,*
*Gizləmək pəs nə içün, meydan budur.*

*Yar oldur ki, yar ilə həmdərd ola,*
*Yarından yüz qaytaran yar sərd ola.*
*Yemək-içmək yaxşılıx günin görən,*
*Ər günində gər dönə, namərd ola.*

Xanəndələr udun həzin sədasının müşayiətilə rübailərini ifa edəcəklər…

*Sərvün ki, rəvan oldı, rəvana verələrmi?*
*Ləlüni bu dünya tolu cana verələrmi?*
*Mən canı fəda qılur isəm, baxmağa bir gəz,*
*Hüsnünə sənün şər ilə qana verələrmi?…*

Qazi Bürhanəddin öz yaratdığı bu söz səltənətində xəyalən gəzişdikcə daxilən rahatlıq tapmaqdansa, ruhi düşkünlüyü daha da artdı… Əvvəllər düşünürdü ki, əsrlər keçsə də, bu nəğmələr əbədi yaşayacaq, dövlətin sərhədlərini aşacaq. Türkün şirin ləhcəsində danışılan hər obada, hər diyarda onun xatirəsini böyük

rəğbətlə yad edəcəklər. Dillər əzbəri nəğmələrinin sonunda səslənəcək adı zaman-zaman müqəddəslik mahiyyəti daşıyacaq. Analar övladlarına Bürhan adı qoyacaqlar. O Bürhanlar da böyüyüb hörmət-izzət sahibi olmaqla, sağlam din üçün, eləcə də şirin dil üçün Bürhanəddinlik mərtəbəsinə yüksələcəklər. Bəlkə, elə belələrinin arasında onun nəvələri, nəticələri az olmayacaqdı… Amma indi bədbəxtlik onu basmışdı. Qızı – bacısı oğlu olsa da, hakimiyyətə təhlükə olacaq Əhmədlə sevgi şərabını çoxdan içmişdi. Onlar elə bir dərəcədə bu sevgi piyaləsindən daddıqları şərabın məstliyi, xumarlığı altındadırlar ki, dünyada baş verənlərin heç nəyindən xəbər-ətərləri yoxdur. Qazi Allaha yalvarırdı. Təki onu bu gün, bu andaca ölüm mələyi aparmasın. Bu yataqdan ayağa qalxsın. Onda indiyə qədər görmədiyi işlərinin hamısını nizamlayar, kimin kim olduğunu tanıdar. Hər kəsin nəyə haqqı çatır, o haqqa da yetər.

Yox, Qazi qətiyyən o fikirdə deyildi ki, hakimiyyəti oğlundan savayı qeyrisinə versin. Yaxud kiməsə bir yol qoysun ki, o da həddini aşıb oğlunu bir gecənin qaranlığında şəbxunla yaxalasın. Bir qılıncla onun kürəyinin arasından qan seli açsın. Və onun qurduğu dövlətin sütunları beləcə sarsılıb çat versin. Qəfil zəlzələdən silkələnən divarlar kimi uçub tökülsün. Bu ölüm yatağının rahat, səssiz məkanında Qazini bu düşüncələrdən elə dördəllə yaxalamışdı ki, ruhu ilə, düşüncələri ilə nə qədər çırpınsa da, bu qorxunc aləmdən qopa bilmirdi. Hərdən Qaziyə elə gəlirdi, o şirinlikdən çox uzaq, acı bir yuxu görür. Bu acılı yuxunun gətirdiyi iztirablardan xilas olmaq üçün başının üstündəki ölüm mələyinə də, artıq özü üçün aydın olan günahlarla dərgahında üz-üzə dayanacağı Allahına da yalvarırdı. Təki onun hələ vaxtsız hesab elədiyi əcəlini başının üstündən o yana çəksin. Və Qazi qalxıb divanına getsin. O divanda kimin hansı yuvanın quşu olduğunu sərraf nəzərlərilə təzədən arasın, haqqı-həqiqəti hər kəsin ovcuna qoysun.

Qazi kimsənin adını çəkmək iqtidarında deyildi. Hansı əyanın hansı məzhəbə qulluq eləməyindən xəbəri olsa da, onların heç birinin xəyanətə hazır olduqlarını üzlərinə vurmamışdı. Dövlət işlərinin xatirinə onları həmişə nizamda saxlamağa çalışmışdı. Çalışmışdı ki, hər kəs bacarığına görə Qazi Bürhanəddin səltənətinə köməyini əsirgəməsin. Əvəzində Qazinin bir sərt baxışı bəs eləmişdi ki, cızığından çıxan əyan öz həddini bilsin. Unutmasın ki, Qazi hər şeyi yaxşı bildiyi kimi, hər bir kimsənin də hansı məzhəbdə olduğunu yaxşı bilir.

Əslində, Qazi Bürhanəddin şübhələndiyi adamları bir-bir aradan götürsəydi, onları müxtəlif bəhanələrlə – belə bəhanələr isə qədərincə çox idi – sürgünlərə göndərsəydi, əmlaklarını əllərindən alıb, əsir-yesir kökünə salsaydı, onda özünə yönələn el nifrətinin də qabağını heç nə ilə kəsə bilməzdi. Qazi özü yaxşı bilirdi, dəfələrlə günahlarını bağışladığı əyanlar son nəticədə qulluqda necə müntəzir dayanıblar. Əvəzində onun xalq arasında ədalətli hökmdar olduğuna bir kimsənin şübhəsi olmayıb. Onu hər yerdə ədalətin timsalı kimi görüblər. Ayrı-ayrı əyalətlərin, bəyliklərin başbilənləri, sahibləri də xalqla, rəncbərlə həmişə ehtiyatla davranıb. Çünki onların hər biri yaxşı bilirdi, əgər bir kəndli saraya gedib, lap çətinliklə də olsa, divana düşə bilsə, Qazi ilə üz-üzə gəlsə, və Qazi də onun dilindən əsl həqiqəti bilib, hələ üstəlik, əl altından başqa soraqlar salıb işlərin nə yerdə olduğunu cikinə-bikinə qədər öyrənəcək. Ondan sonra gəl, sən fağır kəndlini incitmiş hakimin halına bax. Qazi belə hallarda güzəşt eləmir, bağışlamırdı, üzü dönürdü. Belələrini günahlarına görə layiqincə cəzalandırırdı. O, xalqın dediyi kimi, özünün ədalətli olduğuna həmişə inanmışdı. Onda belə bir güman yaranmışdı ki, Allahın dərgahına üzü ağ gedəcək. Amma indi ölüm mələyindən xilas ola bilsə və qılıncını çəkib bacısı oğlu Əhmədlə qızı Gülçöhrənin arasında bir uçurum açsa, qılıncı ilə bu müqəddəs sevgini kəsib-doğrasa, bu haqsızlığı ilə ən betər günaha belə batsa, Allah onu bağışlayardı. Çünki

rəhmdil Allahın özünə əyan olardı, onun məqsədi bu əməli ilə – bacısı oğluna qəsd eləməklə qızını nakam qoymaq deyil. O, bu əməlilə hakimiyyəti xilas etmək, qurduğu dövlətin əsaslarını qorumağı güdmüşdü. Dövləti qorumaq naminə hər hansı bir əməl Tanrı hüzurunda günah sayılmırdı.

İndi özü öz günahlarını, savablarını, hələ gələcəkdə olub-olacaqları ölüm yatağında heç əlini belə tərpətməyə imkanı olmadığı, yumulmuş, örtülü kirpiklərini qaldıra bilmədiyi bir vaxtda mizan-tərəziyə qoyurdu. Hansı ağır gələcək, hansı yüngül olacaq, bunu əlahəzrət vaxt göstərəcəkdi. İndi bütün bunlar üçün onun Tanrıdan bir təmənnası vardı: «Böyük Yaradan ona arzuladığı bu möhləti verəydi…»

* * *

Şeyx Məhyəddin gözlərini qıydı. Altdan-altdan Qazi Bürhanəddinə – ömrünün, günün işığı olan, onun hörmət-izzətini sarayda qoruyan hökmdarın bu ötən vaxt ərzində qımıldanıb-qımıldanmadığını, tərpənib-tərpənmədiyini görmək istədi. Əslində, hər şey Şeyx Məhyəddinə aydın idi. O, çox yaxşı bilirdi ki, Qazinin halı pərişandır. Bəs o, nə müddətə belə heysiz-hərəkətsiz uzanıqlı qala bilər? Amma onu da yaxşı bilirdi ki, Qazi heysiz hərəkətsiz olsa da, onların öz aralarındakı bu astagəlliklə söylədikləri əhvalatları, danışdıqları ayıq-sayıq yaxşı eşidir. Hətta Qazinin şüurunun tam aydın olmağına Şeyx Məhyəddin inanırdı. Əslində, Şeyx Məhyəddin öz həyat tarixçəsini nə qarşısında əyləşmiş və təbiblik elminin cikini-bikini öyrətdiyi və hələ üstəlik ad verdiyi Varisin özünə də gərəkli bilirdi bu hekayəti danışmağı. Bu hekayət isə ola bilsin ki, Varisin özünə də, lap Qazinin bu dünya ilə əlləşdiyi bir məqamda qəribə görünə bilərdi. Bir tərəfdən baxsan, həm Qazinin oğlu Elməddin Əli Çələbiyə, həm Qazinin bacısı oğlu Əhmədə, eləcə də qızı Gülçöhrəyə, lap elə xanımı Həlimə xatuna da qəribə gələ bilərdi. Onların hər birinin ayrılıqda Şeyx Məhyəddinin öz

həyat tarixçəsini danışmasına özünəməxsus münasibəti vardı. Buna qalsa, Qazi, Şeyx Məhyəddinin həyat tarixçəsini hərəkətsiz bədəni, amma qum saatı kimi rəvan düşüncəsilə tam diqqətlə dinləyirdi.

Amma Qazi Bürhanəddin o heysiz-hərəkətsiz canı ilə, tərpədə bilmədiyi əlləri, qapaqlarını qaldıra bilmədiyi gözlərilə bu sualların heç birini Şeyx Məhyəddinə verə bilmirdi. Səbəb də o idi, sadəcə, fiziki gücü tükənmişdi, ağlı, düşüncəsi tamam yerində idi. O, istər öz oğlunun, istərsə bacısı oğlu Əhmədin pıçıltı ilə dediyi kəlmələri də, qızının hıçqırtısını, arvadının başı üstə dayanıb sağ əlini alnına qoymağını… bütün bunların hamısını hiss eləyirdi. Bircə hərəkət etməyə gücü çatmırdı. Yəni ixtiyarı əlindən alınmışdı. Elə bil ki, Allah-təala onu öz hökmü ilə belə bir cəzaya mübtəla eləmişdi ki, sən ağlın yerində ola-ola, düşüncən yerində ola-ola ətrafında dayanan adamların sənə münasibətini gör və hiss elə. Onda bilərsən, yalançı ədalət hansı gücdədir və Tanrı hüzurunda səni qorumağa qadirdimi?

Qazi düşüncələrinin bu məqamında özünə güc gəldiyini hiss etdi. Elə bil, yenə taxtda idi. Yenə qarşısında boyun bükməyə hazır olan əyanlar dəstəsi görürdü. Münşiləri, əsnafları, əyan-əşrəfləri bir-bir nəzərindən keçirirdi. Onların bu günə qədər xidmətlərinin müqabilində – bu məmləkətdən nəyi alıb, əvəzində hansı xidmətləri göstəriblər – əsl tərəzisi qurulurdu.

Qazi qımıldanmaq, hərəkət etmək istədi. Varis hökmdarın nəbzini dinləyirdi. Sol qolu əlində idi. O, həmin anlarda hökmdarın nəbzinin sürətlə döyündüyünün, əvvəlki zəif ahəngin öz yerini daha sürətli təkanlara verdiyini hiss elədi.

İllərdən bəri ustadı ilə sözsüz danışmağa vərdiş eləmiş Varis söhbətini dayandırmış, nəzərlərini bir an da olsun hökmdarın bənizindən, örtülü göz qapaqlarından ayırmamış, Şeyx Məhyəddini baş verən dəyişiklikdən hali etmək istədi. Bu an gördü ki, qazdan ayıq təcrübəli Şeyx heç kimin sezə bilmədiyi yarımqapalı

təbəssümlə, cüzi səyriyən gözünün nəzərilə Varisə bildirdi ki, sən darıxma, mən hər şeyi başa düşürəm.

Varis özünə, bəlkə də, inamının zəifliyindəndir, yenidən ustadının gözlərinə baxdı:

– «Deyəsən, dəyişiklik var».

– «Bilirəm».

– «Ustad, elə bilirəm ki, hökmdar ayılmaqdadır». – Varis bu duyğularla ustadının gözlərinə nəzərlərini zillədi. Və deyəsən, ustadı da eyni eyhamla ona baxdı. Amma əlavə mənalar da vardı ki, Varisə yetirmək istədi:

– «Yox, oğlum, hələ tələsmə».

– «Niyə?»

– «Ona görə ki, hökmdar bizim danışdıqlarımızın təsiri altında öz düşüncələrini səfərbər eləyir. Bəlkə də, bizdən danışdığımızın nəyə xidmət etdiyini, nə demək istədiyimizi başa düşdüyünü bildirmək istəyir».

– «Nə olsun ki, təki ayılsın, qalxsın». – Deyəsən Varis bu mühakiməsində ustadı ilə mükalimənin bir ziddiyyət məqamına yetdiyini nəzərə çatdırmaq istədi. Peşəkar ustadı yenə təmkin atından düşmədi. Həmişəki tək sakit-sakit başını tərpətdi. Əvvəlcə, təsdiqləyirmiş kimi, sonra inkar edirmiş kimi sağa-sola Varis ustadının başı ilə dediklərini tam anlamadığından, deyəsən, bir qədər çaş-baş oldu. Bəs nə üçün ustad tam razılıq bildirmədi? Varis düşündü. Əslində, Varis də bir qədər tələsmişdi. Yoxsa elə ustadın nə dediyini yerindəcə anlayardı. Ancaq o, təzədən ustadının gözlərinə nəzər salanda onun nə demək istədiyini artıq anlamışdı:

– «Tələsmə, Varis, hökmdar yaxşıdır, əhvalı pis deyil. Əsas odur ki, o, özünün gücünü bərpa eləsin, bizim verdiyimiz məlhəmlərin təsiri olsun. Hökmdarın ruhu sağlamdır. Bir daha təkrar edirəm, əsas odur ki, hökmdar bizim bu söhbəti nə üçün başladığımızı başa düşsün».

– «O, tezliklə oyanacaq, qalxacaq. Mən belə başa düşdüm».

«Əlbəttə, oyanacaq, qalxacaq. Ancaq yenə həmin adam olaraq taxtında əyləşsə: pisi odur» – Şeyx Məhyəddinin hökmdarla bağlı dedikləri, onun öz taxtında əyləşməsindən sonrakı həyatına müdaxiləsi Varisə odla oynamaq kimi gəldi. Axı, Şeyx ağıllı adamdır. Hökmdar bu qəfil düçar olduğu bəladan xilas olandan sonra, yəni ayağa qalxıb dirçələndən sonra kimə necə münasibət bəsləyəcək? Adamlara hansı yolu qoyacaq? Kimi günahkar bilib boynunu vurduracaq? Kimi günahsız bilib ənam verəcək? Bunların heç birinin onlara dəxli yox idi. Axı Varisin bildiyinə görə, Şeyx Məhyəddin heç siyasət işlərinə qarışan deyildi. İndi Şeyxə nə olmuşdu ki, o, bu dərəcədə həddini aşmış və üstəlik, hələ hökmdara yol göstərmək fikrinə, düşmüşdü? Bütün bunlar hələ gənc Varisin anlamadığı, aydın başa düşmədiyi mətləblər idi. Özü də elə mətləblər idi ki, hələ o mətləblərə baş vurardı, nəinki ustadının başını, üstəlik özünün başını da əvəz verərdi. Şeyx Məhyəddin hökmdarın hərəkətsiz bədəninə baxıb, tərpənməyən göz qapaqlarına nəzər yetirib, qənaətini əldən vermirdi. Yaxşı bilirdi ki, onların – ustadın və yetirmənin bu nəzər danışığı səsli danışığa keçsə, Allah eləməmiş, Sara Xatunun özünün də xəbərdar olduğu o Narıngül əhvalatı, birdən Varis səhvə yol verər. Və hamının ölüm yatağında hesab elədiyi, heç göz qapaqlarını tərpətməyə gücü çatmayan hökmdar Qazi Bürhanəddinin qum saatı kimi işləyən ağlına, düşüncəsinə Varisin bircə səhvi bəs eləyirdi. Və elə bu səhvlə tezliklə ayılacaq, – Şeyx Məhyəddin bunu bilirdi. – Qazi Bürhanəddin nəinki Varisin, elə onun ustadı Şeyx Məhyəddinin də başını divan qabağının önündəcə kəsdirəcəkdi. Bəs necə? Hökmdarın heç ölüsünün arxasınca danışmaq olar? Baxmayaraq ki, yeri gəldikcə bu hökmdar özünü səxavətli göstərir, şəninə tərif deyənlərə xışma-xışma tümənlər, dirhəmlər bağışlayır. Amma hər kim onun haqqında şeytanın felinə uyub xoşa gəlməyən nəsə dedisə, bu da cəzasız qalmayacaqdı. Və Qazi Bürhanəddin belə bir hökmdar idi. Qazi Bürhanəddin yerdən çıxmamış, göydən

gəlməmişdi. O, dövrünün insanlarının arasından çıxmışdı. Düzdü, Tanrı ona şeiriyyət istedadı vermişdi. Ancaq bununla birgə ona hakimiyyət ehtirası da bəxş eləmişdi. Varı-dövləti sevirdi. Qızılları, almazları, daş-qaşları ayrı-ayrı əyalətlərdən gəlib xəzinəyə yığılan sərvətləri həvəslə qəbul edirdi. Hərdən yolu düşəndə xəzinənin qapısından keçir, neçə-neçə qıfılların açar şaqqıltılarını eşidir, ağır-ağır daş qapıların arxasında gizlədilmiş varidata baxır, bütün bunların hamısını ölkənin gələcək rifahı üçün – əlbəttə, oğlu Elməddin Əli Çələbinin hakimiyyətinin möhkəmlənməsi üçün yığdığını düşünürdü. İndi iş gəlib o yerə çatmışdı ki, Qazi cansız, quru bir taxtaya çevrilib, yaxınlarının, doğmalarının və üstəlik, Şərqin ən böyük qüdrətli bir təbibinin və onun cavan yetirməsinin hüzurunda ölü yatağında uzanmışdı. Heç iqtidarı yox idi ki, yanan dodaqlarına, alışan sinəsinə sərinlik gətirəcək bir neçə qurtum bulaq suyu istəsin. Həmin o bulaq suyunu necə də dodaqlarının arasında saxlayar, sərinliyini ciyərinə çəkərdi… Ancaq qımıldana bilmirdi. Daha haradan güc alsın ki, fərman versin, hökm eləsin. Yaxşıya ənam, düzə mükafat, pisə cəza, əyriyə yerini göstərsin. Qazi başının üstündə dayanmış adamların indi yaxşı, ya pis dediyinin fərqində deyildi, yenə xəyalı uçub getmişdi. Bəlkə haralardan dövr eləyib, təzədən bundan əqdəm bülbüllərin nəğmə dediyi məkana qonmuş, qızılgüllərin açılmış qönçələri arasında oxunan mahnıların onun ruhunu ehzaza gətdirdiyi məqamlara uçurtmuşdu. Qazi indi daha onun başının üstündə dayanan adamların kimliyini unutmuşdu. Həmin o güllü bağçaya – bülbüllərin nəğmə dediyi, güllərin dibindən şır-şır axan suların özünə dönmüşdü. Qazi həmin o dumduru çağlayan suların özünə dönüb güllərin dibinə axırdı. Elə bil ki, arxlarda çağlayan sular deyildi, Qazinin özü idi.

Qazi çətinliklə xəyalına gətirdi, bu suları haradan, necə çəkib gətirtdiyini, o taydan – Qarabağdan bir daşyonan, kankanlığı da bacaran gənc memar gəlib çıxmışdı. O gənc memarın haradan,

niyə gəldiyinin heç fərqinə varmamışdı. Amma ötəri söhbətdən məlum olmuşdu ki, o memar kiminsə təqibindən canını qurtarıb. Qafın anrı tərəfindən yol keçib, Naxçıvan düzünə gəlib, sonra Arazı adlayıb, bu yerlərə gəlib çıxıb. İndi Qazinin yadına gəlmirdi ki, o cavanın adı nə idi? Amma qurşağına qılınc əvəzi kimi bağladığı külüngünə baxıb: «Sən elə Fərhadsan ki» – demişdi. O gündən elə o gəncin adı Fərhad olaraq yadında qalmışdı. Və sonra da iş uzandıqca saraydakılara deyərdi ki, bizim Fərhad nə iş görür? Gördüyü işinin yekunu yoxmu? İnsafən, Qazi Bürhanəddinin Fərhad kimi tanıdığı həmin o qarabağlı gənc dağlardan çağlayan bulaqların gözünü açmış, o çeşmələrin məcrasını bir yerə yığmış və Qazi Bürhanəddinin saray bağına dumduru bulaq sularının çağladığı daş arx çəkmişdi. Arxın altına yonulmuş ağ daşlar düzülmüş, yanlarına bir-birinə geydirilmiş həmin o ağ daşlar hörülmüş, hələ üstünə də lövhələrə yapışdırılmışdı. Sonra bu daşların üstü torpaqla örtülmüşdü. Sular uzun yol gəlib Qazinin bağına çatmışdı. Qazi öz bağındakı güllüyə axan köpüklü suların aşıb-daşmağına heyran-heyran baxar, qarabağlı memarın fərasətinə «əhsən» deyərdi. Həmin qarabağlı oğlan Qazinin verdiyi vədlərə inanıb neçə il onun sarayında memarlıq, tikinti işlərinə nəzər yetirmiş, öz məsləhətlərini vermişdi.

Hər dəfə də Qazi ona deyərdi ki, heç darıxma, mən bir gün öz əyan-əşrəfimlə Arazın o tayındakı, Xudafərinin o üzündəki o gözəl Qarabağa səfər edərəm. Sənin könlünü əmanət alıb saxlamış o qızı sənin üçün alaram. Ancaq Qazi bunu demiş olsa da, vaxt ötmüş, zaman keçmiş, qarabağlı memar görmüşdü ki, Qazinin var-dövlət yığmaqdan, öz şöhrətini qorumaqdan qeyri başqa niyyəti yoxdur. Və elə ona görə də bir gün Qazinin sarayında yaşadığı rahat həyata da, elə Qazinin özünə də, onun dolanışığına güclə bəs edən cüzi vəsaitə də üz çevirib, saraydan baş götürüb getmişdi. Bir gün həmin o qarabağlı Qazinin yadına düşəndə demişdi ki, onu tapın, gətirin yanıma. Çünki o dağlardan axan bulaq

suyunun dadı dəyişmişdi. O, istəyirdi ki, həmin o bulaq sulara saxsı borulara yığılsın. Onun sarayına dağlardan axan o bulaq suyu mənbədən gətirilsin. Və ona gəlib demişdilər ki, qarabağlı memar yoxdur. Qazi də altdan-altdan mızıldanmışdı: «Ona göstərdiyimiz hörmət-ehtiram gözündən gəlsin. Sənətkarın gərək etibarı, sədaqəti axıracan olsun».

O vaxt Qazi heç düşünməmişdi ki, dediyində haqlıdır, yoxsa haqsız? O vaxt Qazinin ağlına da gəlməmişdi ki, gecələr sevgilisinin həsrəti ilə, gündüzlər Qazinin verdiyi sədəqə ilə dolanan həmin gənc səhərləri hansı ümidlərlə açır.

…Qazi hərəkətsiz canının hansı günah içində olduğunun sanki yeganə həyat əlaməti olan düşünən beynində indicə hiss elədi. Bəlkə də elə həmin gəncin ah-naləsidir onu tutub. Hələ bəlkə Şeyx Məhyəddinin danışdığı əhvalatın nə demək olduğunun fərqinə də vara bilmirdi.

* * *

Sarayda aləm bir-birinə dəymişdi. Əyan-əşrəf bərk narahat idi. Divanda hər kəs özünə münasib olanla məsləhət-məşvərət keçirir, daha doğrusu, bu söz-söhbət məşvərət deyildi, hər kəs bir növ, xəlvət pıçıltılarla məsələnin nə yerdə olduğunu öyrənməyə çalışırdı. Biri digərinə bildiyini deyir, hələ üstəlik, dediyindən də baş açmağa çalışırdı. Doğrudanmı hökmdarın günəşi batmaqda idi? Yoxsa, hökmdar bir daha öz taxtına əyləşib fərmanları ilə kiminsə çırağını söndürəcək, kiminsə günəşinin qabağındakı buludu dağıdacaqdı… Bax, bunu bilmirdilər. Daha çox şübhəlilər tez-tələsik Elməddin Əli Çələbinin – hökmdarın oğlunun tərəfdarlarının bir yerə cəm olub məmləkətin taleyinə əncam çəkmək qərarına gəlmişdilər. Onlar Elməddin Əli Çələbini nə qədər gənc və yeniyetmə olsa da, hələ üstəlik hərb və divan işlərindən xəbərsiz olsa da, yenə hakim etmək qərarına gəlmişdilər. Bütün bunlardan isə heç Elməddin Əli Çələbinin xəbəri yox idi. Hökmdar qəflətən özündən

getmiş, huşunu itirmiş, heysiz-hərəkətsiz halda onu gətirib taxtına uzatmışdılar. Hadisənin necə baş verməsindən də çoxlarının xəbəri yox idi. Əlbəttə, hökmdarın bacısı oğlu Əhməd, qızı Gülçöhrə yazın bu gülşən çağında – güllərin bülbüllərə naz elədiyi, bülbüllərin də bu al-əlvan güllərə nəğmə oxuduğu çağda iki aşiqin, sevgilinin bağçada görüşünə baxıb fərəhlənmək əvəzinə hökmdar gördüyü mənzərədən qəzəbnak olmuş və halı dəyişmişdi.

İndi həkimbaşı Şeyx Məhyəddin və yetirməsi Varis, eləcə də hökmdarın ailə üzvləri onun ətrafına yığışmışdılar. Şeyx Məhyəddinin təmkinli söhbətindən belə başa düşmək olurdu ki, heç hökmdarın səhhəti təhlükəli deyil. Asta-asta, rəvan-rəvan danışan Şeyx Məhyəddin söhbətləri ilə hökmdarın ruhundakı sıxıntıları, mənəvi gərginlikləri də dəf eləməyə çalışır. O, səhərin oyanış çağındakı iki aşiqin görüşündən hirslənən hökmdarın halının necə dəyişdiyini görmüş, məsələnin kökündə nəyin dayandığını bilmişdi. Bəlkə də öz söhbətləri ilə hökmdara – onun bütün söhbətləri dəqiq eşitdiyini və anladığını bilirdi, – bir sakitlik, həzinlik bəxş etməkdən başqa qızının sevgisinə mane olmamağı və gələcəkdə hansı fəsadları törədəcəyini anlatmaq istəyirdi.

İnsafən, Qazi Bürhanəddin həkimbaşının və onun yetirməsinin düşündüyü kimi, bütün söhbətləri çox dəqiqliklə və eləcə də yetərincə aydınlıqla dinləyirdi.

Elə dinləyirdi ki, bircə kəlmə sözü ötürmək istəmirdi. Şeyx Məhyəddinin hər sözü Qazi üçün bir iksir idi, dərman idi. Doğrudur, ara-sıra məqamlarda Qazinin düşüncələri səhraya buraxılmış cilovsuz at kimi müxtəlif tərəflərə yürüş eləyirdi. Öz həyatını axtaran tərəflərə yönəlir, hansı tərəfə bu köhləni çapırdısa-çapsın, yenə qayıdıb Şeyx Məhyəddinin hüzuruna dönürdü. Qazinin göz qapaqlarını tərpətməyə gücü çatmayan, düşüncəsinin hakimi Şeyx Məhyəddin idi. Və Qazi şüurunun güclü işıqlandığı məqamlarda Şeyx Məhyəddin kimi bir müdrikin bu əhvalatı nədən onun başının üstündə danışdığının fərqinə varmağa çalışır-

dı. Qazi dünyanın gəldi-gedərini görmüş adam idi. Hiss eləyirdi ki, Şeyx Məhyəddin kimi bir müdrik bu əhvalatı elə-belə, nəyinsə xatirinə, kiminsə könlünü ovutmaq, hökmdarın arvadının, oğlunun, qızının səbrinə söykək vermək, onlarda təmkin yaratmaq niyyəti ilə danışmır. Qazi Şeyx Məhyəddinin danışdıqlarının axıracan fərqinə varmaq, bu təsirli əhvalatın nə üçün söyləndiyinin mahiyyətini bilmək və özü üçün aydınlaşdırmaq istədi. Qazinin heyi, hərəkəti yox idi ki, arada əlini qaldırsın, gözünün qapağını çevirsin və Şeyx Məhyəddindən soruşsun: kişi, sən nə çox sözü-sözə calayırsan? Bu söz-söhbətin davamını harada qurtaracaqsan? Ən başlıcası, axı bu uzun, sicilləmə əhvalatla nə demək istəyirsən? Sən şeyxlik mərtəbəsinə mənim hüzurumda yetişmisən. Mənim əlimin bircə işarəsi bəs idi ki, sənin nəinki bu məmləkətdə yaşamağına yasaq qoyulsun, hətta üstəlik, başının bədənin üstündə qalmağı da müşkül məsələyə çevrilərdi.

Tədbirin mahiyyəti hələ Qazi Bürhanəddinə tam aydın olmasa da, onun iti düşüncəsi həkimbaşının söhbətlərindən cana gəlir, yaddaşında itməkdə olan xatirələrə rəvac verirdi. Hökmdar başına gələn hadisənin hansı əməli ilə bağlı olduğunu anlamaq istəyirdi. Söz yox ki, mətləbi açıq deməyən Şeyx Məhyəddinə də qəzəblənməsi olurdu. Ancaq qəzəbləndiyini, Şeyxdən açıq danışmaq istədiyini deyə bilmir və yenidən öz xəyallarının aləminə qayıdırdı.

...Həmin qarabağlı gəncin onun məlum olmayan taleyi gəlib gözlərinin qabağında durmuşdu. Dumanlı idi, anlaya bilmirdi ki, onun başına nə hadisə gəlib, arabir gözlərinə görünən tökməbədən gəncin baxışlarından müəmmalı nəsə oxuyurdu.

Şeyx Məhyəddin isə söhbətinə davam etməkdə idi.

* * *

...Dürdanə Zərrinin getməsindən sonra gələcəyə olan inamını tamam itirmişdi. Onun gözlərində həyat işığı demək olar, sön-

məkdə, öləziməkdə idi. Get-gedə gözlərinin altına bir qaranlıq, bir kölgə enirdi. Hərdən anasınınköməkliyilə, ayağa qalxır və bu zaman həyətə keçmək, qızılı günəşin şüaları altında bərq vuran gözəlliyi ilə bülbüllərin hamısını bağ-bağçaya çağıran güllərə baxmaq, bu dünya gözəlliklərini seyr etmək üçün açıqlığa çıxmağa can atırdı. Dizləri titrəyir, ayaqları yer tutmurdu. Divar tərəfdən qoyulmuş aynanın qabağından keçəndə nəzərləri öz əksinə sataşdı. Yox, mən öz gözəlliyimi qoruyub, bir də o nadan əyan oğlunun nifrət elədiyim sarayına qaytara bilmərəm. O da mənim halımı duymaq, məni azad buraxmaq əvəzinə ayaqlarını yumağa vadar eləsin, təhqirindən doymasın. Hələ üstəlik, aradabir üstümə də çəmkirsin: «Yeri get, dəsmal gətir, tez tərpən». Əyan oğlunun vaxtilə ona belə təhqiramiz münasibətləri, onu insan yerinə qoymayan göstərişləri, boz çöllüyün tikanları kimi qabarıb gözlərinin qabağına gəlirdi. Əl-ayağını, baş-gözünü didməyi bir yana, varlığının içinə yeriyirdi. Bu tənə tikanları hər tərəfdən onun ruhunu qarsıyır, ürəyini didirdi. «Yox, mən bir daha o xarabalığa qayıda bilmərəm» – deyə qərar verirdi.

Əyan oğlunun böyük, təmtəraqlı mülkü Dürdanə üçün mənəviyyat xarabalığı idi. O, dünya dağılsa da, bəsirət gözü ilə gördüyü bayquşların yuvası sandığı bu evə qayıdası deyildi. Qoy bayquşlar orada özləri üçün nə qədər istəyirlərsə ulasınlar. Onsuz da bir gün gələcək əyan oğlu da öz əməlinin cəzasını çəkəcəkdi. Onu sevgilisindən ayırmağın necə böyük günah olduğunu özü də gözləri ilə görəcəkdi. Bu, olacaqdı-olmayacaqdı, tale əyan oğlunun başına hansı qəzanı gətirəcəkdi – bunu bilmək olmazdı. Amma bu zavallı qız dünyanın özbaşına olmadığını yaxşı bilirdi. Və elə bu səbəbdən düşünürdü ki, bir gözəgörünməz qüvvə tale oyunlarına nəzarət eləyir. Yeri-göyü idarə edən o fövqəlqüvvə bir anda yerin altını üstünə çevirə bilir, vulkanlar püskürür, göydən daş yağır, od-alov ətrafı bürüyür, zəlzələlər çox sarayları yerlə-yeksan eləyir. Heç şübhəsiz, onun günahsız, pak sevgisinin

qəsdinə durmuş, özünün gücünə güvənən əyan oğlu da Allahın nəzərlərindən kənarda deyil. Ürəyində sevgisini açılmamış gül kimi qoruyub-saxlayan bu qızın taleyini özü yazmağa çalışan əyan oğlu necə ola bilər ki, Tanrı dərgahında haqq-hesaba çəkilməsin? Bu çəkilən haqq-hesabın nəticəsi olaraq özünün halal cəzasına layiq görülməsin?

…Günlər beləcə bir-birinə sallana-sallana ötüb keçir, Dürdanə əriyən şam kimi sozalıb gedirdi. Qızın günbəgün, addım-addım ölümə yaxınlaşması ata-anasını da min cür fikrə salırdı. Gətirdikləri təbiblərin dava-dərmanları bir fayda vermirdi. Ən əsası da o idi ki, qızın iştahı tamam kəsilmişdi. Zorla içirilən bal şərbətindən başqa boğazından başqa heç nə keçmirdi. Təbiblərdən biri sonuncu dəfə qızın nəbzini yoxlayıb, məsləhətlərini verdikdən sonra ata-anasını xəlvətə çağırdı. Dürdanənin anası dərin təşviş içində qızının gerçək durumu haqqında həqiqəti bilmək istədiyini təkid etdi.

Həkim əvvəlcə udqundu. Hiss olundu ki, sözü var, amma deməyə çəkinir. Bu vaxt Dürdanənin atası da yaxına gəldi: – Bəlkə iş-işdən keçib, həkim, daha heç bir davacata lüzum yoxdu? – deyə soruşdu.

Həkim əvvəlcə elə indicə qapısını arxalarınca çəkib gəldiyi tərəfə baxdı. Elə bil ki, qızın onları dinləyib-dinləmədiyini öyrənmək istəyirdi. Sonra övlad dərdindən, çarəsizlikdən qamətləri əyilmiş, hələ cavanlıqları üstlərindən keçib getməmiş qocalığın yaxaladığı bu valideynlərə baxdı. Bəlkə də ilk dəfə əsl həqiqəti dilinə gətirmək qərarına gəldi. Ancaq qabaqca sağ əlinin şəhadət barmağını dodaqlarının üstünə yaxınlaşdırdı. Bununla demək istəyirdi ki, bax, haa, mənim sizə dediyim bu sözləri qeyri bir kimsənin qulağı eşitməsin. Dili-dodağı bu xəbərlə tərpənməsin, yəni ki, susun, kimsəyə deməyin. Sonra asta-asta dilləndi:

– Sizin qızınız eşq xəstəsidir.

– Bəs onun çarəsi yoxmu, həkim? – atası fərqinə varmadan soruşdu.

– Niyə yoxdu, var!

– Deyin, həkim, – bu dəfə də anası dilləndi, – bir çarə deyin, yoxsa balamız əldən gedir.

– Əvvəla, ən birincisi, onu öz sevdiyinə qovuşdurmaq gərəkdi.

Ata-anasının həkimin bu sözlərindən sonra nitqi tutuldu. Xeyli dillənə bilmədilər. Amma gözlərilə yalvarışlarını davam etməkdə idilər. Həkim təmkinini pozmadan onları arxayın-arxayın süzüb yenə sözünə davam elədi:

– Hələ ki, bu, mümkün deyil, bilirəm. Sizin qızınızın Şeyx Məhyəddinlə olan sevgisindən – özü də mənim dostum idi – hər kəsin xəbəri var. Ondan da hələ bir xəbər-ətər yoxdu. Günəşi qaralıb, qaralmayıb, bəlkə də hansısa bir ölkənin zindanındadır, nə vaxtsa qayıdıb gələr, ya gəlməz – bunu heç birimiz deyə bilmərik. Ancaq başqa bir çarə də var…

Təzədən Dürdanənin atasının da, anasının da gözlərində ümid işıqları parladı. Onlar həkimin bu sözlərindən sonra qızlarının təzədən həyata qayıdacağına, ölümün bir addımlığından geriyə dönəcəyinə inandılar.

– Deyin, həkim, sənə yalvarırıq. Nə çarədi o? – demək olar ki, bu sözləri Dürdanənin atası da, anası da eyni vaxtda dedilər. Və hər ikisi əllərini uzadıb həkimin çuxasının ətəyindən yapışdılar. Və sonra yenə bir ağızdan dilləndilər:

– Əl bizim, ətək sənin, ya əlimizi kəs, ya bizi naümid qoyma.

Bəlkə də həkim bundan sonra heç nə danışmaq istəməzdi, çünki bundan sonra deyəcəkləri onun özünün başına bəla ola bilərdi. O, ani surətdə bir yerə baxdı, bir də göyə… Hər iki tərəfdən ona yalvaran və son dərəcə bədbəxt görkəmdə ondan ümid gözləyən ata-anaya həqiqəti deməli olduğunu anladı.

– Gərək sizin qızınız əyan oğlundan boşansın, özünü sərbəst, azad hiss eləsin. Bəlkə bu vaxt onun qaralmaqda olan günəşi təzədən işıq salar. Bu vaxt həkim bir daha ölüm yatağında olan qızın bədbəxt taleyini gözlərinin qarşısında canlandırdı. Daha onun

fərqində deyildi ki, bu məsləhəti kimin verdiyindən əyan oğlunun xəbəri olarsa, onun bu xəbərdən sonra hansı əməllər törədəcəyini bir Allah bilir. Bəlkə lap təbibin başına da min oyun gətirərdi. Onun kəbinli arvadının həyatına müdaxilə etməsi əyan oğlu üçün təhqir sayılardı. O da lap elə bircə qılıncı ilə təbibin boynunu vurar, sonra divan ayağında məsələnin nə yerdə olduğunu açıb-tökər. Olacaq məhkəməni də öz xeyrinə qərar çıxarmağa vadar edərdi.

Bundan sonrasını Allah bilirdi, nə olacaqdı.

* * *

Əbdülsəid əfəndi və Uğur kişi Amid bəyliyində Uzun Həsənin nüfuzunu, təsirini, ən başlıcası, gücünün nəyə qadir olduğunu kifayət qədər bilirdilər. Əslində, elə bu məsələləri Cahangir Mirzəyə qədərincə aydınlatmalı və onu inandırmalı idilər ki, əgər tutduğu yoldan dönsə və birbaşa Sara Xatunun hüzuruna qayıdıb gəlsə, onu heç bir təhlükə gözləməyəcək. İndi dünyagörmüş və dünyagirliyin nə demək olduğunu yaxşı bilən bu iki qoca başa düşdüklərini, bildiklərini Cahangir Mirzəyə anlatmışdılar. Əslinə qalsa, Cahangir Mirzə geri dönmək fikrində olmasa da, peşmanlığını gizlətməmişdi. Onun hər bir tərəddüdü, suallara çətinliklə cavab verməsi, məsləhətlərin doğru və düzgün olmasını təsdiqləməsi göstərirdi ki, o necə bir tora düşdüyünü artıq dərk etmişdi. Elə bu səbəbdən boğula-boğula qalmışdı. Anasının onun ölümünü istəməyəcəyini, eləcə də əməlinin də faydasız olduğunu bilsə də, geriyə dönmək, qardaşı Həsən Mirzənin hüzurunda boyun büküb, diz çökmək, üzürxahlıq etmək ona ar gəlirdi. İndiki halda Cahangir Mirzə başqa hansı yol mümkün idisə, o yolu tutub getməyə hazır idi. Təki o, Həsən Mirzənin hüzuruna qayıdıb, qarşısında diz çökməsin.

Bu, Cahangir Mirzədən ötrü ölümə bərabər idi. Ona görə də nə Uğur kişiyə, nə Əbdülsəid əfəndiyə varlığında ilan kimi

qıvrılan həqiqəti açıb deyə bilmirdi, nə də açıq-aşkar Sələbiyyə xanı elə buradaca həbs etmək, onun qollarını qandallamaq və güclü mühafizə dəstəsinin nəzarəti altında qardaşının hüzuruna da göndərə bilmirdi. Çünki onun ordu adlandırdığı hərbi qüvvələr də Sələbiyyə xanın təsiri altında idi. Cahangir Mirzə dəqiq bilməsə də, hiss eləyirdi ki, son anda döyüşçülərin əsas qüvvəsi Sələbiyyə xanın tərəfində olacaq. Çox ola bilsin ki, əgər Cahangir Mirzə açıq-aşkar Sələbiyyə xanı qurban vermək istəsə, onda Sələbiyyə xanın tərəfdarları qiyam qaldırar və Cahangir Mirzənin özünü elə həmin andaca məhv edərdilər. Bundan sonra qüvvələrini çəkib, ya Osmanlılar tərəfə gedər, ya da Qaraqoyunlulara qoşulardılar. Onlar üçün fərq eləməzdi. Qarşı tərəf də bundan məmnun qalar, düşmənin öz qüvvələrindən özlərinə qarşı istifadə etmək, əlbəttə, çox asan idi. Təbii ki, Cahangir Mirzə bütün bunları götür-qoy eləyirdi. Və bütün bu götür-qoylardan sonra başa düşmüşdü ki, onun təkbaşına geriyə yolu yoxdu. Sələbiyyə xanın təklifini də elə bu səbəbdən qəbul eləmişdi: Sara Xatun və Uzun Həsən bu balaca əyaləti bir növ onlara bağışlayar, üstlərinə qoşun çəkməzlər. Bu da əlverişli zamana qədər həm Sələbiyyə xanın, həm də Cahangir Mirzənin əmin-amanlığını təmin etmiş olardı.

Cahangir Mirzə düşünürdü: qardaşı Həsən, anası Sara Xatun onların bu kiçik əyalətdə müstəqilliklərini qəbul edəcəkdilərmi? Burunlarının ucunda bütöv bəyliyə qarşı qiyam qaldırmış və sözün həqiqi mənasında Uzun Həsənə böyük nifrətlə, kin və küdurətlə qılınc sıyırıb ölüm-dirim savaşına çıxmaq istəyində olduqlarını söyləməkdən çəkinməyən bu adamların gələcəkdə imkan düşən kimi yenidən xəyanət edəcəklərini bilmirdilərmi? Əslində, Cahangir Mirzə yaxşı başa düşürdü ki, Uğur kişiyə və Əbdülsəid əfəndiyə dedikləri havada qalacaqdı. Hətta bu məsələləri yerli-yataqlı bilsə də, Cahangir Mirzə vaxt qazanmaq ümidindəydi. Bu qalan vaxtı havayı xərcləmək olmazdı. Anlayırdı ki, Osmanlılar

tərəfə getsə, onun qüvvələrini ələ keçirəndən sonra başını asanlıqla əkəcəkdilər. Heç Qaraqoyunlular tərəfə də bir o qədər etibar eləmirdi. Cahangir Mirzə Uğur kişi və Əbdülsəid əfəndi gedəndən sonra qəfəsə salınmış şir kimi özünə ayrılmış hücrədə o yan-bu yana vurnuxur, göyə baxıb göyün uzaq, yerə baxıb yerin qatışıq olduğunu görür, çarəsizlik içində üzülürdü. Ağlına əcaib-qəraib fikirlər gəlirdi: özünü assınmı, ya qalanın hündür bir bürcünün, ya azan qülləsinin yuxarısına qalxıb, oradan yerə atsınmı? Ha fikirləşirdisə, bir qərar qəbul edə bilmirdi.

Yox, hərdən ağlına düz olan nəsə gəlirdi. Bir kimsəyə xəbər vermədən atını yəhərləyib, qaladan gəzinti adı ilə təkbaşına gecənin qaranlığında çıxsın, baş götürüb üzü bilinməzliyə doğru getsin. Hərdən lap haldan düşür, ən doğru-düzgün yolun bu da olmadığını dərk edirdi. Yaxşı bilirdi ki, ən düzgün yol hər şeydən əl çəkib, anasının hüzuruna qayıtmaq, qardaşının yanına getmək, ondan lap elə yalvarıb əfv diləməkdi. Qoy qardaşı heç onu bağışlamasın. Bəd ayaqda lap zindana atdırsın, hətta öldürsə belə, qanı yenə halal olacaqdı. Heç ölümdən də qorxmurdu. İllərlə zindanda çürümək də onun gözlərində deyildi. Fəqət, tamam başqa bir məsələ onu bu addımı atmağa imkan vermirdi. İçindəki özündən razılıq, quru lovğalıq, ya bəlkə qürur hissi imkan vermirdi ki, gedib başını anasının hüzurunda əysin? Qardaşının qarşısında dizlərinə çöksün. Bütün bunların axırı nə ilə qurtaracaqdı? «Qoy qurtarsın» – deyib Cahangir Mirzə onu hər tərəfdən sıxmaqda olan düşüncələrindən xilas olmaq yolunu seçdi. Cahangir Mirzə elə ağılsız adam deyildi. Onun bir döyüşçü kimi şücaətini nəinki təkcə orduda, eləcə də, qonşu, rəqib ölkələrin sərkərdələri də bilməmiş deyildilər. Onsuz da Cahangir Mirzənin qiyam qaldırıb, qardaşından ayrılması xəbərini artıq ətraf əyalətlərin hamısı bilir və hələ üstəlik, bu xəbərin xoşluğundan, şirinliyindən məst olur, şərab məclisləri qururdular. Hə, demək, illər ərzində özü dünyadan çoxdan köçüb getsə də, Qara Yuluq Osmanın adı-sa-

nı bir qorxuya dönüb qonşu, rəqib əyalətlərin, ölkələrin başçılarına titrətmə gətirirdi. Onlar cəsarət edib hələ azacıq bir ərazinin sahibliyini qoruyub-saxlayan Bayandurlar nəslinin üstünə gedə bilmirdilər. Hər kəs istəyirdi, digəri irəli düşsün. İtən qüvvə, öldürülən əsgərlər, məğlubiyyət anında dağıdılan mülklər də başqasının olsun. Bir kimsə beləcə cəsarətə gəlib irəliyə dura bilmirdi. Ancaq indi Bayandurlar nəslinin günəşi qüruba enmişdi. Bu güclü nəsil indi özü-öz içindən parçalanmışdı. Əlbəttə, narazı qüvvələr tezliklə üz-üzə gələcəkdi. Fərqi yoxdur, qardaşlardan hansının məğlubiyyəti olur-olsun, bu, digər tərəfin də gücdən düşməsi olacaqdı.

Adın-sanın, şöhrətin bir dönən üzü var. Və Cahangir Mirzə yaxşı başa düşürdü ki, deyəsən, qürub etməkdə olan onun günəşidir. Və o öz səhvinin ucbatından bütün Bayandurlar nəslinə bəla gətirmişdi. Bir tərəfə baxanda gərək onu heç bağışlamayalar. O, Sələbiyyə xanın hiylə toruna düşdüyü üçün özünü qınamaqdan, özünü təkrar-təkrar lənətləməkdən yorulmurdu: «Axı məni nə vadar elədi? Mənim topladığım sərvətin haqq-hesabını çəkən yox idi. Bütün bəyliyə gələn karvanların yarısı yüklərini mənim bazarlarıma boşaldır, qazanılan sərvətin az qala çoxu mənim xəzinəmə axırdı. İşi bu yerə axı mən özüm gətirib çıxarmışam. Eh, nə bilim… baxaq görək, qəzanın qədəri nə gətirir? Bəlkə anam, qardaşım heç mənə dəyib-toxunmadı. Elə bu balaca əyaləti – bu Diyarbəkirin ətrafı da daxil olmaqla mənim ixtiyarıma buraxdılar. Sonra da əhli-əyalımın buraya gəlməyinə icazə verərlər. Mən də ömrümü elə buradaca sakit bir hücrədə yaşayıb başa vuraram. Kimsəyə də bir zərərim dəyməz».

Bayandurlar nəslinin igidliyi ilə ad çıxarmış, qılınc vurmağı ilə şöhrətlənmiş övladı – Cahangir Mirzə özü öz düşüncələrinə istehza elədi: «Mən nə xam xəyaldayam. Heç Sələbiyyə xan belə bir sakit həyatla barışardımı? Əgər belə bir sakit həyat var isə, elə o özü-özünü təmin edərdi». Həm də bu zaman Sələbiyyə xanın

necə bir tamahkar, necə bir zalım, tülküsifət insan olduğunu da unutmurdu.

* * *

Bəyliyin iqamətgahında Uğur kişinin və Əbdülsəid əfəndinin qayıtması xəbərini hamı bir-birinə muştuluqla çatdırırdı. Bu müdrik insanların hər halda əliboş qayıtmadıqlarına inanmırdılar. Səbəb də bu idi ki, artıq əyalətə düşmən olmuş, qiyam qaldırmış Cahangir Mirzənin və Sələbiyyə xanın tabeliyində olan qüvvələrin sırasında bu adamların hamısının bu və digər dərəcədə yaxın, uzaq qohumları var idi. Hamı yaxşı bilirdi ki, qüvvələr üz-üzə gəlməli olsa, axıdılan qanların ağrı-acısı demək olar, əyalətdən, heç bir ailədən yan ötməyəcəkdi. Fərqi yox idi, ölən və ya öldürən – tərəflərin hər biri bu əyalətin adamı idi. Bu məmləkətdə hansısa ailəninsə çırağı sönəcəkdi, günəşi qaralacaqdı. Kiminsə çərxi çevriləcəkdi, hansı ailədəsə vay-şivən qopacaqdı… Bütün bunların hamısı özgə yerdə yox, elə Amid bəyliyində olacaqdı. Demək, Allaha yalvaran çox idi, təki müharibə olmasın. Təki qardaşlar üz-üzə gəlməsin. Eyni əyalətin adamları bir-birini al-qana qərq etməsin, qırmasın.

Uğur kişinin, Əbdülsəid əfəndinin qayıdışına hamının sevinməsi əslində elə bununla bağlı idi. Əlbəttə, xəbər Sara Xatuna da, Həsən Mirzəyə də çatdığından onlar tez mühüm səfərdən qayıtmış elçiləri qəbul etməyə tələsdilər. Uğur kişi də, Əbdülsəid əfəndi də yol gəlib yorğun olsalar da, demək olar, heç bir yerə dönməmiş, atlarını birbaşa Sara Xatunun iqamətgahına, Uzun Həsənin hüzuruna tez yetmək üçün çapmışdılar. Böyük məsafə qocaları əldən-dildən salsa da, heyləri, taqətləri kəsilsə də, özlərini buraya tez çatdırmaq, gördüklərini, bildiklərini, eşitdiklərini yerli-yataqlı ilə Sara Xatuna danışmağa tələsmişdilər.

Saray qulluqçuları, mühafizəçilər uzaq yol gəlmiş, mühüm səfərdən qayıtmış elçiləri hörmət-izzətlə qarşılayıb, Sara Xatunun

hüzuruna, eləcə də yanında olan Uzun Həsənin görüşünə ötürdülər.

Sara Xatun elçilərin salamını gözləmədən dilləndi: «Şadam ki, sağ-salamat qayıtmısınız» – bu ağıllı və müdrik qadın sözlərini təsadüfi demirdi. Bilirdi ki, qocalar Sələbiyyə xanın fitnə-fəsadına tuş gələ bilərdilər. Onları nəinki qarşılayanda öldürtdürər, lap elə geriyə yola salıb, başlarını əkərdi. Sara Xatun indi sevinirdi ki, qocalar sağ-salamat qayıtmışdılar. O da Diyarbəkir əhalisinin, lap elə Sələbiyyə xanın, Cahangir Mirzənin buradan yığıb apardığı qüvvələrin əhvalını öyrənə biləcəkdi. Sara Xatun hərbçi olmasa da, uzun illər qayınatası Qara Yuluq Osmanın sarayında baş verənləri yaxşı müşahidə eləmiş, bir sözlə, siyasət elmini tamam – kamal mənimsəmişdi. Yuxu yozmaq, kiminsə səbir gətirməsi, ya bəlkə hansı bir xoşagəlməz hadisəni uğursuzluq əlaməti kimi qəbul etmək… bu cür mistik düşüncə Sara Xatuna yad idi. O, real həyatı müşahidə edir, hər hansı bir məsələnin həllində insanların dillərində dediklərindən çox, düşüncələrində nə qərar qəbul etdiklərini bilməyə üstünlük verirdi.

İndi də bu kişiləri danışdırmaqla – bu o demək deyildi ki, Sara Xatun Uğur kişini, ya Əbdülsəid əfəndinin səmimiyyətinə inanmırdı, yox, o, qocaları yaxşı tanıyırdı. Bilirdi ki, son nəfəslərinə qədər Qara Yuluq Osmanın xanədanına, eləcə də Sara Xatuna sadiq adamlardılar – əsl həqiqəti həm onların danışdıqlarından, həm də hisslərindən, həyəcanlarından, lap elə hər hansı bir məsələyə münasibətlərini bir sözlə, doğrunu-düzgünü onların üzlərindən, gözlərindən oxuyacaqdı.

– Məmləkətin anasına salamlarımız və xeyir-dualarımız tükənməzdi. – Bunu Əbdülsəid əfəndi dedi.

– Allah bu məmləkəti onun üzünün nuruna bağışlasın – bunu da Uğur kişi söylədi.

– Allah sizin kimi ağıllı insanları qorusun. – Sara Xatun hər ikisinə bu cavabı ilə hörmətini çatdırdı. Sonra sözünün gerisini

dedi: – Mən bilirəm, siz çox yorğunsunuz. Yolda da necə əzablar çəkdiyinizi təsəvvür edirəm. Elə sizin salamat gəlməyiniz məni bərk sevindirir. Ancaq məmləkətin mənafeyi naminə məcburam ki, sizi elə indi yorğunluğunuz canınızdan çıxmamış dinləyim.

Uğur kişi Əbdülsəid əfəndiyə baxdı. Yəni bu o demək idi ki, söhbətə o başlasın.

Əbdülsəid əfəndi əvvəlcə əlini saqqalına çəkib astaca bir tumarla düz sinəsində saxladı. Bir də Sara Xatuna təzim elədi. Həsən Mirzəyə də ehtiramını bildirdi. Sonra asta-asta sözə başladı:

– Bəri başdan deyim ki, Cahangir Mirzənin canı, başı salamatdır. Diyarbəkirdə də yerli ağalarla Ağur xanla aralarında bir münaqişə olmayıb. Əslində, ciddi gərginliyə bir səbəb də yoxdu. Çünki Ağur xan Bayandurlar nəslinin təmsilçisi Cahangir Mirzəni hörmətlə qarşılayıb. Özünün də, bütün bəyliyin də bu günə qədər təhlükəsizliyinə yeganə təminat kimi Sara Xatunu və Amid bəyliyini göstərib. Əslində, əvvəlcə Ağur xan hesab edib ki, Diyarbəkirə qədəm basmış dəstəni Sara Xatun özü göndərib, amma tezliklə məsələdən hali olub. Ən yaxşısı odur ki, o, Cahangir Mirzənin bəsirət gözünü açıb, ona başa salıb ki, tutduğu yolun elə bir faydası olmayacaq. Yaxşı olar, Cahangir Mirzə anası və qardaşı ilə barış yolu tutsun.

Əbdülsəid əfəndi sözünə ara verdi, dayanıb Sara Xatunun nə deyəcəyini gözlədi. Bu zaman Uğur kişi dilləndi:

– Biz bu qənaətlərimizi Ağur xanın özü ilə söhbətində, eləcə də Cahangir Mirzə ilə təklikdə görüşümüzdə də yəqin etdik. Açığı, Cahangir Mirzənin peşmanlığını hiss elədim. O, inanıb ki, tutduğu yol düz deyil, ancaq geriyə qayıda bilmir. Bunun çoxlu səbəbləri var.

Deyəsən, Sara Xatun qocaların əsas məsələni gecikdirmələrindən darıxdı. Ona görə də bir növ onları tələsdirmək üçün əsas mətləbə keçmələrini istədi.

– Bəs Cahangir Mirzənin hər hansı xahişi və ya bir tələbi varmı?

– Əlbəttə var, məmləkətin anası. – Qocaların hər ikisi yenə sözləşiblərmiş kimi birdən dilləndilər. – Biz də elə bunu üzə çıxarıb sizə çatdırmaq üçün özümüzü bura yetirmişik.

Sara Xatun ürəyində Allahına yalvardı ki, kaş oğlu üzrxahlıqla, peşmanlıqla geri dönəcəyinə izin istəsin.

* * *

…Təbib getdi. Elə bil ki, dünyanın bütün qaranlıqlarını da özündən sonra evin içində qoyub yola düşdü. Dürdanənin atası da, anası da bu qaranlığın ağuşunda neyləyəcəklərini, hansı tərəfə gedəcəklərini də bilmirdi. Onlara elə gəlirdi ki, ev bütünlüklə qaranlığa bürünmüşdü. Dürdanənin yanıb-sönməkdə olan şama bənzər simasının saralan işığı qaranlığa bələnmiş evin bir küncündə güclə sezilirdi. Əgər Dürdanənin simasından gələn bu azacıq yanıb-sönən işıq olmasaydı, bəlkə onun atası da, anası da evin içində əllərini qabağa uzadıb kor əl ağacına söykənən kimi bilməzdilər hansı səmtə gedirlər. Amma bu azacıq da olsa sezilən işığın batmaqda olan günəşin işığı kimi nuru onlara bir-birini görməyə kömək eləyirdi. Əlacsızlığın, çarəsizliyin, imkansızlığın və ən başlıcası, ümidsizliyin gətirdiyi hədsiz kədər və qaranlıq artıq orta yaşlarını keçirməkdə olan atanın və ananın varlığına hopmuşdu. Elə həqiqətən əllərini qabağa uzadıb hara gedəcəyini bilməyən kor kimi – dünya işığından məhrum kimsələr tək bu ata, bu ana bir-birilərinə tərəf yeridi. Bəlkə onlar heç bir-birilərini görmürdülər. Bəlkə də bir-birinin hənirinə yeriyirdilər. Və bir an keçmiş-keçməmiş ata ilə ana əllərini uzadıb bir-birinə toxundurdu. Bəlkə lap qızlarının otaqda olduğunu, necə böyük intizarla onlara baxdığını unutdular. Əlləri ilə bir-birini tutdular və qeyri-ixtiyari qucaqlaşdılar. Elə bu zaman bəlkə də ömürlərində ilk dəfə övladlarının yanında həmişə abır-ismət gözləyən bu ata-ana sonsuz bir istəklə bir-birinin boynuna sarıldılar. Az keçməmiş onların dərindən gələn bir yanğı ilə hönkürtülərini – ağladıqlarını otağın

bir küncündə səssiz-səmirsiz daxilindəki həsrətin yanğıları ilə bəlkə də ömürünün son anlarını yaşayan, ümidin qırılmışlığında dayanıb, gələcəyin qaranlığına boylanan, həyatının keçmişindəki işıqları varlığında daşıyan qızın – Dürdanənin nəzərlərini xoş duyğularla oxşayırdı. Qız ata-anasının timsalında həm dərdin ağırlığını görürdü, həm də eyni zamanda çətin anda ümidsizliyin qırılan məqamında insanın insana necə dayaq durduğunu müşahidə edirdi. Dürdanə bu anlarda həqiqətən xoş duyğular yaşayırdı. Heç olmasa, gözlərinin qabağında dərddən sarsılıb, ümidsizlikdən, çarəsizlikdən inləyən bu insanların bir-birinə necə simsar olduğunu görmək ona xoş təsir göstərirdi.

Dürdanə üçün yaşamağın artıq heç bir dəyəri qalmamışdı. Ancaq onun hər tərəfi aydınlığı ilə görən bəsirəti vardı. Atasını, anasını bir küncə çəkib, məsləhət verən təbibin də dediklərini ucundan, qulağından güclə eşitsə də, bunun nə olduğunu artıq anlaya bilmişdi. Bir də orası var idi ki, elə atası da, anası da onun özündən soruşsaydılar ki, axı sənin dərdin nədir, biz sənə necə kömək edə bilərik? Onda Dürdanə özü elə təbibsiz də o həkimin söylədiklərini atasına da, anasına da açıq və aydın deyə bilərdi.

Gərək atası da, anası da Zərrinin bu evə gəlməyinə icazə verməyəydilər. – Dürdanə düşünürdü. Axı Zərrin gəlib-gedəndən sonra fələyin çərxi çevrilmişdi. İştahı küsmüş, ümidləri qırılmış, həyatdan əli üzülmüş kimi olmuşdu. Elə bunu atası da, anası da görə bilərdi. Nə demək olar? Bəlkə də dünyanın ən bəxtəvər insanları kimi bir vaxt, bir zaman bir-birini görüb, tanıyıb, bir-birindən xoşlanıb ailə qurmuş, övlad yiyəsi olmuş və Dürdanə kimi bir qızın illər boyu böyüməyinə fərəhlə baxmış bu atanın, bu ananın bəlkə, heç həqiqi eşqdən xəbərləri də yox idi. Hər halda Dürdanənin gözlərinin qabağında bir-birinə sarılmış bu adamların dünyanın gəldi-gedərindən qədərincə məlumatları vardı.

Onlar heç nəyi bir-birinə izah eləmədən, nəyin yaxşı, nəyin pis olduğunu dilə gətirmədən, səssiz, sözsüz biri digərilə danışa bilir-

di. Onlar artıq sözə lüzum görmürdülər. Hönkürtü ilə ağlayışla bir-birini dindirirdilər. Əlacsızlığın, çarəsizliyin nə demək olduğunu ancaq elə bu cür dilə gətirmək olardı.

…Şeyx Məhyəddin söhbətinə ara verdi. Bir kimsənin cınqırı çıxmırdı. Heç kim dillənmirdi. Hər kəsə elə gəlirdi ki, Şeyxin danışdığı hekayə «Min bir gecə» nağılları kimi uzandıqca, Qazinin də ömrü uzanır. Qazi heysiz canı ilə, tərpənmək iqtidarı olmayan bədəni ilə Şeyxin də, Qazinin özünün qohum-əqrabasının da gözünün qabağında uzanıb qalmışdı. Qazi aydın düşüncəsi ilə Şeyxin hekayətini maraqla dinləyirdi. Onun hekayətinin acı sonluğunu gözləyirdi. Hərçənd ki, ölü bədənindəki, ayıq düşüncəsindəki duyğusu ilə ədaləti hökm eləyirdi: «Kaş, zamanı geri çağırmaq olaydı, mən onda bilərdim, neyləyərdim», – düşünürdü. Eyni zamanda baş əyanın bir vaxt onun yanına gəlib təbibə ölüm hökmü istəməsini xatırlayırdı. Ancaq orası yadına gəlmirdi ki, şəriət məhkəməsinin hökmü ilə qazilər təbibi hansı cəzaya məhkum elədilər.

Qazi əhvalatın gerisini nə qədər dumanlı xatırlasa da, sonluğunu yaddaşında bərpa eləyə bilmirdi. Əgər imkanı olsaydı, əlinin tərpənişi ilə Şeyxə deyərdi ki, buyur, söhbətin gerisini, mabədini sən danış. Bunu deməyə taqəti çatmırdı.

Qazi daxilən elə bir sarsıntı keçirirdi ki, aydın düşüncəsinin təsiri altında gücsüzlüyünü anlayır, ancaq heç nə eləyə bilmirdi. Dili tərpənmirdi ki, bir hökm versin. Lap elə heç olmasa, bircə qurtum su istəsin.

Qazinin əli yerdən-göydən üzülmüşdü. Onun bircə ümid yeri o idi ki, qonşu məmləkətlərin çarə istədiyi Şeyx Məhyəddinin sədaqətinə, elminə, biliyinə, insanlığına bel bağlayırdı. Şeyx Məhyəddinin tələsmədən, heç bir əlahiddə tədbir görmədən sakit-sakit danışmağı Qazinin aydın şüurunda belə bir əks-səda verirdi ki, demək, ümidlər ölməyib. Əgər Qazinin təzədən həyata qayıdışı olmasaydı, onda Şeyx Məhyəddin elə bu andaca bu yığınca-

ğı tərk edərdi. Bəlkə də qapının arxa tərəfində onun doğmalarını yanına çağırar, Qazinin bu yoldan qayıtmayacağını bildirər, hələ üstəlik, divanın da başsız qalmaması üçün məsləhətlər verərdi.

Şeyx Qazi Bürhanəddinə sadiq adam idi. Qazi çox doğru düşünürdü ki, əgər belə bir hadisə olsaydı və yaxud belə bir ümidsizlik gözlənilsəydi, onda heç şübhəsiz, Şeyx Qazinin oğlu Elməddini təkliyə çəkər, ona artıq uşaq olmadığını xatırladar, gecikmədən divanı çağırıb, başçılıq eləməyi məsləhət görərdi. Yarım ölüm yatağında olan Qazini bu qədər dərdin, kədərin içərisində sevindirən də bu idi ki, o, hələ başının üstündə Şeyxin aramla danışığını eşidirdi. Onu dinləyirdi. Qazidə get-gedə tam bir inam yarandı ki, o, əbədisükut vadisinə gedən yolda deyil. Tezliklə gücünü də, qüdrətini də qaytaracaq, ayağa qalxacaq, kimin kim olduğunu özünə göstərəcək. Şeyx Məhyəddin isə danışırdı…

…Dürdanənin atası səhərin açılmağını gözləyirdi. Evdən çıxıb başılovlu divana tərəf yürüdü. O, divanda kimi görəcəkdi? Sultan Qazi Bürhanəddinin hüzuruna düşmək, onunla üzbəüz olmaq üçün neçə gün gərək baş iqamətgahın qabağında yataydı. Neçələri gəlib onu danışdırmaq istəyəcək, işinin nədən ibarət olduğunu, tələbinin mümkünatlığını öyrənməyə çalışacaqdı. Lakin bu kimsələrin hər hansı birindən ona bir kömək olacaqdımı? Dürdanənin atası bunu bilmirdi. Daha doğrusu, heç inamı yox idi, Qazidən başqa bir qeyri-kimsənin ona köməyi dəyə bilməzdi. Elə yolun yarısındaca ağlına gəldi, bəlkə elə baş əyanın özünün yanına getsin. Ona yalvarıb-yaxarsın. Axı onsuz da Dürdanə onun evində adi bir qulluqçu idi. Belə olan təqdirdə kişi bütün varının hamısını – davarını, inəyini, lap elə bir parça torpaq sahəsini də verməyə razı olardı. Təki baş əyan onu başa düşəydi. Oğlundan tələb edəydi ki, Dürdanəni şəriətə əsasən boşasın, azad buraxsın. Onun üstündə daha hökm eləməsin.

Dərd elə burasındaydı. Bu kasıb kimsə – bircə qızını gözlərinin od-alovları ilə böyütmüş bu kişi onu bilmirdi ki, baş əyanın özü

də bu məsələni asanlıqla həzm edə bilməzdi. Çünki onun izzəti-nəfsinin qabağında qızın taleyi nə idi ki? Bu qız lap elə kim olur-olsun, hələ onun oğlunun kəbinli arvadı olduğu halda, necə başqasının eşqi ilə yaşaya bilərdi. Çünki artıq sarayda da, bütün elatda da belə bir söz-söhbət gəzirdi ki, kasıb bir kişinin qızı baş əyanın oğlunu bəyənməyib, kəbinli arvadı olduğu halda, bir qeyrisinin eşqini başında havaya döndərib, dərdindən xəstə düşüb. Və indi də atası gəlir ki, bu baş əyanın oğlu onun qızını boşasın ki, o da öz eşqini başında havalı-havalı gəzdirsin. Elatın qızlarının arasına qoşulsun. Qız-gəlinin içində eşqinə sadiqliyi car eləyən nəğmələr desin.

Həqiqətən də Dürdanə hələ elə əyan oğlunun evində olanda artıq bir qulluqçu kimi küncdə boyun büküb, özünə qısılıb, gecələr səhərə qədər göz yaşı tökə-tökə qəmli nəğmələr oxuyurdu. O nəğmələrin, onun çağırdığı bayatıların demək olar, çoxu artıq dillər əzbəri olmuşdu. Kənddə-kəsəkdə, elat içində biri dərdinin nə demək olduğunu bildirmək üçün daha ayrı söz axtarmırdı. Elə Dürdanənin nəğmələrindən birini avazla yadına salırdı. Sevgilisindən ayrı düşmüş qızın belə bir qəmli nəğmə oxuması bəs idi ki, camaat o saat desin ki, bunun dərdi Dürdanənin dərdindəndir.

Dürdanənin atası indi yolunu dəyişmişdi. Fikri baş əyanın qapısına getmək idi. Bu qapıya hansı ümidlə gedirdi? Onu dumanlı şəkildə anlayırdı. Amma oradan necə qayıdacaqdı? Onun ümidləri qırılacaqdımı? Qızının yeganə həyat işartılarını öz hökmlərilə bu məmləkətin sahibi olan kimsələr daha da işıqlandıracaqdımı, yoxsa o sonuncu işartını qəddarlıqla, insafsızlıqla üfürüb söndürəcəkdilər? Bax, bunu bilmirdi. Dürdanənin atası yeriyirdi, hiss eləyirdi ki, elə bil ayaqlarına vurulmuş qandalaq hələ üstəlik, bu qandalaqdan asılmış ağır kündələr onun ayağını yerə bağlayır. Addımlarını daşa döndərir. Bir sözlə, yeriyə bilmirdi. Sonra heç özü də bilmədi ki, səhərin gözü açılar-açılmaz necə

olub ki, gəlib bu baş əyanın qapısına çatıb, heyi-taqəti də kəsilib. Elə bu vaxt çöl qapılar açıldı. Baş əyan həmişə yanında olan adamların müşayiətilə enli qapıdan çıxdı. Kimsə düz yolun ortasında dayanmış bircə gecənin içərisində saçı-saqqalı ağarmış, çiyni düşmüş, beli bükülmüş, illərin ağırlığını içində yaşayan bir qocaya dönmüş bu adamın nə istədiyinin fərqinə varmadan irəli yeriyib, onu kənara çəkmək istədi.

Kişini hansısa yoldan keçən, bir sədəqə yığan yolçu zənn eləmişdilər. Ancaq əslində, Dürdanənin atası varlığından yox olmuşdu, gücü, taqəti tükənmişdi. Onun gücünü, taqətini tükədən elə ümidsizliyə qapılması idi. Hələ arada düşünmüşdü ki, bəlkə heç bu qapıya gəlməyəydi? Bəlkə heç məsələnin nə yerdə olduğunu Əyan oğlunun atasına deməyəydi? Çünki onların bir misqallıq insanlıqları olsaydı, aylardan bəri saralıb-solan, bənizindən sonuncu həyat işartısı çəkilməkdə olan Dürdanənin arxasınca Zərrini göndərməzdilər. Axı onlar üçün bir kəniz nəmənə idi ki, hələ üstəlik artıq o kənizin bir qulluq göstərmək gücü, qüdrəti də yox idi. Sonuncu taqəti də üzülmüşdü. Bəs onda bu adamlara nə lazım idi? Demək, bir məmləkətin taleyini həll eləmək gücündə olan bu baş əyanın özü də bir insan hissinin, duyğusunun nə demək olduğunu anlamaq iqtidarında deyildi. Yox, çətin ki, bu adamdan iynənin ucu boyda yaxşılıq gələydi. Baş əyanın mühafizəsini, onun can qoruyuculuğunu gözləyən adamlar artıq kişinin ətrafına toplaşmışdılar. Və həm də əvvəlki görkəmini çoxdan itirmiş bu adamın kimliyini də bilmişdilər. Bu, baş əyanın oğlunun əvvəlki qayınatası idi. Nə istəyirdi? Bura niyə gəlmişdi? Elə bu suallara cavab da onları karıxdırmışdı. Nə kişini bir tərəfə itələyə bilirdilər, nə də qabağa buraxırdılar. Başqası olsaydı, asanlıqla yoldan kənara çəkər, heç onun ağzını açmağa da imkan verməzdilər. Yolu-yolağanı bağlayıb, baş əyanı saraya gedən istiqamətə ötürərdilər. Lakin indi məsələ başqa cür idi. Bəlkə birdən baş əyan kim olduğunu tanıyar, özü onu yanına çağırar, bəlkə özü yaxına gedər?

Onun nə istədiyini soruşar. Bəs onda nə cavab vermək olar? Bu səbəblər üst-üstə yığılıb baş əyanı mühafizə edənləri darıxdırır, bir nəticəyə gəlməyə mane olurdu.

Dürdanənin atası başını qaldırıb, düz onun yanından keçməkdə olan baş əyanın gözlərinin içinə baxdı. O gözləri ilə artıq baş əyana nəyi deməyin mümkün olduğunun hamısını çatdırmışdı. Axı onlar eyni kənddən idilər. Bir vaxt, bir zaman eyni ərazinin bulaqlarından su içmiş, dağlarında gəzmiş, eyni məkanın yolu ilə səhər evdən çıxıb yaylağa getmiş və elə həmin yolla da evlərinə qayıtmışdılar. Uşaqlar arasında hərdən dava-dalaş olardı və Dürdanənin atasının o vaxt od-alov kimi qığılcım saçan gözləri həmişə həqiqətin tərəfində durardı. Və indi artıq məmləkətin baş əyanı olan bu kimsənin qonşu məhəllənin uşaqları tərəfindən döyülməyinin qabağını alardı. Çox olmuşdu ki, cavanlar Dürdanənin hələ o vaxt qolu qatlanmayan gənc olan atasının hökmü qabağında heç nə deyə bilməmişdilər. Dodaqlarını çeynəyə-çeynəyə geri çəkilmişdilər: «Get, bu dəfə səni qurban elədik, özün bilirsən kimə. Gələn dəfə baxarsan», – demişdilər.

İndi Dürdanənin atası kimsəsizliyin, çarəsizliyin, ümidsizliyin girdabından boylanan gözləri ilə qızının artıq keçmişdə qalmış qayınatasına, daha doğrusu, özünün uzaq keçmişdə qalan dostuna – gəncliyini bir yerdə keçirmiş olduğu həmkəndlisinə elə bunları deyirdi. Baş əyan heysiz, taqətsiz, yarı bükülmüş dizləri üstə əyilmiş bu adamın gözlərindən elə həmin o uzaqda qalmış keçmişi oxudu. Sarsıldı, bəlkə hiss olunmadan bir az geriyə çəkildi. O ömrü boyu çox adamlar görmüşdü. Hətta ölüm hökmü verilmiş adamların gözlərinə baxmışdı. Yalnız nifrət, yalnız qəzəb oxuyan gözlər də görmüşdü. Amma indi düz gözlərinin içinə baxan bu fağır, dünyadan əli üzülmüş bu adamın gözləri çox şeydən danışırdı; onun həyatının olub-keçənlərinin hamısını…

* * *

Künəgünün atı kişnəyəndə Sələbiyyə xanla Cahangir Mirzə üzbəüz oturmuşdu. Son günlərin hadisələri onların hər ikisində özlərinə bir qapalılıq, hər kəsdə özünə çəkilmə yaratmışdı. Nə Cahangir Mirzə Sələbiyyə xanla danışmaq, onunla üzü gələcəyə doğru baş verəcək olayları müzakirə etmək, bir sözlə, talelərinin necə olacağını sözə çəkmək istəmir, nə də Sələbiyyə xan buna heç həvəs göstərmirdi. Əslində, onların hər ikisi düşüncələrində olub-keçənləri təkrar-təkrar çözələyir, çıxış yolunun nədə və harada olduğunu öyrənməyə çalışırdılar. Ən əsası, Cahangir Mirzə üzə vurmasa da, gizlində Sələbiyyə xana nifrinlər yağdırırdı. Get-gedə hiss etmişdi ki, o, elə bir tora düşüb ki, bu torun ilgəyi Sələbiyyə xanın əlindədir. O, istəsə bu ilgəyi açar, istəməsə, Cahangir Mirzəni bu torun içərisində vurnuxa-vurnuxa qoyar.

O da günbəgün yazıqlanar, bir çıxış yolu tapmaz, geriyə yolları tamam bağlanar. Bu da Həsən Mirzəni elə qəzəbləndirər ki, heç Sara Xatun da qabağını ala bilməz. Hərçənd ki, Sələbiyyə xan Diyarbəkirdə qüvvələrin qədərincə olmadığını görəndən sonra özü də geriyə yollar axtarırdı. Elə yol axtarırdı ki, onun özünün təhlükəsizliyinə təminat olsun. Yəni Sara Xatun oğlu Cahangir Mirzəni Uzun Həsənin caynağından qoparıb Sələbiyyə xanın boynunu onun qılıncının altına verməsin. Təəssüf ki, hadisələrin sürəti zamanın darıxdırıcılığını, iki özünəgüvənən güc sahibinin intizarını aradan götürə bilmirdi. Onlar yeganə ümidlərini ona bağlamışdılar ki, bəlkə Sara Xatunun məsləhətilə Uzun Həsən Diyarbəkirə kiçik müstəqillik versin, buraya hücum etməsin, hələ üstəlik, Diyarbəkiri hədələyən Cahanşah qüvvələrinə, hətta Osmanlıların təhdidlərinə tələblər qoysun ki, onlar Diyarbəkirə toxunmasınlar. Nəticədə Cahangir Mirzə ilə Sələbiyyə xan burada başlarını sağ-salamat saxlasınlar. Əgər əmin-amanlıq olardısa, Cahangir Mirzə də köç-külfətini – ona yaxın olan doğmalarını buraya köçürüb gətirərdi. Ömrünü də elə Diyarbəkirin qala divarları arasında balaca əyalətin böyüyü kimi başa vurardı.

Amid bəyliyindən ayrılıb gələndə onların ixtiyarında olan süvarilərin də tələbləri bundan ibarət idi ki, ya müharibə olmalı, Həsən Mirzəyə qalib gəlməli, yenidən əraziləri birləşdirməklə öz doğmalarına qovuşmalıdırlar, ya elə bir sülh şəraiti yaradılmalıdır, adamlar dədə-baba yurdlarına, qohum-əqrəbalarının yanlarına, bir çoxları isə ailə üzvlərinə qovuşa bilsinlər, get-gəl asanlaşsın. Vəziyyətin bu cür zaman keçdikcə dolaşması Cahangir Mirzəni bir az da çaşbaş salmışdı. Amid bəyliyindən bir xəbər gələnəcən, Cahanşahın nizami ordusu buralara hücum etsəydi, bu bir ovuc süvari ilə onların qabağında necə duracaqdı? Onsuz da Osmanlılar bu əraziləri zaman-zaman gözətləyir, tez-gec bu torpaqları öz torpaqlarına qatmağı düşünürdülər. Bunu heç gizlətmirdilər də…

– İndiki halda səbir etməkdən başqa bir çarəmiz yoxdur. – Sələbiyyə xan Cahangir Mirzənin narahatlığını gözlərindən oxuyurdu. Həm də başa düşürdü ki, əgər dillənib bir söz deməsə, onda Cahangir Mirzə Sələbiyyə xan haqqında daha bədgüman fikirlərə qapılardı.. Bunu Sələbiyyə xan artıq yaxşı anlayırdı. Onsuz da hiss etmişdi ki, Cahangir Mirzə əvvəlki iradə və inamla sözünün üstündə deyil, peşmanlığı qədərincə bilinir.

– Günlərin necə keçəcəyini hələ dəqiq bilməsək də, bir iş də görə bilmərik. Doğru deyirsən, səbir lazımdır. – Cahangir Mirzə öz növbəsində Sələbiyyə xana cavabında onunla razılaşdığını bildirdi.

Bəlkə də onlar açılışıb daha geniş mətləblərdən danışmaq istəyəcəkdilər. Ancaq Künəgünün atının kişnərtisi onların hər ikisinin diqqətini özünə çəkdi. Sanki, qəfil göy guruldadı, şimşək çaxdı. Nədənsə, elə hər ikisində bir vahimə hissi baş qaldırdı. Axı, onlar uşaqlıq çağlarından üzü bəri atla ünsiyyətdə olmuşdular. Atın oxranmağını, fınxırmağını, həyəcanlı kişnərtini çox dinləmiş, görmüş, müşahidə etmişdilər. Bu səbəbdən də yaxşı bilirdilər ki, nabələd at ümumi bir yoldan, məqsədli-məramlı gedişdən dayanıb adamların sıx olduğu yerə dönəndə belə həyəcanla kişnəyər,

aşıb-daşar. At bu kişnərti ilə sanki sahibini xəbərdar eləyir ki, yəni buralar bizlik deyil.

Ordugahın bir tərəfində saxlanan atlardan da kişnərtiyə əks-səda verəni oldu. Sələbiyyə xan da, Cahangir Mirzə də cəld ayağa qalxıb ordugaha tərəf getdilər. Atın üstündə balacaboy bir kişi yırğalanırdı. Yəhərdən bir az yuxarı idi boy-buxunu. Ayaqları üzəngiyə güclə çatırdı. Cahangir Mirzə hələ onun sifətini görməmiş kimliyini təyin edə bilməzdi. Amma Sələbiyyə xan bir az diqqətlə baxıb:

– Bu ki, bizim Künəgüdü – dedi.

– Hansı Künəgü?.. – Cahangir Mirzə təəccüblə soruşdu. Ad da ona qəribə gəlmişdi. Və təzə gələn süvarinin özünü hələ tamam tanıya bilməmişdi.

Cahangir Mirzə son vaxtlar yaxşı yata bilmədiyindən başında bir ağrı hiss edirdi. Onu da duyurdu ki, gözləri sanki zəifləyib. Qabaqlar orduda olan hər bir dəstəbaşını, hətta onların tabeliyində olan sıravi süvariləri belə yaxşı tanıyır, kimin kim olduğunu fəhmlə dərhal seçirdi. Hətta hansı dəstədə Bayandurlar nəslində kimlərin olduğu, yaxud Salurlardan kimlər var – təyin eləməkdə çətinlik çəkmirdi. Digər tayfa və nəsillərin də ayrı-ayrı nümayəndələrini yaxşı tanıyır, bəzən dayanıb onları söhbətə çəkir, kimin hansı səbəbdən orduya yazıldığını, könüllülüyünü, məcburiyyətini öyrənirdi.

Onun zənninə görə, – bu barədə Sələbiyyə xana da həmişə deyirdi – gərək sərkərdə orduda hər bir döyüşçünün hansı qayğı və istəklə qulluq etdiyini yaxşı bilsin. Yeri gələndə döyüşçünün ailəsinə – əgər ehtiyac varsa, əlavə kömək, yardım göstərilməlidir. Onda həm döyüşçünün ailəsi doğmasının döyüşdə olmasından fəxarət duyar, həm də döyüşçü özü lap həlak olma anında belə doğmalarının kimsəsiz, başsız qalmayacağına inanar. Nəticədə qorxmazlığına, gücünə güvənər. Şübhəsiz, belə döyüşçü üçün qələbəni qazanmaq da çətin olmazdı.

Cahangir Mirzə Künəgünü tanımadığına görə, daxilən özünü qınasa da, bunu büruzə vermədi. Yaddaşını oyatmağa, bu adamın kimliyini aydınlaşdırmağa çalışdı. İlin-günün bu çağında Amid bəyliyindən kim başını götürüb bura gələrdi? Axı Cahangir Mirzəyə tam aydın idi, bu yolun uğursuzluğu haqqında Amid bəyliyində kifayət qədər söz-söhbət olub – adamları artıq çoxdan inandırıblar ki, Cahangir Mirzənin Sələbiyyə xanla yürüşü elə bəri başdan uğursuzluğa məhkumdur. Bəyliyin nə qədər sərvətini talayıb aparmış olsalar da, apardıqları qızıl-gümüşlə – bir sözlə, əllərində olanla çətin ki, yeni qüvvələr toplaya bilsinlər. Müvəqqəti apardıqları ilə yalnız ixtiyarlarında olan qüvvələri saxlaya bilərlər. Tez-gec onlar ya quldurçuluğa, yolkəsənliyə başlamalı, ətrafı – dinc əhalini soyub-talamalı, ya da çoxdan rəncbərlikdən ayrılmış suvariləri ətraf kəndlərdə yerləşdirib talelərini onların öz ixtiyarına buraxmalı idilər. Bütün bunları Cahangir Mirzə anlayırdı. Və anladığı üçün də bu Künəgü adlı kimsənin – lap elə Sələbiyyə xanın xidmətçisi olsun – buraya təsadüfi gəlmədiyini başa düşmüşdü. Ancaq bilmirdi ki, Sələbiyyə xanın xidmətçisi bəlkə, orada olan Sələbiyyə xan tərəfdarlarının biri tərəfindən göndərilib, ya da bəlkə, ortada başqa məsələ var? Hər halda, Cahangir Mirzənin ağlına gəlmirdi ki, Künəgünü buraya Sara Xatun yollaya bilər və özü də hansı məqsədlə.

Künəgü atdan düşdü. Yaxınlıqdakı döyüşçülərdən biri onun atının yüyənindən tutub kənara çəkdi. O, qabağa gəlib əvvəlcə Sələbiyyə xana, sonra Cahangir Mirzəyə baş endirdi.

– Ağa, elimizdən-obamızdan salam gətirmişəm. – Künəgü bu sözləri Cahangir Mirzəyə dedi. Ancaq sözünün gerisini bitirməmiş Sələbiyyə xana tərəf döndü. – Mən sizsiz orada yaşaya bilməzdim. Elə bil ki, çaydan bir balığı tutub kənara atmısan çabalayır, can verir. Siz burada, mən orada – məni başa düşün! Qabağa yeriyib Sələbiyyə xanın hər iki əlini öpüb gözlərinə yaxınlaşdırdı. Bununla da Sələbiyyə xana demək istəyirdi ki, bütün varlığımla

yenə sənin ixtiyarındayam. Künəgü özü Sələbiyyə xanın qulluğunda hiyləgərlik dərsi almışdı. O, Sələbiyyə xana sədaqətini bildirsə də, Cahangir Mirzəni də yadından çıxarmır, tez-tez ona da qılıq göstərir, başını əyməklə hörmət-ehtiram bildirirdi.

Sələbiyyə xan gözlərini qıyıb Künəgüyə diqqətlə nəzər yetirdi:

– Olmaya kimsə səni bir tapşırıqla göndərib? Bəlkə, bizə deyəsən?

– Xan, başına dönüm, mən kimə lazımam? Sən olmayandan sonra mən aralıqda qaldım. Sən özün məni kəndlərə göndərmişdin. Qayıdıb gələndə sizi görmədim. Neçə gün heç evdən bayıra çıxmadım. Bilmirdim, başıma haranın külünü töküm? Axır ki, gördüm dünya mənə dar gəlir. Elə evimdən də başımı götürüb qaçdım. Balalarım kimin ümidinə qalacaq, – bilmirəm. Bacarsaydım, onları gətirərdim.

Sələbiyyə xanın diqqətli nəzərləri altında danışan Künəgü sözləri üyüdüb tökürdü. Əvvəlini-axırını gözləmədən ağzına nə gəldi, danışırdı. Oralarda vəziyyətin gərgin olmağından, hər yerə Uzun Həsənin adamlarının nəzarət etməyindən, Sara Xatunun bəyliyin bütün ağsaqqallarını yığıb məşvərət etməyindən – hamısından nəfəs dərmədən danışırdı. Nəyin lazım olub-olmadığının fərqində deyildi. Cahangir Mirzə onun danışığından darıxdı. Doğrudur, ayrıldığı el-obası, qohum-əqrəbası haqqında eşitdiyi sözlər onu təsirləndirirdi. Amma qohum-əqrəbadan əvvəl başqa məsələ barədə Künəgünü sorğu-suala tutdu:

– De görüm, orduya təzə qüvvələr yığılır, ya yox?

– Başına dönüm, ağa, orduya adamlar yığanda gəlib mənimlə məsləhətləşmirdilər ki?! Bircə onu hiss edirdim ki, təzə-təzə dəstələr hərbi təlim keçir. Hər gün qılınc savaşları, ox yarışları təşkil olunur. Qaliblərə mükafatlar verirlər. Adlı-sanlı döyüşçülərin adlarını şəhərdə car çəkirlər. Belələrinin haqqında nəğmələr oxunur, şairlər şeirlər yazırlar.

Əslində, Cahangir Mirzə özünə lazım olan məlumatı tamam-kamal eşidə bilmişdi. Ona görə daha onun nə danışdığının fərqində deyildi. Birdən özünü saxlaya bilməyib yenə nəsə soruşmaq üçün Künəgünün Amid bəyliyi ilə bağlı söhbətlərinin tükənməyini gözlədi. Axır, Künəgü dayandı. Təzədən bir də iki əlini sinəsinə qoyub əvvəlcə Cahangir Mirzəyə, sonra Sələbiyyə xana təzim elədi.

– Sən o qocaların geriyə qayıtmalarını gördünmü?

Künəgü əvvəlcə istədi ki, hansı qocaların, kimlərin gəlişindən-gedişindən söhbət getdiyini soruşsun. Bunun isə yaxşı nəticə verməyəcəyini ağlı tez kəsdi.

– Hə, hə, bildim, hansı qocalardan söhbət gedir. Orada deyirdilər ki, Uğur kişi ilə Əbdülsəid əfəndi buraya gəlib. Ancaq geri dönmələrini görmədim.

– Bu barədə sən heç nə bilmirsən? – bu dəfə Sələbiyyə xan soruşdu.

– Yox, yox, bu barədə başqa bir səhih məlumat bilmirəm. – Künəgü qətiyyətlə, arxayın cavab verdi.

Cahangir Mirzə də, Sələbiyyə xan da başa düşdülər ki, daha bundan soruşulası başqa heç nəsə qalmadı.

Sələbiyyə xan bayaq Künəgünün atını kənara çəkən əsgəri yanına çağırdı.

– Apar bunu ordugahın aşpazlarının yanına. Buna yemək verin, qoyun dincəlsin. Sonra nə vaxt istəsə, bizim yanımıza gələ bilər.

Əlbəttə, əsgər yaxşı başa düşdü ki, bu adamın boyunun belə balaca olmağına baxma, bu, nəsə mühüm sirr adamıdır. Yoxsa, hər an Sələbiyyə xanın, – elə Cahangir Mirzənin özünün də hüzuruna gedib-gəlmək üçün yoldan ötənə ixtiyar verilməz.

Əsgər Künəgünü apardı. Sələbiyyə xan da, Cahangir Mirzə də – hər ikisi onun arxasınca xeyli diqqətlə baxdılar. Bu adamın özü ilə nə gətirdiyini hər kəs özü üçün aydınlaşdırmağa çalışır-

dı. Sələbiyyə xan illərdən bəri yaxşı tanıdığı Künəgünün hələ nə isə demədiyini hiss etdiyi kimi, Cahangir Mirzə də bu adamın təsadüfi – başını saxlamaq adı ilə buraya gəldiyinə inana bilmirdi. Hələ üstəlik, anası Sara Xatunu da xəyalından keçirtdi: «Bəlkə bir tapşırıqla gəlib?» – Cahangir Mirzə bu tapşırığın əgər anası tərəfindən olduğunu dəqiqləşdirə bilsəydi, onda inanardı ki, Künəgü onun xeyrinə işləyəcək. Yox, əgər Həsən Mirzədən – Amid bəyliyinin sultanı, şahı Uzun Həsəndən alıbsa, onda bu tapşırığın kimin xeyirinə olacağı çox şübhəlidir.

Yəqin ki, Həsən Mirzənin adamları onun əyalətdən çıxıb gəlməyini də görüblər. Nə məqsədlə, niyə gəldiyini evinə, ailəsinə deyib-demədiyini… – bütün bunların hamısını it ov iyi ilə axtarış elədiyi kimi izləyiblər.

Sələbiyyə xan düşüncə içində idi: «İllər boyu sədaqətlə xidmət etmiş Künəgü mənim üçün xəyanət xəncəri – ölüm gətirməyib ki?..»

İki adamın qoşa nəzərləri şübhə dolu müəmmalı suallarla Künəgünün dalınca dillənməkdə idi.

* * *

Qazi Bürhanəddin fikir dəryasında üzürdü: Nə üçün o öz məmləkətində adil hökmdar olduğu bir halda insanlar bu qədər narazı idilər? Axı bu insanların narazı olmalarının kökü nədə idi? Qazi düşünürdü, onu dərd götürmüşdü. Doğrudan-doğruya Qazi məmləkətindəki ağıl, ürfan sahiblərinin hamısını gözünün qabağına gətirməyə başladı. Həqiqətənmi o, ağıla görə, düşüncəyə görə qiymət verə bilirdi? Acı-acı pıçıldadı:

*Eşq əri bu dünyadə dilriş imiş,*
*Rəncün içində bu gün dərviş imiş.*
*Geyməkü yeməkdən artux istəmək,*
*Ər kişinün canına təşviş imiş.*

Nə böyük dərd, nə böyük bəla? Qazi Bürhanəddin məmləkətin vəziyyətini gözünün qabağına gətirəndə görürdü ki, o, ağıl sahiblərinə, istedad yiyələrinə yox, ona yaltaqlananların ciblərinə pul basıb, mükafat paylayıb, mal verib… Hələ üstəlik, onların məmləkətdə bütün təhlükəsizliklərinə təminat da yerli-yerində…

…Təbibbaşı Məhyəddin boğula-boğula qalmışdı. Elə bil ki, bir parça şirin, sevdiyi tikə boğazında ilişib qalmışdı. Dinə bilmirdi, danışa bilmirdi. Məhyəddin Qazi Bürhanəddinin hüzurunda səsini çıxarmaq istəmirdi. Ona görə yox ki, o, Qazi Bürhanəddinin ölüm yatağındakı görkəmindən qorxurdu. Yox, Məhyəddinin Qazi Bürhanəddindən qara-qorxusu yox idi, əvəzində öz həyatını ancaq danışdığı hekayətlə hifz eləmək istəyirdi. Qəza da, qədər də onun üçün, sadəcə, öz hekayətini danışmağı ilə bitirdi. Məhyəddinin taleyi eləcə də özünün hüzurunda əyləşən varisi hesab elədiyi gəncin nə deyəcəyini, onun hansı qənaətdə olacağını heç ağlına da gətirmirdi. Onların – nə Varisinin, nə Qazi Bürhanəddinin, nə də onun ətrafında olanların necə bir fikir yürüdəcəklərini, hansı qənaətdə olacaqlarını heç eyninə gətirmirdi. Elə bil ki, Məhyəddinin özü bu zamanədə yaşamırdı. Qısası, söhbət ondan gedirdi ki, Qazi Bürhanəddin Şeyx Məhyəddinin başladığı əhvalatın mahiyyətinə vara bilsin. Ona görə ki, birinci növbədə Şeyx Məhyəddin yaxşı bilirdi ki, Qazi Bürhanəddin indiki halında ixtiyarsız vəziyyətdədir. Yəni ki, bir az keçər, bir xeyli ötər, ayılar. Özünü, ətrafdakıları yaxşı başa düşər. Anlayar ki, nə olub-olub, indi bəs söhbət nədən gedir?

Şeyx Məhyəddin əhvalatın o yerinə qayıdar ki, orada oyanan, düşünən Qazi Bürhanəddin həyatı ilə bağlı məsələlərin yerini necə saf-çürük edər.

Qısası, Şeyx Məhyəddin arif idi. O, düşünürdü ki, indi sözü-söhbəti ilə zaman keçdikcə həyatın axarını təlqin elədiyi hökmdarının oyananda, qüdrət sahibi olanda nə edəcəyini indidən, bəri başdan həll eləməlidi.

Ümumiyyətlə, dünya yaranandan bəri zaman-zaman hansı məsələ vardı ki, elə iki-üç söz-söhbətlə qurtara biləsən? Ona görə Şeyx Məhyəddin üçün Qazi Bürhanəddinin solğun bənizinə baxıb, söhbətinə davam eləmək heç onun üçün qeyri-adi deyildi. Çünki Bürhanəddinin hazırkı görkəmi başqalarına ölü sifətində görünə bilərdi. Ancaq Şeyx Məhyəddin üçün o, ölü deyildi. Hətta danışdıqlarına normal səviyyədə qulaq asan dinləyici idi.

Həqiqətən Qazi Bürhanəddinin başqalarına, elə ailə üzvlərinə, doğmalarına, yaxınlarına dərin qüssə, təlaş yaşadan durumu, bu ovqatın buraxdığı təəssürat həqiqətən onun hətta son nəfəsdə olduğunu diktə edirdi. Ancaq belə deyildi. Qazi Bürhanəddin sadəcə, halsız idi. Heç dillənmək taqəti də qalmamışdı. Nəinki dillənmək, heç əlini, gözünün qapağını tərpətmək iqtidarında deyildi. Ancaq hər şeyi eşidirdi, kimin nə dediyini anlayırdı.

Əslində, Qazi Bürhanəddin üçün maraqlı olan tərəf bu idi ki, kaş onun qohum-əqrəbası hakimiyyət sarıdan öz iddialarını, məqsədlərini açıqlaya, ortaya qoya biləydilər. Bu da hələ yox idi. Şeyx Məhyəddinin danışdığı əhvalatın arxasında Qazi Bürhanəddin hakimiyyətilə bağlı heç bir qorxulu iddia görmürdü.

…Aha, elə bil ki, Qazi Bürhanəddinin beynində işıq yandı. O, indiyə qədər yaşadığı həyatın hamısını bir andaca saf-çürük elədi: «İlahi, bu nə ömür-gündür, mənə qismət eləmisən? Mən axı bütün ömrümü bu insanlar üçün, lap doğrusunu desəm, məmləkətim üçün, xalqım üçün sərf eləmişəm. Bəs onda mənim günahım nədir ki, mən bu dərəcədə əlacsızlıqla həyatımın görünən və görünməyən tərəflərinə elə öz gözümlə baxmalıyam».

Qazi Bürhanəddin heç bəlkə bu cür də düşünmürdü. Ən azı ona görə ki, nə düşündüyünü, onun hansı qənaətdə olduğunu nə ətrafındakılar, nə də heç özü dəqiq aydınlaşdıra bilmirdi.

Şeyx Məhyəddin çox istəyirdi ki, Qazi Bürhanəddin elə bu dəqiqəcə yerindən, yatağından qalxsın. Çünki onun ətrafında olan adamların hamısı, o cümlədən qızı bu dəqiqə onun dirilməyini

arzulayırdı. Axı Şeyx Məhyəddindən asılı heç nə yox idi. Bu, zamanla bağlı məsələydi. Amma Şeyx Məhyəddin istəyirdi ki, şüuru, düşüncəsi özündə olan Qazi Bürhanəddin ayılanda həqiqətə tapınsın. Şeyx Məhyəddin uşaq deyildi, dünyanın gəldi-gedərini görmüşdü. Özünün başına gələn dərdi, haləti ona görə danışırdı ki, Qazi ayılanda təmkinli olsun. Ağlı başına gəlsin. Allahtəala ona verdiyi hökmü, hakimiyyəti ədalətə sərf eləsin. Kəsəsi, birdən, bu andaca Qazi Bürhanəddin keçirdiyi ağır əhvaldan ayıldı, ağlı başına gəldi. Onda dedi ki, mənə nə olub, mənim başıma nə iş gəlib? Şübhəsiz, elə Qazinin xanımı da, qızı da, yaxınları da hamısı bir yöndən üz tutacaq, üz çevirəcək Şeyx Məhyəddinə. Yaxşı, onda bax bu Şeyx Məhyəddin nə deməlidir? Bax, bunu Şeyx Məhyəddin bir an da olsun yadından çıxarmırdı. Dava onun davası idi ki, Qazi dirilməlidir, Qazi ayılmalıdır. Qohum-əqrəba da, Qazinin qızı da, hətta Qazinin qızını ürəyinə köçürmüş bacısı oğlu Əhməd də elə bunu diləyirdilər. Amma Şeyx Məhyəddin bilirdi ki, bu Qazi dirilib qalxacaq, oyanacaq, – yaxşı bilirdi ki, bu, adi bir haldır. – Bütün hakimiyyətini, iqtidarını yenə göstərəcək, yenə hakimiyyət odu-alovu ilə od püskürəcək. Bəlkə kimin haqlı, kimin haqsız olmağı da o qədər fərq etməyəcək. Axı, böyük hakimiyyət sahiblərinin qərarları, divanları nə vaxt sonradan sorğu-suala çəkilib? Hər kəs öz zamanına görə cavabdehdir.

Şeyx Məhyəddin düşüncələrindən güclə ayrıldı. – Lənət şeytana, – dedi, – axı mən bütün gücümlə istəyirəm ki, Qaziyə böyük həyat həqiqətini başa salım. Əgər Qazi bu böyük həyat həqiqətini başa düşmürsə, bu məsələnin kökündə nəyin dayandığını bilmirsə, onda mən heç nə eləyə bilmərəm. Onda mənim gücüm-qüdrətim bir həyat yolunu dəyişmək qədərində də deyil…

* * *

…Dürdanə od içində yanırdı. İsti, hərarət onun dilini-dodağını qarsımışdı. Ha illah eləyirdisə də, dinib-danışa bilmirdi. Elə bil

Tanrı dünyanın bütün ağırlığını, yükünü onun çiyninin üstünə yığmışdı. Hələ də özünü odun, alovun içində hiss eləyirdi. Bu cəhənnəm odu nə qədər güclü olsa da, onu yandırıb-yaxsa da, dilini, ağzını, hələ üstəlik ağlına təsir eləmirdi. Ay Allah, bu necə halət idi? Dünya alışıb-yanır, bütün məmləkət od içindədir, bu od-alov gəlib hər şeyi yandıra-yandıra onun lap ayaqlarının ucuna da çatır, ancaq bu od-alov onun öz sevgisini, sevgilisini təsəvvür eləyə biləcəyi düşüncəsinəcən gəlib çatmır. Tanrı ona gör necə böyük qismət verib ki, Allah-təala sevənləri xoşbəxt eləməyin bir təhərini elə bu günlə-güzəranla yola verib.

Dürdanə özünü Allahın ən xoşbəxt bəndəsi hesab edirdi. Daha doğrusu, söhbət ondan gedirdi ki, yaşadığı ağrının, acının, dərdin, kədərin tən ortasında görürdü ki, bu dünyanın adamları necə bədbəxt və yazıqdır. Çünki onlar sevginin, məhəbbətin nə demək olduğunu heç təsəvvür edə bilmirlər. Əgər insan taleyi üçün ətrafın başa düşülməzliyi bir dərd idisə, bu dərd Dürdanə üçün daha böyük idi. Dürdanə görürdü, ətrafında olan adamların heç biri onu duymaq, başa düşmək, anlamaq iqtidarında deyil. Ona görə də qız özündən qeyri bir kimsəyə ağız açıb ona öz taleyini danışmaq, öz dərdini yükləmək belə istəmirdi. Əsas da ona görə, başqalarının ona yazığı gələ bilərdi.

Bax, elə bu acımaq duyğusu Dürdanəni əsəbləşdirirdi. Yox, Dürdanə istəmirdi ki, camaat ona bir eşq əsir-yesiri kimi, bir məhəbbət bədbəxti kimi yanaşsın.

Dürdanənin bütün həyatı gözünün qabağından gəlib keçirdi. Kimsə kənardan baxan bir adam elə düşünə bilərdi ki, bu həyat, bu ömür heç o qədər də çox deyil. Ancaq insan ömrünün nə demək olduğunu bilən adamlar üçün Dürdanənin həyatının hər anı, hər günü, hər ötən gündüzü bir ömür idi.

Dürdanə yaxşı bilirdi, elə biganə adamlar var ki, iztirabların, ağrı-acıların arasında keçən ömrü heç nə hesab eləyir. Hələ bu ağrı-acıların içində yaşanmış ömürə heç əhəmiyyət verməyən, heç

dəyərə mindirməyən insanlar da var. Hətta elə mənfur şəxslər var ki, bu qədər ağrı-acıların içərisində yaşasan belə, iztirab çəksən belə, düşüncələrin yükünü daşısan belə onun nəzərində bunlar heç nədir. Bəli, belə məxluqlar az deyil.

Dürdanə atasının böyük zəhmət bahasına kəsdiyi kərpicləri yadına saldı, gözünün qabağına gətirdi. Necə səliqə-səhmanlı kərpiclər idi. Ancaq bu kərpicləri gəlib saray üçün tədarük edən məmur gözünün ucu ilə də zəhmətini qiymətləndirmədi. Hətta, bir neçə kərpici ayağının ucu ilə vurub «bu nədir, nəyə yarayandır?» – dedi.

Burada bəlkə də, təəccüblü heç nə yox idi. Yəni Dürdanə saray məmurlarının atasına və onun kimi sadə adamlara necə yuxarıdan aşağı baxdığını görürdü. Və onu da yaxşı görürdü ki, atası nə qədər səliqəli, səhmanlı, yaxşı iş görsə də, iş sahibi, yəni onun atasının gördüyü işdən pul qazanan kəs onun işini yerə vuracaq, ucuzlaşdırmağa, dəyərsizləndirməyə çalışacaq. Elə etməyə çalışacaq ki, bütün məmləkətdə kərpic kəsməklə çörəyini qazanan kişinin zəhməti heç bir dəyər kəsb etməyəcək.

Dürdanə üçün bu dünyanın əzabları heç nə idi. Ancaq onun üçün ən ağrılı əzab atasının zəhmətinin qiymətdən düşməsiydi. Bəlkə də bir qonşu, bəlkə də, başqa qohum-əqrəba gəlib Dürdanənin nə üçün xəstələnməyi ilə maraqlanacaqdı. Dürdanə də xəstələnməyinin səbəbini nə kasıbçılığı, nə də eşq bəlası bağlılığı baxımından izah etməyəcəkdi. Bunun heç birisini o, bir kimsəyə deyə bilməzdi. Axı, necə deyə bilərdi ki, bu nadan adamlar onun atasının çox böyük zəhmət bahasına gördüyü işlərə cüzi qəpik-quruş verib, əvəzində xeyli gəlir əldə edirdilər. Guya atasının çəkdiyi zəhmətin, kəsdiyi kərpiclərin müqabilində verdikləri zəhmət haqqıdır. Dürdanə görürdü ki, atası necə böyük zəhmət adamıdır, necə böyük iztirab çəkir. Onun atası hər kərpicin əyri hissəsinə ayağını necə qoyub, necə götürür, necə hər kərpicin düz olmağına nəzarət edir. Lakin onu da görürdü ki, bu lənətə-

gəlmişlər o məhsula çəkilən zəhmətin heç bir misqalına dəyəcək qədər əmək haqqı ödəmirlər.

Bütün bunların hamısı cəhənnəm, Dürdanə atasının da, anasının da ağır zəhmətlər bahasına qoruduğu ailənin ağır yükünü gözünün qabağına gətirirdi. Və başa düşürdü ki, belə mühitdə ölmək atasını da, anasını da məğlubiyyətə düçar etmək deməkdir.

* * *

Anası elə rəvan danışırdı ki, Uzun Həsən az qalırdı başını anasının dizinin üstünə qoyub mürgüyə dalsın. Elə bil anasının danışığı uzun illərin keçmişdə qalmış, az qala yaddaşdan itməkdə olan uşaqlıq nağıllarını laylaqarışıq təzədən onun yaddaşında canlandırırdı. Ha istəyirdi ki, anasına dilini tərpətmədən, elə təkcə gözləri ilə desin bir layla de, bayatı çək. Susurdu. Şirin bir yuxu onun gözlərinin qapaqlarını bağlayardı. Sara Xatun isə oğlunun bu əhvalatların təsiri altında yuxuya dalmağını istəmirdi. İstəyirdi, oğlu olub-keçmişlərin hamısından nəticə çıxartsın. Lap elə onun söhbətini yarıda kəsib, desin ki, ay ana, mən sənin nə danışdığını, bundan sonra da söyləyəcəklərinin hamısının mənasını, nəticəsini anladım. Bax, o zaman Sara Xatun oğlunun hərəkətə keçəcəyi təqdirdə görəcəyi işlərin, verəcəyi əmrlərin nə dərəcədə ədalətli olacağına inanardı. Bəlkə heç Sara Xatun bu qədər uzun əhvalatları bir-birinə calaya-calaya danışmazdı. Ancaq məqsədi o idi ki, keçmişdə baş verən olayları bu qədər yerli-yataqlı çözməklə, oğluna anlatsın ki, yalnız qılıncı çəkməklə, silahı işə salmaqla həqiqəti aşkarlamaq olmaz. Əgər qılınc çəkildisə, onda kimi günahkar hesab eləyirsənsə, gərək onun boynu vurulsun. Gərək onun bəxt ulduzu sönsün. Göy üzündə yanan günəş gözlərinin içində qaralsın.

Uzun Həsən əvvəl elə başa düşdü ki, anası tezliklə sözünü, söhbətini bitirəcək və ona axırıncı məsləhətlərini verəcək. Deyəcək, get, bu məmləkətə xain çıxanların cəzasını ver, onların hə-

rəkətləri müqabilində başlarını bədənlərindən ayır, təki bu diyarda bir əmin-amanlıq yaransın. Qoy bu əmin-amanlığın ömrü o qədər uzun olsun ki, Bayandurlar nəslinin Amid bəyliyində hakim olanlarının nəvələri, nəticələri də bu ölkədə axıracan şad-xürrəm yaşaya bilsinlər. Yox, Sara Xatun hələ ki, əsas mətləb üstə gəlmək istəmirdi. Daha doğrusu, yayınırdı. Söhbəti bir-birinə calamaqla, sanki dünyanın gəldi-gedərini oğlu Uzun Həsənin gözlərinin qabağından keçirirdi. Uzun Həsən də keçmişdə olanları gələcəkdəki olacaqlarla uzlaşdırmağa, bunlar arasında əlaqə görməyə cəhd göstərirdi. Əlbəttə, fikrində, düşüncəsində. Söz yox, onun özü darıxırdı. Birdən dikəlib anasının sifətinə baxır, ondan cavab istəyirdi. Qoy anası ona düzünü desin, Qazi Bürhanəddinin Qara Yuluq Osmanı Əhmədin arxasınca göndərməyinin nəticəsi, sonluğu necə tamamlandı?

Bəli, bu, hakimiyyət, mənəm-mənəmlik iddiasından doğur, pərvəriş tapırdı. Bəzən də elə insani məsələlər araya çıxırdı, onda hakimiyyət də, onda güc də, var-dövlət də, torpaq davası da arxa planda qalırdı. Bəs necə ola bilər ki, Uzun Həsən babası Qara Yuluq Osmanın taleyi ilə axıracan maraqlansın, anasının danışdığı bu qeyri-adi əhvalatların lap mərkəzindən, içindən boy göstərən və tənha qızılgül kimi öz bülbülünün intizarında yaşayan Dürdanəni yadından çıxarsın? Yox, indiki halda Uzun Həsən babası Qara Yuluq Osmanı da, onun xalası oğlu, sevgisinin ucbatından dərbədər olmuş Əhmədi də, onların başına gələcək hadisələri də …hamısını yadından çıxarmışdı. İndi onun üçün ən gərəkli, ən vacib olan o günahsız qızın taleyi idi.

Əhmədin də, onun sevgilisi Gülçöhrənin də başına gələnlər… bu əhvalatların fonunda babası Qara Yuluq Osmanın çəkdikləri də – hamısı arxa plana keçmişdi. Bu anlarda ancaq onun gözünün qabağında Dürdanənin taleyi dayanmışdı. Uzaq ellərə təbabət elminin sirlərini öyrənmək üçün getmiş Şeyx Məhyəddinin nə vaxt, necə qayıdıb gəlməyi, Dürdanənin – ölüm yatağında çaba-

layan qızın son nəfəsinə çata bilib-bilməməyi daha diqqətçəkən idi. Bax, bunları bilmək və bu hadisələrin inkişafında ona həyatın vəd edəcəyi bəzi sirlərə vaqif olmaq istəyi, arzusu Uzun Həsəni daha bərk maraqlandırırdı. İndi ürəyində Allaha yalvarırdı ki, birdən anası Uğur kişinin, Əbdülsəid əfəndinin gəlməsindən sonra hövsələsini basa bilməz, təcili olaraq Uzun Həsənə «qoşunu cəm elə, yürüşə başla» əmrini verər. Elə bil, onun canından gücünü, qüvvəsini, ruhundan cəsarətini anasının danışdığı əhvalatlar tamam çəkib almışdı. O, bir addım da atmaq iqtidarında deyildi.

Əvəzində Sara Xatun da dünyanı qədərincə görmüş olduğundan danışdığı söhbətlərin məğzi uzandıqca oğlunun necə haldan-hala, təbdən-təbə düşdüyünü görürdü. Bu gördükləri açıq-aşkar bir həyat dərsiydi. Və elə bir həyat, ibrət dərsi ki, nə qədər yuxuya oxşasa da, bir o qədər də onun gerçək tərəfləri vardı. Elə ona görə Uzun Həsən bu yuxuqarışıq həyatındakı baş verənlərin hamısını elə gerçəklik hesab eləyirdi ki, bu gerçəklikdən ayılıb öz dünyagirliyinə qayıtmaq istəsə də, qayıda bilmirdi. İki yolun arasında, gecə ilə gündüzün ortasında qalmışdı. Bir tərəfdən onu hakimiyyət istəklərinə yetmək arzusu çağırırdı. O biri tərəfdən eşitdiyi bu qeyri-adi nağıllar onu adi, sıravi bir insan həyatı yaşamağa dartırdı. Necə olaydı, kaş bu hakimiyyət də, bu hədər var-dövlət də, güc də hamısı bir an fövtə gedəydi. Yalnız və yalnız o, bir rəncbər libasında, bir kasıb kəndli görkəmində yerdə qalan ömrünü yaşamağa razı olardı. Kim idi Uzun Həsənin bu istəyi ilə razılaşan? Başını yuxarı qaldıranda anasının hökmlü gözlərini görürdü. Sara Xatun qəddar olmasa da, hökmlü baxışları ona iti qılıncını xatırladırdı. Özündən asılı olmadan, heç xəbəri olmadan sağ əlini qılıncın qəbzəsinə aparırdı. Heç özü də bilmirdi ki, bu qılıncın qəbzəsini barmaqlarının arasında necə sıxır. Bəlkə də barmaqlarının damarları partlayır. Əlinin içi qanla dolur. Bu qan o qədər çoxalırdı, hətta onu susuzluqdan yanan dodaqlarının arasına aparıb içmək belə könlündən keçirdi. Amma əlini qılın-

cından çəkib, gözlərinin qabağına gətirəndə görürdü ki, ovcunda qəzəbdən başqa heç nə yoxdu. Bəli, Uzun Həsənin gözlərinin qabağında ovcunun içi belə görünürdü. Ona görə də yaxşı da, pis də, xeyir də, şər də həmin anlarda gözlərinin qabağında bir-birinə qarışmışdı. Məhəbbətin də, nifrətin də sərhədləri itmişdi. Bu anlarda o, hakimiyyətinə şərik çıxan, məmləkətinə xəyanət eləyən qardaşının – Cahangir Mirzənin cəzasını təyin edə bilmirdi. Ağlına gəlirdi ki, bayaq əlində sıxdığı qılıncla Cahangir Mirzənin boynunu vursun. O biri tərəfdən anasının danışdığı əhvalatların təsiri altında düşünürdü ki, insan olan kəs hakimiyyət naminə, var-dövlət naminə öz qardaşına necə qəsd eləyə bilər?

Doğrudur, Sara Xatun oğlunun necə əzab çəkdiyini görürdü. Onun qərar qəbul edəcəyi halda, eyni vaxtda neçə qərarı da beynindən keçirtdiyini, bu müxtəlif qərarları, özü də çox vaxt bir-birinə zidd olan qərarları düşüncəsində var-gəl eləyirdi. Yaxşı hansıdır, pis hansıdır? Sara Xatuna aydın idi, oğlu necə tərəddüdlər keçirir. Oğlu necə daxili çarpışmalarla, mübarizələrlə üz-üzədir.

Bəlkə də Sara Xatun artıq məqamın yetişdiyini, vaxtın çatdığını düşünüb oğlunun çiynindən sağ əlini çəkib yuxarı qaldırdı. Onsuz da Uzun Həsən anasının dizlərinin dibində oturmuşdu. Boynunun uzunluğu elə buradaca onun qeyri-adi görkəmini və demək olar ki, başının Sara Xatunun gözlərinin qabağında olmağına fərq eləmirdi. Sara Xatun lap onun gözləri bərabərində dayanmış oğlunun gözlərinə bir daha diqqət elədi. Artıq oğlunun baxışlarındakı qətiyyət yox olmuş, əvəzində bir qardaş taleyi üçün nigarançılıq, intizar çəkən gözlər peyda olmuşdu. Yox, Sara Xatun elə buradaca sözünü, söhbətini saxlayıb, oğluna göstəriş vermək qərarına gəldi:

– İndi qalx, get, Bayandurlar nəslinin taleyi sənin qətiyyətinin intizarın çəkir.

– Yox, mənim və məmləkətimin anası!.. Sən mənim gücümü, qüvvətimi almısan. – Uzun Həsən yalvarışla anasına baxıb yazıq-

yazıq cavab verdi. Anası da gördü ki, cəngavər Uzun Həsəndən, qılınc çalmağa hazır olan Uzun Həsəndən gözlərinin qabağındakı az qala onunla boyu bərabəri Uzun Həsəndən əlamət yoxdur. Onun tanıdığı, oğul kimi böyütdüyü döyüşkən Uzun Həsən qeyb olmuşdu. Gözünün qabağındakı oğlu Uzun Həsən humanist, insanpərvər, nəinki bir insanın, heç bir qarışqanın da tələf olmağına razı olmayacaq Uzun Həsən idi. Nədənsə, bu məqamlarda Sara Xatunun gözlərinə oğlu da boyca balaca görünürdü. Səbəbi də bu idi ki, övladının bayaqdan cəngavər kimi görünən görkəmi indi dəyişmişdi, adi insan görkəmi almışdı. Yox, ana bununla razılaşa bilməzdi. Ona görə oğluna əsl həqiqəti birbaşa deməyi qərara aldı.

– Heç nə gözünə görünməsin. Amid bəyliyinin nəyə qadir olduğunu ancaq sən göstərə bilərsən. Ancaq sən öz gücünlə təsdiq edə bilərsən.

Deyəsən, bu sözlərdən sonra Uzun Həsən bir qədər dirçəldi, qeyrətə gəldi. Bəlkə də anasının bu qətiyyətli sözlərinin təsiri ilə onun cəngavərlik ruhu gücü-qüdrəti özünə qayıtdı. İstədi dərhal ayağa qalxsın. Boyu uzunu anasının gözlərinin qabağında dursun. Hətta özündə güc, qolunda sonsuz təpər də tapdı.

– Mən sənin danışdığın hekayətlərin ardını dinləmək istəmirəm. İstəyirəm, bircə məsələni mənə aydınladasan. Qara Yuluq Osman etibarı və inamı müqabilində Əhmədi geriyə qaytardımı və onun taleyi necə oldu? – Uzun Həsənin bu sözlərindən sonra anası hiss elədi ki, onun genindəki cəngavərlik ruhu təzədən oyanıb və öz gücünü göstərmək niyyətində bulunub. Sara Xatun buna sevindi. Hələ bir qədər də daxili təəssüf hissi yaşadı ki, olub-keçən hadisələrlə oğlunun başını çox qarışdırıb. Bir sözlə, Uzun Həsəni cəngavərlikdən çıxarıb. Onu adi insanların həyat və düşüncə tərzinə yaxınlaşdırıb. Bir anlığa bu hiss Sara Xatunu qorxutdu. Çünki indi onun nəzərində Amid bəyliyinin yeganə ümidi Uzun Həsən idi. Və Uzun Həsəndən qeyri bir kimsə yox idi,

bəyliyin sərhədlərini hədələyən doğmalardan və düşmənlərdən, yaxınlardan və yadlardan qoruya bilsin.

Sara Xatun nəyin hesabına olur-olsun, Uzun Həsənə təlqin etməli idi ki, bütün gücünü toplayıb bəyliyin tarixi sərhədlərini əlinə cəmləsin. Nəzarəti, hakimiyyəti, hökmranlığı, sayəsində gələcəyin böyük dövlətinin əsasını qoysun. Bir az da Sara Xatunda qürur hissi baş qaldırdı, sevindi ki, oğlu bütün insaniyyətilə birgə hakimiyyət əzmini də qoruyub saxlayıb.

– And içirəm ki, mənim qabağımda – bu yerdə Həsən Mirzə bir qədər dayandı. Elə bil ki, dağılmış gücünü, itirdiyi iqtidarını bərpa eləməyə çalışdı. Və həm də təkcə çalışmaq yox, sanki qüdrətini də topladı: – heç kim, heç nə dayana bilməyəcək. Mən Bayandurlar nəslinin şərəfini qoruyacağam. Bu nəslə şöhrət gətirəcəyəm. Hələ üstəlik, itirilənlərin hamısını da qaytaracağam. – Uzun Həsən bu sözləri deyəndə artıq ayaq üstdə dayanmışdı, bir az yuxarıda, taxta əyləşmiş anasından hündürdə idi. Və yenə sağ əli qılıncın qəbzəsindən tutmuşdu. Sanki bu görkəmi ilə anasına təlqin eləyirdi ki, onun qabağında həqiqətən heç nə dayana bilməyəcək. Nə sabah ona minnətə gəlməli olsa, anasını eşidəcək, nə də məmləkətə xəyanət eləmiş olan qardaşı Cahangir Mirzəyə güzəştə gedəcək. Bəli, onun sıyrılmış qılıncı ədalət bərpa olunmayınca, qayıdıb öz qınına girməyəcək. Həsən Mirzənin gözlərindən od parladı, şimşək çaxdı.

Sara Xatun bu görkəmə, bu qüdrətə baxıb nə qədər qürurlansa da, yenə içindən bir vahimə keçdi. Doğrudanmı, onun söhbətlərindən sonra Uzun Həsən döyüş meydanında qılıncını çəkəndə insanlığı unudacaqdı. Bəli, əgər beləydisə, demək onda Sara xatunun daha bir igid oğlu – Cahangir Mirzə dünya ilə vidalaşmalı olacaqdı.

...İndi bir sıra işgüzar söhbətlər qalmışdı. O söhbətlər ki, Uğur kişi ilə Əbdülsəid əfəndinin gəlişindən sonra ortaya çıxmışdı. Bu məsələləri Sara Xatun oğlu ilə dəqiqləşdirmək, daha doğrusu, mürəkkəb olan vəziyyəti məsləhətlə çözmək istəyirdi. Bu elə bir

dolaşıq kələf idi ki, ipi çox tələsik çəkərsən, kələf dolaşar, gərək onda ipləri kəsib atasan. Bir sözlə, ipin ucu itəcəkdi. Nəticədə kələfi də axıracan tapmaq olmayacaqdı. Ona görə də Sara Xatun ürəyindən keçənləri, düşüncəsində dolaşanları oğluna bir daha demək, bəzi mətləbləri xırdalamaq üçün daha münasib vaxt, uyğun məqam gözlədi. Deyəsən, Uzun Həsən artıq qərar qəbul eləmişdi, bir himə bənd idi ki, üzünü döndərib qapıya tərəf getsin. Bundan sonrası artıq məlum idi. Elə bu axşamın özündəcə orduya xəbərdarlıq edəcəkdi. Hamı başdan-ayağa yürüşə hazır olmalı idi. Uzaqbaşı bir-iki gün ötər, üzü Diyarbəkirə doğru ordunun hərəkəti başlanacaqdı.

Sara Xatun əslində, oğlunun qətiyyətindən, gəldiyi qərardan razı idi. Lakin onu da istəyirdi ki, son anda Uzun Həsən onun qərarını gözləmədən özbaşına sonuncu addımı atsın. Axırıncı qərarı onun vermək istədiyinin fərqində varmasın.

…Gün günorta vaxtından keçmişdi. Amid bəyliyinin mərkəzi iqamətgahının söykəndiyi təpəlikdən kölgə o tərəfə aşmışdı. Elə yaxın təpəliklərin də kölgəsi iqamətgahın üstündən keçmişdi. Lap vadinin aşağılarınacan, dərənin dibinəcən uzanmışdı. Özü də kölgələr gəlib ötdükcə, arxasınca kimsənin hiss eləmədiyi qaranlıqları da gətirirdi. Beləcə, bir tərəfdən axşamın toranlığı, digər tərəfdən qara buludların vadinin üstündəki qara-qorxulu vahiməsi qeyri-adi bir gecənin düşməyindən xəbər verirdi. Sara Xatun havaya, göylərə baxdı. Nə isə, bunu yaxşı bir əlamət hesab eləmədi. Birdən vadinin üstündə bir ağ bulud da peyda oldu. Ağ bulud topası sürətlə qara buludun üstünə şığıdı, onu iki yerə böldü. Əvvəlcə dalbadal işıqlı şimşək qılıncları oynadı, sonra dəhşətli gurultu qopdu. Qara bulud parçalanan kimi yağış tökdü. Bir anda vadinin üstünə çökmüş tükürpədən vahimə darmadağın oldu.

İndi ətraf Sara Xatuna işıqlı görünürdü. O, bütün vadini apaydın seyr eləyə bilirdi.

* * *

Sara Xatun vaxtın daraldığını hiss edirdi. Onu da yaxşı başa düşürdü ki, vaxt uzandıqca Uzun Həsən və Cahangir Mirzənin arasında olan ixtilaf get-gedə daha çox dərinləşəcək. Həqiqətən bir məsələ var idi ki, Cahangir Mirzə Amid bəyliyinin qüvvəsini parçalayıb aparandan bəri bütün əyalətdə adamlar bir-birinə dəymişdi. Ola bilsin, bir çoxları gələcəkdəki savaşlarda Cahangir Mirzənin daha güclü olacağını düşünsün. Və əyalətin içindən bir-bir qaçıb Cahangir Mirzənin arxasınca getsin. Sara Xatun da məsələni belə özbaşına qoyası deyildi. Birinci növbədə o, sərhədləri möhkəmləndirmişdi. Elə Uzun Həsənin özünə də qandırmışdı ki, əyalətdən kimin haraya gedib-gəldiyini, kimlərin əyalətdən çıxıb, kimlərin qayıtdığını, nədən ötrü getməyi-gəlməyi… bütün bunları nəzarətdə saxlamaq vacidbir. Bir çoxlarının tərəddüdləri olsa da, bəyliyin özündən sözü keçərli adamlar kəndlərə göndərilmişdi. Onlara tapşırıqlar verilmiş, elə göstərişlərlə nizamlanmışdılar ki, guya Sara Xatun özü Cahangir Mirzəyə toxunmayıb. Beləcə, hadisələrin ümumi axarını vaxtı yetişənəcən saxlamağı üstün hesab edirdi…

* * *

…Şeyx Məhyəddinin söhbəti nə qədər uzansa da, o qədər təsirli idi ki, sanki Qazinin ruhi sarsıntıdan sonra huşunu itirməsilə, hələ bəlkə, ayılıb-ayılmayacağından asılı olmayaraq hər kəsin nəzərini özünə çəkmişdi. Əgər belə demək mümkünsə, hər kəs Qazinin vəziyyəti ilə barışmış və şeyxin təmkinli danışığının ovsununa düşmüşdü. Şeyx bütün bunları nəzərindən qaçırmırdı. Elə əslində, özünü təmkinli aparmaqda, söhbəti söhbətə calayaraq adamları təsir altında saxlamaqda məqsədli idi. Yəni adamların həyəcanları yox olur, sanki heç bir hadisə baş verməyibmiş kimi sakitləşir, sarayda vəlvələ qopmur, əmin-amanlıq hökm sürür. Uzun illərin həyat təcrübəsindən və müşahidələrindən Şeyx yaxşı bilirdi ki, əgər Qazinin vəziyyətinin ümidsiz olduğu barədə ətrafa kiçicik

bir xəbər sızsaydı, aləm qarışardı. Hakimiyyət hərisləri baş qaldırar, bircə andaca elə sarayın özündə qırğın düşərdi. Kim kimin tərəfindədir, kim daha güclüdür… bütün bunlar artıq bölgülər, dəstələr deməkdi. Özü də elə dəstələr ki, biri digərinin qanını içməyə hazır idi. Şeyx də bunları yaxşı bilirdi. İstəyirdi ki, bu ötəri hal keçənə qədər heç kim narahatlıq keçirməsin. Və məsələ elə beləcə, sakitliklə həll olunsun. Hələ üstəlik, Şeyx onu da dərk edirdi ki, Qazinin oğlu hakimiyyət üçün hazır deyil. Onun özü də bir növ Atabəyinin – yəni Şeyx Məhyəddinin ağzına baxacaqdı: görək Şeyx nə məsləhət görür. Vəziyyət beləcə, Qazinin oğlu Elməddin Əli Çələbinin xeyrinə dəyişərdi-dəyişməzdi – bunu saraydakı güc, qüvvə sahiblərinin mövqeyi həll edəcəkdi. Əslində, elə Qazi də gözünü tərpətməyə iqtidarı olmasa da, əlinin işarəsilə nəyisə deyə bilməsə də, Şeyxin belə təmkinli münasibətindən razı idi. Hakimiyyətin necə bir şirin təham olduğunu yaxşı başa düşdüyündən nəsə olacağı təqdirdə kimlərin hansı əməllərə əl atacağını da düşünürdü.

Axır ki, deyəsən, Qazinin sağ əli tərpəndi. Hələ üstəlik, sol gözünü də güclə olsa da bir az araladı. Və Şeyx bunu hiss etdiyindən onun əlini tutdu. Nəbzini də yoxladı. Deyəsən, nəbzinin ahəngi azca artmışdı. Əlbəttə, bunlar yaxşı əlamət idi. Hələ üstəlik, Qazi əlinin təması ilə Şeyxə razılıq da bildirdi. Bunu ancaq Şeyxin özü hiss elədi. Şeyx bilirdi ki, Qazi nəsə danışmaq, bir məsləhət vermək, tədbir tökmək gücündə deyil. Yavaş-yavaş Qazinin açılmış göz qapağı endi və əli yenə yanına düşdü. Şeyx onun nəbzini bir də yoxladı. Bəli, ahəng yenə aşağı düşmüşdü. Cüzi bir təbəssümlə başını qaldırıb ətrafdakılara baxdı. Bununla demək istəyirdi ki, qorxulu bir şey yoxdur. Hər kəs səbirlə bu hadisələrin sonunu gözləməlidir. Ona görə, söhbətinə davam elədi. Asta-asta, rəvan-rəvan danışırdı. Danışdıqca nəzərləri Qazinin üzündəydi. Lap sifətinin titrəyişindən, kirpiklərinin cüzi tərpənişindən belə hiss eləyirdi ki, Qazi, onun söhbətinin davamını istəyir. İnsafən,

Qazinin özü hakimiyyət sahibi olmazdan əvvəl şair idi. Özü də elə-belə, sıradan şair deyildi. O, Azərbaycan türkcəsində yaradılmış ilk «Divan»ın müəllifi idi. Rəvan təbi vardı. Yeri gələndə elə tutarlı tuyuğlar, qəzəllər deyirdi ki, ətrafdakılar sehirlənirdilər. Həm də Qazi Bürhanəddinin ahənglə şeir demək qabiliyyəti vardı. Qəzəlləri elə avazla söyləyirdi ki, deyirdin, elə bağçada güllər üstündə bülbüllər cəh-cəh vurur, hər bir misra o biri misrada öz ahəngi ilə tamamlanır, məntiqilə yekunlaşırdı. Birdən saray məclislərində ahəngdar rübabın sədaları altında Qazinin ilhamı gəlirdi. Həzin musiqi ilə dərin məzmunlu qəzəllər doğma dilin şirinliyinə bələnir, bal kimi insanların ruhuna, varlığına yayılırdı…

*Gəl, gəl, görəlüm, gəl görəlüm, gül görəlüm biz,*
*Bir nəğmə gətür ortaya bülbül görəlüm biz…*

*Güldür yüzünü mül totağun söhbətümüz gərm,*
*Bu işimüzi pəs nişə mülmül görəlüm biz?*

*Biz yanaruz oda, sənəma, bənlərün ilə*
*Ənbərdürür ol, daneyi-fülfül görəlüm biz.*

*Biz gül yanaruz odına hər cüz dəxi həm,*
*Hər cüzümüzi ol yola bir kül görəlüm biz.*

*Bir nəğmə di ey mütribü sun, saqi, bir ayax*
*Ki, qülqül eşidəlümü qülqül görəlüm biz…*

Yer-yerdən «afərin!» sədaları ucalırdı. Qazini daha da ruhlandırırdı. Əlbəttə, Qazinin məclisində əyləşənlərin çoxu elm, ürfan sahibi olsa da, başqaları da vardı. Belələri sarayın o adamları idi ki, onlar qonşu əyalətlərə hücum etməyi, yeni-yeni torpaqlar qəsb eləməyi, əhalinin var-yoxunu əlindən alıb, soyub-talamağı daha üstün sayırdılar. Bu zaman belələri «afərin» sədalarına ağız büzür, Qazinin haqqında dalda-bucaqda gizlincə «bu, mütrübdür, hökmdar deyil» – söyləyirdilər. Əlbəttə, Qazi belələrini özünün bəsirət

gözü ilə görüb-tanısa da üstünü vurmazdı. Bilirdi ki, hakimiyyət üçün bu tip adamlar da lazımdır. Qoşunu hərbi yürüşlərə aparmaq, ölkənin sərhədlərini qorumaq, hakimiyyətin dayaqlarını möhkəmlətmək, hifz etmək onların işi idi. Qazi Bürhanəddin onların ipinin ucunu əlində saxlamağı bacarırdı. İndinin özündə də Şeyx Məhyəddinin söhbətlərini dinlədikcə bütün bunlar gəlib xəyalından keçirdi. Düşünürdü ki, nə olaydı, insanlar bir-birilə şeirin, sənətin dili ilə danışaydı. Müharibələrdən, qan-qadalardan yaxa qurtaraydı. Onda onlar necə şən və firavan yaşayardılar. Bax, bunu nizamlaya bilmədiyi üçün Qazi təəssüf eləyirdi. Amma birdən yadına düşəndə ki, hakimiyyətə özündən sonra ancaq oğlu gəlməlidir, qızının sevdalısı olan Əhməd nə qədər hakimiyyətə layiqli olsa da, dövlətin işini ağlının və qılıncının gücü ilə idarə edə bilmək iqtidarında olsa da, ona rəva bilməzdi, bax Qazinin ağlına gəlmirdi ki, hakimiyyət də insanın hər hans bir işi, fəaliyyəti kimi, bacaranın əlində cəmləşməlidir. Hakimiyyətə kimin qüdrəti çatırsa, o da hakimiyyət sahibi kimi ölkəni idarə etməyə halal haqqı borcu olmalıdır. Yox, Qazi bax bunu bilmək istəmirdi. İstəməməyinin elə bir əsas səbəbi də hakimiyyətə özünün dədə-baba malı kimi baxması idi. Halbuki onun özü hakimiyyətə varislik yolu ilə gəlməmişdi. Bir növ, öz bacarığı, fərasəti sayəsində qayınatasından qalmış saraya sahiblənmişdi.

Qazi hiss edirdi ki, bütün bunları düşündükcə başından bir ağrı qopur. Sanki kəlləsinin yanları sıxılır, çarəsizlik və əndişə onu ağuşuna alırdı. Belə anlarda iqtidarı olsaydı, dillənib deyərdi, «Ey Şeyx Məhyəddin, sən söhbətinə davam elə. Dünyanın gəldi-gedəri ancaq hakimiyyətdən asılı deyil. Mənim məmləkətimdə baş verən hadisələrin bir yaxşılıq yolu ilə gedə bilməməsinin köklərini də elə sənin söhbətlərindən hiss edirəm. Haqqın, həqiqətin harada nazildiyini, doğrunun harada üzüldüyünü mən indi başa düşürəm».

Vaxt uzandıqca Qazinin necə daxili narahatlıqlar keçirdiyini, onun darıxdığını hiss edən Şeyx Məhyəddin söhbətin davamı-

nı daha vacib bildi. Şeyxin gənc müridi Varis bu qəribə həyati mətləblərdən xeyli həyəcanlanmış, gözləri dolmuşdu. Əvvəlcə ona elə gəlmişdi ki, Şeyx bu söhbətləri mənasız yerə belə uzadır. Hətta o, Şeyxin qızı Dürdanəyə bu axşam onunla görüşüb, yazdığı yeni qəzəlini oxumaq, əsərində təsvir elədiyi gözəlin sevgisilə nə dərəcədə eyniyyət yaratdığını, bənzərliyini onun üzünə baxıb görmək istəyirdi. Bilirdi, Dürdanə də onu şövqlə dinləyəcək, gözəl əsərinə görə ona xoş sözlərlə mükafatlandıracaq. Qəzəlin təsirli yerlərində Dürdanənin gözləri dolacaq. Sözlərin işıq gətirdiyi məqamlarda üzü güləcək. Ancaq Varisin də – dünyanın yaxşı-yamanını hələ axıracan görməmiş bu gəncin də varlığına sirayət etmiş qəmli hekayət yarımçıq qala bilməzdi. İndiyə qədər Varis təəssüf edirdi ki, sevgilisinin atasını, gələcəkdə qayınatası olacaq Şeyx Məhyəddinin həyatının bu qəmli, kədərli, dərdli tərəflərini indiyəcən bilməyib. Bütün bu əhvalatlardan xəbərsiz olub. Varis özünü qınayırdı. Daxilən iztirab keçirirdi. İndi gec də olsa, bu əhvalatları dinlədikcə insanın eşq-məhəbbət yolunda nə qədər sabitqədəm olduğuna heyrətlənirdi. Bəlkə də Varis üçün yaşamağın mənası, həyatın dəyəri elə bu söhbətlərlə daha aydın görünürdü. O, həmişə Şeyxdən elm öyrənməyə, ağıl-idrak dərsi almağa çalışmışdı. Və hər dəfə də Şeyx alnıaçıq bir məsələni izah edəndə Varisin gözləri gülürdü. Sanki Şeyxin ağzından çıxanları birər-birər sonuncu sözlərinə qədər varlığına hopdurur, yaddaşına yazdırırdı. Lap elə indinin özündə belə əgər Şeyx ona desəydi, daha sən kamilsən, yaxşı bir həkimsən, get, özün müstəqil çalış, həyatını qur, Varis bəlkə dünənəcən bunu qəbul edərdi. Amma Şeyxin söhbətlərindən sonra o, həyatda nələrin ola biləcəyini, necə böyük mətləblərin, sarsıdıcı hadisələrin insanın taleyində həlledici rolu ola biləcəyini indi başa düşürdü. Və ürəyində Allahına şükür edirdi ki, bir vaxt Qazinin məmləkətin bir ucqar tərəfinə onu göndərmək fikrindən imtina edib. Əslində, həmin yerlər Varisin doğulub-böyüdüyü yerlər idi. O, həmin yerlərə ge-

dib bir müalicəxana açardı. Doğmalarının sağlamlığını qoruyardı, səhhətlərinin keşiyində dayanardı. Ancaq o vaxt buna razılıq verməmişdi. «Hələ biliyim yarımçıqdı», – demişdi. Hətta Şeyxlə öz arasında olan söhbəti də unutmamışdı.

– Oğlum, sən niyə bundan imtina edirsən? – Şeyx soruşmuşdu.

– Şeyx əfəndi, mən hələ özümü hazır təbib kimi görmürəm.

O, bu sözləri deyəndə gözünü dolandırıb – xəlvəti olsa da – Şeyxin yanında dayanmış Dürdanəyə baxdı. Elə bil Dürdanənin də sifəti avazımışdı. Bəlkə də Varisin bu yerləri tərk edib getməyi onların bu dəli sevdalarının sonu demək olardı.

– Sən axı təbabəti qədərincə öyrənmisən. Hələ üstəlik, təbiətin dilini yaxşı bilirsən. Özün də yaxşı əczaçısan. Otlardan elə təsirli dərman hazırlayırsan ki, bu dərmanlarla lap ölümün ağzından insanı qaytara bilirsən.

– Şeyx əfəndi, əgər mümkün olsaydı, hökmdardan izin alardın. Mən bir il də sənin yanında qalmaq istərəm. Bəlkə də təbabəti sən qədər olmasa da, kifayət sayılacaq qədər öyrənmişəm.

– Daha nə istəyirsən? Bəs nə qalıb öyrənməmiş olasan?

Şeyxin bu sualından sonra Varis az qaldı ki, ona açıq-aşkar desin ki, məni burada saxlayan sənin qızın Dürdanədir. Mən onun eşqilə qanadlanıb uçuram. Əgər onun sevdası olmasaydı, onda bu dünyanın dəyəri mənim gözümdən bircə anda düşərdi. Mən bu otların, təbiətin dilini elə Dürdanənin eşqilə öyrənməyə çalışmışam. Hər dəfə də – neçə illər bundan əvvəl bizi dağlara, bu dərman otlarını toplamaq üçün göndərəndə, Dürdanə ilə mən otlarla danışa-danışa dil danışmışıq. Özümüz özümüzün heç kimə əyan olmayan sirrimizi səssiz-sözsüz bir-birimizə ötürmüşük. O otlar bizim talelərimizi qovuşdurub. Mən bir çiçəyi tapanda onu Dürdanəyə göstərmişəm. Dürdanə əlini uzadıb o çiçəyi mənim əlimdən alıb. Barmaqlarımız bir-birinə toxunub, dünyanın ən şirin təmasının dadını bilmişik. Nə qədər bizim gözlərimiz danışıb, bir o qədər də bir-birimizi isidən toxunan nəfəsimiz birləşib. Mən

o çiçəklərin ətrini, gözəllikləri Dürdanədən almışam, görmüşəm. Mənim nəzərimdə Dürdanə o çiçəklərin şahı, şahanəsi, tacidarı olub. Öz əllərimlə çiçəklərdən çələng hörmüşəm. O çələngi də Dürdanənin başına qoyub sonra kənara çəkilmişəm. Gözdolusu baxmışam, doymamışam. İndi özün de, Şeyx, mən necə Dürdanəni qoyub, şahın fərmanına tabe olaram. Axı, mənim şahım da, hökmdarım da Dürdanədir.

Ancaq bütün bunlar o vaxt Şeyxə açıq-aşkar deyə bilməmişdi. Və o, bütün bunları deyə bilməsə də hal əhli olan Şeyx məsələnin mahiyyətini ətraflı anlamışdı. Şeyx Məhyəddin özü də Varislə qızı Dürdanə arasında olan məhəbbətin bu gücdə olmağından – iki gəncin bir-birinə sədaqətlə bağlanmağından razı idi. Bir vaxt adını öz qızına verdiyi Dürdanəsinin nakam taleyini qızı təzədən niyə yaşasın, – düşünürdü.

Şeyx Məhyəddin bu məramla Qazi Bürhanəddinə üz tutmuşdu.

* * *

Künəgü hələ Sara Xatuna səhih bir xəbər göndərə bilməmişdi. Səbəb də o idi, onun bura nə məqsədlə gəldiyini heç şübhəsiz, Sələbiyyə xan axıracan öyrənməyə cəhd göstərəcəkdi. Əgər Künəgü bircə səhvə yol versəydi, şübhəli hərəkət eləsəydi, bunu Sələbiyyə xan göydə duyacaqdı. Və elə o duymağı ilə də Künəgünün həyatına son qoyacaqdı. Bütün bu ehtiyat tədbirlərini gözdən qoymadığından, diqqətindən yayındırmadığından Künəgü vaxtından əvvəl Cahangir Mirzəyə yaxınlaşmırdı. O, əlverişli məqam gözləyirdi ki, Cahangir Mirzəni bir təklikdə görsün, ona bəzi mətləbləri anlatsın. Doğrudur, hələ bura gəlişinin məqsədini Cahangir Mirzəyə tam açıqlaya bilməsə də, onun üçün bir qoruyucu mələk olduğunu artıq hiss etdirmişdi. Cahangir Mirzə bunu duymuş olsa da, üzə vurmurdu. Əsas o idi ki, Künəgü Sələbiyyə xandan gələcək təhlükələri anbaan izləyirdi. O, Cahangir Mirzənin

sağlamlığının keşiyindəydi. Yaxşı bilirdi, Cahangir Mirzənin başından bircə tük əskik olsa, ailəsi hansı məhrumiyyətlər çəkər. Özü də tutulub Amid bəyliyinin iqamətgahına aparılar. Bayandurlar nəslinin görk ağacına bağlanardı. Bəli, Künəgü indiki halda Cahangir Mirzəni özündən çox istəyirdi. Sara xatuna da elə bu lazım idi…

* * *

Gözləri yumulu, bədəni tərpənməz, əl-ayağı hərəkətsiz olsa da, Qazi Bürhanəddinin demək olar şüuru tam özündəydi. Hətta kimin necə nəfəs aldığını hiss edirdi. Gözü sarınmış adam sarığı açılanda kirpiklərini qaldırmağa qorxduğu kimi, o da sadəcə, tərpənməyə cəsarət etmirdi. Elə bilirdi, o, indi nə kirpiklərini qaldıra bilər, nə əllərini hərəkət etdirər, nə də dil-dodağını tərpədər, nə kəlmə kəsər. Ancaq bir tərəfə baxanda o, ətrafında artıq kimlərin olduğunu, kimin nə dediyini, hətta kimin necə, harada, dayandığını hiss edir, anlayırdı. Ən başlıcası, o, necə bu vəziyyətə düşdüyünü artıq kifayət qədər xatırlayırdı. İndi ona tam aydın idi ki, qızı Gülçöhrə ilə bacısı oğlu Əhmədin bağçadakı görüşündən sonra əsəbiləşib, ağır daxili sarsıntı keçirib bu hala düşmüşdü. Qazinin düşüncəsində cərəyan edən hadisələr hara dolansa da gəlib bacısı oğlu Əhmədin üzərində dayanırdı. Artıq ona gün kimi aydın idi ki, Şeyx Məhyəddinin evinə onun dürlü-dürlü hekayətlərinə, söhbətlərinə aludə olub siyasət elmindən kənar qaçan cəng-cidal məşqlərinə davam etməyən, hələ üstəlik atası – Qazinin özü kimi qəzəllər yazan, lirik şeirlər qələmə alan, elm-irfan məclislərində başa çəkilib rübailər söyləyən, tuyuğlar deyən oğlu Elməddin Əli Çələbi nə qədər, Əhməd sağdır, hakimiyyət sahibi olmayacaq. Demək, onun bircə yolu var; elə ayılıb hakimiyyətin gücünü-qüvvəsini nizamlayan kimi, bacısı oğlu Əhmədi hakimiyyətə gətirmək istəyən adamların hamısını və eləcə də bacısı oğlunu da onlarla birlikdə zindana yığacaq, dəmir qəfəslərin qapılarını qı-

fıllayacaq, sonra asta-asta, divan qura-qura hərəsini bir yolla aradan götürəcəkdi. Bu, artıq Qazinin qərarı idi. Bəs onda gözü yaşlı qalan qızı Gülçöhrə, yaxud məhəbbətin, sevginin nakamlığından yaranan dərdlərin çəkilməzliyi necə olsun? Qazi bunları anlayırdı. Ancaq anlasa da istəmirdi bu barədə düşünə. Düşünmək istədiyi, çarəsini tapmaq istədiyi başqa bir məsələ vardı. Bəs indiyə qədər tamam adil hökmdar, ədalətli hakim kimi çıxartdığı ad necə olsun? Axı o, bütün qəzəllərində kamil insanı sevgi ilə tərənnüm edib, qayıdanda, ucalığından bəhs edib. İnsan yalnız özünün pak aləmi ilə Tanrıya qovuşar, – deyib… bəs bunlar necə olsun? Ona görə Qazi Bürhanəddin hər dəfə ayılıb şüuru, düşünmək imkanı tapanda məsələnin bu iki ayrı-ayrı tərəfləri od olub üstünə hücum çəkir, onu alışdırıb-yandırır, için-için qovururdu. Hökmdar görürdü, başının üstündə dayanmış qızı Gülçöhrənin gözlərindən qanlı yaş axır. Bəlkə də atasının bu vəziyyətə düşməsində elə özünü birinci günahkar sayırdı. Axı necə oldu ki, Gülçöhrə könlünü elə gözünü dünyaya açan kimi qarşısına çıxan birinci gəncə – bibisinin oğlu Əhmədə verdi? Artıq Gülçöhrəyə məlum olmuşdu ki, atası bu sevginin qəti əleyhdarıdır. Atası istəmir ki, o, yəni doğmaca qızı halal sevgisini qoruyub saxlasın. O, istəyirdi ki, əgər Əhməd Gülçöhrənin ürəyidirsə, qoy Gülçöhrə sinəsini parçalayıb oradan Əhmədin eşqilə döyünən o qanlı ət parçasını qoparıb külli-aləmin gözü qabağında yerə çırpsın.

Qaziyə elə gəldi, onun gözlərinə qan doldu. Amma Şeyx Məhyəddin gördü ki, Qazinin tərpənməyən kirpiklərinin arasından büllur yaş damcıları süzülüb yanaqları boyu üzüaşağı gəldi. Ancaq Qazi arxası üstə uzandığından göz yaşları eləcə göz qapaqlarından bir azca aşağı, bəbəyinin altındaca göllənib qaldı. Hərdənbir pəncərədən düşən günəş şüalarının işığında bu göllənmiş göz yaşları bərq vururdu. Özü də hər iki gözündən eyni qədər yaş çıxmışdı. Və daha axmırdı. Sanki bulağın gözü açıldı və birdən qapandı.

Bu anlarda Qazi bir qədər şüurunu itirmiş kimi oldu. Sanki, dayaz, yarımhuşsuz bir vəziyyət üstündən yuxu kimi adladı. Amma tezcənə də şüuru üstünə gəldi. Başını qaldırmağa çalışdı. Əllərini yan tərəflərinə dayaq vermək, ayağa durmaq istədi.

Şeyx onun düşüncəsindən nələrin keçdiyini bildiyindən təlaş keçirmədi. Ancaq əlini qabağa uzadıb sol qolunu Qazinin başının altına tutdu, bir növ ona dayaq oldu. O biri əli ilə də sinəsinin üstündə olan ağ dəsmalı götürüb onun gözünün qabağını, yanaqlarını islatmış göz yaşlarını qurutdu. Qazi yenə haldan düşdü. Şeyx onu yavaşca yatağına uzatdı. Bildi ki, Qazi yenə dinləyir. Ancaq nə qədər dinləsə də, onun söhbətlərindən Şeyxin istədiyi nəticəni çıxarmır, özünün qəddarlıq qanunları ilə hakimiyyəti qorumaq istəyinə uyğun qərar verir. Şeyx başa düşürdü ki, Qazi Bürhanəddini əsəbiləşdirən elə budur. Bəlkə də Qazi əgər səhhətini bərpa edib ayağa qalxa bilsə, oğlunu hakimiyyət dərslərindən ayırmış bu Şeyxi də cəzalandıracağını qətiləşdirəcəkdi. Şeyx isə bilirdi ki, hələlik Qazinin onunla işi yoxdur. Şeyx Məhyəddin qədər Qazinin sadiq bir təbibi, savadlı bir loğmanı yox idi. Üstəlik, bu gənc Varis də hələ qədərincə yetişməmişdi. Onun mənən boy atıb düşüncə sarıdan, elm sarıdan gəlib Şeyx Məhyəddini əvəz eləməsinəcən nə qədər vaxt gərək idi. Bir də məgər oğlu Əhmədin sağ qalmağında, uşaq vaxtı keçirtdiyi xəstəliklərdən ölməyib atasının gözünə çıraq olmağında Şeyx Məhyəddinin azmı xidməti vardı?

Bütün bunların hamısını Qazi Bürhanəddin də, eləcə Şeyx Məhyəddin də yaxşı bilirdi. Qazinin Şeyx Məhyəddini öldürməyə əli qalxmazdı. Şeyx Məhyəddin də iki dünya bir olsa belə Qaziyə xəyanət etməzdi. Amma Şeyx Məhyəddin iyirmi il ərzində Əhmədi elə böyütməyə çalışmışdı ki, təkcə atasının varisi yox, həm də elə məmləkətin elm, savad sarıdan ümidi, birinci şəxsi olsun. Xalq onu sevsin, ağzını açanda nə dediyini qədərincə anlasın. Şeyx Məhyəddin üçün dünyanın dəyəri elm idi, bilik idi, təbabətdi… İn-

diki halda Qazi üçün həyatın mənası hakimiyyət idi. Bütün ömrü boyu Qazi ikili bir həyat yaşamışdı. Bir tərəfdən hakimiyyətin, məmləkətin sahibi olaraq hökm verməyin şirinliyindən həzz almaq, başqa tərəfdən elmin və şeiriyyətin gətirdiyi mənəvi zənginlikdən zövq duymaq. Bax, bu iki hiss həmişə onun təbiətində ikili varlıq kimi özünü diktə eləmişdi.

Qazi Bürhanəddin qonşu əyalətlərin hakimləri ilə dil tapmaqda, onlarla yollaşmaqda mahir idi. Və onun bir üstünlüyü də bundan ibarət idi ki, o, hakimiyyətdə, idarəetmədə kimin hansı bacarığa malik olduğunu dərhal dişinə vururdu. Bu səbəbdən onun hərbi qüvvələrinin əsas zərbə endirən dəstələrinə igid və kifayət qədər yaşa dolmuş digər bir bacısı oğlunu – Qara Yuluq Osmanı təyin eləmişdi. Qara Yuluq Osman həm oğlu Elməddindən, həm də bacısı oğlu Əhməddən yaşca xeyli böyük idi. Hərbi qüvvələr arasında kifayət qədər nüfuzu vardı. Dayısının – Qazi Bürhanəddinin hər bir tapşırığına can-başla «hə» deyir, sözsüz icra edirdi. Əlbəttə ki, ağıllı tapşırıqları, düzgün, ədalətli hökmlərilə. Qazi Bürhanəddinin yaratdığı böyük bəyliyin taleyinə yaxşı təsir edəcək, məmləkətin xeyrinə olacaq bütün tapşırıqlardan söhbət gedir. Qazi Bürhanəddinə görə, əgər xoşagəlməz, ədalətsiz bir əmr versə, Qara Yuluq Osman gözüyumulu icra eləməz, mütləq tədbiri ləngidər, bir yolla Qazi Bürhanəddinlə görüşüb bu işin nə ilə nəticələnəcəyini izah edər, bir sözlə, son nəticədə onu qərarını dəyişdirməyə, daha ədalətli bir hökm verməyə sövq edərdi.

Qazi anlayırdı ki, əgər ayılıb təmizləmə işlərinə başlasa və bu işləri Qara Yuluq Osmana həvalə eləsə, yenə çoxlu əngəllər ortaya çıxacaq. Bəlkə Qara Yuluq Osman heç onun tapşırıqlarına əməl eləmədi, bəlkə elə bu dikbaş cavan əlində olan hərbi qüvvələri onun əleyhinə çevirdi. Bəs onda necə olsun?

Deyəsən, Qazi Bürhanəddin yorulmuşdu. Əlinin işarəsi ilə hər şeyin fani olduğunu, hər şeyin uca Allahın ixtiyarında olduğunu bildirmək istəsə də, heç barmağını da tərpədə bilmədi, nəinki əlini,

qolunu… Bəlkə sağ əlinin şəhadət barmağı cüzi titrədir. Şeyx hamıya işarə elədi ki, sakit olsunlar. Heç kim dinib-danışmasın. Şeyxin özü düşünürdü ki, o, başına gələn qəziyyəni danışmaqla, haqdan gələn bir sevginin qarşısına sədd çəkməklə Tanrı yanında nə qədər günahkar olduğunu Allah bəndəsinə, insan oğluna başa sala bilməyib. Amma o, əhvalatın gerisini danışmaq istəyirdi. Bəlkə son nəticədə Qazinin daşa dönmüş qəlbi yumşaldı? Bəlkə, anladı ki, o, bu iki gəncin sevgisinin arasına sədd çəkib onların hər ikisini kamsızlıq odunda yandırmaq istədiyinə görə Allahın ona qəzəbi tutub?.. Əlbəttə, Şeyxə əyan idi, Qazi qızı ilə bacısı oğlu Əhmədi bağçada görəndə hansı halı keçirib. O, necə əsəbiləşib, qanı necə başına vurub… Keçirdiyi dəhşətli sarsıntının nəticəsi olaraq bayılıb və indiki vəziyyətə düşüb. Amma Şeyx ona şükür edirdi ki, Qazinin beyninə qan sıza bilərdi və bunun nəticəsində onun gözləri kor olar, dili tutular, yaxud bədəninin bir tərəfi hərəkətdən qalardı. Amma Şeyx uzun illərin təbiblik təcrübəsindən başa düşürdü ki, Qazi uçurumun lap başında dayanıb. Bu bəlaların heç biri onu tapmayıb. Ağır, sarsıdıcı an onun üstündən elə keçib ki, beyin damarları partlamayıb. Bir sözlə, Şeyx Məhyəddin bilirdi ki, sadəcə, vaxt lazımdır Qazinin bərpasına. Vaxt gəlib keçməli, zaman ötməlidir ki, Qazi tam ayılsın. Bu, onun səhhətinin bərpası demək olacaqdı. Bəs onun inamını necə bərpa etməli?

Şeyx Məhyəddin bütün Şərqi gəzmişdi. Neçə-neçə hökmdarların sarayında qonaq olmuş, onların ağır xəstə olanlarının çarəsini bulmuş, neçə-neçə dərdli kimsələrinə şəfa bəxş etmişdi. Bütün bunlarla bahəm onu da görmüşdü ki, hökmdarların hakimiyyət hərisliyi qarşısında dünyanın heç bir həqiqəti davam gətirə bilmir. Çünki onların demək istədiklərini iti ağızlı qılıncları deyir. Ona görə də, kimsə cəsarət edib, bir hökm sahibinin qabağında həqiqəti deyə bilmir, yalan danışır. Beləcə, hökm sahibləri üçün dünyanın bircə üzü olur. O da onların tanıdıqları, onların əmrlə görmək istədikləri üzü. Bəli, elə Şeyxə hökmdarın gözü ilə ba-

xanda dünyanın həmin üzü daha qəddar və qorxulu görünürdü. Şeyx çıxılmaz vəziyyətdəydi, əgər Qazi Bürhanəddin ayılana qələr onun ürəyini yumşaltmasa, könlünə insanlıq toxumu səpməsə, çətin olacaq. Bir də o var ki, Şeyx ümidsiz deyildi. Axı həmişə Qazi Bürhanəddinin təbiətində ədalət də görmüşdü. İndi necə ola bilərdi ki, onun könlünün haqq-ədalət qapısı birdən-birə bərk qapansın? Şeyx ümidli idi ki, onun könlünün zalımlıq qapısını bağlaya biləcək, qəddarlığa tərəf siyrilmiş qılıncını qaytarıb qınına qoymağa məcbur edəcək. Bunun üçün birinci növbədə gərək Gülçöhrəni və Əhmədi xilas eləsin. Bütün məsələlərin başında bu mətləb dayanırdı. Əgər Əhmədi və Gülçöhrəni xilas eləməsə, onda Şeyxin qəlbində təzədən əkməyə çalışdığı xeyirxahlıq toxumları başdan-başa yanacaq, hələ heç cücərib bir yaz yağışına da çatmayacaqdı. Yox, əgər bu ədalət toxumlarını, bu xeyirxahlıq fidanlarını qoruyub-saxlaya bilsə, yəni Əhmədlə Gülçöhrənin sevgilərini qorumağın Allah yanında nə qədər üstün bir dəyər olduğunu Qaziyə başa sala bilsə, onda nə qədər günahsız adamın da hakimiyyətin içindəki günahlı hakimiyyət hərislərinə qarışdırılıb öldürüləcəyi şəksizdi. Bu da qədər, nahaq qan demək idi. Bütün bunları Şeyx gözünün qabağına gətirir, bu ikili mənzərənin içindən özünün də necə sağ-salamat çıxacağını təsəvvürünə gətirməkdə çətinlik çəkirdi.

* * *

…Dürdanənin atası səhərin gözü açılmamış Qazinin divan daşının yanına gəldi. Qaziyə bu daş atasından miras qalmışdı. Atası oğluna danışırdı ki, bu daşı uzaq dağlardan – kimsənin gedib çıxa bilmədiyi bir yerdən carcarla sürüyüb gətirmişdi. Daş zahiri formasına, görünüşünə, hətta rənginə görə yerli daşlara bənzəmirdi. Sonralar onu görənlər deyirdilər ki, bu daş elə Məkkədəki daşın əkiz tayıdır. Əlbəttə, söhbət onda deyildi ki, elə həmin daşın bir parası Məkkəyə, bir parası da gəlib Diyarbəkir tərəfə çıxıb.

Hər halda insanlar bu daşın qeyri-adiliyini nəzərə alır, görür, təbiətin möcüzəsi adlandırırdılar. Amma Qazinin atası həmin daşı dağlardan carcar üstündə öküz arabası ilə sürüyüb gətirmiş, müqəddəsləşdirmiş insanlara göydən düşmüş daşın ədalət rəmzi olduğunu anlatmaq istəmişdi.

Qazinin atası ömrü boyu bu daşın üstünə pənah gətirmiş adamları həmişə axıracan diqqətlə dinləməyə çalışmış, onların nə demək istədiklərini, nəyi arzuladıqlarını, bir sözlə, istəklərində nə dərəcədə haqlı olduqlarını rəylərini öyrənməyə çalışmışdı. Əgər sonra bir kimsə desəydi ki, mən Qazinin ədalət daşının üstündə oturdum, amma ədalət görmədim, onda Qazinin atası özünü xəcalətli sayardı. Məsələnin təzədən köklü şəkildə araşdırılmasına sərəncam verərdi. Özü işi nəzarətdə saxlayardı. Əgər şikayətçi ikinci cəhddən sonra haqlı olardısa, Qazi günahkarları – məsələni aydınlaşdıran vəkilləri cəzalandırardı. Yox, əgər günah birbaşa onun özünə yönələrdisə, onda həmin şəxsə maddi təzminat verər, razı yola salardı.  Zərərini ödəyərdi, üstəlik özü xəlvətə çəkilər, Tanrıya dua edərdi ki, günahı bağışlansın. Yox, əgər həmin şəxs yalandan şayiə yaysaydı, onda cəzasını həmin şəxsi camaat qabağına çıxarmaqla ona «lənət» elan eləyərdi. Adamlar da bundan özləri üçün nəticə çıxarardılar. Hər kəs çalışardı ki, hökm-fərman sahibinin ünvanına şər, böhtan yağdırmasın. Bu şər-böhtan son nəticədə iftira atanın özünə yönəlir, onu cəza ayağına gətirib çıxarırdı. Beləliklə, insanlar arasında mizan-tərəzi formalaşırdı. Hər kəs ölkədə nizamı qorumağa çalışırdı. Bir kimsənin ağlına gəlmirdi ki, biri şər desin, böhtan söyləsin,  günah işlətsin, o da cəzasız qalsın. Qısası, Qazi Bürhanəddin belə bir mühitin içində boy atmış, böyümüşdü. Və gəlib qazilik mərtəbəsinə yüksəlmiş, həmin daşı divan qapısının qabağında qoydurmuşdu. Uzun illər qaziliyin ədalət mənsəbini elə bu daşın şahidliyi ilə keçirmişdi. Sonra hakim olanda da, məmləkətin ixtiyaratı əlinə keçəndə də daşı yenə özünün divan binasının qabağında saxlatdırmışdı. Özü

də bütün fərraşlara, nəzarət işçilərinə tapşırmışdı ki, bir kimsə bu daşa yaxınlaşarsa, ona toxunmasın. Ancaq daşın yanında qalıb iddiasını, istəyini axıracan tələb eləyənlərin adlarını siyahıya salsınlar, onları hüzuruna gətirsinlər. O da həmin siyahılar üzrə hər kəsi şikayətinə görə ünvana uyğun göndərər. Son nəticəsi ilə maraqlanardı, kim razı qalıb, kim narazı. İkinci dəfə həmin narazıları özü şəxsən qəbul edərdi. Yalnız bundan sonra məsələnin nə dərəcədə doğru həllini tapdığına onda əminlik yaranardı. Zaman heç Qazinin gözünü qırpmasına da imkan vermədi, elə sürətlə gəlib keçdi ki, Qazi bir də gözünü onda açıb gördü ki, artıq atasının da yaşını keçib. Heç də atasından az hörmətli deyil. Bütün məmləkətdə onun ədalətli bir hökmdar olduğu haqqında söz-söhbətlər dolaşır. Əgər bir uzaq kənddə yerli məmur bir kəndlini incidərdisə və həmin sakin «dəvədən böyük fil də var» deyib Qazinin yanına gəlib, hüzurunda o adamın bəd əməllərindən söhbət açaçağını bəyan edərdisə, həmin zalım şəxs özü həmin kəndlinin ayağına düşər, yalvarardı ki, təki şikayətə getməsin. Əlbəttə, Qazinin həqiqi ədalətinə inanan məmuriyyət qorxmaz, çəkinməzdi. Əgər əməllərində haqlı idilərsə, bütün bunlar onu göstərirdi ki, Qazi ədalətsizləri cəzalandırmağı bacarırdı, amma şər, böhtan deyənləri də cəzasız buraxmırdı.

Dürdanənin atası səhər tezdən kəsdirmişdi qara daşın yanını. Divan adamları ona yaxınlaşıb nə dilək üçün gəldiyini soruşsalar da, kimsəyə bir söz demirdi. Hətta ona dolanışığının, vəziyyətinin çətin olduğu üçün gəldiyini soruşanlar da vardı. Bəlkə elə onun bir cüt öküzə, bir xışa gümanlı olduğunu düşünüb hər cür köməyin mümkünlüyünü deyənlər vardı. Yenə Dürdanənin atası susur, səsini çıxarmırdı. Sanki dili tutulmuşdu. Bir kəlmə sözü də, dilindən döndərib dodağının arasından çıxara bilməzdi. Ağzını elə qıfıllamışdı ki, deyərdin, bu kişi ömrü boyu bir kəlmə söz danışa bilməyib. Belə olan halda onun haradan gəldiyini öyrənmək istədilər. Ayrı-ayrı kəndlərinin, əyalət adamlarının naiblərini ça-

ğırdılar. Hayladılar ki, gəlin, görün bu kişi kimdir, nə istəyir? Gələnlərin hamısı çiynini çəkdi. Elə bu vaxt təsadüfən divan qabağından keçən baş əyan, Qazinin məmləkətini idarə edən şəxs ayaq saxladı, diqqətlə baxdı. Və Dürdanənin atasını, özünün uşaqlıq dostunu tanıdı. Onun nə məqsədlə, niyə gəldiyini yetərincə bilməsə də dalağı sancdı. Canından üşütmə keçdi. Bu kişi Qazinin hüzurunda nə deyəcək, Qaziyə nəyi anladacaq və Qazidən nə istəyəcəkdi? Əyan oğlunun atası şübhənin qaraqızdırmasına düşdü. Bu qaraqızdırma onun canına elə sirayət elədi ki, o, az qala yolunu çaşsın. Əvvəlcə titrətmə dizlərindən başladı, ayaqları yerə dirəndi, nə illah elədi, addım ata bilmədi. Sonra  yerində dayanıb canındakı əsməcənin keçməyini gözlədi. Əsməcə də ki, heç ötüb keçmək bilmirdi. Handan-hana özündə cəsarət tapıb daha irəliyə – saraya tərəf yox, üzü qara daşa tərəf döndü. Çünki ona elə gəlirdi ki, saraya tərəf gedən yolun qabağına onun gəlininin – Dürdanənin atasının gözəgörünməz gücü, qüdrəti ilə bir divar sipəri çəkilmişdi və o da bu divar sipərindən heç cür keçib adlaya bilməzdi. Onun bircə yolu qalırdı. Dönüb Dürdanənin atasına tərəf getmək. Və o da bu yolla gəldi. Adamlar onun gəldiyini görüb kənara çəkildilər. Əlbəttə, bu baş əyan idi. Onun sözünün qabağında yalnız bircə kimsə – Qazi Bürhanəddinin özü söz deyə bilərdi. Və əgər Qazi ortalıqda yox idisə, onda hökmfərman sahibi bu baş əyanın özü idi. Ona görə külli-ixtiyar sahibi kimi buraya yaxınlaşan baş əyan əslində özü öz qəlbindən, ürəyindən, ruhundan titrəyirdi. Heç həmin andaca ondan soruşan olsaydı ki, «sən niyə titrəyirsən, nə üçün əsirsən, sənin qorxun nədəndir, axı məmləkət elə Qazi Bürhanəddindən qabaq sənə hesabat verir, bəs onda nə səbəbə səni belə əsməcə tutub?» Baş əyan həmin andaca bu sualların heç birisinə cavab da verə bilməzdi. Çünki əvvəla, bu kişinin nə səbəbə gəldiyini dəqiq, yerli-yerində dürüst bilməsə də, məsələnin onun oğlu və gəlini ilə bağlı olduğundan şübhəli idi. Elə bu şübhənin özü bir hakimi-qüvvəyə çevrilib onun ruhu-

na sahib çıxmışdı. Deyəsən, həmin şübhə haradansa, qorxunc bir sədaya çevrilib onun qulaqlarına pıçıldayırdı ki, sən günahkarsan. Bütün günahların sahibi özünsən. Sən bu günahlarına görə cavab verəcəksən.

O da vaxt tapıb qulaqlarına qorxulu sözlər pıçıldayan o şəxsin özünə bircə kəlmə ilə cavab verə bilmirdi ki, axı mənim günahım nədir? Sən nəyə görə məni belə qara-qorxu altına almısan? Mən axı bir kimsənin haqqını danmamışam. Həqiqətən də bu baş əyan Qazi Bürhanəddinin haqq-hesab məsələlərində etimadını doğrultmuş adam idi. Və bütün haqq-hesabları həmişə Qazi Bürhanəddinin hüzurunda dəqiqliklə başa çatdırardı. Bir kimsə deyə bilməzdi ki, baş əyanın haqq-hesabı haradasa dolaşığa düşüb, əlbəttə, bütün əyalət hakimlərindən, eləcə də ərazi məmurlarından gələn haqq-hesabları özü təndürüst edərdi. Öz payını da çöldən-çölə alardı. Kağız üstündəki, dövlətin özünə aid olan sənədlər həmişə, özü demiş, sonuncu dinarına, dirhəminəcən düz gələrdi. Bəs onda kimsə soruşsaydı ki, baş əyanın bu qədər varı-sərvəti haradandır? O da bu suala belə cavab verərdi ki, Qazi Bürhanəddinin kəraməti sayəsində qazandığımızın hamısı halaldır. Ancaq bir kimsə bilməzdi ki, əyalətlərdə işləyən bütün su dəyirmanlarının gəliri onun kisəsinə axır. Bütün meşələrin ixtiyarı dövlətdə olsa da, ordan bir kimsənin bir çırpı kəsməyə ixtiyarı olmasa da, arabalarla daşınan odunlar, tirlər, dirəklər hamısı dinara, dirhəmə çevrilib onun kisəsinə dolardı. Hələ hökmdarın ixtiyarında olan boş ərazilərdə nə qədər qoyun sürüləri, mal-davarı vardı. Bütün bunların hamısı gəlir kimi yalnız baş əyanın özünə məxsus idi. İndi baş əyan bu məsələlərin çözülməyindən nigaran deyildi, çünki bu işlərin nə qədər dolaşıq bir kələf olduğunu və o kələfin ucunun öz əlində qaldığını yaxşı dərk edirdi. Özünün dili açılıb bu məsələləri çözmək istəyi olmasaydı, heç bir kimsə bu işlərdən baş çıxara bilməzdi. Baş əyan nə üçün qorxduğunun səbəbini qədərincə bilməsə də, sövq-təbii anlayırdı ki, bu kişinin buraya gəlişi xeyirə

heç nə demir. Yavaş-yavaş huşu özünə gəlirdi. Ağlı başına toplanırdı. Bayaqdan sanki bütün məmləkətin üstünə səpələnmiş düşüncələri bir yerə cəmlənirdi. Axı, bu kişinin qızı onun evində gəlin olub, nə qədər olmasa, gələndən-gedəndən xəbərdar tək, o, az-çox baş əyanın evinə kimlərin gəlib-getdiyindən məlumatlıdır. Belə olan təqdirdə birdən bu kişi baş əyanın gəlirlərinin atkeçməz tərəflərindən söhbət açar. Bəs onda Qaziyə nə cavab verər? Və bu kişi də bu daşın üstünə çıxıbsa, demək onun məqsədi məhz Qazi Bürhanəddinin özü ilə görüşməkdi.

Baş əyanın əli-ayağı yerdən-göydən üzüldü. Ha əl atdı ki, Allahın ətəyindən tutsun, əli çatmadı. Ha ayağını yerə bərk dirədi ki, yerin üstündə möhkəm dursun, gördü, ayağı yerin üstündə durmur. Yenə də Allaha təvəkkül dedi. Yenə də «Ya Allah, ümidim sənədir – dedi. – Qaçan da Allah deyib, qovan da».

Bəlkə onun axırıncı sözlərini özündən qeyri-ixtiyari necə deyib-deməyinin fərqinə varmadan dilindən çıxartdığı üçün, hansı səslə tələffüz etdiyindən xəbəri olmadığı üçün elə yaxındakılar da eşitdilər. Onun özünə cəsarət edib bir söz deyə bilməsələr də, üzünə təəccüblə baxdılar. Görəsən, bu kişi nə deyir? Niyə belə öz-özünə danışır?

Başqa vaxt olsaydı, baş əyan ətrafdakıların ona belə təəccüblə baxmaqlarını fərqinə almazdı, bəlkə heç onları adam yerinə qoymazdı. İndi bir növ quyruğu qapı arasında qalmışdı. Özü də taleyinin nə ilə nəticələnəcəyinin daha fərqində deyildi. Lakin başının fərmanda olduğunu bilən və edam qabağına gedən bir adam ömrünün nə qədər uzanacağının fərqində olduğu qədər düşünürdü. Yəni ətrafdakıların daha ona hörmət göstərib-göstərmədikləri bir əhəmiyyət kəsb etmirdi. Kəsəsi, baş əyan kişinin yanına çatanacan ondan nə soruşub, hansı cavab alacağını götür-qoy edirdi. Təki kişinin ağzını döndərmək mükün olaydı. Əgər su bir tərəfi yuyub aparırsa, gərək onun qabağını dəhnədən kəsib döndərəsən, yoxsa bütün əkinin hamısını ağzına alar, basıb aparardı. Düz

Dürdanənin atasının hüzurunda dayandı. Və üzbəüz surətdə gözlərinə baxdı. Həm də elə nəzərlərlə baxdı ki, diqqətin altında gərək bu kişi əzik-əzik olaydı, mum kimi əriyəydi. Xıncım-xıncım olaydı. Amma gördü ki, Dürdanənin atasının baxışlarında bir yazıqlıq, imdad diləmək hissləri oxunsa da, ümidini təkcə onun özünə bağlamır. Bu dilsiz baxışlarla baş əyanın özünə diktə eləyirdi ki, sən gəl, allahsızlıq eləmə, mənim qızımın taleyi ilə oynama. Onu azad burax.

Baş əyan isə sözlə ifadə olunmayan baxışları ilə ona deyirdi ki, ağlını başına yığ. Haradan gəlmisən, oraya qayıt. Hələ üstəlik, bunu da təlqin edirdi ki, sənə dəyib-dolaşmaram da. Peşman olduğunu bildir və geri dön.

Amma Dürdanənin atası bu qəzəbnak baxışların altında dözüb durdu, dayandı, heç pəsinmədi də. Yəni onun yazıqlıq qarışmış baxışlarından baş əyan hiss elədi ki, bu kişi buradan dönüb gedəsi deyil. Baş əyan adamlara göstəriş verdi ki, bir qədər kənara çəkilsinlər.

– Bəndalı kişi, sənin nə səbəbə gəldiyini bilirəm.

– Əgər bilirsənsə, onda mənim qızımı azad burax.

– Sənin qızın mənim oğlumun kəbinli arvadıdır. Onu mən yox, mənim oğlum boşaya bilər.

– Onda oğluna de ki, mənim qızımı boşasın. Talağını versin.

– Mən onun əvəzindən hökm verə bilmərəm.

– Əgər sənin oğlun boşamasa, mənim qızım dərddən öləcək.

– Bəndalı kişi, ağlını başına yığ. Qızına de ki, ərinin evinə qayıtsın. Ərinin evində ölən qadının yeri cənnətlikdir.

– Əgər ər evi cəhənnəmdirsə, ora necə qayıtmaq olar?

– A kişi, sənin bu gün özündən aşağılara ağıl vermək vaxtındı. Get qızından yaxşı soruş, gör o nə düşünür, məqsədi nədir?

– Bir vaxt məni də, qızımı da aldadıb demək olar ki, məcburən almısınız, özü də sənin oğlun yox, sənin özünlə birgə. Varına, dövlətinə güvənib almısan. Divandakı vəzifənə, mənsəbinə gü-

vənib zor göstərmisən. Mənim də gözüm bağlanıb, elə bilmişəm ki, var-dövlət içində qızım xoşbəxtlik tapacaq. Ancaq siz mənim qızıma yalnız dərd-bəla vermisiniz…

– Bəndalı kişi, sənin qızın mənim oğlumun kəbinli arvadıdır. Əgər bu tələblə bu daşın üstünə gəlmisənsə, haqsızsan. Özün də cəzalana bilərsən. Mən sənə şəriətin hökmü nəyi deyirsə, onu deyirəm.

Baş əyan doğru deyirdi. Bəndalı kişinin tələbi şəriətin hökmündən asılı idi. Əvvəlcə ona qazilər baxmalı, hökm çıxarmalı idi. Baş əyana da məlum idi ki, onun tələblərini Qazi bilən kimi müvafiq şəriət hakimlərinin üzərinə göndərəcəkdi. Baş əyan da bayaqdan bəri keçirtdiyi təlaşların mənasız olduğunu anladı. Bütün şəriət hakimləri onun əlində deyildimi?

* * *

Baş əyan ətrafına göz gəzdirdi. Gördü ki, kimsə ona tərəf baxmır. Heç onu görən də yoxdu. Ayağının ucu ilə Bəndalı kişinin qıçına toxundu. Və həmin anda Bəndalı kişinin gözünün içinə baxdı.

Bəndalı kişinin bəbəklərinin dərinliyində bir inamsızlıq, kədər qarışıq şübhə gördü. Elə bu şübhənin özü bəs eləyirdi ki, o, Bəndalı kişinin ürəyindən keçənləri anlasın.

Baş əyan gözünün gördüyünə arxayın olaraq güman elədi ki, bu kişi əgər buraya şikayətə gəlibsə, demək, heç geri çəkiləsi deyil. Bəndalı kişi qızı Dürdanənin taleyini heç şübhəsiz, dünyanın ən böyük Allahsızı və dinsizi hesab etdiyi bu adamın öhdəsinə buraxmaq istəmirdi. İstəmirdi ki, bu qəddar insan son nəticədə qızı Dürdanənin taleyini həll edəcək bir tanrı timsalında olsun. Ona görə də əyan oğlunun atasına gözünün ucu ilə baxdı. Amma özünü saxlaya bilmədi:

– İstədiyin nədir? – deyə soruşdu. Bəlkə də heç bu sual əyan oğlunun atasına ünvanlanmamışdı. Hər halda Dürdanənin atası

Bəndalı kişi sualı vermişdi. Ona görə, onun nə cavab verəcəyini mütləq gözləməli idi. Əyan oğlunun atası da kişinin «istəyin nədir» sualını beynində çox çək-çevir elədi. Xeyli düşündü, daşındı. Bəlkə də bu düşünüb-daşınmağı vaxtı o qədər də çox olmadı. Amma əyan oğlunun atası bu sualı fikrində o yana-bu yana çevirdi. Və son nəticədə bu kişiyə verəcəyi cavabı araya-ərsəyə gətirməli oldu:

– Mənim istəyim sənin qızınla bahəm oğlumun sultan hüzurunda hörmət-mənsəb sahibi olmağıdır. Əyan oğlunun atası elə beləcə dedi. Və üstəlik, Bəndalı kişinin üstünə elə yeridi ki, sanki bununla ona demək istəyirdi, sən lap kim olursansa ol, son nəticədə mənim dediyim daha üstündür. Yəni ki, əyan oğlunun atası demək istəyirdi əgər sənin heç bir narazılığın olmasa, əgər qızın Dürdanə ağıl və başla qayıdıb gəlib mənim evimdə gəlin olacaqsa, onda Qazi Bürhanəddinə də mən qədərincə məlumat vermək, bilgi vermək iqtidarındayam ki, oğlum gələcək dövlət qulluğuna layiq bir simadır. Bir sözlə, Qazinin nəzərində biz sağlam ailə sahibi, hörmət-izzət sahibi olan bir ailə kimi görünməliyik. Əlbəttə, əyan oğlunun atası Bəndalı kişinin qızından sonra oğlunun aldığı arvad haqqında heç bir məlumatı dilinə gətirmirdi. Yəqin Qazi Bürhanəddinin hüzurunda da bu barədə heç nə danışmayacaqdı. İşin əsas mahiyyəti bundan ibarət idi ki, Qazi dövlət qulluğuna götürdüyü adamların mənəvi keyfiyyətlərinə üstünlük verirdi. Çünki Qazi sevgi ilə ailə həyatı qurmuşdu. Başqa əyalətlərdəki hökmdarların, sultanların hərəmxanlar haqqında əhvalatlarına bir əfsanə, nağıl kimi baxırdı. Onun ağlı, düşüncəsi qətiyyən qəbul eləmirdi eyni vaxtda başqa bir qadını necə sevmək olar? Bu ünsiyyəti məhəbbət kimi təlqin edib necə fədakarlıq göstərə bilər? İkinci bir qadın üçün necə, hansı səviyyədə fədakarlıq göstərmək mümkündür? Qazi Bürhanəddin belə adam deyildi. Çünki qeyri məmləkət hökmdarlarının saray həyatı haqqında o da qədərincə məlumatlı idi. Yaxşı bilirdi ki, istər Osmanlıların, istərsə də başqa

qonşularının saraylarında çoxlu qadın və qız hakimiyyət sahibinin ixtiyarındadır. Amma Qazi gözünün ucuyla da olsun bir özgə qadına tamah salmırdı. Bunun əvəzində qeyri məmləkətlərin hökmdarları ona hədiyyə olaraq çoxlu qız, kəniz göndərirdilər. Məktublarında onu şirnikləndirir, dünya nemətlərindən kam almağa çağırırdılar. Qazi bu məktublardakı nə şirnikləndirici təkliflərə, nə də göndərilən bakirə qızlara diqqət kəsilmirdi. Qazinin bu qüdrəti, bu ləyaqəti az zaman keçməmişdi ki, hər tərəfə yayılmışdı. Üstəlik, müharibələrdə əsir düşən qızların taleyi də Qazi Bürhanəddinin ixtiyarında idi. O, hər bir əsir düşən qızın ailə həyatını, kimliyini dəqiq öyrənər, həmin gəncləri nəzarətə götürərdi. Hansı qız hansısa bir oğlanla tanış olub ona evlənmək istəyini bildirənəcən Qazinin ixtiyarında olardı. Təsadüfi deyildi ki, Qazi Bürhanəddin ədalətli hökmdar kimi şöhrət qazanmışdı. İndi bütün bunlar zaman keçdikcə gəlib əyan oğlunun atasının gözlərinin qabağından keçirdi. O, Qazi Bürhanəddinin gənclərlə bağlı gördüyü işləri və bütün insanlara tövsiyə elədiyi məsləhətlərin hamısını yadına salırdı. İndi belə bir vəziyyətdə o, Qazi Bürhanəddinin yanına gedib əgər desəydi ki, sən gəl mənim dediyimə qulaq as, mənim nə dediyimin fərqində ol, sonda o, bu sözləri ilə bəlkə də Qazi Bürhanəddini inandıra bilərdi, amma birdən əgər Qazi Bürhanəddin məsələnin kökü ilə maraqlanıb bilsəydi ki, Bəndalı kişinin qızı aldadılıb, onun, baş əyanının evinə gətirilib, onda bu baş əyanın da, onun oğlunun da taleyi necə olacaqdı? Bu, şübhə altında idi. Bütün bunların hamısını düşünən əyan oğlunun atası Bəndalı kişiyə yumşaq, bəlkə də yalmanma istəyi ilə dedi:

– Bəndalı kişi, gəl, sən çıx get evinə. Mən bütün məsələləri yoluna qoyaram.

Böyük əyanın kasıb bir kişiyə bu cür münasibəti bəlkə də kənardan baxan üçün bir insani münasibət, bir layəqət münasibəti idi. Əsl həqiqətdə isə məsələ baş əyanın Bəndalı kişiyə müraciəti

mahiyyətində deyildi, çünki baş əyan bu yaltaqyana münasibəti ilə Bəndalı kişini elə buradan qaytarıb öz evinə göndərmək niyyətindəydi. Yerdə qalanını şikayətsiz-filansız özü həll edə biləcək düşüncəsində idi. O, Bəndalı kişinin gözlərinin içinə baxanda bir qəzəb gördü. Və bu qəzəbdən gözlərini yayındırıb hansı zərbə alacağını – məğlubiyyətini bəri başdan görən döyüşçü görkəmi aldı.

– Yox, hörmətli baş əyan, mən bura Qazi Bürhanəddinlə görüşmək üçün gəlmişəm. Sən məni hamının haqqı olan bu görüşdən məhrum edə bilməzsən.

Baş əyan indiyə qədər məmləkətin gözünün dikəcəyi olduğu məşhur daşa diqqətlə baxdı. Elə bil ki, bu kişinin – gözünün qabağındakı kasıb kişinin daşın üstündəki görkəmini görəndə, onun hansı gücdə və qüdrətdə olduğunu gördü. Və sanki özü hiss elədi ki, bu gücün, qüdrətin qabağında daha aşağıdır. Səsi, sözü daha təsirsizdir, çünki iqamətgahın qabağındakı böyük daşın üstünəcən gəlib çıxmağın özü qəhrəmanlıqdır. Kişi də bütün imkanlarını səfərbər edərək elə bu haqq tərəzisinin üstünəcən gəlib çıxıb. Baş əyana qəribə gəlirdi; necə olub, Bəndalı kişi buraya qədər gəlib? Axı asanlıqla hökmdar daşının üstünə gəlib çıxmaq hər kəsə nəsib olan şey deyil. Baş əyan onu unudur ki, qohumu Bəndalı kişi Qazi Bürhanəddinlə görüşmək istədiyini bildirəndə haqqında hər cür məlumatı soruşurlar. Bu ərazini qoruyan adamlar baş əyanın qudası Bəndalı kişinin bütün həyat tarixçəsini şübhəsiz, öyrənmişdilər. Və burada Bəndalının baş əyanla qohumluq məsələsi üzə çıxmışdı. Həmin mühafizəçilər bu məlumatlarla qədərincə təchiz olunmuşdular. Və onlar üçün qorxulu idi ki, bu gün bu məlumatlar imkan verməz ki, onun hökmdarlıq daşına gələn yolu bağlasınlar. Baş əyana bu, məlum idi. Əgər Bəndalının həyat tarixçəsini qədərincə öyrənməmiş olsaydılar, heç bu hökmdarlıq daşının ətrafınacan nəinki onun özü, heç izi-tozu da gəlib çıxa bilməzdi. Bu, artıq, dövləti, hüquqi məsələ

idi. Və hakimiyyətdə baş əyanın özünə aid qüvvələrin hamısı cəmləşib, Bəndalı kişini kənara çəkmək, onu heç sarayın dörd tərəfinə buraxmamaq imkanları da vardı. Və əlbəttə, elə məsələ əvvəlcə bu cür qoyulmuşdu. Ancaq Qazi Bürhanəddinə aid və bilavasitə onun tabeliyində olan güc, qüvvət sahibləri də vardı. Belələri də az deyildi. Onlar da öz adamlarını işə salmışdılar. Bu minvalla artıq gedən prosesə nəzarət eləyirdilər.

Bir sözlə, baş əyan hiss elədi ki, pis yerdə ilişib, əgər Bəndalı hakimiyyət daşının yanınacan gəlibsə, demək, sarayda bu hadisənin bütün təfərrüatı ilə bağlı məsələlər aydındır. İndi qalır özünü müdafiə etmək, ona görə baş əyan hiylə niqabını üzünə çəkdi:

– Bəndalı kişi, biz qohumuq. Üstəlik də Qazinin ədalətli hakim olduğu ölkədə. Bir kasıb ailə ilə qohumluğu mən özümə şərəf bilmişəm.

– Demirəm ki, sənin dediyin sözlərə inanmıram. Mən sənin dediyin nə varsa, hamısını ünvanıma hörmət kimi qəbul edirəm. Ancaq biləsən ki, mənim qızım daha sənin evində yaşayası halda deyil.

– Axı nə üçün? – Baş əyan soruşdu.

– Ona görə, mənim qızım sənin sarayında nə qədər hörmət, ehtiram görürdüsə və nə qədər özünü tam təmin olunmuş hesab eləyirdisə, bu, onun üçün şan-şöhrət idi. – Bəndalı kişi yaxşı bilirdi ki, bu sözlərlə o, riyakarlıq edir. Heç həqiqətə uyğun olmayan sözlər söyləyir. Ən başlıcası, o, bu sözlərlə sadəcə qarşısında dayanan böyük siyasət adamının gözlərinə kül üfürür. Və xoşbəxtlik burasında idi ki, elə baş əyanın özü də indiki məqamda Bəndalının bu sözlərindən məmnunluq duyurdu. Sevinirdi ki, onun məmləkətdəki yerini, nüfuzunu görən adamlar var.

İndi baş əyan nə cavab verəcəyini heç özü də dəqiq kəsdirə bilmirdi. Amma bütün bunlara baxmayaraq, Bəndalı kişinin nə dərəcədə qəti danışdığını, onunla qərəzi olub-olmadığını sözlə-

rindən ayırd eləmək, gözlərinin içinə düz baxıb məqsədini duymaq istəyirdi. Və bu minvalla geri çəkilmək, güzəştə getmək fikrində deyildi. Çünki Bəndalı kişini – gözlərinin qabağında dayanmış adi kəndlini öz məntiqindən çox gücsüz hesab eləyirdi. O, belə düşünürdü ki, elə bu dəqiqədəcə ayağa qalxıb onun çuxasının ətəklərindən yapışacaq, ona uzunömürlülük duaları oxuyacaq, Tanrıdan diləyəcəkdi ki, bu baş əyanın ömrü daha uzun olsun, hökmdən düşməsin, güc, qüdrət həmişə baş əyanın tərəfində bərqərar olsun. İndi Bəndalı kişi belə sözləri deyəcəkdi, ya deməyəcəkdi, – hələ bunu düşünmək mümkün deyildi. Hər halda baş əyan bu sözləri ona yumşaq yanaşması ilə, onunla xoş davranması ilə Bəndalı kişinin dilindən eşitmək ümidindəydi. Onun özünə qəribə gəlirdi ki, bütün mühafizəçilərin ona necə təzim etdikləri bir şəraitdə Bəndalı kişi sanki onu heç görmür, heç onun kimliyinin fərqində deyil, ancaq Bəndalı kişi bu məmləkətin qoca qurdunun yalnız suallarını cavablayır. Üstəlik bu suallara ancaq özünün ağlı, düşüncəsi nəyi deyirsə, o şəkildə cavab verir. Deyəsən, sual-cavabın arasındakı tərəddüd və uzanan vaxt əyan oğlunun atasının qəzəbinə səbəb oldu. Qəzəbini də ətrafa bildirməmək üçün səsini qısdı. Astaca Dürdanənin atasının gözlərinə içinə baxıb, bir az da qabağa yeriyib dedi:

– İndi sən nə istəyirsən? – qəzəblə soruşdu.

Elə bil əyan oğlunun atasının bu qəzəbi heç Dürdanənin atasına aid deyildi. Ona görə kişi heç təmkinini pozmadı. Oturduğu hökmdar daşının üstündə bir az da yerini rahatladı. Bu anda baş əyanın içindən elə bir qəzəb vulkanı püskürdü ki, gözündən od çaxdı. Xəyalından keçirtdi ki, kaş bu daşın üstündə olmayaydın, onda heç kimin hökmünü, izahatını gözləmədən elə özümün mühafizəçimi çağırardım. «Nədən ötrü çağırardın?» Baş əyana elə gəldi, hökmdarlıq daşının üstündə əyləşmiş Bəndalı kişi özü ona belə bir sorğu ilə üz tutdu: «Sənin boynunu vurdurmaq üçün». Baş əyan xəyalındakı bu çək-çevirin içindən necə çıxacağını, hansı

qərar qəbul edəcəyini bilmirdi. Ancaq bütün çətin məqamlarda təmkinin, sakitliyin, dözümün nə demək olduğunu yaxşı anlayırdı. Ona görə hirsini, hikkəsini içində boğmağa çalışdı. Nə qədər olmasa da, yenə qəzəb işartıları səyrimiş sifətində qalırdı. O, Dürdanənin atasından cavab almadan sualının arxasınca yeni sualı verməkdən çəkinmədi:

– Bəlkə elə bilirsən, hökmdar məni qoyub, səni eşidəcək? – Baş əyan mənalı surətdə beləcə dedi. Hələ bir qırmızı-qırmızı Dürdanənin atasının gözlərinə də baxdı. Düşünürdü ki, bu sualı ilə onun inamını qıracaq. Onu ümidsiz, imkansız, kimsəsiz bir çölçü gününə salacaq.

Baş əyanın sualındakı əda Bəndalı kişiyə çox mətləbi qandırdı. Hələ az qala heç bir hakimiyyət köməyi almayan çölçülərin güzəranını da gözünün qabağına gətirirdi. Bütün bunları düşünə-düşünə dilləndi:

– Mən bilirəm, hakimiyyətin ya o başı, ya bu başı…

– Deyirsən ki, hakimiyyətin o başı ilə bu başının fərqi yoxdu?.. – Baş əyan qətiyyətlə soruşdu.

Bəndalı kişi deyəsən, indi halından-təbindən çıxdı:

– Əgər hakimiyyətin bu başında sənsənsə, elə o başında da özünü hiss eləyirsənsə, onda hakimiyyətin bu başı ilə o başının heç bir fərqi yoxdur.

Baş əyan qəzəblə dodaqlarını gəmirdi, yarıçallaşmış bığlarını çeynəməyə başladı.

* * *

…Qazi Bürhanəddin erkən durmuşdu. Onsuz da son günlər heç yaxşı yata bilmirdi. Gecələr tez-tez yarımyuxulu gözlərini açır, yerində o yan-bu yana qurcalanır, fikir-xəyal onu dağa-daşa salırdı. Nəsə ürəyində xof vardı. Qara-qorxulu yuxular görürdü. Gözünə qəribə nə dəyirdisə, səbəb, əlamət axtarırdı. Yaxşıya-pisə yozmağa çalışır, bir tərəfə çıxara bilmirdi. İndi elə bu əndişədən

yata bilməmiş, bir az da yuxudan tez durmuşdu. Tağlı pəncərənin qabağında dayanmışdı. Bayıra baxırdı. Hakimiyyət daşı elə onun baxdığı tərəfdə idi. Əslində, bu daşı iqamətgahın elə bu yerinə, nəzər-diqqət çəkən səmtinə özü qoydurmuşdu ki, bir kimsə hökmdarın qorxusundan bu daşın üstünə pənah gətirən adamlara toxuna bilməsin. Kimsə də bilməzdi ki, hökmdar özünün tağlı pəncərəsinin arxasında dayanıb daşın üstünə gələn adamları görür, ya görmür. Əyan oğlu da beləcə şübhəli idi. Bəlkə, elə bu səbəbə görə Bəndalı kişi ilə bir qədər ehtiyatlı davranırdı.

Hakimiyyət daşının nə demək olduğunu məmləkətdə bilməyən yox idi. Ona görə də kimsə boş-boşuna bu haqq daşının həndəvərinə belə hərlənə bilməzdi. Kimin ki, ağzından bircə kəlmə söz çıxsaydı – «mən hakimiyyət daşının üstünə gedəcəyəm» – elə bunun özü tənbeh idi. Yerli hakimlərin, lap elə yüksək mənsəb sahiblərinin hakimiyyət daşının adı çəkiləndə ürək-göbəyi düşürdü. Qarnında elə bir sancı başlayırdı ki, bunun ağrısını ancaq təşrif buyuran hədələyənin peşmançılığı kəsə bilərdi. Sözünü geri götürməyi, bir sözlə, barışığa gəlməyi şikayət olunanın qorxusunu canından çıxara bilərdi. İndi Bəndalı kişinin özü gəlib hakimiyyət daşının üstünə çıxmışdı. Və iş elə gətirmişdi ki, baş əyanın özü gözləri ilə daşın üstündə əyləşənin oğlunun qayınatası olduğunu görmüşdü. Bayaqdan bəri bütün çək-çevirlərin, hədə-qorxuların məğzi-məqsədi bundan ibarət idi, bəlkə, Bəndalı kişi sözünü geri götürsün. Lakin görürdü ki, kişi ölümünü gözünün qabağına alıb. Heç hədə-qorxu, çək-çevir onu fikrindən döndərmək gücündə deyil. Bəndalı kişinin iradəsi elə bir inad mərtəbəsinə qalxmışdı ki, onun gözlərindən baş əyan apaydın oxuyurdu: «Mən ya öləcəyəm, ya da qızımın taleyini sənin ixtiyarına buraxmamaq üçün məsələni Qazi Bürhanəddinin özünə – yəni məmləkətin ədalət hakiminə çatdıracağam». Deyəsən, baş əyan bir qədər yumşaldı, tərəddüd elədi. Geri çəkilmək, kişiyə şirin vədlər verməklə onu bu hakimiyyət daşının üstündən aralayıb aparmağı

daha üstün saydı. Əgər belə olardısa, iş daha çək-çevirsiz, xətasız başa çatardı. Onsuz da ədalət daşının üstünə kimin gəldiyi, kimin burada əyləşib haqq aradığını hələ məsələnin aydınlaşmasından qabaq izləyənlər vardı. Gün ərzində bura kim gəlib çıxırdısa, ona nəzarət olunur, ayrı-ayrı təyin olunmuş adamlar yaxınlaşır və həmin şəxsi günün, ya həftənin hansı çağında Qazinin yanına aparacaqlarını bildirirdilər. Şikayətçi Qazinin yanına çatanacan ayrıca bir yerdə saxlanılır, hakimin adından ona qayğı göstərilir, yemək-içmək, verilir və müvafiq vaxtacan gözləməsi tapşırılırdı. Baş əyan bütün bunları yaxşı bilirdi. Hələ onu da bilirdi ki, artıq onu saraydan görənlər var, bəlkə də onun – hakimiyyət daşının üstündə əyləşmiş şikayətçidən aralanmasını izləyirdilər. Baş əyan burada çox dayanmağın xeyir gətirməyəcəyini anlayırdı.

Ona görə də yaxşısı bu idi ki, Bəndalı kişi ilə yumşaq danışıb aralansın. Amma tezliklə Qazi ilə elə ilk görüşünə ümid bəsləyirdi – onsuz da Qazi hər gün baş əyanın özü olmaqla məmləkətin vacib adamlarını divan işləri başlamamışdan qabaq yığar, ölkənin əmin-amanlıq vəziyyətini soruşar, sərhədlərdə baş verənlər haqqında məlumatlar alardı. Baş əyanın bütün ümidi ona idi ki, hökmdar rəsmi dövlət işləri ilə bağlı sorğu-sualları başa çatdırandan, hamı dağılışandan sonra onun özü ilə ayrıca söhbətə vaxt ayıranda, elə bu məsələni də ona çatdırsın. Baş əyan yaxşı bilirdi, Qazi Bürhanəddin hakimiyyət daşı üzərinə gəlib çıxmış adamların şikayətlərini cikinə-bikinə qədər öyrənir, hər şeyi aydınlaşdırır və inandığı məsələyə münasibətini ədalətlə bildirir. Elə əslində, Qazi Bürhanəddinin xalq içindəki hörməti də belə ədalətli münasibətlə bağlı yaranmış, varlı-kasıb demədən, mənsəbli-mənsəbsiz olmağın fərqinə varmadan divan ayağında düzgün – ədalətli mövqe tutmağı belə böyük nüfuz qazandırmışdı.

Baş əyanın bircə çıxış yolu vardı. O, Qazini tam inandırmalı idi. Amma necə? Onu nə cür inandıracaqdı? Bu, Qazinin əhvalından da çox asılı idi. Bir tərəfdən baş əyan təcrübəsiz adam deyildi.

Bu mənsəbin özünəcən o, çətin yollar keçmişdi. Rəqiblərini ayrı-ayrı vaxtlarda necə hiyləgərliklə tora salıb məhv etdiyini, sıradan çıxardığını yadına saldı. Necə ola bilərdi ki, indi bir kərpickəsən kişinin qabağında aciz olsun. Hər halda o, hökmdara nəyi, necə danışacağını götür-qoy edə-edə fikrən, xəyalən də Dürdanə ilə bağlı tarixçəni yadına salırdı. Əlbəttə, bu məsələdə oğlunu nəinki qınayır, hələ üstəlik, lənətləyirdi də: «Axı biz hara, Bəndalı kişi hara? Mənim evimdə ayağı palçıqlı bir kəsin qızı necə gəlin ola bilərdi? Yaxşı ki, heç övladı dünyaya gəlməyib. Yoxsa mənim nəslimin davamçısı bu kərpickəsən kişinin qızından olan övladlar olacaqdı».

Bu yerdə baş əyanın ağlına nə gəldisə, elə bil yuxudan ayıldı. Deyəsən, gözləri güldü. Əhvalına bir ruh yüksəkliyi, özünə də bir toxtaqlıq gəldi. Elə bu xoş əhvalla Bəndalı kişiyə müraciət elədi:

– A kişi, sən bir halal adamsan. Gündəlik ruzunu də ayaqlayıb qəlibə yığdığın palçıqla qazanırsan. Mən bilirəm ki, qurudub üst-üstə qalaqladığın kərpiclərlə ömür-gününü sayırsan. Dediyin də doğrudur. Qızın oğlumla yaşamaq istəmir, bu, çox yaxşı. Elə bunu qabaqcadan, bura gəlməmişdən mənim yanıma gəlib deyə bilərdin. Mən sənə nəyə görə yox deməliydim. Bir insanı məcburən, xoşu gəlməyən başqa bir kimsəyə bağlamaq heç Allaha da xoş getməz.

Bəndalı kişi eşitdiyi sözlərə təəccüb elədi. Bayaqdan bəri hakimiyyətin o başı ilə bu başının zülm və əzab olduğundan gileylənən ortayaş kərpickəsən məəttəl qalmışdı ki, necə oldu, bu adam – bütün danışığından hirs-hikkə yağan, hər an qəzəb qılıncını sıyırmağa hazır, nifrəti üz-gözündən tikan kimi qabaran, hiyləgərliyilə məmləkətdə ad çıxarmış baş əyan birdən-birə dönüb belə mehriban, insanpərvər bir məxluqa çevrildi.

Əlbəttə, Bəndalı eşitdiklərinə inana bilməzdi. O, bu adamın elə öz hiyləgərliyi ilə Qazini də necə asanlıqla aldadacağını bilirdi, bunu da demək olar, məmləkətdə bilməyən yox idi. Və Bəndalı

kişi indicə az qala onun şirin dilinə inanacaqdı. Yenidən Bəndalı özünü toparladı. Bu adamın nə danışdığının fərqinə varmadan üzünü yana çevirdi, dodaqaltı da sözünü saxlamadı, dedi:

– Mənim şikayətim sənə deyil. Mənim sənlə danışılası bir işim yoxdur. Əgər məmləkətin yiyəsi məni görməyib, yanına çağırmasa, elə buradan birbaşa qayıdıb xarabama gedəcəyəm. Əgər, sənin xəta-bəlandan uzaq olsam.

Baş əyan yenə Bəndalı kişinin inadında qaldığını gördü. Ona görə, heç bundan bu yana söhbəti dərinləşdirmək də istəmədi:

– Yaxşı, sən deyən olsun, Bəndalı kişi. Gəlmisən, bu daşın yanına gəlib çatmısan, yəqin səni gəlib apararlar. Qazinin hüzuruna gəlib çatarsan. Ancaq allahlı danış, mənim sənin təklifinə bir narazılığımın olmadığını yeri gələndə haqqına deyərsən.

– Deyərəm, niyə demirəm ki, mən haqqı deyib gəlmişəm. – Bəndalı kişi yenə sözünü deyib üzünü yana çevirdi. O, bununla baş əyana çatdırırdı ki, mənim sənlə əlavə söhbətim, sözüm yoxdur.

– Yaxşı, olsun, Allah işinə rəvac versin, – bunu da baş əyan dedi. Sonra da dönüb qəti addımlarla Bəndalı kişidən uzaqlaşdı.

Bəndalı gözünün altı ilə onun gedişini izləyirdi. Necə də tox və inamla yeriyirdi. Elə bil siftə Bəndalı kişini görəndə çaşmış, qəzəblənmiş, nala-mıxa vuran bu adam deyildi. İndi bütün qara-qorxusu canından sovrulub göyə uçmuşdu. Heç nədən nigarançılığı yox idi.

Bəndalı kişi başını təəssüflə onun arxasınca bulayıb fikrindən keçənləri asta-asta özünə pıçıldadı: «Get, sənin mənsəbin var, hakimiyyətə güvənirsən. Varına, sərvətinə arxalanırsan. Bəlkə, bunun hamısından çox hiylənə, yalandan adamları inandırmaq məharətinə güvəncin daha böyükdür. Mənim qızımın da Allahı var. Bizim kimilər də bir olan o Allaha güvənirik. Yaxşı bilirik ki, Allah yalnız sənin kimilərin deyil. Bütün insanların hamısının güvənc yeridir. O, yerin-göyün sahibidi. Nə olsun ki, səbri gen-

dir, sənin kimilərə meydan verir. Ancaq bir gün Onun səbiri daşır, sənin kimilərin taxt-tacını başına çevirir. Deməк, sən də bir gün divan ayağında dayanmalı olarsan. Bax, onda görərsən ki, haqqı tapdalanmaq, zəlil günə düşmək nə deməkdir. Mənim qızımın heç bir günahı yoxdur. Yağlı dilinizə aldandıq. Heç Dürdanənin könlü yox idi. Yalan-yaltaq adamların əlilə fitnələr qurdunuz. Məhyəddinin heç vaxt qayıtmayacağını, on illik səfərin heç yüz ilə başa çatmayacağına hamımızı inandırdınız. Bizim əlimiz yerdən-göydən üzüldü. Oğlun da elə sənin özün kimi ürəyi bir cür, dili başqa cürdür. Sizin heç vaxt ağzınıza düz söz gəlməz. Min cür fitnə-fəsadlarla camaatın torpaqlarını ələ keçirirsiniz, var-yoxunu əlindən alırsınız. Bu, bəs deyilmiş kimi, gör neçə-neçə Dürdanə kimi qızları bədbəxt eləyib zəlil günə qoyursunuz. Mən inanmıram ki, bu işlərin bir gün axırı olmasın. Axı sənin bir cavab verməк günün gələr. Bəlkə elə hökmdar da mənim bu düşündüklərimi, yerli-yataqlı öyrənəcək, danışdıqlarımın həqiqət olduğunu biləcək». Bəndalı kişinin heç özü də bilmirdi ki, gözlərindən yaş bulaq kimi qaynayır, yanaqlarından aşağı süzülür. Bir də onu gördü ki, iki nəfər qolundan tutub ayağa qaldırır:

– Biz Qazi Bürhanəddinin adamlarıyıq. Səni onun divanına aparmağa gəlmişik, – dedilər.

– Hara aparırsınız?

Deyəsən, Bəndalı kişi heç Qazi Bürhanəddinin adını eşitməmişdi. Qolundan tutan adamların dedikləri sözlər də quyunun dibindən gəlirmiş kimi güclə onun qulağına çatırdı. Əslində, daha Bəndalı kişinin heyi, taqəti qalmamışdı. Heç haraya aparıldığını, nə üçün aparıldığını da bilmirdi. Bir də onda gözünü açıb gördü ki, onun alnına yaş bir dəsmal qoyublar, yaxasını da açıblar. Ətrafındakılar isə saray təbibləri idi.

…Əslində, hadisələrin bu cür gedişatında təəccüblü bir şey yox idi. Bəndalı kişi də ayılandan sonra baş verən hadisələri gözlərinin qabağına gətirib buraya haradan, nə üçün gəldiyini ya-

dına salmağa çalışırdı: «Hə, deyəsən, xatırladım. Məni halımdan, təbimdən çıxaran baş əyanın çarə tapmış adam kimi sevinməyi olmuşdu» – düşündü.

Öz növbəsində Bəndalı kişiyə sirr olan məsələ baş əyan üçün get-gedə aydınlaşmışdı; o, yaxşı bilirdi ki, Qazi Bürhanəddin ailə məsələlərində çox möhkəm adamdır. Özü də məmləkətdə hər bir ailənin qorunması, bütövlüyü naminə vaxtlı-vaxtında tədbirlər görür, gənc ailələrin doğulduqları yerlərdə məskunlaşıb ev-eşik sahibləri olmalarına, oğul-uşaq böyütmələrinə xüsusi diqqət yetirir. Məhz bu məsələ baş əyana çıxış yolu kimi görünmüşdü. Elə qadının səbəbsiz yerə ərindən imtina eləməsi bəs idi ki, Dürdanəni günahkar hesab etməkdə baş əyan haqlı olsun.

Hadisələrin axarı elə onun düşündüyü kimi də getdi. Qazi Bürhanəddin əyanları qəbuldan mürəxxəs etdikdən sonra baş əyanı saxladı. Onunla daha vacib məsələləri müzakirə etdi. Həqiqətən baş əyan dəyərli məsləhətlər verdi. Ölkənin təhlükəsizliyi, ordunun təminatı, məmləkətin əmin-amanlığı üçün…

Doğrudan-doğruya baş əyanın dövlət işlərində çox böyük səriştəsi vardı. O, rəqiblərinə qarşı nə qədər hiyləgər və fəndgir idisə, dövlət işlərində bir o qədər məharətli və bacarıqlı idi. İndi yenə Qazi Bürhanəddinə heç ağlına gəlməyən təkliflər verir, ölkəni gələcəkdə gözləyən təhlükələrlə bağlı elə fikirlər deyirdi ki, bunları heç Qazi Bürhanəddin yatsaydı, yuxusunda görməzdi. Söhbətin belə çox məhrəm, qarşılıqlı inam şəraitində keçdiyini görən baş əyan səhər vaxtı Bəndalı kişi ilə bağlı məsələni də Qazi Bürhanəddinə danışmağı lazım bildi. O, Qazinin: – Hə, indi gedə bilərsən, təklifindən sonra ayağa durdu, ancaq getmədi.

– Bir sözünmü var? Çəkinmə, de…

Baş əyan yenə səsini çıxarmadı.

– Bir deyəcəyin varsa, söylə… – Qazi bir də soruşdu.

– Bəli, hökmdar, sözüm var.

– Bəs bayaqdan bəri danışdıqların söz deyildi?

– Yox, hökmdar, bu söz deyil, tamam başqa məsələdir.

– Hansı məsələdir ki, belə vacib olsun, sən də onu indiyəcən mənə deməyəsən.

– Bu, namus məsələsidir, hökmdar, – Baş əyan beləcə dedi və yenə başını aşağı saldı.

* * *

Divan qurulmuşdu. Şəriət hakimləri bir cərgədə olsa da, ancaq dairəvi əyləşmişdilər. Demək olar hər kəs digərinin üzünü, gözünü görürdü. Doğrudur, dairənin bir hissəsi kəsilmiş kimiydi. Həmin o boş qalmış yerdə şikayətçi ilə şikayət olunan şəxsin özü yan-yana dayanmalı idi. Hələ ki, nə şikayətçi, nə də şikayət olunan şəxs arada görünmürdü. Baş qazi ətrafındakılara bir-bir diqqətlə baxıb, təzədən qabağında rəhil üstündə qoyulmuş kitaba nəzərini döndərdi. Bu, «Quran» idi – bütün müsəlmanların istinadgahı müqəddəs kitab «Quran». Qazibaşı «Quran»a diqqətlə nəzər yetirdi. Sağ əli ilə dəri cildli kitabın qalın – elə dəri üzlüklü səhifələrini çevirdi. Burada nə yazılmışdı, nə yazılmamışdı, o, hansı səhifədən nəyi oxumalı idi? Bunu heç kimə deyə bilməzdi. Bircə özü bilirdi ki, yanındakı qazilərə nə deyəcək. Deyəcəkləri üçün istinad olacaq «Quran» ayələrini haradan, hansı surənin, hansı ayəsindən oxuyacaq? Bunu da kimsəyə izah eləmirdi.

Baş qazi önündəki «Quran»ı əslində, iri, dəri cildli kitabı demək olar ki, güclə artıq qocalığının əsər-əlaməti kimi titrəyən əllərilə yuxarı qaldırdı, üzünü örtüb, dodaqlarına yaxınlaşdırdı. Öpdü, sonra alnına yaxınlaşdırdı. Deyəsən, bu əməlini bir neçə dəfə təkrar elədi. Ancaq o da nəzərdən qaçmırdı ki, kitabın ağırlığı onun əllərinin əsməsini bir az da artırdı. Demək olar, güclə bu ağır, dəri cildli kitabı yuxarı qaldırıb, dodaqlarına və alnına toxundurdu. Bir qədər yan tərəfdə əyləşmiş cavan qazi onun bu titrəyən əllərinə baxıb, ikrahla başını yellədi: «Əh, qoca kaftar, heç «Quran»ı yerindən qaldıra bilmirsən. Nə qədər yerindən

qaldıra bilmədiyin «Quran»ın adından hökm verəcəksən?» Heç deyəsən, digər cərgə sakinləri də onun – yəni baş qazinin bu «Quran»ı öpmə əməlindən zərrəcə xoşlanmadılar. Söhbət onun «Quran»ı öpüb-öpməməyindən getmirdi. Bu adamların hər biri Qazi Bürhanəddinin kimsəyə yox, məhz Qazibaşıya – bu qocalıb, əldən düşmüş, hələ də güclə əlinə götürüb yuxarıya qaldırıb, öpüb alnına qoyduğu kitaba gücü çatmayan kişinin yenə uzun-uzadı nitqlərindən, canbezar olduqlarını necə gizləyib, dözəcəklərini düşünürdülər. Ola bilsin, kiməsə hövsələsini basa bilməyib, nəyisə dilə gətirəcək. Bəlkə, «ay qoca, sözünü de, görək nə istəyirsən?» – deyəcəkdilər.

Gümanlar min tərəfə gedirdi. Bilmək olmurdu ki, Qazibaşı bu gün yenə nəyi əsas götürüb, öz hökmünü verəndə nəyə əsaslanacaq. Əlbəttə, Qazibaşının ətrafındakı dairədə yerini tutmuş qazilərin hər biri əyalətin müxtəlif tərəflərindən idi. Bunu da Qazi Bürhanəddin özü – ədalətinin gücünə güvənib təklif eləmişdi. Qoy, hər ərazidən, bölgədən bir nəfər nümayəndə olsun, həmin ərazini, həmin adamları tanıyan adam. Bəlkə bu zaman tərəfkeşlik olmaz, ədalət, haqq qorunar. Qazi Bürhanəddin belə düşünmüşdü. Və onun düşündüyünə görə bu üsul haqqı, ədaləti qorumalıydı. Yalnız bu yolla Qazi kimsənin haqqının tapdanmayacağına arxayın idi. İndi iş elə gətirmişdi ki, Qazi Bürhanəddinin özünün çağırışı ilə Qazibaşı onun hüzuruna getmişdi. Elə indicə bir az sonra başlayacaq mühakimənin nə ilə nəticələnəcəyi də, əslində, elə Qazibaşının Qazi Bürhanəddinin hüzurundakı söhbətdən asılı olmuşdu. İndi Qazibaşı ətrafındakı qazilərə izahat verməmişdən qabaq həmin söhbəti yadına saldı. Qazi ilə üzbəüz olanda keçirdiyi hisslər indi sanki onda təzədən baş qaldırmışdı:

– Salam olsun, məmləkətin ən uca adilinə. – Qazibaşı bunu dedi və Qazi Bürhanəddinə iki dəfə baş endirdi. Sonra başını yuxarı qaldırıb Qazinin üzünə baxdı. Qazinin üz-gözündə bir dəyişiklik hiss eləmədi. Ona görə üçüncü dəfə təzim elədi. Və başını yuxarı

qaldırıb Qazinin gözlərinə baxdı. Bu baxışı ilə sanki nigarançılığını bildirdi: «Yəni ki, hörmətli Qazi, mən bilmirəm, məni niyə çağırmısan, amma nə göstərişin, əmrin varsa, mən canımla – başımla yerinə yetirməyə hazıram».

Qazibaşı sözlə ifadə eləmədiyi bu fikirlərini deyəsən, nəzərləri ilə Qazi Bürhanəddinə çatdıra bilmişdi. Ona görə də Qazi Bürhanəddin Qazibaşıya təbəssümlə baxdı və elə bu təbəssüm bəs elədi ki, Qazibaşının ürəyi yerinə gəlsin. Bayaqdan bəri çox nigaran idi: «Bəlkə Qazi Bürhanəddin onu çağırıb ki, desin, sən daha qocalmısan, yerini daha cavan qazilərdən birinə ver. Hələ pis olan o idi ki, birdən hökmdar deyəydi ki, elə ətrafındakı qazilərdən birinin adını çək». Elə bunun özü Qazibaşıdan ötrü ölüm demək idi. Heç onun başını da kəssən, ətrafındakı qazilərdən birinin adını öz yerinə namizəd göstərməzdi. Bundan isə ona ölüm yaraşırdı. Özü də elə ölüm ki, kimsə görməsin. Xəlvətə çəkilib, iki arşınlıq bir kəndir tapsın. O kəndirin bir ucunu damın örtük dirəyinə bağlasın, o biri ucunu da boğazına. Ayağının altındakı səhəngi itələsin. Və beləcə dirəkdən asılıb canını tapşırsın. Bu düşüncələrindən sonra Qazibaşının özünün-özünə gülməyi tutdu. Yəni ayağının altına başqa hündür bir şey qoya bilməyəcəkdi. Niyə məhz səhəng yadına düşmüşdü – mis səhəng. Ancaq deyəsən, təhlükə ötüb keçmişdi. Qazibaşı mis səhəngi yadına salmağına görə için-için özünə güləndə Qazi Bürhanəddin də təbəssüm göstərmişdi. Yəni bu təbəssümlə Qazibaşı xilas olmuşdu. Daha gedib, onun ölümünə rahatlıq gətirən yağlı kəndiri boğazına keçirsin, nə də mis səhəngi ayağının altına qoyub, sonra geriyə itələsin. Bir sözlə, canını bu dünyadan qurtarsın.

Bütün bunların hamısı bədbəxtlik kimi onun başına çökmüşdü ki, düşüncəsində bir yol-yolağa görmürdü. Elə bir dəyirman daşı düşmüşdü, onun üstünə və o da bu dəyirman daşının altındakı bir azacıq boşluqda tərəddüdləri ilə çabalaya-çabalaya qalmışdı. Canını necə qurtarsın, bilmirdi. Düşüncələr bəlkə də onu

ağuşuna alıb, çürük kötüyü sel aparan kimi hələ çox aparacaqdı. Və nə yaxşı, Qazi Bürhanəddinin təbəssümünü gördü. Canı xilas oldu. Eləcə də bu təbəssümün arxasında Qazibaşı özünə olan xoş rəğbəti, hörməti də hiss eləmişdi. Yaxşı-pis hamısı ondan ibarət idi ki, Qazi Bürhanəddin gülümsəmişdi, kefi durulmuşdu. Hüzuruna çağırdığı adamın üzünə hökm sahibinin gülümsəməyi nə demək idi? Bunu Qazibaşı hiss edirdi. Elə buna görə artıq onun sevincinin üstünə sevinc gəlmişdi.

Qazi Bürhanəddin başdan-ayağa Qazibaşını süzdü. Onu sanki ilk dəfə görürmüş kimi diqqətlə baxdı. Elə bil ki, bununla Qazibaşının nə düşündüklərinin hamısını oxumaq istəyirdi və üstəlik tələsmirdi də. Zəhmət haqqı, duanın çoxluğu ilə ölçülən imam kimi onun gözlərinə baxan Qazinin fikrindəki tərəddüdlərdən, deyəsən, hali olmuşdu. Lakin bu, ötəri hal kimi keçib getdi. Qazi Bürhanəddin yenə sərt, öldürücü nəzərlərini yana çevirdi. Bir sözlə, Qazibaşı gözlərini hərləyib Bürhanəddinin nəzərləri ilə üzbəüz gələndə, tam arın-arxayınlıq hiss elədi. Axı, Qazi Bürhanəddinin ona tam etibarı vardı. Hələ, Qazi Bürhanəddinin əli ilə işarə eləyib, onu yaxına çağırmağı Qazibaşını bərk sevindirdi. Qazibaşı ürəklə irəli yeridi. Bürhanəddinin ona sarı uzanan sağ əlini iki əlilə tutdu, möhkəm silkələdi, sonra da əllərini öpüb gözünün üstünə qoydu: «Tanrının kəraminə şükür, əlim əlinizə toxundu, ey adil hökmdar». Qazibaşıya elə gəldi ki, qəlbindən, ruhundan keçən bu sədanı Qazi Bürhanəddin eşitdi. Çünki hökmdar ona lap yaxınında, hüzurunda əyləşməyə icazə vermişdi.

Qazibaşı yerini rahatladı. Sevinə-sevinə, yastı-yastı hələ bir az da sürünə-sürünə Qazi Bürhanəddinə tərəf irəlilədi. Və hökmdarın gözlərinin içinə baxmağa cəsarəti çatmadı. Dilsiz, sözsüz səsi ilə demək istədi ki, «ey hörmətli, həşəmətli Qazi Bürhanəddin, mən tərəfdən nigaran qalma, sənin nə hökmün olsa, lap nəslimin hamısı qırılsa belə onu yerinə yetirməyə hazıram». Qazi Bürhanəddin onun gözlərindəki sözlə ifadə olunmayan, açıq-aşkar gö-

rünən bu hədsiz-hüdudsuz sədaqətin nə demək olduğunu yaxşı bildiyindən Qazibaşıya belə hörmətlə baxırdı.

Qazibaşı səbirsizliklə hökmdarın verəcəyi əmri, söyləyəcəyi göstərişi gözləyirdi. Təki Qazi Bürhanəddin sərəncam versin. Onu yerinə yetirməyə təkcə canımı yox, bütün varımı da verməyə hazıram – Qazibaşı düşündü. Amma sonra öz-özünə güldü.

Əlbəttə, bu gülməyi üzündə, gözündə görünmədi. Qazibaşı içindən danışırmış kimi özünə bəraət qazandırmağa çalışdı: «Təki mənsəbimi almasın, məni dirigözlü öldürməsin. Yoxsa, aparıb elə bu andaca başımı kötüyün üstə qoysa, nə deyənəm? Yenə sağ olsun, canımı da almır». Qazibaşının əhvalı tam yaxşılaşmışdı. Çünki artıq arxayın olmuşdu ki, hökmdarın onun titulu ilə, mənsəbi ilə bir işi yoxdu. Qazi elə keçmişdən üzü bəri ona necə inanırdısa, elə indi də o cür inanır. Ona görə də Qazibaşının söhbətin uzanmağı, hələ heç başlanmamış bu söhbətin açılmamağı, onda heç bir nigaranlıq doğurmurdu. Yuxu, yoxsa ayıqlıq idimi, ya hökmdarla heç belə bir görüş yox idi. Buna təəccüb qalmışdı. Bir sözlə, bardaş qurub hökmdarın hüzurunda əyləşsə də, sevinirdi, yerə-göyə sığmırdı, təki hökmdar ona diqqət göstərsin. Haqqı, nahaqq elə, doğrunu yalana çevir, yalanı doğru elə, nahaqqı haqqa çevir – bunun hamısının öhdəsindən gəlirdi. Arxasında məmləkətin hökmdarı dayanan hökmdən söhbət gedirdi. Daha Qazibaşı nədən qorxası idi ki? Ona görə daha çəkinəcəyi yox idi. Başqaları ayrı vaxt ona daha qocalmısan, bir yüngül işin qulpundan yapış, evdə əyləş, bir tərəfdə başını girlə – deyəndə nə qədər əsəbiləşsə də, dilxorçuluğu olsa da, fəqət dinmədi. Lakin asta-asta işini aparardı. Bu gün isə başqa fərqli bir əlahiddə gündü. Bu gün hökmdarın ona təbəssüm göstərdiyi bir gün idi. Bu təbəssümün əvəzi can mükafatı olsa da az idi. Ancaq indi görək nə deyəcəkdi?

İndiyə qədərki hökmlərində həmişə ədaləti uca tutan Qazi Bürhanəddin yenə özünün elə həmin adillik və ədalət ucalığında dayanaraq sözə başladı:

– Hörmətli Qazibaşı, – hökmdar həmişəki kimi öz əsabələrinə hər vaxt necə sayğı ilə yanaşırdısa, indi elə həmin sayğı ilə dilləndi – bir vacib məsələ üçün – əlbəttə, mən bunu çox vacib məsələ hesab edirəm – səni çağırmışam.

– Baş üstə, mənim hökmdarım – Qazibaşı tez-tələsik Bürhanəddinin sözünü qurtarmamış dilləndi. – Lap yaxşı eləmisiniz, məni çağırmısınız, nə əmr və göstərişiniz varsa, mən onu icra eləməyə bütün canımla, başımla hazıram.

– Onda məni yaxşı dinlə – Qazi Bürhanəddin dilləndi. Sözünü bitirən kimi də təzədən Qazibaşının gözlərinin içinə nəzər yetirdi. Elə bil ki, onun baxışlarındakı görüntülərdən oxumaq istəyirdi, Qazibaşı verəcəyi hökmün müqabilində hansı düşüncələri xəyalından keçirəcək.

Ancaq Qazibaşı köhnə usta idi. O, Qazi Bürhanəddinin nə deyəcəyənin fərqinə varmadan bütün varlığını ona təslim eləməyə hazır idi. Və bunu öz görkəmilə izhar edirdi.

– Hörmətli Qazibaşı, – Qazi Bürhanəddin təzədən söhbətə başladı. – Sən bizim baş əyanı yaxşı tanıyırsan. O, bizim məmləkətin sütunudur. Onun adına, ünvanına hər hansı bir xələllik gələrsə, bu xələlliyi biz bütün məmləkətin ünvanına – hər birimizin ünvanına qəbul eləməyə borcluyuq. Bu sarayda çalışan hər bir şəxsin düşüncəsi bulaq suyu kimi dumduru, varlığı tərtəmiz olmalıdır. Biz namusuna xələl gəlmiş əyanı sarayda saxlaya bilmərik.

– Doğrudur, doğrudur, hökmdar – Qazibaşı tez-tələsik dilləndi. Bunun da arxasınca bir az nigarançılıqla Qazi Bürhanəddinin üzünə gözlərini zillədi. Elə bil ki, xəyalına qara-qura nəsnələr gəldi: «Allah eləməmiş, birdən Qazi Bürhanəddin onun özündən nəsə şübhələnmiş olar?» Amma tez də bu kabusu özündən qovdu. Axı mən neyləmişəm ki? El içində aydan arıyam, sudan duru və elə bu arxayınçılıqla təzədən Qazi Bürhanəddini dinləmək üçün müntəzir olduğunu gözlərilə bildirdi.

Qazi Bürhanəddin Qazibaşının nigarançılığını görməzliyə vurdu. Elə bil, onun yerində qurcalandığını görməmişdi. Və aramla sözünə davam elədi:

– Amma bir də var, əyanın özünün nadürüstlüyü, insanlığa yaraşmayan hərəkəti – biz beləsini bağışlaya bilmərik.

* * *

Sara Xatun oğlu ilə otaqda tək qalmışdı. Əmin idi ki, onun özündən və oğlundan başqa bir kimsə onları dinləmir. Heç kim Sara Xatun və oğlu arasında söhbətin nədən getdiyini, haradan başlayıb harada qurtardığını bilməyəcək. Ona görə də, könlünü, ruhunu oğluna axıracan açmaq qəsdindəydi. Əsas məqsədi də o idi ki, olub-keçənlərin fərqinə varmadan – nəyin yaxşı, nəyin pis olduğunu bildirməkdən daha çox oğluna həqiqəti qandırsın. Qoy oğlu özü dərk eləsin, nə yaxşıdır, nə pisdir. Düzgünün, doğrunun, həqiqətin harada, nədə olduğunu gərək hər kəs özü bilsin – Sara Xatun belə düşünürdü. Çünki, süni şəkildə «sən bunu et, o, bunu eləsin» deməklə insanı düz yola gətirmək çətindir. Böyük həqiqətlər yalnız əməllərin özündə görünür. Ağıllı insanlar da yalnız bu əməllərdən ibrət götürürlər əməlin yaxşı, ya pis olmağının fərqinə varmadan.

* * *

…Qazibaşı yenə nəsə demək istədi. Və düşündü ki, onun tez-tez danışmağına birdən hökmdarın acığı tutar. Ancaq yox, elə tez də belə qənaətə gəldi ki, hökmdarın bütün cavab tələb edən sözlərinə öz münasibətini bildirməlidir. Yoxsa hökmdar heç ona layiq bilib, vacib hesab elədiyi məsələni axıracan açmaz da. Ona görə, yenə dili topuq çala-çala, sözləri qırıq-qırıq deyə-deyə təkrar elədi:

– Doğrudur, doğrudur, hökmdarım!

Qazi Bürhanəddin onun bu təsdiqinə daha əhəmiyyət vermədi, ona görə sözünə davam elədi:

– Biz imkan verə bilmərik ki, hər yerindən qalxan kimsə hökmdarın və eləcə də məmləkətin hörmətli bir əyanının şəninə yaraşmayan bir əməli ilə xələl gətirsin. – Qazi Bürhanəddin bunu dedi və xeyli aram oldu. İki əllərini qaldırıb dua oxuyurmuş kimi gözlərinin qabağına gətirdi. Bəlkə də dodaqaltı nə isə deyirdi. Bunu da Qazibaşı öz düşüncəsində belə yozdu: «Ey Allah, sən böyük və adilsən, haqqı nahaqqdan ayıransan, sən qoyma ki, biz haqq yolundan azaq». Qazibaşı fərqində deyildi, Qazi Bürhanəddin dodaqaltı bunu deyir və ya demir, ancaq onu bilirdi ki, Qazi verəcəyi əmrin haqqın göstərişinə uyğun olduğunu diktə edir:

– Bu gün sənin divanına bir qoca gələcək. – Qazi Bürhanəddin burada bir qədər ara verdi və deyəsən, onun bütün vücudundan bir ağrı keçdi. Bu ağrının nə demək olduğunu Qazibaşı bilmək imkanından məhrum idi. Ancaq Qazi Bürhanəddin həmin anda-ca xəyalına gətirdi ki, bəlkə qoca kərpickəsən Bəndalı kişi haqlıdır?.. Bax, Qazi Bürhanəddinin bütün varlığından ağrı ilə keçən hiss, duyğu bunu deyirdi.

* * *

Bir anlığa Qazi Bürhanəddinə elə gəldi ki, yatmışdı, yuxudan ayıldı. Özü də elə yuxudan ki, bəlkə, bu mürgünün gətirdiyi rahatlığı heç zəlzələ də oyatmazdı, amma baş əyanın namusunu məmləkətin qeyrəti, namusu kimi qavraması onu qədərincə sarsıtmışdı. Bir kasıb kərpickəsən, onun qızı ilə bağlı əhvalat Qazi Bürhanəddinin ədalət hissini cırmaqlayırdı. Qazi bütün gücü ilə Bəndalı kişinin tərəfində olmağa çalışırdı, amma görürdü ki, nə baş əyanın, nə də Qazibaşının dəlillərində Bəndalı kişi ilə bağlı bir tutacaq yeri yoxdur. Ona görə Qazibaşına göstəriş verməli oldu:

– Hörmətli Qazibaşı, sən məmləkətin namusunu kimdə, nədə görürsən?

Qazi Bürhanəddin Qazibaşının gözlərinin içinə baxaraq soruşdu.

– Hörmətli hökmdarım, bir Allah şahiddir ki, mənim gördüyüm işlərin ən ucasını siz məndən əvvəl görmüsüz. Onu demək istəyirəm ki, sizin istəyiniz və arzunuz mənim üçün məmləkətin ən uca qanunudur.

Qazibaşının bu sözlərini Qazi Bürhanəddin diqqətlə dinlədi. Ancaq ürəyində – daxili-mənəvi mühitində çalxalanan duyğular, başında, beynində dolanan hisslər ona deyirdi ki, bu sözlərdə – yəni Qazibaşının cavablarında səmimiyyət yoxdur. Çünki Qazi Bürhanəddin özü göstəriş vermişdi ki, heç kəs mənsəbə, nüfuza, vara, dövlətə görə qərar verməsin. Ən böyük adillik, aqillik düzgünlüyə riayət etməkdir. Qazibaşının dediyi sözlər heç onun xoşuna da gəlmədi. Elə bu hissin təsiri altında Qazibaşıya varlığından gələn hökmünü deməli oldu.

– Bax, hökm elə, mənim məmləkətimin hökmümün keçdiyi yerin adına, ünvanına hörməti qoru. – Qazi Bürhanəddin dedi və sonra da xeyli xəyala daldı. Bu zaman qabağında dayanıb sükutla gözləyən Qazibaşını heç görmürdü də. Qısası, bu elə bir məqam idi ki, deyəsən, vaxt Bürhanəddinlə qarşısında dayanan şəriət hakiminin arasındakı məsafəni gündoğandan günbatanacan uzatmışdı. Nə Bürhanəddin konkret olaraq Qazibaşıya bir tapşırıq verə bilirdi, nə də Qazibaşı özünü cəmləyib ölkənin başçısından qəti, aydın bir hökm ala bilirdi.

…Ancaq Qazibaşı, deyəsən, hər şeyi başa düşmüşdü. Ona görə də baş əyanın oğlu ilə bağlı əhvalatın məğzinə varmadan bu məsələnin iynə-sap tərəflərini çözmədən əlini sinəsinin üstünə qoydu. Qazi Bürhanəddinə başını qaldırıb ikiqat olan görkəmi ilə təzim elədi. Təzimindən sonra bu sözləri demək üçün özündə cəsarət tapdı və:

– Böyük hökmdarımız heç nədən nigaran qalmasın. Hər şey sənin istəyincə olacaq – dedi.

Qazi Bürhanəddinin qaşları çatıldı. Elə bil ki, iki tərəfdən gələn bulud qabaq-qabağa gəldi. Nəhəng bir toqquşma oldu. Səsi gəlməsə də, sarsıntısı, zərbəsi olmasa da, iki buludun gurultusu, qarşı-qarşıya gəlib toqquşması dünyanı silkələdi. Qazi Bürhanəddin qəzəbini boğdu, amma nə qədər hirsini biruzə verməsə də yenə hiddətqarışıq hiss və nida ilə Qazibaşının gözlərinin içinə baxdı:

– Necə yəni mənim istəyimlə olacaq? – Qazi Bürhanəddin qəzəbini bu üç-dörd kəlməlik sualla ifadə eləmişdi, lakin bununla kifayətlənmək fikrində deyildi, ona görə ki, Qazinin özünün mənəvi mühitindən gələn bir hökm var idi ki, dedikləri həmişə haqqın özü olub, xalq həqiqət kimi qəbul edib. Ən son məqamda belə Qazi nə deyibsə, doğru-düzgünlüyün özü olub. İndi Qazibaşının «bəli, mənim hökmdarım sənin istəyincə olacaq hər şey» düşüncəsi Qazi Bürhanəddini özündən cıxarmışdı. Artıq onun üçün fərqi yox idi, Qazibaşının dediyi sözün hamısını beynində təkrar eləyir, ya eləmir. Bu barədə heç düşünmürdü də. Yalnız bircə onu düşünürdü ki, deyəsən, bu məmləkətdə qoyduğu qanun-qaydaları bir kimsə axıracan yerinə yetirmir. Onu da başa düşürdü ki, bu qayda-qanunları onun göstərişləri əvəz eləyir. Qazi isə əslində, bunu zahirən qəbul eləmirdi. O istəyirdi ki, ölkə, məmləkət qazilər məclisinin diktə elədiyi qaydalar əsasında idarə olunsun. Çox təəssüf ki, kimsə Bürhanəddinin bu istəyinin axıracan yetərli olması istiqamətində fəaliyyət göstərmirdi. Elə indicə Qazibaşının birmənalı şəkildə hər şeyin hökmdarın istəyincə olacağını dediyi təqdirdə qəbul eləməyin mümkünsüzlüyü onun ruhunu sarsıtmışdı. Haracan desən qəzəbə də, etiraza da imkan var idi. Axı onun əlinin üstündə bir kimsənin əli yox idi. Nəyə görə Qazi Bürhanəddin sıxılmalı, dinməməlidir. Bunu indi heç onun özündən də soruşsan cavab vermək halında deyildi.

* * *

…Sara Xatun dayandı. Sükutla oğlunu təpədən-dırnağa süzdü. Onun nə düşündüyünün, haradan-haraya düşüncə ilə səfər elədiyinin fərqinə varmaq istədi. Sara Xatun öyrənmək istəyirdi ki, onun oğlu Uzun Həsən danışdığı bu uzun əhvalatın hikmətinə varıb, yoxsa yox. Sara Xatunun mənəvi mühitində baş verən qarşıdurmalar, çarpışmalar onu elə həddə gətirmişdi ki, istəyirdi, bu andaca, bu məqamdaca söhbəti qurtarsın. Çünki Uzun Həsənin baxışları, görkəmi ondan icazə almaq istəyirdi. Bununla anasına deyirdi: «sən məni burax, sən mənə icazə ver hərəkətə keçim, bir sözlə, qılıncımı qından çıxarım».

Uzun Həsən Sara Xatunun belə gözləyəcəyi təqdirdə münasibəti gələcək hadisələrin hansı məcrada olacağından xəbər verirdi. Əslində, Sara Xatun danışdığı uzun-uzadı hadisənin məğzini, mahiyyətini ona görə qurtarmaq istəmirdi ki, oğlunun düşüncəsində, ürəyində baş verən həyat təbəllüatlarının münasibətində qədərincə dəyişiklik görsün. Sara Xatun hiss eləsin, oğlu Uzun Həsən hökmdarlıqda, hakimiyyətdə, qalib gəlməkdə birinci şərti baş kəsməkdə, qan tökməkdə, öldürməkdə görmür. Bunun özü elə bir hikmət idi ki, bu nizamın haradan başlandığını və harada qurtardığını, bəlkə heç Sara Xatunun özü də yəqinlik eləməkdə çətinlik çəkirdi. Amma Sara Xatun inanırdı ki, keçmişdə olan əhvalatları olduğu kimi öz zamanına qaytara bilsə, bəlkə bu günün adamları heç o keçmiş zamanın səhvlərini təkrar eləməzlər. O səhvləri qeyrilərinin əməllərində cücərməyə bel bağlamazlar. İndi zaman belə idi ki, iki qardaş üz-üzə gəlməli olmuşdu. Sara Xatun qardaşların anası idi. Sara Xatun önündə dayanan və ən başlıcası, güc-qüdrət sahibi oğluna keçmişdə olanları ona görə danışırdı, oğlu Uzun Həsən o keçmişin qovğalarından pay götürsün.

Aman Allah, necə qəribə haqq-hesab idi. Uzun Həsən indi babası, babasının dayısı ilə bağlı əhvalatları eşitdikcə, dinlədikcə haldan-hala düşürdü. Kimin düz, kimin səhv addım atmağı, ki-

min haqlı, kimin ədalətli olmağı, kimin haqsız, kimin ədalətsiz mövqe tutmağı onun üçün elə indicə bu söhbətlərdə – Uzun Həsənə anasının danışdığı əhvalatlarda aydınlığını tapırdı. Axı onun yaddaşına, düşüncəsinə belə bir hökm yerimişdi ki, Qazi Bürhanəddin adil hökmdardır. Özü də zaman keçdikcə gücü, qüdrəti görünən rəhmdilliyi, insanpərvərliyi qeyriləri tərəfindən etiraf olunan şəxsiyyətdir. Bəs onda necə olub ki, o, gənc bir qızın – sevdalısı qürbətdə olan qızın, üstəlik də məmləkətdə əlinin işi ilə, zəhməti ilə, halallığı ilə tanınan bir kişinin qızının bu zillətlərə düşməsinə bais olub?

– Doğrumu deyirəm, ana? – Uzun Həsən Sara Xatunun sifətinə baxıb soruşdu. Hərçənd, elə neçə vaxt idi ki, Uzun Həsən Sara Xatuna «ana» yox, «məmləkətin anası» deyə müraciət edirdi. Və heç bu cür müraciətin, bu cür birbaşa, səmimi ana-oğul ünsiyyətindəki səmimiyyətin Sara Xatunun əhvalında dəyişiklik eləmədiyini görüb əlavə elədi: – Əziz anam, sən necə bilirsən, haqsızlıq insanı harayacan qoruya bilər?

Deyəsən, Sara Xatun oğlunun məsələyə müdaxiləsindən razı qaldı. Sevindi ki, övladı gələcək həyatını hökmdarlıq iqtidarını qurmazdan əvvəl onun danışdığı əhvalatların fonunda nəyin düz, nəyin əyri olmağının fərqindədir. Ona görə Sara Xatun Uzun Həsənin oturaq vəziyyətdə az qala onun özündən bir boy yuxarıda olan başına əlini çəkdi, özü də nəvazişlə çəkdi, məhəbbətlə çəkdi. Bütün bu nəvazişlərin, bu ehtiramların arxasında bircə o dayanırdı: «Əziz oğlum, sənə güvənirəm və inanıram».

Sara Xatun Uzun Həsənə daha nə isə demək istəmədi. Və onu da gördü ki, Həsən sövq-təbii əhvalatın davamını onun dilindən eşitmək üçün gözlərini döyür. Və Sara Xatun hələ artıq bir çoxları tərəfindən unudulmaqda olan tarixi çözməyinə davam eləməyi üstün tutdu.

* * *

…Qazibaşı da Bürhanəddinin hüzurunda nə qədər müntəzir dayansa da, ötən vaxtın mənasız olduğunu başa düşürdü. Çünki ona aydın idi bu gün baxacağı işin hökmünü necə verəcək. Dərd də, hökm də, güc də, ədalət də… hamısı hökmdarın dərin baxışlarında yazılmışdı. Və bu ordan hər şeyi aydın oxuyurdu. Yuxu da, ayıqlıq da… bir sözlə, insanın həyatına aid olan nə varsa, hamısı Qazibaşıya idi ki, onun hökmünə tabedir. Kim bu hökmdən necə faydalanacaqdı? Qazibaşı yaxşı bilirdi, baş əyan qədərincə varlı bir adamdı. Onun əyalətlərdə qoyun sürüləri, mal-qara naxırları, at ilxıları vardı, üstəlik, şəhər bazarına sahiblik eləyirdi. Deməк, bütün bunlar o demək idi ki, onun hökmünün baş əyanın ziyanına olması şəninə toxunmurdu.

Baş əyan üçün qoca kərpickəsənin xeyrinə olan bir hökm əyanın gündəlik təmtərağından heç bir kərpic də götürmürdü. Bu səbəbdən Qazibaşı naəlac qalmışdı. Bir-birinə zidd fikirlərin təlatümündə döyüşürdü. Heç anlaya bilmirdi ki, bu qoca kərpickəsən nə üçün bu işi bu əndazəyə gətirib çıxarıb. Bu tərəfdən onu başa düşmürdü ki, baş əyanın nəyinə gərəkdir, kərpickəsən qızının üzərində bu qədər dayanmaq, onu tələb eləmək, hətta boşanmaq istəyən qızın – atasının elçi daşının yanınacan gəlməyinə rəvac vermək.

Qazibaşı üçün, bəlkə də, hökm vermək çətin olmazdı, amma qızın atasının hakimiyyətin daşının üzərinə gəlib çatmağı, bu daşın üzərində lövbər salıb oturmağı onu bərk narahat edirdi. Bütün varlığı ilə düşünürdü ki, bu işin sonra başqa bir qalmaqalı çıxar, ya yox? Bunun cavabını hələ beynində tapa bilməmişdi.

* * *

…Bəndalı kişinin rəngi-ruhu qaçmışdı. Onu divan otağına gətirənlər tapşırdılar ki, nigaran qalmasın, bir yerə də çıxmasın. Elə buradaca gözləsin, birazdan divan olacaq. Əslində, elə Bəndalı kişini də qorxudan bu «divan olacaq» tapşırması oldu.

Necə yəni divan olacaq? – Bəndalı kişi düşündü, – yəni elə burada kimisə asıb-kəsəcəklər?

Axı o eşitmişdi ki, bu haqq daşının üstünə gəlib çıxmış adamlar çox görüblər ki, sözlərini deyib, sübutlarını gətirəndən sonra günahkarı elə cəza meydanındaca dar ağacına çəkiblər. Buna görə, Bəndalı kişinin düşüncəsinə yəqin elə buradaca «baş əyana cəza verəcəklər» – qənaəti hakim idi. Lakin o, bunu istəmirdi. Qətiyyən razı deyildi, onun şikayəti müqabilində nə baş əyana, nə də oğluna cəza versinlər. Birincisi, təbiət etibarilə Bəndalı kövrək adam idi. Bir kimsənin toyuğunun ayağına daş dəyməsinə razı olan deyildi. İkincisi baş əyan kimi nüfuzlu bir adamın – məmləkətin hökmdarından sonra ikinci başbilənin ünvanına bir xətər gələcəyi təqdirdə nəticəni «zəlzələ» kimi düşünürdü. Bu «zəlzələ»nin sonu nə ilə qurtacaqdı? Axı bu «zəlzələ»nin elə bir vəlvələsi olardı ki, Bəndalı kişinin bütün nəslini kəsərdilər.

O, qızını xilas eləməyə gəlib, daha bütün kəndini, tayfasını qurban verməyə yox. İşin ağır tərəfi onda idi ki, hələ Bəndalı kişiyə aydın olmamışdı, məsələ nə ilə qurtaracaq. Qərəz, divan başladı. Qazibaşı köməkçiləri ilə gəlib yuxarı tərəfdə yerlərini tutdular. Daha bir-iki nəfər var idi. Amma nə baş əyan, nə də baş əyanın oğlu gözə dəymirdi. Doğrudur, əsl günahkarların görünməməsindən Bəndalı kişinin bir qədər dalağı sancdı, narahat oldu: «Bu necə divandır ki, əsl günahkarları göz önünə gətirmirlər?» – fikirləşsə də, cavabını bilmədiyi suallarla özünə müraciət eləsə də, məsələnin kökünü bir tərəfə çıxara bilmirdi. Ancaq daha bir-iki nəfər də var idi ki, deyəsən, onlar Bəndalı kişiyə tanış gəlirdi. Elə bil bu adamların simasını haradasa – bəlkə elə baş əyanın öz evində görmüşdü. Qazibaşı birinci Bəndalı kişiyə müraciət elədi: – A kişi, əvvəlcə «Quran»a əl bas ki, sən hər şeyi düz, olduğu kimi danışacaqsan.

Bəndalı kişi qabağa yeriyib əlini «Quran»ın üstünə qoydu: – Bu «Quran»a and olsun ki, nəyi necə bilirəmsə, eləcə də danışacağam.

Sonra «Quran»ı öpmək istədi. Amma divan işçisi – «Quran»ı gətirən şəxs buna imkan vermədi. Geriyə çəkildi və öz yerində əyləşdi. Bəndalı qəddini düzəltdi, Qazibaşının üzünə baxdı. Bu baxışla demək istədi ki, mən hazıram, buyur, nə soruşacaqsansa, cavab verim.

Qazibaşı ətrafdakılara nəzər salıb sanki kimin gəlib-gəlmədiyini sakit nəzərlərlə yoxladıqdan sonra üzünü Bəndalı kişiyə tutdu: – Ay kişi, sənin şikayətin nədəndir?

– Möhtərəm Qazibaşı, mən də, balalarım da qurban olsun hökmdarın ədalətinə. Biz hökmdarın adını pənah tutub buraya gəlmişik. Nə olsun ki, təkcə mən gəlmişəm, elə hesab eləyin ki, təkcə mən yox, mənimlə birgə qızımın anası da, elə qızım özü də ədalət divanına ayaq basıb. Hərçənd qızım aylardan bəridir ki, ağır yataq xəstəsidir. Heç yerindən dura bilmir. Hörümçəkdən can diləyir, ha budur ki, bu gün canını tapşırar, ya sabah.

Bəndalı kişi hələ bəlkə çox danışacaqdı. Qazibaşının üz-gözünü turşutmağından halı dolandı, sonra nəyi deyəcəkdisə, hamısını unutdu. Bəlkə buraya nə üçün gəldiyini də yaddan çıxartdı.

Qoca Qazibaşı Bəndalı kişinin belə uzun-uzadı giriş verməyindən qəzəbnak olmuşdu. Elə istəyirdi, sözünü kəsib, mətləbə gəlməyini tələb eləsin. Və Bəndalı kişi birdən susdu, sözünün davamını gətirmədi. Deyəsən, aradakı sükut çox çəkdi. Bu Qazibaşını tamam hövsələdən çıxartdı: – A kişi, mətləbə gəl. – Açıq-aydın təkid elədi: – Axı sən nə istəyirsən, onu söylə.

– Mən istəyirəm ki… – Bəndalı kişi özünü cəmləyib axır ki, birtəhər dillənməli oldu.

– Hə, nə istəyirsən? – Qazibaşı yenə onun dayandığını, dodaqlarının əsdiyini görüb düşüncəsində elədiyi çək-çevirlərə yekun vurmaq üçün soruşdu: – İstəyirsən ki, biz nə eləyək?

– Heç nə. Mənim qızıma azadlıq verin. Mənim qızımdan əl çəksinlər. Qoy onun ölümü bizim öz gözlərimizin önündə olsun, özümüz aparıb dəfn edək.

– A kişi, çıxmayan can üçün Allahın əvəzində hökm eləmə. Sənin qızın axı baş əyanın gəlinidir. O, nədən narazıdır?

– Mənim qızımın bir narazılığı yox idi.

– Bəs nə oldu ki, narazı oldu?

– Baş əyanın evində mənim qızıma zülüm elədilər.

Qazibaşı baş əyanın adından gəlib divanda olan adamlara tərəf çöndü. Yaşlı bir kişi ayağa qalxdı: – Hörmətli Qazibaşı, bu kişinin qızına heç  güldən artıq söz deyən olmayıb.

Qazibaşı əlini yuxarı qaldırdı, bu, dayan işarəsi idi. Sonra da «Quran»ı əlində saxlamış köməkçisinə işarə ilə göstərdi ki, irəli getsin. Yəni ki, sən də and iç. Baş əyanın adından gəlmiş şəxs – evbaşı irəli yeridi. Əlini «Quran»ın üstünə basıb and içdi: «Mən müqəddəs kitabımıza and içirəm ki, olanları düz danışacağam».

Sonra Qazibaşı davam üçün işarə elədi.

Evbaşı iki addım geriyə çəkilib, həmin yerində durdu. – Hə, bu kişinin qızına heç bir zülüm olmayıb, baş əyanın evinə gələn gündən onun hazırladığı yeməklər acı və duzlu idi. Niyə belə eləyirdi, sadəcə, bunu ondan soruşurdular. O isə cavab vermirdi, çiyinlərini çəkirdi. Çünki hələ gəlin gələndə – mən ərə getmək istəmirəm, mən öz evimizdə qalmaq istəyirəm, demişdi – yəni narazı idi. Ancaq ata-anasının təkidi ilə səsini kəsib baş əyanın oğluna ərə gəlmişdi. Biz də məcbur olurduq ki, işin kökünü öyrənək. Bəlkə, elə yeməklərə zəhər qatırdı?

– Bunu səndən başqa deyə bilən var? – Qazibaşı soruşdu.

– Bəli, hörmətli Qazibaşı, ev qulluqçusu bu qız – yeməkləri hazırlayanda həmişə onun yanında olan qadın buradadır.

– O sənin sözlərini təsdiq eləyə bilər?

– Bəli, hörmətli Qazibaşı, təsdiq eləyə bilər?

– Buyursun, – Qazibaşı o qadına tərəf baxdı. Çadrasına bürünüb bir küncə qısılmış qadını yaxına çağırdı. Sonra köməkçisinə işarə elədi. Və qadın da «Quran»a əl basıb, düz danışacağını bildirdi.

– Sən təsdiq eləyə bilərsənmi, o yeməklər acı və duzlu idi?

– Bəli, hörmətli Qazibaşı, elədir ki, var.

– Hə, buna nə deyirsən, a kişi? – Demək, sənin qızının məqsədi baş əyanın oğlunu, ailə üzvlərini zəhərləmək olub.

– Allah eləməsin, hörmətli Qazibaşı, – Bəndalı kişi tez səsini qaldırdı. Adam öldürmək bizim işimiz deyil.

– Bəs kimin işidir?

– Allahın, bir də…

– Hə, nə bir də? – Qazibaşı qəzəbləndi.

Daha Bəndalı kişi özünü ələ ala bilmədi. Onun içindən baş qaldıran od-alov gözlərində şimşək kimi çaxdı. Qəzəbindən tir-tir əsdi. Daha dillənmədi, sözünün gerisini zorla saxladı, dili tutuldu, səsi batdı.

– Yox, gərək deyəsən ki, görək bir də kimin işidir?

– Bir də sizin kimi allahsızların, hökmdarı aldadanların, onun baş əyanının, əlində yalandan «Quran»ı bayraq edənlərin.

– Dayan! – Qazibaşı qışqırdı.

Deyəsən, Bəndalı kişinin səsi açılmışdı. Daha bayaqkı qorxu-hürküsü qeybə çəkilmişdi. Bir canı vardı, götürüb gəlmişdi. Onu da burada qoyub gedəcəyini gözünün altına almışdı. Bəlkə də çox sözlər deyəcəkdi. Ancaq Qazibaşının hirslə qışqırması onu elə bil yuxudan oyatdı. Qazibaşı çox pis qəzəblənmişdi. Bəlkə, elə buradaca hökm verərdi ki, Bəndalı kişini cəza meydanına aparsınlar. Kəndiri boğazına keçirənəcən tamaşa qılardı. Çox təəssüf ki, hökmdarın özündən belə bir göstəriş almamışdı. Axır ki, o da sakitləşdi. İşi birtəhər qurtarıb, hökmdarın tapşırığına əsasən, baş əyanın arzusuna rəğmən qərar çıxartmaq istədi. Ona görə bir qədər yumşaq, sakit səslə həmin qulluqçu qadına tərəf döndü:

– Bəlkə, o yeməyin duzluluğunun, acılığının səbəbini söyləyəsən.

Doğrudur, qadına tapşırmışdılar ki, o, bu barədə divanda heç nə danışmasın. Həqiqətən də bu barədə heç nə demək istəmirdi.

İndi Qazibaşı ondan məhz həmin məsələni soruşurdu. O da tapşırılana görə susmuşdu. Qazibaşının ağlına da gəlməzdi ki, bu səbəb nə olar. Elə onun özü də düşünürdü ki, yəqin qızın planı hökmdarın oğlunu zəhərləmək olub. Və yeməklərə nə isə qatırmış. Acılığın, şorluğun səbəbi elə o dərmanlarla bağlı olarmış.

– Hə, indi de görək, bu kişinin qızı yeməklərə nə qatırmış, məqsədi nə imiş? Həqiqətənmi, baş əyanın oğlunu zəhərləmək istəyirdi?

Qulluqçu qadın bu bir-birinin arxasınca verilən sualların çoxluğundan özünü tamam itirdi. Başına bürüyüb bədənini örtdüyü hicabını unutdu. Örtük sürüşüb çiyinlərinə düşdü. Bu orta yaşına çatmamış qadın qara şəvə kimi saçlarını darayıb, qoşa hörüklərini arxasına atmışdı. Alma kimi gözləri vardı. Hündür qamət, qürurlu görkəm onu sanki bütöv ağ mərmərdən yonulmuş heykələ bənzədirdi. Üz-gözündən, görkəmindən bir qədər də Orta Asiya adamına bənzəyirdi. Bəlkə də bir vaxt uzaq Monqolustandan gələn tayfaların nəslinə mənsub idi. Amma boyca hündür idi. Bu da onu göstərirdi ki, çoxdan yerli əhali ilə qaynayıb-qarışmış soy-kökdəndir.

Qazibaşı nə qədər ahıl olsa da, qadının gözəlliyi qarşısında sarsıldı, heyrətlə gözlərini ona bərəltdi. Özü də təkcə belə heyrətlə baxmaqda deyildi, elə ətrafındakı köməkçiləri də deyərdin, ilk dəfə idi ki, bu görkəmdə, bu gözəllikdə qadın görürdülər.

Bəndalı kişi qadına belə acgözlüklə baxan bu divan adamlarının iç dünyalarından keçənləri sanki dilsiz, danışıqsız nəzərlərilə birər-birər oxudu. Özlərini haqq-ədalət carçısı elan edənlərin puç simalarını, iyrənc, idbar mənəvi dünyalarını açıq-aşkar gördüyündən ikrah elədi. Nifrətlə üzünü onlardan döndərdi. Sonra qadına tərəf dönüb bir qədər yazıq-yazıq müraciət elədi: – Başına dönüm, ay bacı, nəyi bilirsənsə de.

– Əlbəttə, əlbəttə, hamısını deyərəm, – qadın Bəndalı kişiyə rəhmi gəlirmiş kimi, həm dili ilə cavab verdi, həm də başını razılıqla tərpətdi.

– Onda buyur, danış. – Bu, artıq özünü cəmləmiş Qazibaşının səsi idi.

– And olsun əlimi basdığım «Quran»a ki, bu kişinin qızının heç bir zərərli məqsədi olmayıb, o heç kimi zəhərləmək istəməyib.

Qadın sözünün gerisini gətirmədi, yadına düşdü ki, əsas səbəbi deməməyi tapşırıblar.

– Nə ancaq, sözünün gerisini də de. De görək, səbəbi nə idi ki, o yeməklər şor və acı olurdu?

Qadın əllərini göyə açdı:

– Ey Allah, sən haqsan, axı mən neyləyim?

– Ay Allah bəndəsi, burada nə var ki, sən əsl səbəbi demək istəmirsən. – Qazibaşı yenə təkid elədi.

Əslində, qadın hər şeyi olduğu kimi demək istəyirdi, ancaq odla su arasında qalmışdı. Əgər həqiqəti desəydi, açsaydı sandığı, töksəydi pambığı, günü baş əyanın evində qara olacaqdı. Ümumiyyətlə, onu həmin evə yenidən buraxacaqdılarmı? Lap elə buraxmasaydılar da canına qəsd olmayacaqdı ki, elə səssiz-sovsuz başını götürüb buradan uzaqlaş get, o da bundan hədsiz sevinərdi. Başını götürüb bir kəndə gedərdi. Lap elə Bəndalı kişinin evinə pənah aparardı. Bəlkə, hələ yaşamağına ümid olan Dürdanəyə qulluq eləməklə təskinlik tapardı. Onu uşaq vaxtından baş əyanın evinə gətirmişdilər. O, elə baş əyanın evindəcə böyümüşdü. Sevib-seçdiyi bir oğlan üçün də könlünü açmağa imkan verməmişdilər. Onun sevdiyi gənci də – baş əyanın evində atlara baxan gənci baş əyanın oğlunun əvəzində Teymurilərlə savaşa göndərmişdilər. Sonra bir xəbər çıxmamışdı. Beləcə, bu qadın tək-tənha Allahın ümidinə qalmışdı. Əslindən-nəslindən, sevgilisindən əli üzülmüş kimsəsiz ümidini haqqa bağlayıb baş əyanın evində ömrünü qulluqçu kimi yaşamalı olmuşdu. İndi o, əsl həqiqəti deməyə də bilmirdi. Çünki «Quran»a əl basmışdı. And içmişdi ki, düzünü, olanı deyəcək. Yalan deyəcəyi təqdirdə haqqın divanında ona hansı cəza veriləcəkdi? Bax bu, onu vahimələn-

dirirdi. Vaxt isə ötür, Qazibaşı yenə hövsələdən çıxdı: – Ay Allah bəndəsi, indi sən dillənəcəksən, ya yox?

Qadın yenə ətrafındakılara nəzər saldı. Yazıq-yazıq ona baxan Bəndalı kişini bir də altdan-yuxarı süzdü. Nə onu bura gətirmiş imansızların, nə də bu divan adamlarının üz-gözlərindən heç bir rəhm-imdad görmədi qadın. Çar-naçar yenə üzünü göyə tutdu:

– Haqq dadıma çatar. Dürdanə yeməklərə heç bir zəhər qatmırdı.

– Bəs nədən yeməklər şor və acı olurdu?

– Çünki o, həmin yeməkləri hazırlamağa başlayarkən gözlərindən yaş sel kimi axırdı. Onun gözlərinin yaşı qarışırdı həmin yeməklərə. Bu, onun dərdinin acısı-ağrısı idi, hazırladığı yeməklərə qarışıb belə bir dad gətirirdi.

Bəndalı kişinin beli büküldü. «Can bala» – deyib, yerə çökdü.

* * *

Qazibaşı lap yuxarıda – hamının görəcəyi bir tərəfdə ayaq üstə dayanmışdı. Bir əli «Quran» kitanının üstündə, bir əli də Qazi Bürhanəddinin qayda-qanunlar haqqında, məmləkətin idarə olunması, düzlüyün, doğruluğun qorunması haqqındakı əmrlərinin üstündə idi. Bununla Qazibaşı nümayiş etdirirdi ki, bu məmləkətdə dinin və dövlətin mənafeyi eynidir. Hər iki tərəf haqqı-ədaləti müdafiə edir, qoruyur. Qazibaşının özünün timsalında və Qazi Bürhanəddinin kölgəsi altında olan səltənətdə heç kim nə dindən kənara çıxa bilməz, nə də dövlətin mənafeyini qoruyan qayda və qanunlardan ayrılıqda hökm verə bilməz. Bununla bütün qonşu əyalətlərdə baş verən şəriət və divan hökmlərinin arasındakı ziddiyyətlərə bir etiraz özünü təsdiqləyirdi. Bütün hallarda güman o yerə yönəlirdi ki, qonşu əyalətlərin hamısı ilə müqayisədə Qazi Bürhanəddinin dövlətində divan işləri dini işlərlə müvazi olaraq bir-birinə münasibətdə tənzimlənir. Hər şey xalqın və dövlətin mənafeyini əks etdirir.

Birazdan Qazi hökm oxuyacaqdı. Bəndalı kişi də baş əyanın özü olmasa da, adamları da bu hökmü dinləyəcək və ona şəksiz əməl etmək məcburiyyətində qalacaqdılar. Ancaq hələ ki, o, ətrafındakı adamlarla birlikdə məşvərətdə idi. Onsuz da Qaziyə də, onun ətrafındakı hökmə dəxli olacaq, hökmü təsdiq və yaxud inkar edəcək qazilərin hər birinə də aydın idi ki, Dürdanə daha bundan sonra baş əyanın evində sakin ola bilməz. Çünki artıq başa çatmış mühakimədə aydın olmuşdur ki, kərpickəsən Bəndalının qızı baş əyanın evində heç əzəldən sidq və sədaqətlə sakin olmayıb. O da təsdiqini tapmışdır ki, bu qızı baş əyanın evinə məcbur olaraq gəlin köçürüblər.

Heç əslində, Qazibaşı tələb edəndə ki, nə vaxtsa bu qız baş əyanın evinə gəlin köçəndə, kəbin mərasimində kimsə bu qızın dilindən «razıyam» sözünü eşidib, ya eşitməyib – belə bir kimsə tapılmadı. Ona görə belə bir şahid tapılmadı ki, o vaxt Dürdanənin ağzından «razıyam» kəlməsi çıxmamışdı. Və şahid olmaq istəyənlər qızın razı olmadığını bildiklərindən yaxına gəlməmişdilər. Bir sözlə, son mühakimədə Qazibaşı məsələnin nə qədər mürəkkəb və çətin olduğunu, verəcəyi hökmün nə qədər əsassız olduğunu çoxdan anlamışdı. Hətta məşvərət zamanı qazilər onun üzünə dirənmişdilər ki, məsələnin kökü qeyri-qanuni kəbinlə bağlıdır. Kəbin də ona görə qeyri-qanuni idi ki, həmin mərasimdə sənədi təsdiq edəcək bir şahid olmamışdır. Qısası, məsləhət-məşvərət başa çatdı. Qazibaşı qazilər arasındakı uzun-uzadı nitqində ər-arvad münasibətlərinin nə qədər gizli olduğu, bu məsələnin, əslində, cəmiyyət üçün yasaqlığı haqqında moizələr söylədi. Dəlil və sübutlar gətirsə də, ayrı-ayrı hədisləri misal çəkib ortalığa töksə də, onun məntiq və mühakimələri digər qaziləri qane etmədi. Buna baxmayaraq, qazibaşı bir ailənin namusunun qorunmasının, xüsusilə, əgər bu ailə dövlət adamıdırsa, dövlətə dəxli olan bir kəsdirsə, onda belə hökmlərin necə böyük əhəmiyyət kəsb etdiyini deyib durmaqdaydı.

Qazibaşı hiss etdi ki, onun nə uzun-uzadı nitqlərinə, nə də din tarixindən gətirdiyi hədislərin mötəbərliyinə əhəmiyyət verən yoxdur. Qazibaşı gördü ki, onun nitqini dinləyən qazilərin hamısında kərpickəsən kişinin qızının taleyinə bir qayğılı münasibət, ürək yanğısı var. Qazibaşı neyləsin ki, insanların hər vaxt kimsəsizlərə, dərd içində çabalayanlara bir məhrəm, qayğılı münasibətləri özünü qoruyub-saxlayır. İndi elə bir məqam çatmışdı ki, o baxışları ilə qazilərə yalvarırdı: «Allahınızdan qorxun, çünki Allah hakimlərin tərəfindədir. Unutmayın ki, hər bir hakim yerdə Allahın kölgəsidir. Bizim hər hansı birimiz necə cəsarət edib, cürətə gəlib başımızın üstündən kölgəsini Tanrının əsirgəmədiyi Qazi Bürhanəddinin istəyinin əksinə gedə bilərik? Axı Qazi istəyir ki, baş əyanın namusu qorunsun, əhli-əyalının ünvanına bir ləkəli söz deyilməsin. Bunun üçün də biz hamımız hökmdarımızın diləyinə əməl etməliyik. Necə ki, hökmdarımız baş əyanı ləkəsiz, ləyaqətli bir kəs kimi tanıyır, onun ailəsinin toxunulmazlığını dövlət işi hesab edir, biz də eləcə bu məqsədə, bu mərama uyğun qərar qəbul etməyə çalışmalıyıq».

Qazibaşı nə qədər təlqin, nə qədər təsir gücü ilə qarşısında dayanmış qazilərin gözlərinin içinə baxıb danışsa da, onların baxışlarından rəğbət duymurdu. Onu qorxudan elə bu idi ki, o, birdən hökmünü elan edər, bu qazilərin hələ ağzından süd iyi gələnindən – cavanından tutmuş özü ilə həmyaşıd olan üləmalara qədər hər hansı biri deyər ki, mən bu qərarla razı deyiləm. Bəs onda Qazibaşı uzun börkünün altında gizlətmiş olduğu məkr və hiylə ilə dolu başını harada saxlayacaqdı? Onun börkü nə qədər basıb başını örtsə də, dartıb edam ağacına aparanda kəlləsinin üstündə qalacaqdımı?

Əlbəttə, börk edam kötüyünün qabağında yumalanacaq, başı açıq, boynu kəndir ağzında olmayacaqdımı? Hələ elə indinin özündə Qazibaşını kəndir də, edam da yox, el içində biabır olmaq, Qazi Bürhanəddin kimi ədalətli bir hakimin əleyhdarı tək

tanınmaq təhlükəsi qorxudurdu. Nə isə, Qazi gözləri ilə yalvarırdı ətrafındakılara; gəlin, insaf eləyin, həqiqəti dərk eləyin…

Bir anda Qazibaşına elə gəldi ki, onun düşündüyü və ətrafındakılara təlqin elədiyi bu hökmü cavan qazilərdən biri onun gözlərindən oxudu:

– Hörmətli Qazibaşı, sən həqiqətin dərkini nədə görürsən?

Deyəsən, o da bu cavan qazinin nə dediyini – lap elə onun əksinə dediyini göydəcə tutdu, ancaq cavab verməyə tələsmədi. Çünki o cavan qazinin nə demək istədiyini kifayət qədər anlamamışdı. Doğrudur, başa düşmüşdü ki, bu cavan qazi onun fikirlərilə razı deyil, nə «hə», nə də «yox» məramı üstüörtülü idi.

Handan-hana o, özünə gəldi. Cəsarətini topladı. Onu da yadına saldı ki, çox belə cavan qaziləri görüb və onların hər birinin necə siyasət küləklərinin qabağında sovrulduqlarının şahidi olub. Qazibaşı özünə inamla, ancaq başa düşmədiyi sualın qabağında susmağı da özünə rəva bilmədi.

– Həqiqət bizim üçün hökmdarımızın rəyidir – dedi.

Qazibaşının bu sözləri cavan qazinin ikrahqarışıq kinayəli təbəssümü ilə qarşılandı. Yuxu hər vaxt çin olmur. Çin olan yuxular da vardı. Qazibaşı öz hökmündən əvvəlki gecədə gördüyü yuxunu yadına saldı: deyəsən, bir kölgəli ağacın altında oturmuşdu. Ağacın altı o qədər sıx kölgəlik idi ki, ətrafdan bir quş da bu kölgəliyə girməyə cürət etmir, qanad çalmırdı. Ağacın lap yuxarısında bir qarğa küləklərin yellədiyi budağın nazik yerində caynaqlarını nisbətən möhkəm bir budağa ilişdirib dayanaraq və üzü küləyə tərəf qarıldamağında idi. Qarğa insafsız uçub getmədi. Qazibaşı kölgəlikdən üzüyuxarı nə qədər «kiş, kiş» desə də, quş uçub getmirdi. Hətta Qazibaşı aradabir istədi kölgəlikdən kənara çıxıb qarğanı daşlasın, bəlkə, daşın birini elə tuşlayıb, atsın ki, gedib düz o qarğanın lap o qarıldayan dimdiyindən dəysin. Və o da bu daşın zərbəsindən yumalanıb budaqların arasından ağacın dibinə düşsün. Amma yox, Qazibaşı tənbəllik etmişdi. Yandırıcı

günəşin altına çıxmaq istəməmiş, hətta çıxış yolu tapmışdı: «Əşi, qara qarğadır da, qoy nə qədər istəyir qarıldasın. Harada görünüb ki, bir qarğanın qarıltısı ilə bir ev dağılsın. Başqa bir qarğanın qarıltısı ilə dağılmış ev tikilsin. Bu da olsun onlardan biri».

İndi birdən-birə həmin o yuxu gəlib Qazibaşının yadına düşdü. Qarğa da, kölgəli ağac da gəlib lap gözlərinin qabağında dayanmışdı. Elə bil ağac qazilərin məşvərət otağında bitmişdi. Bəduğur quş həmin ağacın lap başına qonmuşdu. İndi Qazibaşı o qarğanın qarıltısını təzədən xəyalında eşitdikcə yuxusundakı tənbəlliyinə acığı tuturdu. Axı niyə bir daş götürüb o qarğanı qonduğu budaqdaca sapandlamadı. Bəlkə, elə o qarğa onun daşına tuş gələcək, sonra lap ayağının ucuna düşəcəkdi. O da ayağını qarğanın başının üstünə qoyub murdar cəmdəyini əzəcəkdi. Qarğa da, qarıldayan dili də dimdiyi ilə birlikdə torpağa qarışacaqdı.

Qazibaşı özü yuxusunu elə beləcə özünə xoş gəlməyən tərəfə yozmuşdu. Ancaq bilmirdi ki, kimin xeyirinə hökm kəssə, yuxu hansı tərəfə çin olacaq? Hər halda, düşündü ki, hökmdarın tərəfində, hökmdarın istəyinə uyğun təriq ilə hökm çıxarsa, bu, daha düzgün olar.

Qazinin başqa çıxış yolu qalmamışdı. Əgər ayrı-ayrı qazilərlə mübahisəyə girişməli olsaydı, bu, səssiz sükut ilə baxan adamların hansının nə cavab verəcəyinə də dəqiq bir inamı yox idi. Ayıq tərpəndi, ayrı-ayrılıqda onların hər hansı birindən münasibət bildirməyi xahiş eləmədi. Axırıncı nitqinə də elə dəqiq, aydın hökmü ilə yekun vurdu:

– Düşünürəm ki, baş əyanın məmləkətimizin taleyində xidmətlərini kimsə dana bilməz. Əgər biz onun ailə nüfuzuna xələl gətirəcək bir qərar qəbul eləsək, onda qonşu məmləkətlərin gülüş hədəfinə çevriləcək. Zənnimcə, Bəndalı kişinin qızı könlü istədi-istəmədi, lap ölüm ayağında olsa belə, gəlib baş əyanın evində oturmalıdır. Əsaslı bir səbəb görmürəm ki, o qızı baş əyanın oğlundan boşayaq. Özünüz yaxşı bilirsiniz, boşanmaq üçün ən va-

cib səbəblərdən biri kişinin öz arvadını dolandıra bilməməsidir. Bu da inandırıcı görünmür. Bizim baş əyanın gücü, qüdrəti, var-dövləti hamıya məlumdur. Eləcə də sizin və bizim hər birimizə. Qoy Dürdanə ərinin evinə qayıtsın, burada yaşasın. Hələ orası da var, bəlkə o qızın atasının evində yaşaması üçün bir müvafiq şərait də yoxdur. Bəlkə lap aclıq da çəkir. Bəlkə, elə onun xəstəliyi bu ehtiyaclarla bağlıdır. Biz bu hökmümüzlə elə bir cavan qadının taleyini də qorumuş olarıq.

Qazilər dinmirdilər. Kimsədən səs çıxmırdı, nə «hə», nə «yox» deyirdilər.

Qazibaşı öz kürsüsünə əyləşdi. Qamış qələmini götürüb dəvata batırdı. Sonra qarşısındakı Çin kağızının üstündə verəcəyi hökmü yazmağa başladı: «Bəndalı kişinin qızı Dürdanə baş əyanın oğlundan boşana bilməz! Bu, şəriətə zidd olduğu kimi, məmləkətin də mənəvi hökmlərinin əleyhinədir. Qoy, o, ümumi nəzarətçilərin təşviqi, təkidi və icrası ilə baş əyanın evinə qaytarılsın.»

Aşağıdan da yazdı: «Hökmü Qazibaşı verdi. Qazilər bu hökmü təsdiq etdilər».

Sonra qaziləri bir-bir yaxına çağırdı. Gözünün su içmədiyi cavan qazini axıra saxladı. O biri qazilər bir-bir yaxına gəlib demək olar ki, gözucu hökmə nəzər salıb, bəlkə də, heç bu hökmü oxuyub-oxumadıqlarının fərqinə varmadan şəhadət barmaqlarını dəvata batırıb kağızın üstünə basdılar. Hər kəs əyri-üyrü xətlərlə adını da yazdı. Ən axırda cavan qazi yaxına gəldi. O, özündən əvvəlki qazilərin nə yazıb-yazmadığını Qazibaşı tərəfindən fərqinə varıb-varmadığını görürdü. Ona görə də bəlkə də, bir qədər tərəddüdlə, rəngi avazımış halda içindəki qəzəbini boğub heç nə demədi. Yaxına gəlib dəvata şəhadət barmağını batırıb kağızın üstünə basdı. Sonra iki kəlmə yazdı: «düz deyil». Qazibaşı da razılıqla gülümsündü. Çünki onun nə yazdığının fərqinə varmamışdı. Düşünürdü ki, bu cavan qazi də gəlib öz möhrünü qoydu və adını yazdı. Qazibaşı digərlərinin adlarını oxumadığı kimi, ca-

van qazinin də adını oxumadı. Çox böyük ruh yüksəkliyilə ağır, qanlı bir döyüşdən qalib çıxmış cəngavər kimi yazılı Çin kağızını bürmələdi. Uzun lülə şəklində bürmələnmiş kağız əlində idi. Ortasında bir balaca yazılı tərəfi olsa da, bir arşından çox dürmək kimi qoltuğunda idi. Ayağa qalxdı:

– İndi qalxın gedək.

…Şeyx Məhyəddin düşünürdü ki, danışdığı bu əhvalatın axırı ağrı-acısı ilə Qazi Bürhanəddinin ruhunda, mənəvi mühitində bir dəyişiklik yaradacaq. O, vaxtilə baş əyanın namusunu, məmləkətin nüfuzunu qorumaq adı ilə atdığı addımın necə fəsadlar törətdiyini, bəlkə də, həyatının bu ağır anlarında daha yaxşı dərk edə bilər. Və öz qızının taleyinə də, Dürdanənin taleyini təzədən acınacalı bir hökm kimi yazmaz. Bəlkə də Şeyx Məhyəddin danışdığı hekayətin təsirilə Qazi Bürhanəddinin qızının həyatını xilas etməyi düşündüyündən daha qətiyyətli və inamlı idi. Qoy özünü ədalətli sayan hökmdar bir kərpickəsən kişinin qızı üçün verdiyi qəddar hökmün ağrı-acısını öz qızının taleyində hiss etsin. Bəlkə bu yolla onu bu təhlükəli addımı atmaqdan geriyə qaytarmaq olar.

Şeyx Məhyəddin belə düşünürdü. Amma Qazi Bürhanəddin tamam başqa cür. Həmin başqa cürün mahiyyəti də bundan ibarət idi ki, lap bir qızı yox, min qızı olsaydı, onun hamısını qurban verərdi. Təki hakimiyyətə bacısı oğlu olsa belə, yad bir nəslin nümayəndəsi gəlməsin. Qoy onun qızı da, bacısı oğlu Əhməd də cəhənnəm olsunlar. Ancaq onun min bir qada-qəza ilə qurduğu səltənətə xətər toxunmasın.

…Divan atlıları kərpickəsən Bəndalı kişinin evinə tərəf çapırdılar. Həmin anlarda Dürdanə taleyinin divanda necə, hansı hökmlə həll olunduğunun fərqində deyildi. Çünki can üstə idi. Bəlkə də son nəfəsini yaşayırdı.

* * *

Birdən Varis elə bil Şeyx Məhyəddinin üzünə qabardı.

– Dayan, Şeyx. – Qeyri-iradi səsləndi. Şeyx Məhyəddin bayaqdan bəri hədsiz maraq, bəlkə də daha çox təəccüb eyni zamanda təəssüfqarışıq bir görkəm və diqqətdə onu dinləyən Varisin belə ani müdaxiləsinə təəccüb eləmədi. Doğrusu, heç Varis belə kəskin səs və səda ilə ona müraciət eləməmişdi. Ona görə bir qədər dayanıb Varisin əlavə nə isə deyib-deməyəcəyini gözlədi. Söhbətinə ara verdi. Həmin anda Qazi Bürhanəddinin imkanı olsaydı, ya danışmaq üçün söz demək iqtidarını bacarsaydı, Varisə deyərdi ki, sən bir qədər dayan, səbirli ol. Söhbətin davamını dinlə. Ancaq Qazi Bürhanəddinin belə bir qüdrəti yox idi. Bəlkə də bu iqtidarsızlığının məsələyə münasibət üçün gücünün olmadığından, ya bəlkə qəlbinin daha artıq kövrəldiyindən içindən-içinə yay kimi dartılıb-açıldı. Nə əlini tərpədə bildi, nə də dilini tərpədib ağzı kəlmə kəsdi, ancaq ətrafdakılar gördülər ki, Qazi Bürhanəddinin artıq neçənci dəfə güclə seziləcək dərəcədə tərpənən kirpiklərinin arasından yaş süzülür.

Damlalar əvvəlcə gözünün bəbəyində dolub-daşdı, sonra isə gilə-gilə yanaqlarına doğru axdı. Bu yaş gilələri onun yanaqlarını yandırırdı, yandırmırdı – bunu Qazi Bürhanəddindən başqa bir kimsə bilməzdi. Şeyx Məhyəddin Qazinin bu çıxılmazlıq altında nə çəkdiyindən artıq xəbərdar idi. Bəlkə elə ona görə Varisin təəccüb və heyrətlə dediyi «dayan» sözünü və elə bu bircə kəlmə «dayan» sözünün arxasındakı mahiyyətin nə olduğunun fərqinə varmadı. Bəlkə başqa vaxt Varisə «səbirli ol, hər şeyi ətraflı danışacağam, ətraflı biləcəksən, hövsələni bas» kimi sözlər deyərdi. Bunların heç birisini demədi. Yalnız əlini Varisin çiyninə qoydu və bir qədər məhrəm, yaşlı bir atanın öz oğlunun gözlərinə baxıb, ürəyindən keçənləri övladına nəzərləri ilə demək istədiyindən heç nə demədi. Və Varis ustadın gözlərindən oxunan duyğusal, hikmətin artıq ona nə dediyinin fərqində idi. Şeyx Məhyəddin Qazi Bürhanəddinin taxta çarpayısının böyründə qoyulmuş quru

ağ parçanı yaxındakı ləyəndə olan suyun içinə saldı, sonra sıxdı, həmin yaş parça ilə Qazinin alnının soyuq tərini sildi. Göz yaşı ilə islanmış yanaqlarını quruladı. İndi hamı sakitləşmişdi. Hərçənd ki, Varis hələ də intizarda idi. Şeyx Məhyəddin bircə baxışı ilə Varisə anlatdı ki, onu narahat edən, düşündürən sorğunu buyura bilər.

– Şeyx, gərək məni bağışlayasan. Mən hökmdarın və mürşidimin hüzurunda özümün xəbərim olmadan səsimi qaldırmışam. İxtiyarım olmadan «dayan» demişəm – Varis asta-asta üzrxahlığını bildirməkdə idi.

– Mən səni anlayıram, Varis. – Şeyx sakitcə, təmkinli müdaxiləsilə Varisə bildirmək istəyirdi ki, onu düşündürən nədirsə, açıq-aydın soruşsun.

İndi otağa yenə dərin bir sükut və səssizlik çökmüşdü. Bəlkə də heç kim bu sükutu pozmağa cəsarət eləməzdi. Amma Şeyxin xoş nəzərləri Varisə güc verdi. O, özünü topladı. Nəhayət ki, onun qəlbini didən, varlığını sarsıdan məsələnin mətləbini, mahiyyətini Şeyxdən öyrənmək üçün təkrarən ona üz tutdu:

– Dürdanənin taleyi, o öldümü, qaldımı? – soruşdu.

Həmin vaxt bəlkə Gülçöhrə də, hökmdarın oğlu Elməddin də dünyanın gəldi-gedərinin hamısını yaddan çıxarmışdı. Hələ Gülçöhrənin sevgilisi – Qazi Bürhanəddinin bacısı oğlu Əhməd də sevgilisinə qovuşacağı təqdirdə qayınatası olacaq Qazi Bürhanəddinin indi nə halda olduğunun da fərqində deyildilər. Yalnız Varisi deyil, burada hamının diqqətində olan və bəlkə saraya heç bir dəxli, olmayan bir kərpickəsən kişinin qızı Dürdanənin taleyi onlar üçün daha önəmli idi. Onlar dördgözlə Şeyxin ağzına baxırdılar, nə deyəcəyini gözləyirdilər. Divan adamları Qazibaşının hökmündən sonra Dürdanəni atasının evindən çıxarıb, baş əyanın evinə gətirə bildilər, ya gətirə bilmədilər? Bu məsələnin axırı nə ilə qurtardı? Hamını elə bu məsələ düşündürürdü. Yeri, yatağı ilə Şeyx Məhyəddin heç bir hadisənin dabanını basma-

dan, hər şeyi olduğu kimi danışmışdı. Amma o yerəcən ki, məhz dinləyənlər o yerdən sonra nəyin baş verib-vermədiyini bilmək istəyirdi. Şeyx təmkinini pozmadan, çənəsində cüzi çallaşmış saqqalında əlini gəzdirdi, sonra da iki əli ilə üzünü, gözlərini ovuşdurdu. Bəlkə də bunun nə demək olduğunu başqaları bilməzdi, ancaq Varis bilirdi ki, Şeyx məhz çətin anlarda, bir qərar qəbul eləməyin müşküllük məqamında əllərinin içinə alır sifətini, başını tutur, belə qədəri bilinməyən bir vaxt ərzində dərin fikirlərə qərq olur. Kim bilir, bəlkə istiqaməti bilinməyən xəyalların qanadlarında uçur?

Handan-hana Şeyx özünə gəldi. Hələ də müntəzircəsinə ona zillənən gözləri gördü. Bildi ki, burada Dürdanənin taleyini düşünən təkcə o deyildi. Bu qədər intizarla onun söhbətinin yekununu izləyən nə Varis, nə də qeyriləri üçün başqa heç nə maraqlı olmazdı. Şeyx gördü, daha söhbəti saxlayıb, onun davamını sabaha adlada bilməz. Elə buradaca baş verən hadisənin yekununu dinləyənlərə çatdırmalıdır.

...Atlılar Bəndalı kişinin özünü də götürmüşdülər. Qazibaşının ixtiyarında olan Bölükbaşı qucağında yarımölü halında atın üstündə gətirdiyi, canı-cəsədi iki at torbası ağırlığında olmayan Bəndalını düz evinin qapısında yerə atdı. Amma elə ehmallıca və ehtiyatla tərpəndi ki, biçarənin sümükləri sınmasın. Özü ayaq üstə qalxıb içəri keçsin. Bölükbaşı atdan endi. Digər mühafizəçilər də atdan düşüb müntəzir gözləməkdə idilər. Bəndalı Bölükbaşının qabağındaca içəri girdi. İlk qarşısına çıxan arvadı oldu. Onsuz da qızının ağır xəstəliyindən son illərin üzücü iztirablarından cana doymuş, üzülmüş, bəlkə də vaxtından əvvəl qocalmış qadın güclə qabağa bir-iki addım ata bildi. Hələ nə gələnlərin, nə də Bəndalı kişinin bir söz demədiyinə baxmayaraq, bu gəlişin xeyirli olmadığını elə onları görən andaca başa düşmüşdü. Bu üzünə doğru yeriyən bəd xəbərin, onun evinə qaranlıq gətirəcək xəbərin özünü eşitməmiş qadın sanki neçə ili elə birdən qocaldı. Üzü-gözü daha

artıq qırışdı, beli bir az artıq büküldü. Onsuz da gün əyilməyində idi. Qarşı tərəfdəki dağın kölgəsi artıq onların evini, həyətini basıb keçməkdəydi. Onsuz da hələ düşməyən axşam arvadın gözündə qabaqcadan qaranlıqlaşdı.

– Haradadı, qızınız? – Bölükbaşı amiranə soruşdu.

– Nəyinizə gərəkdi, mənim xəstə qızım? – ana güclə eşidiləcək bir səslə suala sualla cavab verdi.

– Qadın gərək öz evində, ərinin yanında olsun.

– Axı o, ağır xəstədir. Onun indi heç yerindən tərpənməyə halı yoxdur.

– Bunun bizə nə dəxli. Biz divan adamlarıyıq.

– Nə olar, divan adamı olanda. Divan adamının Allahı bəyəm yoxdu?

– Ay arvad, hərzə-hərzə danışma. Divan adamının borcu tapşırılan hökmü yerinə yetirməkdi.

– Yaxşı, sizə hökm verənlər sizin insanlığınızı da əlinizdən alıblar?

İndiyə qədər Bölükbaşı çox sayda hökmlərin icrasını yerinə yetirmişdi, günahkarları tapıb divan ayağına aparmışdı, həmişə, hər vaxt hakimiyyətin adından danışmış və bir kimsə cürət eləməmişdi ki, səsini çıxarsın, ona belə qeyri-münasib suallar versin. Hələ indiyəcən Bölükbaşı belə bir sual eşitməmişdi də. İndi arvadın insanlıq haqqında sorğusundan sonra lap çaş-baş qalmışdı. Dürdanənin anası onun mat qaldığını görüb bir daha sualını təkrar elədi:

– Hə, indi nə deyirsən? İnsanlığınıza nə söz?

Bölükbaşı yenə təəccüb qaldı. Amma birdən özünü cəmləyib cavab verdi:

– Ay bacı, insanlıq nədir, adamlıq nədir? Biz belə şeylər bilmirik. Biz qulluq adamlarıyıq. Verilən hökmü icra etməliyik. – Bölükbaşı əslində, özünün inandığı həqiqəti deyirdi. Necə varsa, eləcə. Axı həqiqətən o bu vaxtacan insanlıq haqqında heç düşünməmişdi

də. Bəlkə, soruşsan, insanlığın nə demək olduğunu yetərincə izah edə bilməzdi. Ona görə də bir daha qadının düz bərabərinə gəlib, onun gözlərinin içinə baxmaq üçün bir az irəli əyildi və təkidlə dedi. – Haradadı qızın, gətir, aparmalıyıq.

Bölükbaşının ötkəm sözü göy gurultusu kimi səsləndi. Anaya elə gəldi, bu balaca evin kərpic divarları sirkələndi. O, bilmədi ev silkələnir, ya başı hərlənir. Bir-iki addım kənara atıb, əlini kənara söykədi. Müvazinətini topladı, Bölükbaşının bayaq onun gözlərinin içinə baxan gözlərinə birbaşa nəzər yetirdi:

– Sizə necə əmr veriblər?

– Bizə əmr veriblər ki, sənin qızını aparaq – Bölükbaşı tez onun sözünü kəsib hökm elədi – Gətir, haradadır göstər, aparmalıyıq.

– Mənim qızım ölüdür, ölünü gətirməyi tapşırıblar, ya dirini?! – ana bu sözləri bağıra-bağıra dedi. Amma bilmədi, səsini eşitdilər, ya eşitmədilər.

Deyəsən, Bölükbaşı çaşıb qalmışdı. Dillənə bilmirdi. Doğrudanmı ona qızın ölüsünü də gətirməyi tapşırıblar? Axı belə bir tapşırıq olmayıb. Bəlkə də Bölükbaşı aramsız onu döyən fikirlərin arasından çıxıb nə isə deyəcəkdi. Bəlkə də qızın ölüm xəbərini eşidib elə geri qayıdacaqdı. Ancaq qəti bir qərara gəlməmişdi. Hələ də beynində təkrar eləyirdi: «Ölüsünü, ya dirisini?». «Mənə Dürdanəni gətirməyi tapşırıblar, ölü oldu, ya diri, nə fərqi», «Yox, yox, ölü onların nəyinə lazımdı, onlara diri Dürdanə gərəkdi. Baş əyanın gəlini Dürdanə», «Yox, bir ölünü aparıb özümü biabır edə bilmərəm. Baş əyan deməzmi ki, bu ölünü niyə gətirmisən? Gətirmisən ki, mən onu torpağa tapşıram, mərəkə qurum?», «Yox, yox, mən ölünü apara bilmərəm, amma mən haradan bilim, o ölüb, ya sağdı?», «Yox, onda gərək bu qoca arvad mənim qabağıma düşsün, Dürdanənin basdırıldığı yeri göstərsin». «Hələ onun üstündə «Yasin» oxumuş, «Fatihə» vermiş imamı axtarmalıyam». «Bununla iş bitmir, hələ mürdəşirləri tapmalıyam. Onlar mənə dəqiq təsdiq eləməlidir ki, yuyub kəfənə tutduqları qadın

Dürdanədir, ya yox. Sonrakı məsələlərə o şahidlərin özləri cavab verəcəklər».

– Onda gəl, qızın qəbrini, göstər, ifritə, mən sənə inana bilmərəm. – Bölükbaşı deyəsən, tamam adamlıqdan çıxdı. Üz-gözü əyildi, qəzəbindən gözləri alacalandı, o belə bir vəziyyətə hazır deyildi. İnanmırdı ki, belə bir sadə hökm son nəticədə onu bu cür çətin həll olunası cəncəl qarşısında qoysun. Bölükbaşının canına vahimə düşmüşdü. Elə bil ki, illərboyu göstərdiyi uğurlu xidmətin bu gün elə buradaca axıra çatdığı ağlına gəlmişdi. Və ağlına hakim kəsilən fikrin vahiməsi canını bürüdü.

– Hə, nə istəyirsən? Deyəsən, söz tapa bilmirsən, qəbir axtarırsan, məzar axtarırsan? – deyən qadın lap onun burnunun ucunacan yeridi.

– Mən sənin qızının ya dirisini, ya ölüsünü tapmalıyam. – Bölükbaşı daha demədi ki, onun ölüsünü aparacağam.

Yan otaqda Əzrayılla həmsöhbət Dürdanə divarın o üzündə olan söhbəti adda-budda eşidirdi. Və hətta hiss eləyirdi ki, orda məhz söhbət onun özündən gedir. Gücünü topladı – bəlkə ayrı vaxt olsaydı, heç hərəkət eləyə bilməzdi, yerindən tərpənməyə taqəti də olmazdı – əllərini taxta çarpayının qıraqlarına söykəyib, birtəhər dikəldi, ayağa qalxdı, divardan tuta-tuta addımladı. Qabağa gəldi. Qapını cırıltı ilə açılmağı o saat Bölükbaşının da diqqətini cəlb elədi. Sapsarı saralmış rəngi-ruhu ilə insanın ürəyini dağlayan, ayaq üstə güclə dayanan, elə qəbirdən xortdamış kimi görünən və görünüşü ilə deyəsən, ölüm xəbərini çatdıran qızı görəndə Bölükbaşı səksəndi, bir-iki addım geri çəkildi. Həqiqətən qızın başdan-başa ölüm saçan görkəmi Bölükbaşını qorxutmuşdu:

– Bu kimdi, haradan çıxdı? Deyəsən, bu evdə cinlər yaşayır.

– Yox, Bölükbaşı, bu evdə cinlər yaşamır. Bu evdə oğlunun birini bu məmləkətin yolunda qurban vermiş kərpickəsən Bəndalının özü və əhli-əyalı yaşayır.

– Bəs bu qız kimdir? – Bölükbaşı bir də təkrar elədi.

– Bu da sizin axtardığınız Dürdanədi. Qardaşı bu məmləkətin azadlığı yolunda həlak olmuş bədbəxt Dürdanə. Mənim ürəyimin iki qanlı tərəfinin biri. – Ana daha harada olduğunu, nə dediyini düşünmürdü. Sanki bu dediklərini ona Tanrı diktə eləyirdi.

– Budur Dürdanə? – Bölükbaşı özündən xəbəri olmadan qeyri-iradi bir səslə soruşdu.

Bu dəfə divara güclə söykənib dayanmış Dürdanənin özü cavab verdi:

– Hə, mənəm, özüməm, gəlin, aparın – dedi.

Bölükbaşı hələ ki, aparmaq üçün yox, onun həqiqətən Dürdanə olduğunu yəqinləşdirmək üçün bir az da yaxına gəlib maraqla nəsə soruşmaq istədi.

Qız daha ona cavab vermək əhvalında deyildi. Ayaqları titrədi. Elə Bölükbaşının gözlərinin qabağındaca yerə sərildi. Ananın, bir az aralıda dayanıb nitqi tutulmuş atanın birdən-birə canlarına od düşdü. Dürdanəyə tərəf yüyürdülər. Qızının başını qolunun üstünə alan ananın vay-şivəni yeri-göyü titrətdi. Bu vaxt artıq gəncliyinin odlu çağlarını ötürmüş bir cavan da qapıdan içəri girdi. Heç kəs onun kimliyinin fərqində deyildi. Amma o, cəsarətli addımlarla irəli gəlib Dürdanəni anasının əlindən aldı, qolunu onun boyunun altına keçirtdi, «Hə, Dürdanə, dillən, mənəm, gəlmişəm», – dedi.

Dürdanə gözünü açdı. İllərin arxasında qalmış odlu nəfəsi üz-gözündə hiss elədi. Onun kimliyini, məhrəmliyini duydu.

– Hə, Məhi, sənsən, gəlmisən? Bəs niyə gec gəldin?

– Hə, mənəm Dürdanə, gəlmişəm. – Məhyəddinin uzun ayrılıqdan sonra sevgilisini son anda, ölüm ayağında görməsi, əlbəttə, onu da sarsıtmışdı. Dolmuş gözlərindən damlalar Dürdanənin yanaqlarının üstünə töküldü. Dürdanənin dodaqları tərpənirdi:

– Məni özün… – daha gerisini deyə bilmədi. Və bu, onun həyatla son vidası oldu.

Məhyəddin onu qucağına sıxdı. Bu, artıq Dürdanənin ruhu uçmuş cismiydi, cansız bədəni idi. Aradan nə qədər vaxt keçdiyini kimsə deyə bilməzdi.

Bölükbaşı yaxına gəldi. Məhyəddinin çiyninə toxundu. Məhyəddin isə Bölükbaşının nə deyib-demədiyinin fərqinə varmadan «onun ruhu artıq Tanrının yanındadı» – dedi.

Bölükbaşı iki əlini göyə tutdu:

– Ey Allahım, uca dərgahına şükürlər olsun, bəla məndən sovuşdu – dedi və orada dayanmadan uzaqlaşdı.

Axşamın toranlığında divan atlıları üzü geriyə çapırdılar.

Şeyx Məhyəddin bilirdi ki, insan cismən ölməmişdən əvvəl ruhən ölür. O, dünya görmüş bir müdrik kimi məmləkətdə az-çox nizamın məhz Qazi Bürhanəddinin sayəsində qorunub qaldığını bilirdi. Ona görə də istəmirdi ki, hələ yeni varis məsələsi həll olunmamış, ölkəni idarə edə biləcək bir gücə çatmamış, kimsənin olmadığı bir dövrdə böyük hökmdar dünyasını dəyişib məmləkəti belə başsız qoyub getsin. Onda ölkədə nələrin baş verə biləcəyini, bəlkə Şeyx Məhyəddindən savayı bir kimsə belə dərindən dərk edə bilməzdi. Bəlkə Şeyx Məhyəddin özü ona görə Qazinin yastığının böyrünü kəsdirib oturmuşdu. Və fürsətdən istifadə edib cərəyan edən olaylardan Qazini hali edirdi. Bilirdi ki, Qazi ayılacaq, yenidən hakimiyyətin boşalmış iplərini əlinə alacaq, hər şey yerinə düşəcək. Bu sarsıntıdan sonra Qazinin çox yaşamayacağı da ona əyan idi. Şeyx Məhyəddin artıq Qazinin ölümünü görməkdə idi. Əlbəttə, hələ məsafə vardı, – keçiləcəyi bəlli olmayan müəmmalı zaman məsafəsi.

…Necə ki, bayaq Varis Şeyx Məhyəddinin söhbəti zamanı Dürdanənin taleyi sarıdan nigarançılığını, onun sevgilisinin intizarını çəkməyini bildirmişdi, indi də eləcə taxta çarpayının üstündə uzanıb, diriyə məxsus bir hərəkəti olmayan Qazi Bürhanəddin də xidmətçi Ağbənizin intizarını çəkirdi. Bu qadının taleyi necə oldu? Həqiqətən Qazi Bürhanəddinin də bir vaxtlar baş əyanın

sarayında gördüyü o hündürboylu, sifətcə Orta Asiya türklərini xatırladan cavan qadın sonra ilim-ilim itdi? Baş əyan görəsən, yenidən onu iqamətgahında saxladı, ya yox? Əgər o, deyilənə əməl etməmişdisə, Dürdanənin əyanın evindəki zillətli, həyatı haqqındakı həqiqətləri açıb demişdisə, onda çətin ki, o, bir də ora qayıda biləydi. Həqiqətən də bu, çox acınacaqlı bir tale olardı.

Qazi Bürhanəddin sağlam, hər şeyi yerli-yerində düşünən beynindən keçirdiyi fikirləri açıb-ağarda bilməsə də, möhkəm təəssüflənirdi yaşadığı həyatının ziddiyyətlərinə. Əgər bu haqq-hesablar, bu qansızlıqlar, bu insan taleləri ilə bağlı acılıqlar onun hökmranlıq elədiyi məmləkətdə yaşanırdısa və bu olayların hamısı gözlərinin qabağında baş verirdisə, o, necə ədalətli hakim idi? Amma orası var idi ki, Qazi Bürhanəddinin bu olayları görməli olan gözləri kor olmuşdu. Şeyx Məhyəddin Qazinin biləyini əlinə götürdü. Nəbzi normal ahənglə vururdu. Rəngi də öz üstünə gəlmişdi. Avazımış sifət durulmuş, yanaqlarının üstünə az da olsa, qırmızı qan gəlmişdi. Şeyx bir əlilə Qazi Bürhanəddinin nəbzini tutub, o biri əlilə onun göz qapaqlarını qaldırıb hər iki gözünün içinə baxdı. Qazinin gözləri artıq hərəkətdə idi.

Ayrı-ayrı tərəflərə, ətrafında olanlara nəzər saldı. Heç bir təlaş və həyəcan keçirmədən göz qapaqlarını araladı. Bu dəfə öz təbibini həlim, mehriban bir baxışla seyr etdi. Şeyx onun sözlü olduğunu görüb: – Buyur, ey fəqirlərin atası, yazıqların himayədarı, biz sənin sözünə müntəzirik, – dedi.

Bu dəfə Şeyxin sözlərini eşidən Qazi Bürhanəddinin üzündə ibarəli bir təbəssüm oynadı. Şeyx yaxşı başa düşdü ki, Qazi onun təmtəraqlı sözlərinə istehza eləyir: «Yəni ki, mən haradan yazıqların himayədarı oldum; kimsəsizlər, köməksizlər mənim məmləkətimdə olmazın bəlalara tuş gəlirlər». Qazi Bürhanəddin daha Şeyxin sözlərinə nə üçün istehzalı təbəssümlə yanaşdığını bildirmədi, asta-asta dodaqlarını tərpətməklə nigarançılığını çəkdiyi qadının taleyini soruşdu:

– Keçənə güzəşt deyərlər. Bəs o qadının taleyi necə oldu? – Mənim baş əyanın iqamətgahında tez-tez gördüyüm Ağbənizin.

Şeyx Məhyəddin həm Qaziyə təskinlik üçün, həm də onu yaxşı başa düşdüyünü bildirməkdən ötrü bu dəfə daha açıq danışdı:

– Ey məmləkətin hökmdarı, dövlət elə bir saraydı ki, onun sütunları kimsənin xoşuna gəlib-gəlmədiyindən asılı deyildir, bu saray saxlamaq üçündür. Onun dəxli yoxdur, kimsə ədalət hissini itirib. Bu yerdə Şeyx Məhyəddin təzədən keçmişə qayıtmalı oldu, həm də ona görə qayıtmalı oldu ki, Qazi Bürhanəddin Ağbənizin taleyi maraqlandırırdı. Şeyx də məhz ona görə bu əhvalatları yerli-yataqlı danışırdı ki, məmləkətdə baş verənlərdən hökmdar xəbərdar olsun. Axı bu olub-keçmiş hadisələri – zaman arxada qoymuş olsa da, Qazinin bundan sonrakı hökmranlığı üçün dərs idi.

…Ağbəniz Qazibaşının hökmünü göz yaşları ilə dinlədi. Divandan sonra bura yığışan adamların hərəsi bir tərəfə getdi. Mülazimbaşı Dürdanənin arxasınca Bəndalı kişinin kəndinə üz tutdu. Saraydan çıxandan sonra Ağbəniz istədi ki, heç baş əyanın iqamətgahına tərəf getməsin. Üzünü çevirib çölli-biyabana doğru yol alsın. Lakin baş əyanın necə bir məxluq olduğunu yadına saldı. Əgər o, evə qayıtmasaydı, bu qəddar və qansız adam haradan olsa tapdırıb, iqamətgaha qaytarar, onu əxlaqsızlıqda, qulluqdan qaçmaqda suçlandırıb amansız bir tənbehə məruz qoyardı.

Necə ki, əvvəllər belə hadisələr tez-tez olmuşdu. Fitva ilə meydanın ortasında əxlaqsızlıqda təqsirləndirilən xidmətçi qadınlar daş-qalaq edilmişdi. Halbuki, Ağbəniz yaxşı bilirdi, onlar baş əyanın sarayında təhqir olunmaqdan, alçaldılmaqdan bezib bu ünvandan baş götürüb qaçırdılar. Amma nə olsun? Kimə sübut eləmək olardı ki, baş əyanın ilan yuvasında nələr baş verir? Hər halda, Ağbəniz də bunların şahidi olmuşdu. İndi bu səbəbdən də baş əyana, günü sərxoşluqda keçən oğluna bəhanə verməmək

üçün düz iqamətgaha yol aldı. Doğrudur, qapını onun üzünə açdılar, amma bir kimsə yaxına gəlib halını soruşmadı. Hətta onu görən xidmətçilər, qulluqçular elə sifət göstərdilər ki, o, bir kimsəni tapıb burada nə baş verdiyini soruşa da bilmədi. Ancaq Evbaşı həyətə çıxıb ona işarə ilə arxasınca gəlməyi tapşırdı. Qadın da onun arxasınca baş əyanın adamboyu qalxmış hündür hasarından kənara çıxdı. Evbaşı sağ əlini qaldırıb naməlum bir istiqamətə tuşladı. Yəni ki, hara istəyirsən get, daha sənin burada yerin yoxdur. Bunu da Ağbəniz yaxşı başa düşdü. Evbaşı yenidən həyətə qayıtdı və qapını bağladı. Əslində, Ağbəniz elə bunu istəyirdi: Ürəyində Allahına şükür elədi ki, yaxşı qurtardı canım bu əqrəb yuvasından. Üstəlik, daha baş əyanın insanlığa yaraşmayan şərböhtanına tuş gəlməyəcəkdi.

Ağbəniz soraqlaşa-soraqlaşa gəlib kərpickəsən Bəndalının kəndinə çıxdı. O, bura gəlib çıxanda Dürdanə dəfn olunmuşdu. Bu xəbəri kənd uşaqlarından öyrəndi və elə oradan qəbiristanlığa üz tutdu. Təzəcə qazılmış məzarın məhz Dürdanənin olduğunu bildi. Yaxına gəldi. Yaş torpağı xışmalayıb, ovuclarının arasına aldı. Üzünə yaxınlaşdırdı. Ovuclarındakı nəm torpağı iylədi. Elə bil Dürdanənin ətrini duydu. Sanki bu bir-iki ovuc yarımpalçıq onun üçün bəxtsiz bir tale yaşamış Dürdanənin özü idi. Burada nə qədər qaldığının fərqinə varmadı, onsuz da o, bu qəbrin üstünə gələndə gün-günortadan adlamışdı. Birazdan çölbayırdan təsərrüfat işlərindən qayıdan adamlar yaxınlığından keçib gedirdilər. Hətta elələri vardı, dayanıb bu qadına baxır və bu yerlərin adamı olmadığını görüb təəccüblənirdi. Biri yaxına gəlib: «Ay bacı, sən kimsən, bu tərəfin adamına oxşamırsan? Axşam düşür, burada nə qədər qalacaqsan?» – deyə sorğu-sual etdi. Ancaq Ağbəniz bunların heç birisini eşitmirdi. Nə qədər vaxt keçdiyini də bilmirdi. Artıq gün qəbiristanlığın söykəndiyi təpələrin arxasında görünməz oldu. Axırıncı saraltı da itdi. Hava isə hələ tam qaralmamışdı.

Bir az keçmiş başını qaldırıb gördü ki, bir cavan kişi dayanıb, sakit tərzdə ona baxır, gözlərindən yaş axır. O, sanki ürəyinin qanını bu göz yaşlarına qarışdırıb bu qəbrin üstünə səpirdi. Ağbəniz ona diqqət kəsildi. Heç vaxt heç yerdə onu görməmişdi. Libasından, görkəmindən o cavan kişi də bu yerlərin adamına oxşamırdı. Ağbəniz düşündü ki, hər kimdisə, indiki anlarda dərdləri eynidir. Ancaq Ağbəniz üçün Dürdanə daha doğma idi. Hər halda ona belə gəlirdi.

– Ay qardaş, sən kimsən? Bu qəbirdə yatan gözəl nə vaxtdan sənin qəlbinin dərinliyində yer tutub? Bu bəxtsiz qız sənin ürəyinin hansı tərəfini göynədir? – soruşdu.

Ağbənizin Məhiyə «qardaş» deməsi onun yaralı ürəyini daha da kövrəltdi. İndi bu yaş torpaq, tanımadığı bu oğlan və onun tanımadığı bu qadın – hər üçü doğmalaşmışdı. Məhi bu doğmalıqdan bir təskinlik tapdı. O, bu dünyada tənha deyildi. Uzaq səfərin ayrılığına dözməyən ata-anası çoxdan dünyadan köçmüşdü. O da dağılmaqda olan ev-eşiyini gördü. Bu xaraba yurdun ağrı-acısı hələ canında ikən, ikinci bir ağır zərbə də aldı. Sevgilisi qucağında dünyadan köçdü. Doğrudur, Məhyəddin üçün son dəfə sevgilisinin nəfəsini duymağı bir təskinlik olmuşdu. Bu bir neçə günü ruhunu duyub, varlığına çəkdiyi nəfəsi, qoxusu ilə yaşamışdı. Düşünürdü ki, bəlkə heç buralarda qalmasın. Təzədən uzaq səfərə başlasın. Bu yerlərdən baş götürüb gedər-gəlməzə yollansın. Onsuz da Dürdanədən sonra onu bu yerlərə bağlayası bir tel qalmamışdı. Bəlkə də sevgilisi ilə sonuncu ayrılığın ötən günlərini sayırdı. Yeddi gün dözəcəkdi, bu dözüm qırx günə çatacaqdı, ya bəlkə heç dözümü olmayacaqdı… baş götürüb gedəcəkdi, bunu bilmirdi. İndi birdən-birə Dürdanənin məzarı başında ağlayan qadının səsində bir analıq duyğusu, doğmalıq gördü. Sanki o, vaxtsız itirdiyi anasını yenidən tapmışdı. Hələ üstəlik, sevgilisinə doğma olan bu qadın onun gözlərində Tanrının qoruyucu mələyi kimi məzarın başında peyda olmuşdu. Axır ki, özünü cəmləyib qadına cavab verdi:

– Hə, bacı, bu məzarda yatan mənim ürəyimin parası deyil, ürəyimin özüdür. İndi bu torpağın altına gömülmüş ürəyimin ağrısı ilə yaşayıram.

Qadın dünyanın dərd və ağrı yükünü çiyinlərinə yığmış bu adamın taleyinə acıdı. Onsuz da onun gözləri çox od-alov görmüşdü. Başa düşdü ki, əgər indi bu cavana bir həyan olan tapılmasa, dərdinə şərik çıxan olmasa, o da Dürdanənin taleyi ilə üzləşəcək. Bu dünyadan küsəcək, zaman-zaman qəm-kədər, ağrı içini sökəcək, varlığını xaraba qoyacaqdı. Qadının bu adama yazığı gəldi. Həqiqətən bir anda onun dərdi yaddan çıxdı.

– Bildim, ay qardaş, Dürdanə illər ərzində gözlərindən axıtdığı qanlı yaşlarla səni yaşatdı. Mən səni indi tanıdım. Sən Məhyəddinsən. Dürdanənin əzəl və axırıncı sevdasısan. Heç kim, heç bir var-dövlət, heç bir qadağa, qorxu-hürkü səni onun ürəyindən çıxara bilmədi. Sən həmişə onun varlığında idin.

– O yoxdursa, mən necə yaşaya bilərəm? – Məhyəddin ağır-ağır nəfəs dərdi. Özü də bu çağırışı ilə sanki bir daha çarəsiz olduğunu, yaşaya bilməyəcəyini bu bacı doğmalığı ilə ona baxan qadına çatdırmaq istədi.

– Belə anlarda insanın neyləyə biləcəyini, nə etməli olduğunu gərək ki, sən daha yaxşı biləsən.

Ağbəniz artıq ayağa qalxmışdı. Və Məhi ilə üzbəüz dayanmışdı. Elə qətiyyətlə, elə inamla dilləndi ki, Məhyəddin özünü yığışdırmalı oldu. Bəlkə də elə indicə yadına düşdü ki, axı o, təbibdir. Təbiblər təkcə insanın sağlam cismini, canını qorumurlar.

– Doğrudur mən təbibəm, ancaq bilmirəm, bundan sonra mən insanlara həkimliyimlə bir fayda verə bilərəm, ya yox.

– Axı niyə fayda verə bilməzsən? – Görünür, Məhyəddinin cavabı qadını razı salmamışdı. Ona görə də belə qətiyyətlə soruşdu.

– Çünki mənim ruhum ölüb, mənim vaxtsız köçmüş sevgilim mənim ruhumu da özü ilə aparıb.

– Xeyr, o, sənin ruhunu özü ilə aparmayıb, əslində, o, öz ruhunu da sənə verib, gedib. Sən indi daha güclüsən. İki ruh yaşayır sənin pak vücudunda…

Məhyəddinin varlığı dirçəldi. Həqiqətən qadının sözlərindən sonra elə bil, Dürdanənin də ruhunu öz varlığında hiss elədi.

Bu vaxt yenidən Ağbənizin səsini eşitdi:

– İndi düzünü de, sən onu öz varlığında hiss edirsən, ya yox?

Məhyəddinin gözləri sevinclə parladı.

– Hə, – dedi.

– Onda get, dünyaya gələcək Dürdanəni gözlə, – qadın bunları Məhyəddinə deyib üzünü döndərdi, sonra yenə əlavə elədi: – Mənsə elə üzü qaranlığa sarı gedirəm. Onsuz da bu dünya mən doğulan gündən üzümə bozarıb, qaranlıq olub, mən dünyanın işığını görməmişəm.

Ağbəniz yenidən üzünü çevirib, uzaqlaşmaq istədi. Məhyəddin elə bil ki, indicə tapdığı səadəti təzədən itirəcəkdi, tez onun arxasınca yüyürdü. Qolundan yapışıb:

– Yox, sən mənim bacım olacaqsan, mənimlə birgə yaşayacaqsan. O sən deyən gözəl günləri birgə qarşılayarıq – pıçıldadı.

Təzəcə torpağa qoyulmuş Dürdanənin məzarının yanından iki tənha adam, dünyanın dərdlərinin altında əzilən, acıdan, dərddən, kədərdən çiyinləri düşmüş iki bədbəxt şəxs artıq həyatın çətinliklərinə sinə gərmək gücündə olan doğmalar kimi qayıdırdılar.

* * *

Məhyəddin yəqin işıqlı dünyadan küsmüşdü. Həyat üzünə gülmədiyi kimi, o da dünyanın sifəti kimi gördüyü həyatın üzünə gülmürdü. Könlündə daşıdığı küskünlüyü, bəlkə də ömrünün axırınacan tərk etməyəcəkdi. Get-gedə insanlardan uzaqlaşacaq, ömrünü beləcə guşənişinliklə başa vuracaqdı. Ancaq dünyanın elə üzü də var ki, bəzən xoş nəzərlərlə insanın taleyinə işıq salır, onu vaxtından əvvəl ölməyə, solmağa qoymur. Yaşadığı kənddə atasındanqalma

daxmasını gücü çatan qədər abadlaşdırmış, yuxarı məhəllədən su arxı çəkdirmiş, həyətində meyvə ağacları əkdirmişdi. Məhyəddində ruh yüksəkliyi yaranmışdı. Gününü bu həyət-bacada keçirərdi. Ancaq Ağbəniz həmin gündən sonra onunla yaşamalı olmuş və ona doğma qardaşı tək qulluq etməkdə idi. Görünür, illər boyu Şərqi gəzib-dolanıb, Ərəbistanın, Çinin, Hindistanın, Orta Asiyanın tibb bilicilərindən öyrəndikləri heç kimə lazım deyilmiş.

Bir gün qəribə bir hadisə Məhyəddinin həyatını tamam dəyişdi. Əri Teymurilərlə döyüşdə həlak olmuş bir qadının qəflətən azarlaması xəbəri yayıldı. Qadının dişləri kilidlənmiş, gözləri çevrilmişdi. O, demək olar, son anlarını yaşayırdı. Bir kimsənin də əlindən bir iş gəlmirdi. Ağbəniz hay-harayla Məhyəddinin yanına qaçır, onu xəstəyə yardım etməyə çağırdı. Məhyəddin isə bu hay-harayı sanki eşitmir, biganə-biganə susurdu. Qadın onun yaxasından yapışıb silkələdi.

– Sən neyləyirsən? O dünyaya hansı üzlə gedəcəksən? Madam ki, dünyada öyrəndiyin elmin bir kimsəyə faydası yoxdursa?

Deyəsən, Məhyəddin qınaqdan yuxudan ayılan kimi oldu. Lap qonşuluqlarında olan qadının həyatını xilas etmək üçün tez ora getdi. Çətinliklə də olsa, onun ağzını açıb dilini çəkdi. Handan-hana həmin qadın özünə gəldi. Məhyəddin Ağbənizə məsləhətlərini verdi ki, qadına necə qulluq eləsinlər. Bundan sonra Məhyəddin həmin qadını yoxlamaq üçün gələndə otlardan hazırladığı dərmanları gətirdi. Düzdür, illər boyu çəkdiyi iztirablar qadını haldan salmışdı. Daim yüksək təzyiq altında olurdu. Və Məhyəddin təzyiqi tarazlayıb sabit saxlamağa çalışırdı.

Bir gün tənha qızını Ağbənizin ümidinə qoyub, həyata əlvida deyən ananın ölümündən sonra Ağbəniz onun qızına da həyan durdu. Ölümlər nə qədər ağır və kədərli olsa da, bəzən həyatın şirinliyi bu acı kədəri yaddan çıxarmağa qadirdi. Ağbəniz iki evin arasında qalmışdı. Anasını itirib yalnız qalan Yazgülü unutmur, Məhyəddinə də bacılıq qayğısını əsirgəmirdi.

Bir gün Ağbəniz Məhyəddinin oğrun-oğrun Yazgülü süzdüyünü görüb sevindi. Bəlkə, yaz gülləri kimi təzəcə açılmış bu qız Məhyəddini özünə qaytara biləcək? Həmin hadisədən – Yazgülün anasına ilk tibbi yardımdan sonra Məhyəddinin haqqında kənddə xoş söz-söhbətlər gəzdi. Onun həkim-üləma olduğu, təbabətdən yaxşı baş çıxartdığı hamıya əyan oldu. İndi tez-tez xəstələrin ardı-arası kəsilmir, onun yanına gəlir, məsləhət alırdılar. Əvvəllər Məhyəddin yalnız faydalı məsləhət verməklə kifayətlənir, şəfalı otların adını deyir, xüsusiyyətlərini izah edir, ondan necə istifadə etməyin yollarını öyrədirdi.

– Ay qardaş, bəlkə faydalı otları elə biz dərib gətirək. Sən də onlardan dərman hazırlayarsan, əlinin altında hazır olar, – Ağbəniz soruşdu.

– Siz deyəndə, yəni kim? – Bu dəfə də Məhyəddin dilləndi.

– Mən və Yazgül. Bəlkə elə bilirsən, bacarmarıq, otları tanımarıq, nigaran qalma. Bəs biz elə bu yerlərdə böyüməmişik? Yazgül də o bitkiləri pis tanımır. Mənim özüm də sənin danışdıqlarından az öyrənməmişəm. Hərçənd ki, onları seçməyi bacarıram. Sən bizə həmin otları nə vaxt, necə dərməyi, necə qurudub saxlamağı öyrət.

– Deyirsən, yəni Yazgül də səninlə birgə bu işdən baş çıxarar?

– Əlbəttə, çox fəhmli qızdır. Özü də yaddaşı yaxşıdır.

Ağbənizin bu sözlərindən sonra Məhyəddinin dodaqları qaçdı, üzünə ılıq bir təbəssüm yayıldı. Deyəsən, bunu Ağbəniz duydu. Gördü, qızın haqqında dediyi xoş sözlər Məhyəddinə xüsusi zövq verir. Və əlbəttə, dünyada yeganə pasibanı olan Məhyəddinin gözlərində gördüyü bu həyat işartıları Ağbənizi sevindirməyə bilməzdi.

Və bir gün qəribə bir təsadüf onu ilk gəncliyindən, bəlkə, lap uşaqlıq çağlarından yaxşı tanıdığı, çox vaxt günlərini bir yerdə keçirdiyi Qazi ilə görüşdürdü. Qazi Bürhanəddin sərhəd gəzintisinə çıxmışdı. Əslində, ov bəhanəsi ilə dağları dolaşmış, ölkənin

sərhədlərinə necə keşik çəkildiyini gözləri ilə görmək istəmişdi. Qəflətən kolun arxasından pırıltı ilə uçan kəklik atı hürkütmüş, yüyənindən çəkdiyi at onu arxasınca dartmış, ayağı bərk burxulmuşdu. Yaxında olan Məhyəddin yanına gəlmiş və buradaca uzun illərdən sonra Qazi Bürhanəddinlə göz-gözə dayanmışdı. Məhyəddin Qazinin ayağını yoxlamış, topuqdan çıxdığını öyrənmişdi. Elə oradaca isti-isti ayağını çəkib yerinə salmış, əlavə məsləhətlər vermişdi. Tezcənə dağ döşündən şəfalı otlar dərən Ağbəniz və Yazgül Məhyəddinin dediyi otlardan təpitmə hazırlayıb hökmdarın ayağına çəkmişdilər. Hökmdarın ayağının ağrısı bir az səngimiş və iri bir daşın üstündə oturub dincəlməli olmuşdu.

– Sən mənə tanış gəlirsən. Kimsən, buralarda neyləyirsən? – hökmdar Məhyəddindən soruşdu.

Bu vaxt artıq Məhyəddinin qırxdan artıq yaşı vardı. Bəlkə iyirmi ildən artıq olardı ki, onlar bir-birini görməmişdilər. Əlbəttə, Məhyəddin hökmdarı elə ilk baxışdaca tanımışdı. Sadəcə bunu büruzə verməməyə çalışırdı. Çünki Dürdanənin başına gələn hadisədən sonra o, qətiyyən Qazinin gözünə görünmək istəmirdi. Hərçənd ki, onlar ilk gəncliklərində necə mehriban və yaxın olmuşdular. Birinin yolu taxt-taca, o birinin yolu elmə tərəf dönmüşdü, özü də təbabət elminə tərəf. Hələ Məhyəddinin yadında o da qalmışdı ki, Qazi ona nələri demişdi.

– Eşitmişəm, səyahətə çıxırsan. Səfərin nə qədər çəkər?

– Mən adi səfərə getmirəm. Məqsədim dünyanı gəzmək, dolaşmaq deyil.

– Bəs onda bizi niyə tərk edirsən? – Qazi dostundan incimiş kimi dilləndi.

– Yox, məni düz başa düşmədiz. – Mən Şərqin elm mərkəzlərinə, kitabxanalarına gedirəm. Məqsədim təbabəti öyrənməkdir.

– Onda lap yaxşı. Qayıdandan sonra mənim sarayımda həkimlik işlərinə baxarsan.

– Əlbəttə, rəva bilsəniz, baxaram. Amma görək tale bizə nə göstərəcək.

– Xeyir olar, inşallah, əgər əhdinə dönük çıxmasan. – Hökmdarlıq iddiasını elə bu sözləri ilə bildirməkdən çəkinmədi, sanki Məhyəddinin qarşısında qəti şərt qoydu.

Beləcə, onlar bir-birindən ayrıldılar və aradan keçən uzun illər hökmdarlıq qayğıları ilə birləşib Qazinin yaddaşından Məhyəddini tamam sildi.

İndi tale onları yenidən Anadolunun uzaq kəndlərindən birində qarşı-qarşıya gətirmişdi. Və əlbəttə, handan-hana Qazi də yaddaşını qurdaladı və onu tanıdı.

– Bəs sən niyə əhdinə vəfa etmədin? – Qazi Bürhanəddin ömrünün yarısını yaşamış dostunun üzünə baxdı. Məhyəddin başını aşağı dikmişdi. Düzdür, onun sakit, səssiz halda nəzərlərini yerə dikib susması o demək deyildi ki, əhdinə vəfa etməyib və bundan xəcalət çəkir. Bu anlarda Məhyəddin bütün olub-keçənləri təzədən Qazi Bürhanəddinin üzünə deməyin mənasız olduğunu götür-qoy edirdi. Bunun, əlbəttə, heç bir faydası olmazdı. Çətin ki, Qazi Bürhanəddin olub keçmiş hadisələrə təzədən qayıda, kimisə cəzalandıra… və bunların artıq mənası yox idi. Hələ üstəlik, hakimiyyətdə təmsil olunan böyük mənsəb sahibləri ilə kənddə yaşayan bir təbibin, özünün sakit həyatı ilə güzəran keçirən yoxsul bir kimsənin dinc həyatı pozulardı. Bəli, Məhyəddin bunları yaxşı bilirdi.

Birazdan mühafizəçilərinin köməyi ilə Qazi Bürhanəddin köhləninin belinə qalxdı. Demək olar, xudahafizləşmədən atının üzünü döndərib getdi. Məhyəddin isə ayağa durmuşdu. Bəlkə də heç özünə məlum olmayan düşüncələrlə Qazinin arxasınca baxırdı. Doğrudanmı, insanların taleyini oyuncaq kimi atıb-tutan bu dünyada belə biganə adamlar hakimdirlər? Bəlkə elə bu andaca Məhyəddin başını qaldırıb hökmdarın arxasınca nifrətlə, qəzəblə nə isə deyəcəkdi, ancaq yox, buna vaxtı çatmadı.

Fikir-xəyal keçmişə çəkərkən birdən hökmdar dəstədən ayrılıb atını düz Məhyəddinin qənşərinə sürdü.

– Sən cavan ömrünü sərf eləyib elm öyrənmisən, az qala dünyanın yarısını gəzib-dolaşmısan, necə özünə rəva bilirsən ki, bir balaca kənddə baş girləyirsən. Sənin elmindən, loğmanlığından bütün ölkə faydalana bilər. Gör sən öyrədə-öyrədə neçə-neçə həkimlər, üzə çıxarar, yetirə bilərsən. Və az keçməmiş onları əyalətin müxtəlif yerlərinə göndərərsən. Bu şəfanın səndən gəldiyini bilən insanlar hər yerdə şad olar, sənə uzun ömür arzulayar, bunun üçün Allaha dua eləyərlər.

Əvvəlcə Şeyx Məhyəddin Qazi Bürhanəddinin sözlərinə heç əhəmiyyət vermək istəmədi. Bəlkə də bu deyilənləri ötəri bir hissin təsiri kimi anladı. Düşündü ki, yəqin hökmdar bu sözləri deyib yenə də atını çapıb gedəcəkdi. Elə onun saraya gedib çatması, təzədən hökmdarlıq qayğıları ilə məşğul olması bəs edəcəkdi ki, Məhyəddin yenə unudulsun, yaddan çıxsın.

– Hökmdar, mən əlimdən gələni insanlardan əsirgəmirəm, – dedi.

– Yox, Məhyəddin, sən düz danışmırsan, sən daha böyük işlər üçün doğulmusan. Yerin də Anadolunun ucqar kəndi deyil. Sən tezliklə saraya gəlməlisən. Böyük şəfaxanaya başçılıq etməlisən. Hələ məmləkətin təbabət işləri də sənin ixtiyarına keçməlidir. Bilirsən ki, indi elə xəstəliklər peyda olur ki, nəinki ayrı-ayrı kəndlərdə insanlar, lap orduda da əsgərlər qarışqa kimi qırılır. Bunun qarşısını ancaq sənin kimi güclü həkim, elm adamı ala bilər. Gərək alim biliyini, həkim şəfahətini öz xalqından, Vətənindən əsirgəməsin.

Bəlkə də, hökmdar başqa cür danışsaydı, ona zor tətbiq etmək istəsəydi, Məhyəddin ayrı cavab verərdi. İndi hökmdarın bu səmimi təpkilərindən sonra sanki söz tapmırdı, dinə bilsin…

– Mən insanların qulluğunda durmağa həmişə hazıram, – dedi, və əlavə elədi. – Onların cansağlığını qorumaq borcumdur.

Doğrudur, Qazi Bürhanəddinə o qədər xoş gəlməsə də, bu cavab hər halda Məhyəddinin razılığı idi.

– Dayan, yeri gəlmişkən, mən bir söz də soruşmaq istəyirəm.

– Buyurun, hökmdar.

– Bu ətrafda çox hörmətli bir şəxs haqqında mən eşitmişəm.

– Ola bilər, hökmdar, məmləkətdə hörmətli adamlar az deyil – Məhyəddin qısaca təsdiq etdi.

– Yox, Şeyx Məhyəddin adlı müdrik bir kimsədən söhbət gedir. Olmaya, o Şeyx sənsən?

– O hörmətli Şeyx titulunun nə dərəcədə mənə aid olduğunu deyə bilmərəm, ancaq bu yerlərin adamları mənə Şeyx Məhyəddin deyir – cavabında dolayısı ilə hökmdarın fikrini yekunlaşdırdı.

– Bu məni ikiqat sevindirir. Doğma məmləkətində, onu tanıyan insanlar arasında böyük hörmət, izzət sahibi olmaq asan məsələ deyil. Demək, sən buna nail olmusansa, saray üçün də böyük işlər görməyə qadirsən.

– Saray üçün böyük işləri görə bilən adamlar var, hökmdar. Mən siyasət adamı deyiləm.

Söz Qazi Bürhanəddini tutdu. Bir anlığa hökmdarlıq təkəbbürü yenidən baş qaldırdı. «Bunun danışığından qan iyi gəlir» – düşündü. Ancaq yenə Qazinin sağlam düşüncəsi, insani münasibəti üstün gəldi.

– Şeyx, sən heç nədən nigaran qalma, siyasət adamlarının öz işi var, sənin öz işin. Heç kim sənin işinə qarışa, barmaq eləyə bilməyəcək. Bunu mən deyirəm. Anadolunun hakimi, Diyarbəkirin sultanı Qazi Bürhanəddin bildirir.

Şeyx Məhyəddin Qazi Bürhanəddinin hökmqarışıq insani duyğularını ifadə edən sözlərinin necə səmimi olduğunu görürdü. Buna görə deyəsən, indən belə həyatının başqa bir səmtə gedəcəyini anladı.

– Baş üstə, hökmdar, axı siz də həkimsiniz. – Söz Qaziyə xoş gəldi. Amma Şeyx Məhyəddinin nəyi nəzərdə tutduğunu hələ

özü üçün tam aydınlaşdırmamış, yenidən fikrini davam etdirən Məhyəddini başdan-ayağa süzdü. Məhyəddin əlavə elədi:

– Bəli, hökmdar, axı siz şairsiniz. Şairlər də həkimdirlər, təbibdirlər. Siz şairlər sözüynən insanları mənən müalicə edirsiniz, bizsə, cismən. Hər birimizin məqsədi insanların cismini, ruhunu qorumaqdır. Axı Tanrı insanları bizə əmanət edib. Vaxtilə özünüz yazmamışdınızmı bu misraları:

*Gözünlə xəstə olana şəfa gərəkməzmi?*
*Cəfan odına yanana vəfa gərəkməzmi?*

*Ağız-ağız sorışaram ləbünə irər isəm,*
*Ki, xəstə eylədügünə şəfa gərəkməzmi?*

*Necə ki, zülfi könül qəlbinə yaşarsın sən,*
*Anun kibi yaşayış hər safa gərəkməzmi?*

*Bu hüsn məmləkətinə çü sən Süleymansın,*
*İnayətün, a bəgüm, Asəfə gərəkməzmi?*

*Könülə verdi nəsihət canum ki, ey aşiq,*
*Vəfası xoşmıdı şimdi cəfa gərəkməzmi?*

*Bənəfşə zülfüni alur imiş ağızına,*
*Anun dilinə bununçün cəza gərəkməzmi?…*

Şeyx Məhyəddinin hökmdarın şairliyini önə çəkməsi, şeirini birnəfəsə əzbər söyləməsi doğrudan-doğruya Qazi Bürhanəddinin ovqatını göylərə qaldırdı. Bu məqamda həqiqətən o, özünü hökmdar kimi yox, şair kimi təsəvvür edirdi.

– Bu əbədi olmayan dünyada daimi nə var ki, Şeyx?

– Əbədi insanlıqdı, insanlığa mənəvi zinət vuran sözdü, sənətdi…

Şeyx Məhyəddin sözün-sənətin gücüylə Qazi Bürhanəddinin ürəyinə gedən yolu elə ustalıqla tapdı ki, hökmdar atdan endi, burxulmuş ayağını astaca yerə qoydu. Görünür, ağrıdan bir qədər

əzab çəkdi, səmimi surətdə Şeyx Məhyəddinlə qucaqlaşıb, bağrına basmamış ayrılmaq istəmədi.

* * *

Şeyx Məhyəddin dinmədi. Səsi çıxmadı. Bilmədi ki, nəyə görə səsi batıb. Bayaqdan bəri hökmdarın üz-gözündən nifrin yağırdı. Bəlkə heç bu pis əlamət də deyildi, hər halda xoş olası da heç nə vəd eləmirdi. Qazi Bürhanəddin ətrafındakılara ötəri nəzər saldı. Gördü ki, heç kim ona tərəf gözünün ucuyla da baxmır. Amma Şeyx Məhyəddinin ona tərəf diqqəti bəs eləyirdi ki, Qazi Bürhanəddin kifayət qədər inamlı hökmünü verə bilsin. Bəlkə Qazi Bürhanəddin bu məqamda min adamın başının kəsilməsinə də rəvac verərdi. Şeyx Məhyəddin əgər bu məqamda, bu yerdə onun hüzurunda olmasaydı, hökmdar qəzəbini, nifrətini cilovlaya bilməzdi. Qabağında həyatın, taleyin ona qismət elədiyi elə bir qədər dayanmışdı ki, o, qılıncını çəkib nə irəliyə, nə də geriyə doğru hərəkət edə bilmirdi. Çünki önündə, gözlərinin qabağında ona rişxənd eləyən qıcanmış dişlər və kinayəli baxışlar görürdü…

Qazi Bürhanəddin qarmaqarışıq yuxunun ona nəyi vəd elədiyini hələ qədərincə aydınlaşdırmamışdı. Hiss eləyirdi ki, kimsə, haradansa ona diş qıcayır: «Mən səni məhv edərəm», – deyir. Ancaq onu da görürdü ki, elə bir qüvvə var və özünü göstərməyə cəhd edir. Deyir ki: «Narahat olma, mən səni ən çətin sınaqlardan keçirərəm, qoruyaram».

Qısası, mürgüsündə – bəlkə heç uyqunun içində də yox – elə əhvalın, səhhətin diktə elədiyi məqamın içində bütün bunlar yuxu kimi gəlib keçməli idi. Qazi Bürhanəddin ətrafında olanların heç birinə cavab verə bilmirdi. Heç səsini də çıxara, cınqırını da çəkə bilmirdi, amma bunların hamısını – onun yanında, ətrafında olan söhbətlərin hamısını yerli-yerində, dəqiqliyilə dinləyə bilirdi. Bu söhbətin əsas məğzi onda idi ki, Qazi Bürhanəddin bütün bunları

başa düşə bilsin – istər yaxşılığa, istər pisliyə. Ən əsası da, həqiqət ortalığa çıxsın…

…Təbillər vuruldu, şeypurlar guruldadı və hamıya məlum oldu ki, Qazi Bürhanəddin səfərə çıxır. Burada aşpazxana, mehtərxana səfərbər olduğu kimi, şəfaxana da Qazi Bürhanəddinin səfərinin əsas özəyi idi. Hökmdar səfərə çıxan məqamda elə bir hal olmamalı idi ki, orada çarəsizlik hər kəsi dörd yol ayrısında qoysun. Çünki Qazi Bürhanəddin yaxşı bilirdi ki, Şeyx Məhyəddin olan yerdə heç bir kəm-kəsir ola bilməz. Bu gün, elə səhər-səhər Şeyx Məhyəddinlə qarşılaşdı.

– Hə, Şeyx, sən necə bilirsən, biz dünyanı düzəltmək gücündə ola bilərik, ya yox?

– Uca hökmdar, mənə ünvanladığınız bu suala görə özümü şərəfləndirilmiş hesab edirəm. İnciməyin, hökmdarım, açıq danışacağam, siz bu dünyanı necə görürsünüz? – Şeyx Məhyəddin hökmdardan çəkinmədən sual elədi.

Amma hökmdar elə həmin təmkinlə dilləndi:

– Bu dünyanı o üz-bu üz eləmək bizəmi qalıb? Axı niyə biz bu günümüzü, güzəranımızı qurban verib dünya haqqında çək-çevir etməliyik?

– Çox sağ olun, hökmdar, elə mən özüm də bu cür düşünürəm. Bu işıqlı dünyada gərək insanlar bir-birilə elə bağlı olsunlar ki, onları həyatın gərdişi, gəldi-gedəri ayıra bilməsin. Lakin elə məqamlar, elə zamanlar var, orada insan gücsüz, qüdrətsiz olur. Bəs niyə belədir? Bunu bilmək, əlbəttə, çətindir.

…Şeyx Məhyəddinin sözünü hökmdar kəsmək istəməzdi. Onun sualının qabağında hələ qədərincə güc göstərmək iqtidarında olsa da.

Duyğu, istək harada, necə gerçəkləşəcək – bunu kimsə bilməzdi. Ancaq əsas o idi ki, Əhməd Gülçöhrə ilə sevgisinin elə bir ucalığında durmuşdu ki, nə Qazi Bürhanəddinin ağır xəstə olmağı, nə də bu məmləkətin içindən gələn hakimiyyət ehtirası – heç biri

qabağını kəsə bilməzdi. Çünki sevgi hissləri, məhəbbət duyğuları siyasətin gücünü, qüdrətini dizinin altına qoymuşdu. Söhbət ondan gedirdi ki, Qazi Bürhanəddin yuxudan oyananda başının üstündə kimi görəcəkdi? Bu da elə onun üçün əsas ölüm və olum məsələsiydi. İstər yaxşı yaşa, istər pis yaşa, bunun məsələyə nə dəxli vardı? Nədən ötrü, kimdən ötrü yaşa? Bu, əsas şərtdir. Demək, hökmdar üçün əsas olan odur ki, onun idealına uyğun olaraq aramsız həyati hadisələr düzgün cərəyan eləsin. Bir sözlə, Qazi Bürhanəddinin indiki huşsuzluq, səssizlik məqamında, amma bütün düşüncəsi ilə həyatı dərk elədiyi çağında həqiqət bundan ibarət idi ki, sən gec-tez yaxşı olsan da, yaman olsan da, gücün çatsa da, çatmasa da böyük hakimiyyət sahibi olmağa məhkumsan. Bunu Qazi Bürhanəddin gözünün dərinliyində yuxuda olsa da görürdü. Görürdü ki, insanlar – bu məmləkətin adamları onun bacısı oğlu Əhmədi daha çox öyür. Bəlkə də onu gələcəyin, özü də yaxın zamanın hökmdarı kimi görürlər.

Güc, qüdrət haradadır? Güc, qüdrət olan yerdə həqiqət var, doğru var, çünki doğru, düz olan yerdə qorxu və qadağa olmur. Bəs həmin o qoca dünyanın öz bağrında yer eləmək istədiyi duyğu ilə qəbul elədiyi mənəvi aləmdə kim yoxdur? Orada əsl həqiqət var. Mənəvi olaraq cənnət var, çünki qabaq-qarşıya gəldiyin aləmdə yaxşı-pisin qədərincə araşdıranı, ötəri olsa da, görəni, biləni mövcuddur. Bax, bu zaman yaşamaq daha gözəl olur.

Nə isə, bütün bunlar insan aləminin keşməkeşi və zənginliyilə bağlıdır. Bu günü ilə bağlı olan odur ki, Şeyx Məhyəddin öz əsabələrinə onu qəbul edənlərin hamısına təlqin eləyir ki, qorxmayın, darıxmayın, biz hər vaxt həqiqətin tərəfindəyik.

Zaman keçdikcə istər Şeyx Məhyəddinin özü, istərsə də Şeyx Məhyəddindən üzü belə gələn küləklərin hamısı elə bu günün simasını ehtiva edir. Güc, qüdrət onda özünü təqdim edir ki, o, zamanın bütün müqavimətlərini qırır. Və əlbəttə, qüdrətini diktə edir.

Şeyx Məhyəddin bəlkə heç əvvəldən də istəməzdi ki, onun həyatı ilə bağlı olan əhvalatlar gəlib son nəticədə bu yerə çıxsın və məhz o yerə ki, Qazi Bürhanəddin huşunu itirmiş olsun. Dünya, aləm haqqında heç nə düşünmək iqtidarında bulmasın. Şeyx Məhyəddin istəyirdi ki, onun həyatı da, həyatına daxil olan dövrün özü də Qaziyə məlum olsun, amma elə şəkildə ki, bu dövr haqqında o, qədərincə hökm verə bilmək olsun. Yerindən duran zaman o zaman deyildi, indi Qazi Bürhanəddin az qala ölüm yatağında idi. Və əlbəttə, ölümün haqq olduğunu insanlardan çox yuxarıda olan kimsə bilərdi. Hər yerindən duran ölümün haqq olduğunu dərk eləməzdi. Qısası, bir kimsə cəsarət edib yaxına gələ bilmirdi ki, Qazi Bürhanəddin bu gün və yaxud beş-on gün sonra dünyasını dəyişəcək, ya ayağa qalxacaq. Ona görə heç kim cınqırını çıxarıb həqiqət adlanan bir ünvanla danışmaq istəmirdi. Çünki Qazi Bürhanəddin sağ olacaqdısa, dediyi həqiqət olacaqdı və… elə beləcə, bu möcüzə baş verdi.

… Şeyx Məhyəddin əlini uzadıb titrəyən əlin nəbzini tutdu. Gördü hə, bu nəbz daha sürətli və daha ahəngdar döyünür. Bununla da anladı ki, Qazi Bürhanəddin artıq yatdığı qəflət yuxusundan oyanıb, əsas da o idi ki, ətraf mühitdə Qazinin gücünü, qüdrətini sərhədləyən heç nə yox idi. Külli aləmə – Şeyx Məhyəddinin təbirincə deyilsə, məmləkətin bütün insanlarına daha nə lazım idi – Qazi Bürhanəddinin oyanışı, dirilişi. Bu elə bir xoş xəbər, bu elə bir qüdrətli, elə bir dünya dolu muştuluq idi ki, onu asanlıqla qəbul etmək, pişvazına çıxmaq mümkün deyildi. Şeyx Məhyəddin özü nə qədər sevinirdi, bunu Allah bilir, ancaq özünün fərəhləndiyi qədər də bu xoşluğu insanlarla bölüşmək istəyirdi. Açığı, cəmiyyət bu günün adamının üzərinə elə bir güc, elə bir vəzifə qoymuşdu ki, o, həmin güc qabağında dayanıb həqiqəti etiraf edə bilmirdi.

…Hökmdar səfərə çıxır. Heç kim deyə bilməzdi ki, bu səfər müddətində kimsənin toyuğuna daş atılır, amma hökmdarın sə-

fəri gərək kimsənin narazılığına, mənafeyinə toxunmasın. Qazi bu gün səhər göstəriş verdi: – Bütün ov adamları hüzurumda hazır olsun.

Qazinin dediyi kimi, bütün ov adamları həmin gün hazır oldu. Ancaq Qazi bilmədi ki, elə o ov hazırlığının içində onun üçün necə təhlükəli tələ qurulur.

…Qazini Allah qoruyurdu. Ömrü-günü təqiblər, tələlər, qorxu-qadalar arasında keçmişdi. Bunu ancaq tək Allah bilirdi. Nədənsə, həqiqətən Qazini əhatələyən vahiməli qurğuların heç biri ona kar eləyəsi deyildi. Ancaq Qazinin dünyasına güc göstərəcək, özünü həqiqət timsalında, təsdiq edəcək bircə qüvvə var idi. Bu da onun qızı və Əhmədin taleyi ilə bağlı dildə-ağızda dolaşan macəra idi. Qazi özünü nə qədər qüdrət sahibi saysa da, bacısı oğlu ilə qızı arasındakı bu məhəbbət həqiqətini həzm edə bilmirdi. Qaziyə aydın idi ki, bu dünyada əsl sevgidən söhbət gedə bilməz. Bu dünyanın əsas gücü, qüdrəti orasındadır ki, insanları inandırasan, özünə tabe edə biləsən.

Bütün bunlar hələ yerini tapa bilməmişdi. Bəlkə də kimlərsə gözləyirdi ki, həqiqətləri çək-çevir eləsinlər, özlərinə uyğun bir mərtəbədə bunu nümayiş etdirsinlər. Amma bunlar hələ yox idi. Səbəbi də o idi ki, nə Qazi Bürhanəddinin, nə də onun tərəfdarlarının bir könül oxşayacağı, güc-qüvvət mənbəyi yox idi. Axırda məsələ o həddə gəlib çatmışdı ki, Qazi Bürhanəddin öz sarayında böyük şəfa mərkəzi – istedadlı gənclərin də cəlb olunduğu bir şəfaxana, insanların sağlamlığının keşiyində duracaq müalicə mərkəzi açmışdı. Şeyx Məhyəddin bütün bunların əsas özəyi idi. O, insanları qorumaq naminə həyatından da keçməyə hazır idi. Təki onun mənəvi mühitini qoruyacaq adamlar onun kimliyini axıracan dərk edəydilər, qoruyaydılar. Elə bu məqamda hökmdar düşüncəsini, mənəvi varlığını bütün gücü ilə ələ alıb öz sözünü demək istədi. Sən kimsən? – Bu suala cavab verməyə çalışdı. Axı, kimliyin, mənəvi məsuliyyətin, özünü diktə elədiyi

gücün hansı tərəfdə olduğunu, əlbəttə, hər kəs kifayət qədər dərk edə bilməz.

Və kimsənin də şübhəsi qalmadı ki, Qazi səfər elədisə, demək, onun bütün əhli-əyalı və ən başlıcası, tibb-təbabət tərəfdən – bütün istəyən, istəməyən kimi varsa, hamısı onunla olmalı idi. Ona görə də Şeyx Məhyəddinin özü ilə birgə bütün şəfa gücünü göstərəcək adamların hamısı yanında qərar tutmalıydı.

Şeyx Məhyəddin səfərin əsas iştirakçılarındandı. Amma lap elə səhərin ertəsindən Ağbəniz xanımın ona deməyindən məlum idi ki, heç bu səfər onun üçün qədərincə təqdirli deyildi. Şeyx Məhyəddin, sadəcə, hökmdar Qazi Bürhanəddinin könlü xoş olsun deyə onun səfərində iştirak eləmişdi. Təkcə Qazi Bürhanəddinə xoş olsun deyə yox, həm də öz vəzifə borcunu yerinə yetirmişdi. Vəziyyət elə gətirmişdi ki, bu səfər Şeyx Məhyəddinə zövq bəxş eləməmişdi.

Hər bir insanın taleyində elə hadisələr olur ki, bu hadisələr o insanları bəlkə də müəyyən məqamlarda ən uca zirvələrə qaldırır və həm də əksinə baş verir. Həmin gün ovda Əhmədi nə gözləyirdi, kimsə bunu qabaqcadan bilməyə qadir deyildi.

Lakin Şeyx Məhyəddini xəbərlər gözləyirdi. Ona sonsuz sevinc və eyni zamanda ağır dərd gətirən xəbərlər… Bəli, belə də olur: bəzən sevinc bütün varlığı ilə insanın üzünə gülür. Sanki dünyaları ona bəxş edir. Elə həmin anda insanın üstünə bir kədər seli də yürüyür. Onun qəlbini ömürlük yaralayacaq bu kədər sevinclə qarşı-qarşıya durur. Şeyx Məhyəddin də, Qazi Bürhanəddin də, elə hökmdarın bacısı oğlu Əhməd də, onun sevgilisi Gülçöhrə də sanki bu gün qəzavü-qədərin bir addımlığında idilər.

* * *

…Yeddi günlük ov səfəri başa çatmışdı. Hökmdar Qazi Bürhanəddin geri qayıdırdı. Əyan-əşrəflə, qoşunla bir yerdə, ancaq

bu, əvvəlki qayıdışlara bənzəmirdi. Əvvəllər ova gedəndə şeypurlar səslənər, təbillər çalınırdı, eləcə də qayıdan baş hökmdarın uğurlu ov mərasimi saray ətrafında adamların halay-mərəkə qurub təntənəli şəkildə şənlənməsi ilə qeyd olunardı. Qara zurnanın sədaları altında oynayanlar, rəqs edənlər, cəngi altında güləşənlər, ip üstə yeriyənlər məharətlərini, ox atanları altında… Bütün bunların hamısı insanlara xoş ovqat bəxş edər və axırda hamı bir ağızdan: «hökmdarın ömrü uzun, hakimiyyəti əbədiyyətəcən olsun», – deyərdilər. Hələ xanəndələrin hökmdarın qəzəllərini muğam üstə ifa etmələri, sazəndələrin şux çalğıları uzun müddət insanların hafizəsindən çıxmazdı. Və bir də yeni ov mövsümünü böyük istəklə gözləyərdilər. Hökmdarın əhvalının yaxşı vaxtında, xüsusilə, Novruz ərəfəsində o, fərmanlar verərdi. Zindandakı məhbuslar azad olunar, bəzilərinin həbs müddəti azaldılardı. Hansı tərəfdə əyalətin quraq keçən yerlərində məhsul qıt olubsa, həmin yerin adamları vergidən azad olunardı.

Bugünkü qayıdış isə heç kimə xoş əhval vəd eləmirdi. Bütün yolboyu hökmdar dinib-danışmamışdı. Hətta iqamətgaha yaxınlaşan məqamda baş əyan ona yanaşıb:

– Hökmdar, bəlkə, qayıdışınızı davullarla, şeypurlarla bildirək, – deyəndə Qazi Bürhanəddindən səs çıxmamışdı. Baş əyan atını onun atının bərabəri ilə sürür, xeyli dinmir, birazdan yenə təkrar eləyirdi:

– Hökmdar, deyirəm, bəlkə…

Qazi Bürhanəddin bu dəfə üzünü döndərib baş əyana gözünün altı ilə qıyqacı baxdı. Mənalı-mənalı başını silkələdi, baş əyan demək olar, heç nə başa düşə bilmədi, ancaq cəsarəti də çatmadı ki, təzədən nəsə soruşsun. Çünki o, bilirdi ki, tapşırığı yerinə yetirə bilməyib. Axı ovdan əvvəl onun baş əyanla üstüörtülü söhbəti olmuşdu…

– …Allaha şükür, hökmdar, əhvalın yaxşıdır.

– Eləmi?!

– Bəli, bəli, hökmdar, – elə bil ki, hökmdar heç neçə ayın üzüntülü, sarsıntılı günlərini yaşamayıb – əvvəlcə necə vardınsa, indi eləcə də görünürsən.

– Necə görünürəm?

– Qürurlu, əzəmətli. Ölkəni idarə eləməyə yeganə qadir sima kimi.

– İndi deyirsən, yəni məndən başqa bu ölkəni idarə eləyə bilən olmaz?

– Bəli, bəli, hökmdar. – Baş əyan tələsmiş cavab verdi.

– Deyirsən, varis də məndən sonra hakimiyyəti idarə edə bilməz?

– Xeyr, hökmdar, mən elə demərəm. Əgər Allahın qisməti, hökmdarın istəyi olarsa, yəqin elə ölkəni vəliəhdə etibar etmək olar.

– Deyirsən varisə bir rəqib-filan çıxmaz, hə?

Baş əyanın dalağı sancdı, canına üşütmə düşdü. Ona elə gəldi ki, hökmdar onun gizli niyyətindən xəbər tutub. Axı o, bu barədə kimsəyə bir söz deməmişdi. Baş əyan illərdən bəri gözləyirdi ki, Qazinin ayağı büdrəyən kimi onun nəzərində hakimiyyətin nə olduğunu bilməyən və beləcə fərsiz hesab elədiyi Qazinin oğlunu hakimiyyətə gətirsin, sonra da başını əkib, məmləkətə sahiblik eləsin. Ancaq bu barədə nəinki bir kimsəyə, hətta tək olanda özü-özü ilə danışmağa cəsarət eləməmişdi, çünki «yerin də qulağı var», deyirlər, – düşünmüşdü. Bəs indi necə ola bilər, Qazi onun bu niyyətindən xəbər tutmuş olsun. Bir az həyəcanlansa da, daxilindən bir qorxu küləyi əssə də, özünü cəmləyib dayandı. Keçirtdiyi hissləri büruzə verməməyə çalışdı. Sonda birtəhər də olsa, axır ki, dili açıldı:

– Hə, hökmdarımız Allahın rizası ilə nəyi, necə buyursa, biz əmrinə müntəzir qullarıq, – dedi.

– Sən bilən varisə rəqib ola biləcək kimlər var?

– Əlbəttə, ola bilsin ki, xəbis və nankor adamlar tapılsın. Lakin buna bir kimsənin cəsarəti çatarmı?

– Yenə də olsun, sən kimləri düşünürsən? – hökmdar qətiyyətlə soruşdu.

Baş əyanın dizləri əsdi. Yenə rəngi avazıdı və hökmdarın başa düşəcəyindən ehtiyatlandığı üçün bir az da artıq qorxu hissi yaşadı. Yaxşı idi ki, hökmdar ona tərəf baxmırdı. Və bu baş əyanın nəzərindən yayınmadı, üstəlik onu sevindirdi də. Yenə bir məkr ilə, hiylə ilə aradan çıxmağın məqamı gəlib çatmışdı. Hökmdarın indiki əhvalından istifadə edib, gələcəkdə niyyətlərini yerinə yetirməkdə ona mane ola biləcək kəslərin adlarını da qaralamaq mümkün idi. Ancaq çox ehtiyatla. O, bilirdi ki, cüzi bir səhv baş əyanın özünü badi-fənaya ötürə bilərdi. Ona görə yenə hiylə niqabını üzünə çəkdi:

– Hökmdar, Tanrının qüdrətindən sənin taxt-tacına gözünün ucu ilə heç kəs belə baxa bilməz. O ki qaldı varis məsələsinə, sənin iki qoçaq igid bacı oğulların var. Biri Əhməd, digəri Qara Yuluq Osman. Hər ikisinin də ordudakı nüfuzundan xəbərdarsan.

– Bəli, ondan da xəbərdaram ki, Əhməd başından yekə qələt edib, özgə niyyətə düşüb.

– Bilirəm, hökmdar, bəlkə bacın oğlu Əhməd sənin kürəkənin olsa, bu daha çox işin xeyrinə olar.

– Sən belə düşünürsən? Bəlkə niyyəti tamam başqadır?

– Hökmdar, bunu bilməyə borclu olsam da, qəti bir söz deyə bilmərəm. – Baş əyan bildi ki, bu söz hökmdarın xoşuna gəlməyəcək. Ona görə tez sözünə davam elədi, – amma onu bilirəm ki, insan çiy süd əmib, ondan nə desən, çıxar.

– Bəlkə niyyət kök atmamış, məqsədə rəvac verilməmiş, qarşısı alınsa yaxşıdır.

– Elədir, hökmdar, – sonra baş əyan dodaqlarını kip sıxıb, mənalı-mənalı başını tərpətdi. Axır ki, handan-hana dilləndi: – Vaxtın uzanmağı işin xeyrinə olmaz.

– Necə bilirsən, bəlkə bir ova çıxaq?

– Çox münasib vaxtdı, hökmdar, adamlar sənin ov səfərini səbirsizliklə gözləyir.

– Elə üzümüzə gələn həftə… – hökmdar bununla söhbətə yekun vurdu.

Artıq baş əyan hər şeyi başa düşmüşdü. Həm də içəridən elə sevinirdi ki, uçmağa qanadı yox idi. Niyə də sevinməsin? Elə onun qorxduğu hökmdarın bacısı oğlanlarıydı. Bilirdi ki, nə qədər meydanda Əhməd var, Qara Yuluq var, varisi heç vaxt taxt-taca yaxın gedə bilməyəcək.

İndi onun gizli niyyətinə doğru yolu açılmaqda idi. Elə hökmdarın özünün dili ilə deməsə də, gizlin rəyi ilə rəqibin birini aradan çıxarar, qalar o biri. Doğrudur, elə Qara Yuluq özü də qorxulu qüvvə idi. Onunla da hesabı çürütmək çətin olacaqdı, amma o, meydanda tək qalacaqdı. Təki isə məhv etmək nisbətən asan məsələdir.

…Baş əyan bilirdi, ov uzaqbaşı yeddi gün çəkər. Və hökmdar tezliklə göstəriş verəcəkdi ki, geri qayıtsınlar. Günlər isə elə sürətlə ötürdü ki… Baş əyan qəti bir tədbir görmədiyindən əsəbiydi. Bilirdi ki, əgər bu mövsüm məsələni yoluna qoymasa, Əhməd buradan sağ-salamat iqamətgaha qayıtsa, hökmdarın qızının istəyi ilə qəlbi yumşalar, fikrini dəyişər. Axır ki, nə desən baş verə bilər. Bu da baş əyanın gələcək planlarını alt-üst edər. Axır ki, o məsələni elə indi, lap ov səfərinin sonuncu günü olsa belə, həll eləməliydi. Neçə gün idi ki, tədbir tökür, Əhmədi aradan götürməyi kimə tapşırmağı götür-qoy edirdi. Ən çox da öz oğlu haqqında düşünüb-daşınırdı. Bəlkə elə bunu oğluna tapşırsın. Amma buna cəsarət eləmirdi. Çünki iş açılsa, Qazi Bürhanəddin onun oğlunu edam edəcək. Və əlbəttə, bu xalqın tələbi ilə olacaqdı. İnsanlar Əhmədin qanını yerdə qoymaq istəməyəcəkdilər. Beləcə, baş əyanın oğlunun başı hamının gözü qarşısında cəza meydanında kəndirə keçiriləcəkdi, iş bununla bitməyəcəkdi. Baş əyanın özü də oğluna görə cavab verməli olacaqdı. Hadisənin onun planı əsasında

quruldluğu düşünüləcəkdi. Elə ona görə, baş əyan bu işi oğluna tapşırmaqdan vaz keçdi. Axır ki, qohumlarından birini yanlayıb ilanı yuvasından çıxaran dilini işə saldı. Şirnikdirici vədləri leysan kimi yağdırdı. Əvəzində bu gün Əhmədi aradan götürməlisən – dedi.

Mühafizin gözü kəlləsinə çıxdı:

– Necə? Mən hökmdarın bacısı oğlunu aradan götürməliyəm?

– Yavaş danış, ay axmaq, – baş əyan öz qohumunun üstünə çımxırdı. – Əhmədin hökmdara qarşı gizli niyyəti var, bunun qarşısını vaxtında almalıyıq. Əgər bu işi layiqincə yerinə yetirə bilsən, tezliklə mənim baş mühafizim olarsan.

Gənc, qıs-qıvraq oğlanın gözlərində işıq yandı. Əlini yanından asılmış qılıncın dəstəyinə apardı, elə bil hökmdarın bacısı oğlu Əhməd elə bu andaca onun qarşısında idi. O da qılıncını çəkib, «Ya Allah» deyəcək və bircə zərbə ilə başını bədənindən ayıracaqdı:

– Ağamın sözü qarşısında boynum tükdən nazikdi, – dedi.

– Get, bilirsən ki, bu gün səfərin son günüdür. Yaxşı olar Əhmədin cəsədi də tapılmasın.

Həmin vaxt Qara Yuluq Osman və Əhməd hökmdardan xeyli aralıda – dağın lap yüksəkliyində ov bərəsində pusquda dayanmışdılar. Əhməd xeyli irəlidə, Qara Yuluq Osman isə ondan bir qədər yuxarıda. Aralarındakı məsafə elə də çox deyildi. Gün günorta yerinə hələ çatmamışdı. Birazdan onlar aşağıya – hökmdarın çadırının qurulduğu yerə qayıdacaqdılar. Bulaq başındakı kölgəliklərdə bir qədər dincəlib yəqin ki, axşam geriyə – iqamətgaha doğru dönəcəkdilər. Qara Yuluq Osmanla Əhməd arasında belə bir söhbət olmuşdu:

– Osman, necə bilirsən, uğurlu ovdan sonra yəqin ki, hökmdarın əhvalı yaxşı olar?

– Əlbəttə, kefi kəlləçarxa qalxar.

– Onda, bəlkə, niyyətimi hökmdara oradaca bildirim.

Osman bilirdi ki, Əhməd hökmdarın qızına aşiqdir. Onu da bilirdi ki, hökmdar heç də bu eşq macərasından razı deyil. Və hökmdarın nə üçün razı olmadığını yaxşı bilirdi. Deməк, hökmdar heç də onun bu təmənnasından sevinməyəcəkdi. Yəqin işlər çətin olacaqdı. Ancaq Əhmədə başqa cür məsləhət verə bilmirdi. Çünki bu sevdanın nə qədər saf və səmimi olduğunu və bu yöndən də böyük məhəbbətin nə demək olduğunu qəlbən duyurdu. Əhməd başını verməyə razı olardı, sevgisindən keçməzdi.

– Nə olar, Əhməd. Hər halda sən sevgini hökmdara açıq bildirməlisən. Əgər hökmdarı inandıra bilsək, onun gələcək varisinin də təhlükəsizliyi təmin olunar, yoxsa…

– Əlbəttə, yoxsa onun ətrafındakı quduzlar dayımız oğlunun hökmdarlıq taleyini özləri həll edərlər. Siyasət işlərindən başı çıxmayan varis Elməddini asanlıqla aradan götürərlər, – Qara Yuluq Osman fikirini çəkinmədən bildirdi.

İndi onlar dağa qalxmışdılar. Və aralıdan bir dəstə əlik otlaya-otlaya dağ cığırı ilə üzüaşağı enirdi. Alabəzək, yaraşıqlı heyvanı Əhmədin gözü tutdu.

– Gəl, yuxarı qalxaq, mən o alabəzək keyiki kəməndlə tutaram. Onu eləcə diri apararam, Gülçöhrəmə. Bu, onun üçün ovdan ən yaxşı hədiyyə olar.

– Onda qalxaq. Mən elə yerdə dayanacam ki, keyiklər yanımdan keçəcək. Sən yuxarıda dayan, birdən hürküb qayıtsalar, tutarsan.

Onlar ov bərəsində öz yerlərini tutmuşdular. Əhməd barmağını dodaqlarının üstünə qoyub Osmana işarə elədi. Yəni «tərpənmə gəlirlər»… Osman da başı ilə «bilirəm», – dedi. Təhlükədən xəbərsiz keyiklər dağ cığırında atılıb düşə-düşə Əhmədə tərəf şütüyürdülər. Birdən Qara Yuluq Osman gördü ki, baş əyanın yanında gördüyü, lap yaxşı tanıdığı mühafizlərdən biri əyilə-əyilə Əhmədə tərəf yeriyir. Əvvəlcə elə bildi ki, o da keyiklərə tərəf gedir. İstədi kiçik bir daş atıb ayıq salsın ki, Əhmədə yaxınlaşma-

sın. Ancaq birdən mühafiz qılıncını sıyırıb arxadan Əhmədə tərəf yüyürdü. Və elə həmin anda Qara Yuluq Osman niyyətini başa düşdü. Xəncərini çəkib mühafizi tuşlamağıyla atmağı bir oldu. Sağ çiyninin üstündən xəncər mühafizin boğazını deşib o biri tərəfə keçdi. Qılınc əlində havada qalmışdı. Səntirlədi. Ha istədi, özünü saxlasın, mümkün olmadı. Boğuq bir səs çıxarıb Əhmədin bircə addımlığında üzü dərəyə yuvarlandı. Bunu Əhməd də gördü. Keyiklər də qaçıb getmişdilər. Əhməd hələ də nə baş verdiyini qəti anlamamışdı. Osman düşüb onun yanına gəldi. Səssiz-səmirsiz dayanıb üzü dərəyə baxdılar. Səs tamam kəsilmiş, şıqqıltı da gəlmirdi. Yəqin xəyanətkarın son nəfəsini qayalara çırpılması kəsmişdi. Və onu oradan çıxarmaq müşkül məsələydi. Gərək çoxlu adam gələydi, kəndirlə aşağı düşəydilər.

Qara Yuluq Osman ani surətdə baş verənlərdən Əhmədi hali etdi. Qeyzdən nə edəcəyini bilməyən Əhməd qeyri-ixtiyari Osmanın yaxasından tutub silkələdi:

– İndi bunun hesabını kiminlə çəkək? Kimdən başlayaq? Ya dönüb qılıncdanmı keçirim hamını?

Qaradan özgə rəng yoxdur. Bu ov məsələsi əslində bir tələymiş. Namərdliyə bax! Balıq başdan iylənər, deyiblər, Osman! Yoxsa bircə xəncər atımıyla cəhənnəmlik olan xain gədə mənə qılınc qıcamağa cəsarətmi edərdi? Belə bir xəyanətə əl atması üçün əsaslı səbəbi olmalıydı. Mən heç onun adını belə bilmirəm. Gör necə qısqırdıblarsa, qanıma susayıb. Namərdliyə bax! Adam dəli olmayıb ki, durduğu yerdə qılıncını çəkib arxamca düşə! Yəqin bir öyrədən, fitva verən var. Mənim işim baş əyanladı. Mühafizəyə o cavabdehdı: cağırıb aşının suyunu verəcəm. Qoy nə oyundu anlatsın. Daşın haradan atıldığını araşdırsın.

Qara Yuluq Osmansa məsləhət gördü ki, əksinə, heç səsini də çıxarma. Bir daş altda, bir daş üstə… Heç nə olmamış kimi apar özünü. Guya heç nə baş verməyib. Hər şeydən xəbərsizsən. Ancaq hər kəsə diqqət yetir. Gör kim özünü necə aparır, kimin gözündə

təəccüb qığılcımları oynaşır, yediyi çörək, içdiyi su kimin boğazında ilişib qalır…

Razılaşdılar. Baş verənlər ikisinin arasında mühüm sirr kimi qalacaqdı.

* * *

Ovdan qayıdanların arasında Şeyx Məhyəddin yox idi. Hələ ovun dördüncü günündə arxasınca çapar gəlmiş, hadisənin nədən ibarət olduğunu elə onun özünə çatdırmışdı. Şeyx Məhyəddin də düşünmüşdü ki, hər necə olsa, gərək mütləq hökmdara bildirsin. Özbaşına çıxıb gedə bilməzdi. Ancaq onu da bilirdi ki, hökmdar səfərdən yarımçıq qayıtmağı xoşlamır. Bəlkə Şeyx Məhyəddinin çıxıb gedəcəyi təqdirdə hökmdarın yanında bir hadisə baş verdi, kimsə yaralandı? Hər hansı səbəbdən bir xəstələnən ola bilər, – gərək mütləq burada təbib olsun. Hələ o, başqa məsələdir ki, hökmdarın özünün başına bir iş gələ bilər, əhvalı pozulardı. Bəs onda buna kim cavab verəcəkdi?

Çapar başqa bir söz deməmişdi. Təkcə Ağbənizin adından xəbər gətirmişdi ki, gərək Şeyx tezliklə geri qayıtsın. Şeyxin də ağlına hər cür fikirlər gəlirdi. Axı, Ağbəniz onu nə üçün belə təcili geri çağırmalı idi. Doğrudur, arvadı Yazgül hamilə idi, vaxtının tamamına hələ düz bir ay qalırdı. Gələndə də Yazgülün əhvalını soruşmuş, ona məsləhətlərini vermişdi. Hansı yeməyi, hansı qidaları necə qəbul eləməyi, bir sözlə, özünə xüsusi diqqət göstərməyi ona tapşırmışdı. Və bir də ki, onsuz Ağbəniz Yazgülün yanında idi. Anası qədər, bəlkə ondan da artıq ona qulluq göstərir qayğısını əsirgəmirdi. Belə olan təqdirdə Şeyx heç Yazgül tərəfdən bir nigarançılıq da duymurdu. Amma yaxşı başa düşürdü ki, səbəbsiz yerə Ağbəniz ona qətiyyən belə təcili qayıtmağı ismarıc eləməzdi.

Əlbəttə, Şeyx Məhyəddin bu başıbəlalı həyatında xeyli qalmaqallı hadisələrin şahidi olmuş, tükürpədən əhvalatlar görmüş, elə başagəlməz işlərin şahidi olmuşdu ki, bu xəbər heç keçmiş olayla-

rın yanında təəccüblü görünmürdü. Yaşadığı həyatdan, şahidi olduğu olaylardan ona bir dərs qalmışdı ki, bu dərsi də o, əzbər bilir, ömrü uzunu yaddan çıxarmırdı. Həyatda qəflətən elə ağlagəlməz işlər baş verir ki, buna insan gərək hər vaxt hazır olsun. Və elə indicə anladı ki, lap yer də yarılsa, dağ dərəyə, dərə dağa çevrilsə də, o, geriyə qayıtmalıdır, həm də elə bu tezliklə.

Çapar bütün gecəni at sürüb hökmdarın ovlağına qədər gəlib çatmış, hələ burada Allahına yalvarmışdı ki, elə birinci üz tutduğu düşərgədə Şeyx Məhyəddini tapsın. Və iş də avandına gətirmişdi ki, daha bu dağdan – o dağa, o dağdan da o biri ormana adlayası olmamışdı. Elə hökmdar məşhur ovlaq yerində ocaq çatıldığı, tüstünün burumlandığı, atların kişnəşdiyi, itlərin hürüşdüyü – bir sözlə, onu çəkən, onun istiqamətini göstərən tərəfə üz tutmuş və elə oradaca ova çıxmış dəstənin çadır qurduğunu görmüşdü.

Gecə özünün qara kürkünü yığıb getmişdi. Bir qədər də düşərgəyə yaxınlaşan kimi mühafizlər onun qabağını kəsdi:

– Dayan, kimsən? Hara gedirsən?

– Mən hökmdarın baş təbibinin arxasınca gəlmişəm.

Mühafiz bir onun boy-buxununa, bir də atına baxdı. Döyüşçü görkəmi yox idi. Sıradan bir kəndli görkəmində olan şəxs, əslində, Şeyx Məhyəddinin şəfaxanasında xidmət göstərən cavanlardan biriydi.

– Bilirsən, hökmdar ov vaxtı xəbər aparıb-gətirəni xoşlamır.

– Bilirəm, Şeyx özü bizə bu barədə deyib.

– Bəlkə, birdən sənin gətirdiyin xəbər hökmdarı açmadı, onda?..

– Lap başımı da versəm, mən bu xəbəri Şeyxə çatdırmalıyam.

Mühafizbaşı cavanın qətiyyətli, inadlı sözlərindən sonra fikrə getdi: «Birdən elə xəbər olar ki, məmləkət üçün, hökmdar üçün xüsusi əhəmiyyət kəsb etsin. Onda mənim başım gərək bədənimdən ayrılmış olsun. Axı, nə üçün mən heç nədən ağıllı başımı qurban verməliyəm? Yox, birdən dəyərsiz xəbər oldu, onda

yenə tənə-qınaq yerinə çevrilərəm. Rütbəmi də endirərlər, yerimi dəyişərlər. Hər iki halda məni cəza gözləyir. Ancaq cəza da var, cəza da… Yenə bu xəbər gətirəni bəlkə baş əyanın mühafizlərinə təqdim edim. Onda başım lap salamat olar». – Mühafizbaşı düşüncələrindən ayrılıb yenə çapara başdan-ayağa nəzər saldı. Heç şərəşur adama oxşatmadı.

– İndi sən deyirsən ancaq Şeyx Məhyəddini görmək istəyirsən?

– Bəli, mən ancaq Şeyx Məhyəddinə xəbər gətirmişəm.

– Bəlkə, mənə deyəsən, nə xəbərdi?

– Doğrusu, mən özüm səhih bir şey bilmirəm. – Çapar dayandı. Ancaq mühafizbaşının onu səbəbsiz yerə hələ xeyli ləngidəcəyini düşünüb tez əlavə elədi: – Mənim xəbərim Şeyxin ailəsinə aiddir.

Çaparın bu sözlərindən sonra mühafizbaşı hiss etdi ki, o, səmimi danışır. Və deyəsən, həqiqətən də qara niyyəti yoxdur.

Mühafizbaşının şəkkaklığının səbəbi vardı. Hələ ötən il ov mövsümündə bir azmış adamın gəlib hökmdarın düşərgəsinə soxulması adi hal kimi qarşılanmışdı. Və sonra məlum olmuşdu ki, onun niyyəti tamam başqadır. Bu, hökmdara qarşı sui-qəsd üçün göndərilmiş məxfi casus imiş. Sonra bunun çox söz-söhbəti getmiş, işin kökü araşdırılmışdı. Bəlli olmuşdu ki, Qazi Bürhanəddinin hökmranlığına son qoymaq istəyən qonşu əyalətlərdən birinin adamıymış. İndi bu əhvalatın özü unudulsa da, təcrübəsi qalırdı. Ov vaxtı düşərgəyə yaxınlaşan hər hansı bir yad adam diqqətlə yoxlanılır, niyyəti öyrənilirdi. Mühafizbaşının sorğu-suala tutduğu çaparın ləngidilməsinin səbəbi elə bu idi.

Axır ki, mühafizbaşı onu düşərgəyə gətirib baş əyanın mühafizlərinə təhvil verdi. Onlar da çaparı ayrıca sorğu-suala tutdular və nəhayət, bu barədə yuxarıya məlumat ötürüldü. O da əyalətin mərkəzindən gəlmiş çaparın yanına gətirilməsini tapşırdı. Çapar baş əyanın hüzuruna çatan kimi ədəb-ərkanla təzim elədi:

– Hökmdarımızın baş əyanına salam olsun, – dedi.

– Salam gətirənin də qədəmləri xoş olsun. – Baş əyan onun salamını cavabsız qoymadı.

Demək olar ki, baş əyanla çapar arasındakı söhbət elə mühafizbaşının şahidi olduğundan o yana keçmədi. Amma baş əyan çaparı axşama qədər ləngitdi. Düşündü ki, bəlkə nəsə təzə bir xəbər öyrənər. Yalnız axşam, hələ günün saraltısı ötməmiş onu Şeyx Məhyəddinin yanına buraxdılar. Çapar Ağbənizin Şeyxə ünvanlanan «təcili gəl» ismarıcını çatdırdı. Əlavə onu da dedi ki, mən yerli-yetərli heç nə bilmirəm. Ancaq mənə elə gəlir ki, arvadınızın əhvalı yaxşı deyildi. Qulluqçu qadın məni elə buna görə göndərib.

Şeyxi təlaş bürüdü. Əlavə sorğulara artıq bir cavab almadığından özünü tez Qazi Bürhanəddinin yanına saldı:

– Hökmdar, bütün külli-aləm bilir ki, sən ağıl sahibisən. Halalımın da ikicanlı olmağından xəbərin var. Əgər vəziyyət elə gərgin olmasaydı, heç mənə belə ismarıc gəlməzdi. Görünür, məsələ ciddidir.

– Bəs istəyin nədir? – Qazi Bürhanəddin Şeyxin məqsədini öyrənmək üçün soruşdu.

– İstəyim odur ki, Qazi icazə versə, mən elə indicə düşərgəni tərk edib evə qayıdaram. Vəziyyətdən hali olaram. Əgər hər bir işi qaydasında görsəm, lap səfərin axırıncı günü də olsa, özümü yenə bura çatdıraram.

Qazi bilirdi ağır təbiətli Şeyx asanlıqla təlaşa düşən deyil. Əgər o, belə həyəcanlanıbsa, onda məsələ ciddidir. Xidmətçilərinə buyurdu ki, Şeyxə yüyrək bir at versinlər. Elə indicə düşərgədən çıxıb yola düşməsini təmin etsinlər.

Bu görüşdə üçüncü bir şəxs də var idi. Dinib-danışmır, müdaxilə eləmirdi. Hətta axırda Qazi Bürhanəddinin göstərişinə rəğmən razılıqla başını da yellətmişdi. Demək olar ki, heç bir əmmalı rəy bildirməmişdi. Bu da baş əyan idi. Ancaq bu zaman baş əyan tamam başqa məsələ haqqında düşünürdü. O, yaxşı bilirdi ki, nə qədər Qazi Bürhanəddinin sarayında Şeyx Məhyəddin kimi bir

müdrik yalnız şəfaxana rəhbəri, təbibbaşı deyil, həm də nüfuzlu məsləhətçidir, hökmdarın inandığı adamdır – bir o qədər də baş əyanın elə özünün başının üstündən təhlükə mənbəyidir. Neçə il idi ki, Şeyx Məhyəddinin güdaza verilməsi üçün planlar qurur, tədbirlər tökürdü, amma oxu daşa dəyir, arzusu ürəyində qalırdı. Bütün gözlənilməzliklərdə Şeyx Məhyəddinin dəyərli məsləhəti, ağıllı qənaəti, yetərli tədbiri onu hökmdarın gözündə ucaldır, nüfuzunun üstünə nüfuz gətirir, hörmətinə hörmət qatırdı. Hələ onu demək artıq idi ki, neçə dəfə qorxulu xəstəliklərin qabağını almış, axırıncı əhvalatda hökmdarın həyata qayıdışını Tanrıdan aşağı təmin etmişdi. Bütün bunlara rəğmən Şeyx Məhyəddinin sərhədlərini dağıtmaq, onun özünü məhv etmək, planlarından – niyyətlərindən əl çəkməsə də heç nə edə bilmir, yanıb-yaxılırdı. İş o yerə gəlib çatmışdı ki, hökmdar baş əyanla məsləhətləşəndən sonra hökmən Şeyxin rəyini öyrənirdi. Və çox vaxt elə Şeyxin dediyi şəkildə əmri icra edirdi. Hökmdar uşaq deyildi, kimin necə düşüncəyə malik olduğunu yaxşı bilirdi. Bilirdi ki, baş əyan məmləkəti səssiz idarə edə bilir, onun bu bacarığını kimsə dana bilməzdi. Kimin hansı yuvanın quşu olduğunu baş əyan qədər heç kim dəqiqləşdirə bilməzdi. Hətta qonşu əyalətlərdən, ölkələrdən kimin kimlə müharibəyə hazırlaşdığı, kimin hansı qərar qəbul edəcəyi məsələlərini də bilmək sarıdan baş əyanın əvəzi yox idi. Elə bu səbəbdən onu idarəçilikdən ayırmağı Qazi Bürhanəddin ağlına gətirmirdi. Amma necə deyərlər, zənciri də əlindən buraxmır, onunla tam ehtiyatla davranırdı. Hətta ürəyinə bir xal da düşmüşdü ki, bu baş əyan məqamı çatsa, bilsə ki, hər şey təhlükəsiz ötüşər, Qazinin özünə xəyanət etmək qəsdindən çəkinən deyil. İndi Şeyxə icazə verilib və üstəlik hökmdarın özünün diqqət və qayğısı ilə əhatələnib, yola salınma mərasimi də baş əyanı təzədən cin atına mindirmişdi. Hətta özündən çıxmış, «gecənin xeyirindən sabahın şəri yaxşıdır» demək istəmiş, axırda söz boğazında qalmışdı. Başa düşmüşdü ki, Şeyx elə asan həzm

olunan yem deyil. O, həmin məsəlin hara, necə, hansı məqam üçün deyilməli olduğunu, harada fayda gətirə biləcəyini, harada ziyan verə biləcəyini elə yerli-yataqlı izah edəcəkdi ki, hökmdarın yanında baş əyan həmişəlik bədnam olacaqdı. Hələ ola bilsin, bununla qərəzi də aşkarlanardı. Artıq neçənci dəfə idi, hökmdar ona xəbərdarlıq eləmişdi. Özünün hörmət göstərdiyi adama baş əyanın qərəzkarlıq göstərdiyi yolverilməzdir. Elə bütün bunları anladığından baş əyan dillənməmiş, səsini içinə çəkmişdi. Digər tərəfdən heç olmasa, Şeyxi axşama qədər ləngitməyindən məmnun idi. Elə buna da sevinir, təsəlli tapırdı. Hər hansı baş verəcək bir hadisə Şeyxin əhvalına təsir göstərəcək, onu sarsıdacaqdı. Bu da bəs edəcəkdi ki, Şeyx sınsın, daha özünə gələ bilməsin. Onsuz da elə hadisələrin şahidi olub ki, onlar Şeyxin saçlarına vaxtından əvvəl dən salıb, onu qocalığa sürükləyib.

Baş əyanın başqa qəsdi də vardı, düşünürdü ki, bəlkə mühafizlərindən birini Şeyxin arxasınca göndərib elə bu gecənin qaranlıqları qoynunda onun izini itirmək daha yaxşı olar. Amma sonra müşahidə edib anladı ki, Şeyx hökmdarın özünün inandığı mühafizlərlə yola salınır. Ola bilsin, hökmdar onlara ayrıca göstəriş də verəcəkdi – Şeyxi sağ-salamat evinə qədər müşayiət məsələsi…

Bütün gecəni dayanmadan at sürmüşdülər. Səhərəyaxın, toran çəkilər-çəkilməz həyətə çatdılar. Şeyx öz həyətində bir neçə adamın dayandığını gördü. Qonşu qadınlar, şəfaxananın adamları burada idi. Şeyxin dalağı sancdı: «olmaya, yazığın başında iş var?». Və elə həmin andaca onu bütöv bir gün baş əyanın ləngitməsinin səbəbini başa düşdü. Bütün həyatını şərə xidmətdə keçirmiş olan baş əyanın nə üçün Allahın qəzəbinə gəlmədiyinə təəssüf elədi. O, içəri girər-girməz demək olar ki, yeni bir qəzavüqədərin içində olduğunu anlamışdı.

* * *

Şeyx Məhyəddinin bitib-tükənməyən və bir-birinin davamı kimi zəncirlənən hekayətləri yatağında yarımcan uzanmış Qazi Bürhanəddini haldan-hala salırdı. Gah yuxuda, gah ayıqlıqda olduğunu qarışdırırdı. Hətta arabir huşu tam özünə gələndə neçə vaxtdan bəri yarımcan halda ölüm yatağında qaldığını da yaddan çıxarmış, sanki bir az bundan əvvəl yuxulamış kimi gözünü açmaq istəmiş, ətrafına yığılanların nə səbəbə belə kədərli, pəjmürdə olduqlarını soruşmaq istəmişdi. Yalnız yatağından qalxa bilmədiyini hiss edərkən hər şey ona təzədən məlum olmuşdu. Onun yadına gəlirdi ki, bir dəfə başına belə bir iş gəlmişdi. O, belə bir halı vaxtilə yaşamışdı. İndi də yuxusunda həmin yarımcan olaraq özündən getmiş olduğu məqamı yadına salmışdı və elə bilmişdi ki, hər şey keçmişdə qalıb.

Yox, belə deyildi, Şeyx Məhyəddinin şahidliyi ilə ikinci dəfə belə bir qəza yaşayırdı. O vaxt heç belə uzun çəkməmişdi, tez bərpa olunmuşdu. Bir az əvvəl elə yuxusunda həmin qəzadan sonrakı günləri görmüşdü və o şirin yuxunun təsiri altında da oyanıb təzədən qalxmaq istəmişdi. Sən demə, o şirinliklər çox-çox uzaqda qalıbmış…

Şeyx Məhyəddin isə söhbətinə davam etməkdə idi.

Adamlar onun salamını hüznlə alıb kənara çəkilir, heç kim qabağa yerimir, dinib-danışmır, kimsədən bir səs çıxmırdı…

Şeyx Məhyəddin birbaşa içəri keçdi. Yazgülün baş tərəfində yanan şamın solğun şüaları gənc qadının üzünə düşmüşdü. Bu solğun şüalar sanki onun üzünə sarıya çalan nur çiləmişdi. Ancaq yox, Şeyx Yazgülün simasında batan günəşin qürubdakı solğun, sarımtıl rənglərini gördü.

Gənc qadın dinməz-söyləməz elə indicə açılan qapıya tərəf baxmaqda idi. Görünür, o, həyatının son dəqiqələrini yaşaya-yaşaya ötən anları xəyalında intizarla yada salır, hər anda Şeyxin dönəcəyini belə səbirsizliklə gözləyirmiş. Bəlkə Şeyx bir az tez gəlsəydi… Hələ həyatın ancaq acısını görmüş, şirinini doyunca

dadmamış, Şeyxlə birgə keçirdiyi xoşbəxtliyin gətirdiyi əhvaldan kama çatmamışdı. Və yenidən taleyin qəzavü-qədəri onu burada haqlamışdı.

Şeyx yaxına gəldi. Arvadının baş tərəfində diz üstə çökdü. Tez nəbzini tutdu. Nəbzi çox zəif vururdu. Bəlkə də qadının daxili aləmində yalnız gəncliyinin gücünə özünü qoruyub Şeyxi gözləmək istəyi ilə davam gətirən gücün son qətrələri idi.

Şeyx gördü ki, Yazgülün gözlərində həyat işartıları sönməkdədir. Nəsə təcili bir tədbir görmək, onun həyatını xilas etmək üçün düşünsə də, onun təlaşını duyan Yazgül çox astaca, sükutdan güclə ayrılan bir səslə:

– Daha gecdir, – dedi.

– Yox, Yazgül, heç nə gec deyil, darıxma, mən gəlib çatmışam. Axı səni mənə… Şeyx sözünün davamını gətirmədi. Yenə arvadının dodaqlarının tərpəndiyini hiss etdi. Onun nə demək istədiyini eşitmək üçün susdu.

– Onsuz da sən məni əmanət almışdın. Ata-anamı aparan qəzavü-qədərdən sonra mənim yeganə pənahım idin. Gənc qadın yaşına uyğun olmayan müdrikliklə sanki səksən-yüz illik bir ömrün ucalığından danışırdı. Şeyx yenə təskinlik vermək istədi:

– Mən yenə sənin yanındayam, Yazgül. – Şeyx qadınının adı ilə dediyi bu sözlərdən sonra heç özü də hiss etmədən kövrəldi, gözləri doldu, sözünə davam etdi: – Əgər sən mənə əmanət verilmisənsə, mən də bu əmanəti qorumalıyam.

Şeyx əlini qadının saçlarına çəkdi. Səssiz tərzdə onun gözlərinə baxdı. Deyəsən, gözlərinə bir az işıq gəlmişdi. Və yenə dodaqları tərpənirdi:

– Mən də sənə bir əmanət qoyub gedirəm.

Şeyx gənc qadının nə dediyini yaxşı bilir və artıq işin də işdən keçdiyini anlayırdı. Yaxşı başa düşürdü ki, indi Yazgülün həyata qayıtması mümkün deyil. O, son anlarını yaşayır. Ancaq bu qadının, özü də hələ həyatın ən xoş çağlarını yaşamamış bir

cavan gəlinin bu qədər təmkində, bu qədər həyata doyumluqla yanaşmağında sonsuz müdrikliyin haradan, nədən qaynaqlandığını bəlkə də yaxşı anlamırdı. Ancaq qızın gözlərində sonsuz bir qüdrət, həyat eşqi vardı. Şeyx yaxşı dərk edirdi ki, bütün canlıların, əlbəttə, ən başlıcası insanların hamısı həyatı qeyri bir nəsnəyə dəyişməyə razı deyil. İnsan üçün nə qədər əzablı, əziyyətli olsa da, həyat daha qiymətlidir. Bəlkə də həyatın şirinliyi əzablarla yaşamaqda daha çox duyulur.

Şeyxin imkanı olsaydı, ömrünün Allah saxlayan hissəsini də kəsib, bu gənc qadının ömrünə calayardı. Tale onun əlindən ilk sevgilisini almış, ona sevgi iztirabları ilə yaşamaq kədəri bəxş eləmişdi. O, illər boyu bu əzabları içində çəkə-çəkə yaşamışdı. Tənhalığında bir kimsəyə yovuşmamağında özü bir təskinlik tapırdı. Həmin illərdə onun ən çox qorxduğu o idi ki, kimsə ona yaxınlaşıb «sən niyə evlənmirsən, ailə həyatı qurmursan» desin. Çünki bu sualların cavablarını ondan mükəmməl bilən kimsə yox idi. Eh, iş elə gətirdi, onun bu yaralarının ağzı qaysaq bağladı. Şeyx Ağbənizin timsalında anasını tapdı. Şeyx sonra çox yaxşı anlayırdı ki, əgər Ağbənizi tapmasaydı, onun sonsuz qayğısı olmasaydı, qəlbindəki sevgi yaraları heç vaxt sağalmazdı. Məhz Ağbənizin qayğısı, nəvaziş ilə get-gedə yaddaşındakı göynəmələrdən, sızıltılardan xilas ola bildi. Yazgülün öz sədaqəti ilə Dürdanəni xatırlatması da Şeyxin ona bağlılığının əsası oldu. Özü də əbədi bağlılığının. İndi bu dünyada Şeyx yenidən taleyin zərbəsini dadmalı olacaqdı. Bu zərbə əgər öldürücü olsaydı, onda Şeyx yəqin bir daha özünə gələ bilməzdi. Həyat onu öz nəhrinin ağzına alar, qayalara, daşlara çırpa-çırpa məhv edər və axır nəticədə əzablar ümmanında boğardı.

Şeyx bütün bunların hamısını görürdü. İndi gözündə iki aləm müqayisə olunurdu. Bu dünyada yaşamaq, yoxsa əbədiyyətə köçmək. Hansı daha üstündür? Şeyx həyatını qurban versə belə arvadını qoruya bilməyəcəyini anladığı təqdirdə Yazgüldən əma-

nət qalan qızını bu dünyanın gətirəcəyi zillətlərin qabağında qoyub getmək daha betər idi. Şeyxin yanaqlarından yaş giləlǝndi. Nurlu çöhrəsinin üstüncə gələn damlalar bir anlığa güzgü kimi günəşin parıltıları fonunda bərq vurur, az qala Yazgül özü də əksini bu damlalarda görürdü. O Şeyxi heç vaxt bu qədər hüznlü, dərd içində, bu qədər sıxıntı ilə əzab çəkən görməmişdi. Şeyx bütün varlığı ilə sevgilisinin və hətta Yazgülün timsalında sanki Dürdanəsinin ölümünü, faciəsini təzədən yaşayırdı. Yazgül bəlkə də canında olan həyat eşqini aşiqi olduğu bu müdrik insanın əzablarını yüngülləşdirmək üçün yenidən cəmlədi. Özünü ələ alıb bəlkə də ondan ayrılmaqda olan ruhuna qəlbən yalvardı: «Məni tərk eləmə, mənə bir az da möhlət ver. Qoy mən sonuncu sözlərimlə məndən ötrü bu qədər əzab çəkən insana heç olmasa, bir-iki kəlmə ilə təskinlik verim. Ona dayaq olum».

Şeyx Yazgülün nəsə demək istədiyini gözlərindən oxuyurdu, onu duyurdu. Nəinki anlamaq istəyirdi, hətta onun deyəcəyi sözlərin də hər birini axırıncı kəlməsinə qədər eşidirdi. Şeyx yenidən Yazgülün başını sinəsinə tərəf çəkdi, ürəyinin döyüntüsü ilə ona demək istədi ki, mən səni duyuram, başa düşürəm. Hətta anlatdı ki, əgər bir neçə kəlməni demək sənin üçün çətindirsə, heç əziyyət çəkmə, çünki hər şey mənə gün kimi aydındır. Şeyx bunları demək istəyirdi Yazgülə. Necə ki, bir vaxt Dürdanə elə son anlarını yaşayarkən o elə beləcə düşünmüşdü. Ağbəniz bir qədər kənarda dayanıb yazıq-yazıq baxırdı. Bu yaşlı qadının həyatda yeganə qazancı bəlkə də bu evin divarını, daşını analıq hərarəti ilə isindirmək idi. O da daxilən ağır anlar yaşayırdı. Eyni faciəni, eyni kədəri, dərdi tale necə bu adamlara təkrar-təkrar yaşadırdı. Əlbəttə, Ağbəniz özünü ayırmırdı bu dərdin, bəlanın faciəsindən. Şeyxin sifətini görmək dəhşət idi. Necə ola bilərdi, uca Tanrı həyatının mənası yalnız insanlara xeyirxahlıq bəxş etmək olan bu şəfa bilicisini, təbabətin sirlərini bələd bir insanı belə ağır sınaqlarla imtahana çəkirdi. Ağbəniz görürdü ki, Şeyx

bütün mərdanəliyi ilə bu əzablara dözür. Allahına asi olmur. Sanki elə əvvəlcədən belə faciələrə düçar olacağını bildiyindən sonsuz təmkin göstərirdi. Hər halda, Şeyxin bu sonsuz iztirablara mərdanəliklə dözümü Ağbənizi heyrətləndirirdi. Nə yaxına gələ bilirdi, nə də kənara çəkilə… Axır ki, Şeyx sol əli ilə Yazgülün saçlarını asta-asta sığallamağını dayandırdı, yenidən onun gözlərinə baxdı. Deyəsən, Yazgülün dodaqları tərpənirdi:

– Sən yaşamalısan, Şeyx, məndən sonra uzun illər yaşamağa borclusan.

– Sən mənimlə birgə yaşayacaqsan, Yazgül.

– Bilirəm, – Yazgül dodaqlarını astaca tərpətdi. Və sanki qəlbindən gələn bir işıqla, güclə sezilən təbəssüm göstərdi.

– Əlbəttə, başa düşürəm ki, bilirsən. – Şeyx yaxşı anlayırdı ki, Yazgül nəyi nəzərdə tutur.

– Şeyx, mən sənin sədaqətinin, sevginin tükənməzliyinə inanıram. Bilirəm ki, nə qədər yaşasan, mənim də adım sənin qəlbində əbədi yaşayanlarla birgə qərar tutacaq.

– Düz deyirsən, Yazgül. Mən səni heç zaman yaddan çıxarmaz, dünya qopsa belə unutmaram. Çünki sən mənə Dürdanəmi qaytarmışdın…

– Mən elə bunu deyirəm. Sən artıq bir Dürdanə itirmisən. Sənin haqqın yoxdur ki, ikinci dəfə Tanrının sənə bəxş elədiyi Dürdanəni itirəsən. Bunun üçün sənin yaşamağın gərəkdir.

Ağbəniz də əlbəttə, bu sözləri dinləyirdi. Gözlərinin qabağında böyümüş Yazgülün bəlkə də bu qədər düşüncəyə, ağla sahib olduğunu dərk edə bilməzdi. Onu heyrətə gətirən elə bu idi. Ancaq arif Şeyx yaxşı bilirdi, Yazgülü bu qədər ilahi bir duyğu ilə danışdıran hiss onun analıq duyğusudur. Özündən sonra qalan körpəyə ana məhəbbətidir. Onu danışdıran əsl mətləb o idi ki, övladının taleyindən arxayın getsin.

– Sən hər bir vaxt baharın gəlişi ilə açılan güllərə nəzər salarsan. O güllərin eşqi ilə oxuyan bülbüllərin avazında məni eşidərsən.

Qönçələrin təravətində məni görərsən. Gör hələ neçə illər biz hər baharda görüşəcəyik. Həmin güllərin, bülbüllərin bir-birilə hansı dildə danışdığını, bu heç vaxt ölməyəcək əfsanəni qızımıza başa salarsan. Qoy o da bilsin ki, anası onu görmək üçün təzədən dünyaya qayıdacaq.

Ağbənizə də, Şeyxə də bəlkə bu an elə gəlirdi, Yazgülün danışığı heç vaxt qurtarmayacaq. O, elə bu cür rəvan, sükutqarışıq bir səslə əbədi olaraq dil-dil ötəcək. Ancaq belə olmadı. Onlar gördülər ki, Yazgülün nəfəsi get-gedə dərinliklərə çəkildi. Birazdan dodaqlarının tərpənişi dayandı.

Şeyxin gözlərindən iki damla yaş bu dəfə Yazgülün açıq gözlərinin donuqluğundan keçib yanaqlarına düşdü. Daha Yazgüldə taqət yox idi. Şeyx ağır bir hüznlə onun açıq qalan, hissiz gözlərini qapadı.

* * *

Şeyx Məhyəddin Yazgüllə birgə hələ dünyaya gəlməmiş övladını da dəfn elədi. Və dünyada onun pasibanı olacaq Ağbəniz və Ağbənizin ümidinə qalan Yazgülün yadigarı Dürdanəsi ilə özünü ovundurmalıydı. Həyatda baş verənlərin yaxşı və pis olmağının fərqində deyildi. Əgər artıq qızlar bulağından su içmiş Dürdanəsi olmasaydı. Analıq qayğısını, nənəlik duyğusunu Ağbəniz üzərinə götürmüşdü. Dürdanənin qaynar gözlərindən onun istəklərini göydəcə oxuyan Ağbəniz qızı göz-bəbəyi kimi qoruyurdu. Bir gün gördü ki, qızın gözləri göylərin dərinliyinəcən uzaqlaşıb, bu dünyanın adamı deyil. Hərəkətlərindən, davranışından qəribəlik yağırdı. Elə bil, bu dünya onun üçün görünməz qala idi. Haradasa uzaqlarda yalnız onun üçün görünən bir ulduzu görürdü, amma bu ulduz haradaydı, yaxında idi, uzaqda idi? – Ağbənizə sirr idi. Axır ki, bir gün bunu da gördü; Şeyx Məhyəddinin şəfaxanasında tibb elminin sirlərini öyrənən gənclər dağılışıb getmişdilər. Hələ axşamın qaranlığı düşməmiş, günəş üfüqdə batmamış, iki

gəncin şəfaxananın qabağında baş-başa verib nədənsə kimsənin eşitməyəcəyi bir tərzdə danışığını gördü. Əslində, bu, danışmaq deyildi. Göz-gözə dayanmaq, pıçıltıydı. Gənclər bir-birinə elə baxırdılar, elə bil ilk dəfədi, biri digərini görür. Üz-üzə, lap yaxından-yaxın dayanmışdılar. Gözəgörünməz bir qüvvənin cazibəsi ilə onlar ayrıla bilmirdilər. Və Ağbəniz öz gəncliyini, həyatının bəxtəvər dönəmini həmin anlarda gözünün qabağına gətirmişdi. Və bu zaman elə bu gənclərin nə danışdığını da başa düşmüşdü. İl o il deyildi.

O ildən neçə illər keçmişdi, indi Ağbəniz sanki həmin günlərə qayıtmışdı.

– Mən sənsiz yaşaya bilmərəm, Ağbəniz, – Bunu gənc, qaraşın oğlan deyirdi. Elə deyirdi, bu sözləri lap onların yaxınlığında olan bir kimsə belə eşidə bilməzdi. Güclə dodaqları tərpənirdi, Ağbəniz isə onun nə dediyini yaxşı anlayırdı.

– Kim deyir ki, mən yaşaya bilərəm, ay qarabəniz. – Bu sözlər də Ağbənizin dilindən çıxırdı. Axı, həmişə sevgilisi ona Ağbəniz, yəni öz adı ilə müraciət edəndə o da sevgilisinə onun rənginin əksinə uyğun özünün qoyduğu adla cavab verirdi. Ağbənizin dilində qarabəniz onun sevgilisinin adı olmuşdu.

– Mənim ixtiyarım var ki, sevgilimi atımın tərkinə qoyub dünyanın o başınacan aparım.

– Axı hara apara bilərsən, məni? – Ağbəniz cavab verdi, sonra əlavə elədi. – Dünyanın hər tərəfi bir-birinə qarışıb. Hara getsək, müharibə var, od-alov var.

– Sən elə düşünmə, Ağbəniz. – Gənc söz altında qalmaq istəmədi. – Sevənlər Tanrının kölgəsinə sığınar. Tanrının kölgəsinə kimsənin əli çatmaz, deyirlər.

– Ancaq yox, əzizim. Unutma, bu dünyanın hökmdarları özlərini Tanrı bilirlər. Onların əli hər yerə çatır. Ona görə gərək ehtiyatlı davranasan. Sən elə bir fürsət məqamı gözlə ki, görək bu müharibələrdən nəfəs almaq imkanı yaranır, yoxsa…

– O imkan yaranacaq, Ağbəniz. Nə vaxtsa, bu hökmdarların gözləri bu dünyadan doyacaq, onda o imkan da yaranacaq. Və biz də o zaman öz istəyimizə çatarıq. Ancaq bir məsələ var.

– Nə məsələdir o, qarabəniz? – Ağbəniz istədi ki, sevgilisinin dumanlanmış, ümiddən düşmüş gözlərinə bir inam, aydınlıq gətirsin. Ona görə bu sualı verdi. Düşündü ki, bəlkə bir qədər danışmaqla sevgilisinin fikirlərini daha da aydınlaşdırar, ona öz sevgisi ilə ruh bəxş edər, güc verər.

– Bilmək istədiyin o məsələ qiyamətdə olacaq.

– Necə qiyamətdə olacaq?

– Bəli, bəli. Yalnız qiyamətdə.

– Axı niyə? – Ağbəniz yenə təkidlə soruşdu.

– Çünki bu dünyada hökmdarların gözləri heç vaxt sərvət yığmaqdan, qan tökməkdən doymur. Öləndə insanın gözlərinə torpaq tökürlər, eşitmisən?

– Bəli, eşitmişəm.

– Biləsən, bəlkə o torpaq tökmək adəti elə hökmdarları başa salmaq üçün yaranıb. Onlara bu dünyanın gəldi-gedərliyini bu dünyada anlatmaq olmur, ona görə də onların gözlərinə torpaq tökülür.

– Hə, başa düşdüm. – Ağbəniz cavab verdi. – Yəni ki, bu dünyada gözünüz dünya malından, özünüzə aid olmayan torpaqları zəbt eləməkdən, tutmaqdan doymadı, tamahınız dişləri qıcaya-qıcaya qaldı. Bəlkə gözlərinizə tökülmüş bu torpaq bir vaxt sizi anladar. Nə olsun, ruhunuz bədəninizdən uçub, canınızı təslim etmisiniz. Ruhunuz bədəninizi örtən gözlərinizə tökülən torpağa baxar, deyər ki, bax budur sonu. Tamahı hara çəksən, axırı budur.

Sevgilisi qaraşirin gənc Ağbənizin bu danışığına heyrətlə baxardı. Elə bilərdi ki, bu sözləri Ağbəniz yox, elə Tanrının özü diktə edir. Yalnız Ağbənizin dodaqları tərpənir. Səs isə qaraşirin oğlanı tapmaq üçün dünyanın o başından gəlirdi. Oradan ki, o yerdən ki, orda Tanrı dağı vardı və Tanrının özü o Tanrı dağında əyləşib,

bu dünyanın işlərinə yuxarıdan aşağı baxırdı: «Görün bu insanlar neyləyirlər? Öz əməlləri ilə özlərinə necə qəbir qazırlar»?

Ağbəniz də sevgilisinin belə heyranlıqla baxmağından sanki vəcdə gəlirdi. Sözü sözə calayırdı. Axşamın qaranlığında kimsənin görmədiyi bir aləmdə sözünü bitirər-bitirməz onun boynuna sarılardı. Lap ürəyindən tikan çıxanacan onu öpərdi. Qaraşirin oğlan da Ağbənizdən doymazdı, əllərini tez-tez saçlarına çəkər, sığallayar, belini qucaqlayardı. Arabir «ah mənim dünyam, ah mənim əzizim, səni məndən ayırmağa kimsənin gücü çatmaz» – deyərdi. Beləcə, ömrü çox qısa olan sevgili günlərin xatirələri Ağbənizin yaddaşında hərdən oyanardı. Ancaq bəlkə o qədər də gizilti yaratmazdı, indi bu xatirələr gözlərinin qabağında olan iki gəncin timsalında təzədən onun yaddaşında boy göstərəndə, ruhundan bir gizilti keçmişdi. Bəlkə elə həmin andaca soruşan olsaydı ki, onsuz ağ olan sifəti niyə belə ölü rənginə düşüb, niyə qorxub, nədən qorxub? – heç cavab verə bilməzdi. Amma özü daxilən həyatının davamını Dürdanənin amansız müharibələrin apardığı sevgilisinin ömrünü Varisin timsalında gördüyündən canına bir vəlvələ düşürdü. Həmin anlarda Allahdan güc istəyirdi ki, ona bir mələklik missiyası verilsin, o da qanadlarını açıb bu iki gəncin üzərinə gərsin. Onları Allahın yerdəki kölgələri olan hökmdarların, var-mənsəb sahiblərinin məkrindən qorusun. Dürdanənin gözəlliyi başına bəla ola bilərdi, necə ki, Ağbənizin gözəlliyi öz başına bəla olmuşdu. Hər halda Ağbənizin bir təskinliyi vardı. Çünki indi zaman o zaman deyildi. İndi Şeyx Məhyəddin hökmdar Qazi Bürhanəddin sarayında keçərli söz sahibi idi. Bir kimsənin cəsarəti çatmazdı ki, Şeyxin qızına tələ qursun, onu istəklisindən ayırsın. Bəla burasındaydı, sadəlövh Ağbəniz bilmirdi, elə Qazi Bürhanəddinin özünün başına necə corab hörüb, gözlərini qapayanlar var. Ağbəniz bilmirdi ki, indi Qazi Bürhanəddin dünyaya elə öz məmləkətinin işlərinə baş əyanın gözünə çəkdiyi torun arxasından baxır. Elə bir kimsə də yoxdur ki, baş əyanın kim ol-

duğunu Qazi Bürhanəddin üçün açsın. Heç Ağbəniz onu da bilmirdi ki, elə onun özünün – Qazi Bürhanəddin qızı Gülçöhrənin taleyini baş əyan təzədən yazır. Şübhəsiz, Gülçöhrənin sevgilisi igid Əhmədin gələcəkdə hakimiyyət üçün necə böyük təhlükə olacağını Qazi Bürhanəddinə baş əyan çatdırmışdı. Əlbəttə, əgər baş əyanın zərrəcə vicdanı olsaydı, o, Əhmədin səltənət üçün necə sədaqətli bir igid olduğunu da hökmdara anladardı. Ancaq o bunu eləməzdi. Çünki bilirdi, nə qədər ki, hökmdarın kürəkəni olacaq Əhməd sağdı və arxasında hökmdarın digər bacısı oğlu Qara Yuluq Osman dayanır, o heç vaxt mənsəb üçün istəklərinə yetə bilməzdi. Hərçənd ki, baş əyanın mənsəbi balaca deyildi. Hökmdardan sonra ikinci şəxs idi. Heç var-dövlət sarıdan da Qazi Bürhanəddindən aşağı olmazdı. Mal-mülkü, torpaqları barədə danışdıq. Hələ üstəgəl, müharibələrdən qənimət kimi götürülmüş və xəzinədən oğurlanmış saysız-hesabsız ziynət əşyaları, qiymətli mirvarilər, qızıl, gümüşlər… bütün bunlar artıq gücə çevrilmişdi və baş əyana dilsiz-dilsiz, sakit-sakit bu var-dövlət anladırdı ki, sən məmləkətin böyüyü olmağına layiqsən. Baş əyan da öz var-dövlətinin onunla dilsiz-dilsiz danışsa belə, dilini yaxşı bilirdi. Bu var-dövlətin ona nə söylədiyini yaxşı anlayırdı. Hərdən əlini qızıl kisələrinin üstünə çəkir: «Darıxmayın, tələsməyin, mənim də zamanım gələr, sizi işə salaram, üzünüz gülər. Bilərsiniz ki, bir işə yaradınız» – daxilən rahatlanırdı. Və bu zaman təsadüfən – doğrudur, heç vaxt belə təsadüf olmamışdı. Kimsə gəlib onun özünə hesabat verdiyini görsəydi, düşünərdi, bu kişi dəli olub, başına hava gəlib. Və o söz də elə tezliklə yayılardı ki, hamı baş əyanın havalanmağından dastan qoşardı. Baş əyan rüşvətxor, sərvətsevən olsa da, ağıllı adam idi. O, belə söhbətləri qapını neçə yerdən kilidləyər, sonra arxayın-arxayın danışardı. Ona görə də belə söhbətlər kənara çıxmazdı, amma baş əyan da illər ərzində öz qızılları ilə xəlvət söhbətləşmədən bezmişdi. O, daha xəlvət danışmaq istəmirdi. İstəyirdi ki, qızıllarının gücünü görsün. Qı-

zıllarının da bir üzü sevinsin ki, sahibi-imkan baş əyan artıq hökm sahibidir. Vaxt isə uzanırdı. Gün günü üstələyir, Əhmədin şöhrəti hər tərəfə yayılır, yenilməzliyi, gücü, qüdrəti danılmaz olurdu. Axırıncı uğursuz tədbir baş əyanın gözünün qabağında dolaşırdı. O da kimsəyə aça bilmirdi ki, tapşırıq verdiyi mühafiz harada itdi-batdı. Həmin mühafizin ailə üzvləri hər gün qapısını kəsir, ondan nəsə cavab umur, amma müsbət cavab almadan naümid geri qayıdırdılar. Hər halda, baş əyan düşünürdü ki, həmin mühafizin ailə üzvlərini kiritməlidir. Və axır ki, bir gün o, həmin qadını və oğlunu qəbul edib, onlara aydınlatdı ki, mühafiz mühüm tapşırıqla, hökmdarın öz göstərişilə uzaq səfərə göndərilib. Və sonra səs-sovun çox yayılmaması üçün həmin mühafizin ailə üzvlərinə aylıq donluq kəsdi. Mühafiz mühüm dövlət tapşırığına görə getdiyi üçün ailəsinin dövlətdən həmişə yardım alacaqlarını dedi. Beləcə, bu səs-sov kəsildi. Baş əyan bilirdi ki, yaxın ara müharibələrinin baş verəcəyi təqdirdə mühafiz söhbəti bağlanacaq. Onun həmin müharibələrin birində öldürüləcəyi bildiriləcək. Bundan sonra ailənin qayğısı dövlətin işi olacaqdı. Baş əyan qəfəsə salınmış şir kimi vurnuxurdu. Özünü divarlara sürtürdü. Bütün gücü ilə hadisələri sürətləndirmək, Əhmədi aradan götürmək naminə yollar arayırdı. Bəlkə də bu, mümkün olacaqdı, Qara Yuluq Osman vaxtında xəbər tutmasaydı…

…Ağbəniz Dürdanə ilə Varisin görüşlərinə özü şərait yaradırdı. Çünki bu iki dünyanın təmizliyinə, paklığına inanırdı. İnanırdı ki, bir kimsə Tanrı iradəsi ilə bir-birinə doğru gedən iki gəncin qarşısına sipər çəkə bilməz.

Şeyx Məhyəddin isə qızı ilə müridinin arasında alovlanan sevgi odundan, qızının azad sevgisindən fəxarət duyurdu. Və ən başlıcası, özündən sonra yerində bütün şəfaxananı idarə edəcək, özünün sahib olduğu bilikləri verdiyi bir gəncin mükəmməl bir idrak və ağılla təbabət elminə daha yeniliklər gətirəcəyinə inanırdı. Şeyx Məhyəddin söhbətlərilə Qazi Bürhanəddinə anlatmaq istəmişdi

ki, dünyanın işlərini ancaq hökmdarlar idarə eləmir, Tanrı bu işlərə müdaxilə edir; insanların qəlbinə təmiz sevgilər, pak duyğular bəxş edir, onları qoruyur. Amma Şeyx Məhyəddin bilmirdi ki, artıq gecikib. Qazi Bürhanəddin dünyəvi işlərin yeganə sahib olduğu gümanı ilə Allahın bəxş etdiyi sevgiyə qarşı çıxır. Əhmədin və Gülçöhrənin arasındakı sevgi-məhəbbət duyğularını, səssiz-sözsüz bir-birilə anlaşan hisslərini gizlin-aşkar qılınclayır.

…Qazi Bürhanəddin artıq Şeyx Məhyəddinin düşündüyü qədər keçmişdə qalmamışdı. İndi o, baş əyanın hördüyü və tor kimi dolaşıq olan, ancaq asanlıqla kəsilib, doğranmayan bir hiylə arxasında qalmışdı. Bununla da o, özü ilə Şeyx Məhyəddin kimi müdriklərin arasına da bir sədd çəkmişdi. Nə Şeyx Məhyəddinin səsi ona çatırdı, nə də o, Şeyx Məhyəddinin danışdığı hikmətlərdən bir nəticə çıxartmaq halında idi. Əhməd ölməli idi. Qazi Bürhanəddin yalnız belə düşünürdü.

Qara Yuluq Osman gecənin qaranlığında Əhmədin gecələdiyi hücrəyə gəldi. O, baş əyanla Qazi Bürhanəddin arasında olan söhbəti cikinə-bikinə kimi danışdı.

– Mən Gülçöhrəni qoyub gedə bilmərəm. – Əhməd qətiyyətlə cavab verdi.

– İndiki halda Gülçöhrəni özünlə apara bilməzsən. Bu, müharibə deməkdir.

– Olsun, mən son damla qanımacan döyüşərəm. – Əhməd inadkarcasına sözündən dönmədiyini dedi.

– Döyüşərsən, ancaq məğlub olarsan. – Sən bütün orduya qarşı necə vuruşarsan? Ancaq indilikdə bir kənara çəkilsən, bəlkə hökmdara nə isə başa salmaq mümkün oldu.

– Deyirsən, bəlkə tale üzümüzə güldü?

– Bəli, əgər belə olsa, iki sevgilinin xoşbəxtliyi məni də sevindirər. – Qara Yuluq Osman cavab verdi. Ancaq deyəsən, heç özü də dediyinə inanmırdı…

* * *

## SÜQUT

Qara Yuluq Osman Əhmədin yanına gələnəcən bütün olub-keçənləri ən xırda təfərrüatınacan yaddaşının süzgəcindən keçirmişdi. Əsası da o idi ki, bütün bu xatırlamaların hamısının arxasında bircə həqiqət dayanırdı. O da bundan ibarət idi ki, Əhməd öz sevgisindən savayı, nə Qazi Bürhanəddinin məmləkətində, nə də Tanrının bəxş elədiyi yer üzündəki həyatında bir özgə günahın sahibi deyildi. Qara Yuluq Osman dayısının – Qazi Bürhanəddinin təbiətinə yaxşı bələddi. O, təbiətin vurğunu idi. Gözəl simaların, insanların mənəvi aləmi ilə tarazlaşan görkəmlərinə baxanda özündən asılı olmayaraq, qeyri-ixtiyari «elə bu Allahın özüdür», – deyərdi. İndi ona görə də, baxmayaraq ki, Qazi Bürhanəddin hökm sahibiydi və bütün ciddi-cəhdlə hakimiyyətini qorumaq niyyətindəydi, onun yenə haqqın tərəfində olacağına inanırdı. Axı Əhməd bir günahın sahibi deyildi. Əgər Qazi Bürhanəddinin məqsədi və məramı öz səltənətinin təhlükəsizliyidirsə, onda gərək Əhməddən heç şübhələnməsin, amma Qara Yuluq Osman onu da bilirdi ki, Əhmədin qoçaqlığı, orduda nüfuzu Qazi Bürhanəddində elə əvvəllərdən narahatlıq yaratmışdı. İşin sonrakı mərhələsi ora gətirib çıxardı ki, Qazi Bürhanəddin görəndə ki, Əhməd onun qızının aşiqidir, bu, onun bütün inamını dağıtdı. Artıq Qaziyə elə gəlirdi ki, qoçaq, igid bacısı oğlu – orduda ayrıca nüfuzu olan bacısı oğlu tezliklə onun səltənətinə sahib çıxacaq. Bunun qarşısını almağın bircə yolu vardı. Bu da ondan ibarət idi ki, Əhməd onun qızı Gülçöhrəni sevməkdən imtina eləsin, çəkilib getsin. Qazi bu barədə üstüörtülü, üstüaçıq xəbərdarlıqlar eləmişdi.

Ancaq görmüşdü ki, nə Gülçöhrə, nə də Əhməd bu sevdadan əl çəkəsi deyil. Hətta Qazinin ağlına təhlükəli fikir gəlmişdi, qızını səbəb göstərmədən zəhərləyib aradan götürsün. Təki ara sakitləşsin, Əhməd onun ordusunda döyüşməkdən imtina eləməsin. Qolunun gücünü əsirgəməsin. Uzun çək-çevirdən sonra yeganə, onu sevən qızının həyatdan vaxtsız köçməsinə, bir sözlə,

ata fitvası ilə öldürülməsinə hökm verə bilməmişdi. Axı niyə də qızını ölümə məhkum edəydi? Qoy ölümə məhkum qızını yoldan çıxaran və gələcəkdə səltənətə birbaşa iddialı ola biləcək kimsənin – bacısı oğlu Əhmədin özü olsun. Arada başqa bir məsələ də Qazinin yaddaşında cövlan eləyirdi, mahiyyəti ondan ibarət idi ki, Gülçöhrəni öldürsə belə, onu səltənətin təhlükəsizliyi naminə aradan götürsə belə, bu mübhəm ölüm məsələsi Əhmədi daha artıq qıcıqlandırar. Onu, bəlkə də, daha betər əməllərə sövq edər. Əhməd Gülçöhrənin ölümünün səbəbini araşdırar və son anda bunun qərəzli hökmün nəticəsi olduğunu öyrənər, ona görə Qazi Bürhanəddinin nəinki özünə, bütün nəslinə qarşı – əlbəttə, yeganə oğluna qarşı, birinci növbədə qərəzli münasibətə sövq edərdi. Əhməd Gülçöhrənin qisasını qılıncının gücünə alardı.

Artıq bu zaman nə dayısı Qazi Bürhanəddin, nə dayısı oğlu, özünün adaşı – onun gözünə görünməzdi. Kimin öldüsü, kimin qaldısı fərq eləməzdi. Çünki bacısı oğlu Əhməd üçün yeganə ideal varlıq onun qızı idi. Əgər Gülçöhrənin vüsalına qovuşmayacaqdısa, onun üçün artıq dünyanın dəyəri olmayacaqdı. O da qəzəb qılıncını çəkəcək, orduda ona güvənən tərəfləri ətrafına yığıcaq və beləliklə, Qazi Bürhanəddinin taxt-tacını başına uçurdacaqdı. Elə ona görə Qazi Bürhanəddin Əhmədi hiylə toruna salmaq, yanına çağırmaq, söhbət əsnasında hisslərini qızışdırmaq istəmişdi. Bununla çalışmışdı ki, Əhmədi halından, təbindən çıxarsın, onun heysiyyətinə toxunsun. Amma görmüşdü ki, yox, bu, asan sındırılası qoz deyil. Axır ki məsələni nə qədər örtülü saxlamaq istəsə də, Əhməd dairədən çıxa bilmişdi. Özü də ətrafındakı qüvvə ilə.

Qara Yuluq Osman dayısı ilə üzbəüz danışdıqlarının hamısını indi Əhmədlə qabaq-qənşər dayananda xəyalından keçirirdi. Arabir Əhmədin də qırımına baxırdı. Dayısının da dediklərini yaddaşına gətirirdi. Əhməd çaxışından qığılcım törəyən çaxmaqdaşı kimi parıldayırdı. Və bununla Qara Yuluq Osman oxuyurdu

ki, deyəsən, bu həna o hənadan deyil. Və onun özünün ürəyində bir şübhə baş qaldırırdı. Əgər Əhmədi yola gətirib apara bilsə, Vətənə dayaq ola biləcək belə bir oğulu odun ağzına atmazdımı? Hələ indiyədək yaddaşında çözmədiyi bir əhvalat da indi gəlib canlı olaraq gözlərinin qabağında dayanmışdı.

– Biz Qazi Bürhanəddinin əsgəriyik, – bunu Qara Yuluq Osman demişdi.

– Yox, Qara, biz vətənin əsgəriyik, – bunu da Qara Yuluq Osmanın ağzından söz çıxar-çıxmaz xalası oğlu, Qazi Bürhanəddinin bacısı oğlu Əhməd demişdi. Özü də gözünü qırpmadan. Başqalarının Qazi Bürhanəddini özləri üçün qiblə hesab elədiyi bir dövrdə.

– Mən səninlə razıyam, Əhməd, amma unutma ki, Qazi Bürhanəddin özü də vətənin rəmzidir.

– Çox doğrudur, Qara, – Əhməd təsdiq eləmiş, sonra da demişdi: – Sən unutma ki, vətən əbədi qalır, rəmzlər isə zaman-zaman dəyişir, pozulur, əhəmiyyətini itirir.

Qara Yuluq Osman xalası oğlu Əhmədin dəmir məntiqə güclü dayanıqlı amala sahib olmağından qürurlandı, özünü o yerə qoymadı.

– Hökmdarlar vətənin timsalıdır. Biz onları vətəni qoruduğumuz kimi qorumalıyıq, – demişdi.

– Doğrudur, igid Qara Yuluq. Nə sən, nə də mən Qazi Bürhanəddinə özgə deyilik və onun əsgərləriyik. Sonanacan da bu yolumuza sadiq olmalıyıq. Ancaq başqa bir məsələ var.

– O hansı məsələdir, – Qara Yuluq Osman Əhmədin sözünü kəsdi.

– Bu da o məsələdir ki, hər hansı bir səbəbdən əgər Qazi Bürhanəddin hakimiyyətdən kənarda qalsa, lap elə Allahın iradəsi ilə yıxılıb ölsə, biz bu məmləkəti başsız qoyub qaçası deyilik ki? Axı burada doğulmuşuk, burada böyümüşük. Yəni, bizim üçün Qazi Bürhanəddindən əzəl vətənin özüdür, vahid məmləkətdir.

Qara Yuluq Osman xalası oğlu Əhmədin belə dərin idrakına, inamına, Vətənə sədaqətinə heyran olmuşdu. Ürəyindən isə gizlin keçirmişdi ki, belə düşünmək bir tərəfə, hətta onu ağlına gətirmək, danışmaq nə qədər təhlükəlidir. Əhmədin danışığından belə çıxırdı ki, o, yaxşıca başa düşür hökmdarlar gəldi-gedərdi. Yəni Qazi Bürhanəddinlər bu gün sabahlıqdır, əbədi olan vətən torpaqlarıdır. Əgər varislərin gücü-qüdrəti olsa, yurd yerini elə qoruyar, hökmdarların müvəqqəti idarəçiliyi vətən üçün təhlükəyə çevrilməz. Yəni vətən gələcək nəsillər üçün də məskən olar. Yadellilər üstünə ayaq açmaz.

Qara Yuluq Osman xalası oğlu Əhmədin danışığına məəttəl qalmışdı. O, haradan, hansı səbəbdən belə cəsarətli, qüdrətli olmuşdu? Və birdən-birə Qara Yuluq Osman xalası oğlu Əhmədə qibtə ilə baxmağa başladı. Başa düşdü ki, xalası oğlunun ürəyində elə bir eşq çağlayır, məhz bu məhəbbət ona belə güc, qüdrət verib. Qara Yuluq Osman bir anlığa onu dünyanın ən xoşbəxt adamı kimi gördü. Öz-özünə düşündü ki, xalası oğlu Əhməd nə qədər bəxtəvərdir.

Hakimiyyət, cah-cəlal, daş-qaş, sərvət insanı bu dünyaya bağlayacaq maddi nə varsa, gözlərində heç nədir. Və bu zaman Qara Yuluq Osman Əhmədlə özü arasındakı fərqi gördü. Gücündə, qüdrətində tapındığı azacıq da olsa, silah tutan adamlarda yox, inamında, həqiqəti sabitqədəmliyində… bütün bunlar həmin vaxt Əhmədə onun gözlərində yenilməzlik bəxş eləyirdi. Amma ürəyində başqa bir hiss bu hadisələrin axarı beləcə sakit keçib gedə bilməz – söyləyirdi. Bu işlərin axırı fəlakətə, edama doğru gedir. Qara Yuluq dinib-danışmamış və bir xeyli sonra Əhmədi sakitliyə, təmkinli olmağa çağırmışdı. İnsafən, Əhməd dediklərindən kənara çıxmaq istəməmiş, məsləhətlərini qulaqardına vurmamışdı. Bacardığı qədər Gülçöhrədən uzaq dolanmış, ismarıclar eləmişdi ki, səbirlə gözləsin, dözsün. Bu hadisələrin nə ilə qurtaracağını, hansı axara düşəcəyini hələ nə o, nə də başqaları

bilmir. Çox çətinliklə ətrafdakıların min bir gözlə izlədikləri zamanlarda belə gənclər sevgilərini qorumağa çalışmışdı.

Amma dəxli yox idi. Hadisələr kəskinləşməyə sarı gedirdi. Qazi Bürhanəddin birbaşa fitva verməsə də, baş əyanın əlilə Əhmədi aradan götürməyə çalışmış və buna nail olmamışdı. Axır ki, üzbəüz toqquşmadan sonra Əhməd onu ələ keçirməyə cəhd göstərən fərraşların arasından sifişə bilmişdi.

… Qara Yuluq Osman ona görə gəlmişdi ki, Əhmədi geriyə qaytarsın. Əhmədi çağırmaqda Qazi Bürhanəddinin iki niyyəti var idi. Birincisi o idi ki, Əhmədin inandığı Qara Yuluq Osmanın vasitəsilə Əhmədi geri qaytarmaqla onun parçalayıb apardığı qüvvələri yerində oturtsun. Onlara ümumi əfv versin və ordunun həmin güclü bacarıqlı dəstəsi yenidən Qazi Bürhanəddinin ordusunda xidmətini davam etdirsin. İkinci niyyəti isə ondan ibarət idi ki, Qazinin özünün bildiyi kimi Əhməd vədlə-filanla qayıtmayacaqdı, ancaq onu Qara Yuluq Osmanla – ilanı seyid əhmədin əlilə tutmaq mümkün ola bilərdi. Çünki Əhmədlə Qara Yuluq Osman arasındakı dostluğun, sadiqliyin kökü dərinlikdə idi. Onlar qohumluqlardan savayı, bir yerdə böyümüşdülər. Qanlı-qadalı döyüşlərdən çıxmışdılar. Nə qədər örtülü olsa da, Qazi Bürhanəddinin axırıncı ov əməliyyatından bəzi epizodik məsələlər gəlib çatmışdı. Hiss eləmişdi ki, baş əyanın danışdığı uzun sicilləmələrin fonunda Əhmədin sağ-salamat qalmasının səbəbi elə Qara Yuluq Osmanın özüdür.

Qara Yuluq Osman Əhmədin yanına təkidlə göndərilməsində hər kəsin niyyəti vardı. Osman çalışırdı, dayısını razı salmaqla Əhmədi ölümün pəncəsindən xilas eləsin. Və ən başlıcası, Əhmədin gücünə, sədaqətinə güvənərək, ordunu möhkəmləndirsin. Qazi Bürhanəddindən sonra özünün və xalası oğlu Əhmədin həmyaşıdı olan dayısı oğlu Elməddin Əli Çələbini hakimiyyətə ləyaqətlə gətirsin. Başlıcası, baş əyanı onun bütün kələkbaz tərəfdarları ilə birlikdə hakimiyyətdən kənarlaşdırsın.

Qazinin oğlu Əhmədin vasitəsilə Qazi Bürhanəddinin ədalətli hakimiyyətinin uzunömürlü olmasını təmin etsin.

Qara Yuluq Osman bilirdi, artıq dayısı Qazinin bəsirət gözü bağlanıb. O, yalanı doğrudan, yaxşını pisdən ayırmağı ancaq baş əyanın məsləhətləri ilə ayırır. Bu da artıq zamanını keçirmiş bir dövr idi. Baş əyan heç bir vəchlə nə xalqın xeyrinə, nə də Qazi Bürhanəddinin hakimiyyətinin təhlükəsizliyi naminə iş görmək niyyətində deyildi. Qara Yuluq artıq hiss eləyirdi ki, dayısının hakimiyyətinin nəinki fiziki, həm də mənəvi güc baxımından sonu yaxınlaşır.

Qara Yuluq Osman xalası oğlu Əhmədin gözlərinin içinə dik baxırdı. Və Əhməd də gözlərinin içinə baxan bu igidin neçə dəfələrlə canı bahasına onu qoruduğunu yaddaşına gətirirdi. Gözlərinin qabağına gəlirdi ki, onu ölümdən qoruyan Qara Yuluq Osman ölümündən qorxmur, çəkinmir. İndi Əhməd Qara Yuluq Osmana necə inanmaya bilərdi?

Uzun söz-söhbətdən, danışıqdan, ötüb-keçənləri xatırlamaqdan, baş əyanın nələri törətdiyini yaddaşa gətirdikdən sonra Əhməd üzünü Qara Yuluq Osmana tutdu:

– İndi məndən nə istəyirsən?

– Sənin özünü.

– Bəlkə başımı?

– Yox, başını aparmaq mənim üçün daha asan olardı, – Qara Yuluq Osman dedi. Deyəsən, bu söz Əhmədə xoş gəlmədi.

– Necə yəni asan olardı?

– Çünki səndən başını istəsəydim və mərdi-mərdanə diləyimi desəydim, inanardım ki, sən yox deməzsən…

– Çox doğru, Qara. Əgər mənim başım bir həqiqətə yarıyacaqsa, vətənə kömək edəcəksə və ən başlıcası, mənim Gülçöhrəmi qoruyacaqsa, onda niyə əsirgəyim?

– Çox sağ ol, cavabın da xoşuma gəldi, səmimiyyətin də. Ancaq indi sənin başın yox, özün gərəksən.

– Kimə, Qara? – Əhməd yenə sual elədi. Ancaq sualda bir kinayə var idi. Və hiss elədi ki, bunu onun qarşısında dayanan xalası oğlu Qara Yuluq Osman heç də yaxşı qarşılamadı. Qara Yuluq Osman özü bir qədər kənara çəkildi. Heç Əhməd tərəfə baxmadı. Üzünü gəldiyi tərəfə – məmləkətə tərəf tutdu:

– Sən vətənə gərəksən.

– O vətənə ki, məni və sevgimi məhv edəcək? – Əhməd söylədi.

– Yox, vətən elə sənin və sənin kimilərin sevgilərini qorumaq üçün gərəkdir. – Qara Yuluq Osman asta-asta dilləndi. Heç onun bu sözlərinin Əhmədin eşidib-eşitmədiyinə fikir vermədi.

* * *

Qara Yuluq Osman Əhmədin üzündə özünə qarşı həlim bir münasibət, ən başlıcası, bir inam gördü. Onda Qara Yuluq Osman qəzavü-qədərin nə gətirəcəyini düşünmürdü də. Onun üçün əsas o idi ki, xalası oğlu Əhməd onunla eyni rəyə, fikrə gəlsin. İndi Əhmədlə üz-üzə dayanmışdı. Onun gözündə qəzəb qığılcımları oynayırdı. Elə qəzəb qığılcımları oynayırdı ki, Qara Yuluq Osman bu qəzəbin haradan başladığını, nədən qaynaqlandığını belə heç sonacan dərk eləmirdi. Əsas o idi, onlar üz-üzə dayanmışdılar. Və ən başlıcası, Əhməd yoldan ötən təsadüfi bir adam deyildi, Qazi Bürhanəddinin bacısı oğluydu. Üstəlik, Qazi Bürhanəddinin qızının sevgilisi idi. Birdən əgər Qara Yuluq Osman Qazi Bürhanəddinin istəyinin özünə müğayir hərəkət elədi, onda bunun sonu nəylə nəticələnəcək? Yox, əgər Qazi Bürhanəddinin istəyinə uyğun hərəkət edərsə, onda Əhmədin taleyi kimin ixtiyarında olacaq? Əlbəttə, yenə Qazi Bürhanəddinin. Zamanın həll edəcəyi məsələlər indiki məqamda Qazi Bürhanəddinlə Əhməd arasındakı münasibətdən asılı idi.

– Sən mənimlə getməlisən, – Qara Yuluq Osman Əhmədə üzünü tutub qətiyyətlə dedi.

– Axı nə üçün mən səninlə getməliyəm? – Əhməd dilləndi. – Başımı vermək üçün?

– Mən sənin başını aparmaq üçün gəlməmişəm. Mən sənin özünü aparmaq üçün gəlmişəm. – Qara Yuluq Osman hirslə dilləndi.

– Ancaq elə deyil, əziz xala oğlu, sən, deyəsən, həqiqətən buyruq qulusan.

– Yox, sən səhv eləyirsən, əziz qardaşım. Mən bütün gücümlə insaniyyəti, ləyaqəti və ən başlıcası, inamı, hörməti qorumaq, bərpa etmək istəyirəm.

– İnam sənin nəzərində nədir? – Əhməd soruşdu.

– İnam mənim nəzərimdə insanın insana etibarıdır. İnsanın gələcək yoluna olan açıq qapıdır. – Bunu Qara Yuluq Osman dedi.

– Yaxşı, mən bütün şübhələrimi bir tərəfə atım və sənə inanım? Bunun axırı nə ilə qurtaracaq?

Qara Yuluq Osman ağır sualın cavabından səksəndi fikrə getdi. Həqiqətən də əgər Qazi Bürhanəddin qızı Gülçöhrəni Əhmədə ərə verməyəcəksə, onda bu barışığın hansı faydası ola bilərdi? Amansız həyat ona hansı bəxti, qisməti göstərəcəkdi? – Bunu Əhməd istər-istəməz düşündü. Əsas da o idi ki, bütün olub-keçmişlərin hamısının dalından dəysin. Ondan heç nə soruşan olmasın, ittihama çəkilməsin. Bu, ondan ibarət idi, Əhməd hakimiyyət iddiasında deyildi, vacib olan, qiymətli olan o idi ki, o, öz Gülçöhrəsinə qovuşsun. Sevgilisinə qovuşmaq da Əhməd üçün müşkül məsələydi. Kimsə ona zamin durmalı idi. Kimsə onun mənəvi gücünü, kimliyini, həqiqətə, ləyaqətə arxalanan qüdrətini təsdiq etməliydi. Açığı, bunu təsdiq edəcək bir adam yox idi. Əgər beləsi var idisə, o yeganə sima – elə Qara Yuluq Osmanın özüydi. Buradan çıxan yeganə nəticə, çıxış yolu ondan ibarət idi ki, Qara Yuluq Osman hər iki tərəf üçün etibarlı, sərfəli zamin idi. Qazi Bürhanəddinin bəxti onda kəsə bilərdi, o, Qara Yuluq Osmanın gücünü qəbul edəydi, onun mənəvi bütövlüyünə inam gətirəydi. Hələ bunun heç biri ortada yox idi. Əsas olan o

idi ki, Əhməd geri qayıdaydı, Qazi Bürhanəddinin özünə tabeçilik edəydi. Əhməd üçün nə Qazi Bürhanəddin, nə onun idarə elədiyi məmləkət, nə də bu məmləkətin gələn gəliri, Gülçöhrənin payına düşəcək məbləğ – bütün bunların heç biri onu maraqlandırmırdı.

Əsas o idi ki, Qara Yuluq Osman Əhmədi inandıra bilsin. İnam qazanmaq üçün isə gerçək həyatda baş verənlər daha əsas idi. Buna görə də Əhməd Qara Yuluq Osmanın ona elədiyi təklifə, ona yönəlmiş şirnikləndirici… nə varsa, heç birinə inanmaq istəmirdi. Əhməd asanlıqla tilova düşən balıq deyildi – elə bunu Əhmədin özü də düşünürdü. İş elə gətirmişdi, Qara Yuluq Osman indiki halda gücsüz olmuşdu. Ona görə, daha cəmiyyətdə, insanlar arasında hörmət, izzət itmiş, inam-iman ölmüşdü. İndi Əhməd qabaq-qənşər dayanan xalası oğlu və üstəlik, neçə dəfə onun ölümünün qabağını almış bir insanın səmimiyyətinə inanmır, məsələyə barmaqarası baxırdı. Amma düyünə düşmüş söhbət elə hərlənib-fırlanmışdı, o, bu gedişata inanmaq məcburiyyətində qalmışdı.

Əhməd uşaq deyildi, kifayət qədər siyasi oyunların iştirakçısı olmuşdu. Onların məqsəd və məramlarını qədərincə öz həyatında, taleyində oxuya bilmişdi, indi isə söhbət oyunlardan, siyasi mənafelərdən getmirdi. Əhməd üçün qəribə olan, daha doğrusu, ağıla batan o idi, onu geriyə çağıran qara qüvvələr sevgisinə qovuşmağa etiraz eləmirdilər. Gülçöhrənin sevdasına qovuşmaq… Bu, o demək idi ki, Qazi Bürhanəddin qızının Əhmədlə izdivacına etiraz eləmirdi. Bu da Əhməd üçün dünyanın yarısı demək idi. Əlbəttə, Əhməd düşüncəsinin harasındasa anlayırdı ki, bu hadisələrin axarı münasib məcrada gedə bilməz. Ona görə, o, bütün məmləkətin sahibi Qazi Bürhanəddinin qızının aşiqidir. Məmləkətin hər tərəfində bilirlər, Əhməd ona görə baş götürüb qaçıb ki, Qazi Bürhanəddinin kəndirinə keçməsin. Qazi Bürhanəddinin kəndiri bir tərəfə, Əhmədin daxili aləmində belə bir

hiss baş qaldırmışdı, adına kənardan baxan ağıl sahibləri ancaq inam deyə bilərdi. Bəli, indi yalnız bircə hiss Əhmədin qəlbinə hakim kəsilmişdi. Nə olsun, geri qayıdar, arada qara-qorxu var. Bəlkə Gülçöhrənin vüsalına qovuşdu? Bəlkə, Gülçöhrənin vüsalına qovuşmağa qədər onun keçdiyi yol özü bir ağıl, mərifət, sevgi yolunda fədakarlıq kimi təqdir olundu? Doğrudan da, Qazi Bürhanəddin ədalətli bir hakim kimi bu dünyanın özündə tanınan bir simaydı. Əgər idarəetməyə beledirsə, ədalətinə güvənən bir hökmdar qızının azad sevgisinə nə üçün sipər olmalıydı? Onda nə üçün Əhməd gəlib onun qızı Gülçöhrə ilə bir sevdanın əsl vüsalına qovuşmasın?

...Bütün bunların hamısı xəyal idi. Əsl həqiqət ondan ibarət idi ki, Əhməd Qazi Bürhanəddinin birbaşa hakimiyyətinə etiraz eləmişdi. Artıq dəxli yox idi, bu hakimiyyətə etiraz sevgiyə aiddi, yoxsa, birbaşa idarəetməyə. Əgər bir ağıl sahibi, idrakı olan kimsə olsaydı və əgər həmin kimsə bu salnaməni yazanın özündən belə soruşsaydı ki, bu işlərin axırı necə qurtaracaq, onda cavab verməyin özü müşkülə çevrilərdi.

Dolaşıq, qarmaqarışıq fikir və mülahizələr Əhmədi yorub əldən salırdı. O, hansı tərəfə yön tutacağını aydınlaşdıra bilmirdi. Özünün daxili aləmi ilə vuruşurdu. Kimin yaxşı, kimin pis olması, kimin ömrünü harada qurtarması işin xeyrinədir, kimin hələ yaşaması işin ziyanına?.. Bunları özü üçün aydınlaşdıra bilmirdi. İş o yerə gəlib çatırdı, istəyirdi yubanmadan qəti və aydın qəzaya gəlsin. Bu qəti və aydın qərar demək onun özünün ömrü, taleyi demək idi. Əlbəttə, geridə qalanların hamısı cəhənnəmə olsun. Təki üzünə açılan bağlı qapı onu Gülçöhrəyə qovuşdursun. Gülçöhrəyə qovuşmağın da yolu deyəsən, Qara Yuluq Osmanın təklifindən keçirdi. İndi Əhməd neyləsin? Əhməd gücünü, iradəsini səfərbər eləsin, Qazi Bürhanəddindən gələn təhlükədən özünü qorusun, yoxsa, bu təklifin mahiyyətinə varmadan Qazidən gəldiyi üçün qəbul eləsin. Yəni, Qazi Bürhanəddin bütün hallar-

da olub-keçənləri bağışlayar. Ən başlıcası, bağışlamaqdan başqa Qazi Bürhanəddinin bacısı oğlu Əhmədi də özünə kürəkən hesab eləyər.

Əhmədin Qara Yuluq Osmanın danışığından sonra gözləri az qala kəlləsinə çıxmışdı. Necə ola bilərdi ki, bu güc, qüdrət sahibi onun özünü də belə hörmət-izzətlə qəbul eləsin, geriyə çağırsın. Belə çıxırdı ki, Qazi Bürhanəddin Əhməd kimi qüdrətli bir sərkərdəni, ordunun rəhbəri olmaq gücündə bir simanın qayıdışına razıdır. Təkcə razı olmaq yox, burada daha başqa məsələlər də görünürdü. Guya ölkəni idarə etmək Qazi Bürhanəddin üçün Əhmədsiz mümkün deyil.

Qara Yuluq Osman xalası oğlu Əhmədin onunla cəhlləşib-cəhlləşmədiyinin fərqinə varmırdı. Ona görə, son nəticədə Əhmədi inandırıb özüylə aparmalı idi. Və bunun üçün Qazi Bürhanəddinə söz vermişdi. Bu rəyin mahiyyəti «sən öl» andı ilə dayısını inandırmağındaydı. Əslində, Qara Yuluq Osman heç cür bu mürəkkəb məsələnin ardınca getmək istəmirdi. Çünki burada bir inamsızlıq, siyasi fırıldaq əsas işin kökündə qeyri-səmimilik görürdü. Bu da Qara Yuluq Osmanı əsəbiləşdirirdi. Axı o, nə üçün xeyrə olmayan, insanlara sevinc gətirməyən bir məsələnin dalınca getməliydi? Bunu Qara Yuluq Osman arzulamırdı. İstəmədiyinə görə çox işlər nəticəsinə çatmaqda ləngiyirdi. Bu ləngimənin bir kökü də Qara Yuluq Osmanın öz fikir və düşüncələrini Qazi Bürhanəddinə açıq-aşkar deməməsilə bağlı idi. Əgər Qara Yuluq Osman vaxtında dayısı Qazi Bürhanəddinə demiş olsaydı ki, sən gəl, bacın oğlu Əhmədlə qızının arasındakı izdivaca razı ol, bəlkə də, onda Qazi Bürhanəddin heç etiraz eləməzdi. Amma bu elə bir məsələ idi, Qazi Bürhanəddin təkcə bacısı oğlunun, yəni qızının sevdasına düşmüş Əhmədin ölümünə fitva verməzdi, bəlkə elə həmin gün Qara Yuluq Osmanın da adını məxfi, ya aşkar qara siyahıya yazardı. Qazi Bürhanəddin üçün ölüm, hökm son andakı insani düşüncələr… bütün bunlar heç nəydi, adi şeylərdi.

Qazi Bürhanəddin çox istəyirdi bacısı oğlu Əhməd qaytarılıb qənşərinə gətirilsin. Və o da Əhmədə üzünü tutub desin ki, mən səni qızımı sevdiyinə görə yox, sənin içindəki hakimiyyət ehtiraslarına görə çağırmışam. Görək onda Əhməd nə deyərdi?

Əsas o idi, hələ nə Əhməd qayıtmışdı, nə də Qazi Bürhanəddin onu üzbəüz mühakimə eləyirdi.

…Hələ Əhməd Qazi Bürhanəddinlə qarşılaşmazdan əvvəl qala arxasında Qara Yuluq Osmanla üz-üzə idi.

– Gəl gedək, Əhməd xalaoğlu.

– Yox, gedə bilmərəm, Qara Yuluq Osman.

– Axı niyə, mənə inanmırsan?

– Mən sənə bütün varlığımla inanıram, Qara Yuluq Osman.

– Bəs onda niyə getmək istəmirsən?

– Çünki sən özün də qurbansan.

– Necə yəni qurbanam, Əhməd? – bunu Qara Yuluq Osman dedi.

– Ona görə ki, sən inam-əqidə adamı olduğun üçün kifayət qədər inanmısan, boş və mənasız andlara, qəsəmlərə. Sən gərək bütün andların, məramların nəyə xidmət elədiyini indiyəcən görə biləydin. Bax, sən bunu görə bilməmisən. Sən inanma ki, mən səninlə birgə o meydana – insandan canını, cəsədini istəyəcək meydana gedəcəyəm.

Qara Yuluq Osman xalası oğlu Əhmədin cəsarətinə, qüdrətinə heyran qalmışdı. Öz-özünə heyrət edirdi, bu necə cəsarətdi? O, heç kimsəyə qulaq asmadan, heç kimsənin rəyini eşitmədən ondan çıxış yolu istəyir. Əlbəttə, Qara Yuluq Osmanın özü yol göstərmək üçün gəlmişdi. O, qətiyyən Əhmədi məcburən əsir eləyib aparmaq üçün yox, onu qoluqandallı yesir vəziyyətinə salmaq üçün gəlməmişdi. Əhmədi inandırıb aparmaq üçün gəlmişdi. Çalışmışdı ki, həm dayısı Qazini inandırsın, qızı Gülçöhrəni Əhmədə verməli olmasa belə, Əhmədin qayıdışı məmləkətin xeyrinədir. Əlbəttə, Qara Yuluq Osmanın da bilmədiyi məsələlər çox idi. Bu

məsələlərin ucuzluğuna getmək üçün də vaxt qalmamışdı. Əsas o idi bu qəzavü-qədərin hamısının üstündən keçib Gülçöhrəyə tərəf yön ala biləydi. Əhməd ancaq bunu düşünürdü və Qara Yuluq Osmanın gəlişindən də belə bir işığı açıq-aşkar görürdü. Doğrudan da, daha onun Gülçöhrəyə doğru yolu necə mümkün olardı?

Qara Yuluq Osman Əhmədin Qazi Bürhanəddinin məmləkətinə doğru bağlı cığırın açmaq istəyirdi. Əhməd bütün varlığı ilə hiss eləyirdi ki, Gülçöhrənin işığı yalnız bu istiqamətdədir.

Əhməd Qara Yuluq Osmandan qeyri Gülçöhrəyə qovuşmaq yolu tapmırdı.

…Sevgiyə doğru aparan yol isə daha üstün, uca, müqəddəs idi.

* * *

…Yolboyu dinib-danışmamışdılar. Elə bil yorğun-arğın adi səfərdən, ya elə ovdan qayıdırdılar. Doğrudur, hərdən tanış yerlərdən keçəndə xatirələr, olub-keçmişlər, yaddaşda yaşayan duyğular oyanır, onları danışdırmaq istəyir, ancaq yenə hər kəs tezliklə daxili aləminə qapılırdı. Qara Yuluq Osman nə qədər Əhmədi inandırmış olsa da, öz içində çəkdiyini bilirdi. Çünki, o son anda dayısı – hökmdar Qazi Bürhanəddinlə üz-göz olub ayrılanda onun gözlərində parıldayan hiyləni sezmişdi, bütün bunlara baxmayaraq, Qazinin ciddi-cəhdlə onu inandırmaq niyyəti baş tutmuşdu. Və varlığına hakim kəsilən şübhələri, qara-qorxunu qovub dağıtmışdı. Qara Yuluq Osmanı təkcə Əhmədin canı üçün yaranmış təhlükə deyil, bütövlükdə, bu əməlin pis sonluğu bərk qorxudurdu. Çünki Qara Yuluq Osman Qazi Bürhanəddinin yalnız hakimiyyət qorxusu ilə bağlı olaraq bacısı oğlu Əhmədə düşmən kəsildiyini bilirdi. Onu da bilirdi, heç Qazinin oğlu Elməddin Əli Çələbi gələcəkdə hakimiyyəti qoruyub-saxlamaq iqtidarında deyil. Elə bu səbəbdən hakimiyyətə – xüsusən də oğlunun idarə edəcək gələcək dövlətinə rəqib görmək Qazini dindən-imandan çıxarmışdı. Çünki bacısı oğlu onun qızıyla eşq sevdasına düşmüş-

dü. Əgər bu sevda baş tutsaydı, onda Əhmədin saraya yolu açılırdı. Saray isə dədə-babadan bəri həmişə şər-şeytan yuvası olub. Şübhəsiz, sarayın öz içindən elə qüvvələr çıxacaqdı ki, onlar Qazinin kürəkəni Əhmədi müdafiə edəcəkdilər. Və bu əməllərində xəyanət görməyəcəkdilər. Əlbəttə, əgər Əhməd Qazinin kürəkəni olacaqdısa.

Öz oğlu Elməddin Əli Çələbi isə onsuz da siyasətə meyilli deyildi. Saray daxilindəki siyasi güc mənbələrini nəzərdən buraxacaq, onlar da Qazinin mağmın övladını asanlıqla aradan götürəcəkdilər. Bu da gəlib son nəticədə Qazinin varlığını didən təhlükənin baş qaldırmasına səbəb olacaqdı. Qazi də elə bu səbəbdən bütün varlığıyla çalışırdı, təhlükəni oğlunun taleyindən sovuşdura bilsin. Mümkün idi, heç Əhmədin öz qayını olacaq Elməddin Əli Çələbiyə xəyanət eləmək fikri olmasın. Ancaq hökmdar sarayındakı insan cildində olan yırtıcılar onu rahat buraxmayacaq, öz mənafelərinə uyğun yol getməyə məcbur edəcəkdilər. Əhməd istəsə də, istəməsə də onların buyurduğu yolu seçməli olacaqdı.

Hələ Qazi Bürhanəddin Qara Yuluq Osmanı Əhmədin arxasınca göndərməmişdən qabaq və Qara Yuluq Osmana Əhmədin təhlükəsizliyi üçün təminata söz verməmişdən əvvəl və elə sonra qəti bir fikirdə qalmışdı. Yox, Əhmədin yetmiş yeddi canı olsa da, o, yerin təkinə ensə də, göyün axırıncı qatına qalxmış olsa da, tapılıb öldürülməlidi. Təcrübəsindən bilirdi ki, Əhmədi müharibəyə çəkmədən, ölkəni parçalanmaq təhlükəsi qarşısında qoymadan yalnız bircə nəfər – Qara Yuluq Osman qaytarıb gətirə bilər. Bu inadkar, dəlisov oğlan başqa heç kimə inam bağlayıb Qazi Bürhanəddinin hüzuruna ürək edib qayıtmazdı.

O biri tərəfdən, Qara Yuluq Osmanın da qəlbindən qara qanlar axırdı. Əhməd ona inanıb geri qayıdırdı. Çox keçməyəcəkdi ki, o, Qazinin hüzurunda olacaqdı. Qazi də hansı qərarı qəbul edəcəkdi – baxmayaraq ki, Qara Yuluq Osmana söz vermişdi – bu da hələ şübhəli idi. Və bu şübhələr geri qayıtdıqları yolboyu Qara Yuluq

Osmana rahatlıq vermidi. Deyəsən, o, artıq duymağa başlamışdı ki, xalası oğlunu hökmdarın hüzuruna aparmaqla ölümün çənginə sürükləyir. Doğrudur, Əhməd lap iki dünya bir olsaydı, təzədən Qazinin hüzuruna qayıtmaz, Qazidən onu əfv etməyi diləməzdi. Sadəcə, o, bu qayıdışı sevgilisi ilə görüş və ya ona qovuşmaq üçün sonuncu imkan hesab eləyirdi. Əgər bu imkan baş tutmasaydı, onda Gülçöhrə ilə görüşü qiyamətə qalacaqdı. Belə olan təqdirdə Əhməd üçün özünün cismani varlığı dəyərini itirmiş olurdu. Necə olursa-olsun, Əhməd üçün həyatın mahiyyəti öz sevgilisinə qovuşmaq idi. Və elə bu səbəbdən də bir növ Qara Yuluq Osmanla aralarında fikir aydınlığı yaranmış və bir-birinə inanmış, güvənmişdilər.

Qara Yuluq Osman da daxilindən gələn şübhə didişmələrinin sonunu gözləmək məcburiyyətindəydi. Əgər Qazi Əhmədi bağışlamayıb, onun boynunu vurdursa, onda Qara Yuluq Osmanın da nə məmləkətdə, nə də ordu içində bir nüfuzu qalmayacaqdı, o, hörmətdən düşəcək, bir igidi namərdcəsinə aldadıb, gətirib tora salmış yalançı kimi tanınacaqdı. Bu da Qara Yuluq Osmanın özünün Əhməddən qabaq ölümü demək idi. O, düşünürdü ki, Əhmədin ölümünə heç cür yol vermək olmaz. Bəs necə, nə cür? Əgər Qazinin Əhmədi xaincəsinə öldürmək planı olsa, bunun qarşısını necə almaq, mümkün idimi? Hələlik Qara Yuluq Osman üçün bu, aydın deyildi. Amma qılıncının gücünə olsa belə Əhmədi ölümdən xilas etmək onun borcu, özü də məhz ləyaqətini qorumaq baxımından borcuydu. Əgər Əhmədin ölümünün qarşını ala bilməsəydi, Qara Yuluq Osmanın bütün qohum-əqrəbası da, Əhmədin nəsli də ona qarşı çıxacaqdı. Və bunun özü də Qara Yuluq Osmanın sonrakı soyuna yaxşı heç nə vəd eləmirdi. O, başa düşürdü ki, Əhmədin ölümü ilə özündən sonrakı nəslə, övladlarına, nəvələrinə, nəticələrinə bitib-tükənməyən düşmənçilik miras qoya bilər. Bu düşmənçiliyin harayacan gedəcəyi məlum deyildisə, aydın tərəfləri də var idi. Yəni Qara Yuluq Osmanın

nəslindən kim baş tərpədəcəkdisə, o, hansısa bir qonaqlıqda zəhərlənəcək, yaxud bir döyüşdə arxadan oxlanacaq, haradasa pusquya düşəcək, məhv ediləcəkdi. İndi Qara Yuluq Osman düşünürdü ki, qılıncının daşı böldüyü bir zamanda nəslinin yaşayışını təmin edəcək bir varidat toplamayıb. Əvəzində o, elə bir miras qoyub gedəcək ki, bunun zərərini zaman-zaman bütün nəsil-nəcabəti daşıyacaqdı. Bu da o demək idi, ağlı başında olan insan gərək bu yolu getməsin. Bax, bütün bunlar onun varlığını sarsıdır, gen dünyanı başına dar eləyirdi. Bir anda Qazinin sarayına, oradan üzü geriyə, lap elə atların yanaşı yeridiyi özlərinin sükuta qərq olduğu bu yol üstünə qayıdıb gəlirdi.

Birdən Qara Yuluq Osmana elə gəldi, bu dünyada dəyəri olan bircə günəşdir. Çünki onun işığı var. İşığını yer üzünə bərabər yayır. Yer üzünü nura qərq edir, bu işığın altında insan çox vaxt öz məkrlərini, hiylələrini gizləyə bilmir. O işığın altında ifşa olunacağından ehtiyatlanıb, nə qədər bəd əməldən çəkinir. İndi də hələlik günəşin göydə sönmədiyindən məmnun qalan Qara Yuluq Osman gözaltı xalası oğluna nəzər saldı. Onun nə qədər dərin fikrə qərq olduğunu gördü. Və onu da hiss elədi ki, Əhmədin çöhrəsində heç cüzi də olsun ölüm qorxusu yoxdur. Ölüm Əhməd üçün dəyəri olmayan bir hissə çevrilmişdi. İndi onu yalnız bircə duyğu çulğamışdı. Lap uzaqdan-uzağa olsa da, sevgilisini görə biləcəkdi. Dilsiz baxışlarla danışacaqdı. Bilirdi, lap dünya dağılsa da, Gülçöhrə haradansa yol tapıb Əhmədlə danışmaq istəyəcəkdi. Əlbəttə, əgər Tanrı onların bəxtinə yar olsaydı, onda insanlığın adına yaraşan nə vardısa, hamısı Qazi Bürhanəddinin timsalında görünəcəkdi. Elə Əhmədin də, Gülçöhrənin də xoşbəxtliyi üçün, bir-birinə qovuşması üçün Qara Yuluq Osmanın da az iş görmədiyini Əhməd düşünürdü. Və öz aləmində xalası oğluna böyük minnətdarlıq hissi ilə gələcəkdə bunun əvəzini necə çıxacağını demək üçün vaxt, məqam gözləyirdi. Onsuz Qara Yuluq Osman da, Əhməd də ayrı-ayrı dönəmlərdə bir-birlərini ölümün pəncəsindən az qurtar-

mamışdılar. Yaşamağın mənası da, bəlkə elə bundaydı. İnsanlar olub-keçənləri unutmurlar. Hər şeyi yaddaşlarının saxlancına yığır, yeri gəldikcə onu xatırlayırlar. Məmnun qaldıqları xatirədən mənən güc alırlar.

Bəlkə, insanın olub-keçənləri yaddaşında saxlamaq gücü olmasaydı, həyat da belə nizamında qalmazdı. İnsan vəhşiyə dönər, biri digərini parçalamağa hazır yırtıcılar kimi göz-gözə yatardılar. Heç onlar su çəkməz, yurd salmaz, yer əkməz, ağac basdırmazdılar. Axı, Adəm övladının əməli onun hörməti-izzət sahibi olması üçün əsasdır. Bir adamın fəaliyyətinə baxıb ona qiymət verər, kimliyini təsdiq edərlər. Ona görə də insanlığın adına yaraşan yaxşı əməllər gərək heç vaxt unudulmasın. Qara Yuluq Osman indiyə qədər məmləkətin əmin-amanlığı naminə çox düşmənlərlə qarşı-qarşıya gəlmiş, gücünü göstərmiş, kimliyini anlatmışdı. Çox təəssüf vəziyyət elə bir məqama çatmışdı ki, onun özünün də olumu və ya ölümü sual altındaydı. Qara Yuluq Osman Allaha yalvarırdı ki, bütün nəslinin taleyini təhlükə altında qoyacaq bu əməlinin sonluğu xeyrə calanaydı, müsbət qurtaraydı. O, bilirdi ki, artıq iş-işdən keçmiş, necə deyərlər, söz ağzından çıxmışdı. Və o da artıq dilindən qopan sözünün quluna çevrilmişdi. İndi məmləkətdə Əhmədin öz qohumları, xətirini istəyənlər sevinirdilər ki, Qara Yuluq Osmanın sayəsində Əhmədlə Qazi Bürhanəddin arasındakı münaqişə qansız-qadasız sovuşacaq. Hətta Əhmədlə ayrılıb getmiş hərbi qüvvələr yenidən geri qayıtmaqla, əslində, mənasız cəngi-cidaldan qurtulacaqlar. Bir növ, Qara Yuluq Osmanın gücü, cəsarəti ilə Əhmədin qaytarılıb təzədən divana gətirilməsi ağın qaradan, yaxşının pisdən ayrılması demək idi. Bu, həm də məmləkətin özünün gələcək taleyində mühüm əhəmiyyət kəsb edəcəkdi. Onsuz da müxtəlif tərəflərdən məmləkəti hədələyən xarici qüvvələr az deyildi. Və onların bir çoxu Əhmədin hansı gücdə yenilməz qəhrəman olduğunu dərk edirdilər. Əslində, Qazi Bürhanəddin özü də yaxşı bilirdi ki, əgər Əhmədin hakimiyyət

üçün oğluna rəqib təhlükəsi olmasaydı, heç Əhmədin başından bir tükün də əskilməsinə razılıq verməzdi. Çoxları ona, elə Şeyx Məhyəddinin özü də məsləhət görmüşdü ki, qızı Gülçöhrəni Əhmədə verməyin saraya da, məmləkətin təhlükəsizliyinə də çox böyük təsiri olar. Artıq xarici qonşu düşmən ölkələrdə Əhmədin hərbçi kimi məharətə malik olduğunu bildiklərindən Qazi ilə qarşılaşmaqdan çəkinirdilər. Belə olmayacaq təqdirdə hərə bir tərəfdən məmləkətin üzərinə dişini qıcayacaqdı. Bəlkə az müddət ərzində birləşmiş qüvvələr Qazi Bürhanəddinin üzərinə yeriyəcək, onu doğulduğu günə də peşman edəcəkdilər. Qazi isə bütün bunları gözlərinin qabağına gətirsə belə onların hamısından ən betər təhlükə kimi yalnız Əhmədi görürdü. Və hətta onun ağlına gəlirdi ki, Əhmədi səssiz-küysüz geriyə qaytarmaq naminə Gülçöhrəni aradan götürsün. Doğrudur, Qazi bu hissi qəlbinə yaxın qoymamışdı. Sözarası belə bir yolun olduğunu ağlına baş əyan salmışdı. Hər halda, Qazinin düşüncəsinə bu məsələ daxil olmuş, bu hissi özündən qovanacan iztirab da çəkmişdi. Bəlkə neçə gecə yatmamışdı. Yuxusu ərşə çəkilmişdi. Az qala Allahdan ölüm diləmək, dünyaya əlvida söyləməyi indiki yaşamından üstün tutmaq istəmişdi. Həyatının axarı onu gətirib elə bir tərəfə çıxarmışdı ki, oğlunun hakimiyyətini və qızının taleyini qorumağı daha üstün saymışdı.

…Yadına düşdü, qızının təzəcə dil açdığı və güclə ayaq üstə dayanan, addımlayan şirin çağları. Sonra onun necə sürətlə boy atdığını, dilli-dilavər qız olduğunu…

– Nə istəyirsən, qızım?

– Çoxlu şeylər istəyirəm.

– Hər nə istəsən, hamısını sənin üçün alaram.

Qız qollarını açıb ətrafı göstərmişdi.

– Bütün bu görünənin hamısını verərsən?

– Niyə vermirəm ki, qızım, hamısı mənim əlimdədi.

– Onda günəşi ver mənim olsun, – Gülçöhrə demişdi.

Qazi doyunca gülmüş, sonra da qızının boyunu qucaqlayıb, bağrına basmış, əzizləmişdi.

– Yaxşı, böyü, boya-başa çat. Günəşi sənin üçün alaram.

– Necə böyüyüm, yəni anam kimi olum?

Hökmdar yenə gülmüşdü. Ancaq başını razılıqla tərpətmişdi.

– Hə, hə, anan kimi.

– Onda günəşi mənim üçün gətirəcəksən? Mən anam kimi olanda mənim öz günəşim olacaq?

– Əlbəttə, olacaq, qızım. – Qazi şeytan qızcığazın saçlarına sığal çəkmişdi.

* * *

İndi o vaxtdan illər keçmişdi. Qızı böyüyüb boya-başa çatmış, ərgən olmuşdu. Bu əhvalatın xatırlanması deyəsən, Qazini utandırdı, bütün varlığı ilə özünü sanki ona baxan günəşdən gizlətmək istədi. Çünki günəş hökmdarın saxtakarlığına gülürdü. Günəş onu vədinə əməl etməməkdə, yalançılıqda qınayırdı.

– Bu nə əməldi, nə işdi başıma gəldi? – Qazi düşündü. Bir vaxt mən qızıma göydəki günəşi gətirib verməyi vəd eləmişdim. Amma nə sirdisə, ona sevgisinə qovuşmağa belə imkan vermirəm. Gör iş nə yerə gəlib çatıb ki, göydəki günəş belə mənə istehza eləyir. Mən o günəşdən utanmağımın ucbatından üzü göyə tərəf baxa bilmirəm. Bircə, tez gəlsəydi. Bir bəhanə ilə Əhmədi məmləkətin bəlası olmaq təhlükəsindən uzaq salsaydım, daha bu dünyada özgə dərdim olmazdı.

Birdən Qaziyə elə gəldi, indicə Gülçöhrə qapını açıb içəri girəcək. Ondan vaxtilə dediyi sözünə əməl etməyi tələb edəcək. Hə, təki olsun. O, günəşi istəsin, Əhmədi yox. Ancaq qızının necə tərsməzhəb varlıq olduğunu bilirdi. Kifayət qədər qoçaq, hazırcavab Gülçöhrə ona deyəcəkdi ki, günəşi elə Əhməddir, təki Əhmədə toxunmasın, təki Əhmədin başının üstündə təhlükə olmasın. Qazi içində istehzalı-istehzalı güldü. Zahirən onun gülü-

şü görünmürdü: «Eh, ay qızım, sən bilmirsən, heç bu dünyada necə işlər var. Bu dünyanın elə qarmaqarışıqlıqları var ki, bütün müqəddəs hisslər, məhəbbətlər yeddi həndəvərinə belə yaxın gəlməz».

Qazi başını qaldırıb ətrafına baxdı. Və birinci gözünə dəyən qızıl suyuna çəkilmiş taxtı oldu. Birazdan o, bu taxtda əyləşəcək və tacını başına qoyacaq.

…Adamlar vurnuxurdu, hamı bir-birinə dəymişdi. Sevinən də vardı, qəmə-qüssəyə batan da. Əhmədin, Qara Yuluq Osmanın qayıtmağı Qazi Bürhanəddinin daha güclü olmağı deməkdi. Hakimiyyət hərisləri indi ona yaxın gələ bilməyəcəkdilər. Ancaq onlar bilmirdilər ki, Qazini hansı tale gözləyir, Əhmədin qismətinə nə yazılıb, Qara Yuluq Osmanın başına nə gələcək…

Payızqabağı idi. Göyün üzünü bulud almışdı. Sıx qara rəngdə buludlar topa-topa o tərəf – bu tərəfə vurnuxurdular. Hələ fəsil başlamasa da, Diyarbəkir tərəflərin dağları, təpələri bütövlükdə dumana-çiskinə bürünmüşdü. Özü də yoldan keçənin – karvan adamının hamısının təəccübünə səbəb olmuşdu. Hələ heç payız gəlməyib, payızın nəfəsi yetib-yetməmiş, yolu–rizi duman-çən örtmüşdü. Yağış yağacaq, göy guruldayacaq, ildırım çaxacaq, göz yaşı boyda iri damlalar torpağa düşəcək? Axırını da döndərəcək qırova, qara. Hələ ki, bunların heç biri yox idi. Göy üzündə qatı qara buludların bir-birinə tərəf yürüş etməyi, qarışmağı vardı. Hamı üzü göyə tərəf baxırdı. Leysan olacaqdı, dolu yağacaqdı? – bunu bilən yox idi. Əsas görünən o idi, hər kəs göy üzündəki buluda özünün istəyi nöqteyi-nəzərindən qiymət verirdi. Torpağa dən səpən istəyirdi yaxşı yağış yağsın. Yola çıxan istəyirdi, başının üstündə göy guruldamasın, ildırım təhlükə törətməsin…

Bəlkə heç göy guruldamayacaqdı, bəlkə heç təbiət lərzəyə gəlməyəcəkdi. Əsas o idi, dünya məhvərindən çıxmasın. İstər göy guruldasın, istər şimşək çaxsın, istər də dolu yağsın, leysan töksün, bunun həyatın məhvərini dəyişməyə gücü çatmayacaqdı. Ağır

gələn o idi ki, insanlar göyün tutulmağından vahimələnmişdilər. Hər kəs öz evinin, eşiyinin, daxmasının içinə tərəf çəkilmişdi. Kimsənin cınqırı, səsi çıxmırdı və hələ heç kim bilmirdi, bu göyün tutulmasından, qara buludların bir-birinə qarışmasından, dəhşətli ildırımın gurultularından, aramsız çaxan şimşək dilli odlardan sonra nə hadisə baş verəcək. Buna görə olayların axarı hansı istiqamətdə gedəcək – bunun fərqinə varan yox idi. Çünki başının üstündə asimanın təlatümü, kəllə-kəlləyə gələn buludların vurnuxmasını, havanın bağrını, göyün sinəsini yaran şimşəklərin nə demək istədiyini hələ bilən yox idi. Bu, xəbər verdi ki, yuxarıda və ya aşağıda mütləq nəsə gerçəkləşməliydi. Qıraqdan baxana, bir sözlə, vahimənin yaratdığı qorxudan gizlənib örtükdən baxana «sən qorxma, heç bir təhlükə yoxdu» deməyin nə mənası vardı? Buludlar toqquşdu, ya toqquşmadı, yağış yağdı, ya yağmadı, bunun məsələyə nə dəxli? Görünür dəxli var idi. Diyarbəkir tərəflərin təbiəti elə idi ki, gərək yay ötəndən sonra heç olmasa, əkin sahələrinə təbiətin gözünün yaşı çiləneydi. İndi neçə vaxt idi ki, bu ərazilərə, bu tərəflərə yağmur düşmürdü, elə bil ki, Allah-təala asimanın bəsirət gözünü bağlamışdı. Bir damcı yağış düşmür, çat-çat olmuş torpaqdan üz döndərmişdi. Amma insanlar ümidlərini üzməmişdilər, bu payızı gözləyirdilər ki, Allahın dərgahından bir rəhm olacaq, onların yerinə, yurduna da göylərin bərəkəti sayılan yağış düşəcək…

Adamların ağzı göydə idi: – «Ey Ulu Yaradan, neçə vaxtdır ki, bizi yağışa həsrət qoymusan» – bunu ruzusunu yağışdan, Tanrıdan gözləyən insanlar deyirdilər və hələ Allaha yalvarırdılar da. Yəni necə olur-olsun, təki yağmur olsun, yer üzünə bərəkət gəlsin. Yoxsa, Allahın bəndələri bərəkət olmasa, bir-birini didər, parçalayar, yeyər, qənim kəsilər. Əgər Tanrıdan bir əta, yağış olmasa, onda bu insan adlanan məxluqatlar nəyə qadir olduğunu, necə bir insan fiqurunda, insan cildində yırtıcı olduğunu Tanrının özü yetərincə bilər.

…Gün də, zaman da öz axarı ilə keçib getməyindəydi. Əsas o idi, insanlar bu zaman yolunda kimliyini qoruyub saxlaya bilirdi. Ən çətin, ən anlaşılmayan mətləb bu idi.

* * *

Qara Yuluq Osman ağır, dərdli düşüncələr içində çabalayırdı. Gözünü yumurdu, görürdü ki, kimsə nizəni düz onun ürəyinə sancmaqdadır, əlini atıb onu geri qaytarırdı. Qışqırırdı və bu zaman görürdü ki, nə yatmayıb, nə də kimsə onun sinəsinə nizəsini tuşlamayıb. Bir an da keçirdi, görürdü, xalası oğlu Əhməd böyründə dayanıb. Kimsə qılıncı çəkib böyründə dayanan Əhmədin boynunu vurmaq istəyir. Qara Yuluq Osman şimşək kimi qılıncını sıyırır və xalası oğlu Əhmədə tərəf uzanan qara kabusun qarşısını kəsir.

Qara Yuluq Osman görür ki, bu dünya onun düşündüyü kimi deyil. Çünki ətrafdan elə qılınc sıyıran, nizə uzadan şəxslər peyda olur ki, bu, Qara Yuluq Osmanın bildiyinin heç yarısı deyil, özü də Qara Yuluq Osman nə yuxu, nə də həqiqət kimi yox, elə özünün anladığı kimi, birbaşa hiss eləyirdi, dünəndən bəri sarayda onun Əhmədi gətirməsi ilə bağlı bir kimsə heç sevinmir. Başqa bir kimsə bunun əksi olan heç bir söz demir, yəni heç Qazi Bürhanəddin kimi bir simanın bacısı oğlu Əhmədi üsyankarlıqdan qaytarıb, məmləkətə gətirmək, onu hökmdara təslim etmək, ən başlıcası, hədsiz-hesabsız qırğınların qabağını almaq fərəhi sevinci yox idi. Bu, Qara Yuluq Osmanı təəccübləndirirdi. Necə ola bilərdi, insanlar belə böyük bir əməli, ən başlıcası, bir-birinə doğma insanların savaşının qarşısını alacaq Əhməd və Qazi Bürhanəddin savaşının dəyərini səssiz və sükutla qarşılasın?

Qazi Bürhanəddin tərəddüdlər içərisində idi. Bilmirdi, Əhmədi igid və qəhrəman kimi, ən başlıcası, bacısı oğlu, kimsəyə sirr olmayan qızının sevgilisi kimi qarşılasın, yoxsa xəyanətkar kimi? Kimsə səbir gətirdi. Qazi Bürhanəddin dayanıb durdu, bir xeyli

fikirləşdi. Bu səbir ona nə verəcəkdi? Hakimiyyəti, gələcəkdə oğlunun varisliyini, yoxsa, onun gücünün, qüdrətinin təsdiqinimi?..

Bu tək səbir nəyə işarəydi? Bəlkə Qaziyə demək istəyirdi ki, səbir elə, ağlını başına yığ, axı Əhməd sənin bacın oğludur. Əhmədin gücü, qüdrəti sayəsində sənin ordun güc, qüvvə kəsb eləyib. Demək, ağlını başına yığmalısan. Elə düşünməlisən, elə hökm eləməlisən, gələcəkdə məmləkətinə bir xətər, bir zərər dəyməsin. Pis odur ki, sən ən azı istəklərinə qarşı qədərincə mərhəmətli ola bilmirsən…

Qazi Bürhanəddin kimsənin gətirdiyi o tək səbiri beynində, başında vərəvurd elədikcə, aydınlıq tapır, təəccüb eləyirdi ki, bu aydınlığı nə üçün özünün müvəkkilləri, vəzir-vəkilləri ilə məsləhət eləməyib? – fikirləşirdi. Əlbəttə, həmin anlarda onların ünvanına qəzəb püskürürdü: «Axı siz hara baxırsınız? Siz mənim gücümün, qüdrətimin sayəsində kifayət qədər mehriban, yaxşı yaşamaq imkanındasınız, ancaq mənim taleyimin ən gərgin halında heç üzdə də olmursunuz, görünmürsünüz».

Qazi Bürhanəddin, bəlkə də, heç bu qədər fikir dəryasına baş vurmazdı. Həmin tək səbirdən – həmin anda adamların dinmədiyini görüb, sonra ağzına su alıb sözə çevirməyini görmədi, susduğunun şahidi oldu. Bu, Qazi Bürhanəddini əməlli-başlı narahat eləmişdi. Bir az da dəqiq desək, əslində, yormuşdu. Qazi Bürhanəddin asanlıqla süstləşən, hədər yerə heydən düşən adam deyildi. İş o yerə gəlib çatmışdı, Qazi Bürhanəddindən qılıncı sıyırıb, döyüş meydanında hünərini göstərmək tələb olunmurdu. Qazi üçün ölümün qabağında dayanıb, «o mənim qismətimdir» demək daha asan idi, nəinki indi qızının sevgilisi olan, gələcəyinin sahibi olacaq bir kimsənin – bacısı oğlu Əhmədin taleyi haqqında fitva vermək.

Bütün zamanlarda fitva vermək asandır – Qazi Bürhanəddin gözünün önündə fitva vermək səlahiyyəti olan ruhanilərin hamısını sıraladı. Necə asan olacaqdı?.. Bircə kəlməsi bəs idi, o

ruhanilər bacısı oğlu Əhmədin ölümü üçün fitvanın mahiyyətini sözə çevirsinlər.

Hələ ki, Qazi belə bir fitva verməmişdi, amma sarayın ümumi həyətində Qara Yuluq Osman birbaşa hökmdarın tabeliyində olan mühafizəçilərin sıralanmasını gördü. Mühafizəçilər elə sıralanmışdılar ki, Qazi Bürhanəddinin bacısı oğlu Əhmədlə Qara Yuluq Osman dairənin içində qalmışdılar. Ətrafda silahlı adamlar və ən başlıcası, Qara Yuluq Osmanın tanımadığı şəxslər qılınc, nizə, oxla silahlanmışdılar. O, görürdü ki, bundan ayrı çıxış yolu yoxdur. Yəni bircə əmrə bənddir ki, Qazinin bacısı oğlu Əhməd, elə Qazi Bürhanəddinin o biri bacısı oğlu Qara Yuluq Osman, bircə anın hökmünə müntəzir olaraq, oxlarla dəlmə-deşik olsunlar.

Nə Qara Yuluq Osman, nə də Qazinin bacısı oğlu Əhməd gözünü qırpmırdı. Qorxu deyilən heç nə bu iki cavan cəngavərin heç həndəvərinə də yaxın gəlmirdi. Qara Yuluq Osman xüsusilə səbirli, ayın-arxayın iddialı idi. O, inanırdı ki, hökmdar onu mütləq qəbul edəcək. Ona görə, Əhmədin həyatı üçün zamin durmuşdu. Bəli, Qara Yuluq Osman qənaətində inamlı idi, amma Qazi Bürhanəddin də içindəki şübhələrdən hələ qədərincə azad olmamışdı. Ona elə gəlirdi ki, bircə işarə ilə Əhmədi edam ayağından buraxıb, onu Qara Yuluq Osman tərəfə ötürsə, məmləkət məhvə sürüklənəcək, çökəcək. Ən başlıcası, Qazi Bürhanəddinin məmləkəti olmayacaq və Qazinin məmləkəti olmayacaqdısa, demək, onun üçün bundan sonrakı gedişatın heç bir fərqi yox idi. Yaxşı, ya pis…

İnsanlar müxtəlif vəziyyətlərdə olanda belə hadisələrə bu və ya digər dərəcədə cavab verməyə çalışırlar. İstəyirlər ki, hadisələri olduğu kimi qiymətləndirsinlər. Qazi Bürhanəddin dövrünün adamları da çox istəyirdilər ki, baş verən olaylara o qədər həssas, o qədər düz, ədalətli münasibət göstərsinlər ki, hökmdar Qazi Bürhanəddin onlardan narazı qalmasın. Bu, əlbəttə, hakimiyyətdən kömək, imdad istəyənlərin arzusu idi. Bəlkə də,

əhalinin sonsuz istəyinin nəticəsiydi. İndi məsələ tamam başqa cür idi. İnsanlar kürək-kürəyə söykənmişdilər. Gözləyirdilər ki, Əhməd haqqında hansı qərar çıxarılacaq. Əgər Əhmədi bir qəhrəman, bir igid kimi qəbul edib, onu zamanlar üçün qədir-qiymət mərtəbəsində saxlamaq mümkün olacaqdısa, demək… kimsənin nigaran qalmağına ehtiyac yoxdu… Yox, əgər Əhmədə qarşı bir qərəzli hökm çıxarılacaqdısa, demək, hökmdara inam da elə bu andaca öləcəkdi. Ona olan etibarın elə bu məqamda ölməyinin kimə bir istisi, soyuğu olacaqdı? – bu başqa məsələydi, kimsəyə məlum deyildi. Əsas o idi ki, insanların ixtiyarlarını verdikləri hakimiyyətin Əhmədi sağ buraxıb-buraxmayacaqları söhbəti müəmmalı idi.

* * *

Qazi Bürhanəddin qərarını elan eləməmişdən əvvəl bütün meydanı nəzərdən keçirtdi. Demək olar, meydandakıların hamısı həmyaşıdları və ondan cavan nəslin adamlarıydı. Və əlbəttə, əsasən öz nəslinin adamları yığışmışdı meydana. Bacısı oğlu Əhmədin də mənsub olduğu soy-kökünün uşağından böyüyünəcən hamısı buradaydı.

Hökmdar ehtiyatlı adam idi. O bilirdi ki, verəcəyi hökmdən kimlər razı, kimlər narazı ola bilərdi. Qəzəblənənlərin, əlini qılınca atmaq istəyənlərin də olacağını gözləyirdi. Buna görə kifayət qədər ehtiyat tədbirləri görmüşdü. Həmişə belə tədbirlər Qara Yuluq Osmana və Əhmədə tapşırılardı. Ən ağır döyüşlərə belə əldə qılınc, at üstə cəsarətlə sıçrayan Qazi Bürhanəddin bir dəfə də olsun gözlərinin önünə qara-qorxu gətirməmişdi. Çünki bilirdi, Qara Yuluq Osman da, Əhməd də – biri sağında, biri solunda onun təhlükəsizliyini göz-bəbəkləri kimi qoruyurlar. Bunları düşünəndə, Qazi Bürhanəddinin canından bir od qalxdı. Bəlkə də ilk dəfə ağlına gəldi ki, indi verəcəyi fərmanın gücünə onun çarxı çevriləcək. Amma başqa yol da görmürdü. Əgər Əh-

mədi aradan götürmək istəməsəydi, orduda ikitirəlik yaranacaq, qüvvələr nisbəti pozulacaqdı. O zaman bircə yol qalırdı: Gülçöhrəni Əhmədə vermək. Hökmdar isə dünya dağılsaydı da, bunu etmək istəmirdi. Çünki bu əməl gözgörəsi hakimiyyətin dağılması idi. Yəni öz əli ilə hakimiyyəti Əhmədə verməli olurdu. Bunu istəmirdi, çünki bu hakimiyyəti, bu səltənəti öz qüdrətinə qazanmışdı. Baxmayaraq ki, qayınatasından almışdı. Əslində, almamışdı, dağılmaqda olan hakimiyyəti bərqərar etmişdi, sütunlarını düzəltmişdi. Qazi Bürhanəddin düşündü, bəlkə geri çəkilsin, bəlkə Əhmədin ölüm hökmünü geri götürsün? Çünki bu hökmü hələ düşüncəsində vermişdi. Qazi ona sadiq qüvvələrin ayıq-sayıq davranışını bir də nəzərdən keçirdi. Meydanda heç kimin səsi çıxa bilməzdi. Axır ki, qərara gəldi. O, hökmünü verməli idi…

…Qazi Bürhanəddin hökm elədi: – Mən şəriətin fitvasını da almışam. Hər kim ölkənin, məmləkətin mənafeyinə qarşı çıxarsa, hər kim dövlətin hakiminə qarşı çıxarsa, o, xain elan olunur.

Kütlənin cınqırı da çıxmadı. Elə bil camaatın üstünə su səpilmişdi. Bayaqdan nə qədər adam Allaha yalvarırdı ki, Qazi Bürhanəddin öz bacısı oğlu Əhmədi bağışlasın. İndi bir insan, bir kimsə qımıldanmağa, dodağını tərpətməyə qorxurdu. Əhmədi istəyən adamların hamısı göyə çəkilmişdi, yerə girmişdi, yox olmuşdu…

Əhməd gözünü açıb meydana tərəf baxırdı. Yığılan və sükuta qərq olan adamların heç birisi gözündə deyildi. Dünya-aləm onun üçün heç nəydi. Allaha yalvarırdı ki, bircə Gülçöhrə bu insanların arasından qabağa çıxsın, gözünə görünsün. Gülçöhrənin gözlərinə tamaşa qılsın. Hələ ki, Gülçöhrəni görə bilmirdi. Düşündü ki, onu bu meydana gətirən Qazi Bürhanəddinin qılıncı sevginin, məhəbbətin önündə gücsüz olacaq. Həmin anlarda onu bura qədər gətirən xalası oğlu Qara Yuluq Osmanı da baxışları axtardı. Qara Yuluq Osman hələ də tərəddüdlər içərisindəydi. O,

hələ də razılaşmırdı ki, dayısı – Qazi Bürhanəddin verdiyi sözə xilaf çıxacaq. Buna qətiyyən inanmırdı. Mətləb də bunda idi ki, Qara Yuluq Osman dayısına etibar etmişdi. Çünki Qazi ona demişdi ki, əgər Əhmədlə birgə mənim ordumda yürüşə razı olsan, biz sərhədlərimizdəki bütün rəqiblərimizi boğa bilərik.

Qara Yuluq Osman bir qədər inamsızlıq, ümidsizlik içində vurnuxurdu. Əgər dayısı bu hadisələrin mahiyyətini boğub bütöv bir axara sala bilsəydi, onda, xalası oğlu Əhmədlə birgə böyük cəngi-cidalda Qazinin gələcəkdə böyük qələbələrini təmin edərdilər.

Bilmək olmazdı, hadisələr necə inkişaf edəcəkdi. Hər halda, Qazi Bürhanəddinin gələcək müharibələrində qələbələrinin təminatçısı həmişəki tək iki bacısı oğlu – Qara Yuluq Osman və Əhməd ola bilərdi. Ancaq hər kəs öz gələcəyini idrakına uyğun yazmaq və yozmaq qüdrətindədir.

Qazi Bürhanəddin meydanın ortasında qoyulmuş taxtında əyləşmişdi. Bir qədər aşağıda – əlisilahlı adamların arasında bacısı oğlu Əhməd qolubağlı dayanmışdı.

Qazi Bürhanəddinin əhatəsində çoxlu adamlar – yaxın, doğma olan kəslər və yadlar vardı. Onların sırasında – bu adamların içərisində yalnız bircə nəfərin sifətinə baxmaq mümkün olsaydı, onun necə gərgin, ağır anlar yaşadığını hiss eləmək mümkün idi. Bu, Qara Yuluq Osmanın özüydü. Qazi Bürhanəddinin doğması, indi edam ayağında olan Əhmədi bura gətirən kimsənin özü…

…Gülçöhrənin sinəsində ürəyi çırpınırdı. Elə bil qəfəsə salınmış quş idi. İndicə cələyə salıb, tutub gətiriblər. Özü də sevinə-sevinə gətiriblər. Qızıldan bir qəfəsin ağzını açıb buraxıblar bu qəfəsin içinə. Qızıl qəfəsin nazik tel barmaqlıqları arasında balaca ovucun içinə güclə sığışa biləcək sinəsi sarı, qanadlarının da tükləri sarıya çalan bozumtul bülbül özünü qəfəsin içində ora-bura çırpır. Elə bilir, nazik barmaqlıqların arasından çıxa bilər. Çıxar, qanadlarını açar, sonsuz bir istəklə canını qurtarıb, əvvəlcə

sərhədsiz göylərə sarı qalxar, uçar, uçar, haracan desən, uçar. Sonra da qayıdıb adamların olmadığı kimsənin qorxu yaratmadığı bir güllüyə tərəf gələr, bir gülüstana sarı səmt götürər. Təzəcə qönçədən pardaqlanmış qızıl qan rəngli bir gülün üstünə qonar. Başlayar özünün sevgi nəğmələrini oxumağa.

Bülbül hələ qəfəsin içindəydi. Və Gülçöhrə də sağ əlini sol döşünün üstünə qoymuşdu. Hələ sinəsində təzəcə yumrulanmaqda olan sol döşünün altından ürəyi elə çırpınırdı ki, az qalırdı yuvasından çıxıb ovcunu kənara itələsin. Həmin anlarda Gülçöhrəyə elə gəlirdi ki, onun canı, varlığı elə sol döşünün altındakı yuvaya sığınıb. Bir gözü hələ də qəfəsdə çırpınan bülbüldə idi. İndi bülbüllə ürəyi arasında bir oxşarlıq görürdü. Yaxına gedib qəfəsi o tərəf-bu tərəfə çevirdi. Qızıl qəfəsin balaca, baş barmağın ucu boyda bir kilidi də vardı. Açar yəqin Gülçöhrənin özünə, otağına baxan qulluqçunun cibində olardı. Əvvəlcə istədi, bu tənha bülbülü qəfəsdən açıb buraxsın. Kiçik qəfəsi lap sındırıb dağıtmaq da istədi. Hərçənd ki, bu nazik işləməli qəfəs heç düşündüyü qədər asanlıqla sökülüb-dağıdılası da deyildi. Qəfəsi asıldığı yerdən götürmək istədi. Gördü yox, qəfəs dörd küncündən divara bağlanmışdı. Gülçöhrə əsəbindən başını qəfəsin küncünə döydü. Neçə dəfə döydü heç özü də bilmədi. Alnının yuxarısından qançır olan yerdən açılmış yaradan qan üzüaşağı süzdü. Əvvəlcə elə bildi ki, tərləyir. Əlini çəkib tərini silmək istədi, gördü ki, sağ əli qırmızı qana boyanıb. Gözlərinə inanmadı. Bu dəfə də sol əlini çəkdi. Sol əli də qırmızı qana batmışdı. Hiss eləyirdi ki, gözlərinə də qan dolur. Gözünü açıq pəncərədən divanın qabaq tərəfindəki meydanda yığılmış adamların da qırmızı rəngə boyandığını gördü. İnsanlar qırmızı rəngdə idilər. Paltarları, əlləri, ayaqları, başları, gözləri... hamısı qırmızıya boyanmışdı. Gözləri ilə əvvəlcə Əhmədi axtardı. Əhməd divanın qabağında, məşhur edam taxtının önündə dayanmışdı. Əvvəllər Gülçöhrə də görmüşdü, burada adamları necə edam eləyirlər. Və o da soruşardı

ki, bu adamları niyə öldürürlər? Ona izah edərdilər ki, bu adamlar oğrudurlar, quldurdular, Vətəni satandı, dostuna xəyanət edənlərdi, namus qədri bilməyənlərdir, bir sözlə, pis və murdar adamlardılar. Gülçöhrə də heç soruşmazdı onların kimliyini, amma yox, bəlkə, lap dayanıb soruşardı da bu adamların haradan gəldiyini, kim olduqlarını, nə səbəbə ölümə məhkum olunduqlarını. Amma Gülçöhrəni axı burada dayanmağa qoymurdular. Onu görər-görməz tez meydandan aralayıb aparardılar. Və indi Gülçöhrəyə elə gəlirdi ki, vaxtilə onun bu meydanda gördüyü edam olunanların hər biri elə Əhmədkimilərdir. Bəlkə elə onlar Əhməd imiş, Əhmədin özü imiş. Dəfələrlə Əhmədi bu meydanda edam eləyiblər, ölümə sürükləyiblər, amma bir adamın da – Gülçöhrənin də heç eyninə də gəlməyib ki, başı kəsilən, boynu vurulan, boğazı kəndirə keçirilən həmin cavan ona baxan adamların neçəsinin elə doğması imiş, əzizi imiş.

Və indi Gülçöhrə başını divara döyəndə anlamışdı ki, o, Əhmədin ölümünü neçə dəfə görüb. İndi başa düşmüşdü ki, heç də ölüm hökmü hökmdarın ədalətinin təntənəsi deyilmiş. Gülçöhrə yenə tutqun asimanın qırmızı rəngə boyanmağına məəttəl qaldı, boz-bulanıq səmanın qırmızılığına təəccüb qaldı. Axı necə oldu ki, bu boz-bulanıq səma da birdən-birə al-qırmızı rəngə boyandı? Bu qədər qırmızı dünya-aləmin üzünə kim çəkdi? Gülçöhrənin gözü gəzirdi. Bayaqdan bəri başını divara döyür, üz-gözünü cırır, saçını yolurdu. Özünü həlak eləyirdi göz-görəti. Amma hələ ümidi üzülməmişdi, hələ sinəsində çırpınan ürəyi qəfəsdəki bülbülün çırpınmağı ilə həyatın qurtarmadığını diktə eləyirdi. Gözləri ilə meydanın yuxarı tərəfini gəzdi. Atasını axtardı. O, hələ ki görünmürdü. Bəlkə də atasının böyür-başındakı adamların – qırmızı qana boyanmış əyanların o üzündəydi atası. Allaha yalvardı ki, kaş atası onun gözlərinə görünəydi. Yaxşı-yaxşı baxaydı, onda özü bilərdi ki, atasında hələ rəhm var, ya yox. Hələ görə bilmirdi, atası gözünə dəymirdi. Ancaq onu gördü ki, Əhmədi düz edam

kötüyünün böyrünə gətirdilər. Əlləri arxadan bir-birinə bağlanmışdı. İki nəfər üzüörtülü, ancaq gözləri görünən icraçıdan biri sağ qolundan, biri də sol qolundan yapışmışdı. Yaxşı baxdı. Əhmədin nə üzündə, nə gözündə, nə paltarında, nə də harayla yeriyirdisə, orada qırmızı rəng görmədi. Əvəzində ağlıq gördü. Elə bil ki, Əhmədi bir bəyaz parçanın üstü ilə aparırdılar. Özü də ağappaq rəngdə idi.

Əhmədin sağından, solundan yapışmış adamlar onu iri, adam hündürlüyündəki kötüyün yanına gətirdilər. Sonra da onu döndərib meydana tərəf çevirdilər. Böyürdə, yan tərəfdə başıçalmalı, iri çuxalı saqqallı ruhani dayanmışdı. Əlində də qara, qalın kitab. Hələ Əhməd gətirilməmişdən o kitabdan nə isə hündürdən oxuyurdu. Aradabir kitabı qapayıb, elə yenə ucadan «Amin» – deyirdi. Bütün meydan da həmin sözü onun ağzından alırmış kimi, bütövlükdə təkrarlayırdı: «Amin». Meydan «Amin» səsi ilə uğuldayırdı. Bir anlığa Gülçöhrəyə elə gəldi, həmin ruhaninin əlindəki kitabdan oxunan müqəddəs ayələr və eləcə də o «amin» sözü Allahın hökmü kimi gücə çevriləcək, qüvvəyə dönəcək, yenilməz bir pəhləvan olacaq, qabağa yeriyəcək. Əhmədin qollarını arxadan bir-birinə bağlayan qandalları qırıb atacaq. Vaxt ötürdü. Ayrı vaxt Allah kəlamı adlanan həmin sözlər də cansız nəfəs kimi havaya uçurdu. Nə pəhləvan olurdu, nə də bir təsir göstərə bilirdi. Hələ ki, meydanda hazırlıq işləri görülürdü və bu da o demək idi, Gülçöhrənin qəlbində yalvardığı, ricalar elədiyi Allahın özü də kara gəlmirdi. Birdən Gülçöhrə elə düşündü ki, Allah yatıb, yuxuya gedib, bu meydanda baş verənlərdən xəbər tutmayıb.

Necə ola bilərdi, hər zaman, hər yerdə gözü olan Allah bu meydandakı allahsızlığı görə bilməsin? Ya da necə ola bilərdi ki, eşq-məhəbbət haqqında qəlb ovsunlayan duyğulu qəzəllər yazan atası indi sevgilisini, özünün də doğmaca bacısı oğlunu belə qəddarlıqla ölümün ağuşuna atmağa hazırlaşsın?!

*Bizi bu eşqə çələb bisərü saman yazmış,*
*Bu könül dərdinə ləblərüni dərman yazmış…*

*Ləblərindən soraram mən ki, neçün göz yaşını,*
*Ləbi-yaqutı mənim üstümə mərcan yazmış.*

*Müşkil oldur ki, anun zülfünə dərbəndəm mən,*
*Başuma işbu qəzayı dəxi asan yazmış…*

*Qəmzəsi türki gözinün bu ürəkdə su qomaz…*
*Gözümə işvələri gərçi ki ümman yazmış.*

*Ləbləri qanuma girdügi üçün münşii-hüsn,*
*Sorılısar deyü tarixi ilə qan yazmış.*

Məğər xalqın dilinin əzbəri, sözlü-nəğməli ziyafətlərin bəzəyi olan bu beytləri atası yazmamışdımı? İndi necə qızının sevgisinə dağ çəkir, qıya bilirdi?! Bu düşüncələr içində qovrulan Gülçöhrənin əli heç yerə çatmırdı. Bir kimsə onun hayına-harayına yetmirdi. Elə onu da yandırıb-yaxan bu idi ki, necə ola bilər, onun ürəyini sinəsindən çıxarıb, aparıb meydanda edam ayağına çəksinlər? Onun özü bu dörd divarın arasında qalsın. Hələ də Gülçöhrə sol döşünün üstünə əlini aparırdı. Axı, çırpıntıları hiss eləyirdi. Axı, onun ürəyi sinəsinin altındadır. Yox, Gülçöhrə bununla barışmırdı, onun ürəyi meydandaydı. Və necə olur-olsun o, bədənini, cismini ürəyinin yanına aparmalı idi. İki əlilə bayaqdan dağılmış saçlarına əlini atdı və elə bir qıyya çəkdi ki, sədasından daş-divar silkələndi. Hər halda, Gülçöhrəyə belə gəldi. Dünya-aləm gözündə qaraldı, başı fırlandı və yerə necə yıxıldığını bilmədi…

* * *

Hökmdar hələ meydana gəlməmişdən əvvəl Qara Yuluq Osman onun nə qərar verəcəyini anlamışdı. Necə deyərlər, artıq başa düşmüşdü ki, Qazi Bürhanəddin qəzəb qılıncını sıyırıb. Və

heç şübhəsiz, o, bu gün, bu meydanda camaatın gözü qarşısında Əhmədin edamının hökmünü verəcək. İlk dəfə Qara Yuluq Osman anladı ki, o, nə qədər gücsüzdür. Qazinin yanına getmək, onunla axırıncı dəfə üzbəüz gəlmək, lap elə yeridirsə, ona yalvarmaq, minnət eləmək istəyirdi. Təki Əhmədi edamdan qurtarmaq mümkün olsun. Axı xalası oğlunun təzədən hökmdarın hüzuruna gətirilməsinin bütün babalı onun boynunda qalmışdı. Əgər Əhmədə zamin durmasaydı, Əhmədi inandırmasaydı, o, heç bu gündə bu meydanda əli-qolu bağlı halda, ixtiyarı əlindən alınmış bir vəziyyətdə – ölümün önündə gücsüz, köməksiz qalmazdı. Belə olan halda kimin, hansı sözükeçənin nüfuzundan, köməyindən istifadə etmək olardı?

Əlbəttə, Qara Yuluq Osmanın ağlına gəlirdi ki, o, Şeyx Məhyəddinə müraciət eləsin. Onun hökmdarın yanındakı hörmət və nüfuzundan istifadə ilə bəlkə, Əhmədi ölümdən qurtarıb, lap zindana atmalı olsalar da, heç olmasa, canını qoruyub saxlamaq mümkün idi. Qara Yuluq Osmanın ağlına o da gəlirdi ki, əgər Şeyx Məhyəddin bir işıq, bir xilas yolu görsəydi, özü bu barədə Qazi Bürhanəddinlə məsləhətləşərdi. Hələ bəlkə, Qara Yuluq Osmanın təvəqqesinə ehtiyac qalmadan, Şeyx Məhyəddin özü Qazi Bürhanəddinlə belə bir söhbət etməyə ehtiyac duyardı?..

Qara Yuluq Osman vurnuxdu. O, hərdən gözünün önündə keçib gedən baş əyana da diqqət göstərirdi. Sanki onun çiçəyi çırtlayırdı. Elə bil cini gizləyə bilmir, gözləri oynayırdı, ayaqları yerdə deyildi, göydə uçurdu, sevinirdi. Hərçənd hökmdarın niyyətini bilən bütün saray əhli-sükut içində yasa batmışdı. Hökmdarın oğlu Elməddin Əli Çələbi bir küncə çəkilmiş, dərddən və xiffətdən büzüşüb qalmışdı. Gülçöhrənin ağır vəziyyətdə olduğu xəbəri artıq meydana yayılmışdı. Qazi Bürhanəddin üçün isə bütün bunların əhəmiyyəti və dəyəri yox idi. Aralı olsa da, dayısının yaxınlığına gedə bilməyən Qara Yuluq Osman onun dediklərini pis eşitmişdi: «Məmləkətə, taxt-taca xəyanət eləyənin… aqibəti

budur». Birdən Qara Yuluq Osmanın beyninə qan vurdu, başı gicəlləndi. Özünə tabe olan adamların bir tərəfdə necə səssiz dayandıqlarını müşahidə elədi, qılıncı sıyırdı və baş əyana tabe olan mühafizə dəstəsini yarıb, meydanın yuxarı başında əyləşmiş dayısına çatmaq istədi. Ancaq bunun ağılsız hərəkət olduğunu da elə həmin andaca anladı. Çünki özünə tabe olan qüvvələrin hamısının yaraq-əsləhəsi alınmışdı. Bəli, Qara Yuluq Osman bir daha gücsüzlüyünü görürdü. Yenə də olsun, hələ edamın vaxtına var idi. Gün günorta yerinə qalxanda, bəlkə günortadan xeyli ötəndən sonra hökmdarın fərmanı icra olunacaqdı. O vaxta qədər meydanın yuxarı tərəfində qoyulmuş taxt-tacın yanından hökmdarın etibar elədiyi, əslində, hökmdara sadiq yox, ona yaltaqlanan, yarınan adamların bir-bir, növbə ilə tutuquşu kimi söylədiklərini camaat dinləməliydi. Onlar bir-bir, növbə ilə yuxarı qalxır, hökmdarın şəninə tərriflər yağdırır, canına dualar eləyir və son nəticədə verilən fərmanın nə qədər ədalətli və haqq olduğunu təsdiqləyirdilər. Kütlənin isə aşağıda cınqırı çıxmırdı. Hərçənd ki, baş əyanın özünə tabe olan qüvvələr, eləcə də baş əyanın təşkil eləyib, toplayıb meydana gətirdiyi adamlar da ağızlarına su alıb pərt-pərt durmuşdular. Hər çıxışçıdan sonra hökmdarın ünvanına «ömrü uzun, taxt-tacı taraz olsun, Allah üstündə yar olsun», – deyə qışqırıqlarla cavab verirdilər, münasibətlərini bildirirdilər. Qara Yuluq Osman adamları yarıb geri çəkildi. O bilirdi ki, hökmdarın bütün mühüm tədbirlərində Şeyx Məhyəddin iştirak edir, ancaq burada gözünə dəymirdi. Bir az da aralandı, kənara çıxdı. Qabağında duran saray əhlindən etibarlı olanın birini yanladı:

– Nə əcəb Şeyx Məhyəddin gözə dəymir? – soruşdu.

– Bəs bilmirsən, hökmdarın qızının vəziyyəti ağırdır.

– Necə, Gülçöhrəninmi?

– Bəli, bəli, Gülçöhrə bəyimin halı pisləşib. – Saray əhlindən olan adam ötüb getmək istədi. Qara Yuluq Osman qolundan tutub saxladı.

– Bir dayan görüm, indi haradadır?

– İçəridə, sarayın şəfaxanasında.

– Şeyx Məhyəddin də onun yanındadır?

– Bəli, – saray əhlindən olan adam sözünü qısa elədi və dönüb getdi.

Qara Yuluq Osman tez özünü içəri saldı. Saray qulluqçuları, Gülçöhrənin anası da burada idi. Şeyx Məhyəddin özündən getmiş, halı pisləşmiş qızın böyründə əyləşmişdi. Görünür, ona dərman vermişdi. Gözləyirdi qızın ayılmağını.

Qara Yuluq Osman içəri keçib Şeyxə təzim elədi. Şeyx də başı ilə onun salamı aldı. Astaca Şeyxə işarə elədi ki, bir tərəfə çəkilsin.

– Şeyx, Allah səni salamat eləsin, nə yaxşı ki, sən varsan.

– Ay oğul, var olanın əlindən bir iş gəlmirsə, bunun nə faydası? – Sanki Qara Yuluq Osmandan utanırmış kimi Şeyx başını aşağı saldı.

– Şeyx bu qızın bu dəva-dərmanla nicat tapacağına inanırsan?

– Onun nicatı Əhmədin xilasıdır, oğul.

– Bəs indi necə olsun? – Qara Yuluq Osman əlacsız-əlacsız soruşdu. – Bəlkə, Qazi Bürhanəddinlə bir də danışasan.

– Hələ o, kimsəni qəbul eləmir.

– İndi qızının belə ağır vəziyyətdə olduğunu bilsə, necə? – Qara Yuluq Osman axırıncı imkan kimi bu vəziyyəti də əldən buraxmaq istəmədi.

– İndi ona bu xəbəri kim aparıb çatdırar?

– Bəlkə sən Gülçöhrənin anasına deyəsən, Şeyx?

Şeyx yenə gümansız-gümansız çiynini çəkdi:

– Nə deyim, bəlkə də… – dedi.

– Şeyx, sən vaxtı itirib, fürsəti ötürmə, hökmdarın xanımını göndər onun yanına, qoy vəziyyəti başa salsın.

Şeyx Gülçöhrənin anasını yanına çağırdı. Qara Yuluq Osman da burada idi. Elə onun yanındaca qadına müraciət elədi.

– Özün görürsən ki, qızının vəziyyəti necədir…

– Görürəm, Şeyx, Allahdan aşağı ümidimiz sənədir – Gülçöhrənin anası Şeyxə nicat yeri kimi baxdı. O, az qalırdı, Şeyxin çuxasının ətəklərindən öpsün. Şeyx əlini qaldırıb onu sakitliyə dəvət elədi. Sonra asta-asta dilləndi:

– Xanım, sən bilməlisən ki, Gülçöhrənin nicatı Əhmədin canının salamatlığındadır. Buna da ancaq hökmdarın fərmanını dəyişməklə nail olmaq mümkündür.

– Şeyx, özün görürsən ki, indi heç kimi yanına buraxmırlar. Mən neyləyim?

– Mühafizlərə deyin ki, hökmdara çatdırsınlar, qızı can üstədir. Son dəfə qızını görmək istəyirsə, gecikməsin.

Hiss olunurdu ki, arvadı da hökmdarı çağırmaq üçün cəsarət eləmir. Onu da yaxşı bilirdi ki, belə anlarda bir kimsə hökmdara yaxın gedib bir söz deyə bilməz. Onsuz da yaxına getmək istəyəni də baş əyanın ixtiyarında olan mühafizlər qadağan olunmuş tərəfə buraxa bilməzlər. Bunu Qara Yuluq Osman yaxşı bilirdi.

– Xanım, ümid bircə sənədir. Yalnız sən özün bu edam səhnəsinə baxmaq adıyla hökmdara yaxınlaşa bilərsən.

Arvadın rəngi-ruhu qaçdı. Bunun da iki başı olardı. Hökmdar qaydanı pozduğuna görə bir kimsəyə asanlıqla güzəşt eləməzdi. Ola bilərdi ki, elə xanımın özünü də qəzəbinin güdazına verib, oradan birbaşa zindana göndərsin. Ana qəlbi iki odun arasında qalmışdı. Canının qorxusu heç ağlına da gəlmirdi. Gedərdi, ancaq qaydanı pozduğuna görə onun özünü birbaşa zindana atardılar, Gülçöhrəsi də kimsəsiz və köməksiz qalardı. Oğlu Elməddin Əli Çələbiyə bu barədə nəsə deməyin mənası yox idi. Çünki onu özü də məlum qan iyi gətirən fərmanın xəbərini eşidən kimi sarsılmış, nə edəcəyini bilmədən qapı-bacanı bağlayıb hücrəyə çəkilmişdi. O da bir kimsəni eşitmək istəmirdi. Axır ki, Şeyx xanımı inandırmaq üçün:

– Xanım, doğrusunu Allah bilər, sən indi hökmdarın yanına gedə bilməsən, qızının sağ-salamat qalmasına bir kimsə təminat

verə bilməz. Onsuz da ayılsa da, intihar edər, yaşamaqdansa, həlak olmağı üstün tutar. – Bunları deyəndə, Şeyx bir həkim kimi, təbib kimi eşqin nəyə qadir olduğunu bildiyindən təkid etdi.

Qara Yuluq Osman da sanki aradan nə qədər vaxt keçdiyinin fərqində olduğunu bildirmək üçün qadını tələsdirdi.

– Bizim burada dayandığımız hər an Gülçöhrənin ölümünü yaxınlaşdırır. – Bəlkə də Qara Yuluq Osman Gülçöhrənin əvəzinə Əhmədi könlündən keçirdi. Ancaq Gülçöhrənin ölümünü deməklə xanımı bir qədər də tələsdirmək və onu hökmdarın yanına tez göndərmək, bir sözlə, Əhmədi ölümdən qurtarmaq istəyirdi.

Xanım dönüb bənizi ağappaq ağarmış, üzünün qanı qaçmış, gözləri yumulu, çarpayıda hərəkətsiz qalmış Gülçöhrəsinə nəzər saldı. Dönüb Qara Yuluq Osmanı, Şeyx Məhyəddini süzdü. Bununla demək istəyirdi ki, lap mənim canımı alın, ölümə məni yollayın, ancaq qızımı xilas edin. Həmin anlarda hətta meydana da buraxılmayan bir ana iqamətgahdan xeyli aralı bir həyətdə fəğan eləyirdi, saçlarını yolub yellərə verirdi, dırnaqları ilə üzünün dərisindən şırım açmışdı. Qızıl qan içindəydi. – «Vay, oğlum, Əhməd» – söyləyib inləyirdi, nə burada Gülçöhrənin anasının dilsiz fəryadlarını eşidən var idi, nə də o yanda Əhmədin doğmasının az qala Allahacan yetən ah-naləsinə cavab verən.

Qara Yuluq Osmanın əli qılıncının qəbzəsindəydi. Əgər bu daş-divarda bir çarə görsəydi, qılıncı ilə daşı yarar, divarı dağıdardı. O, qəbzəsindən sıxdığı qılıncı ilə hökmdarın düşmənlərinə qarşı üz-üzə gələndə, bir kimsənin ona cəsarətlə qılınc qaldıracağına inanmamışdı. Nə atdığı nizə boşa çıxmış, nə də endirdiyi qılınc qabağında bir qalxan dayanmışdı. Onun cəsarəti, gücü, fəhmi, fərasəti hökmdara da, elə məmləkət əhlinə də yaxşı məlum idi. Lakin indi gücsüz idi. İçinə yığılmış qəzəb gözlərində şimşək kimi çaxdı:

– Get, xanım, vaxtı itirmə, yoxsa Əhmədin ölümü ilə, Allahın qəzəbi bu sarayı yerlə-yeksan edər.

Xanım yaydan çıxmış ox kimi onların yanından çıxdı. Az keçməmiş mühafizlər qapını açıb, hökmdarı içəri buraxdılar. Amma Şeyx Məhyəddin usta tərpənib, Qara Yuluq Osmandan təvəqqə elədi ki, bir tərəfə çəkilsin. Yoxsa bu hökmdarı daha da qəzəbləndirər.

Qara Yuluq Osman bir tərəfə çəkildi. Hökmdar düz Şeyx Məhyəddinin üstünə yeridi:

– Nə olub, Şeyx, sən bilmirsən ki, mən fərmandayam.

– Bilirəm, hökmdar. Onu da bilirəm ki, qızın can üstədir. Mən istədim ki, vəziyyətinin necə ağır olduğunu öz gözlərinlə görəsən. Axı, hər bir insanın ölümü Allahdan olsa da, cavabdehi yenə biz insanlarıq.

– Gülçöhrənin halı niyə pisləşib? İndi o, necədir?

– Buyurub baxa bilərsiz.

– Bunun dərdi nədir?

– Hökmdar, mən eşqin, sevginin insanların başını necə ucaltdığını sizə demişdim.

– Yadımdadır, demişdin. Ancaq mən nə demişdim?

Şeyx Məhyəddin dinmədi. Hökmdarın hirsinin-hikkəsinin qarşısında susmağı üstün tutdu. Hökmdar Şeyxin dinmədiyini görüb özü ortaya söz atdı:

– Mən də demişdim ki, eşqin, sevginin cilovunu buraxsan, insanı dəli eləyər, çöllərə salar.

Şeyx başını qaldırıb, Qazini yaxşı-yaxşı süzdü. Baxışlarında tənə və kinayə yox idi. Amma bir təəssüf var idi: – Yəni ki, aşiqanə lirik qəzəllər ustası olan, sevgini min-bir dillə tərənnüm edən insan necə belə qəzabnak ola bilər sevgiyə qarşı? Hökmdar qızına tərəf getmədi. Əvəzində bir də Şeyxə dedi:

– İndi nə məsləhət bilirsən?

– Əgər hökmdarın fərmanı qüvvədə qalsa…

– Hə, nə olacaq?

Hökmdar Şeyxin sözünü kəsdi.

Şeyx gördü ki, hökmdarla daha məsləhət təriqində danışmağın yeri yoxdur:

– Məsləhət sizinkidir, hökmdar, ancaq mən özümə borc bildim, – dedi.

– Nəyi?

– Onu özümə borc bildim deyəm ki, əgər hökmdarın fərmanı qüvvədə qalsa, Allahın qəzəbinə tuş gələrik.

– Sən bilmirsən ki, hökmdar yerdə Allahın kölgəsidir? Mən hökmlərimi Allahın adı ilə verirəm.

– Bilirəm, hökmdar, ancaq Allahın adı ilə verilən hökmlərin də bir həddi var. Yoxsa…

– Yoxsa, nə olar?

– Yoxsa dünya dağılar – Şeyx Məhyəddin dedi və dönüb halsız uzanan qızın yanına getdi.

* * *

…Meydan aram olmuşdu. Hamı səssizlik və sakitlik içində hadisələrin hansı səmtdə gedəcəyini gözləyirdi. Heç kimin cınqırtısı çıxmırdı.

Bir tərəfdə – edam xəbərini eşidən adamların böyük dəstəsi toplanmışdı. Onlar üçün bəlkə heç Əhməd də, Əhmədin kimliyi də qədərincə maraqlı deyildi. Onlar şəhərin elə bir zümrəsi, elə bir təbəqəsi idi ki, heç hökmdardan, onun məmurlarından da asılı deyildilər. Onların əksəriyyəti sənətkarlar, ətraf – qonşu ərazilərdən bəd xəbəri eşidib gələn köçərilərdi. Və bütövlükdə, heç onlar üçün kimin edam olunmağının da fərqi yox idi. Əslində, onlar bu edam xəbərini eşidib meydana gəlməklə edam tamaşasının sadəcə, görücüsü də deyildilər. Onlar burada kimin haqlı, kimin haqsız olmağının marağında idilər. Qonşu ərazilərin, kənd-kəsəklərin camaatını bura çəkib gətirən belə bir hiss idi ki, günahkar oğru deyil, quldur deyil, bir kimsəyə zərər yetirməyib. Bəs onda onu nə üçün edam edirlər? Bu qədər insanı bir araya cəm

eləyən fikir ondan ibarət idi ki, görsünlər edam olunanın suçu nədir? Ona nəyə görə ölüm cəzası kəsiblər?

İnsan təbiətinin xislətinə uyğun olaraq ölümün mahiyyəti hərəni bir tərəfdən çəkib bura gətirmişdi. Bura qadınlar da, kişilər də, bir sözlə, uşaq da, böyük də – hər kəs öz maraq dairəsinə görə gəlmişdi.

İndi edam olacaqdı. Bir insanın başı kötük üstünə qoyulub kəsiləcəkdi. Özü də bir oğrunun, bir quldurun yox, bir naməhrəm üzünə baxanın yox,.. söhbət hökmdarın bacısı oğlundan gedirdi. Hökmdarın – Qazi Bürhanəddinin bacısı oğlu Əhmədin ölümündən, edamından söhbət gedir. İndi bir az keçəcək, qaraağac kötüyünü edam yerinin ortasına gətirəcəklər. Və üstəlik, bir az da keçəcək hökmdarın bacısı oğlu Əhmədi edam kötüyünün üstünə qaldırılacaq. İş də ondan ibarət olacaq ki, məmləkətə, ölkəyə, insanların namusuna, xalqın mənəvi varlığına ən müxtəlif tərəflərdən xəyanət eləmiş adamların gətiriləcəkləri yer, öldürüləcəkləri yer, cəza alacaqları yer – cəllad kötüyü görk yeri olacaq. Bütün bunların hamısı o demək idi ki, bu dünyada insan övladının çiynində çəkəcəyi bir yük var. Bu, ağıl, idrak yüküdür. Gərək bu yükü şərəf və ləyaqətlə daşıyasan, ağıl və idrakla daşıyasan. Əgər bir fərd olaraq sən harada doğulduğunu, hansı xalqın içində böyüdüyünü unudursansa, onda bu dünyanın cəzasından qurtula bilməzsən. Onda gərək ömrünü elə yaşayasan ki, bu dünyanın qanunları ilə axirət aləminin qaydaları bir-birini tamamlasın. Axı ən böyük hökm Allaha məxsusdur. Səni axirət aləminin qanunları mühakimə eləyəndə bu dünyanın qanunları haray salıb qışqırıq salmasın, bu, düz deyil. Demək, insan övladı Vətəninin, millətinin, xalqının təəssübünü o dərəcədə çəkməyi özünə rəva bilsin ki, bir zaman kimsə qabağına durub «sən səhvsən, sən yalansan» – deyə bağırmasın. Kənardan bu mənzərəni seyr edən Varis içində qaynayan etirazları boğa bilmirdi. O, düşüncəsindən keçən hər nə var idisə, hamısını yığmalayıb bir daşa çevirmək,

elə indicə bayaqdan bəri taxtını-tacını tərk eləyib getmiş hökmdarın – Qazi Bürhanəddinin başına çırpmaq istəyirdi. Əlbəttə, Varis dinə bilməzdi, çünki ixtiyarı çatmırdı, bir gün əvvəl isə Şeyx Məhyəddinlə – ustadıyla öz arasında bu haqda mübhəm söhbəti olmuşdu.

– Ustad, gözümüzün qabağında çox ləyaqətli gənc, qorxmaz döyüşçü, sabahın qüdrətli sərkərdəsi mühakimə olunur, biz isə taleyinin necə olacağını dəqiq bilmirik.

– Doğrudur, mənim Varisim – Şeyx Məhyəddin «mənim Varisim» sözünü elə dedi ki, Varis bilmədi, Şeyx onun adını deyir, yoxsa onu varis kimi gördüyünü etiraf eləyir. Və Şeyxin sonrakı sözləri məsələyə bir qədər aydınlıq gətirdi. – Unutma ki, insanlar sahib olduqları mənsəbi özlərinin əbədi mülkü sayırlar. Elə bilirlər, nəyə sahib olurlarsa, əbədi olaraq onun sahibidirlər.

– Şeyx, onda belə çıxır ki, bu məmləkət də, bu yer-yurd da, elə bizim hamımız da… – Varis sözünün gerisini deməyə çəkindi. Ancaq Şeyx Məhyəddin onun nə demək istədiyini, əslində, danışmazdan qabaq bilmişdi. Ona görə, sağ əlini ustalıqla yuxarı qaldırdı:

– Bir dayan, – dedi.

Varis heç mübahisə eləmək fikrində deyildi. Onu maraqlandıran o idi ki, məsələnin tündlüyünü yerli-dibli bilsin, işin kökündən xəbərdar olsun. Əslində, məsələnin mahiyyəti Varisin düşündüklərindən də dərində idi. Varis üçün qəribəsi bu idi ki, hökmdar öz qızını bacısı oğlu Əhmədə nəyə görə vermək istəmir? Bax, bunu anlaya bilmirdi. Şeyx Məhyəddin də Varisə birbaşa izah eləmək istəmirdi, Qazi Bürhanəddin qorxur qızını Əhmədə verməyə. Burada anlaşılmayan, başa düşülməyən məsələ nə qədər sağa-sola şaxələnsə də, Varis üçün aydınlaşmadı. Varisə qəribə gəlirdi. Axı burada nə var? Hökmdarın qızı Gülçöhrə hökmdarın bacısı oğlu Əhmədi sevir. Lap yaxşı, qoy bir az da artıq istəsin. Bəs niyə hökmdar buna narazı olmalıdır? Yenə təcrübəsiz Varis onu

bilmirdi ki, qızının bacısı oğlu Əhmədə sevgisini bilən hökmdarı yerindən oynadan nədir?

Şeyx Məhyəddin məsələnin kökündən xəbərdar idi. O bilirdi ki, Qazi Bürhanəddin bacısı oğlu Əhmədlə ömrü boyu doğmalıqla, yaxınlıqla, istəklə birgə mövqedə dayanmasını istəyərdi. Qazi Bürhanəddin yaxşı bilirdi, zaman-zaman Əhməd qədər qüdrətli, güclü bir sərkərdəni tapmayacaq və görməyəcək. Məsələ burasındaydı ki, Varis üçün qaranlıq tərəf işıqlı tərəfdən daha çox idi. Axı nəyə görə Əhməd təhdidlərə, təqiblərə məruz qalmalıydı? Axı burada qeyri-adi nə vardı ki? Lap elə Əhmədi çağır, de ki, sən heç nədən nigaran qalma, mən qızımı sənə verməyəcəyəm. Əhməd elə bir sima, elə bir ləyaqət sahibi deyildi ki, o, sadəcə, məhəbbətinə görə Vətənə xəyanət eləsin, yurda üzüdönük çıxsın.

Varis dördgözlə ətrafı seyr elədi. Üstəlik, deyilənlərin hamısını diqqətlə dinləyir, ağlından keçirirdi. Bütün fitva məqamını, hökm saatını… hamısına diqqət yetirərək belə nəticəyə gəldi ki, əgər Şeyx Məhyəddin bu edam mərasimində iştirak eləmirsə, əgər Şeyx Məhyəddin öz varisinə – Varisin özünə «bu mərasimə bax, məsələnin məğzini gör» – deməyibsə, yəqin, verilən fitvada da, göstərilən hökmdə də şübhə yeri var. Hakimliyin və məhkumluğun mahiyyəti elə buradaca bu gün bu edam mərtəbəsinin gəlib çatdığı məqamda öz həllini tapmalıdır.

Yox, Varis bununla razı deyildi. O, istəyirdi, əsl həqiqəti gözlərilə görsün. Ona elə gəlirdi ki, edam da, insanın öldürülməsi səhnəsi də, hökmdarın hökmü də – bütün bunların hamısı tamaşadır, bir görüntüdür. Varis gözlərini yummaq istəmirdi, açıq gözlə baxmaq istəyirdi. Çünki onun təsəvvüründə edam yox idi. O, elə düşünürdü ki, insanların edam olunmağı yalnız günah sahibinə onun günahlarını, gördüyü işlərin yaxşılığını, pisliyini bir görk üçün üzünə oxumaqdır.

Ustadı deyəndə – ay oğul, sən o meydana getmə, – Varis qəti surətdə razılaşmamışdı. Heç bəlkə dərinə də getməmişdi ki, bu

məsələnin mahiyyəti necə olar. Ustadı da Varisin xətrinə dəyməmək, onun könlünü qırmamaq üçün etiraz eləməmişdi. Əslində, Şeyx Məhyəddin düşünmüşdü ki, cəhənnəm olsun bu dünyanın gəldi-gedəri. Qoy bizim zəmanəmizin cavanları da bilsinlər ki, bu dünyanın necə haqq-hesabları var. İnsan necə hakimiyyət, var-dövlət, sərvət naminə ən qorxulu üsullara əl atır? Sahib olduqlarını qorumaq üçün necə dəhşətli vasitələrdən istifadə edir? Bu yolda oğlundan keçmək, qardaşını öldürmək, doğmalarını məhv eləmək nədir ki, hələ üstəlik, qızını istəyənin sevgisini ayaqlamaq guya çətinmiş.

Varis görünür hələ belə məsələlərin nəyə xidmət elədiyinin, hansı məzmun kəsb etdiyinin mahiyyətini bilmir. Əlbəttə, o, istəyərdi ki, bu məsələlərin hamısından məlumatlı olsun. Amma Şeyx Məhyəddin bu məsələləri ona anlatmaq üçün heç nə anlatmır, heç nəyi izah eləmirdi. Əsas da o idi, Şeyx Məhyəddin istəyirdi Varis bütün bunları özü görsün. Bilsin və inansın ki, bu dünyada mənafelər var, bu dünyada elə məsələlər var, onların başında duranlar heç nəyə güzəştə getmir. İstəyirsən, haracan xidmət elə, haracan özünü doğrult, özünü yırt-dağıt, dəxli yoxdu. O yerdə ki, böyük mənafedən kənara çıxmısan, onda gərək cavab verəsən, cəzaya məruz qalasan.

Varis bütün bunların hamısını ağlı kəsən qədər düşünüb-daşınırdı. Gələcək qayınatası timsalında gördüyü – sevgilisi Dürdanənin atası kimi gözünün qabağında olan və üstəlik, bütün zamanların hamısını da ona elm, kitab öyrədən bir kişini – aqili gözünün qabağında görürdü.

Şeyx Məhyəddin güc və qüdrət sahibi olaraq bütün əhatəliliyi, vəziyyətin ağrılı və keçərili tərəfləri ilə indi tam aydın görəcək bir məqamda idi. Əslində, görk məqamındaydı. Varis meydan tərəfə – yığılan insan kütləsinə tərəf diqqət yetirirdi. Anlaya bilmirdi ki, bu adamlar bu qədər insan yığnağı hökmdarın bacısı oğlunun ölümünə sevinir və ya qussələnir, qəm dəryasına qərq olur.

– Ay Allah, bu necə bir qəribə mühitdir? – Varis düşündü. Bilmək olmur ki, bu adamlar hökmdarı istəyir, ya da ümumiyyətlə heç istəmir. Əgər dünən gəlib soruşsaydın ki, sənin bacın oğlu Əhmədin bir tükünü çəkmək fikrimiz var, onda hökmdar həmin şəxsin başını bədənindən üzərdi. Amma indi bütün məmləkətin əhalisini hökmdar buraya yığıb. Bir yerə cəm eləyib, ona görə ki, bütün bu insanların hamısı görsün ki, öz bacısı oğlunu necə edam eləyir.

Varis məəttəl qalmışdı. Əslində, heç inanmırdı, qətiyyən ağlına sığışdırmırdı, ədalət hakimi kimi tanınan Qazi Bürhanəddin heç nəyin üstündə bacısı oğlunu edam etdirsin. Çünki camaat arasında deyilirdi ki, Əhmədin yeganə günahı hökmdarın qızını sevməyidir.

Yəni, elə-belə məsələ deyildi. Elə məsələydi ki, buna Allahın özü də etiraz eləməz. Bunun kökündə mənəvi bir tələbat, elə bir istək dayanır, burada hakim-məhkum, güclü-gücsüz… qeyri-tərəflər kara gəlmir. Bu elə məsələdir ki, əgər qarşısı alınmazdırsa, demək, hakimi-mütləqin tərəfində Allahın özü dayanır.

Tanrının qüdrəti sayəsində sevənlər özlərini məğlubedilməz bilirlər. Bütün məqamlarda elə bilirlər ki, güclüdürlər, qüdrətlidirlər.

Varis gözünü dolandırdı…Yuxarı tərəfdə bayaqdan taxtını tərk eləmiş Qazi Bürhanəddin gəlib yerində əyləşmişdi. Aşağı tərəfdə adamlar sakit, sanki bir himə bənd imiş kimi dayanmışdılar. Lakin nə yuxarıda, nə aşağıda bir kimsənin cəsarəti çatmırdı ki, səsini çıxarsın, ağzından bircə kəlmə söz qırağa ötürsün.

* * *

Əhmədin edam yerinə aparıldığını görən Qara Yuluq Osman onu xilas etmək cəhdlərinin boşa çıxdığını, elə özünün də etiraz eləmək, Əhmədi ölümdən xilas etmək naminə yeni cəhdlər göstərməyin mənasız olduğunu başa düşdü. Sanki əli-qolu bo-

şaldı, qırılıb yanına düşdü. Ümidi yerdən-göydən üzülmüşdü. Qəfəsə salınmış şir kimi daxili aləmindəki gərginliyi boğa bilmir, içəridən boğulur, vurnuxurdu. Nə qədər özünü sakit göstərməyə, hadisələrə seyirçi nəzərlə baxdığını süni də olsa, saxlamağa çalışsa da, dözmək mümkün deyildi.

Hamı açıq-aşkar görürdü ki, üzü qara örtüklə bağlanmış cəllad ağzı par-par yanan, hərdən günəşin işığı düşəndə şüaları əks etdirən qılıncı o yan bu yana çevirir, həyəcanlanır, xoflanır, tələsirdi. Başına bağlanmış xüsusi qara örtüyün ikicə deşiyi vardı. Həmin o deşikdən cəlladın ölüm saçan gözləri işıldayırdı. Edam ediləcək məhkumu o, elə həmişəki soyuqqanlılıqla, sanki meşədən bir ağac budağını kəsəcək kimi gözləyirdi. Cəllad Qəməlinin neçə illik cəlladlıq təcrübəsi vardı. Hələ bir dəfə də olsun, edamın qaydasını pozmamış, əli titrəməmişdi. Cavanlıqda cəlladlıq peşəsinə məxsusi onu seçib tapmışdılar. İri gövdəli, hündürboylu, qoluzorlu cavan idi. Döyüşçülər arasından seçilmişdi. Endirdiyi qılıncın zərbəsi az qala qalxanı da bölürdü. Elə Qazi Bürhanəddinin özünün gözü qabağında döyüşdə məharətini dəfələrlə göstərmişdi. O da baş əyanı çağırıb, tapşırmışdı ki, döyüşdən sonra əgər bu cavan sağ qalsa, onun yanına gətirsinlər, – demiş – haradan, hansı tayfadan olduğunu, nə vaxtdan bəri orduda xidmət etdiyini öyrənmişdi.

– Adın nədir, cavan?

– Adım Qəməlidir.

– Haralardansan?

– Diyarbəkirin yuxarı tərəflərindən.

– Atan-anan nə işlə məşğul olur?

– Anam xalçaçıdır, xalı toxuyur, toxuduğu xalıları satır, ailəmizin dolanışığına kömək eləyir.

– Bəs atan?

– Atam bəyliyin ixtiyarında olan adamdı. Təqsirkar adamların salındığı zindanın rəisidir.

– Bəs sən bu döyüşçülük sənətini haradan öyrənmisən?

– Qılınc çalmağı, at sürməyi atamdan əxz eləmişəm.

– Var olsun o ata ki, belə cəsarətli igid böyüdüb. Bəs neçə ildir orduda xidmət eləyirsən?

– Beş ildən yuxarıdır. Xidmətdən sonra evimizə qayıdıb, evlənmək, ev-eşik sahibi olmaq, ata-anama yardımçı kimi sakit həyat tərzi yaşamaq fikrindəyəm.

Qazi Bürhanəddin xeyli dinməmişdi. Sakit-sakit oğlanı bir də süzmüşdü. Onu buraya nə məqsədlə çağırdığını xəyalında götür-qoy eləmişdi. Fikirləşirdi ki, birdən məsələni açıqlasa, Qəməli razılaşmaz. Qazinin düşündüyü işin öhdəsindən gələsi adamlar uzun müddət sarayda təcrübəli adamların yanında olur, onlardan təlim alır, müəyyən vərdiş qazanırlar. Xüsusilə, gərək belə adamların iradəsi möhkəm olsun, gücü-qüvvəsi hələ bir yana. Ən başlıcası, kövrək adamlar belə iş üçün yaramırlar. O, cəlladın ki qılıncı sıyıranda əli titrədi, başı bədəndən bir zərbəylə ayıra bilmədi, demək, ondan şah cəlladı çıxmaz. Beləsi vəzifəsini icra edəndə bircə qüsura yol verdisə, onda adamların ürəyində cəlladdan çox, hökmdara qəzəb, nifrət, kin yuva qurar. Beləsi gərək hər edamda daha qətiyyətli olduğunu, daha güclü olduğunu əməlilə təsdiq eləsin. Qazi Bürhanəddin yan tərəfdə dayanmış baş əyana dedi:

– Bu cavanın ailəsini tapın, mənim adımdan hər cür köməklik göstərin. Bir qayğıları olmasın. Ayda bir dəfə də ailəsi ilə görüşmək üçün şərait yaradın. Hələlik, bir gün bəs eləyər. Sonralar onun istirahət günlərini artırmaq mümkündür.

Baş əyan hökmdarın məqsədini dərhal bilməsə də, sövq-təbii uzun illər Qazi Bürhanəddinin yanında olduğundan onu müşahidə etmək, məqsədini gizləyərək, örtülü şəkildə fikirlərini bildirməkdə gələcək üçün hansı plan qurduğunu demək olar, tamam-kamal öyrənmişdi. Hiss eləyirdi ki, bu cavanı hökmdarın məqsədi sarayda saxlamaq, ona mühüm iş tapşırmaq istəyir. Elə bu sarıdan bir az dalağı sancmışdı. Qorxurdu ki, bu cavan dö-

yüş məharətini bacarmağından başqa, həm də elm sahibi olsun. Axı o, savadlı, istedadlı gəncləri, cavanları özünə təhlükə hesab etdiyindən belələrinin Qazi Bürhanəddinin həndəvərində görünməməsi üçün ciddi-cəhd göstərirdi. Həmin nigarançılığı indi baş qaldırmışdı. Yaxşı ki, Bürhanəddin vaxtında dilləndi:

– Qəməli, sən de görüm, oxuyub-yazmağı bacarırsan?

– Xeyr, mənim hökmdarım, bu xoşbəxtlik mənə qismət olmayıb.

Hökmdar cavabdan məmnun qaldı. Bunu baş əyan özü də hiss elədi. Hərçənd ki, baş əyanın özü də sevinmişdi. Deməк, bu oğlan nə karəçi olur-olsun, lap ağzı ilə quş tutsa da, gələcəkdə ona heç bir təhlükə törətməyəcəkdi. Amma bir nigarançılıq da özünü göstərirdi. Qəməli savad almağı, oxumağı bacarmasa da, bu keyfiyyəti insanda xoşbəxtlik kimi təsəvvür edirdi. Adətən savadlı cavanlar qəddarlıqdan kənar olur, təbiətlərində bir kövrəklik, yumşaqlıq, mülayimlik özünü göstərir. Qazinin də bildiyi bu idi ki, belələri məqsədə yaramırlar. Burası da vardı, Qəməli savadsız idi. Oxudan, kitabdan kənarda qalmışdı. Onu məqsədəuyğun hazırlamaq elə də çətin olmayacaqdı. Bir işarə ilə yaxına gələn mühafizlər Qəməlini bir qədər kənara çəkdilər, amma dayanıb gözlədilər. Hökmdar təzədən baş əyana tərəf baxıb dedi:

– Necə düşünərsən, bu cavan bizim cəllad Abbasəlini əvəz eləyə bilərmi?

– Düşünürəm ki, hökmdarın fəhmi onu aldatmaz – baş əyan yaltaqcasına irişdi.

– Hə, elədi, özün bilirsən ki, Abbasəli qocalıb bir qədər kardan düşməkdədir. Birazdan sonra… – Qazi Bürhanəddin sözlərini tamamlamadı. Ancaq baş əyan özünə borc bildi onun fikirlərini davam etdirməyi.

– Hə, doğrudur, hökmdar, birazdan onun əli titrəyəcək. Ən pisi də odur ki, bir xirtdəyə iki zərbə endirməli olacaq. Bu da ki, hökmdarın fərmanına xoş olmayan münasibət yaradar. Hökm-

lərin dəqiq və yerində icrası həmişə hökm sahibinin nüfuzunun bir qədər yüksəlməsinə xidmət edər.

– Onda sən bu cavanla bağlı tapşırıqlarımı yerinə yetir. Gündəlik məşqlərində gözün olsun. Aradabir mən özüm də yoxlayacam. Özün bilirsən ki, əvvəlcə onun iradəsini möhkəmləndirmək gərəkdir. Qan tökmək, insan öldürmək onun üçün gərək o qədər asan peşə olsun ki, əli titrəməsin, gözü qorxudan səyriməsin.

– Baş üstə, hökmdar.

– Unutma, gərək onun ata-anası da nigaran qalmasın, övladının sarayda xidmət eləməyi ata-anaya fərəh gətirməsə, onda o bizə sədaqətlə xidmət eləməz. Hər şey nəzərdə tutulduğu kimi olsa, biz tezliklə, yaxın bir iləcən Abbasəlini əvəz edəcək cəlladımızı gözümüzün qabağında görə bilərik.

Daha örtülü heç nə qalmadı. Baş əyan hökmdara tam rəsmi qaydada təzim edib, yanından çıxdı. Mühafizlərin və Qəmərlinin yanından keçəndə onlara arxasınca gəlmələrini tapşırdı.

Qəməli əvvəlcə nazik yaş ağac şivlərini kəsməkdən başladı. Doğrudur, əvvəlcə ona belə xırda iş tapşıranda, o qədər də xoşlanmamışdı. Heç əvvəlcə hökmdarın məqsədini də bilmirdi. Get-gedə vəziyyət dəyişməyə başladı, bir gün ərzində aşpazxanada işlədiləcək ərzaq üçün ayrılan toyuq-cücəni, sonra qoyun-keçini, daha sonra iribuynuzlu heyvanları da kəsməyi ona tapşırdılar. Ancaq bu heyvan kəsmək işi çox davam eləmədi. Tezliklə ona sifariş elədilər ki, qoyun-quzunun başını balta ilə bir dəfəyə zərbəylə üzsün. Qəməli buna təəccüb qalırdı. Axı heyvanı kəsməyin, xüsusilə, əti yeyiləsi heyvanın halallıq üsulları vardı. Heyvan yerə yıxılır, ayaqları bağlanır, başı qibləyə tutulur, kəsim duası oxunur, «Bismillah» deyilib bıçaq başına çəkilirdi… Qəməli ona təklif olunan kəsimlərin belə qeyri-adiliyini görəndə etiraz eləmiş: «Mən günaha bata bilmərəm» – demişdi. Bu zaman cəlladlıq təlimçiləri ona başa salmışdılar ki, ordu üçün hazırlanan yeməyi sən deyən qayda ilə icra eləmək mümkün deyil.

Bu da Qəməlinin ağlına batmışdı. Get-gedə Qəməli özü də hiss eləyirdi ki, varlığında bir dəyişiklik yaranır, canlının ölümü, qanın şoralanıb axmağı onun üçün adi bir mənzərəyə çevrilir. Elə bil hiss edirdi ki, daşlaşır, onda ətrafa seyirçi bir münasibət yaranır. Ən ağır qan tökmələrdə belə təlimçinin zarafatına zarafatla, gülüşünə qəhqəhəylə cavab verirdi. Bundan sonra daha ciddi mərhələ başlanır. Ayrı-ayrı təhlükəli adamların səssiz-səmirsiz aradan götürülməsi işlərinə cəlb olunur. Onun güclü əllərinin arasında ölüm hökmü verilmiş adam bir anda canını təslim eləyir. Dəmir kimi barmaqlar öldürülməli olanın boğazından yapışır. Az keçməmiş insan qaralır, boğulur, dili ağzından çıxır, heydən düşürdü. O da cansız cəsədi yerə buraxırdı. Yaxud başı kəsilməklə edama məhkum olunanları öldürəndə, əlinin titrəməməyi bir tərəfə, heç gözləri də səyrimirdi. Olurdu ki, edam elə zindanın bir küncündə icra olunurdu. Hansı qayda ilə edam olunmağın tapşırığına uyğun Qəməli öz vəzifəsini layiqincə yerinə yetirirdi. Əgər ölümə məhkum edilənin qarnı cırılmaqla edamı üçün fərman verilmişsə, onda məhkumu oturduğu vəziyyətdə divara bağlayıb, əllərini-ayaqlarını açıq qoyurdular. Qəməli də tapşırığa əsasən bıçağı məhkumun qarnına ilişdirib çəkir, məhkum açılıb, tökülən bağırsaqlarını əllərilə qucaqlayıb, yerindəcə canını tapşırırdı.

Doğrudur, hərdən Qəməlinin yaddaşı oyanırdı. İnsanın necə əzabla öldüyünü görəndə, xüsusilə, bu ölümün onun öz əlləri ilə icra olunduğunu düşünəndə qeybdən üstünə bir günah seli axırdı. Belə anlarda istəyirdi ki, bir yolla canını bu üzücü əzablardan xilas eləsin. Çarə yolu, çıxış yolu görməyəndə belindəki – kəmərindəki xəncərini çəkib öz sinəsinə soxmaq, daşlaşmış ürəyinə xatırlatmaq istəyirdi ki, o, yırtıcı ürəyi deyil, insan qəlbidir. O daş deyil, qaya parçası deyil, insan ürəyidir.

Ancaq bu hiss Qəməlidə çox davam etmirdi. Ötəri bir hal kimi tez keçib gedirdi. Beləliklə, Qəməli öz peşəsinin sadiq quluna çevrildi. Daha insan olmağı heç yadına düşmürdü. O, təzədən qayıdıb

insan olmağı heç istəmirdi də. Əvəzində dəfələrlə hökmdardan ənamlar almışdı. Hərdən vaxtı olanda küçəyə, bazara çıxanda, görüb-tanıyanlar qarşısına çıxanda onu altdan-yuxarı süzürdülər. Doğrudur, çoxları bilmirdi ki, o, hökmdarın cəlladıdır. Axı meydan edamlarında demək olar ki, onun həmişə üzü bağlı olur, ancaq gözləri görünərdi. Hər halda, kimlərsə yaxından-uzaqdan tanıyır, cəlladlığını hiss eləyirdi. Belələri vahimə ilə baxır, sanki gözlərini görməklə, qorxu və təlaş keçirir, tez də ondan aralanırdılar.

Qəməlinin ailəsi yaxşı yaşayırdı. Qoca ata-anasına kənd-kəsəkdə hörmət göstərirdilər. Bəs necə? Axı onların oğlanları hökmdar qulluğunda idi. Bir qayda olaraq cəlladlıq işi haqqında evinə, ailəsinə bir kəlmə də olsun, məlumat ötürmürdü. Amma get-gedə bir qaraqabaqlıq yarandı onun xasiyyətində. Çox əhatəli, nağılvari söhbətlərə qoşulmurdu.

Bütün bunların hamısı artıq olub-keçmişdi. İndi onun hüzurunda son aylaracan elə bütün məmləkətin rəğbət bəslədiyi Əhməd dayanmışdı. Əhmədi lap kötüyün yanına çəkdilər. Artıq gözləri bağlı idi. Onu kötüyün qabağında diz çökməyə məcbur elədilər.

Əhmədi edama gətirənlər təkid elədilər ki, başını kötüyün üstünə qoysun. Ancaq nə qədər çalışdılarsa, Əhməd bu tələbi yerinə yetirmədi. Daha təkid eləmədilər. Deyəsən, Qəməlinin işarəsi ilə kənara çəkildilər. Qəməli qılıncın dəstəyindən ikiəlli yapışmışdı. O, ikiəlli tutduğu qılıncı başıboyu yuxarı qaldırmışdı. Və bir anda qılınc havanı üzüaşağı yardı. Əhmədin açıq boyuna çatmış qılınc axırıncı dəfə parıldadı və bir anda baş bədəndən ayrılıb, kötüyün o tərəfinə düşdü. İki nəfər Əhmədin ayaqlarından tutub, cəsədini sürüyə-sürüyə bir tərəfə, başqa birisi də əlində tutduğu dəri torbanın içərisinə onun başını qoydu.

Əhmədin şah damarlarından fışqıran qan hələ də fışqırırdı. Qoşa qan izi elə bil ki, hansısa qaranlıq bir gələcəyə yol açırdı. Birdən sanki Qazi Bürhanəddin ayıldı.

– Qara Yuluq Osman hanı? – qətiyyətlə soruşdu. Amma Qara Yuluq Osmanı «gördüm» deyən tapılmadı.

* * *

Əhmədi edama aparanın çiyninə atdığı qara, kiçik şal örtüyünü görəndə, Qara Yuluq Osman başa düşdü ki, Qazi Bürhanəddinin fikri qətidir. O, axşamdan bəri dəfələrlə təşəbbüs göstərmişdi ki, Qazi ilə təzədən görüşsün. Ancaq yaxına buraxmamışdılar. Doğrudur, bu da Qara Yuluq Osmanı qəzəbləndirmiş, az qala mühafizə başı ilə qılınc savaşına çıxmalı olmuşdu. Mühafizəbaşının yalvarışlı nəzərlə «axı mənim günahım yoxdur» deməsi onu sakitləşdirmiş və yalnız bundan sonra əlini qılıncın dəstəyindən çəkmişdi. Onsuz da ətrafda dayanan mühafizəçilərin də əmrə tabe olduqlarını və onlarda da bir günahın olmadığını bildiyindən Qara Yuluq Osman geri dönməli olmuş, gecəni səhərəcən yatmamışdı. Gözünü yuman kimi edama aparılan Əhməd gəlib dururdu qənşərində.

«– Axı mən gəlmirdim, Qara!

– Doğrudur, bütün günahlar məndədir.

– Mən heç də elə düşünmürəm, günahı səndə görmürəm.

– Başqa kimin günahı ola bilər?

– Sənin, bizim, hamımızın. – Xəyalındakı Əhmədin bu cavabı onu bir qədər də təəccübləndirdi. Nəyə görə Əhməd günahı kimsədə yox, hamıda görürdü?

– Bəlkə, açıq danışasan, Əhməd? Necə yəni, hamımızın?

– Bəli, günah hamımızındı. Qazi Bürhanəddinin yolunda ölümə gedənlərin, uğrunda savaşa atılanların, ona inanıb hakimiyyətini qorumaq üçün xidmət edənlərin hamısının günahı var.

– Demək, günah bizim inamımızdadı. Əgər bu inam olmasaydı, elə səninlə mən – Qazi Bürhanəddinin iki bacısı oğlu əldə qılınc dəfələrlə özümüzü ölümün ağzına atıb onu qorumazdıq.

– Əlbəttə, biz onu qorumasaydıq, baş əyan kimi yırtıcıların caynağında parça-parça olardı. – Əhməd çox qəzəbli görünürdü.

Və həm də bu qəzəbində dayısı Qazi Bürhanəddinə inanıb onun uğrunda savaşdığına görə bir təəssüf hissi də vardı.

– Doğrudur, Əhməd – Qara Yuluq Osman təsdiqlədi, sonra sözünə davam elədi. Ancaq bir məsələ də var. Axı biz yalnız Qazi Bürhanəddinin uğrunda yox, həm də doğulub, böyüdüyümüz torpağın uğrunda vuruşmuşuq. Onu yağılardan, yad ellilərdən qorumuşuq.

– Doğrudur, Qara Yuluq Osman. – Əhməd sərt və ciddi, bir qədər də rəsmi təsdiqlədi. Elə bil ki, onlar döyüş meydanında idilər. Və Əhməd öz sərkərdəsinə cavab verirdi.

Bir xeyli sükut oldu. Nə Qara Yuluq Osman, nə də qarşısındakı xəyal Əhməd dinib-danışmadı. Aradan nə qədər vaxt keçdiyini Qara Yuluq Osman hiss eləmədi. Ancaq göz qapaqları da bağlanmırdı. Hansısa bir qaranlığa zillənib qalmışdı. Hərdənbir uzandığı yerdə təngənəfəs olur, ürəyi döyünürdü. Nəbzi sürətlə vururdu. Qalxıb yerinin üstündəcə oturdu.

Fikrindən keçirtdi ki, qılıncını sıyırıb elə buradan qapıya çıxsın. Qara Yuluq Osmanın fikri qarışdı. Get-gedə həqiqətən də elə indicə savaşa qalxmaq, Qazi Bürhanəddinin üstünə yerimək istəyirdi. Onun iqamətgahına qədər qarşısına kim çıxsaydı, hamısını qılıncdan keçirməyə hazır idi. Təki özünü Qazi Bürhanəddinin yanına siyirməqılınc yetirə biləydi.

Heç tərəddüd eləmədən qılıncı onun başının ortasından endirər, zalımı iki şaqqaya ayırardı. Doğrudur, o, belə düşünürdü. Belə eləməyə hazır idi. Ancaq belə eləmək mümkün idimi? O, irəli yeriyə bilərdimi? Özünü Qaziyə çatdıra bilərdimi? Elə yarı yoldaca kiminləsə üzbəüz savaşdığı halda başqa bir mühifizəçinin kənardan atdığı nizə kürəyinin arasından keçib, sinəsindən çıxmazdımı? Yox, bu, ağıllı yol deyildi. Belə olduğu halda onun özü də öldürülər və Qazi də baş əyanın fitvasına aldanıb, verdiyi fərmanın uğurlu icrasına təntənə ilə baxardı. Eləcə də, niyyətlərini ustalıqla gizləyən baş əyan asanlıqla onun

əvəzinə oğlunu hərbi qüvvələrə komandan təyin eləyər. Və bundan sonra onun özünün hakimiyyətə gedən yolu açılardı. Yəqin ki, baş əyan taxt-tacı Qazinin əlindən alıb hakimiyyəti qəsb etdikdən sonra Qazinin bütün nəslini yer üzündən siləcəkdi. Və təbii ki, belə olduğu halda Qara Yuluq Osmanın da, Əhmədin də bütün yaxınları, doğmaları qılıncdan keçiriləcəkdi. Allah bilir, sonra baş əyan bu torpağın, məmləkətin başına daha hansı fəlakətləri gətirəcəkdi.

«– Sən ruha inanırsan, Əhməd, necə bilirsən, ruhumuz bizdən sonra yaşayırmı?

– Qara Yuluq Osman, unutma ki, əgər ruhumuz bizdən sonra yaşamasaydı, onda insanların keçmişlə bağlı bütün yaddaşları beyinlərindən silinərdi.

– Hə, demək, onda biz ona görə keçmişdə olan yaxşıları yadımızdan çıxara bilmirik. Yaxşı olan nə varsa, hamısına ona görə ehtiramla yanaşırıq ki, yaddaşımız bizə hakimlik etsin. Yaddaşımız isə ruhun varlığının təsdiqidir.

– Başqa sözlə, yaddaş elə bizim ruhumuzdu. Doğrudur, Əhməd, elə belədir.

– Bununla nə demək istəyirdin, Qara Yuluq?

– Heç… onu deyirəm ki, gərək sən ölümünə qənşər mərdliklə gedəsən. Ruhunun mənim canımda yaşayacağına inanasan.

– Bilirəm, Qara Yuluq, mənim bu dünyada iki doğmam var idi. Əlbəttə, bunun biri sənsən. Biri də… – Əhməd sözünün davamını gətirmədi. Yenə xeyli dinmədi.

Qara Yuluq Osman onu kimin nəzərdə tutduğunu anlasa da, bilsə də, istəyirdi ki, Əhmədin öz dilindən bu adı eşitsin. Əlbəttə, bəlkə də sonuncu dəfə.

– Hə, odur, – Əhməd sözünə davam elədi. Ancaq yenə ad çəkmədi.

– Kim? Kimi nəzərdə tutursan? – Qara Yuluq Osman təkrarən soruşdu.

– Sən yaxşı bilirsən ki, Gülçöhrə mənim varlığım idi. Bəlkə də həm də məni edama gətirən ən böyük güc ona olan sevgim, heç olmasa onu bircə dəfə görmək istəyim olub».

Qara Yuluq Osmanın gözləri doldu. Ovcu ilə gözlərinin yaşını sildi. Elə bil ki, gözlərindən bulaq açılmışdı. Əlləri göz yaşları ilə islandı. Ovuclarını qoşalayıb sanki bulaqdan su doldurub, üzünə vururmuş kimi yanaqlarına çəkdi. Əllərilə başını ovuşdurdu. Bilmədi, nə qədər ağladı. Onun gözlərindən nə qədər yaş getdi? Amma hiss elədi ki, Əhmədlə xəyali danışığından sonra xeyli sakitləşdi. Elə beləcə oturmuş vəziyyətdə divara söykəndi. Vaxt dayanmışdı. Gecə irəli yerimirdi. O, nə vaxt qurtaracaqdı, harada bitəcəkdi, bunu bilmirdi. Elə bu ağır düşüncələrin içərisində divara söykənmiş halda, deyəsən, bir balaca yuxulamışdı. Və artıq səhərin açıldığını da bəbəklərinə düşən işartı deyirdi.

…Yox, belə allahsızlığa davam gətirmək olmazdı – Qara Yuluq Osman düşündü. Və həmin andaca elə səhər açılar-açılmaz, lap elə meydanda öz adamlarına, yaxınlarına xəbər eləyər, ustalıqla kimsəyə bildirmədən yavaş-yavaş uzağa çəkilər. Orduda olanlar ordudan ayrılar, əyalətin mərkəzində onun ixtiyarında olan hərbi dəstələr də əyalətdən çıxmağa hazır vəziyyətdə olacaqlar. Onun qapısının ağzında həmişə ən yaxın adamları keşik çəkirdi. İkibir, üçbir Əmir Əsgər, Lətif bəy, İlyas ağa indi qapının kandarını kəsmişdilər. Qara Yuluq Osman paltarını geyib, müsəlləh olduqdan sonra qapıya çıxdı. Yuxarıda Allah, aşağıda sakit-sakit uyuyan insanlar. Daha başqa bir kimsənin səsi-ünü yox idi.

İlyas ağanı yaxına çağırdı. Gecənin necə keçdiyini, təzə bir xəbərin olub-olmadığını, hökmdarın sarayından kiminsə bir məlumatla kənara çıxıb-çıxmadığını soruşdu. Sonra İlyas ağa ilə birlikdə Əmir Əsgərin və Lətif bəyin yanına gəldi. Səhər açılmaqdaydı. Ancaq Ay batmamışdı. Bütün parlaqlığı ilə işıq saçırdı. Bir tərəfdən iri qara bulud layı Ayın üzünə tərəf sürünürdü. Yavaş-yavaş, asta-asta yəqin bir qədərdən sonra onun qabağını

alacaqdı. Qara Yuluq Osman bu müsəlləh adamlara bir də nəzər yetirdi.

– Hə, nə deyirsiniz, neyləyək? – Qara Yuluq Osman bir-bir silahdaşlarının üzünə baxdı.

Hər üçü müntəzir dayanmışdı. Lakin İlyas ağa cavab verdi:

– Yox, sərkərdəmiz, biz heç nədən qorxmuruq.

Qara Yuluq Osman gördü ki, bu silahdaşları onu necə inamla süzür. Onların da gözlərindən qətiyyət yağırdı.

– Heç bir müzakirəyə vaxt yoxdu, İlyas ağa, sən tez Rəhim bəy Köylünü, Zaman ağanı və Azadxahı tap. Biz edamdan bir az əvvəl, bəlkə lap tez adamlarımızla birgə buradan çıxacağıq.

– Hansı tərəfə? – komandan bu dəfə Əmir Əsgər dilləndi.

– Tərəfi sonra müəyyən edərik, ancaq Diyarbəkirdən üç ağac o tərəfə vadinin yanındakı bulaq başında, qədim çinarın altında görüşərik. Yaxşı olar ki, işinizi ehtiyatlı tutasınız, adamlar nəzəri cəlb eləməsin. Hamınız Əmir Əsgərə tabesiniz, qalan bölmələrdə də hamı öz yerində olacaq.

Qara Yuluq Osmanın sözlərindən sonra Əmir Əsgər başa düşdü ki, o, özünə sadiq qüvvələri dedikdə məhz öz rəhbərliyi ilə ayrı-ayrı döyüşlərə apardığı və eləcə də təlim keçdiyi dəstələri nəzərdə tutur. Bu dəstələrin də başçıları məlum idi. Elə həmişə döyüş planlarını müzakirə elədiyi bu adamlar yəni Əmir Əsgər başda olmaqla – Lətif bəy, İlyas ağa, eləcə də süvari dəstələri ilə ad çıxarmış Rəhim bəy Köylünün, Zaman ağanın və Azadxahın hər biri öz işini bilən döyüşçülər idi. Onlar dəstəbaşılıqda da kifayət qədər təcrübə toplamış çevik hərəkət ustaları idilər. Ayrı-ayrı mücadilələrdə Qara Yuluq Osmanın tapşırığı ilə bu cavan süvari döyüşçülərin hər biri qızılquş kimi düşmənin cinahlarına təpilir, sürətlə hərəkət edib cəhbənin arxa tərəfindən həmlə edir, yağı arasında çaxnaşma yaradırdılar.

Qara Yuluq Osman anlayırdı ki, özünə sadiq qüvvələri, bu altı igidin hər birinə tabe olan ayrı-ayrı yüzlük atlı dəstələrinin

gələcəkdə ola bilsin ki, sonuncu nəfərinəcən ölüm gözləyir, ancaq o düşünürdü ki, ədalətli adam daha haqlı, daha güclü olar. Ona görə də, cəsarət edib belə bir tapşırıq üçün qərar vermişdi…

…Qara Yuluq Osmanın dəstələri əyalətin mərkəzindən artıq üç ağaclıq məsafədə – uzaqlıqda idilər…

Vaxt neçə keçmişdi, zaman hansı sürətlə adlamışdı – demək çətin idi. Olan, gözlənilən olmuş, bitmişdi.

…Yeni dövr başlayırdı. Qazi Bürhanəddin Osmanın meydanda olmadığından xəbər tutub hövlnak ətrafına boylananda artıq çox gec idi…

* * *

Əyalətin mərkəzindən üç ağaclıqda – vadinin yuxarı tərəfində adamların cəmləşmək imkanı olan bir yer Əmir Əsgərin diqqətini cəlb eləmişdi. O da öz növbəsində Lətif bəyə orda görüşəcəklərini demişdi. Beləliklə, xəbər İlyas ağaya çatdırılmış, o da Qara Yuluq Osmana görüş yerini bildirmişdi. Qara Yuluq Osman da öz növbəsində Rəhim bəy Köylüyə və Zaman ağaya tapşırıqlar verməli olmuşdu. Azadxah isə əslində, məsələnin nə yerdə olduğunu, lap elə əvvəldən bilirmiş. Çünki Azadxah həmişə Qara Yuluq Osmanın ətrafında hərlənər, bir növ onun təhlükəsizliyini qorumağa çalışar, özü də vəzifəsindən kənar bir iş olaraq.

Əlbəttə, öz vəzifəsini də, işini də qaydasında aparmağa çalışsa da, hər vaxt Qara Yuluq Osmanın yanında olmaq ona ayrıca zövq verirdi. Qara Yuluq Osmanı istəməyən, onun qanını içməyə hazır kimsələr vardı ki, yağlı dillərini işə salıb hər vaxt Qara Yuluq Osmanın böyür-başında hərlənirdilər. Özləri imkan düşən kimi, Qara Yuluq Osmandan öyrəndiklərini, eşitdiklərini tez baş əyana çatdırırdılar. Ancaq Azadxah həm Qara Yuluq Osmanın təhlükəsizliyini qorumağa çalışır, həm də onun ətrafında daha yuxarıların toxuduğu torların ilgəyi kimin əlindədi, bunu nəzərdən qaçırmazdı. Məsələnin qəlizləşdiyi məqamlarda Azad-

xah həmin andaca qabağa durar, hiylələrin, kələklərin kimdən gəldiyini, hansı hadisələrdən qaynaqlandığını Qara Yuluq Osmana çatdırardı. Daha doğrusu, Qara Yuluq Osman mətləbi anlamayanda, məsələnin dolaşmağının kökünü bilməyəndə, suallı baxışlarla bu yaxın silahdaşlarının bir-bir gözlərinə nəzər yetirərdi və onda Azadxahın dili açılardı. Və Qara Yuluq Osman da bu təpədən-dırnağa sədaqət nümunəsi olan insanın kimliyi haqqında düşünərdi. Hətta orasını yaddaşına gətirərdi ki, bir vaxt imkan olan kimi onun bir tərəfini bütövlükdə qoruyan Rəhim bəy Köylünün, Zaman ağanın və Azadxahın heç bu Anadolu tərəflərdən olmadığını da, bu yerlərə necə gəlib çıxdıqlarını da onlardan ətraflı soruşsun. İstəklərinin, qayğılarının nədən ibarət olduğunu bilsin. Uzun illər ərzində nə Rəhim bəy Köylü, nə Zaman ağa, nə də Azadxah Qara Yuluq Osmana yanaşıb orduda sədaqətlə qulluq eləməklərinin əvəzində nəsə istəməmişdilər. Doğrudur, Qara Yuluq Osman nə Zaman ağanın, nə Azadxahın haradan gəlib orduya qoşulmaqlarının kökünü yetərincə bilməsə də, Rəhim bəy Köylünün Arazqırağından, Xudafərin üstündən olmağını bilirdi. Onu da bilirdi ki, Zaman ağa da, Azadxah da elə Rəhim bəy Köylü ilə birgə gəlib orduya qoşulmuş və Qazi Bürhanəddin uğrunda bütün döyüşlərdə fədakarlıqla vuruşmuşdular. Sonralar Rəhim bəydən eşitmişdi ki, elə Zaman ağa da, Azadxah da Rəhim bəy Köylünün gəldiyi Qaradağ tərəflərdəndir. Deyəsən, Zaman ağa dağ Qarabağından idi, Azadxah aran Qarabağın bəri üzündən onlara qoşulmuş, uzun müddət yol qət eləmiş, ayrı-ayrı yerlərdə baş girləmiş və nəhayət, Qazi Bürhanəddinin ordusuna, lap dəqiq desək, Qara Yuluq Osmanın özünə tuş gəlib, dəstəsinə qoşulmuşdu. İndi hadisələrin elə vaxtı idi ki, Qara Yuluq Osman çox təəssüf eləyirdi. Axı niyə indiyəcən ona bu qədər sədaqətli olan bu dəstəbaşıların həyatı, taleyi ilə maraqlanmayıb? Onların hansı qayğılarla yaşadıqlarından xəbər tutmayıb? İndi hadisələrin belə kəskin bir şəkil almağından sonra sağ və sol

cinahlarında, cəbhənin ən ağır yerlərində döyüşməkdən yorulmayan bu igidlərin sədaqəti Qazi Bürhanəddindən çəkinmədən, ölüm qorxusuna sinə gərərək, onunla birgə əyalətdən çıxmağa cəhd göstərən, bir sözlə, Qara Yuluq Osmanın uğrunda canından keçməyə hazır olan bu adamların sonsuz fədakarlıq, ölüm qorxusuna üstün gəlmək cəsarətləri onu kövrəldirdi.

Qara Yuluq Osman çoxlarına yaxşılıq etmiş, çoxlarını qanadının altına çəkmişdi. Əyalətin adlı-sanlı, artıq varlı-karlı olan adamlarının xeylisi onun sayəsində ev-eşik sahibi olmuş, mülk-mal qazanmışdı. Ancaq ağır günlərdə o yaxşıca gördü ki, bu şəxslərin heç biri onun gözünə dəymir. Səbəbi də bu idi ki, artıq əyalətin hər tərəfinə Qazi Bürhanəddinin özünün bacısı oğluna, yəni Qara Yuluq Osmana soyuq münasibəti haqqında söz-söhbət yayılmışdı. Hamıya məlum idi ki, Əhməd edam olunacaq, öldürüləcək. Və bir sözlə, Əhmədin ölümü kimdə rəğbət doğurmayacaqdısa, onun hamısına Qara Yuluq Osman şübhə ilə baxacaqdı. Belələrinin hamısı lap elə gözünün işığı olsa, doğması olsa belə Qazi Bürhanəddinin gözündən düşəcəkdi. Beləlləri üçün hökmdarın nəzər-diqqətindən düşmək Allahın gözündən düşmək kimi görünürdü. İndi vaxt ötdükcə, zaman keçdikcə bu bir neçə gün ərzində Qara Yuluq Osman ətrafında olan sıxlaşmanın necə seyrəldiyini də yaxşı görürdü. Bir gözü Qazi Bürhanəddində olan adamlar son nəticədə Qara Yuluq Osmanın tərəfində olsa belə, axırda bir fayda verməyəcəklərini hərəkətləri ilə elə bəri başdan bəyan edirdilər. Ancaq Qara Yuluq Osman onu da görürdü ki, onun xətrini istəyən adamların sayı heç də qarşısını kəsəcək adamlarla müqayisədə gücsüz deyil. Qazi Bürhanəddinin bütün divanı, tərəfdarları olan kəslər, ordunun say-hesabı ilə böyük əksəriyyəti heç şübhəsiz ki, Qara Yuluq Osmanı müdafiə etməyəcəkdi. Bəli, bu, böyük kəmiyyət idi. Qara Yuluq Osman isə bir hərbçi kimi, demək olar, ordu başçısı kimi yaxşıca görürdü ki, say tərkibi etibarı ilə Qazi Bürhanəddinin gücü çox olsa da, ancaq fədakarlıq ba-

xımından, inamla döyüş baxımından söz sahibi olan kəslər onun ətrafındadır. Doğrudan-doğruya, nə Əmir Əsgər, nə Lətif bəy, nə İlyas ağa kimi sərkərdələrini, döyüş ustalarını əvəz edən, yaxud onların qabağına çıxa biləcək güc sahibləri Qazi Bürhanəddinin tərəfində yox idi. Və bu da Qara Yuluq Osmana bir az da inam verirdi ki, Qara Yuluq Osmanın adından istifadə eləməklə guya məmləkətin təhlükəsizliyini qorumaq üçün yığılmış, toplanmış, birləşmiş qüvvələr onun hərbdə formalaşmış, hərb elmini bilən qoçaq dəstəbaşılarının qabağında dayana bilməyəcəklər. Əsas da o idi, onsuz da adamlar baş əyanın fəndgirliyindən, hiyləsindən qədərincə xəbərdar idilər. Onlar yaxşı bilirdilər ki, heç də baş əyan Qazi Bürhanəddinə axıracan sədaqət göstərənə oxşamır.

Bəlkə də hamıya aydın idi ki, baş əyan bir imkan düşən kimi çox asanlıqla Qazi Bürhanəddinin özünü tələyə salacaq. Bir yolla aldadacaq, aradan götürməyə çalışacaq. Əslində, ayrı-ayrı adamların bu şübhələri tamamilə doğru idi. Ancaq cüzi bir fərqlə. Baş əyan istəyirdi ki, Qazini elə bir yolla tələyə salsın, onu məhv eləsin ki, əyalətin adamları, lap Qazi Bürhanəddinin doğmaları, ailə üzvləri başına bəlanın haradan gəldiyini qətiyyən bilməsinlər. Baş əyan özü də Qazinin oğlu Elməddin Əli Çələbinin himayədarı kimi hakimiyyəti ələ alsın. Və idarəetməni əlində elə möhkəm saxlasın ki, Qazinin ailə üzvləri, lap elə oğlu da öz təhlükəsizliklərinə görə baş əyana minnətdar olsunlar, ondan razı qalsınlar. Baş əyan hiyləgərcəsinə düşünürdü ki, əgər hər hansı məqsəd üçün ardıcıl və mübarizə aparırsansa, hətta məqsədin nə qədər qara niyyətli olsa belə, onu gərək xalqa xeyirxah niyyət donunda göstərə biləsən. Ona görə işlərini elə qurmaq istəyirdi, o, xalqın gözündə Qazi Bürhanəddinin xeyirxahı kimi tanınsın.

...Qara Yuluq Osmanın yoxluğunu, ona yaxın gələ bilməyən adamların bir çoxunun gözlərindən oxunan qorxu və vahiməni görən Qazi Bürhanəddin qeyzlə qışqırdı:

– Baş əyan, haradasan?

Baş əyan tez yaxına gəlib təzim elədi:

– Eşidirəm, hökmdar. Mən hər vaxt qulluğunuzdayam.

– Necə qulluğumdasan ki, Qara Yuluq Osman və onun tərəfdarları meydanda gözümə dəymir?

– Mən də bunu sezmişəm, hökmdar.

– Bəs onda mənə niyə deməmisən?

– Hökmdar, mən adamlarımı göndərmişəm. Onun harada gizləndiyini öyrənib, səhih məlumat almaq istəyirdim, sizə məsələnin nə yerdə olduğunu dəqiq söyləyim. Ona görə bir qədər gecikmişəm.

– Sən dəqiq məlumat öyrənib mənə çatdıranacan Qara Yuluq Osman bütün məmləkəti özünə tərəf döndərəcək. – Qazi Bürhanəddin nə qədər qəzəbli olsa da, özünü tox tutmağa çalışdı. İstədi öz qəzəbilə ətrafında qalan bu biveç adamları – yalnız öz qarınlarını otaran və ciblərini güdən adamları özündən narazı salmasın. Yoxsa yaxşıca görürdü ki, qarşıdan gələn qorxunun müqabilində baş əyan elə həmin andaca öz başını və var-dövlətini qurtarmaq naminə yaxasını kənara çəkər.

Qazi Bürhanəddin artıq işin işdən keçdiyinin, baş əyanın günahlı olub-olmadığının fərqinə varmadı. Ona yarımqəzəb və yarımkinayə ilə baxıb – bir yuxarı bax, – dedi. Həmin andaca baş əyan Qazinin önündə dimdik durdu. Qazinin gözlərinin içinə baxdı. Qazi Bürhanəddin bir xeyli onu süzəndən sonra yumşaq və bir az da məhrəmanə səslə dilləndi:

– İndi nə gözləyirsən? – Gözləyirsən ki, Qara Yuluq Osman bizdən ayırdığı qüvvələrlə birgə, hələ üstəlik yolboyu camaatı da öz tərəfinə çəkib üstümüzə yerisin?

– Bu bizim axırımız olar, hökmdar.

– Bəs onda bilmirsən ki, dayanmağa vaxt yoxdur.

– Başa düşürəm, hökmdar, əmrini gözləyirəm.

– Bütün qüvvələri cəm elə. Özün ordunun başında dur. Mən özüm də rəhbərlikdə olacağam. Elə günü sabah, səhər obaşdan

biz Qara Yuluq Osmanı təqib etməliyik. Ona nəfəs almağa, güc toplamağa imkan verməməliyik.

Amma baş əyan diqqət eləyib gördü ki, hökmdar Qara Yuluq Osmanın ölüm fərmanını vermədi. Demək, hömkdar istəyir ki, Qara Yuluq Osman diri tutulub, hüzuruna gətirilsin. Bunun da mənası onun üçün aydındır. Əgər Qara Yuluq Osman döyüşdə öldürülsəydi, onda ola bilsin, xalq Qaziyə nifrət eləsin. Bu ölümü qanunauyğun hal kimi qəbul eləməsin.

Demək, baş əyan hesabını götürmüşdü. O, Qara Yuluq Osmanı mühasirəyə almalı, adamlarını qırıb-çatmalı, lap elə qanı su yerinə axıtmalı idi. Və Qara Yuluq Osman döyüş meydanında tək-tənha qalıb, mühasirədə tərk-silah olunmalı, qolları arxadan bağlanmalı, əsir götürülməli, Qazinin hüzuruna gətirilməliydi. Bundan sonrası Qazi Bürhanəddinin öz işi idi. Onu necə danışdıracaq, hansı cəzanı verəcəkdi, bunu özü bilərdi. Bəlkə elə onu məcbur edəcəkdi ki, bütün xalqın qarşısında diz çöküb, Qaziyə yalvarsın, ondan bağışlanmasını istəsin. Qazi də usta adam idi. Hər işin təhərini yaxşı bilirdi. Camaatın qarşısında Qara Yuluq Osmanı tamam-kamal alçaldacaq, əzəcək, sonra ona rəhm etdiyini bildirəcək, bəlkə də bir gün zindanda ikən onu zəhərləməklə istəyinə dolayı yolla yetəcəkdi. Bununla da Qara Yuluq Osman adamların yaddaşından silinib gedəcəkdi. Və Qazi də hörmət-izzətini qoruyub saxlayacaqdı.

Əslində, baş əyana da elə bu lazımdı. O istəyirdi ki, elə döyüşdə Qara Yuluq Osman Qazi Bürhanəddini sıradan çıxarsın. O da hakimiyyətə Qazinin varisini himayə edən, hakimiyyəti qoruyan bir şəxs kimi gəlsin. Yalnız bununla baş əyan əhalini özünə tabe edə bilərdi.

Baş əyanın bəxti üzünə gülmüşdü. Ürəyi pərvazlanıb uçurdu. Az qala özünü hakimiyyətdə təsəvvür edirdi. Ancaq hələ bunun üçün xeyli gözləməli və sonra elə ilk fürsətdəcə hakimiyyət uğrunda böyük savaşa qoşulmalı idi.

Qüvvələr pərakəndə olsa da, baş əyanın özünə tabe adamların sayəsində tez müsəlləh oldu. Savaşa getməli hər kəs öz dəstəsindəydi. Doğrudur, artıq ordunun döyüşkən hissəsi yox idi. Xüsusilə, Qara Yuluq Osmana rəğbəti olan döyüşkən suvari dəstələri o sıradan Əmir Əsgərin, Lətif bəyin, İlyas ağanın qüvvələri – bu həmin qüvvələr idi ki, əsasən Qara Yuluq Osmanın özünün qohumları, əqrəbaları, yəni hökmdarın özünə yaxın adamlar idilər. Baş əyan bir qədər araşdırandan sonra gördü ki, hər vaxt ona şübhəli görünən, yadlıqları ilə baş əyanda narahatlıq yaradan Rəhim bəy Köylünün və Zaman ağanın, eləcə də hələ indiyəcən də Qara Yuluq Osmana, yoxsa ona yaxın olduğunu bilmədiyi Azadxahın dəstələri gönürmür. Həmin dəstələr artıq orduda yox idi. Baş əyan say-hesab elədi. İndiki halda əgər Qara Yuluq Osmanın dəstəsinə qoşulanların ancaq bu dəstəbaşılara tabe olduqlarını düşünməli olsaydı, onda gərək inanaydı ki, Qara Yuluq Osmanın altı yüz nəfərdən o tərəfə gücü-qüvvəsi olmayacaq. Baş əyan bu hesablamadan sonra bir qədər dirçəldi. Bir az keçəndən sonra lap elə hündürdən gülməyə başladı.

– Sən nəyə gülürsən, ata?

– Ona gülürəm ki, oğul, hakimiyyətin qapısı üzümüzə açılıb.

– Necə yəni hakimiyytin qapısı üzümüzə açılıb, axı qabaqda Qara Yuluq Osman kimi ciddi qüvvə var.

– Bizim də əlimizdə on min nəfərlik ordu var. Biz bu döyüşdən hakimiyyətin sahibi kimi qayıdacağıq.

– Onu Allah bilər, – oğlu baş əyanın eşitmədiyi bədbin şəkildə astaca dilləndi.

* * *

Baş əyan gecəni yaxşı yatmamışdı. Əvvəlcə yerinin içinə qor dolmuş kimi o yana-bu yana çevrildi. Hələ aradabir hiss elədi ki, onu qara basır, lap boğulur. Durub yerinin içində oturdu. Yaxın günlərdə hadisələrin necə cərəyan edəcəyini, kimin bəxt ulduzu-

nun parlayacağını, kimisinin isə sönəcəyini düşünəndə, ağlına min cür qara-qura fikirlər gəldi. Əvvəlcə düşündü ki, qarşıdakı döyüşə oğlunu aparmasın. Necə ki, vaxtı ilə onu əyalətə hücum çəkən yadellilərlə döyüşə aparmayıb, qoruyub saxladı. Amma indi deyəsən bu xına o xınadan deyildi. Çünki hökmdar qəti tapşırıq vermişdi. Hər kəs Qara Yuluq Osmanla savaşa səfərbər olunmalı idi. Baş əyan öz qüvvələrini hesablayıb Qara Yuluq Osmanla gedən adamların sayı ilə qabaq-qənşər qoyanda bir təskinlik tapdı. On minlik hərbi qüvvənin qabağında Qara Yuluq Osmanın beş-altı yüz nəfərlik dəstəsi neyləyə bilərdi? Üstəlik fürsət idi, oğlunun döyüşə aparacağı dəstənin özünü arxada ehtiyatda saxlayar, ön savaş yerinə göndərməzdi. Hökmdara sadiq, hökmdarı qoruyacaq qüvvələri elə hökmdarın ətrafında yerləşdirər. Həmin dəstəyə də ən çox etibar elədiyi bir dəstəbaşı kimi oğlunu təyin edər. Əlbəttə, belə bir dəstə artıq var idi. Özünə və oğluna yaxın adamların toplandığı dəstənin sırası az deyildi. Əgər inamla döyüşməli olsaydılar, bu dəstə hökmdarı yaxşı mühafizə eləyərdi. Baş əyan özü uzun illərin hərb təcrübəsinə malik idi. Ən ağır döyüşlərdə həmişə hökmdarın yaxınlığında olurdu. Yeri gələndə lap şücaət də göstərib, Qaziyə sədaqətini sübut etmişdi. Əslində, həmişə onun məqsədi hökmdara sadiqliyini, vəfalı xidmətini göstərmək olmayıb, sadəcə, hökmdarı inandırmağa çalışıb. İstəyib ki, hökmdar ondan qeyri bir kimsənin ona yaxın olduğunu düşünməsin.

Həmişə gözünün qabağında görsün. Və elə baş əyan postuna onu bu yol gətirib çıxarıb. İllərdən bəri arzuladığı mənsəbə yetmək üçün lap yaxınlaşdığını düşünəndə könlü havalanırdı. Elə həmin andaca divanı necə aparacağını, Qazi Bürhanəddinə yaxın adamları dənləyəcəyini, əvvəlcə vəzifələrdən uzaqlaşdıracağını və sonra da bir-bir onlarla necə haqq-hesab kəsəcəyini qərarlaşdırsın. İndi heç kim onun düşüncələrinin qabağını kəsə bilməzdi. Xəyalında artıq o, hakimiyyətin yuxarı pilləsində, di-

vanda, hökmdar taxtında əyləşmişdi. Yavaş-yavaş xəyalında arayıb-axtarırdı ki, kim onun minbir zillət və zəhmətlə, necə atkeçməz yollarla gəlib sahib olduğu hakimiyyətinə ortaq çıxa bilər. Əslində, belə bir qorxunu demək olar, görmürdü. Çünki bəxt üzünə gülməkdə idi. Hökmdar bacısı oğlunu edam etdirmiş, meydanda külli-aləmin gözünün qabağında boynunu vurdurmuşdu. Yaxında olan bir neçə nəfər din xadimindən və hökmdarın böyür-başında hərlənib quyruq bulayanlardan başqa bir kimsədən səs çıxmamışdı. Yəni həmin az qisim hökmdara xoş gəlsin deyə, o tərəf bu tərəfdən «Allahu-əkbər» demiş, sonra bütün camaatın üstündən təsirsiz ötüşən zəif səslə «hökmdarın canı sağ olsun, hakimiyyəti ədəbi olsun», – deyə qışqırmışdılar. Hökmdar da bütün meydan əhlinin özünün əməlinə rəvac verməyən səsləri eşitmədiyindən qəzabnak olmuş, ancaq daha artıq söz deməmişdi. Dodaqaltı nəsə danışmış, bəlkə də adamların arasında hökmdarın əleyhinə qırıldayan kəslərin kimliyini sadalamış, yaxın günlərdə onlarla haqq-hesab çəkiləcəyini demişdi. Girəvə idi, baş əyan gərək tezliklə onun fikrini öyrənsin, hökmdarın ətrafında düşündüyü adların sırasına əngəl törədəcək şəxslərin də bir çoxunu əlavə eləsin. Belədə onun yolu daha hamar olardı. Bəlkə hökmdar elə səhəri gün belə bir divan quracaqdı. Amma Qara Yuluq Osmanın daha fəndgir tərpənib, aradan çıxması vəziyyəti kökündən mürəkkəbləşdirmişdi. Hökmdar planlarını sonraya saxlamışdı. Elə bunun özü də baş əyan üçün pis deyildi. Qara Yuluq Osmanın qüvvələrini on min nəfərlik qoşunla mühasirəyə alar, onların hamısını qılıncdan keçirər, ortalıqda Qara Yuluq Osman tək-tənha qalar. Boğazına kəndir salıb kəməndlə sürüyə-sürüyə Qazinin hüzuruna gətirər. Bəli, Qara Yuluq Osman özü öz fərmanını belə vermişdi. Bu da o demək idi ki, onsuz da bacısı oğlunu edam etdirib, qızı Gülçöhrəni mənən öldürən, hakimiyyətdə tamahı olmayan oğlu Elməddin Əli Çələbini də özündən narazı salan Qazi bütövlükdə baş əyanın

toruna düşmüşdü. İstəsəydi ovcunun içində elə sıxardı, Qazinin bütün suyu süzülər, quruca cecəsi qalardı…

Bu düşüncələr baş əyanı bir qədər sakitləşdirdi. Təzədən yatağına uzandı. Gözünü yummaq istədi, ancaq gözlərinə azacıq yuxu çöküb yatmaq məqamı gəldi, bir də oğlunun dediyi axırıncı sözlər yaddaşında dirilib, onu divana çəkdi. Hərçənd ki, oğlu elə bilirdi, dediyi axırıncı sözləri heç atası eşitməyib. Bəs görəsən oğlu nədən şübhələnirdi? Axı, onun oğlu az-çox hərb meydanlarından keçmişdi. Ehtiyatla da olsa, yayınsa da, güclü mühafizə ilə döyüşlərə girmişdi. Doğrudur, həmin savaşlardan öncə oğlunu mühafizə edən hər bir əsgərə yaxşı müdafiə üçün ənamlar boyun olur, vədinə heç vaxt xilaf çıxmırdı. Oğlu hər dəfə belə sınaq döyüşlərindən sağ-salamat dönəndə tapşırıq verdiyi mühafizləri yanına çağırıb onları mükafatlandırırdı. Hər dəfə döyüşə getməzdən əvvəl mühafizlərə hədə-qorxu da gəlirdi:

– Bax, əgər uşağın başından bir tük əskik olsa, sağ qalmayacaqsan, səni öz əllərimlə cəzalandıracağam.

O, bu sözləri ayrı-ayrı hər kəsə deyir, onların hər birinin qəti razılığını alırdı. Həqiqətən də sonralar müşahidə imkanları zamanı görürdü ki, mühafizlər onun oğlunu göz-bəbəyi kimi qoruyur, ona yönələn hər bir zərbəni fədakarlıqla üzərlərinə götürürlər. Baş əyan belə məsələlərdə səxavətli idi. Hətta oğlunu mühafizə edən hər kəs yaralanırdısa, ya həlak olurdusa, hərbdə şücaət göstərmiş əsgər kimi dərhal diqqət və qayğısı ilə əhatə edilirdi. Onların hər birinə özünün şəxsi köməyindən əlavə, dövlətdən də müavinət ayrılmasına nail olurdu. Baş əyanın düşüncəsinə görə, oğlu qarşıdakı döyüşdən naümid olmamalı idi. Onun mühafizəsi üçün bütün təhlükəsizlik tədbirləri görülmüşdü və artıq bunu övladı bilirdi. Bəs onda nəyə görə oğlu hərzə-hərzə, ümidsiz danışırdı? Çətin ki, Qara Yuluq Osman bu savaşdan sağ-salamat çıxaydı. Amma eyni zamanda Osmanın şəxsi şücaətini göz önünə gətirdikcə, baş əyanın dalağı sancırdı. Bəlkə elə doğrudan da oğlunun qabaq-

cadan ürəyinə damıb, bir əsasla şübhələnir? Bunun üçün gərək Allahın özü möcüzə yarada. On min adamı beş-altı yüz nəfərlik süvari necə qırıb-tökə bilər? Yox, yox, o, övladının qənaətlərilə razılaşa bilmirdi…

Elə bu qarmaqarışıq düşüncələrin içində yuxuya daldı. Heç buna yuxu da demək olmazdı. Uzun illərdən bəri məmləkətdə bircə kimsə qabağına çöp sala bilməmişdi. Onun üçün qurulan tələlərin hamısından ustalıqla keçmişdi. Daha doğrusu, hətta Şeyx Məhyəddin kimi adamların Qazinin özünə güvənərək, onun bəd əməllərini üzünə çırpması baş əyanı sarsıtmamışdı. Yenə son nəticədə ağlagəlməz fəndləri, kələkləri hesabına kimisə nədəsə günahlandırmağı bacarmışdı, suçu üstündən atmışdı. Baş əyan bu qarmaqarışıq, bu ağır fikirlərin arasından çıxıb daha gözəl, rahat günlərini yada salmağa çalışdı.

* * *

Vəzir büzüşmüşdü. Bayaqkı hava da çəkilmiş, göyün yeddinci qatından, sanki hansısa qüvvə birdən-birə buludların arasından onu itələyib yerə salmışdı. İndi canının hayındaydı. Mənsəb də, vəzifə də, illərdən bəri topladığı var-dövlət də – hamısının bir anlığa üfürülüb havaya sovrulmağı himə bənd idi. Qazandığı şəxsi nüfuz da, Qazi Bürhanəddinin yanında fəhmli bir sima kimi tanınmaq bacarığı da əldən gedənlərin siyahısındaydı. Bir anlığa düşündü ki, onsuz da hər şeyi itirir. Qazi Bürhanəddinin tuğilənət olub boğazına bağlanmış bu qohumundan yaxasını qurtarmaq üçün istədi elə indicə, buradaca onu şaqqalatdırsın, iki parça elətdirsin, atsın adamların ayaqlarının altına. Bu hikkəli qadın layiq olduğu cəzanı elə buradaca adamların içindəcə alsın, hər şey çox ədalətli olsun. Amma yox, o belə asanlıqla hörmət-izzəti əldən verəsi adam deyildi. Axı əvvəlcədən də bilirdi ki, hökmdar elə bu qadının vasitəsilə onun özünü əlində girov saxlayır. Hər əməlindən vaxtlı-vaxtında onun diktəsiylə xəbərdar olur.

Hərçənd ki, vəzir işini ehtiyatlı tutub, əməllərinin heç az qismini belə bu qadına bildirmirdi. Hər halda onun üzərində hökmdarın gözü kimi nəzarət olduğunu unutmurdu.

– Lənət şeytana, hər şey keçib gedər. Mən Bərbəzək adını buna havayı verməmişəm axı. Tezliklə daş-qaşlarla onun gözünü qamaşdıraram, qiymətli hədiyyələrlə könlünü alaram. Yenə öz dililə mənə deyər ki, Qazi Bürhanəddinin bütün nəsli-nəcabəti sənin bir tükünə qurban olsun. Onu belə asanlıqla yoluna qaytaracağım halda nə üçün özümü itirməliyəm.

Vəzir özünü toparlamışdı. Artıq düşüncələrində tam ayıq idi. Ancaq yenə hiylə niqabını üzündən götürmədi. Bütün görkəmi ilə Bərbəzək adı ilə çağırdığı xanımının yanında özünü kiçik, gücsüz, köməksiz göstərməyə çalışdı. Həm də elə yazıq sifət aldı ki, arvadı ona tam inansın. Yaxına gəldi. Kövrələ-kövrələ içindən gələn inilti ilə:

– Mənim əzizim, sən sakit ol, bunun hamısı şərabın işidir. Özün bilirsən, mən səni bir kimsə ilə dəyişmərəm – söylədi.

– Bilirəm, bir vaxt mənimlə evlənəndə sən Qazi Bürhanəddinə söz vermisən. İndi görünür verdiyin sözü yaddan çıxarmısan.

Qadın qəzəbli idi, dediklərini cəsarətlə ifadə edirdi.

Vəzir kəkələdi:

– Mən, mən, heç nəyi unut…

Vəzir heç sözünün davamını da gətirmədi, çünki arvadı Bərbəzək xanım yenidən hökmlə dilləndi:

– Bilirsənmi, hökmdar vədinə əməl eləməyənin axırına necə çıxır? – Sual elə bil ki, qınından sıyrılmış qılınc kimi onu doğradı. Başını aşağı salıb, arvadının qabağınca yeridi. Vəzir suyu süzülə-süzülə yeriyən idi, yoxsa yanında hökmlə addımlayan arvadı? Özü də çaş-baş qalmışdı. İndi kimliyini soruşan olsaydı, cavab verə bilməzdi.

Əlbəttə, bu, üzdən belə görünürdü. Və bu görkəmilə artıq demək olar, arvadına qalib gəlmişdi. Bayaqdan bəri dişi yırtıcı ki-

mi caynaqları ilə ətrafı didib dağıtmağa hazır qadın deyəsən, yumşalmışdı. Gücsüzləşmiş, sakitləşmiş, başını aşağı salmışdı. Əslində, Bərbəzək heç istəmirdi ki, iş gəlib bu əndazəyə çıxsın. O bilirdi, ölkənin bütün məmurları, vergi yığanları hökmdara yaxın mənsəb sahiblərinin hamısı belə bir həyat yaşamağa məhkumdur. Onlar üçün əyalətin sakitliyi, hökmdarın canının sağlığı əməllərində onlara rəvac verən birinci şərt idi. Bu eyş-işrət məclisləri, var-dövlət yığmaq iştahları olmasaydı, özləri elə Qazi Bürhanəddini didərdilər. Onların sədaqətləri də, hakimiyyəti qorumaq cəhdləri də özlərinin tamahları, istəkləri üçün idi. Bütün bunlardan Bərbəzək xanım tam xəbərdar olduğundan belə tez peşmanlamışdı. Əgər yaxın gələcəkdə baş əyan olmaq imkanından ərini məhrum eləsəydi, oğlunun, qızının da taleyi şübhə altına düşərdi. Ölkəyə xəyanət eləmiş atanın övladları çətin ki, hökmdarın yanında şan-şöhrət sahibi olsun.

…Hələ onlar eyş-işrət məclisindən tam kənara çıxmamışdılar. Nəinki vəzirin özü, hətta Bərbəzək xanım da camaatın onlara belə vahimə ilə baxdığını hiss eləmirdilər. Onların hər ikisinin düşüncəsində gələcək talelərinin necə olacağı bəlliydi. Öz günahları ucbatından düşdükləri girdabdan necə xilas olmaq barədə düşünə-düşünə bir-birinə yaxınlaşmaq üçün yol axtarırdılar. Qadını qolundan tutub saxlamış mühafizəçilər kənara çəkilmişdilər. Qarşılaşacaqları ağır günün vahiməsi hər ikisini basmış, ağır yük altında saxlamışdı. Qadının dizləri titrəyirdi, vəzir də rəngi qaçmış, soluxmuş görünürdü. Doğrudur, vəzirin görkəmində bir qədər hiyləgərlik pərdəsi olduğunu ola bilsin, kimsə sezirdi. Ancaq o, həmişə bu gözəgörünməz silahından məharətlə istifadə edirdi. Elə indi də həmin silahının köməyilə artıq qalib olmaqda idi. Birdən vəzir qollarını açıb gözlərindən yaş tökə-tökə arvadına tərəf yeridi. Bərbəzək sanki bunu gözləyirmiş kimi mühafizəçilərdən azad olmuş qollarını açıb onu qucaqladı. Hər ikisi elə hamının gözünün qabağında bir-birinə sığındılar. Ki-

min hündürdən, kiminsə astadan ağladığı bilinmirdi. Elə bil uzun həsrətdən, ayrılıqdan sonra tapışmışdılar. Onların indiki görkəmi daha çox ölümün ağzından qurtarmış iki məhkumun təzədən həyat ümidi ilə qovuşmasına bənzəyirdi.

Birinci Bərbəzək dilləndi:

– Lənət olsun şeytana, bunlar hamısı şeytanın işləridir.

– Əlbəttə, əlbəttə, mənim əzizim, – əri dilləndi. O, arvadının nəinki üz-gözündən öpürdü, az qala onun acı göz yaşlarını şərbət kimi içirdi.

Onlar əl-ələ tutub, eyş-işrət məclisindən çıxdılar. Daha rəqqasə də, şərab da vəziri heç düşündürmürdü də. O, ilan ağzından qurtulmuş kimi yeriyirdi. Baş verən əhvalatın Qazi Bürhanəddinə çatıb-çatmayacağı heç eyninə deyildi.

…Baş əyan yerində qurcalanmağında idi. Əlbəttə, indi təsəvvüründə olan bu hadisə onun başına gəlmiş hadisə idi. Və uzun illər ərzində həmişə çalışmışdı ki, bir də belə bir əhvalat təkrarlanmasın. Doğrudur, xoş səfərlər, ov bəhanəsi ilə gəzməklərə çıxanda Qazi Bürhanəddinin izni ilə belə tədbirlər olurdu. Və bunlardan onun arvadı xəbər tutmurdu. Xəbər tutanda isə onu asanlıqla inandırırdı ki, bütün bunların hamısı söz-sovdur. Yatağında o yan-bu yana çevrildikcə, xəyalından bu acı təəssüratları atmaq, qovmaq istəyirdi. Elə bu cür bu qarmaqarışıq düşüncələrin arasında vurnuxan zaman alnında, üzündə bir əl gəzdiyini hiss elədi. Çoxdan idi ki, arvadı ona nəvaziş göstərməyi yaddan çıxarmışdı. Heç özü də bunun marağında deyildi. Arvadına tərəf döndü. Qadın yavaş-yavaş ona lap yaxınlaşmaq istədi. Ərinin yatağında necə büzüşüb soyuq küləklərin qabağındakı sazaqdan tir-tir əsən adam kimi titrədiyini hiss elədi. Sabahkı döyüşün vahiməsi ərini bürümüş, haldan-hala salmışdı. Elə bundan da Bərbəzək xəbərdar idi. İstəyirdi ki, qara qorxunu canından qovub çıxartsın. Onu qucağına çəkdi, möhkəm-möhkəm sıxdı. Hətta üz-gözündən də öpdü. Amma kişi külək qabağındakı payız yarpağı

kimi titrəməyindəydi. Elə beləcə də sakit, səssiz sustaldılar. Kimin nə vaxt yuxuya getməyindən heç birinin xəbəri olmadı.

Baş əyan lap yuxusunda da olsa, iradəsinin gücü ilə özünü hökm sahibi kimi tox tutmaq və sabahkı döyüşdən qalib qayıtmaq inamı ilə yatmaq istəsə də, bu yarıyuxulu canına daha sabahkı döyüşün vahiməsi yox, hələ cavanlığında ikən arvadı ilə qarşılaşdığı acı mənzərə yenə gözlərinin qabağınada canlandı. Yox, bu acı mənzərə deyildi. Bu, şərabdan havalanmış, əlinin üstündə əl olmayan bir cəlladın görkəmi idi. O, kimə istəyirdi hökm eləyirdi, kimi istəyirdi ölümə göndərirdi və hər dəfə bədəndən ayrılan başları gördükcə qəhqəhə çəkirdi. Güldükcə ayaqları havadan ayrılır, göy üzünə qalxır, buludların üstüylə yeriyirdi. Bütün məmləkət ondan aşağıda idi. O yuxarıdan məmləkəti gəzib dolandıqca, öz mülklərinə, dağlardakı fermalardakı qoyun sürülərinə, at ilxılarına baxır bir qədər nəşələnirdi. Hamı onu gördükcə, baxmayaraq ki, çox yuxarıda idi, ona təzim edirdi. Diz çökməyən, başını yerə vurmayan adamlara nifrətlə baxırdı və o saatca onlar da bu münasibətdən vahimələnir, canlarına qor dolur, tez əyilib yerdə torpağı öpürdülər. Birazdan xəzinəsi gözlərinin qabağına gəldi. Qızıllar, daş-qaşlar yığılmış balaca sandıqlar açıldı. Əlini uzadıb həmin qablara doldurulmuş zinət əşyalarını başına səpdi. Sevinc qarışıq dəli bir qəhqəhə onu tutmuşdu. Gülür, gülür, uğunub özündən gedirdi. Amma birdən-birə vəziyyət dəyişdi. Deyəsən, göy guruldadı, şimşək çaxdı. Şimşəyin yandırıcı şüaları onun dörd bir yanından keçdi. Nə var-dövləti, qızılları, daş-qaşları, nə də çoxlu sayda mühafizləri köməyinə gəlmədi. Bərbəzək xanımı da, övladları da hamısı kənardan dayanıb onun bu vəziyyətinə tamaşa edirdilər. Əlini uzadıb, onlardan kömək istəyirdi. Elə bil, heç onu saya alan yox idi. Onun haray salıb çağırdığından da xəbərsizdilər, heç eşitmirdilər. Hə, deyəsən, yadına düşdü, bir vaxt hələ uşaq olanda belə bir yuxu görmüş, vahimələnmişdi. Onda nənəsi ona demişdi ki, cin yığnağına düşmüsən, gərək tez

«Bismillah» deyəydin. İndi o tez-tez «Bismillah», «Allah sən özün kömək ol» deyirdi. Yenə vəziyyət dəyişmirdi ki, dəyişmirdi. Axır, göy gurultusu ötdü, şimşək dayandı. Çoxlu ağ paltarlı adamların hüzurundaydı. Hamısı cavan, gənc. Əllərində heç bir silah-sursat yox idi. Ən qəribəsi oydu, bu ağ paltarlı adamların qız, ya oğlan olmağı bilinmirdi. Deyəsən yaşlı adamı, ortadakını tanıdı. Bu Şeyx Məhyəddinə oxşayırdı. Hə, hə, bu doğrudan da Şeyx Məhyəddin idi. Əli ilə işarə elədi ki, qabağa gəlsin. Onsuz da onun ayaqları yer tutmurdu. Nə illah elədi, addım atsın, gördü heç yerli-dibli ayaqları yoxdu, yeriyə bilmədi. Onda Şeyx Məhyəddin yanında dayanmış ağ donlu mələyə işarə elədi:

– Get onu bura gətir. – Hə, bu cavan mələk düz onun gözünün qabağında dayandı. Başını qaldırıb ona baxdı. Deyəsən, bu cavan mələyi də tanıdı.

– Bu sənsən? Bəs sən…

Daha sözünün davamını gətirə bilmədi. Ya qorxudan, ya təəccübdən dili topuq çaldı, səsi çıxmadı. Niyə belə olmuşdu? Heç özünə aydın deyildi. Halbuki bir az əvvəl o həmin mələyə baxıb «sən Əhmədsənmi?» – soruşmaq istəmişdi. Sonra da bilmək istəmişdi ki, axı ölən adam necə gəlib onun qabağında dayana bilər. Axı onun başı bədənindən ayrılmışdı. Bir baş ki bədəndən ayrılsın, bir də onu gətirib necə birləşdirmək olar?

Baş əyan var gücünü toplayıb gözünün qabağında olanların yuxu, ya da qara-qorxulu bir vahimə olduğunu düşünməyə çalışdı. Özünü ayıltmaq üçün daha nələr eləmirdi. Başına, gözünə döyür, saqqalını dartışdırırdı. Yox, deyəsən, gördükləri yuxu deyil, elə həqiqət idi. Axı belə yuxu olmazdı ki, o, bu qədər başına-gözünə döyür, ondan ayıla bilmir. Şeyx yenə Əhmədə nəsə işarə elədi. Baş əyan ona da təəccüb qalmışdı ki, buradakı adamlar deyəsən, danışmır. Elə bir-birinin əlinin işarəsi ilə nəyi necə eləməyi yaxşı bilirlər. Ömrü boyu o, insanlarla hökmlə danışmışdı. Hər kəsin yerini hökmüylə göstərərdi. Sən demə, elə şəxslər varmış, heç hökm

eləmədən də, qışqırıb-bağırmadan da adamlar onu başa düşərmiş. Sən demə, insan əsəbsiz də, qəzəbsiz də yaşaya bilərmiş. Baş əyan mürgünün içində bu düşündüklərini görə-görə elə bil, ağlı başına gəlirdi. O da özünü bu ağ donlu mələklərin arasında dayanmış Şeyx Məhyəddin kimi müdrik təsəvvür edirdi. Necə olaydı o da Şeyx kimi belə ağıllı olaydı. Onu da belə hörmətlə, izzətlə dinləyə, dediklərinə baş üstə cavabı verəydilər. Eşitdiyi «baş üstə» cavabları qorxudan olmayaydı, səmimiyyətdən olaydı. Allaha yalvarırdı ki, kaş bu bəladan salamat qurtaraydı, o adamların ən yaxşısına çevrilərdi. İstəyirdi, Şeyx Məhyəddinə yalvarsın ki, onu hüzurundan azad eləsin. O da gedib baş əyanlığından əl çəksin, dönüb müdrik və ağıllı bir insan şəklinə düşsün.

Dönüb Şeyxə tərəf baxdı. Görsün ki, Şeyx ona izn verir ki, gedib adam olsun, ya yox? Amma artıq Şeyx Məhyəddin onun hüzurunda olan cavan mələyə, Əhməd donunda mələyə işarə eləmişdi. O da baş əyanın saqqalından tutub o tərəf-bu tərəfə dartdı, sonra murdar cəmdəyini buludların üstündən üzüaşağı tulladı.

Qara-qışqırığa baş əyanın arvadı yuxudan oyandı. Ərinin üzgözünü cırmaqladığını, öz sağ əli ilə saqqalından yapışdığını, o yan-bu yana dartışdırdığını gördü.

– Ya Allah, sən özün kömək ol, – bu kişiyə nə olub belə? – Tez ayağa durub bir dolça su gətirdi. Ərinin üzünə çilədi. Baş əyan özünün hönkürtüsünə səksənib oyandı:

– Necə oldu, hara getdi? – soruşdu.

– Axı burada heç kəs yoxdu, sən kimi soruşursan?

– Əhmədi, məni göydən yerə o atdı.

– A kişi, özünə gəl, Əhməd edam olunmadı?..

– Yox, arvad, elə deyil. Haqq divanında nahaq qanı tökülənlərin hamısı dipdiridir.

* * *

...Şeyx Məhyəddin gecəni yaxşı yatmamışdı. Baş verən hadisələri xəyalında dəfələrlə çək-çevir eləyirdi. Gülçöhrənin ağır sar-

sıntıdan xəstələnməyi, hələ də tam sağalmaması, sevgilisindən əbədi ayrılığı onu bir qədər də sarsıtmış, əlini dünyadan üzmüş bir hala salmışdı. Elməddin Əli Çələbi də bir yerdə böyüdüyü, həmişə canbir qəlbdə olduğu Əhmədin ölümü ilə barışmırdı. Son vaxtlar heç Şeyx Məhyəddinin də yanına gəlib-getmirdi. Bütün bunların hamısını Şeyx pis əlamətlər sırasında görürdü. Hərdən ağlına gəlirdi ki, bu hadisələrdən sonra daha Qazi Bürhanəddinin yanında qalmağın heç bir mənası yoxdu. Çünki o, həmişə ən vacib məsələlərdə Qazi Bürhanəddinə mənəvi dayaq olmuş, kömək eləmişdi. Çalışmışdı ki, hökmdarı həmişə düz yola yönəltsin. Onu bəd əməldən çəkindirsin. Əlbəttə, bunlar da asan başa gəlmirdi. O, hökmdarı çətinliklə inandıra bilirdi. Hərdənbir, son nəticədə hökmdar ona inanır, bəd əməllərdən çəkinir, səhv yoldan dönürdü. O, bu sarayda baş əyanın nə qədər fitnəsinin qabağını almışdı. Bir kənddə, ya əyalətin hər hansı tərəfində baş verən ümumi narazılıq Şeyx Məhyəddinin yaxşı bildiyinə görə bu fitnəkar adamın qarətçiliyinin sayəsində olurdu. Ancaq orası da var idi ki, baş əyan fitnə-fəsadı, fırıldağıyla Qazini yoldan çıxarır, həmin iğtişaşlı qaynar nöqtələrə qoşun yeridirdi.

…Adamların qanını su kimi axıdırdı. Hələ üstəlik iğtişaş olan bölgələri talayır, adamları yerindən-yurdundan didərgin salırdı. Bu zaman ayrı-ayrı ərazilərdən nümayəndələr, ağsaqqallar, müdrik adamlar yeganə çıxış yolunu gəlib, Şeyx Məhyəddinlə məsləhətləşməkdə görürdülər. Şeyx də bacardığı qədər onlara düzgün məsləhət verir, qəzəblərini hökmdardan yayındırırdı. Özü də hökmdarla görüşüb, vəziyyəti anladırdı. Beləliklə, kənd-kəsək yandırılmaqdan xilas olur, nə qədər günahsız insan qətliamdan canını qurtarırdı. Planları düz gəlməyəndə, məsələnin haradan döndüyünü baş əyan yaxşı bilirdi. Elə buna görə o, Şeyx Məhyəddini hər vəclə gözdən salmağa çalışır, onun ayağının altını qazır, bir sözlə, qarşısında yeganə güclü maneə kimi gördüyü təbibi məhv edəcəyi günü səbirsizliklə gözləyirdi. O, hətta

Əhmədi yoldan çıxardanın, ona dil verənin Şeyx Məhyəddin olduğunu da hökmdara demiş, inandıra bilməmişdi.

İndi bütün bunlar artıq keçmişdə qalmışdı. Şeyx Məhyəddin belə bir vəziyyətdə hökmdarın yanından çıxıb getməyi də özünə ar hesab eləyirdi. Hərçənd ki, əgər o, öz xoşu ilə saraydan uzaqlaşsaydı, bunun özündən də baş əyan bir hiylə toru hörə bilərdi, düzdür, bu Şeyx Məhyəddini qorxutmurdu. Onu qorxudan tamam başqa məsələ idi. Hələlik düşüncəsindən keçən, onun ürəyini sıxan bir məsələni birbaşa Qazi Bürhanəddinə də aça bilmirdi. Səbəbi o idi, bu dəfə artıq Qazi Bürhanəddin ona çətin ki, inanaydı. Baş əyan suyu elə bulandırmışdı ki, vəziyyət çox kəskin surətdə və sürətlə dəyişmişdi. Şeyxin qəlbini didən söhbətin mahiyyəti bundan ibarət idi. Qara Yuluq Osman öz tərəfdarlarını yığıb əyalətdən baş götürüb getmişdi. Məlum məsələ idi, o, bir daha dayısının – Qazi Bürhanəddinin yanına qayıtmaq istəməzdi. Təbii ki, Qazi Bürhanəddin bir bacısı oğlunun başını bədənindən ayırandan sonra, ikinci bacısı oğlunun qiyamçı qiyafəsində sağ-salamat yaşamasına qətiyyən yol verə bilməzdi. Ona görə Qara Yuluq Osmanın ayrılıb getdiyini bilən kimi bütün hərbi qüvvələri toplamağı, harada olur-olsun, Qara Yuluq Osmanı haqlayıb, onun qüvvələrini darmadağın etməyi, özünü diri tutub hüzuruna gətirməyi tapşırmışdı. O, Qara Yuluq Osmanın necə cəsarətli sərkərdə olduğuna bələd idi, onu da yaxşı bilirdi ki, Qara Yuluq Osman tərəfdarlarını yığıb getdikdən sonra haradasa sakit bir yerdə yaşayıb ömrünü başa vurmaq niyyətində olmayacaqdı. Üstəlik, müdafiə istehkamları quracaq, gələcək planlar haqda düşünəcəkdi. Bütün bunları Qazi Bürhanəddin nə qədər dərindən bilirdisə, Şeyx Məhyəddin də bir o qədər əhatəli şəkildə anlayırdı. Ancaq yenə Şeyx Məhyəddin çıxış yolu görürdü. Bu çıxış yolunu hökmdara anlatmaq üçün heç olmasa, sonuncu dəfə onunla dərdləşmək, dilləşmək istədi. Əlbəttə, döyüşqabağı hökmdarın başı ordu məsələlərinə qarışdığından savaşa dəxli olmayan əyalət

adamlarını, hətta Şeyx Məhyəddin kimi nüfuzlu şəxsi də qəbul eləmək, onlara vaxt ayırmaq fikrində deyildi.

Şeyx Məhyəddin başa düşürdü, hökmdarla görüşmək çətin olacaq, ancaq nə qədər çətin olsa da, o, inadını yeritmək, heç olmasa, hökmdarı gözləyən təhlükədən çəkindirmək üçün geri durmamağı qərara aldı. O, Qazinin oğlunu yanına çağırdı. Düşünürdü ki, bəlkə heç hökmdarın oğlu onun çağırışına gəlməsə belə, hələlik bu vasitəni daha üstün sayırdı. Elməddin Əli Çələbi gəlsəydi, bəlkə onun hökmdarla görüşü daha asan baş tutardı. Yox, gəlməsəydi belə Şeyx yenə başqa yollar axtarmağında bulunacaqdı. Ayrı-ayrı saray adamlarından Qaziylə ünsiyyətdə olanları görən kimi saxlayıb onlarla danışır, indilikdəki vəziyyətin öyrənmək istəyirdi. Ona artıq məlum idi ki, Qara Yuluq Osman əyalətin mərkəzindən altı ağaclıq aralıdadır – Çinarlı vadi adlanan strateji ərazidə qərar tutub. Görünür, Qara Yuluq Osman uzaqlaşmaq, sərhəddin kənarlarına çəkilmək fikrində deyildi. O, daha bir neçə ağaclıq məsafə qət etsəydi, Amid dərəsinə çatardı. Axı Qara Yuluq Osmanın dədə-baba yurdu oralar idi. Şeyx Məhyəddin başa düşmüşdü ki, Qara Yuluq Osman süvarilərilə yaxşı hərəkət eləmək üçün Çinarlı vadinin üstündəki çəmənliyi əbəs yerə seçməyib. O, burada görünür, müəyyən müddət qalmağı, Qazinin planlarını öyrənib, buna görə hərəkət eləməyi üstün bilmişdi. Əgər Qazi onun arxasınca gəlməli olsaydı, onu bu düzənlikdə qarşılamalı idi. Çünki vadinin içərilərinə ensə, onda əl-qol açmaq imkanı məhdudlaşardı. Atlar çətin keçilən dağ cığırlarında lazım gələn məqamda yerini dəyişə bilməzdi və Qazinin, həm piyada, həm də atlı dəstələrinin mühasirəsinə düşər, bu dağda-daşda tamam tələf olub gedərdi. Qara Yuluq Osman ordunun içində olmuşdu, hansı dəstəyə kimlərin başçılıq etdiyini, kimin hansı cəsarətdə olduğunu, ən ağır zərbəni hansı sərkərdənin başçılığı ilə hansı vuracağını yaxşı bilirdi. Qara Yuluq Osman qarşı tərəfin qüvvəsini çox götür-qoy edib, baş əyanın döyüş mövqeyində ha-

rada ola biləcəyini təxmini yəqinləşdirmişdi. Demək, onun əsas hədəfi Qazi Bürhanəddindən sonra orduya başçılıq edən baş əyan olmalı idi. Şübhəsiz, baş əyan mənafeyi naminə bütün ordunu qırğına versəydi belə yenə də geri durmayacaqdı. Qara Yuluq Osmanı məhv etməyincə addım da geri qoymayacaqdı. Həm də o, Qazi Bürhanəddinə sadiq qüvvələri qabağa verib sıradan çıxarmaq, gələcəkdə Qara Yuluq Osmanın ölümündən sonra Qazinin özünü məhv etmək üçün əsas özününkülərə sahib olacaqdı. Qəribə idi ki, bu mənzərəni necə Qara Yuluq Osman düşünüb təsəvvür eləyə bilirdisə, eləcə də Şeyx Məhyəddin yaxşı dərk eləyirdi, çünki o, görünən döyüş mənzərəsində qarşılaşa biləcək tərəflərin əsas simalarını yaxşı tanıyırdı. Baş əyanın hansı planlar qura biləcəyini, Qara Yuluq Osmanın məqsəd və məramını tam anlayırdı.

Elə bu vaxt Elməddin Əli Çələbi ustadının qarşısında göründü, ona ədəblə təzim elədi. Şeyx Məhyəddin əlini irəli uzatdı, Elməddin Əli Çələbi Şeyxin sağ əlini tutub, dodaqlarına yaxınlaşdırdı, ustadının əlini öpüb ona etimad göstərdikdən sonra dilləndi:

– Bəli, ustad, mən sənin çağırışını eşitmişəm.

– Sağ ol ki, mənim çağırışımı eşidib gəlmisən.

– Gəlməyə bilərdimmi, ustad?

– Əlbəttə, gəlməyə bilərdin, oğul.

– Yox, ustad, mən gəlməliydim, həm də düşündüm ki, bu məqamda məni axtarmağın səbəbsiz ola bilməz.

– Əlbəttə, əlbəttə, bir səbəb var, əbəs deyil səni çağırmağım.

– Buyurun, ustad.

– Oğlum, bilirsən, vəziyyət çox qarışıqdı. – Təkcə məmləkətin yox, elə həm də hökmdarın başının üstündə böyük təhlükə dolaşmaqdadı.

– Demək, döyüşün məğlubiyyətlə nəticələnəcəyi qənaətindəsən?

– Təkcə bu savaşın yox, hər şeyin sonu ola bilər.

– Bəs biz neyləməliyik?

– Sən təcili hökmdarın hüzuruna get və ona de ki, hərbi işlə bağlı məndə sirr var, onu hökmdara çatdırmalıyam.

– Bəs hökmdar məni eşidərmi, ustad?

– Nəinki səni eşidər, hətta məni də qəbul eləyər.

– Daha gec deyilmi?

– Yox, əgər indi hökmdarla görüşə bilsək, gec deyil…

Daha Elməddin Əli Çələbi vaxt itirmədi. Onun gedişindən az keçməmiş mühafizlərdən biri gəlib Şeyx Məhyəddini hökmdarın hüzuruna apardı. Şeyx Məhyəddin içəri girəndə hökmdarı oğlu ilə tək gördü. Başqa heç kim yox idi. Şeyx Qazi Bürhanəddinin təkcə şair yox, həm də bacarıqlı hərbçi olduğunu, hərb işlərindən lazımınca baş çıxardığını anlayırdı, onun sifarişindəki sirr sözünün arxasında nəyin dayandığını hökmdarın başa düşdüyünü bildi. Şeyx Məhyəddin bir qədər arxayınlaşdı, düşündü ki, Qazi Bürhanəddini belə təklikdə inandırmaq asan ola bilərdi. Şeyx bir qədər yaxına gəlib təzim elədi. Qazı da yerindən qalxdı, həmişəki qaydası üzrə Şeyxə hörmət göstərdi, yaxına gəlib onunla əl tutdu. Bir qədər üzbəüz dayanıb bir-birinin gözlərinə nəzər elədilər. Şeyx Qazinin gözlərində bir təlaş gördü, eyni zamanda Qazi də Şeyxin nəzərlərindən onun vacib sözlü adam olduğunu gördü. Şeyxi əlinin işarəsi ilə yaxına çağırdı. Demək, onlar taxtın yaxınlığında üzbəüz əyləşdilər. Birinci Qazi Bürhanəddin dilləndi:
– Yəqin Şeyx gəlib bizim işlərimizə rəvac üçün bizdən xeyir-duasını əsirgəməsin.

Şeyx Qazinin sözlərindən sonra birbaşa etiraza girişmədi. Bunun məsələni qəlizləşdirəcəyini düşündü. Ona görə Qazi Bürhanəddinin sözlərini təsdiq edirmiş kimi başını razılıqla tərpətdi və asta-asta dedi: – Məndən əvvəl Allahın xeyir-duası hökmdarın üstündən əskik olmasın. Allah bizi sevəndir. Ona görə, kəramətini əsirgəmədiyi bir şəxs uzun illərdi, bizim hökmdarımızdı.

– Sağ ol, Şeyx, minnətdaram, – Qazi başı ilə də razılıq elədi.

– Həm də əsas odur ki, hökmdar mənim də xeyirxahımdır. Mən onun başından bir tük də əskik olmağına razı olmaram.

– Şeyx, düşünürəm ki, sən təkcə bunun üçün gəlməmisən. Mənim yolumu, özümü əvvəldən də əziz tutduğunu bilirəm. – Qazi Bürhanəddin istədi ki, Şeyx mətləbə keçsin.

– Həm də mən biləni, sədaqətimə də hökmdar inanmış olar. – Şeyx bu dəfə də bir qədər uzaqdan başladı.

– Bilirəm, bilirəm, Şeyx, sənin sədaqətini də, dünya malında gözünün olmadığını da, həmişə çətin məqamlarda ağıllı məsləhət verməyini də. Bütün bunların hamısını yüksək dəyərləndirirəm…

– Mənim əziz hökmdarım, günəş qüruba doğru əyiləndə, göy üzündə buludlar qol-qanad açar, sanki onlar günəşin gücdən düşdüyünü sanar, ona görə də göy üzünü bürümək, qaranlığını yer üzünə çəkmək üçün yayılar.

– Amma nə olsun, günəş sabah bir də çıxar. Buludlar nə qədər qalın, ya seyrək olur-olsun, nə ağı, nə də qarası günəşin qabağını əbədi kəsə bilməz. Günəş yenə kainatın əbədi hökmranı olaraq qalacaq. – Qazi Bürhanəddin söhbəti qəlizləşdirmək istəmədi, əslində, söhbəti uzatmaq üçün yox, məqsədi tez öyrənmək üçün darıxdı.

Şeyx isə sanki mətləbə yaxın gəlmirdi…

Qazi Bürhanəddin üz-gözünə yumşaq ifadə verdi. Bununla da Şeyxə inanacağını bildirir, məqsədini demək üçün çəkinməməyə şərait yaradırdı. Şeyx də bunu anladığından vaxtı bir qədər də uzatmaqla, Qazi Bürhanəddini elə qabaqcadan bu söz döyüşündə həqiqətə inandırmağa çalışırdı.

– Mənim hökmdarım, ancaq orası var ki, günəş əbədi olsa da, insan oğlunun ömrü əbədi deyil. İnsan övladı nə qədər böyük hökmdar olur-olsun, axır ki, bir gün Tanrı hüzurunda cavab verməli olacaq.

– Mənimi nəzərdə tutursan, Şeyx?

– Səni də, dünyanın bütün hökmdarlarını da nəzərdə tuturam. – Axı sən həm də gözəl şairsən, qalan hökmdarlardan bu üstünlüyün var. Sən axı Tanrının kəramətinə ən yaxın olansan. – Əlbəttə, o, bu sözləri ilə hökmdarı məğlub eləmək, onu susdurmaq inancında deyildi. Şeyx istəyirdi ki, hökmdar onun düşüncələrinin məntiqinə inansın. Başqa sözlə, Şeyxin onu xilas etmək istədiyini düşünsün.

– Bəs Elməddin Əli Çələbi mənə dedi ki, sənin vacib, hərbi sirlə bağlı sözün var. – Hökmdar bunu dedi və bayaqdan bəri sakit-sakit onları dinləyən oğluna tərəf boylandı.

– Məni yaxşı dinlə, hökmdar, – Şeyx sözə başladı. – Səltənətin sahibi, özün yaxşı bilirsən ki, mənim bu dünyadan bir umacağım yoxdu. Həyatımın əzəli ilə axırı arasında elə bir fərq görmürəm. Gəncliyim maddi sıxıntılar, elm-təhsil arxasınca səyahətlər, dünyanın sirrlərini öyrənmək yolunda sonu görünməyən zəhmətdə, zillətdə keçib. Ancaq həmişə mənim qəlbimdə bir işıq yanıb, ümid işığı. Vətənə qayıtmaq, gözü yolda qalanıma qovuşmaq, atamın-anamın ocağını sönməyə qoymamaq… Bu hisslər zaman-zaman məni hərəkətə sövq edib, bütün Şərqi bu duyğuların sədaqətli yoldaşlığı ilə dolanmışam. Axır ki, məni Vətənə çəkən duyğularımın təsiri altında yenə bu yerə, yurda qayıtmalı olmuşam. Qürbətdə olanda zənn edirdim ki, Vətənə çatan kimi həyat mənim üzümə güləcək, – Şeyx bunları dedi və sanki hansısa bir mənəvi ağırlığın altında sözünü kəsib inlədi. Hökmdara da, oğlu Elməddin Əli Çələbiyə də elə gəldi ki, Şeyx kövrəldi və o, deyəsən, elə indicə hönkür-hönkür ağlayacaq.

Qazi Bürhanəddinin də Şeyxin bu təsirli sözlərindən sonra sərtləşmiş vücudu yumşaldı. Deyəsən, ona da bir kövrəklik gəldi. Elə bil ki, bir az əvvəl qan-qan deyən, döyüş hazırlığı görən, qarşıdakı döyüşdə gözlərinin qabağında parçalanan insan bədənlərinə, laxtalanıb gölməçələnən insan qanlarına baxmağa hazır olan özü deyildi. Əlini Şeyxin əlinin üstünə qoydu. Yavaş-ya-

vaş əlinin hərarəti ilə Şeyxi təmkinə çağırdı, sakitliyə səslədi. İndi o, bayaqdan tələsən, Şeyxin məramını tez öyrənməyə cəhd edən səbirsiz, kəmhövsələ, qəzəbini ram edə bilməyən, qərəzdən boğulan hökmdar deyildi. İndi o, həqiqətən insan iztirablarını duyan, insana sözü ilə məlhəm olmağa can atan söz adamı, şair idi.

…Əslində, elə Şeyx Məhyəddin də Qazi Bürhanəddinin yanına o ümidlə gəlmişdi ki, onun şairlik, insansevərlik duyğularını oyada biləcək, onu səhv yoldan döndərəcəkdi. Bura ümidlə təşrif gətirərkən, Şeyxdə inam vardı. İndi hökmdarı da, onun yanındakı özünə övlad qədər əziz bildiyi oğlunun da gözləri qarşısında hər şeyi unutmuşdu. İndi onun aləmində bir Şeyx Məhyəddin aləmi boyaboy baş qaldırmışdı. Vətənin, yurdun nə demək olduğunu hamıdan yaxşı bilən Şeyx Məhyəddin indi təkcə hökmdarın özünün yox, torpağının başının üstünü kəsdirən qorxu-qadanın nə qədər yaxında olduğunu hiss edirdi. Və onu danışdıran bu başıbəlalı yurdu qorumaq istəyi idi. Əgər birbaşa desəydi ki, səni bu fitnələrə çəkən şəxsin özü tamam başqa məqsəd güdür, onun içində elə bir hakimiyyət ehtirası var, bu istəyin təsiri altında dünyanın hamısını qana sürükləyər. Nəinki təkcə Qazinin ölümü, elə onun məqsədi də budur ki, hökmdarı döyüşə çəkib, Qara Yuluq Osmanla qarşı-qarşıya qoysun, birini aradan götürsün, digəri ilə məsələni ayırd eləsin. Amma Şeyx hiss edirdi ki, birbaşa baş əyanın adını çəkmək təzədən Qazi Bürhanəddinin dərisinə od vurmaq olardı. Ona görə bir qədər uzaqdan başlamışdı. Hələ üstəlik, hiyləgər planların daha çox Qara Yuluq Osmanın xeyrinə olacağını da deyə bilmirdi.

Qazi Bürhanəddin də, Elməddin Əli Çələbi də Şeyxin başladığı söhbətin təsiri altındaydılar. Hökmdar sanki ovsunlanmışdı, sehrə düşmüşdü. Hələ nə qədər Şeyx Məhyəddin dinib-danışmasa belə, heç səsini çıxarmayacaqdı.

Elə bil haradansa külək əsdi. Şeyxin üzünə bir sərinlik gəldi. Elə bu sərinliklə də handan-hana ayıldı. Ətrafa göz gəzdirdi. Hər

şey yerli-yerində idi. Bayaq necə görmüşdüsə, eləcə. Qazi də dolmuş gözləri ilə Şeyxi sonsuz hörmət və ehtiramla süzürdü.

Şeyx özü birinci dilləndi:

– Hə, mənim hökmdarım, mən ona görə danışmıram ki, öz dərdlərimin ağırlığını da sizin çiyinlərinizə yığım. Onsuz da məmləkətin dərdi, ağrısı böyükdür. Sizin də içinizdən hansı qara qanların axdığını yaxşı bilirəm. Qızının əhvalı, bacın oğlu Əhmədin faciəli ölümü… bütün bunların hamısı sizin üçün dərddir, baxmayaraq ki, külli-ixtiyar sahibisiniz. Özünüzün də qəlbinizin dərinliklərində mühakimə edən hakiminiz var. İnanıram ki, o hakimin bir çox suallarına cavab verməyə çətinlik çəkirsiniz.

– Doğrudur, Şeyx. Mənim nə çəkdiyimi bir Allah bilir, bir də özüm. – Qazi Şeyxlə razılaşdığını fikirli-fikirli sezdirdi. Bu Şeyxin nitqinə rəvac verməsi üçün əsas məqsəd idi.

– Dünya durduqca adınız var olsun, hökmdar. Məni buradan geri qaytara, dünyanın harasına istəsən, sürgün də edə bilərdiniz. Hökmdarın təbəəsi Allahın ixtiyarında olduğu qədər özünün də ixtiyarındadır. Lap ölümümə fərman verə bilərdiniz. Mənim aləmimin qibləsi, məni dinləməyi daha üstün bildin. Bu, mənim üçün böyük mükafat və şərafətdir.

– Halal xoşun olsun, Şeyx, sən həmişə bu məmləkətə saf niyyətlə xidmət eləmisən. Mən haqqını dana bilmərəm. Bu heç Allaha xoş getməz. Gərək sənin kimi insanların dəyərini hər kəs yaxşı bilsin.

– Var ol, mənim hökmdarım. Baş ağrısı olmasın, sizin himayənizdə ömür sürmək, yaşamaq Allahın nəzərinin üstümüzdə olmağı deməkdir. Ancaq qəlbimdən keçənlərin hamısını sizə demək istəyirəm.

– Buyur, Şeyx, buyur, mən səbirlə səni dinləyirəm.

– Bəli, hökmdarım, mən düşüncələrimin xeyli hissəsini sizinlə bölüşdüm. Ömrümün əzəlinin necə keçdiyini artıq bilirsiniz. İndi də ömrümün qürubuna yol gedirəm. Bəllidir ki, inayətinizdən

bir tikə çörəyimiz, adamlar arasında hörmət-izzətimiz var. Ancaq bu, o demək deyil ki, mən bütün dərdlərimin, ağrı-acılarımın hamısını gəncliyimdə qoyub gəlmişəm. Xeyir, belə deyil. Mən Vətənə qayıdandan sonra doğmalarımın necə pərən-pərən düşdüyünü, yolumu gözləyənin başına hansı bəlaların gəldiyini də gördüm. Mən o vaxt gəlib çatmışdım ki, gözləyənimin son nəfəsi idi. Öz əllərimlə onu torpağa tapşırdım. Görünür, bu da Allahın qismətidir. Uzun illər ərzində həmişə məqam gözləmişəm ki, hökmdara həqiqətləri çatdırım, ona görə yox ki, kimsədən qisas alım. Əsas məqsədim o olub ki, Qazımızın ətrafında hörülən hiylə torlarının zaman keçdikcə necə daraldığını gördüyüm kimi, başa düşdüyüm qədər aça bilim, amma bu, indiyəcən mümkün olmayıb. Burada hiylənin nə üçün, nə məqsədlə qurulmağı gərək sizə aydın olsun. Demirəm, Qara Yuluq Osmanın üstünə getmə. Başa düşürəm ki, geri durmaq, qəsdindən yayınmaq hökmdar üçün çətindir. Əsas da ona görə, bütün məmləkət hökmdarın Qara Yuluq Osmandan qorxduğunu, çəkindiyini danışacaq. Bu, bizim bədxahlarımıza, xarici düşmənlərimizə hava və su kimi gərəkdir. Onda hamısı yer-yerdən üstümüzə ayaq açar.

Deyəsən, Şeyxin söhbətinin bu yerinə Qazi Bürhanəddin xüsusi maraq göstərdi. Çünki o, Qara Yuluq Osmanla savaşdan geri çəkilmək fikrində deyildi. Şeyxin də döyüşə rəvac verdiyini düşünüb, onun nitqindən məmnun qalmışdı. Cavab əvəzinə razılığını bildirmək üçün başını tərpətdi. Şeyx başa düşdü ki, Qazi onun sözünü kəsmək fikrində deyil, ürəyini boşaltmağa imkan var.

– Məsələnin məğzi bundan ibarətdir ki, siz Qara Yuluq Osmanla qarşılacaqsınız. Özünüz yaxşı bilirsiniz ki, ordunun ən yaxşı qüvvələri, hərbi əla bilən dəstəbaşılar Qara Yuluq Osmanla gedib. Onların hər biri kiçik dəstəylə bir orduya qarşı duracaq gücdədir. Elə Qara Yuluq Osmanın özü, o, sizin tərəfinizdə qalan qüvvələrin gücünə, mövqeyinə dərindən bələddir. Hələ onu demirəm ki, sizin tərəfinizdə olan qüvvələrin xeyli qismi Qara

Yuluq Osmana öldürücü zərbə vurmaq istəməyəcək, çünki Qara Yuluq Osmanın həm bizim məmləkətdə – adamlar arasında, həm də orduda böyük hörməti və nüfuzu var. Bütün bunların hamısı o deməkdir ki, baxmayaraq, sizin müsəlləh orduda əsgərlərin sayı-hesabı bilinmir, bəlkə lap on min nəfərlik ordu yığacaqsan, ancaq etiraf edək ki, onların hamısı eyni istəklə Qara Yuluq Osmana qarşı vuruşacaqmı? Bunu bilmək olmaz.

Şeyxin bu sözlərindən sonra Qazi Bürhanəddinin nəfəsi tıncıxdı, elə bil, havası çatmadı. Əli ilə üzünü yellədi, sanki Qazi Bürhanəddin boğuldu. Amma tez də özünə gəldi, əhvalını toparlayıb özünü cəmlədi. Artıq hər tərəfdən üstünə yeriyən vahiməni dağıtdı.

– Bəs təklifin nədir, Şeyx? – soruşdu.

Şeyx başa düşdü ki, indi əsl həqiqəti söyləmək məqamıdır. Buna görə, söz qılıncını bütün ovxarı ilə qınından sıyırdı.

– Mənim hökmdarım, bu döyüşlə sizin ölümünüzə fərman verilib.

– Kim, harada, necə? – Qazi qəzəblə Şeyxin sözünü ağzında qoydu.

– Bütün hiylələrin, çəkişmələrin, şübhəli ölümlərin hamısının başında baş əyan dayanır.

– Axı nə üçün? Mən ona hər cür imkan yaratmışam.

– Bəli, doğrudur, ancaq bu imkanlar ona bəs eləmir. O, gözünü sizin taxtınıza dikib, yaxın gələcəkdə özünü hökmdarın yerində görür…

– İndi nə deyirsən, baş əyanı orduya rəhbərlikdən kənarlaşdıraq?

– Xeyr, bunu istəsən də, edə bilməzsən. Çünki ordu baş əyanın əlindədir, o külli-ixtiyar sahibidir. Qüvvələrin də çox qismi ona tabedir. Əgər baş əyanı ordudan təcrid eləmək istəsəniz, onun arxayın olduğu adamların təhriki ilə ordu qiyama qalxar, bu qiyamın qarşısını almaq üçün sizin bacınız oğu Əhməd kimi, elə Qara

Yuluq Osmanın özü kimi güc sahibi gərəkdir. Bunlar indi yoxdu. Demək, çox ehtiyatlı davranmaq, lap elə Qara Yuluq Osmanın üstünə qoşun çəkmək də olar, amma üzbəüz gəlməmişdən əvvəl, oğlunuzu Qara Yuluq Osmana girov göndərməklə, aradakı itmiş inamı bərpa edə bilərsiniz. Və bütün yürüş ərzində gərək ehtiyatı əldən verməyəsiniz. Dədə-babalarımız təsadüfi deməyib ki, ehtiyatlı igidin anası ağlamaz.

Qazi Bürhanəddin dərin fikrə getmişdi. O, elə düşüncələrə qərq olmuşdu ki, sanki dünyanın axırı idi. Hər halda Şeyxin sözləri Qazi Bürhanəddinin daş ürəyinə indi təsir eləmişdi. Sanki birdən-birə onun gözlərinin qabağına örtülmüş qara pərdə aradan qalxmışdı.

Şeyx dinmirdi. Elməddin Əli Çələbinin səsi çıxmır, baxışları tavanın uzaq küncünə zillənmişdi. O, gənc olsa da, dünyanın gərdişindən baş çıxara bilirdi, çünki neçə illər idi ki, Şeyxdən dərs alırdı, həyat elmi öyrənirdi. Şeyx elə bu zaman gözünü Elməddin Əli Çələbiyə tərəf çevirdi, diqqət elədi. Başa düşdü ki, onun da qəlbindən qara qanlar axır. Həmyaşıdı Əhmədin ölümü, bacısının sarsıntıları, məmləkətdə ən çox güvənc yeri bildiyi Qara Yuluq Osmanın acıq eləyib atasından üz döndərməsi, bütün bunlar onun gələcək həyatı üçün yaxşı heç nə vəd eləmirdi. Bəlkə də o, indi baş verəcək hadisələrin lap yaxın tərəfində təkcə atasının yox, elə özünün də ölümünü görürdü.

– Bəli, hökmdar, Tanrı məni güzgü bilib, sizin hüzurunuza göndərdi. Gərək inanasınız ki, mən təkcə öz istəyimlə yox, elə həm də Allahın iradəsi və istəyi ilə sizin hüzurunuza gəlmişəm. Bir Allah şahiddir ki, mənim can qorxum yoxdur. Onu da yaxşı bilirəm ki, tərəzinin əyilən tərəfi elə birinci mənə ziyan vuracaq. Mən çox istərdim ki, hökmdar baş verəcək hadisələrin necə cərəyan edəcəyinə özü nəzarət eləsin. Qərarları istəyincə versin.

Bu sözlər deyəsən, Qazinin şəstinə toxundu. İndi onun hökmdarlığı yenə şairliyə üstün gəldi. Gözlərində qəzəb alovu oyna-

dı. Elə indicə, bu yerdəcə baş əyanı çağırıb Şeyx Məhyəddinin hüzurunda onu dindirmək və eləcə özünün döyüşçü qüdrətini, cəngavərliyini, vaxtilə necə qılınc oynatmağını yadına salıb, baş əyanın boynunu elə buradaca vurmaq qərarına gəldi. Ancaq Şeyxin dediyi sözlər onu yenə təmkinə səslədi. Çünki Qazi artıq uzun müddətdən bəri orduya nəzarəti itirmişdi. Şeyx doğru buyururdu. Qazi başa düşürdü ki, ordu onun yox, baş əyanın əlindədi. Əgər orduda bir iğtişaş baş versə, qiyam qalxsa, kimsə bu qiyamı yatırda, qarşısını ala bilməz.

Bəli, Qazi Bürhanəddin bütün həqiqətləri aydınlığı ilə dərk edirdi. Hiss eləyirdi ki, fələyin çarxı dönüb, amma başa düşürdü ki, geriyə yol yoxdu. Ya ölüm, ya qalım. Yeganə çıxış yolu – əgər baş tutsaydı, Şeyxin məshələt elədiyi kimi, döyüş meydanında sülh yaratmaq, Qara Yuluq Osmana oğlunu girov verməklə inamı bərpa etmək və elə onun sayəsində bu hiylə torlarını dağıdıb yırtmaq, aradan çıxmaq, həm özünü xilas eləmək, həm də övladını, əhli-əyalını hiyləgər baş əyanın torundan gətirəcəyi bəlalardan qoruya bilərdi.

Şeyx daha bir söz demədi. Getmək üçün izn istədi. Qazi Bürhanəddin əlini qaldırdı, yəni ki, dayan. Və yenə aradan xeyli sükut müdddəti keçdi. Birdən ayağa qalxdı. Şeyx də, Elməddin Əli Çələbi də eyni vaxtda ayağa qalxdılar.

– Şeyx, sən də bizimlə gedəcəksən. Qara Yuluq Osmanla sən özün danışığa gedərsən, Elməddin Əli Çələbini də özünlə apararsan.

Elməddin Əli Çələbi razılıqla baş əydi, Şeyx Məhyəddin də təzim elədi.

Hava tutqun idi. Bilinmirdi ki, yağmur olacaq, ya hava açılacaq? Müxtəlif tərəflərdən gələn buludların toqquşması nə gətirəcək? Hər halda, Qazinin qəlbində ümid işığı yanmışdı.

* * *

Qara Yuluq Osman Lətif bəyi kiçik atlı dəstəsi ilə geriyə – onları təqib edə biləcək ordunun haralarda olduğunu, ümumiyyətlə, Qazi Bürhanəddinin nə qədər qüvvə toplaya bildiyini və bir də əsas qüvvələrin kimlərin başçılığı altında olduğunu öyrənmək üçün yollanmışdı. Axşamdan bir qədər çisələmiş yağış yeri islatmışdı. Aşağılara – vadinin içərilərinə seyrək duman çökmüşdü. Qara Yuluq Osmanın ordugah qurduğu düzənlik tamam açıq idi. Onun zənninə görə, Qazi Bürhanəddinlə elə buradaca qarşılaşmalıydı. Çünki nə vadiyə enmək, nə də Amid ərazilərinin qıraqlarına tərəf çəkilmək istəmirdi. Ola bilərdi ki, Qazi Bürhanəddini Qara Yuluq Osmanı aradan götürmək üçün hətta öz düşmənlərilə də əlaqə yaratmağa təhrik etsinlər. Əlbəttə, bu təhriklər hiyləgərliyi ilə ətraf əyalətlərdə də məşhur olan baş əyanın fırıldağı ilə ola bilərdi.

Qara Yuluq Osman yaxşı başa düşürdü ki, Qaraman bəyliyini hər an boğmağa hazır olan qüvvələr onun Qazi Bürhanəddindən ayrıldığını bilən kimi, bir qədər fəallaşacaqdılar. Qara Yuluq Osman əslində, iki od arasında qalmışdı. Onun xarici qüvvələri Qazi Bürhanəddinə tərəf yönəltməsi üçün xeyli vaxt tələb olunurdu. Danışıqlar aparılan nümayəndələr gediş-gəlişlər, bir sözlə, baş vermiş hadisələrin mahiyyəti tamam aydınlaşana qədər Qazi Bürhanəddin ona çatıb yaxalayacaqdı. Ancaq Qazinin özünün yox, bilavasitə baş əyanın təşəbbüsü ilə qonşu əyalətlərlə belə danışıqların aparıldığından Qara Yuluq Osman çoxdan şübhələnirdi. İndiki vəziyyətdə isə bu şübhələrin tamam gerçək olduğuna onda möhkəm inam yaranmışdı.

Bir sözlə, bütün çək-çevirlərdən sonra Qara Yuluq Osmanın qarşısında iki aydın yol görünürdü; ya gərək altı yüz nəfərlik dəstəni kifayət qədər azaltmaqla, yalnız könüllülərdən və özünə yaxın olan igid süvarilərdən az qismini özü ilə götürüb hansısa bitərəf əyalətə çəkilmək, gələcəkdə imkan düşəcəksə, qüvvə toplaya biləcəksə, qayıdıb Qazi ilə hesablaşmaq, ya da altı yüz

nəfərlik dəstə ilə Qazinin toplaya biləcəyi on min nəfərlik ordunun qarşısına çıxmaq, ölüm-dirim savaşına girmək!..

Qara Yuluq Osman hər iki yolu dəfələrlə çək-çevir elədi. Hər iki yolun üstün və zəif tərəflərini özü üçün aydınlatmağa çalışdı. Onun kiçik bir dəstə ilə harayasa baş götürüb getməsi, naməlum gələcəyə ümid bağlaması, son nəticədə ona çox əhəmiyyətsiz göründü. Kimlərdənsə qüvvə ala biləcəyi, indiki müsəlləh gücdə döyüşkən ordu yarada biləcəyi, çox müşkül görünürdü. Hər halda, indiki ordunun özü sayca az olsa da, hərbi döyüş təcrübəsi keçmiş, birbaşa Qara Yuluq Osmanın özünün rəhbərliyi altında aldığı təlimləri ayrı-ayrı döyüşlərdə tamam sınaqdan çıxarmışdı.

Birdən elə bil, Qara Yuluq Osmanın alnına gün doğdu. Onun üzü işıqlandı. Daxili bir inam və təpərlə ayağa qalxıb, yanında onu dinləməyə hazır olan ayrı-ayrı yüz nəfərlik dəstələrə başçılıq etməli olan Rəhim bəy Köylünü, Zaman Ağanı, İlyas Ağanı süzdü. Azadxahın da tutqun baxışlarının açıldığını sezdi. Əmir Əsgər onun sağ tərəfində durmuşdu. Dönüb ona da baxdı. Hiss elədi ki, ən ağır döyüşlərdən qələbə ilə çıxmış bu silahdaşları da onun xoş və ruhlu görkəmindən sanki dirçəlmişdilər. Uzun illərin yaxın, doğma ünsiyyətli münasibəti onların arasında sözə ehtiyacı olmayan bir anlaşma yaratmışdı. Yaşca hamıdan böyük olan İlyas Ağaya tərəf üzünü tutdu.

– Bu barədə Ağanın fikri nədir? – soruşdu. Ancaq məqsədini demədi. Artıq ona gün kimi aydın idi ki, bu adamlar onu sözsüz, danışıqsız da olsa, başa düşürlər.

– Mənim fikrim qətidir. Biz Qazi Bürhanəddinlə – əslində, Qazi Bürhanəddinlə ordunu bizim üstümüzə təhrik edən baş əyanla elə buradaca qarşılaşmalıyıq.

– Düşünürəm ki, İlyas Ağa düz buyurur. Çünki indiki halda hələ kifayət qədər hazırlıqlı, gücdən düşməmiş dəstələrimiz lap on min nəfərlik bir ordu ilə də qarşılaşmaq gücündədir. Vaxtın uzanmağı bizə sərf eləməz – bunu da Rəhim bəy Köylü dedi.

Əmir Əsgər dönüb Qara Yuluq Osmanla üzbəüz dayandı. Bu vaxt Azadxah da onun yanına gəlib gözlərini düz Qara Yuluq Osmanın gözlərinin içinə zillədi. Bəlkə də birinci Əmir Əsgər danışacaqdı. Ancaq Azadxah əlilə böyük düzəngahı göstərib, sözə birinci başladı:

– Bu böyük düzdə vuruşmaq Qara Yuluq Osmanın qismətidir. Mən bu düzdə bizim qələbəmizi görürəm. – Azadxah bir qədər tələsə-tələsə danışsa da, sözünün davamını gətirməyib əlini alnının üstünə qoydu. Dörd tərəfi diqqətlə süzdü və sonra əlavə elədi. – Bax, görürsənmi, bu düzdə kimsənin hiylə işlətmək imkanı olmacayaq. Açıq-aşkar güclərin savaşı baş tutacaq. Allah haqq tərəfindədir. Daha biz nədən qorxub-çəkinməliyik? Hələ bir başqa məsələ də var.

– O nə məsələdir elə? – Qara Yuluq Osman soruşdu.

– O məsələdir ki, açıq savaşda ordunun xeyli hissəsi bizə gücünü göstərmək istəməyəcək. Bu da bizim xeyrimizədir. Gücümüzü bizə qarşı döyüşməyən tərəflərə yox, döyüşən tərəflərə yönəltmək imkanımız olacaq. Bir də ki, hələlik vaxt bizim tərəfimizdədir. Gücümüz, əzmimiz yetərincədir. Gərək vaxtı fövtə verməyək.

– Doğru deyir. Mən Azadxahın da, İlyas Ağanın da fikirlərilə razıyam. Sonra dönüb Rəhim bəy Köylünün üzünə baxdı. – Düşünürəm ki, o da bizimlə həmrəy olar. Ötən hər gün gücümüzün üstünə güc gətirməyəcək.

Elə bu vaxt böyük düzənliyin Qaraman bəyliyi istiqamətində kiçik atlı dəstəsi göründü. Bu, Lətif bəyin özü və adamları idi. Az keçmədən gəlib çatdılar. Lətif bəy atdan enib birbaşa Qara Yuluq Osmanın hüzuruna gəldi. Təzim eləyib Qara Yuluq Osmanın qarşısında dayandı:

– Deyəsən, elə vaxtında gəlmişəm, – dedi.

– Hə, deyə bilərsənmi, vəziyyət necədi? – Qara Yuluq Osman soruşdu.

– Vəziyyət düşündüyümüz kimi pis deyil.

Axı, Lətif bəy dünəndən getmişdi. Qara Yuluq Osmanın artıq hansı qərara gəldiyini də dəqiqliyi ilə bilmirdi. Ona görə dünən-ki aydın olmayan düşüncələrin təsiri altında idi. İndi görürdü ki, bu ölüm, qan savaşlarından çıxmış sərkərdələr yüksək əh-val-ruhiyyədədirlər. Bu ovqatı görmək təkcə Lətif bəyə xoş tə-sir bağışlamadı. Həm də əhvalında müsbət dəyişiklik yaratdı. Döyüş dostlarını görən cavan sərkərdə sanki baş verəcək hadi-sələri gözlərinin qabağına gətirdi. İndi həmin olaylara baxıb dü-şündüklərini danışacaqdı:

– Əvvəla, onu deyim ki, döyüş üçün bu düzü seçmək Qara Yu-luq Osmanın qələbəsinin başlanğıcıdır. Mən bu döyüşdə qarşılaşa-caq tərəflərin nə edə biləcəyini, bütün imkanları görürəm. Onu da deyim ki, baş əyanın təhrikilə on min nəfərlik bir ordu cəmlənib. Gərək ordunun sayı bizi qorxutmasın. Çünki qüvvələrin böyük qismi təlim görməmiş qeyri-peşəkar adamlardır. Onlar əsasən or-duya yarızor-yarıxoş cəlb olunublar. Bizimlə ölüm-dirim savaşına çıxacağına inanmağım gəlmir. Bir də ki, onlar bu gün günorta bu düzə yetişəcəklər. Hələ, xeyli yol gəliblər. Şübhəsiz ki, yorğunluq onların güclərinin tükənməsinə səbəb olub. Özü də onu deyim ki, öyrəndiyimə görə Şeyx Məhyəddinin təhrikilə Qazi Bürhanəddin sülh danışığına girmək istəyəcək.

– Sən buna inanırsanmı? – Qara Yuluq Osman Lətif bəydən soruşdu.

– Təəssüf ki, inanmıram. Əgər Qazinin özünə qalsaydı, o bi-zimlə savaşmazdı. Sadəcə, qoşunu bura gətirməklə, öz gücünü göstərmək, Qara Yuluq Osmana sığınacaq verməli olan qonşu əyalətlərə bununla demək istəyir ki, mən öz ordumla hər kəsə qarşı döyüşə bilərəm. Qoy heç kim Qara Yuluq Osmana sığına-caq verməsin. Bir daha deyirəm ki, Qazi Bürhanəddinin özünə qalsaydı, o, elə bu düzənlikdə də ümumi razılığa gəlib, geriyə çəkilərdi. Çünki öyrəndiyim məlumata görə Şeyx Məhyəddin Qazi Bürhanəddinin oğlu ilə, Qara Yuluq Osmanla burada danışıq

aparmalı olacaq. Bax, iş də burada qəlizləşir. Onu da öyrənmişəm ki, baş əyanın məqsədi ordunu buraya gətirmək, Qara Yuluq Osmanın qüvvələrini buradaca mühasirəyə almaq və onları sonuncu nəfərinədək qırmaqdır.

– Qıra biləcəkmi? – Əmir Əsgər hirslə soruşdu.

– Yox, buna inanmıram. Yenə Lətif bəy təmkinin pozmadı. Asta-asta davam elədi: Baş əyan özünə yaxın olan adamlara tapşırıb ki, Qazi Bürhanəddin Qara Yuluq Osmanla danışığın – sülh barışığının olması üçün elçi göndərəcək, əgər biz razılaşsaq, əsas danışıqlara Şeyx Məhyəddin və Qazinin oğlu gələcək. İş də burasındadır ki, baş əyanın tapşırığına əsasən ona yaxın olan adamlar hələ danışıqlara başlamamış ayrı-ayrı tərəflərdən bizə hücum edəcəklər. Beləliklə, baş əyan guya bizim danışıqlara razı olmadığımızı, birbaşa döyüşə başladığımızı Qazi Bürhanəddinə bildirəcək.

– Aha, demək, məsələ bizim üçün tamam aydınlaşır, – Qara Yuluq Osman təzədən bir qədər tutulmuş kimi oldu, başını aşağı salıb bir qədər fikrə getdi. Sonra isə:

– Bütün bunlar hamısıdırmı? – Heç başını qaldırmadan yenə sorğu elədi.

– Yox, bunlar hələ hamısı deyil. Qazi Bürhanəddin Qara Yuluq Osmanı döyüş olacağı təqdirdə diri tutmaq əmri verib. Bu da bizim üstünlüyümüzdür.

– Aha, demək, o istəyir ki, Qara Yuluq Osman xalq qarşısında cəzalandırılsın. Bütün adamları inandırsınlar ki, Qara Yuluq Osman məmləkətə xəyanət eləyib, xəyanətin isə bircə cəzası var – ölüm. Əlbəttə, bu da baş əyanın qurduğu tələlərdən biridir.

Qara Yuluq Osman: – Zənnimcə, hər şey aydın oldu, – dedi.

Əmir Əsgər və qalan dəstəbaşılar da anladılar ki, artıq məşvərət qurtarıb. Əgər Lətif bəyin öyrəndikləri doğrudursa, bir azdan sonra bu böyük düzəngah qanlı savaş meydanı olacaq, yer qanla suvarılacaq.

Qara Yuluq Osman qılıncını çıxarıb düzün o başına – Qazi Bürhanəddinin qüvvələrinin gələcəyi tərəfə tutdu: – Bizim yolumuz haqq yoludur. Biz həm özümüzü qorumalı, canımızı qəddardan, qaniçəndən hifz eləməli, həm də qoçaq, igid Əhmədin nahaq tökülən qanının qisasını almalıyıq.

Elə bil bir himə bənd imiş. Həmin andaca Qara Yuluq Osmanın sol tərəfində dayanmış Azadxah da qılıncı çəkdi. Onun yarımçallaşmış saqqalının sanki hər tükündən qəzəb qanının damcıları süzülürdü. Bununla da az qala yarı yaşına yetməkdə olan bu döyüşçü hələ də hər an savaşa hazır olduğunu bildirirdi. Eləcə də Əmir Əsgər, Lətif bəy, İlyas Ağa və Rəhim bəy Köylü də onun kimi qılıncları sıyırıb, müsəlləh dayandılar.

Birdən Qara Yuluq Osman azman bir görkəm aldı. Qəflətən bağrından qopan hayqırtıdan yer-göy lərzəyə gəldi:

– Hamı ayağa, hər kəs öz yerinə! – Elə təkcə bu sözə bənd imiş kimi bütün ordugaha səs yayıldı. Qara Yuluq Osmanın səsini eşidən adamlar, verilən əmri özündən geridəki tərəflərə ötürdü. Artıq onlar yaxşı bilirdilər ki, elə indiki məqamlarda Qazi Bürhanəddinin ordusu düzün – Qaraman bəyliyinin tərəfində görünəcək. Hər ehtimala qarşı, əgər Qazi Bürhanəddin oxçuların gücündən istifadə edəcəkdisə, buna hazır olmaq lazım idi.

Qara Yuluq Osman bilirdi ki, orduda hər kəsin zirehli paltarı və qalxanı var. Amma Lətif bəyin mülahizələrinə görə arada sülh danışığı məsələsi olduğu üçün oxatanların gücündən istifadə olunmayacaqdı. Qara Yuluq Osman altı nəfər dəstəbaşının rəhbərliyi ilə altı yüz nəfərlik süvari dəstələri aypara şəklində düzdü. Mərkəzdə özü yeriyəcəkdi. Bir tərəfində Əmir Əsgər, Rəhim bəy Köylü və Lətif bəy. Digər tərəfdə elə də çox danışığa meyli olmayan, həmişə də danışdırmaq istəyəndə; «Döyüşçünün işi hərbdir, danışıq yox», – deyən Zaman Ağa, Azadxah və İlyas Ağa olacaqdı. Ayparanın uclarında bir tərəfdə Əmir Əsgər, digərində Azadxah dayanacaqdı. Qara Yuluq Osmanın düşüncəsinə görə,

baş əyanın qüvvələri mərkəzə doğru hərəkətdən qorxacaqdılar. Çünki mühasirəyə düşmək qorxusu olacaqdı. Amma döyüş vaxtı vəziyyətdən asılı olaraq aypara tərsinə də çevrilə bilərdi. Qara Yuluq Osmanın başçılıq etdiyi seçmə qüvvələr düz mərkəzdən irəliyə doğru şığıyacaqdı.

Qara Yuluq Osman ordugaha tərəf silahdaşları ilə yeridikcə, bunları izah eləyir, hələ üstəlik, vəziyyətin hər an dəyişə biləcəyini, onların da bu dəyişə biləcək vəziyyətə müvafiq cavabları olmalı idi.

Dəstəbaşılar atlarına süvar oldular. Hər kəs öz dəstəsinin önündə dayandı.

Qara Yuluq Osman ağ köhlənin belində idi. Əvvəlcə cərgə-cərgə düzülmüş dəstələrin önündən çapıb keçdi. Sonra qayıdıb düz mərkəzdə dayandı. Üzünü ağır döyüşlərdən qalibiyyətlə çıxmış, ölümdən, qandan çəkinmək qorxusu olmayan süvarilərinə tutdu:

– Biz bu gün ya tarixdən birdəfəlik silinib gedəcəyik, ya da əbədi var olacağıq!

Bütün ordu bir ağızdan cavab verdi:

– Var olacağıq!

– Var olacağıq!

– Var olacağıq!

– Var olacağıq!..

* * *

Qara Yuluq Osman ümumi dəstənin qabağında – altı yüz nəfərlik suvarilərin önündə hələ, bəlkə, çox danışacaqdı. Ola bilsin ki, onu yaxşı tanıyan, şücaətini, igidliyini hələ bəlkə, kimliyini də axıracan daha yaxşı bilən bu insanların qabağında çoxlu sözlər deyəcəkdi. Deyəcəyi sözlərlə onları inandırmağa çalışacaqdı ki, əməllərində də, inadında da, seçdiyi yolda da düzdür. Ancaq insanların belə böyük ruh yüksəkliyi və inamla cavabları onu daha

başqa sözləri – daha dərin mənaları çözməkdən saxladı. Bir anlığa dayandı. Cərgəylə, ləyaqətlə, cəsarətlə öz atlarına süvar olub döyüşə hazır vəziyyətdə dayanmış bu insanların ruh yüksəkliyi, ən başlıcası, onların özlərinə belə inamları, sədaqət göstərmələri Qara Yuluq Osmanı məəttəl qoymuşdu. Qəribə idi ki, ən çıxılmaz vəziyyətdə də inamını, gücünü qoruyan Qara Yuluq Osman indi az qala kövrəlmişdi. Doğrudan-doğruya ona güvənib, yolunda ölümə getməyə hazır olan bu adamların sədaqətinin önündə dayanıb onlara layiq olduqları ən dəyərli sözləri tapıb demək çətin idi. Fərəhindən yerə-göyə sığmayan Qara Yuluq Osman bu məqamda ürəkdən gələn bir hönkürtüylə ağlamaq istəyirdi. Əslində, onun ağlamağının səbəbi tamam başqa idi. O, bütün gücünü, qüdrətini sərf eləyib Qaraman bəyliyini möhtəşəm dövlətə çevirən, qonşu əyalətlərin gözü qabağında toxunulmaz məmləkət kimi tanıdan Qazi Bürhanəddinin təhlükəsizliyinə, işlərinə rəvac verməyə yönəltmişdi.

Amma əvəzində çiyin-çiyinə verib, bir-birinə güvənərək, ölkənin taleyi üçün cani-dildən vuruşan əzizini – xalası oğlu Əhmədi itirmişdi. O, yaxşı bilirdi ki, Əhməd xəyanətkar deyildi. Onun ən böyük günahı sevgisiydi. O, dayısı qızı Gülçöhrəni ona görə sevməmişdi ki, əvəzində doğma dayısının ölüm mükafatı ilə üzləşsin.

Əslində, əgər qohumluq baş tutsaydı, ölkə Əhmədin sayəsində daha güclü olacaqdı. Heç şübhəsiz, Qazi Bürhanəddinə də, onun kürəkəni Əhmədə də, oğlu Elməddin Əli Çələbiyə də Qara Yuluq Osman şimşək xislətli bir qılınc kimi həmişə lazım olacaqdı. Lakin tale Qara Yuluq Osmana bu yolla getməyə imkan vermədi. İntriqalar, münaqişələr, hiyləgərlik Qazi Bürhanəddini yolundan sapdırdı. Dəhşət orasında idi ki, hələ üstəlik, Əhməd Vətən xaini kimi məmləkətə, saraya xilaf çıxmış bir cani kimi edam olundu. Bunun da kökünü Qara Yuluq Osman Qazi Bürhanəddinin hakimiyyət hərisliyindən daha çox baş əyanın hiyləgərliyində

görürdü. Axı həqiqətən baş əyan Qazini inandıra bilmişdi ki, əgər Əhməd onun qızını alsa, oğlunun hakimiyyətdən əli çıxacaq. Bu da Qazidə dəhşətli qəzəb yaratmış və onun bəsirət gözünü kor eləmişdi. İndi əsas mətləb gəlib o yerə çatmışdı, baş əyan özünün qurduğu hiylə torlarının necə sıxlaşdığına, bir sözlə, öz məqsədinə necə yaxınlaşdığına baxıb mənmunluq duyurdu. Deməк, Qara Yuluq Osman torun axırıncı həlqəsi idi. Əgər bu gün döyüşdə Qara Yuluq Osman məğlub olsaydı, yaxud Şeyx Məhyəddinin planları baş tutmasaydı, hər şey alt-üst olacaqdı. Yəni bugünkü döyüşdə sarsılan, hətta qalib gəlsə belə bütün qüvvələrini itirən Qazi Bürhanəddinə baş əyan asanlıqla qalib gələcəkdi. Onu bəlkə də heç Diyarbəkirin özünəcən qayıtmağına imkan verməyəcəkdi. Hansı səbəbdənsə, elə Qazi yarı yolda canını tapşıracaqdı. Və bütün ölkə, məmləkət külli-ixtiyar sahibi olacaq baş əyanın əlinə keçəcəkdi. Qara Yuluq Osmanı dəhşətə gətirən elə bu idi.

İndi o, bu məsələlərin qabağında müsəlləh dayanmış süvarilərinə nəsə aydınlatmaq istəsə də, söz tapa bilmirdi. Çünki görürdü ki, insanlar ona nə qədər böyük inam göstərirlər. Qara Yuluq Osman danışmasa da, danışsa da, dəxli yoxdur, altı yüz nəfərlik süvari dəstəsi onu sözsüz də başa düşür, gözüyumulu ardınca getməyə hazır idi. Həm də artıq Qara Yuluq Osmanın tərəfdarları anlayırdı ki, bu gün onların təkcə özləri üçün yox, nəsilləri üçün də əhəmiyyətli bir gündür. Qalib gəlməklə, təkcə Qara Yuluq Osmanı yox, həm də gələcək nəsillərini hifz etmiş, qorumuş olacaqdılar.

…On min nəfərlik – əsasən atlı süvari dəstələr və bəlkə də atlılardan çox piyadalar uzaq üfüqdən bulud kimi görünür. Qoşun ağır-ağır yeriyirdi. Qazi Bürhanəddin ordunun mərkəzində idi, at üstündə. Qətiyyən atını tələsdirmirdi. Asta-asta irəliləyən yorğa köhlən ətrafındakılardan qabağa keçmirdi. Yəqin heç bunu Qazi Bürhanəddinin özü də istəmirdi. Hər halda, qarşıdakı dö-

yüşün nə ilə nəticələcəyi onun üçün dumanlı və bəlkə də daha çox müəmmalı idi. Çünki o, Şeyx Məhyəddinə söz vermişdi ki, ordular hərb üçün qabaq-qabağa dayananda ağ bayraqla elçiləri Qara Yuluq Osmanın hüzuruna göndərəcəkdi.

Qazi Bürhanəddin irəliyə diqqətlə baxırdı. Artıq Qara Yuluq Osmanın süvari dəstələri onun lap gözünün qabağında idi. Künclər sivri ox kimi irəlidə, mərkəz isə bir qədər geridə. Qazi Bürhanəddin özü kifayət qədər yetkin hərbçiydi. Çoxlu döyüşlər görmüşdü. Özü də yaxşıca anlayırdı ki, bu düzülüşlə Qara Yuluq Osman nə demək istəyir. Əslində, bir qədər hazırlığı olan hər hansı hərbçi üçün bu ordu düzümü o demək idi ki, qarşı tərəf ən kəskin döyüşə belə hazırdır.

Qazi Bürhanəddinin Qara Yuluq Osmanın qətiyyətinə, döyüşə inamla girəcəyinə heç əvvəldən şübhəsi yox idi. Amma indi onun belə xüsusi bir dəbdə döyüş hazırlığı görməsi bir hərbçi kimi onda xüsusi rəğbət oyatdı. Bəli, Qara Yuluq Osman qətiyyən Qazi Bürhanəddinin rəhm edəcəyinə, sülh danışığına gedəcəyinə, onunla hər hansı saziş bağlayacağına inamlı deyildi. Özü də əgər bu böyük düzdə dayanmaq, qarşılaşmaq yolu seçmişdisə, demək, Qara Yuluq Osman axıra qədər döyüşməyə hazır idi.

Qabaqda baş əyan gedirdi. Demək olar, Qazi Bürhanəddindən yüz arşınlıq məsafədə. Özünü də çox inamlı tuturdu. Bunu hərdən atını üzü geriyə səyirdib, Qazinin yanına – geriyə gəlməsindən hiss eləmişdi. Hərçənd o, bilirdi ki, Qazi Bürhanəddin əvvəlcə danışıqlar aparmaq istəyəcək. Düzdür, baş əyan heç etiraz eləməmişdi. Amma Qazi hiss eləyirdi ki, baş əyana daha çox hərb lazımdır. O, heç sazişi qəbul eləmək fikrində də deyil. Baş əyanın oğlu onun bərabərində idi. O da öz atının üstündə, böyük süvari axınının içindəydi.

Ordular demək olar ki, yüz arşınlıq məsafədə üz-üzə dayandılar. Qazi Bürhanəddinin göstərişinə əsasən üç nəfər süvari bu arada bərabərinə gəldi. Şeyx Məhyəddin və Qazinin oğlu Elməddin

Əli Çələbi də burada idi. Baş əyan da həmin üç süvari ilə birgə atını lap Qazinin hüzuruna sürdü. Qabaqcadan həmin süvarilərə nə deyəcəkləri, nə danışacaqları anladılmışdı.

Ancaq baş əyan ayrıca təlaş, narahatlıq hissi keçirirdi. Ona görə də çətinliklə də olsa, yaxına gəlib, üzünü hökmdara tutdu:

– Ey məmləkətin şanlı hökmdarı, sizin qara bulud kimi bu düzü almış qoşununuzun qabağında kimsə dayana bilməz. Heç bir qüvvə bu on min nəfərlik ordunu sarsıtmaq gücündə deyil. İzn verin, hücuma başlayaq.

Bayaqdan bəri başını aşağı salıb heç nə deməyən Şeyx Məhyəddin nəzərlərini süvar olduğu atın boynundan yuxarıya qaldırdı. Diqqətlə üfüqə tərəf baxdı. Qabaqda dayanan ordunun hansı gücdə olduğunu sanki bir daha fəhmlə hiss elədi. Elə bil ona qarşıdakı müsəlləh süvarilərin nəzərləri deyirdi: – Biz hər şeyə hazırıq, bəd ayaqda lap elə ölümə də! Düşmən bilsin, məqsədimiz qələbədir!

Şeyx Məhyəddin üzünü Qazi Bürhanəddinə tərəf döndərdi:

– Tələsmək lazım deyil. Əvvəlcədən adamları göndərək, qoy bir cavab gətirsinlər, sonra mən özüm Qara Yuluq Osmanla danışığa gedəcəyəm. Qoy lap məni nizə ilə deşik-deşik eləsinlər, ancaq razı deyiləm ki, eyni məmləkətin insanları bu yerdə, bu düzdə bir-birini sonsuz nifrətlə, qanlarına qəltan eləsinlər.

Qazi Bürhanəddin ağır düşüncələrdən ayrıldı. Bir daha Şeyxi diqqətlə süzdü. Onun necə ağır düşüncələrdən keçərək, danışıdığını başa düşdüyünü elə nəzərləri ilə bildirdi. Sonra baş əyana baxıb onun gözlərindəki kinin, nifrətin, qəzəbin də nəhayətsizliyini hiss etdiyini, anladığını sözsüz, danışıqsız nəzərlərilə özünə anlatdı. Amma bu məqamda hər kəs öz məqsədinin, məramının arxasınca inadla getməkdə idi.

Qazi Bürhanəddin əlini yuxarı qaldırdı. Özü də baş əyan tərəfə – yəni ki, bir qədər dayan! Baş əyan da uşaq deyildi. O, hiyləgərlik elminin qırx qapısının açarını özündə saxlayırdı. Olsa-olsa onun

birindən-ikisindən qeyrilərinin xəbəri olardı. İndi də bir qədər səbrini basmalı oldu. Ancaq işin axırını da gözləməyə səbri çatmırdı. Ona görə, oğluna astaca saqqalının yan tərəfini dartışdırmaqla işarə elədi. Bununla da oğlu bildi ki, hələ axşamdan hazırlanmış iki atlı dəstənin həmləsi ilə Qara Yuluq Osmanın qüvvələrinə yan tərəflərdən hücum etməyin vaxtı çatıb.

Baş əyan biləndə ki, oğlu işarəni başa düşüb, bir qədər arxayın oldu. Sonra diqqət eləyib gördü ki, oğlu ustalıqla atlıların arasından keçib qabağa tərəf irəlilədi. Orada kimlərəsə, nə isə şifahi tapşırdı. Hələ bir qədər də artıq izah elədi. Bu da baş əyanın gözlərindən yayınmadı. Çünki baş əyan istəmirdi ki, ətrafdan kimsə onun qurduğu plandan xəbərdar olsun. O, istəyirdi ki, tapşırıq elə gizlin şəkildə icra olunsun ki, Qazi Bürhanəddin heç nədən şübhələnməsin. Hələ bir düşünsün ki, Qara Yuluq Osman danışıqları pozub, sülhə gəlmək istəmir. Qazi Bürhanəddinin işarəsi ilə üç atlı qabağa çıxdı. Ortadakı döyüşçünün əlində yuxarı qaldırılmış bayraq var idi. Bu üç süvari gözləyirdi ki, Qazi Bürhanəddin işarə eləsin. Və onlar ağ bayrağın təlqin elədiyi hökmlə Qara Yuluq Osmanın hüzuruna getsinlər.

Qazi Bürhanəddin hələ də özünü boğmuş ağır düşüncələrdən xilas ola bilməmişdi. O, bilmirdi, Qara Yuluq Osman onun sülhə çağırış üçün təklifini necə qəbul edəcək. Bəlkə düşünəcək ki, Qazi Bürhanəddin ondan qorxur, ona beyət eləməyə hazırlaşır. Ancaq Qara Yuluq Osman da Lətif bəyin gətirdiyi xəbərlərə əsasən döyüşün olmayacağı təqdirdə hər kəsin təhlükəsiz olaraq bir tərəfə çəkilib getməsinin mümkünlüyünü daha üstün tutardı. Əgər belə olsaydı…

Hələ Qazi işarə eləməmişdi. Ağ bayraq götürmüş üçlük bir qədər dəstədən irəli çıxmışdı. İşarəni gözləməkdə idilər ki, Qara Yuluq Osmanın hüzuruna tərəf çapsınlar. İş o demək idi ki, hadisələr nazik ipdən asılı qalmışdı. Qazi Bürhanəddin işarə elədi. Ağ bayraq qaldırmış süvari üçlüyü Qara Yuluq Osman ordugahı-

nın düz mərkəzinə çapdı. Elə bu vaxt heç həmin süvarilərin Qara Yuluq Osmanın hüzuruna yetib-yetmədiyi bir məqamda təbillər vuruldu, cənglər səsləndi. «Ya Allah» sədaları göyə yüksəldi. İlk əvvəl Qaziyə elə gəldi, göy guruldadı, yer titrədi. Hər halda, onu da gördü ki, Qara Yuluq Osmanın içəri üzü ona tərəf olan ayparası çevrildi. Bu elə sürətlə, elə çevikliklə baş verdi ki, heç Qazinin düşünməyinə vaxt qalmadı. Bir anda heç baş əyan özü də kirpiyini qırpmağa macal tapmadı. Ayparanın dərinlikdə olan içəri üzü bir anda düz Qazi Bürhanəddinin ordusu ilə üz-üzə gəldi. Əslində, iş belə olmuşdu: Ağ bayraq tutan süvariləri görən Qara Yuluq Osman bir qədər gözləməyi tapşırmışdı. Ancaq sağ və sol tərəflərdən hücum edən atlıların dəstələrinin siyirməqılınc yürüşü vəziyyəti dəyişdi. Baş əyanın tələsi baş tutmuşdu. Birdən-birə on min nəfərlik qoşun Qara Yuluq Osmanın altı yüz nəfərlik süvari dəstələrini mühasirəyə almışdı. Nə geriyə, nə sağa, nə sola hərəkət imkanı yox idi.

Qara Yuluq Osman siyirməqılınc düz mərkəzə doğru çapdı. O, heç ətrafına da baxmırdı, bəlkə də heç baxmaq istəmirdi. Heç kimsəni də gözləri axtarmırdı. Amma o, baxmasa da, hiss edirdi ki, sağda Əmir Əsgərin, Lətif bəyin, İlyas Ağanın əsas qüvvələrinin ən güclü döyüşçüləri onun yanındadır. Bu tərəfdə də Rəhim bəy Köylü, Zaman Ağa və Azadxah qətiyyətlə çapırlar. Qara Yuluq Osman düz qarşılaşdığı tərəfin ortasından həmlə elədi. Cəsarətli hücumun qabağında Qazi Bürhanəddinin özünü hifz eləməli olan qüvvələr iki yerə parçalandı. Qara Yuluq Osman ordugahın düz ortasına doğru çapırdı. Baş əyan heç macal tapmadı ki, Qara Yuluq Osmanın atı ilə üz-üzə gəlməmək üçün bir tərəfə çəkilsin. Bir anda Qara Yuluq Osmanın qılıncı baş əyanın qılınc tutan sağ qolunu vurub saldı. Baş əyandan vəhşi bir bağırtı qopdu:

– Evin yıxılsın, Şeyx Məhyəddin!!!

Elə bu vaxt Lətif bəyin nizəsi baş əyanın oğlunun düz sinəsindən keçib, kürəyinin arxasından yarım arşın o tərəfə çıxdı.

Sağ qolu düşmüş baş əyan vahimələnmiş atının cilovundan da yapışa bilmədi. At dəli bir vahiməylə onu üstünə yeriyən insan selinin ayaqları altına atdı. Baş əyan bu zaman oğlunun kürəyindən çıxan nizənin ucundan sızan qanı da gördü…

Qara Yuluq Osman düz Qazi Bürhanəddinlə üzbəüz dayandı. Əlli dörd yaşlı Qazi əlini qılıncına atsa da onu sıyırmağa imkan tapmadı…

Qazi Bürhanəddinin yerə dığırlanmış başı bərəlmiş gözləri ilə hələ atdan yıxılmamış bədənini süzürdü. Qara Yuluq Osman qılıncını yuxarı qaldırdı.

– Var olacağıq! – alqış sədaları bir anda ordunun üstünə sərin meh kimi yayıldı.

Qazi Bürhanəddinin döyüşən qüvvələri hökmdarın ölüm xəbərini bilən kimi qılınclarını saxlayıb, savaşdan imtina elədilər. Qanlı mücadilə başa çatdı.

…Sara Xatun gözləri dolmuş halda söhbətini bitirdi. Uzun Həsən ayağa qalxıb qılıncı sinəsi bərabərinə qaldırdı və anasına təzim elədi…

***Birinci kitabın sonu***

Hüseynbala Mirələmov

İki Şah, İki Sultan

TRİLOGİYA

# SÖĞÜT

*Birinci kitab*

Nəşriyyat redaktoru:
SUĞRA OSMANOVA

Dizayn və tərtibat:
RAUF KƏRİMLİ

Yığılmağa verilmişdir: 20.02.2020. Çapa imzalanmışdır: 25.06.2020.
Ölçü: 60x90 1/32. Çap vərəqi: 29. Sifariş: 121/20. Say: 1000 ədəd.

NURLAR
Nəşriyyat-Poliqrafiya
Mərkəzi

Bakı, Az1122, H.Zərdabi 78
Tel: 4977021 / Faks: 4971295
E-poçtu: office@nurlar.az